# ELÇİN

***Seçilmiş***

***əsərləri*** 10

Redaktor:
**Dilsuz**

**ELÇİN**

E46 **«Seçilmiş əsərləri» (10 cilddə), 10-cu cild.** Bakı, **«ÇİNAR-ÇAP»** nəşriyyatı, 2005, – 476 səh.

E $\frac{4702060200}{122}$

© «ÇİNAR-ÇAP», 2005

# MÜSAHİBƏLƏR



## MƏSULİYYƏT HİSSİ. PRİNSİPİAL VƏ OBYEKTİV

*(«Ulduz»un anketi)*

1. Partiyanın XXIV və XXV qurultayları arasındakı illər ərzində yaranmış əsərlərdən və şəxsi yaradıcılığınızdan danışmalı olsaydınız nələri qeyd etməyi vacib hesab edərdiniz?

2. Son illər respublikamız əmək cəbhəsində yüksək nailiyyətlər qazanmışdır. Azərbaycan zəhmətkeşləri partiyamızın XXV qurultayını açıq alınla qarşılayır. Bir yaradıcı adam kimi sizin qurultaya hədiyyəniz nədən ibarətdir?

Yeni il münasibətilə – yaradıcılıq planlarınız, arzularınız, təklifləriniz?

1. XXIV qurultaydan keçən illər ərzində sovet ədəbiyyatı, eləcə də Azərbaycan ədəbiyyatı bir sıra qiymətli əsərlərlə zənginləşmişdir və indi ədəbiyyatımızı məhz bu dövrdə yaranmış əsərlərsiz – əlbəttə, mən ən yaxşı əsərləri nəzərdə tuturam! – təsəvvür etmək mümkün deyil.

Mənsub olduğu nəslin fərqinə varmadan öz qələm dostlarımın hər hansı bir nailiyyətinə – kiçicik hekayəsinə, bir şerinə, resenziyasına belə ürəkdən sevinmişəm, fəxr etmişəm, bədii məğlubiyyətlər isə məni kədərləndirib, düşündürüb, necə deyərlər, papağımı qabağıma qoyub ədəbiyyatımızın problemləri, vəziyyəti və vəzifələri barədə fikirləşməyə sövq edib; bədiiyyat və ictimaiyyət qarşısında böyük məsuliyyət hissilə, bir fəhlənin alın təri ilə yazılmayan çiy əsərlər, səhifələrindən cəhalət və nadanlıq qoxuyan kitablar, bu cür yazılardakı primitivlik və eləcə də yalançı müasirlik məni də adi bir vətəndaş kimi son dərəcə narahat edib.

Təbii ki, bu cür əsərlər zamanın süzgəcindən keçib qalmayacaq. Nailiyyətlərimiz isə uzunömürlü olacaq, yaşayacaq.

Ötən dövr ərzində ədəbi həyatımızda bir sıra böyük və unudulmaz hadisələr də olub ki, onlardan ikisini xüsusi qeyd etmək istərdim: dahi şairimiz Nəsiminin 600 illiyinə həsr olunmuş bayram təntənələri və Azərbaycanda keçirilən sovet ədəbiyyatı gün-

ləri. Bu iki hadisəni ona görə xüsusi qeyd etmək istərdim ki, burada ədəbiyyatdan, sənətdan daha böyük, daha ətraflı söhbət edildi. Ədəbiyyatın, sənətin layiqli qiyməti verildi. Həqiqi sənətin ölməzliyi özünün daha bir parlaq təsdiqini tapdı.

Şəxsi yaradıcılığımla əlaqədar isə yalnız bunu deyə bilərəm ki, yazı masamın arxasına keçib bomboş ağ vərəqlə üzbəüz dayandığım zaman yuxarıda yazdığım məsuliyyət hissi bir an belə məni tərk etməyib. Nəticəsi nə olub? – bu sualın cavabını, aydın məsələdir, hörmətli oxucular məndən yaxşı bilir. Yəni dediyim budur ki, həmişə öz imkanım daxilində bütün qüvvələrimi səfərbər etməyə, ədəbiyyat naminə, sənət naminə bacarığım nədisə, ondan istifadə etməyə çalışmışam.

2. Mən az-çox yazıb-pozan bir adam kimi, çalışmışam ki, bədii təsərrüfatımızla əlaqədar nəinki məqalə və çıxışlarda, hətta iki nəfərlə söhbət etdikdə belə obyektiv və prinsipial olum.

Əlbəttə, əxlaqi bir keyfiyyət kimi, güzəşt məfhumunda insanpərvərlik, humanizm ünsürləri tapmaq mümkündür. Lakin sənət heç zaman güzəştə getmir. Sənət həmişə təfəkkürün, bədii-estetik qadirliyin ən yüksək mərtəbəsində dayanır, bircə pillə aşağıda belə – artıq sənət yoxdur. Bu mənada sənət amansızdır.

Biz yaxşı bilirik ki, hal-hazırda respublikamızda əliəyriliyə qarşı, rüşvətxorluğa və ümumiyyətlə, ictimai əxlaqdakı hər cürə naqisliklərə qarşı barışmaz mübarizə elan edilmişdir. Biz də bu mübarizədən kənarda qalmamalıyıq. Biz də ədəbiyyatda xaltura və qrafomanlığa qarşı, ideya və bədii cəhətdən aşağı səviyyəli yazılara qarşı daha böyük bir əzmlə, daha artıq bir şövqlə mübarizə aparmalıyıq, çalışmalıyıq ki, yaradıcı ziyalılarımız bu tarixi məqamda alnıaçıq, üzüağ olsun.

Yeni il münasibətilə yaradıcılıq planlarıma gəldikdə, nə deyə bilərəm?

Açığını yazım ki, mənim üçün doğma və əziz olan «Ulduz»un bu sualından birdən-birə diksindim, elə bil, yalnız indi məlum oldu ki, 1975-ci il sona yetir.

Nə tez keçdi bu il?

Bəlkə ötən ilin qısa hesabatını versəm daha yaxşıdır?

1975-ci ildə elədiklərimdən, Bəxtiyar Vahabzadənin məşhur misralarının təsiri ilə deyim ki, həm razıyam, həm də narazıyam.

Bu il mənim «Bir görüşün tarixçəsi» adlı povestim «Azərbaycan» jurnalında çap olundu. Moskvanın «Molodaya qvardiya» nəşriyyatında «Baladadaşın ilk məhəbbəti» adlı hekayələr kitabım çıxdı. Eyniadlı hekayəm əsasında çəkilmiş qısametrajlı bədii film ekranlarda göstərildi. «Ox kimi bıçaq» adlı tammetrajlı bədii filmin ssenarisi C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyası tərəfindən qəbul edildi. «Tənqid və nəsr» adlı monoqrafiyamı işləyib çapa hazırladım. Mərkəzi mətbuatda və respublika mətbuatında bir sıra hekayə, məqalə və publisist yazılarım dərc olundu. Bütün bunlar, əlbəttə, məndə razılıq hissi oyadır. Lakin eyni zamanda bir həqiqət də şübhəsizdir: dövrümüz zəhmət dövrüdür və mənim etdiklərim dəryada bir zərrəcikdir. Daha intensiv, daha məhsuldar işləmək lazımdır. Müasirlərimizə layiq surətdə, yaşadığımız günlərin kosmik sürətinə və bu gün malik olduğumuz mənəvi sərvətin yüksək keyfiyyətinə layiq surətdə işləmək lazımdır.

«Ulduz»un oxucularını Yeni il münasibətilə, əldə etdikləri böyük əmək qələbələri münasibətilə təbrik edirəm.

*1975.*

# ӘDӘBİ TӘNQİDİN SӘVİYYӘSİNİ QALDIRAQ

– Elçin müəllim, bəlkə söhbətimizə tənqidin ümumi vəziyyətindən başlayaq. Bu gün tənqidimizin daxili narahatlığı, məsuliyyət hissi, sizcə, qənaətbəxşdirmi?

– Yox, qənaətbəxş deyildir. Bu səviyyə aşağılığını məhz həmin narahatlığın, mən deyərdim ki, vətəndaş narahatlığının, məsuliyyət hissinin çatışmazlığı yaratmışdır. Müasir ədəbiyyatımız haqqında problem məqalələr, ümumiləşdirici elmi-nəzəri qüvvəyə malik icmallar, demək olar ki, yox dərəcəsindədir. Yazıldıqları dövrün ədəbi həyatında parlaq hadisələrə çevrilmiş «Azərbaycan sovet ədəbiyyatının yaradıcılıq problemləri», «Azərbaycan romanı haqqında» (Mehdi Hüseyn), «Azərbaycan sovet romanı», «Azərbaycan sovet şeri», «Yeni nəsil» (Məmməd Arif), «Şerimiz son beş ildə», «Azərbaycan ədəbi-bədii dilinin bəzi məsələləri haqqında», «Tənqid və ədəbiyyatşünaslığımızın yeni vəzifələri» (Məmməd Cəfər), «Dramaturgiyada yüksək sənətkarlıq uğrunda», «Ədəbi tənqid haqqında» (Cəfər Cəfərov) və s. kimi ədəbi tənqid nümunələri ilə bu gün dövri mətbuatda çox az-az rastlaşırıq.

Əlbəttə, qarşıda iki yol var: ya belə bir vəziyyətlə barışmalı, «olanına şükür» – deyib susmalı, ya da dərindən düşünməli, ciddi nəticələr çıxarmalı, əlimizdən gələni əsirgəməməliyik. Aydındır ki, partiyalı tənqidin prinsipləri, vətəndaşlıq borcu bizi ikinci yola səsləyir.

– Çap olunan tənqidi yazılar göstərir ki, komplimentar tənqid özünə prinsipial tənqiddən daha asan yol açır. Tələbkar tənqidin azlığı barədə nə deyə bilərsiniz?

– Son dövrün tənqidi məqalələrini, resenziyaları nəzərdən keçirsək, bizdə belə bir təsəvvür yarana bilər ki, çap olunan kitablarımızın hamısı, bütün roman və povestlərimiz, poema və dram əsərlərimiz, hekayə və şerlərimiz ən yüksək bədii-estetik tələblərə cavab verən sənət nümunələridir. Lakin biz yaxşı bilirik ki, vəziyyət belə deyil. Yaxşı əsərlərimizlə bərabər, şəksiz bədii nailiyyətlərimizlə yanaşı, zəif əsərlərimiz, hətta qrafoman yazılarımız da az deyil. Biz həqiqəti deməkdən çəkinməməliyik. Yaxşını gör-

mək, əlbəttə, müsbət hadisədir, lakin bu – pisə göz yummaq bahasına olmamalıdır. Bəzən, hətta zəif yazı da təriflənir. Qəzetinizin[1] «Şənbə gülüşü» səhifəsində yaxşı bir rubrika var idi: tənqid və biblioqrafiya əvəzinə tərif və bülbüloqrafiya (hərçənd bu rubrika çoxdan gözə çarpmır).

Belə bir «bülbüloqrafiya»çılıq əsl sənətin, ədəbiyyatın düşmənidir. Bu «bülbüloqrafiya»çılıq bir tərəfdən zəif əsərlərə qarşı mübarizəni nəinki artırmır, əksinə, onların çoxalmasına münbit zəmin yaradır. Digər tərəfdən isə tənqidin özünün elmi-nəzəri səviyyəsini aşağı salır, bayağı təhkiyələr, şit sözlər ciddi mülahizələri üstələyir.

Düzdür, bəzən tənqidi qeydlərlə, iradlarla da rastlaşırıq. Amma çox zaman da ünvanına tənqid söylənən müəllifləri yadımıza salıb tanıya bilmirik. Çünki, adətən, onlar ilk şerlərini, ilk hekayələrini çap etdirən cavanlar olur.

Heç bir nüfuz qarşısında güzəştə getmədən, prinsipiallıqla həqiqəti söyləyərək, ədəbiyyatımızın gələcək inkişafı naminə bir vətəndaş yanğısı ilə «yaxşını» və «pisi» qələmə almaq tənqidimizin borcu, vəzifəsidir.

Ədəbiyyatında antipodları var. Bu antipodlar – xaltura, qrafomançılıq, mövzu arxasında gizlənmək, bədii iqtidarsızlıq və s. kimi cəhətlər ədəbi tənqidin amansız tənqid hədəfinə çevrilməlidir.

– Son vaxtlar yaşlı tənqidçilərimizin kəskin, tələbkar çıxışlarını xatırlamıram. Cavan tənqidçilərimizsə çox azdır. Bu, narahatlıq doğurur. Elə deyilmi?

– Bu gün bizim Məmməd Cəfər, Əkbər Ağayev, Kamal Talıbzadə, Əziz Mirəhmədov və başqa təcrübəli tənqidçilərimiz daha artıq dərəcədə ədəbiyyatşünaslıq problemləri ilə məşğuldurlar. Əlbəttə, bu da lazımlı işdir və biz bu baxımdan tənqiddə itiririksə, ədəbiyyatşünaslıqda qazanırıq. Lakin biz tənqid tariximizə diqqət etdikdə görərik ki, görkəmli tənqidçilərimiz, o cümlədən, yuxarıda adlarını çəkdiyim alimlər eyni vaxtda həm ədəbiyyatşünaslığı, həm də tənqidi paralel şəkildə və müvəffəqiyyətlə inkişaf etdirmişlər. Belə olan tərzdə nə üçün bu gün həmin müəlliflər əsas etibarilə yalnız bir sahədə işləyirlər. Vaxtilə, misal üçün, Kamal Talıbzadə bir tərəfdən «XX əsr Azərbaycan tənqidi»

---

[1] «Ədəbiyyat qəzeti» nəzərdə tutulur.

monoqrafiyasını yazırdısa, digər tərəfdən də müasir ədəbi tənqidi elmi-nəzəri təhlildən keçirirdi, yəni tənqidin tədqiqi ilə bərabər, tənqidin tənqidi ilə də məşğul olurdu. Bəs bu gün?

Nəsil məsələsinə gəldikdə isə mənzərə yenə də qənaətbəxş deyil. Poeziya sahəsində də, nəsr sahəsində də Azərbaycan ədəbiyyatında yeni və istedadlı bir nəsil formalaşmaq üzrədir. Bu nəslin Ramiz Rövşən və Mövlud Süleymanlı, Natiq Rəsulzadə və Baba Vəzirzadə, Vaqif Cəbrayılzadə və başqa istedadlı nümayəndələri vardır. Bu cavan müəlliflərin əsərləri bütün məziyyət və çatışmamazlıqları ilə bir yerdə, bir küll halında şerimizin, nəsrimizin sabahı barədə nikbin fikirlər yaradır. Lakin tənqiddə belə bir nəsil yoxdur. Bəlkə də ayrı-ayrı potensial imkanlı cavan tapmaq mümkündü, lakin nəsil yoxdur. Bu, son dərəcə ciddi və dərindən düşünüləsi, əməli tədbirlər tələb edən bir işdi.

– Mərkəzi mətbuatda da az çıxış edirik...

– Düzdür. Aktual ədəbi-bədii problemlər ətrafında mərkəzi mətbuat səhifələrindən çıxış edən müəlliflərimiz çox azdır. Halbuki bu, mühüm əhəmiyyətə malik və ədəbiyyatımızın təbliği, nüfuzunun artması üçün lazımlı bir işdir. Görünür, biz çox zaman müasir Azərbaycan ədəbiyyatını ümumi sovet ədəbi prosesindən təcrid edilmiş, ümumi kontekstdən çıxarılmış şəkildə öyrənirik və bu bizi özümüzə qapılmağa gətirib çıxarır. Görünür, daha artıq oxumaq, daha dərindən düşünmək, daha geniş ədəbi-estetik meyarlara malik olmaq lazımdır. Bir də ki, vətəndaş ehtirası...

– Kitab nəşri barədə. 25 yaşlı şairin kitabının çıxmağı adi bir şeydir. Amma tənqidçiyə gələndə, belə çıxır ki, o, «qocalmayınca» nəşriyyata yaxın gedə bilməz. Bu barədə nə deyə bilərsiniz?

– Oxucu fikri bir fərdin fikridirsə, tənqidçi fikri ictimai fikir səviyyəsinə yüksəlməlidir. Belə bir səviyyəni əldə etmək üçün istedad və biliklə bərabər, həyati təcrübə də vacibdir. Yaşadığın dövrü, cəmiyyəti, ictimai-əxlaqi münasibətləri sözün əsl mənasında dərk etdikdən sonra bədii əsəri dərk edib onun haqqında peşəkar tənqidi fikir söyləmək mümkündür. Əks təqdirdə oxucu fikri ilə tənqidçi fikri arasında heç bir fərq olmayacaqdır və təəssüf ki, belə bir «fərqsizliyə» qəzet və jurnal səhifələrində, o cümlədən, «Ədəbiyyat və incəsənət» qəzetinin səhifələrində rast gəlirik.

Deyə bilərsiniz ki, Dobrolyubov cəmi 25 il yaşamışdır. Pisarev 28 yaşında suda batmışdır. Burası belədir. Lakin bu gün mən

sizə 25 yaşlı bir neçə şairimizin adını çəkə bilərəm ki, onların kitabının nəşrinə ehtiyac var. Siz isə 25 yox, 30 yaşlı bir tənqidçimizin adını çəkin ki, onun tənqidi məqalələr kitabına ehtiyac hiss olunmaqdadır. Elə bilirəm ki, çətinlik çəkərsiniz. Məhz bu, mühüm bir məsələ kimi hamımızı düşündürməlidir. 25 ilə 30 yaş arası tənqidçinin nüfuzlu bir fikir sahibi kimi formalaşdığı dövrdür. Bizim ədəbiyyat tariximizdə Məmməd Arif, Məmməd Cəfər, Mehdi Hüseyn, Əli Nazim, Mikayıl Rəfili, Cəfər Cəfərov və başqa görkəmli ədiblərin təcrübəsi də bunu göstərir. Çox təəssüf ki, biz bu gün iyirmi beş-otuz yaşlı bir nəfəri barmağımızla göstərib: «– Bax, bu, gələcəyin Məmməd Arifidir!» – deyə bilmirik. Bunu demək üçün qarşımızda həmin müəllifin həmin sözləri dedirdəcək ikicə məqaləsi belə yoxdur.

Ümumiyyətlə, tənqidçilərin kitab nəşrinə gəldikdə isə, bu gün dünənə nisbətən xeyli irəliləyiş var. Tənqid kitablarının sayı artmışdır. Fundamental nəşrlərimiz var. Mən Məmməd Arifin azərbaycanca üççildliyini, rusca ikicildliyini, Cəfər Cəfərovun Azərbaycan və rus dillərindəki ikicildliklərini, Mikayıl Rəfilinin rus dilində bircildliyini, Məmməd Cəfərin ikicildliyini, «Sənət yollarında» kitabını və bir sıra başqa nəşrləri nəzərdə tuturam ki, yetmişinci illərin məhsuludur. Lakin bu sahədə də vəziyyət hələ qənaətbəxş deyil. Bu barədə söhbət düşəndə bəzi nəşriyyat işçiləri imkanın məhdudluğundan gileylənirlər. Belə gileyləri eşidərkən Heydər Əliyev yoldaşın dekabr (1978) plenumunda bütün kəskinliyi ilə dediyi bu sözlər yada düşür: «... sirr deyil ki, bəzi əsərlər öz ideya məzmununa və bədii səviyyəsinə görə bədii sərvətə çevrilmir və buna görə də oxucular arasında maraq doğurmur. Kitabxanaların, kitab mağazalarının və anbarlarının piştaxtalarında və rəflərində toz altında qalır».

– Yazıçılar İttifaqının katibi kimi deyə bilərsizmi, təşkilati baxımdan nə kimi tədbirlər nəzərdə tutulub?

– Tənqiddə bir canlanma əmələ gətirmək məqsədilə Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibliyi bir sıra əməli tədbirlər planı işləyib hazırlamışdır. Nəzərdə tutulan tədbirlərin bəziləri ilə qəzetinizin oxucularını tanış etmək istəyirəm.

Ədəbi orqanlarımız tənqidə daha çox yer verəcək, «yeni kitablar», «problemlər və mülahizələr» və s. kimi rubrikalar açılacaq, ədəbiyyatımızın aktual problemləri ətrafında müzakirələr keçiriləcəkdir.

Yeni tənqidçi nəsli yetişdirmək məqsədilə Azərbaycan Yazıçılar İttifaqı gənc tənqidçilərin studiyasını təşkil edəcəkdir. Studiyada ardıcıl məşğələlər keçiriləcək, məqalələr oxunub müzakirə ediləcək, redaksiyalarla əlaqələr yaradılacaq, görkəmli alimlərimizin iştirakı ilə seminarlar keçiriləcəkdir.

Tənqidimizin vəziyyəti və vəzifələrinə həsr olunmuş işgüzar bir müşavirə keçirilməsi də nəzərdə tutulmuşdur.

Bir sıra digər cari tədbirlər də bizcə, tənqidin inkişafına kömək göstərəcəkdir.

*Müsahibəni R.Əliyev apardı.*
*1979*

## AZƏRBAYCAN YAZIÇISINA MÜKAFAT

ÜİLKGİ MK bürosu ədəbiyyat, incəsənət, jurnalistika və arxitektura sahəsində 1982-ci ilin Lenin komsomolu mükafatlarını vermişdir.

Yeni laureatlar arasında Azərbaycan yazıçısı Elçin də vardır. O bu yüksək mükafata «Əncir ağacı», «Toyuğun diri qalması» povest və hekayələr məcmuəsinə görə layiq görülmüşdür.

«Gümüşü furqon», «Əncir ağacı», «Dolça», «Poçt şöbəsində xəyal» povestlərinin, hekayələrin, tənqidi monoqrafiyaların, məqalələrin və tərcümələrin müəllifi Elçin çoxdandır ki, öz mövzusu, öz dəst-xətti, öz yazı üslubu olan həssas sənətkar kimi tanınır.

Onun Ümumittifaq miqyasında ilk ədəbi əsəri 1970-ci ildə «Drujba narodov» jurnalında dərc edilmişdir. Bundan əvvəl yazıçı respublika nəşriyyatında çox çıxış etmişdi. O vaxtdan bəri Elçinin əsərləri «Yunost», «Drujba narodov» jurnallarında, Moskvada çıxan başqa nəşrlərdə vaxtaşırı dərc olunmuşdur. Yazıçının əsərləri Sovet İttifaqının bir çox xalqlarının dillərinə tərcümə olunmuş, xarici ölkələrin nəşriyyatlarında çapdan çıxmış, macar, çex, bolqar, slovak, ingilis, fransız, ərəb, türk dillərində və başqa dillərdə dərc edilmişdir.

Şad xəbərin alındığı gün Azərinformun müxbiri yazıçı ilə görüşmüş və ondan bir neçə suala cavab verməsini xahiş etmişdir.

– Söhbətimizə başlamazdan əvvəl icazə verin, sizi səmimi qəlbdən təbrik edim.

– Sağ olun. Əlbəttə, əməyimin belə yüksək qiymətləndirildiyi üçün xoşbəxtəm və çox sevinirəm. Lakin mən bu mükafatı təkcə öz şəxsi mükafatım deyil, Azərbaycan yazıçılarının mənimlə birlikdə ədəbiyyata qədəm qoymuş bütün nəslinin mükafatı sayıram.

– Bu əlamətdar fakta toxunmaqla siz mənim verməyə hazırlaşdığım sualı qabaqladınız. Sizdən xahiş etmək istəyirdim ki,

müasir Azərbaycan nəsri haqqında, bu gün, əsasən, sizin indicə qeyd etdiyiniz nəslin təmsil etdiyi nəsr haqqında fikrinizi bildirəsiniz. Zənnimizcə, müasir Azərbaycan nəsrinin ən səciyyəvi xüsusiyyətləri hansılardır?

– Cavab verməzdən əvvəl xatırlatmaq istəyirəm ki, bizim yaradıcılığımızın püxtələşdiyi dövr, xoşbəxtlikdən, 70-ci illərə düşmüşdür. Bu illər Azərbaycan üçün gözəl dəyişikliklərlə, yaradıcı adamların zəngin mənəvi həyatı ilə səciyyəvidir.

Ən parlaq əlamət isə zənnimcə, budur ki, nasirlərimiz öz əsərləri ilə nəinki təkcə respublikanın, eləcə də bütün Sovet İttifaqının ədəbi prosesində fəal iştirak edir, ictimai münasibətləri bütün mürəkkəbliyi, rəngarəngliyi ilə əks etdirməyə çalışırlar.

Onlar həyat pafosunu təsdiq etməklə cəmiyyətə zidd olan mənfi halları, müasir meşşanlığın mahiyyətini ifşa edir, bizim günlərin qəhrəmanlığını doğru-düzgün, bədii cəhətdən parlaq əks etdirirlər...

– Sizin «Əncir ağacı» məcmuəniz üçün məşhur sovet tənqidçisi Lev Annenskinin yazdığı sözardında bu sətirləri oxudum: «... Onun nəsrində özünəməxsus bir cazibə qüvvəsi vardır. Bu nəsrdə bir coşğunluq, bir yüksəliş, gündəlik hadisələrin çərçivəsindən kənara çıxmaq meyli duyulur. Bir qədər də... poeziya...» Mənə elə gəlir ki, bu sətirlər sizə xas olan yazı üslubunun, sizin yaradıcılıq tərzinizin xüsusiyyətlərini çox dəqiq əks etdirir. Kitabınızın necə yarandığını soruşmaqla mən, əslində, ədəbi bioqrafiyanızın tam bir mərhələsinə toxunmuş oluram.

– Fikrinizlə şərikəm. Məcmuəyə daxil edilmiş hekayələr və povestlər bir növ mənim 12 illik yaradıcılıq əməyimin yekunudur. Mən kitaba ən yaxşı əsərlər saydığım əsərlərimi daxil etmişəm. Üslub məsələsinə gəldikdə isə... Mən həmişə bədii və psixoloji dəqiqliyi, hisslərin və münasibətlərin doğruluğunu gözləməyə can atmışam və can atıram. Buna nə qədər nail olduğumu qoy oxucularım desinlər... Mənim bütün qəhrəmanlarım adi adamlardır, onlar adi həyatda yaşayırlar. Əgər mən bəzi fantastikaya əl atıramsa, bu, mütləq müasir real həyata əsaslanan fantastikadır.

– Əgər gizli deyilsə indi nə yazdığınız barədə danışın. Yaradıcılıq planlarınız necədir?

– «Azərbaycan» jurnalının 7-ci və 8-ci nömrələrində «Mahmud və Məryəm» romanım dərc edilmişdir. Tarixi janra ilk dəfə

müraciət etdiyim kimi roman janrı da mənim üçün ilk sınaqdır. Lakin məşhur «Əsli və Kərəm» dastanının motivləri əsasında yazdığım romanda hadisələrin tarixiliyi sırf şərti tarixilikdir. Əsərdə keçmiş günlər bir növ zəmanəmizlə çuğlaşır, müasir təcrübəmizin süzgəcindən keçirilir.

Planlarım çoxdur, lakin onların heç də hamısı dəqiq müəyyənləşdirilməmişdir. Müasir həyat haqqında povest yazmaq fikrinə düşmüşəm. Tənqid, tərcümə sahəsində, ədəbiyyatşünaslıq tədqiqatları sahəsində işi davam etdirmək fikrindəyəm.

*Söhbəti T.Seyidova apardı.*
*1982*

## E L Ç İ N: «BİR PARÇA GÜN İŞIĞI...»

Bu günlərdə Vətənimizin paytaxtı Moskvadan doğma respublikamızın ünvanına şad bir xəbər qanadlandı: istedadlı Azərbaycan yazıçısı Elçin paytaxtda rus dilində çapdan çıxan son «Əncir ağacı», «Toyuğun diri qalması» kitabına görə Ümumittifaq Lenin komsomolu mükafatı laureatı adına layiq görülüb! Respublikamızın, eləcə də ölkəmizin çoxmilyonlu oxucuları kimi «Azərbaycan pioneri» qəzetinin də oxucuları bu xəbəri hədsiz sevinclə qarşıladılar. Axı, Elçin öz kiçikyaşlı dostlarını da unutmur. Onun «Günay, Humay, bir də Səlim» kitabı uşaqlar üçün gözəl töhfədir. Yazıçının yaradıcılığında gənclərin, yeniyetmələrin həyatı, onların arzu və əməlləri xüsusi yer tutur.

Əziz pionerlər! Gəlin, sizinlə birlikdə sevimli yazıçımız Elçini yüksək mükafat almağı münasibətilə bir daha təbrik edək, ona yeni-yeni yaradıcılıq uğurları arzulayaq!

Redaksiyamızın* xahişi ilə Baba Vəziroğlunun Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, Ümumittifaq Lenin komsomolu mükafatı laureatı, yazıçı Elçinlə apardığı müsahibəni sizə təqdim edirik.

– Elçin müəllim, sizə məlumdur ki, bu müsahibəni «Azərbaycan pioneri» qəzeti üçün aparırıq. Yəqin ki, elə söz-söhbətimiz də gənc nəslin marağı dairəsində gedəcək...

– Uşaqlarla danışmaq, böyüklərlə danışmaqdan daha çox məsuliyyət tələb edir. Yazıçı bu gündən əlavə, gələcək üçün də yazır. Əsər istedadlıdırsa, yalnız bugünün oxucularının deyil, gələcək nəsillərin də mənəvi sərvətinə çevrilir. Bu mənada «Azərbaycan pioneri» qəzetinin oxucuları çox xoşbəxtdirlər, çünki bugünün oxucuları olmaqla bərabər, gələcək də onlarındır.

– Sizin uşaqlara, yeniyetmələrə yazıçı məhəbbətiniz əsərlərinizdə yaxşı hiss olunur. «Gümüşü, narıncı», «On ildən sonra» və başqa hekayələrinizdə, həmçinin uşaqlar üçün qələmə aldığınız «Günay, Humay, bir də Səlim» kitabınızda uşaq aləmi

* «Azərbaycan pioneri» qəzeti.

ilə dərindən bağlılığınız özünü göstərir. Bu barədə nə deyə bilərsiniz?

– Ömrün uşaqlıq, yetkinlik çağı, əslində, çoxqollu bir yol ayrıcıdır. Bu yol ayrıcından gələcəyə doğru müxtəlif yollar, cığırlar, qarşıda enişli-yoxuşlu, yaxud qayası-qıpçağı, yaxud şüşə kimi hamar olacağı əvvəlcədən bilinməyən şaxələr uzanır. Yeniyetmə bu yollardan hansı birini seçirsə, taleyini də məhz həmin yol müəyyənləşdirir. Bu yol düzgün seçilməlidir! Babat bir rəssamdan, əla bir dülgər olmaq daha sərfəlidir. Nizami demişkən, yarımçıq papaqçılıqdan kamil palançı olmaq daha yaxşıdır. Gələcək sənəti müəyyənləşdirmək işin, ancaq bir tərəfidir. Əsas məsələ özünü gələcəyin çətin sınaqlarına hazırlamaqdır. Bunun üçün yeniyetmə özündə qüvvətli şəxsi keyfiyyətlər tərbiyə etməli, ən gözəl insani keyfiyyətlərə malik olmalıdır – təmizlik, düzlük, saflıq, mərdlik... Bax, mən də gənclərimizin həyatını qələmə alanda onlarla məhz bu keyfiyyətlər barədə söhbət etmək istəyirəm.

– Elçin müəllim, yəqin ki, uşaqlar üçün müntəzəm mütaliəni də əsas şərt sayırsınız!

– Əlbəttə. Mütaliə nəinki uşaqlar üçün, hamı üçün zəruridir. Həyatı dərk etməyin vacib şərtlərindən biri də mütaliədir. Bəşəriyyət özünü tanıyandan bəri bədii söz onun ən yaxın dostu olmuşdur. Maksim Qorki yazırdı ki, kitab, gələcək xoşbəxtlik və qüdrətə aparan yolda bəşəriyyətin yaratdığı möcüzələrdən olsun ki, ən mürəkkəbi və ən möcüzəlisidir. Əlbəttə, söhbət yaxşı kitabdan gedir və mənim də uşaqlara məsləhətim budur ki, yaxşı kitabın yaxşı oxucusu olsunlar. Yaxşı oxucu olmaq üçün isə oxumaq, fikirləşmək və yenə də oxumaq lazımdır!

– Bizə məlumdur ki, sizin ssenariləriniz əsasında bir neçə bədii film çəkilib. Lakin uşaqlar dedektiv film həvəskarı olduqları üçün sizin «Arxadan vurulan zərbə» filmini daha çox xatırlayırlar. Bu filmin yaranması barədə bir neçə kəlmə...

– Film bədii sənətin çox mürəkkəb bir növüdür. Müxtəlif sənət adamlarının birləşib yaratdıqları əsərdir. Filmin uğurlu-uğursuz taleyi də həmişə bu müxtəlif sənət sahiblərindən – ssenaristdən, bəstəkardan, rejissordan, operatordan, aktyordan, rəssamdan və nə qədər, nə qədər adamdan asılı olur. Əgər «Arxadan vurulan zərbə» uşaqların xoşuna gəlibsə, bu qiymət tək mənə yox,

saydığım sənət adamlarının hamısına aiddir. Ssenarini mən birbaşa kino üçün yazmışam. Film Xeyirlə Şərin mübarizəsi üstündə qurulub. Şər qüvvələrin rəmzi Qurd Cəbrayıl, Xeyir qüvvələrin rəmzi isə gənc müstəntiq Gündüz Kərimbəylidir. Dünyada yaxşılar həmişə pislərdən çox olur, elə dünya da buna görə öz oxu ətrafında belə asudə fırlanır. Yaxşılar həmişə qələbə çalmalıdırlar və «Arxadan vurulan zərbə» filmi də təbii ki, yaxşıların qələbəsi ilə bitir.

– Azərbaycan uşaq ədəbiyyatı barədə fikriniz? Bu sualla sizə müraciət etməyimiz təsadüfi deyil. Axı, siz həm də respublikamızın ən tanınmış tənqidçilərindən biri sayılırsınız. Sizin ədəbi-tənqidi mülahizələriniz müntəzəm olaraq ümumittifaq mətbuatının səhifələrində geniş yer tapır...

– Hər dəfə belə sual ortaya çıxanda öz uşaqlığımı xatırlayıram. Elə bil, o uzaq və əziz illərin bir hissəsiymiş kimi Mirzə Ələkbər Sabirin, Abdulla Şaiqin əvəzsiz uşaq şerlərini, Süleyman Sani Axundovun «Qorxulu nağıllar»ını xatırlayıram. Azərbaycan uşaq ədəbiyyatının bugünkü inkişafından narazı qalmağımıza haqqımız var. Çünki bu ədəbiyyatın dünənində zəngin ədəbi irsimiz, gözəl ənənələrimiz dayanıb. Uşaqlar üçün yazmaq məsuliyyətli olmaqla yanaşı, müqəddəs işdir! Uşaq səmimiyyətinə, ancaq səmimi əsərlərlə yol tapmaq olar.

– Bu yaxınlarda biz «Azərbaycan» jurnalının builki 7 və 8-ci nömrələrində sizin «Mahmud və Məryəm» adlı romanınızı böyük maraqla oxuduq. Əsərin mövzusu çox mürəkkəb olsa da, qəhrəmanlarınızın 16-17 yaşı var.

– Bəs indi nə üzərində işləyirsiniz?

– Yeniyetmə bir oğlanın həyatından bəhs edən müasir mövzulu povest üzərində işləyirəm. Eyni zamanda mövzusu Səfəvilər dövründən alınmış bir roman üzərində yaradıcılıq işimi davam etdirirəm. Xalqın bu günü, onun keçmişi ilə gələcəyi arasında körpüdür. Mən fürsətdən istifadə edib gənc dostlarıma öz xalqlarının keçmişini diqqətlə öyrənməyi, qiymətləndirə bilməyi tövsiyə edirəm. Tarix ibrət dərsidir və gələcək fəaliyyətlərində onlara nümunə, örnək ola biləcək böyük şəxsiyyətlərlə zəngindir.

– Elçin müəllim, sizin əsərlərinizdə tam mənfi qəhrəmana rast gəlmək olmur. Ən itirilmiş adamlarda belə bir parça işıq axtarırsınız və tapırsınız da. Bu nədən irəli gəlir?

– Ondan irəli gəlir ki, dünyada pis adam yoxdur. Ən pis

adamda belə bir parça işıq var, bir parça gün işığı. Günəş insanların hamısını qızdırır və mən inanmıram ki, ən pis adamın bəxtinə belə, o gün işığından bir parça pay düşməsin?! Çətini odur ki, insanı yaxından tanıyasan, o bir parça işığı axtarıb tapasan və bu bir parça işığın izinə düşüb işıqlı bir dünyaya çıxasan. Eyni zamanda, özün də ta uşaqlıqdan özündəki o bir parça işığı qoruyub saxlamağı bacarmalısan.

– Qəzetimizin oxucularına arzunuz?

– Qoy gənc dostlarımızın qarşıdakı həyat yolu bax, bu cür gur işıq içində olsun!

– Ən çox sevdiyiniz insani keyfiyyət?

– Səmimiyyət.

– Nəyə nifrət edirsiniz?

– İkiüzlülüyə, yaltaqlığa.

– Sizcə ən böyük amal nədir?

– Xalqa məhəbbət, vətənə bağlılıq.

– Elçin müəllim, maraqlı müsahibəyə görə çox sağ olun.

*1982.*

## «YAZMAQ YAZIÇININ ÖZÜNÜİFADƏSİDİR»

Əməkdar incəsənət xadimi, Ümumittifaq Lenin komsomolu mükafatı laureatı, Azərbaycan SSR Yazıçılar İttifaqı İdarə Heyətinin katibi Elçinin sənətkar adı bu gün təkcə azərbaycanlı oxuculara deyil, eləcə də bir çox SSRİ xalqları oxucularına yaxşı tanışdır. Onlar Elçini özlərinin doğma qələm ustaları kimi sevir və oxuyurlar. Bunu onun həmin xalqların dillərinə çevrilmiş əsərləri bizə bir daha pıçıldayır. Bizim müasirlərimiz olan adi adamların həyatı, taleyi Azərbaycandan uzaqlarda – ingilis, fransız, ərəb, fars, macar, çex, slovak, türk, bolqar və s. xalqların oxucularının qəlbində özünə isti yer tapa bilmişdir.

Uzaq yerli oxucular «Dolça»nın, «Bir görüşün tarixçəsi», «Baladadaşın ilk məhəbbəti» əsərlərinin qəhrəmanlarını öz bədii qəhrəmanları səviyyəsində tanıyırlar. Yazıçının həmin əsərlərinin xarici ölkələrdə daha kütləvi tirajlarla çap edilib oxunması fikrimizin təsdiq ifadəsidir.

Həmyerlimiz nasirin həyatın özündən gələn povest, roman və hekayələri rayonumuzun sənətsevər oxucularını da özünə çoxdan cəlb etmişdir. Onun «Toyuğun diri qalması», «Bir görüşün tarixçəsi», «Mahmud və Məryəm», «Ağ dəvə» roman və povestləri dəfələrlə müzakirələrə, diskussiyalara səbəb olmuş və həmişə də hərarətlə qarşılanmışdır.

Redaksiyamız öz oxucularından çoxlu məktublar almışdır. Həmin məktublarda oxucular həmyerlimiz yazıçının yaradıcılığı ilə maraqlandıqlarını və «Araz» qəzeti səhifələrində onunla görüşmək arzusunda olduqlarını bildirirlər.

Bu münasibətlə qəzetimizin əməkdaşı Azərbaycan SSR Yazıçılar İttifaqında olmuş, yazıçı Elçindən müsahibə almışdır. Həmin müsahibəni oxucularımıza təqdim edirik.

– Elçin müəllim, oxucularımızı hər şeydən əvvəl sizin ədəbiyyata necə gəlməyiniz, yaradıcılığınızın ilk dövründə hansı qaynaqlardan bəhrələndiyiniz maraqlandırır.

– Məlumdur ki, mənim ədəbiyyata ilk gəlişimin səbəbkarı Azərbaycan oxucularının sevimli yazıçısı olan atam İlyas

Əfəndiyev olmuşdur. Mən gözümü açıb evimizdə ədəbiyyat ovqatı, aləmi görmüşəm, yazıb-yaratmaq görmüşəm. Bu gördüklərim yəqin məni ardınca çəkib aparıb...

İlk hekayəm 1959-cu ildə «Azərbaycan gəncləri» qəzetində IX sinifdə oxuyarkən çap edilib. Əlbəttə, həmin ilk hekayə də, ondan sonrakı ilkin yazı-pozum da sənət yolunda ilkin axtarışlar idi...

– Sənət yolunda hər bir yazıçının, şairin özünün bir dəstxətti, yaradıcılığının mərkəzi hissəsində dayanan əbədi mövzusu olur. Sənətkar nədən yazır yazsın həmin mövzunu öz oxucusuna çatdırmaq istəyir. Sizin yaradıcılığınızın mərkəzində dayanan o əbədi mövzu nədir?

– Yazıçı üçün xırda mövzu – xalqın istəyindən, taleyindən doğmayan, yaranmayan mövzu ola bilməz. Ona görə də əsl sənətkar nədən yazır yazsın, o, öz xalqına xidmət etməlidir. Başqa sözlə, yazdıqları xalqın istəyindən, həyatından bəhs etməlidir.

Mən «Bir görüşün tarixçəsi», «Dolça», «Mahmud və Məryəm», «Poçt şöbəsində xəyal» və s. əsərlərimdə xalqın həyatını doğru, düzgün əks etdirmək istəmişəm. Bu istəyə nə cür nail olmuşam, onu mən yox, oxucular yaxşı bilirlər.

Xalq həmişəlik bir məfhumdur. O, dünən vardı, bu gün də var, sabah da olacaq. Yazıçı öz xalqının yazıçısı olmalıdır. O qələmə aldıqlarında xalqını ifadə etmirsə, yazıçı deyil.

– Elçin müəllim, sizin əsərlərinizin demək olar ki, hamısında adi adamların həyatı, taleyi qələmə alınmışdır. Bax, bu adamların həyatının ədəbiyyata gəlməsi, ədəbiyyatın o böyük vəzifəsinə – insandan bəhs etmək vəzifəsinə daxildirmi?

– Adi adamlar yoxdur. Adi adam ola bilməz. Peşəsindən, vəzifəsindən asılı olmayaraq hər bir adamın mürəkkəb, çoxcəhətli daxili aləmi var. İnsanın daxili aləminin zənginliyi ora daxil olduqda ortaya çıxır. Bu zəngin aləmə vardıqda baxıb görürük ki, adi adam yoxdur. Elə götürək bizim dastanlarımızdakı qəhrəmanları. Kərəm kimdir? «Adi» bir adam. Lakin bu «adi» adamın özünəməxsus elə daxili zənginliyi – məhəbbəti, etibarı, dəyanəti var ki, onu qeyri-adi edir.

– Ədəbiyyatda yaşayan klassik əsərlərin hamısında xalqa bağlılıq, millilik hissləri mövcuddur. Demək olar ki, onları yaşadan da elə bu millilik olmuşdur. Bax, bu bəşərilik və milliliyin əlaqəsi haqqında nə deyərdiniz?

– Bəşərilik ilə milliliyin sıx əlaqəsi var. Millilik olmayan yerdə bəşərilik yoxdur və bu haqda söhbət ola bilməz. Millilik hər bir əsərin canıdır, qanıdır. Yazıçı öz xalqının həyatını ifadə edə bilmirsə, onun xarakterini ədəbiyyata gətirmirsə, burada bəşərilikdən, yaşarı olmaqdan söhbət açmağa dəyməz. Əgər yazıçı əsərlərində millidirsə, o, nəinki təkcə öz xalqı tərəfindən, eləcə də başqa xalqlar tərəfindən seviləcəkdir. Götürək Lev Tolstoyu. Azərbaycan xalqı bu böyük sənətkarı öz yazıçıları qədər sevir. Niyə? Çünki Tolstoy öz xalqının yazıçısıdır, öz xalqının dərdi, sevinci onun əsərlərində əksini tapmışdır. Məhz elə bu cəhətinə görə Tolstoy sevilir.

– Oxucularımız sizi təkcə yazıçı kimi deyil, eyni zamanda tənqidçi kimi də tanıyırlar. Siz istər yazıçı, istər tənqidçi kimi yaradıcılığınızda əsas diqqəti nəyə verir və ən çox sizi narahat edən məsələləri necə qələmə alırsınız?

– Yazmaq yazıçının özünüifadəsidir. Əgər istər yazıçı, istərsə də tənqidçi istedadlıdırsa və xalqına sıx tellərlə bağlıdırsa, onun marağı ilə, arzusu ilə yaşayıb-yaradırsa, demək, o özü ilə bərabər həm də xalqını ifadə etmiş olur. Götürək elə Mirzə Fətəli Axundovu. Mirzə Fətəli həm dramaturq, həm tənqidçi, həm filosof olmaqla bərabər, həm də xalq xadimi idi. Çünki özü ilə birlikdə xalqı da ifadə edirdi.

– Sizin son vaxtlar çap olunmuş «Mahmud və Məryəm» romanınız oxucuların böyük marağına səbəb olmuşdur. Romandakı bir çox səhnələr onların yaddaşlarına hopub. Belə səhnələrdən biri Çaldıran döyüşünün sabahı Mahmudun həmin səhnə ilə qarşılaşmasıdır. Məhəbbət aşiqini belə acınacaqlı döyüş səhnəsi ilə qarşılaşdırmaqda yazıçı kimi məqsədiniz nə olub?

– Bildiyiniz kimi «Mahmud və Məryəm» romanını «Əsli və Kərəm» dastanının motivlərindən istifadə edərək yazmışam. Əsərdə fantastikadan, şərtiliklərdən istifadə etmişəm. Bu şərtiliyin biri də tarixi Çaldıran döyüşünün təsviridir. Buradakı tarixilik şərti tarixilikdir. Mən Mahmudu ona görə bu səhnə ilə qarşılaşdırmışam ki, o, öz dərdinin dünyada ən böyük dərd olduğunu düşünməsin və baxıb görsün ki, dünyada onun dərdlərindən də böyük dərdlər var. Çaldıran döyüşündə minlərlə insanın məhv olması, ahı müqabilində Mahmudun dərdi o qədər də böyük dərd deyil. Ənənəvi məcnunlardan Mahmudun fərqi bu həyati dərdləri dərk etməsindədir. Bax, bu səhnəni romana bu məqsədlə gətirmişəm.

– Son vaxtlar qələmə aldığınız əsərlərinizin demək olar ki, hamısında özünüzə məxsus dil, üslub, yeni təhkiyə formasından istifadə edirsiniz. Bu haqda nə deyə bilərsiniz?

– Hər bir yazıçı öz üslubunu tapmalıdır. Əgər üslub üslub xatirinə yaradılırsa, bu çox pisdir. Yox, məzmun özünə uyğun üslub yaradırsa bu, çox yaxşıdır.

– Bədii əsərləriniz ayrı-ayrı vaxtlarda «Literaturnaya qazeta»nın, «Nedelya» həftəliyinin, «Drujba narodov» və «Smena» jurnallarının səhifələrində çap olunub. SSRİ Yazıçılar İttifaqının ən yaxşı əsərlər üçün təsis etdiyi mükafatı alıb. Dalbadal belə yüksək mükafat almağınızı nə ilə əlaqələndirə bilərsiniz?

– Bu sual tənqidçilərə, oxuculara ünvanlanmalıdır.

– Yazıçı, tənqidçi, publisist, elmi işçi, ictimai xadim Elçin... Bu zəhmətə necə dözürsünüz? Bu qədər qısa vaxtda bu qədər bədii əsərləri yazmağa necə vaxt tapırsınız? Hələ bura sizin ssenarilər əsasında «Baladadaşın ilk məhəbbəti», «Arxadan vurulan zərbə», İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» pyesinin motivləri əsasında «Mən qayıdacağam», «Bir görüşün tarixçəsi» povestinin motivləri əsasında Ümumittifaq radio və televiziyasının sifarişi ilə çəkilmiş «Gümüşü furqon» və nəhayət, bu günlərdə çəkilib qurtarmış «Dolça» povestinin motivləri əsasında «Bağ mövsümü» filmlərini də əlavə etsək nə qədər böyük iş gördüyünüz diqqətdən yayınmaz. Bütün bunları yazmağa, işləməyə sərf etdiyiniz vaxtın adı, ünvanı varmı?

– Doğrusu, konkret bir ünvan göstərməyə çətinlik çəkirəm...

– Yazı stolunuzun üstündə hər gün yolunuzu gözləyən əsərləriniz barədə.

– «Karvan yola düzülür» adlı 45 çap vərəqi həcmində bir kitabı «Yazıçı» nəşriyyatına təqdim etmişəm. Bu kitabda Orxon-Yenisey abidələrindən üzübəri ən sanballı Azərbaycan ədəbi abidələri və böyük ədibləri haqqında oçerklər toplanmışdır. Bu, bir növ, bir neçə il bundan əvvəl çap olunmuş «Fikrin karvanı» kitabının davamıdır. Hazırda stolumun üstündə başqa yazılar var, amma bu barədə əvvəldən danışmaq istəmirəm.

– Həmyerli kimi Füzuli torpağına, Füzuli adamlarına bağlılığınız?

– Füzuli torpağına, Füzuli camaatına doğma el-obam kimi böyük hörmət və məhəbbətim var. Füzuli Azərbaycan torpağının bir parçasıdır və mən o bir parçanı çox sevirəm.

– Elçin müəllim, mənim yerimə siz olsaydınız müsahibəmizi hansı sualla yekunlaşdırardınız?

– Sizin yerinizə mən olsaydım son sualı belə verərdim: – Füzuliyə nə vaxt gələcəksiniz? Cavab verərdim ki, nə vaxt gələcəyimi bilmirəm, amma qoy Füzuli camaatı bilsin ki, gəlib-gəlməməyimdən asılı olmayaraq, yurdumuzun o gözəl guşəsi həmişə mənim ürəyimdədir.

– Müsahibə üçün çox sağ olun. «Araz» qəzeti oxucuları adından sizə daha böyük yaradıcılıq uğurları arzulayırıq.

– Sağ olun!

*Müsahibəni Sabir Rüstəmov apardı.*
*20 fevral 1986*

## MƏSULİYYƏT

Burada «İki kitab fonunda müsahibə» rubrikası vermək daha düzgün olardı, çünki Moskvada iki Ümumittifaq nəşriyyatı Elçinin yaradıcılığını, demək olar, eyni vaxtda təqdim etmişdir. Lenin komsomolu mükafatı laureatı olan yazıçının çoxdan dostluq etdiyi «Molodaya qvardiya» nəşriyyatı «Parisdə avtomobil qəzası» adı altında onun nəsr məcmuəsini buraxmışdır. Məcmuəyə «Abşeron motivləri» bölməsində birləşdirilən povestlər, müxtəlif illərdə yazılmış hekayələr və «Mahmud və Məryəm» tarixi romanı daxil edilmişdir. «Sovetski pisatel» nəşriyyatı isə «Cazibə sahəsi» kitabını çapdan buraxmışdır. Kitabın «Tənqid: problemlər və düşüncələr» kimi yarımbaşlığı müəllifin maraq dairəsini əks etdirir. Burada müasir sovet çoxmillətli ədəbiyyatı haqqında məqalələr, dialoqlar, düşüncələr verilmiş, Azərbaycan klassiklərinə isə xüsusi bölmə ayrılmışdır.

Şəxsiyyətin belə «haçalanması» Elçinin bədii praktikasına illərdən bəri xas olan bir cəhətdir və söhbətimiz də elə bundan başlandı. Söhbətə başlayarkən mən onun yaradıcılığında nəsrlə ədəbi tənqidin necə əlaqələndirildiyini soruşdum. Bu, iki sahənin «ahəngdarlığını yoxlayıb sınamaqdırmı», yoxsa vahid prosesin bir-birini tamamlayan tərkib hissəsidir?

– Bu barədə mən özüm də çox fikirləşmişəm. Mənə elə gəlir ki, nəsr dünyanın obrazlı qavranılması deməkdir. Tənqid isə obrazların obrazlı təfsirinə cəhd etmək deməkdir. Əslinə baxanda bunlar başqa-başqa şeylərdir. Lakin mənim üçün bunların hər ikisi özünüifadə vasitəsidir. Nəsr əsəri üzərində işləyəndə, ancaq nasir kimi qalıram. Öz əsərimi tənqidçi mövqeyindən o vaxt qiymətləndirə bilirəm ki, əsər bitmiş, hələ bəlkə çap olunmuş olsun. Vaxtilə yazdığım əsərlərə qayıdıb tənqidçi kimi oxuyanda onlarda nəyisə qəbul etmirəm, haradasa müəlliflə razılaşmıram. Halbuki çox hallarda burada nasirlə tənqidçi bir-birini tamamlayır. Eyni zamanda, yəqin ki, yazıçılıq təcrübəsi başqasının yaradıcılığının xüsusiyyətlərini dərindən başa düşməkdə, hiss etməkdə tənqidi fəaliyyətə kömək edir. Bir neçə il əvvəl mən Azərbaycan ədəbi tənqidinin tarixinə aid kitabın tərtibçisi, elmi redatoru və müəllif-

lərindən biri idim. Milli tənqidi fikrin, onun bədii ədəbiyyatla əlaqəsinin xülasəsindən çıxardığım əsas nəticə budur: yazıçı, tənqidçi xalqın bir hissəsidir və o yazıçı xoşbəxtdir ki, yaradıcılığında özünü ifadə edərkən, xalqını ifadə edir.

– Siz, adətən, müasir mövzuları qələmə alırsınız. Elə isə «Mahmud və Məryəm» romanında keçmişə müraciət etməyinizi nə ilə izah etmək olar? Milli tarixə maraqlarımı, yoxsa keçmişin materialı əsasında müasir problemlər haqqında fikir yürütmək meyli ilə?

– «Mahmud və Məryəm» kitabı tarixi romandır, burada XVI əsrin – Azərbaycan Səfəvilər dövlətinin yaranmasının və formalaşmasının mürəkkəb dövrünün hadisələrindən bəhs edilir, milli və dini ayrı-seçkiliyin qurbanı olmuş iki sevgilinin faciəli taleyi bu fonda təqdim olunur. Bununla belə, kitabda bir çox hadisələr zəmanəmizlə səsləşir, siyasi və mənəvi təcrübəmizin mövqelərindən işıqlandırılır. Bu, hər şeydən öncə, mahiyyət etibarilə insan təbiətinə zidd olan müharibəyə, hüdudsuz hakimiyyətin despotizminə aiddir; Mahmud və Məryəm əhvalatının əsasında böyük «Əsli və Kərəm» dastanı dayanır, xalq eposu isə həmişə müasirdir, bu cür müasirlik romanın mövzusunda da əksini tapır.

Bir məsələni də deyim: tarixi reallıqlara müraciət edərkən çalışmışam ki, öz problematikasına görə də, estetik quruluşuna görə də roman oxucuya yaxın olsun. Yeri gəlmişkən deyim ki, kitabın ADR-dəki naşirləri də əsərin bu xüsusiyyətlərinə diqqəti cəlb etmişlər.

– Bir növ əvvəlki sualın davamı kimi soruşum: tənqidi əsərlərinizdə, düşüncələrinizdə ədəbiyyatın gündəlik problemləri ilə yanaşı, klassik irs məsələləri də tədqiq edilir. Bu nə ilə əlaqədardır, keçmişə ancaq maraqlamı?

– «Cazibə sahəsi» kitabındakı klassik irsə aid bölmə «Bu işıq əsla sönməz...» adlanır.

Bəllidir ki, keçmişsiz indi də yoxdur və tarixi. O cümlədən, mədəniyyəti bilmədən bu indinin özünü obyektiv dərk etmək mümkün deyildir. Biz xalqın əsrlər boyu yaranan mənəvi sərvətinin varisi olmalıyıq. Bu sərvətlərin yaradıcıları «keçmişə» aid edilsələr də, fərqi yoxdur, onlar müasirlərimiz kimi qalırlar. Ona görə də bu kitabda tarixilik və müasirlik bərabər səviyyədə, bir-birləri ilə vəhdətdə çıxış edir.

– Ədəbiyyat cəmiyyət həyatının yeniləşməsinin get-gedə

sürətlənən prosesində fəal iştirak edir. Bu mübarizədə mövqeyinizi konkret olaraq nədə görürsünüz?

– Yeniləşmə hər şeydən əvvəl, bütün həyatın demokratikləşməsi deməkdir, aşkarlıq deməkdir və hər kəsin mütləq şəxsi məsuliyyəti deməkdir. Əsl ədəbiyyatın kökünü də məhz bu anlayışlar təşkil edir və bunlar olmadan ədəbiyyat sadəcə olaraq yaşaya bilməz.

Öz yaradıcılığımda, əvvəllər olduğu kimi, yenə də, həm ədəbi tənqidə, ədəbiyyatşünaslığa, həm də nəsrə fikir verirəm. Üzeyir Hacıbəyovun bədii publisistikası haqqında monoqarfiyanı yazıb qurtarmışam. Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixinə, onun şanlı simalarına aid kollektiv əsərin tərtibçisi və elmi redaktoruyam. Bu əsər üçün qədim zamanlardan bu günədək ədəbiyyatımızda mövcud terminlərin, janrların, estetik anlayışların tutumlu- izahlı lüğətini hazırlamışam. «Azərbaycanfilm» studiyası üçün nəsr əsərlərimin motivləri əsasında iki ssenari yazmışam...

Lakin «Ölüm hökmü» romanı üzərindəki işimi əsas hesab edirəm. Bu iş, beş ildir ki, gedir. Romanda cəmiyyətin müxtəlif təbəqələrinin son onillikdə ki, həyatı şəhər materialında təqdim olunur, eyni zamanda, yeri gəldikcə keçmişə də müraciət ediləcək. O şeylər ki, yazılma mərhələsindədir, onlar barədə müfəssəl danışmaq yəqin ki, düzgün deyil. Ancaq bir məsələni mütləq qeyd edəcəyəm: ictimai problematika heç bir əsərimdə məni buradakı qədər həyəcanlandırmamış, hislərimə bu qədər hakim olmamışdır. Şübhəsiz, burası qanunauyğundur: bu gün başqa cür ola bilməz...

*Söhbəti apardı: L.Qoldşteyn*
*1987.*

## «VƏTƏN»: QARŞILIQLI ANLAŞMA VƏ ETİMAD KÖRPÜLƏRİ

Xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələr üzrə Azərbaycan cəmiyyəti – respublika ictimaiyyətinin təşəbbüsü ilə ötən ilin axırlarında yaradılmış «Vətən» Cəmiyyəti Sovet Azərbaycanı ictimaiyyəti ilə xaricdəki həmvətənlər arasında münasibətləri möhkəmləndirmək kimi mühüm və nəcib bir vəzifəni yerinə yetirməlidir. Azərinformun müxbiri Cəmiyyətin idarə heyəti rəyasət heyətinin sədri yazıçı Elçin ilə təşkilatın məqsəd və vəzifələri barədə söhbət edir.

– Respublikamızda «Vətən» Cəmiyyətinin təsis olunmasının çox böyük əhəmiyyəti var – deyə Elçin söhbətə başlayır. – Çünki bu, beynəlxalq işlərdə getdikcə möhkəmlənən yeni siyasi təfəkkürü əks etdirir. Bu təşkilatın yaradılması bir sıra hallarla və şəraitlə bağlıdır. Onun yaradılması bəşəriyyətin nüvəsiz gələcəyinə doğru yeganə real yol olan sülh proqramının həyata keçirilməsi sahəsində daha bir addımdır. Bizim təsis yığıncağında deyilmişdir ki, xarici ölkələrlə mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi uğrunda hərəkat, başqa xalqlarla əmin-amanlıq və dostluq şəraitində yaşamaq arzusunu əks etdirir və xaricdəki həmvətənlərlə mehriban münasibətləri inkişaf etdirmək sahəsində fəaliyyət bu hərakatın tərkib hissəsidir.

– Xahiş edirəm, xaricdə azərbaycanlı mühacirlərin tərkibindən və onların yaşadıqları yerlərin coğrafiyasından danışasınız.

– Xaricdəki Azərbaycan mühacirlərinin tərkibini Azərbaycandan hələ Sovet hakimiyyəti qurulmazdan əvvəl və inqilabdan sonrakı ilk illərdə getmiş yaşlı nəslin nümayəndələri, II Dünya müharibəsindən sonra taleyin hökmü ilə qürbətə düşmüş orta nəsil adamları, onların ailə üzvləri təşkil edirlər. Qərbdə yaşayan mühacir dairələri arasında bir sıra başqa ölkələrdən gəlmiş azərbaycanlılar da vardır. Xaricdə həmvətənlərimizin yaşadıqları yerlərin coğrafiyası da genişdir. Bunlar Avropa, Asiya, Amerika ölkələri və Avstraliyadır. Azərbaycan mühacirləri arasında görkəmli ictimai xadimlər, elmi, mədəni ictimaiyyətin nümayəndələri də az deyildir. Sözlərimizə misal olaraq Ümmülbanunu fransız yazı-

çısı, Fransada yaşayan şərqşünas, Strasburq universitetinin professoru İren Melikofu, şərqşünas, London universitetinin professoru T.Gəncəvini, Qərbi Berlində yaşayıb-yaradan məşhur rəssam A. Behkəlamı, Qlasborq universitetinin (ABŞ) professoru D.Həbibi, düsseldorflu (AFR) tibb doktoru Ş.Süleymanlını, tərəqqipərvər ictimai xadim Dursun Duru (Belçika) və bir çox başqalarını göstərə bilərik. Lakin səciyyəvi bir cəhət var. Ata-baba torpağından ayrı düşərək dünyanın müxtəlif yerlərində yaşayan bu adamlar doğma diyara dərin və əbədi məhəbbət qoruyub saxlayır, fəxr edirlər ki, Azərbaycan xalqının övladlarıdır. Vətən də ona görə vətəndir ki, öz övladlarını heç vaxt unutmur. Bu isə, öz növbəsində, həmvətənlərdə məsuliyyət hissi yaranmasına kömək edir – vətən onlara necə münasibət bəsləyirsə, onlar da vətənə elə münasibəti bəsləməlidirlər.

– «Vətən» Cəmiyyətinin məqsəd və vəzifələri necədir?

– Bu ictimai təşkilat xaricdəki həmvətənlərlə əlaqələri möhkəmləndirmək üçün təsis edilmişdir. Cəmiyyətin məqsədi xaricdəki həmvətənlərlə Azərbaycan arasında mədəni əlaqələri möhkəmləndirmək niyyətini həyata keçirmək, onların yaşadıqları ölkələrlə əməkdaşlığın və dostluğun genişlənməsinə kömək göstərməkdir. «Vətən» doğma torpaqdan uzaqlarda yaşayan azərbaycanlılara Azərbaycanın mədəniyyəti, iqtisadiyyatı və həyat tərzi ilə tanış olmağa kömək edəcəkdir. Sülh, tərəqqi, dostluq, qarşılıqlı həmrəylik və əməkdaşlıq uğrunda mübarizə aparan təşkilatlar və qruplar ilə əlaqələr də bu məqsədə xidmət edəcəkdir. Ayrı-ayrı elm və mədəniyyət xadimlərinin, ictimai xadimlərin Azərbaycan ilə əlaqələri qaydaya salınacaq və genişləndiriləcəkdir.

Azərbaycanı ictimaiyyətinin nümayəndələri ilə xaricdəki həmvətənlər arasında şəxsi əlaqələrə, görüşlər, mədəniyyət və incəsənət əsərləri sərgiləri keçirilməsinə böyük diqqət yetiriləcəkdir. «Vətən» Cəmiyyəti həmvətənlərimizin Azərbaycan dilini öyrənməsinə də böyük əhəmiyyət verir. Planlarda xaricdəki azərbaycanlıların respublikamızın ali məktəblərində təhsil almasına və praktika keçməsinə, burada uşaqların istirahətinin təşkilinə kömək etmək nəzərdə tutulmuşdur.

– Görünür, «Vətən» Cəmiyyəti bu işdə həmvətənlərimizin xaricdəki ictimai təşkilatları ilə əlaqə saxlayacaqdır.

– Tamamilə doğrudur. Son vaxtlar bir sıra kapitalist ölkələrində bu cür təşkilatlar yaradılmşdır. Bu, həmvətənlərimizin ba-

xışlarında və əhvali-ruhiyyəsində müsbət dəyişikliklər baş verdiyinə sübutdur. Onların tərəqqipərvər təşkilatları, birlikləri sülh uğrunda, sürətlə silahlanmanın dayandırılması uğrunda hərəkatda fəal iştirak edir, Zaqafqaziya respublikalarının həyatı haqqında doğru-düzgün məlumatın yayılmasına köməklik göstərirlər. Fransada Azərbaycan Mədəniyyət Cəmiyyəti, AFR-də «Ocaq», Qərbi Almaniyada Azərbaycanlıların Cəmiyyəti, İngiltərədə Azərbaycan Mədəniyyət Mərkəzi, İspaniyada Azərbaycanın Dostları Cəmiyyəti, İsveçrədə azərbaycanlıların Mədəniyyət Mərkəzi, İsveçdə Azərbaycan dili öyrədən kurslar və bir sıra digər cəmiyyətlər belə təşkilatlardandır. Biz həmvətənlərimizin xarici təşkilatlarının işi ilə dərindən tanış olmalı, sülh naminə və bəşəriyyətin sağ qalması naminə xalqlar arasında geniş əməkdaşlığın möhkəmləndirilməsinin yeni forma və metodlarından istifadə etməliyik.

Həmvətənlərimizin – görkəmli tərəqqipərvər sənətkarların, ədəbiyyatçıların, alimlərin yaradıcılıqlarını Sovet İttifaqında təbliğ etmək lazımdır ki, respublikamızın ictimaiyyəti onların fəaliyyəti ilə tanış ola bilsin. Bir-birinə folklor kollektivləri göndərilməsi, həmvətənlərimizin müxtəlif ölkələrdə yaratdıqları həvəskar musiqiçilərdən ibarət ansamblların Azərbaycana dəvət edilməsi işin maraqlı və faydalı forması ola bilər.

«Vətən» Cəmiyyəti ictimai-siyasi və mədəni həyatın ən mühüm tədbirlərində həmvətənlərimizin iştirakı üçün onları respublikamıza dəvət edəcəkdir.

Təbiidir ki, bu işdə ictimaiyyətin geniş dairələri fəal iştirak etməlidirlər. Demək lazımdır ki, «Vətən» Cəmiyyətinin təsis olunması respublikada rəğbətlə qarşılanmışdır. Biz müxtəlif təkliflər irəli sürülən, bizimlə əməkdaşlıq etmək əzmi ifadə olunan məktublar, teleqramlar alırıq.

Biz «Vətən» Cəmiyyətini təsis edərkən belə bir möhkəm inamı əsas tutmuşuq ki, ictimai quruluşu müxtəlif olan dövlətlərin dinc yanaşı yaşaması prinsiplərinin təntənəsi naminə, xalqlar arasında dostluq və qarşılıqlı anlaşma naminə xoşməramlı adamların səylərinin birləşdirilməsi Yer üzündə sülhün möhkəmlənməsinə təkan verəcəkdir.

*29 yanvar 1988.*

## E L Ç İ N: «VƏTƏN ÖVLADLARINI UNUTMUR»

*Xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədri Elçin «Vətən» Cəmiyyətinin adi iş günlərindən, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla əlaqələrin möhkəmləndirilməsindən söhbət açır.*

«Vətən» Cəmiyyətinin rəyasət heyətinin sədri, yazıçı Elçinin kabinetində ingilis, alman, holland dillərində kitablar, Türkiyədə və ərəb ölkələrində buraxılan qəzetlər, Fransa jurnalları diqqəti cəlb edir. Onlar stolların, kresloların üstünə, rəflərə düzülmüşdür.

Haqqında danışdığımız bu ədəbiyyat xarici ölkələrdən son vaxtlar göndərilmişdir. Axı, «Vətən» Cəmiyyəti öz fəaliyyətinə bu yaxınlarda başlamışdır: o, cəmi yarım ildir ki, yaradılmışdır.

«Frans islam» jurnalında və digər kütləvi nəşrlərdə müasir Azərbaycan ədəbiyyatının inkişafı haqqında tədqiqatlara, əlyazmalarının fotosurətlərinə, Şərq miniatürlərinə rast gəlmək mümkündür. Digər nəşrlərdəki məqalələrin sərlövhələrində «Azərbaycan» sözü, Nizaminin, M.F.Axundovun, Mirzə Şəfinin və Nəsiminin adları tez-tez təkrar olunur, Bakı memarlarının şəhərsalma sahəsində təcrübəsi, qədim abidələrin bərpası, Azərbaycan xalça sənətinin ustaları, ədəbiyyatımızın gənc qüvvələri haqqında yazılar, şerlər, hekayələr verilir. Görünür, oxucuların bütün bunlara tələbatı böyükdür. Açıq dənizdəki nadir neftçilər şəhərində, Şamaxı rəsədxanasında, kosmik proqramların iştirakçısı olan laboratoriyalarda çəkilən fotoşəkillər, Azərbaycan teatrlarının tamaşalarından səhnələr, alimlərin, artistlərin və idmançıların şəkilləri verilmişdir.

Elçin deyir ki, onsuz da böyük olan poçtumuzun həcmi getdikcə artır. Dünyanın bütün guşələrində yaşayan azərbaycanlılar, habelə Qafqazın və Zaqafqaziya respublikalarının tarixini öyrənən türkoloqlar, şərqşünaslar, alimlər «Vətən» Cəmiyyətinin yaradılmasından xəbər tutmuş və bizimlə əlaqə yaratmağa tələsmişlər. İlkin hesablamalara görə ABŞ-da 150 mindən çox, Fransada 70 min, AFR-də 180 min, İsveçdə, Hollandiyada, Norveçdə, Da-

nimarkada 100 mindən çox, Qərbi Berlinin, İspaniyanın və Avstriyanın hər birində 20 min azərbaycanlı yaşayır. Yaponiyada, Avstraliyada, Pakistan və Latın Amerikası ölkələrində də milliyyətcə azərbaycanlı olan minlərlə adam yaşayır və işləyir. Onların arasında görkəmli alimlər və incəsənət ustaları, biznesmenlər və siyasi xadimlər, idmançılar, jurnalistlər, rəssamlar və yazıçılar vardır. Bu adamlar təhsil almışlar, ictimai və siyasi həyatda fəxri yer tuturlar. Azərbaycan xalqı böyük xalqdır.

Cənubi Azərbaycanda onların sayı 20 milyona yaxındır. Bakı, Naxçıvan, Şamaxı və Şuşa kimi Təbriz, Ərdəbil, Xoy, Sərab və digər şəhər və kəndlər də onlar üçün vətəndir. Onlar burada dünyaya gəlmişlər, ata-babaları, ulu babaları da burada yaşamışlar. İraqdakı Kərkük kimi Türkiyədəki Qars, Ərzurum və İqdır da azərbaycanlılar üçün vətəndir.

Bununla belə həmvətənlərimizin bir çoxu qürbətdə – dünyanın ən müxtəlif ölkələrində məskən salmışdır, orada qərib kimi, gəlmə kimi yaşayırlar. Vətəndən didərgin düşmüş bu tənha adamlarla çox vaxt hesablaşmır, onları özləri çaldıqları havaya oynamağa məcbur edirlər. Çox zaman onların qisməti tənhalıq olur.

Bəs necə olmuşdur ki, bu adamlar gedib qürbətə çıxmışdılar? Onların taleyi necədir? Həmvətənlərimizi nələr gözləyir? Təbiidir ki, talelər müxtəlifdir. Onları nələr gözlədiyini isə demək asan deyildir. Ehtimal ki, bu məsələdə bizdən, dünyagörüşümüzün genişliyindən, onların dərdinə şərik çıxmaq bacarığımızdan, xeyirxahlığımızdan, hər şeyi obyektiv ayırd etməyimizdən, keçmiş günahları bağışlamağımızdan və unutmağımızdan çox şey asılı olacaqdır.

Bağışlamaq və unutmaq... Uzun illər, hətta onilliklər boyu Ukraynada Qruşevskini burjua millətçisi kimi səciyyələndirirdilər. Ümumiyyətlə, ona kifayət qədər damğa vurmuşlar. Halbuki o, böyük alim, vətənpərvər idi. İndi onun adı və əsərləri xalqa qaytarılmışdır. Böyük Şalyapinin, Buninin, Raxmaninovun adları kimi. Kitabsevərlər Nabokovun, Piter Ustinovun əsərlərini layiqincə qiymətləndirə bilmişlər. Onların yaradıcılığı dünya mədəniyyətində böyük hadisədir. Halbuki uzun müddət bu barədə susmuşlar. Mənəvi təmizlənmə prosesi ali ədalətə və müdrikliyə dəlalət və xidmət edir. Bu proses xeyirxahlığımızı, müdrikliyimizi və qəlbimizin səxavətini xeyli artırmış, planetimizdə bizə daha böyük hörmət və nüfuz qazandırmışdır.

Düşmənlərimizə münasibət aydındır: onlar düşməndirlər. Ancaq yaxşı ki, dostu düşməndən ayırmaq üçün indi bizim sağlam düşüncəmiz, obyektivliyimiz vardır. İndi məlum olur ki, ağ mühacirlərin heç də hamısı vicdanını itirməmiş, əksinə, onların bir çoxu Vətənə bacardığı qədər xidmət etmişdir. Sizə lap təzə bir misal gətirmək istərdim. Həmin misalı «Literaturnaya qazeta»da bu yaxınlarda dərc olunmuş materialdan götürmüşəm. Əfqanıstan əksinqilabçılarına əsir düşənlər arasında bir cavan rus oğlan da olmuşdur. Həyatını xilas etmək naminə, o, özünü siyasi mühacir kimi qələmə vermiş, Qərbdən sığınacaq istəmiş, televiziya ilə çıxış etmişdir. Sonra isə o, evə tələsmiş, ölkə onu başa düşmüş və bağışlamışdır.

Gəlin ayırd etməyə çalışaq: necə olmuşdur ki, xaricdəki həmyerlilərimiz qürbətə gedib çıxmışlar? Onların bir hissəsi Azərbaycanda Sovet hakimiyyətinin qurulmasını qəbul etməmiş, 1920-ci ildə, daha dəqiq desək, iyirminci illərdə Vətəni tərk etmişdir. Həmvətənlərimizn bir qismi tezliklə başa düşmüşdür ki, Vətənsiz, doğma xalqsız yaşaya bilməyəcəkdir və odur ki, geri qayıtmışdır. Əksəriyyətinin taleyi isə faciəli olmuşdur. Onlar Avropada gəzib-dolaşmış, Vətən həsrətindən üzülmüş və yoxsulluq içərisində ömürlərini başa vurmuşlar. Hətta varlı adamlar – özü ilə pul və qiymətli ziynət şeyləri aparanlar da Qərbdə xoşbəxt ola bilməmişdilər. Məlumdur ki, xüsusi idarələr, üzdəniraq xeyirxahlar, hər yerdə kifayət qədərdir. Onlar öz siyasi oyununda mühacirlərdən istifadə etməyə çalışmışlar: mühacirlərin taleyi ilə oynamış, onları bir-birinin üstünə salışdırmışlar. Onların demək olar ki, hamısı indi həyatdan köçmüşdür. Lakin uşaqları, nəvələri və nəticələri qalır. Əksəriyyəti də öz dilini bilmir, doğma xalqın adət-ənənələri ilə az tanışdır.

Bütün bunlara baxmayaraq onlar azərbaycanlıdırlar. İllər keçdikcə onlarda Vətən hissi, doğma yurdun taleyinə, tarixinə, nailiyyətlərinə maraq hissi boy atıb böyüyüb.

Avropanın bir sıra digər ölkələrində olduğu kimi, misal üçün Fransada yaşayan azərbaycanlıların bəzisi, ABŞ-dakı həmvətənlərimiz faşizmə qarşı mübarizədə tərəqqipərvər qüvvələrin tərəfində çıxış etmişlər. Mən belə hesab edirəm: Vətən ona görə Vətəndir ki, övladlarını heç vaxt unutmur. Yaxşı ki, uzun illər sürən səhv münasibətdən sonra, nəhayət, bunu biz də dərk etməyə başladıq.

Mühacirliyin ikinci dalğası 40-cı illərə təsadüf edir. Bu adamların taleyi daha acınacaqlı, daha ümidsiz olmuşdur. Faşistlər başqa millətlərin övladları ilə birlikdə minlərlə azərbaycanlını da köçürülən şəxslər üçün olan düşərgələrə doldurmuşdular. Bu oğlanlar faşist cəhənnəmini – Osventsim və Terezin, Treblinka və Daxau ölüm düşərgələrinin fəlakətlərini öz gözləri ilə görmüşlər.

Onlar doğma torpağı müdafiə edərkən əsgəri borcu ləyaqətlə yerinə yetirmişdilər. Vətənə xətər yetirməyi xəyallarına belə gətirməmişdilər. Lakin Stalin rejimi onların hamısına düşmən damğası basmış, adlarını düşmənlərin siyahısına yazmışdı. Bu sovet vətəndaşları yaxşı bilirdilər ki, qayıdanda hər birini nə gözləyir – həbsxana, Kolıma, taxta-şalban tədarükü və ölüm. Buna baxmayaraq bir çoxu təhlükədən çəkinməyib qayıdırdı.

Lakin qürbətdə qalanları tənhalıq, qohum-əqrəbadan ayrılıq, qürbət elin məişətinə, həyatına məşəqqətli uyğunlaşma perspektivi gözləyirdi. Doğrudur, bizə taleyi uğurlu adamlar haqqında da məlumat gəlir. Onlar evlənmiş, ailə qurmuş, səhmlər və əmlak sahibi olmuşlar. Lakin bu, bir istisnadır. Yəqin ki, ömrünü qürbətdə başa vuran hər on nəfərdən doqquzunun taleyi üzünə gülməmişdir. İndi sağ olanlar da, həyatdan köçənlər də ömrünün son gününədək belə bir qorxunc fikir içində olmuşlar ki, Vətən onlardan üz döndərmiş, «satqın» sözü ilə damğalanmışdır. Axı, əsir düşmüş bu adamlar öz azadlığını Vətənin istiqlaliyyəti və azadlığı uğrunda qurban vermiş, qanlarını əsirgəməmişdilər.

Bu yaxınlarda mən AFR-ə səfər zamanı Münxen qəbiristanlıqlarından birində həmyerlilərimizin məzarlarına rast gəldim. Mənə dedilər ki, bu qəbirlər müvəqqətidir, sonra olmayacaq. Orada qayda belədir: dəfn zamanı bu üç arşın torpaq üçün pul verməlisən. Bir neçə il sonra yenə torpaq haqqı ödəmək lazımdır. Sonra bu proses vaxtaşırı davam edir. Həmvətənlərimizin bir çoxunun isə nə yaxın qohum-əqrəbası, nə də dostları qalıb. Onların sümükləri öz yerlərini daha varlı mərhumlara verəcəkdir. Hətta adları da qalmayıb. Bax, beləcə izsiz-tozsuz itkin düşürlər.

Mən «bütün xalqların və bütün dövrlərin rəhbəri»nin tərəfdarlarının dəlillərini arabir eşitməli oluram. Xoşlarına gələn, ürəklərinə yatan Stalin dövrünü bəh-bəhlə xatırlamaq üçün onların hərəsi bir səbəb tapır. Bir görün necə də «yaxşıdır»: əmr verib hamını itaətə gətirmək, əmrə boyun əyməyənləri isə ilim-ilim itirmək. Nə kimisə inandırmaq lazım gəlir, nə də demokratiya oyunu oynamaq. Bəlkə də vaxt bəzilərinə romantik ilğımda görü-

nür. Elə buna görə də onlar ölkəmizi, adamları çulğalamış insan faciəsinin miqyasını dolğun təsəvvür edə bilmirlər. Bu elə bir dövr idi ki, rejim insanı əzir və eybəcərləşdirirdi, özünü isə təriflməyə, şöhrətləndirməyə məcbur edirdi. Maqadan haqqında da, Vorkuta haqqında da, həbs düşərgələri haqqında da çox eşitmişik. Lakin sovet hərbi əsirlərinin, köçürülmüş şəxslərin, yaşamaq hüququndan məhrum olunanların, bir növ ikinci növ adamların nə cür cəhənnəm əzabı çəkdiklərini dərindən bilmirik. Mənə həmişə elə gəlir ki, biz hamımız onlara borcluyuq, onlara kömək əlimizi uzatmalı, qırx ildən çox müddətdə gözlədikləri xoş sözləri deməliyik.

Bütün ömrüm boyu yazıçılıq sənəti ilə məşğul olmuşam. İndi dostların, tanışların, oxucuların bir çoxu mənə belə bir sual verir: gördüyüm bu ictimai iş həyatımın başlıca məqsədinə – yazıçılığa maneəçilik törətməyəcəkmi? Buna necə cavab verə bilərəm? Əlbəttə, mane olacaq. Burada iş çoxdur. Bu işin nə qədər böyük olduğunu təsəvvür etmək belə çətindir. Gələcəkdə işimiz daha da artacaqdır. Uzun müddətdən bəri üzərində işlədiyim romanı vaxt tapıb qurtara bilmirəm.

Suala isə belə cavab verirəm: indi məşğul olduğum iş mənim üçün yazıçı əməyi qədər mühümdür. Bu bir də ondan görünür ki, yazıçı həmkarlarım da, Azərbaycanın rəssam və alimləri də bu işdə bizə canla-başla kömək edirlər. Yaxşı başa düşürəm ki, onlar bu işin əhəmiyyətini dərindən duymuşdular, xaricdəki həmvətənlərimizin faciəli taleyinə biganə deyillər.

Mühacirlərimizə kömək əli uzatmağa, qonaq getməyə, həmvətənlərimizi qonaq çağırmağa, dinləməyə və ruhlandırmağa, onlarla əməkdaşlıq etməyə bizdə mənəvi bir ehtiyac yaranmışdır. İnsanlar meşşanlıqdan xilas olub, yaxa qurtarıb, Kainat miqyasında düşünən vətəndaşa çevrilməlidirlər. Özgə dərdini, özgə ağrısını özününkü hesab etməlidirlər. Ümidvaram ki, təmizlənmə prosesi bizi məhəbbət və dostluğun əsl gücünə inanmağa məcbur edəcəkdir, dünyanı zora əsaslanan ibarəbazlıq və yumruq idarə etməyəcəkdir.

İndi səhvləri düzəldərək, hamımızın nifrət bəslədiyimiz damğalardan azad olmaq, müasir dünyanın mühacirət kimi böyük və mürəkkəb hadisəsini, o cümlədən, Azərbaycan mühacirətini dərindən araşdırmaq vaxtı gəlib çatmışdır. Onların əksəriyyəti, inanın mən bunu özgələrdən eşitməmişəm, xarici ölkələrdə çox-çox azərbaycanlı ilə tanışlıq, söhbət və mübahisəyə əsaslanaraq

deyirəm, – təkrar edirəm, əksəriyyət özünü qətiyyən ləkələməmiş, qəlbində kin, intiqam hissi bəsləməmişdir, əksinə, ürəyində ölkəmizə övlad duyğusunu əzizləmiş, ana dilini və adət-ənənəsini qoruyub saxlamışdır; hələ bu harasıdır, mənəvi sərvətlərimizin ehtiraslı təbliğatçısına çevrilmişdir. Bu adamların əksəriyyəti ziyalıdır, əməksevərdir, hörmət qazanmışdır, ailələri, uşaqları var. Doğrudur, bir çoxunun arvadları başqa millətlərdəndir. Lakin uşaqları atalarının Vətənini tanımasalar da, Azərbaycana biganə deyillər: bir-birinə meyl edir, qeyri-formal birliklər yaradırlar.

Bakıda, «Vətən» Cəmiyyətində bu təşkilatların fəaliyyəti, onların üzvləri haqqında hələlik istənilən qədər məlumat yoxdur. Bununla belə, sizə deyə bilərəm ki, Avropa və Amerikanın bir sıra ölkələrində mütərəqqi, yaxud loyal cəmiyyətlər yaradılmışdır. Lakin bildiklərimiz, mətbuatdakı yazılar, Bakıda və xarici ölkələrdə görüşlər əsasında bu barədə ümumi təsəvvür yaratmaq olar. İspaniyada bu cür cəmiyyətin 100, AFR-də 500, Qərbi Berlində də 500, İsveçrə və İngiltərənin hər birində 100, ABŞ-da 150, Fransada 200, Türkiyədə 1000 üzvü vardır və s. cəmiyyət və mərkəzlərə daxil olan həmin adamlar öz üzərlərinə müəyyən öhdəliklər götürmüşlər, fəal ictimai iş aparırlar, minlərlə, on minlərlə adama arxalanırlar. Onların iştirakı ilə sərgilər, sovet adamları ilə görüşlər, simpoziumlar keçirilir. Həmin təşkilatların nəzdində folklor kollektivləri, mədəni-maarif dərnəkləri, mahnı və rəqs ansamblları, Azərbaycan dili kursları yaradılmışdır. Məsələn, Birləşmiş Ştatların Nyu York şəhərində «Azərbaycan mədəniyyət mərkəzi» fəallıq göstərir, həmvətənlərimizin çoxunda böyük maraq doğurur. Qərbi Almaniyanın Bonn şəhərindəki «Ocaq» Cəmiyyətinin üzvləri maraq dairəsinin genişliyi, gördükləri işin böyük miqyası ilə fərqlənirlər, Qərbi Berlində azərbaycanlılar cəmiyyəti və «Qaynarca» mərkəzi vardır. Kopenhagendəki Azərbaycan mədəni cəmiyyəti yalnız həmyerlilərimiz arasında deyil, danimarkalılar arasında da tanınmışdır. Fransanın Strasburq Universiteti nəzdində Azərbaycan Universiteti yaradılmışdır. Professor İren Məlikova onun banilərindən və rəhbərlərindəndir. AFR-də «Ana dili», Qərbi Berlində isə «Qaynarca» qəzetləri nəşr olunur. Bu qəzetlər mütərəqqi istiqaməti olan nəşrlərdir, Azərbaycan, onun müvəffəqiyyətləri, iqtisadiyyat və elminin inkişafı haqqında bolluca məlumat dərc edirlər, Azərbaycanın söz ustalarının şerlərini, əsərlərindən parçalar verirlər.

İsveçrədə yaradılmış «Cəfa» peşəkar vokal-instrumental ansamblı şöhrət qazanmışdır. Onun repertuarına Azərbaycan musiqi korifeylərinin əsərləri, folklorumuzdan nümunələr daxil edilmişdir. Belə bədii kollektivlər sayəsində Azərbaycan musiqisi– həm klassik, həm caz, həm də xalq musiqisi dünya incəsənətinin amillərindən birinə çevrilmişdir. Məsələn, Azərbaycan xalq musiqisinin bu yaxınlarda ABŞ-da müvəffəqiyyəti göstərir ki, muğam hamı üçün anlaşıqlıdır. Musiqimizin bu janrını yalnız ayrı-ayrı musiqi biliciləri deyil, bütün dinləyici kütləsi layiqincə qiymətləndirmişdir. Məhz bu səbəbdən görkəmli sənətkarlarımız Zeynəb Xanlarova, Polad Bülbüloğlu, Habil Kaman və başqaları böyük şöhrət qazanmışlar.

Yenə də təkrar edirəm, azərbaycanlıların xarici ölkələrdəki cəmiyyətlərinin xarakteri, işinin istiqaməti haqqında məlumatımız hələlik istənilən səviyyədə deyil. Əlbəttə, onların sayı yuxarıda adlarını çəkdiyimdən xeyli çoxdur. Onlar minlərlə adamı birləşdirir. Həmvətənlərimizin səyləri sayəsində oxucular yalnız M.F.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov kimi klassiklərimizin əsərləri ilə deyil, müasir yazıçılarımızn yaradıcılığı ilə də tanış olmaq imkanı əldə etmişlər. Düzünü bilmək istəsəniz indi Azərbaycan mövzusu Avropa və dünya mədəniyyətində yeni baxımdan, daha ucadan və daha sanballı səslənir. Bu, əlbəttə, qəlbimizi qürur hissilə doldurur, həm də xalq qarşısında məsuliyyətimizi artırır: biz düşünməliyik ki, nə iş görürük, necə görürük və dünya ictimaiyyətinin mühakiməsinə nəyi veririk.

Parisdə yaşayan həmvətənimiz xanım Um-Əl-Banindən bu yaxınlarda məktub almışam. Bu qadının haqqında ayrıca danışmağa dəyər. İndi onun yaşı 80-i keçib. Bakıdan 65 il əvvəl ayrılıb. Bakı milyonçuları Şəmsi Əsədullayev və Musa Nağıyev onun babaları olmuşlar. Um-Əl-Banin yazıçıdır, ədəbiyyatşünasdır. Məşhur yazıçı İvan Buninlə dost olmuş, məktublaşmışdır. Son illər isə o, ədəbiyyat tarixi üçün çox qiymətli olan bu məktubları nəinki çap etdirmiş, hətta böyük söz ustası haqqında povest yazmışdır.

Um-Əl-Banin məktubu şəxsən mənə yazmışdır (rus dilində). Məktubdan görünür ki, həmyerlimiz Sovet İttifaqında, o cümlədən Azərbaycanda baş verən hadisələri diqqətlə izləyir, eyni zamanda, müasir Azərbaycan yazıçılarının əsərləri ilə tanış olmağa vaxt tapır. Gizlətmirəm, onun məktubunda «Mahmud və Məryəm» romanım, «Parisdə avtomobil qəzası» adlı yeni hekayələr məcmuəm haqqında tərifli sözlər oxumaq mənim üçün xoş idi.

Xanım Banini qonaq çağırmaq istəyirdik. Lakin bu məsələni bir qədər təxirə salmağı lazım bildik. Yenə də gizlətmək istəmirəm, bu, Zaqafqaziyada məlum hadisələrlə (söhbət Dağlıq Qarabağda və onun ətrafında baş vermiş hadisələrdən gedir) bağlıdır.

«Ana dili» qəzetinin redaktoru, məşhur ictimai xadim, jurnalist Nurəddin Qərəvi respublikamızın qonağı olmuşdur. Yaxın vaxtlarda İngiltərədən, Türkiyədən və AFR-dən nümayəndə heyətlərini qəbul etməyə hazırlaşırıq. Zeynəb Xanlarovanın bədii rəhbəri olduğu musiqi kollektivi Cəmiyyətimizin xəttilə Danimarkaya gedəcəkdir. Azərbaycan xalça sənətinə dair II beynəlxalq simpoziumla əlaqədar Bakıya gəlmiş türkiyəli Tahir Səbuhi, Oksford universitetinin professoru Turxan Gəncəyi ilə çox məzmunlu söhbətlərimiz olmuşdur. Ceyhun bəy Hacıbəyovun oğlu Timuçin Hacıbəylidən aldığımız hədiyyə bizi çox mütəəssir etdi. O, «Arşın mal alan»ın librettosunun əlyazmasını göndərmişdir; əlyazmasını atası yazmışdır.

Lakin Cəmiyyətin iş diapazonu müqayisəedilməz dərəcədə geniş olmalıdır. Cənubi Azərbaycandan iki qız bizim tövsiyəmizlə bu yaxınlarda N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna qəbul edilmişdir. Qoy onlar ilk qaranquşlar olsunlar! Bu işin davam etdirilməsi yaxşı olardı: axı, indi Bakı xarici ölkələr üçün də kadrlar hazırlayan iri Ümumittifaq mərkəzinə çevrilmişdir. Həmvətənlərimizin uşaqlarını yay fəslində pioner düşərgələrində dincəlməyə dəvət etmək də faydalı olardı, bu cür əməkdaşlığın formaları çox, təcrübəmiz isə zəngindir. Bütün bunlar yaxınlaşmağımıza kömək edəcək, xarici ölkələrdə dostlarımızın sayı artacaqdır.

İlk addımlarımız haqqında ümumi şəkildə söhbət açmağa çalışdım. Məncə, yarım ildən sonra daha geniş söhbət edə bilərik. «Bakı» və «Baku» axşam qəzetlərinin oxucularına söz verirəm ki, bu söhbəti davam etdirəcəyəm.

*Müsahibəni Mark Peyzel apardı.*
*1988.*

## «ƏZİZİM, VƏTƏN YAXŞI...»

*Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri, yazıçı Elçinlə Azərinform müxbirinin söhbəti*

Bir çox illər ərzində Azərbaycan xalqının bir neçə nəslindən olan minlərlə adam xaricdə qohumlarının, onlarla əlaqələrin olub-olmaması barədə anket suallarına cavab verərkən nə edəcəyini bilmir, bəzən də əsl vahimə hissi keçirirdi.

Əlbəttə, bir çox azərbaycanlı ailəsinin İranda və ya Türkiyədə, eləcə də başqa ölkələrdə qohumları vardı. Axı, xaricdə qohumlar necə də olmaya bilərdi ki, əgər keçən əsrdə bütöv bir xalq sanki bıçaqla iki qeyri-bərabər hissəyə bölünmüşdür, beləliklə də qardaş və bacı, ata və oğul, ana və qız hərəsi sərhədin bir tayında qalmışdır... Əsrimizin 20-ci illərində isə İran pasportu olan bir çox adamlar güclə xaricə göndərilmişdi. Buna görə də hər birimiz anket doldurarkən əvvəlcədən bilirdik: xaricdə qohumların olması qulluq işlərinə və ya şəxsi taleyə pis təsir göstərəcək. Buna görə də bəziləri anketlərin suallarına cavab verərkən özlərinin xariclə «qohumluğunu» gizlədirdilər. Amma buna qohumluq da demək düzgün olmazdı: axı, onlar bir-birinin görüşünə getmir, məktublaşmırdılar, hətta bəzən sərhəddin o tayında qalmış qohumlarının sağ olub-olmadıqlarını belə bilmirdilər.

Ancaq nə edəsən, Azərbaycan mühacirəti reallıqdır. Uzun illər biz bu barədə susurduq, yeri gələndə isə bu mühacirətdən, əslində, bixəbər olduğumuz halda, onu Müsavat, antisovet mühacirəti adlandırırdıq. Yalnız indi yenidənqurma və aşkarlıq bu mühacirətlə əlaqə yaratmağımıza, taleyin və ya tarixin hökmü ilə qürbətə gedib düşənlər haqqında məlumat almağımıza imkan verib.

– Elçin müəllim, deyə bilərsinizmi ki, Azərbaycan mühacirəti nə vaxt və necə yaranıb, indi xaricdə məskunlaşmış azərbaycanlıların sayı nə qədərdir və onlar hansı ölkələrdə yaşayırlar?

– Azərbaycan mühacirəti çox spesifik anlayışdır. Onun ictimai-siyasi siması eyni deyildir. Mühacirətin təməlini ziyalı núma-

yəndələri hələ əsrin əvvəllərində qoyublar. Bunlardan çarizmin müstəmləkəçilik siyasətinə qarşı fəal mübarizə aparmış, xalqın istiqlaliyyəti və maariflənməsi yolunda yorulmadan çalışmış Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev kimi görkəmli qələm sahiblərini göstərə bilərəm. 10-cu illərin əvvəllərində onlar Vətəni tərk etməyə məcbur olublar. Bu gün onların nəsilləri müxtəlif ölkələrdə yaşayırlar. Misal üçün, Ə.Hüseynzadənin oğlu Səlim Turan görkəmli rəssamdır, Parisdə çalışır, Ə.Ağayevin qızı Sürəyya xanım Ağaoğlu İstanbuldadır, Türkiyənin ilk qadın vəkillərindən biridir.

– Bundan başqa, ötən 70 il ərzində Azərbaycan üç mühacirət mərhələsi keçib.

– 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Məmməd Əmin Rəsulzadə, Ceyhun bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşov və başqaları kimi görkəmli ictimai-siyasi xadimlər, ziyalılar, əhalinin müxtəlif təbəqələrinin nümayəndələri İrana, Türkiyəyə, Avropa ölkələrinə mühacirət etməyə məcbur olmuşlar. İndi onların nəsilləri xarici ölkələrdə yaşamaqdadırlar. Məsələn, məşhur neft sənayeçiləri Musa Nağıyev ilə Şəmsi Əsədullayevin nəvəsi Ümmulbanu yazıçıdır, Parisdə yaşayır. Onun fransız dilində yazdığı «Qafqaz günləri» adlı avtobioqrafik romanı əsrin əvvəlində Azərbaycan mühiti ilə bağlı faktlarla zəngindir. Üzeyir Hacıbəyovun kiçik qardaşı Ceyhun bəy Hacıbəylinin oğlu Timuçin Hacıbəyli Fransanın Nitsa şəhərində yaşayır və Azərbaycan ictimai fikir tarixində görkəmli yer tutan atasının zəngin arxivini öyrənməklə məşğuldur. Yeri gəlmişkən deyim ki, Şərqdə, o cümlədən bütün İslam aləmində ilk Azərbaycan Demokratik Respublikası ilə bağlı olan bu tipli arxivlər xalqımızın mənəvi sərvətidir və biz onlara biganə qala bilmərik. «Vətən» Cəmiyyəti Timuçinlə sıx əlaqə saxlayır. Maraqlıdır ki, Timuçinin oğlu Taiti adalarına köçüb və məşhur caz ifaçılarından biridir.

– Mühacirlərin daha bir kateqoriyası Böyük Vətən müharibəsindən sonra əcnəbi ölkələrdə qalmağa məcbur olmuş azərbaycanlılardır. Aydındır ki, müharibədə insanı üç fəlakət gözləyir: həlak olmaq, yaralanmaq və əsir düşmək. Stalinizmin dəhşətli cinayətlərindən biri də o idi ki, müharibədə əsir düşənlərin hamısı bir qayda olaraq xalq düşməni elan edilirdi və Hitler əsarətindən Vətənə qayıdan minlərlə əsgər və zabit sonra həbs düşərgələrinə salınırdı. Bütün ürəkləri ilə Vətənə bağlı olsalar da, qayıda bilmə-

yən keçmiş hərbi əsirlərin bir qismi qohumlarına zərər vurmaqdan ehtiyat edib doğma yurda qayıtmamış və qürbətdə qalmışdır.

Cənubi Azərbaycandan olan 20 milyon azərbaycanlıya gəldikdə, onlar tarixin və müxtəlif ictimai quruluşların iki hissəyə böldüyü qədim Azərbaycan torpağında yaşayırlar, lakin İrandan bir çox ölkələrə baş götürüb getmiş həmvətənlərimiz də bizim üçün «Azərbaycan mühacirəti» anlayışına daxildir, üstəlik, onun əsas hissəsini təşkil edir.

– Xarici ölkələrdəki azərbaycanlıların sayı barədə məlumatınız varmı?

– Bəli var. Lakin bu rəqəmlər çox təxminidir, çünki xüsusi siyahıyaalma aparılmamışdır. Fikrimizcə, AFR-də 180 min, ABŞ-da 150 min, Fransada 70 min, Qərbi Berlində 10 min, Hindistanda və Pakistanda 30 min, İsveçdə 10 min, İsveçrədə, Norveçdə, Danimarkada və Hollandiyada 100 mindən artıq, Yaponiyada və Avstraliyada 3 min, Kanadada 8 min azərbaycanlı yaşayır. Azərbaycanlıların yaşadıqları coğrafi ərazi belədir. Bundan başqa, Türkiyədə 2 milyonadək, İraqda yarım milyon azərbaycanlı yaşayır.

Bu gün xaricdə azərbaycanlıların 35 cəmiyyəti fəaliyyət göstərir. Bunların yalnız ikisi – Ankaradakı «Azərbaycan kültür dərnəyi» və İstanbuldakı «Azərbaycan-Türk Kültür Cəmiyyəti» istisna olmaqla, qalanları əsas etibarilə Cənubi Azərbaycandan olan həmvətənlərimizin yaratdıqları cəmiyyətlərdir.

– «Vətən» Cəmiyyəti xaricdəki həmvətənlərimizlə necə əlaqə saxlayır, ilk il yarımlıq fəaliyyəti müddətində Cəmiyyətin hansı tədbirlərini xüsusilə qeyd etmək istərdiniz?

– «Vətən» Cəmiyyəti siyasi təşkilat deyil, ictimai təşkilatdır, həmvətənlərimizlə mədəni əlaqələri qaydaya salmaqla məşğul olur. Azərbaycan mədəniyyətinin uğurları, tariximiz və və ümumən xalqımızın mənəvi sərvəti barədə ona məlumat verir. Məhz bu cəhətimizin bütün aparıcı xəttini təşkil edir.

Biz xaricdə olan bütün Azərbaycan cəmiyyətləri ilə əlaqə yaratmışıq, onlarla məktublaşırıq, kitab, val mübadilələri edirik. Bir sıra ölkələrdə, o cümlədən, Avstriyada, İngiltərədə, Kanadada, Norveçdə, ABŞ-da, Türkiyədə, Fransada, AFR-də, İsveçdə və başqa ölkələrdə yaşayan həmvətənlərimiz bizim dəvətimizlə Azərbaycana qonaq gəlmişlər. Məsələn, M.F.Axundovun anadan olmasının 175-ci ildönümü münasibətilə təşkil olunmuş şənliklərdə azərbaycanlılar – müxtəlif ölkələrin görkəmli elm və mədə-

niyyət xadimləri iştirak etmişlər. «Vətən» Cəmiyyəti əcnəbi ölkələrdəki azərbaycanlılarla Vətən arasında mənəvi bir körpü olmalıdır. Özü də ikitərəfli hərəkətə malik olan bir körpü. Bu, onun başlıca məqsədidir.

Bir tərəfdən, çalışmaq lazımdır ki, həmvətənlərimizin köməyi ilə Azərbaycan xalqını xaricdə layiqincə tanıdaq. Onda amerikalı da, fransız da, ingilis də, alman da görüb yəqin edər ki, Azərbaycan xalqı doğrudan da, yüksək mədəniyyətə, qədim və zəngin tarixə malik bir xalqdır. Bir sözlə, biz xalqımız barədə xaricdə dolğun, obyektiv təsəvvür yaranmasına kömək etməliyik.

Digər tərəfdən isə həmvətənlərimizi Vətənə cəlb etmək də eyni dərəcədə mühüm vəzifədir. Bu mənada iyul ayında Qərbi Berlində keçirilmiş Azərbaycan mədəniyyəti günləri diqqətəlayiq hadisədir. Mədəniyyət günləri orada fəaliyyət göstərən Azərbaycan-Alman Mədəni Əlaqələr Cəmiyyətinin iştirakı ilə təşkil edilmişdi. Qərbi Berlin Avropanın iri mədəniyyət mərkəzlərindən biridir və orada Azərbaycan tarixinə, ədəbiyyatına, teatrına dair disputların, Azərbaycan ifaçılarının konsertlərinin, əlbəttə, çox böyük əhəmiyyəti olmuşdur. Yeri gəlmişkən, sevindirici haldır ki, Qərbi Berlində konsertlərdə bizim artistlərimizlə birlikdə cənubi azərbaycanlı ifaçılar da çıxış etmişlər.

– Mətbuatda xəbər verildiyi kimi, Türkiyənin Ərzurum şəhərində beynəlxalq folklor festivalında Azərbaycan artistləri çox böyük müvəffəqiyyət qazanmışlar. Bu səfəri təşkil edən «Vətən» Cəmiyyəti Azərbaycan xalça sənəti sərgisinin keçirilməsinə də kömək göstərmişdir. Xalça sənətimiz bir çox mütəxəssisləri və sərginin tamaşaçılarını heyran qoymuşdur.

– ABŞ-da, Danimarkada, İsveçdə keçirilmiş görüşlər və verilmiş konsertlər Azərbaycan mədəniyyətinin əsl bayramlarına çevrilmişdir. SSRİ xalq artisti Zeynəb Xanlarova «Vətən» Cəmiyyətinin xəttilə Birləşmiş Millətlər Təşkilatında xeyriyyə konserti vermişdir. Cəmiyyətin nümayəndələri – yazıçılar, bəstəkarlar, rəssamlar, alimlər, ifaçılar Avropanın bir sıra ölkələrinə ezam edilmişlər. Ankaranın «Azərbaycan kültür dərnəyi»nin dəvətilə xalq şairimiz Bəxtiyar Vahabzadə, tibb elmləri doktoru, professor Nurəddin Rzayev və mən Türkiyədə olmuşuq. Türkiyə hökumətinin üzvləri – mədəniyyət, turizm və səhiyyə nazirləri ilə görüşlər zamanı respublikalarımız arasında mədəni əlaqələri möhkəmlətmək problemlərinə dair maraqlı fikir mübadiləsi etmişik. Tür-

kiyədə yaşayan azərbaycanlılarla mədəni və elmi əlaqələri möhkəmlətmək məsələləri müzakirə olunmuşdur.

– Məlumdur ki, xaricdə Sovet İttifaqına, yenidənqurma siyasətinə çox böyük maraq var. Bəs, Sovet Azərbaycanına necə, respublikamıza da belə maraq göstərirlərmi?

– Əlbəttə göstərilir. Belə marağa səbəblərdən biri də Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələrdir. Təəssüf ki, bu problemi xarici ölkələrdə kifayət qədər yaxşı bilmirlər. Burada ən əvvəl biz özümüz günahkarıq. Çünki xarici ictimaiyyəti tariximizlə, milli mədəniyyətimizlə lazımınca tanış etmirik. Nəticədə xaricdə bizim haqqımızda bəzən səhv təsəvvür yaranır. Bu isə, öz növbəsində, birtərəfli təəssübkeşliyə gətirib çıxarır. Aydındır ki, belə vəziyyəti kökündən dəyişdirmək lazımdır. Bunun üçün isə əl-ələ verib var qüvvə ilə, məqsədyönlü işləmək lazımdır ki, xaricdə xalqımız haqqında obyektiv təsəvvür yaransın. «Vətən» Cəmiyyəti hələ çox iş görməlidir.

– «Vətən» Cəmiyyəti öz fəaliyyətində nə kimi çətinliklərlə qarşılaşır?

– Ən əvvəl xaricdəki Azərbaycan cəmiyyətləri ilə əlaqələri qaydaya salmaq sarıdan çətinlik çəkirik. Bu cəmiyyətlərin birbiri ilə əlaqəsi zəifdir, bir-birinin fəaliyyətindən xəbərsizdirlər. Əksəriyyəti bu yaxınlarda yaradılmışdır, iş təcrübələri yoxdur. Maddi sıxıntı da özünü göstərir. Bizdə bəziləri elə təsəvvür edir ki, guya xaricdəki azərbaycanlıların hamısı milyonçudur, ehtiyac nə olduğunu bilmir. Yox, qətiyyən belə deyildir. Onu da deməliyəm ki, xaricdəki həmvətənlərimizin hamısı böyük həvəslə işləyir, ictimaiyyəti Azərbaycanın mədəniyyəti və tarixi ilə tanış etməyə çalışır. Bu baxımdan xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri nümayəndələrinin birinci beynəlxalq görüşünü keçirmək çox yerinə düşərdi. Odur ki, qüvvəmizi əsirgəmədən belə bir görüşə hazırlaşırıq. Mənə elə gəlir ki, tərəflərin razılığı ilə Bakıya toplaşmaq olar.

Bizim öz daxili çətinliklərimiz də vardır. Çətinliklər, hər şeydən əvvəl, onunla bağlıdır ki, hələlik valyutamız yoxdur. Bu da xaricdə böyük bədii-ictimai tədbirlər təşkil etməyə imkan vermir. Bunu həmvətənlərimiz bizdən dəfələrlə xahiş etmişlər. Azərbaycan dilinə, tarixinə, incəsənətinə və digər məsələlərə dair mühazirələr oxumaq üçün alimlərimizi xarici ölkələrə ezamiyyətə göndərməkdə imkanımız həmin səbəb üzündən məhduddur.

Daha bir problem barəsində: həmvətənlərimiz xahiş edirlər ki, onlara konsertlər, tamaşalar, filmlər yazılmış videokasetlər göndərək. Əlbəttə, bu, xarici ölkələrin sakinlərini Azərbaycanla tanış etməkdə mühüm rol oynayardı. Təəssüf ki maddi-texniki bazamızın zəif olması bütün xahişlərə əməl etməyə imkan vermir.

Nə gizlədim, bəzən biz mənəvi çətinliklərlə də qarşılaşırıq. Məsələn, bu yaxınlarda əcnəbi radiostansiyalardan biri «Vətən» Cəmiyyəti nümayəndə heyətinin ünvanına böhtanlar yağdırmışdı. Lakin bunlar elə ağ yalanlardır ki, bunların üzərində dayanmağımıza dəyməz.

Başa düşürük ki, bunlar azərbaycanlıları gözü götürməyənlərin, onların bədxahlarının, fəaliyyətimizi məhdulaşdırmaq istəyənlərin çirkin əməlidir. Onu da başa düşürük ki, qarşımızda böyük, daha ülvi vəzifələr durur – qürbətdə yaşayan azərbaycanlılarla, öz həmvətənlərimizlə daim əlaqə saxlamalı, Vətən haqqında həqiqəti onlara çatdırmalıyıq.

*Söhbəti A.Şərifov apardı.*
*12 avqust 1989.*

# BİZƏ BİRLİK GƏRƏKDİR

«Vətən» Cəmiyyəti rəyasət heyətinin sədri, görkəmli yazıçımız ELÇİN sentyabrın 10-dan 22-dək Mərkəzi «Rodina» Cəmiyyətinin nümayəndə heyəti tərkibində ABŞ-da olmuşdur. Aşağıda müxbirimizin onunla söhbətini dərc edirik.

– Elçin müəllim, əvvəlcə deyin görək, səfərinizin məqsədi nə idi?

– Nümayəndə heyətinə Moskvanın, RSFSR-in, Ukraynanın, Belorusiyanın, Özbəkistanın, Litvanın, Gürcüstanın, Ermənistanın elm, mədəniyyət və din xadimləri daxil idilər. Azərbayanı mən təmsil edirdim. ABŞ-a yollanmaqda əsas məqsəd mühacirətin nəzəri problemləri, təsnifatı, mənəvi inkişaf təmayülləri, hazırkı dövrdə Sovet İttifaqında milli münasibətlər məsələləri barədə müxtəlif səviyyələrdə fikir mübadiləsi aparmaq idi. Tədbirlər Birləşmiş Ştatların Nyu-York, Los-Anjeles, Frezno, San-Fransisko, Klivlend şəhərlərində keçirildi. Elə buradaca qeyd edim ki, bu şəhərlərdən üçü – Los-Anjeles, Frezno və San-Fransisko Kaliforniya ştatında yerləşir. Həmin ştatdakı mühacirlər əsas etibarilə ermənilərdən ibarətdir. Ştatın qubernatoru da milliyyətcə erməni olan Amerika vətəndaşı Düyməçiyandır.

– Yəqin ki, görüşlərinizdə uydurma Qarabağ problemləri ilə bağlı söhbətlər xüsusi yer tutub.

– Əlbəttə. Bunu mən əvvəldən də bilirdim və necə deyərlər, səfərə hazırlıqlı getmişdim. Qarabağın dağlıq hissəsilə bağlı fitnəkarlıqların bir çox səbəbkarları ABŞ-a köçüb həmin ştatda cəm olublar. Ölkəmilzdən qovulmuş Paruyur Ayrikyan kimi qatı millətçilər yalnız Avropa ilə kifayətlənməyib, bütün dünyada qalmaqal salmaq istəyirlər və tez-tez Kaliforniya ştatına da baş çəkirlər. Deməliyəm ki, bu qüvvələr Amerika ictimaiyyətində, o cümlədən, hətta mütərəqqi dünyagörüşlü elmi dairələrdə yanlış fikir oyatmağa müyəssər ola biliblər.

Oradakı erməni ekstremistləri özlərini son dərəcə davakar ruhda aparır, həqiqətlə üzləşəndə çığır-bağır salırdılar. Los-Anjeles şəhərində yəhudi mühacirlərlə görüşdə məqsədyönlü fikir mübadiləsi gedirdi. Bu zaman Ayrikyan başda olmaqla bir dəs-

tə erməni ekstremist salona hücum etdi. Onlar Dağlıq Qarabağla əlaqədar, Sumqayıt hadisələri ilə bağlı iftiralar yağdırdılar: Sumqayıtda minlərlə erməni öldürülüb; Dağlıq Qarabağ qədim erməni torpağıdır; azərbaycanlılar orada yaşayan erməniləri qul kimi işlədirlər; Stalin Dağlıq Qarabağı Azərbaycan xalqına hədiyyə verib və s.

Mən çıxışımda həqiqəti dinləyicilərə çatdırmaq üçün özümlə apardığım bir çox rəsmi sənədi, dəlil-sübutu salondakılara göstərdim və elə bilirəm ki, bu, obyektiv təsəvvür yaratmaq baxımından xeyirli oldu. Təsəvvür edin ki, yalanla, böhtanla qərib bir ölkədə üz-üzə dayanmaq nə deməkdir...

– Amerikada yaşayan azərbaycanlılarla görüşləriniz haqqında nə deyə bilərsiniz?

– Təxmini hesablamalara görə Birləşmiş Ştatlarda azərbaycanlıların sayı 250 mindən az deyil. Hərçənd, bəzi həmvətənlərimiz söhbətlərdə ABŞ-da 500 mindən çox azərbaycanlı yaşadığını söylədilər. Onların 98-99 faizi Cənubi Azərbaycandan və Türkiyədən köçmüş azərbaycanlılardır. Soydaşlarımızın Amerikanın ayrı-ayrı şəhərlərində fəaliyyət göstərən müxtəlif qurumlu cəmiyyətləri var. Onların bir çoxu Azərbaycanla əlaqəyə can atır. Bu, əlbəttə, çox xoşdur!

– Yeri gəlmişkən, «Vətən» Cəmiyyətinə dünyada yaşayan azərbaycanlıların dəqiq sayı məlumdurmu?

– Çətin sualdır. Ermənistanda eyni funksiyalı cəmiyyət 30 il bundan əvvəl fəaliyyətə başladığı halda, biz cəmi bir il doqquz aydır ki, işləyirik. Buna görə də taleyin hökmü ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların sayı və onların yaşadıqları yerin coğrafi təsnifatı haqqında məlumatımız hələ tam dəqiq deyil, rəqəmlər təxminidir. Bu, bir tərəfdən Cəmiyyətin cavanlığı ilə bağlıdırsa, ikinci tərəfdən də mühacirətimizin Vətənlə əlaqələri baxımından sabitləşmiş ənənələrin zəifliyi ilə bağlıdır. Bütün bunlarla yanaşı, azərbaycanlı mühacirlərin doğma xalqla, Vətənlə bağlı gələcək monolit vətəndaş fəaliyyətlərinə nikbinliklə baxırıq. Mühacirətin əsas hissəsi gənclərdir. Həmin qeyrətli, vətənsevər, səmərəli iş görməyə cəhd göstərən gənclərin böyük bir qismi maddi çətinliklərə baxmayaraq Amerikanın böyük universitetlərinin müxtəlif fakültələrində təhsil alır. Onlar ABŞ vətəndaşlardır.

Güman edirik ki, 15-20 ildən sonra bütün varlığı ilə dilimi-

zin, torpağımızın təəssübünü çəkən görkəmli azərbaycanlı alimlərin, ictimai və dövlət xadimlərinin sorağını Ştatlardan da alacağıq. Amerika demokratik ölkədir. Burada siyasi karyera insanın özündən də, onun məsləkindən, əqidəsindən, mənəvi təmizliyindən də xeyli dərəcədə asılıdır. Bunun üçün biz indidən əlaqələrimizi təmiz və vicdanlı vətəndaş münasibətləri üzərində kökləməyi, Azərbaycanın tarixini, mədəniyyətini, ümumiyyətlə, mənəviyyatımızı həqiqətdə olduğu kimi aşılamağı bacarmalıyıq.

– Amerikanın siyasi və işgüzar dairələrində görüşləriniz, söhbətləriniz haqda nə deyə bilərsiniz?

– Əlbəttə, məni hər yerdə, hər məqamda Dağlıq Qarabağ məsələsinə münasibət maraqlandırırdı. Şəxsən mən səfərdən böyük bir məqsəd güdürdüm. Öyrənim görüm axı, nə haqla, kimlərin fitvası ilə ABŞ senatı bizim daxili işlərimizə qarışır?!

Oxuculara məlum olduğu kimi, bu il iyul ayının 18-də bir neçə senator ABŞ senatında Dağlıq Qarabağ hadisələri ilə bağlı məsələ qaldırmış və gündəliyə mahiyyət etibarilə kökündən yanlış olan müddəalar salmışlar. Ola bilərdi ki, bunun bir səbəbi informasiyaların birtərəfliliyi ilə bağlıdır. Ancaq qərəzli məqsəd güdülməsi də açıq-aşkar duyulur. Əzəl fikrimiz çin oldu. ABŞ-da yaşayan və güclü siyasi ənənələri olan erməni millətçilərinin, daşnak tör-töküntülərinin fəaliyyəti öz xəyanətkar işini görüb. Görüşlərdə, mətbuat konfranslarında təbii ki, dəfələrlə bu məsələni qaldırmalı olduq. Həm də bir sıra Azərbaycan mühacirinin ABŞ senatına qəti etirazlarını bildirməsindən xəbər tutduq. Bu, fərəhli hadisə idi. Siyasi əqidəyə, həyatda tutduğu mövqeyə baxmayaraq milli fəaliyyət birliyi, nüfuzlu milli cəmiyyətlərdə mərkəzləşmə qabiliyyəti bizi də harada yaşamağımızdan asılı olmayaraq düşündürməlidir.

Məni narahat edən bir məsələ haqqında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ABŞ senatına öz qəti etirazını bildirdi. Bəs, nə üçün SSRİ Ali Soveti bu məsələyə öz münasibətini bildirmir? Məgər Azərbaycan Sovet Sosialist Respublikasının daxili işlərinə qarışmaq, eyni zamanda, SSRİ-nin daxili işlərinə qarışmaq deyilmi? Ümid edirəm ki, xalq deputatlarımız hazırkı sessiyada bu məsələni bütün ciddiliyi ilə qaldıracaqlar.

– Amerikada yaşayan azərbaycanlı gənclərlə görüşləriniz oldumu?

– Görüşlərdən birinin işıqlı təəssüratını oxucularla bölüş-

mək istəyirəm. San-Fransisko şəhərinin yaxınlığında məşhur Berkli universiteti fəaliyyət göstərir. Universitetin dosenti, sosioloq Əkbər Bayramlının dediyinə görə burada 800-ə yaxın azərbaycanlı tələbə təhsil alır.

Berkli universitetində görüş zamanı məlum oldu ki, bu təhsil ocağında müxtəlif millətli tələbələrin milli dərnəkləri fəaliyyət göstərir. Məsələn, yunan, yapon, fars, ərəb, erməni... tələbə dərnəkləri. Azərbaycanlı tələbələrin isə müstəqil dərnəkləri yoxdur. Onlar müxtəlif dərnəklərdə fəaliyyət göstərdikləri üçün bir küll halında milli özünüifadələrini itirmişlər.

Görüş zamanı məsələnin bu cəhətinə diqqəti xüsusilə cəlb etməyə çalışdım. Əlbəttə, həmin istiqamətdə fəaliyyətlərini qurmaq üçün «Vətən» cəmiyyətinin imkkan daxilində hər cür köməklik etməyə hazır olduğunu söylədik. Aydın məsələdir ki, milli varlığımızla bağlı müxtəlif ədəbiyyatın, mətbuatın, eksponatların həmin dərnəyə göndərilməsində respublikamızda yaşayan hər bir azərbaycanlı məmnuniyyətlə iştirak edər. Əkbər Bayramlının böyük ruh yüksəkliyi ilə bu işə girişməsindən, görüş zamanı tələbələrin çıxışından sonra bizdə belə bir ümid yarandı ki, Berkli universitetində lap yaxın günlərdə azərbaycanlı tələbələrin dərnəyi yaradılacaq. Mən öz təkliflərimizi universitetin rəhbərliyinə, fakültələrin dekanlarına çatdırmışam. Azərbaycanlı professorlar Həsən Cavadi və Firudin Səfizadə ilə söhbətlərim əsnasında da həmin məsələdən ətraflı bəhs etdik.

– Görünür, başqa şəhərlərdə də azərbaycanlılarla belə maraqlı görüşlər keçirilib...

– Rəsmi səfər proqramımızın gərginliynə baxmayaraq bir sıra unudulmaz toplantılarımız oldu. Misal üçün, San Fransisko şəhəri yaxınlığında səliqəli bir şəhərcik var. San-Hoze adlanır. Həmin şəhərcikdə Yaqub Xoşgəbani və onun amerikalı professor xanımının təşkil etdikləri görüşdə iştirak etdim. Görüşə, ancaq azərbaycanlılar yığışmışdılar. Onu da deyim ki, Yaqub Xoşgənabi xanımı ilə birlikdə Azərbaycan folklorunu toplamaq və araşdırmaqla məşğuldur. Bu məqsədlə xüsusi olaraq Cənubi Azərbaycana getmişlər, qoca nənə və babalarımızın söyləmələrində folklorumuzu maqnitafon lentinə almışlar. Yaşlı bir qadının çox duzlu Azərbaycan dilində, Təbriz ləhcəsində söylədiyi üst-üstə 28 saatlıq nağıl kasseti folklorşünaslığımız üçün çox əhəmiyyətli bir

mənbədir. Biz «Vətən» Cəmiyyətinin xəttilə bu cür mənbələrdən mütləq istifadə edəcəyik və bu barədə danışıqlar aparmışıq.

San-Hozedəki görüş Amerikada yaşayan azərbaycanlıların vətənlə, doğma xalqla əlaqələrinin genişlənməsi baxımından çox səmərəli oldu. Burada Azərbaycan problematikasının Amerikada gələcək təbliği formalarının prinsip və planlarının işlənməsi istiqamətində konkret razılaşmalar əldə edildi.

– Amerikalı azərbaycanşünas alimlərlə görüşə bildinizmi?

– Sizin qəzetinizdən, «Odlar yurdu»ndan, digər mətbuat orqanlarımızdan oxuculara məlumdur ki, Amerikada Azərbaycan xalqının keçmişi və bu günü, Qarabağ hadisələri ilə bağlı birtərəfli informasiyanın çoxluğuna baxmayaraq, elmi dairələrdə güclü nüfuza malik bir sıra görkəmli alimlər ciddi tədqiqatlar aparırlar. Onlar öz əsərlərində, araşdırmalarında, mühazirələrində, müxtəlif auditoriyalarda söylədikləri məruzələrində məsələlərə obyektiv qiymət verir, əsl həqiqəti bildirirlər.

Bu alimlərdən biri məşhur şərqşünas, milliyyətcə polyak olan Amerika vətəndaşı, professor Tadeuş Svyatoxovskidir. Nyu-Yorkda sonuncu gün onunla görüşdüm. Nə yaxşı ki, bu görüş sonuncu gün oldu. Elə bil ki, əvvəlki günlərin əsəbiliyini, gərginliyini yumşaltmaq üçün imiş. Elə bil ki, bunu professor özü də hiss etmişdi və kitablarından birində ingiliscə belə bir avtoqraf yazmışdı: «Elçinə. Bakıya dönməmişdən əvvəlki günün xatirəsi şərəfinə. Tadeuş Svyatoxovski. 21 sentyabr, 1989-cu il». Gecənin yarısınadək davam edən söhbət əsnasında professor Svyatoxovskinin Azərbaycanla, o cümlədən Dağlıq Qarabağ problemləri ilə əlaqədər yazdığı yeni əsərlər üçün vacib olan bir çox faktları dəqiqləşdirdik. Onu maraqlandıran suallara imkan daxilində cavab verildi və lazımi ədəbiyyat mübadiləsi etdik.

Oxuculara məlumdur ki, professor Tadeuş Svyatoxovski «Rus Azərbaycanı. 1905-1920» adlı sanballı elmi kitabın müəllifidir. Kitab ingilis dilində yazılmış və ABŞ-da çap olunmuşdur. Həm elmi dairələr, həm də geniş oxucu kütləsi əsəri böyük maraqla qarşılamışdır. Kitab mövzu yeniliyinə, oradakı tədqiqatın elmi ciddiliyinə, nəzəri səviyyəsi və faktik zənginliyinə görə tez bir zamanda satılıb qurtarmışdır. Yeri gəlmişkən qeyd edim ki, həmin əsər Fransanın Strasburq şəhərindəki Azərbaycan cəmiyyətinin və həmin cəmiyyətin prezidenti cənab Əhməd Mehribaninin səyi nəticəsində farsca da nəşr edilib. Nuray Met onu türkcəyə çevir-

miş və monoqrafiya 1988-ci ildə Ankaranın Bağlam Yayıncılıq nəşriyyatı tərəfindən də kitab halında çap olunmuşdur.

Kitabın adındakı «Rus Azərbaycanı» ifadəsinin elmi cəhətdən dəqiq olmadığını və onu qəbul etmədiyimi müəllifə bildirdim. O isə bu ifadə altında Şimali Azərbaycanı nəzərdə tutduğunu və çarizmin müstəmləkəçilik siyasətini ifadə etdiyini söylədi.

İstedadlı ədəbiyyatşünasımız Vilayət Quliyev həmin əsəri ingiliscədən azərbaycancaya çevirmişdir. Bu yaxınlarda oxucular ondan parçalarla «Azərbaycan» jurnalında tanış ola biləcəklər. «Vətən» cəmiyyəti əsərin ayrıca kitab şəklində nəşrinə təşəbbüs göstərir. Professor bunları eşitdikdə çox məmnun qaldı.

Orasını da qeyd edim ki, Svyatoxovskinin təmkinli, səbrli tədqiqat əhvali-ruhiyyəsi yaradan sakit və xudmani iş otağı Nyu-Yorkun zirvəsi görünməyən göydələnlərindən, küçələrlə sel kimi axan maşınların səs-küyündən sonra adamı məhz yaradıcılıq söhbətlərinə, elmi mükalimələrə sövq edirdi.

– Beynəlxalq aləmdəki mürəkkəbliklərin artması ilə bağlı «Vətən» Cəmiyyəti də yəqin ki, çətinliklərlə qarşılaşıb...

– Əlbəttə, belə çətinliklər mövcuddur və onlar get-gedə daha da artır. «Vətən» Cəmiyyətinin xaricdə yaşayan azərbaycanlılar arasında xalq təəssübkeşliyi, mədəniyyətimizin təbliği, əlaqələrimizin genişləndirilməsi baxımından milli birliyə çalışmaq təşəbbüsü müəyyən dairələrin xoşuna gəlmir, onları rahat buraxmır. Bu zaman şayiələr yayılır, süni narazılıqlar yaradılır, böhtanlar söylənir, açıq qərəzçilik hücumları başlanır. Amerikada nəşr olunan bəzi farsdilli mətbuat orqanlarında Cəmiyyətimizin fəaliyyəti ilə bağlı qorxu hissi, vahiməyə düşmək açıq-aşkar öz ifadəsini tapıb.

Bütün bunlar təsadüfi deyil. Azərbaycan torpağı şimalı və cənubu ilə bərabər bərəkətli torpaqdır. Min bir maddi sərvəti, neməti var. Xalqın birliyi özünün öz torpağına sahiblik qüdrətini və inamını artırır. Bu isə çoxlarının ürəyincə olmur. Təsadüfi deyil ki, bu qüdrəti, bu inamı parçalamaq üçün yayılan şayiələrdən əleyhimizə ilk növbədə erməni millətçiləri istifadə edirlər.

Amerikaya işgüzar səfər məni bir daha əmin etdi ki, qarşıda bizi son dərəcə çətin və çətin olduğu qədər də şərəfli vəzifələr gözləyir. Biz bu günə qədər kütləvi məlumat və informasiya vasitələrindən lazımınca istifadə edərək özümüzü dünyaya layiqincə tanıda bilməmişik. Nyu-Yorkda bir saat vaxt tapıb həmyerli-

miz, istedadlı gənc rəssam Araz Mirhadi ilə birlikdə məşhur Metropol muzeyinə getdik. Muzeydə Səfəvilər dövründə yaranmış sənət əsərlərinə həsr olunmuş salonları gəzdik. Buradakı Azərbaycan xalçaları, zərgərlik, misgərlik nümunələri, miniatürlər, xüsusən, bu sahədə Təbriz məktəbinin misilsiz sənət inciləri İran eksponatları kimi təqdim olunur. Bu barədə Metropol muzeyinin rəhbərliyinə artıq rəsmən müraciət etmişik. Lakin gəlin etiraf edək ki, bütün bunlar bir nəfərin, bir cəmiyyətin fəaliyyəti ilə başa gələn məsələlər deyil...

Bütün azərbaycanlılar, harada yaşamağımızdan asılı olmayaraq, hamımız sıx və əlbir fəaliyyət göstərməliyik. Xüsusən, erməni millətçilərinin fitnə-fəsadları nəticəsində xalqımızın tarixindəki bu ağır sınaq günlərində hamımız ümumi haqq işimiz uğrunda səfərbər olmalıyıq. Xalqın təəssübünü və qeyrətini çəkən bütün qüvvələri birləşdirməyə çalışmalıyıq. Bütün yaradıcılıq təşkilatları da Azərbaycan Xalq Cəbhəsi də, ictimai cəmiyyətlər də səmərəli və xeyirli iş görmək üçün əl-ələ verməlidir.

*Söhbəti İlham Rəhimli yazdı.*
*1989.*

## VƏTƏN HARADAN BAŞLAYIR...

«Vətən» Cəmiyyətinin sədri yazıçı Elçin Qarğabazar kəndində fəaliyyət göstərən «Yurd» cəmiyyətinin məqsəd və vəzifələrini əks etdirən sənədləri və qəzet materiallarını maraqla qarşıladı. Cəmiyyətin az vaxtda yaranmasına baxmayaraq, öz ətrafında xeyli fəal topladığını, kəndin abadlığı, sosial problemləri ilə bağlı müəyyən işlər gördüyünü biləndə müsbət münasibətini açıq-aşkar bildirdi.

– Elçin müəllim, bütün kəndçilərimizi «Yurd» cəmiyyəti ətrafında birləşdirməklə elə bir məqsədli işə başlamışıq ki, onun sayəsində kəndimizin bütün həyat şəraiti dəyişsin, kənd abad və firavan olsun, torpağın bar-bəhəri aşıb-daşsın və bu axında hər bir yurddaş üçün yaşayıb yaratmaq əsl bəxtəvərliyə çevrilsin.

– Bəri başdan deyim ki, bütün bunlar gözəl və səmimi hisslərdir və mən bu niyyətinizi qəlbən alqışlayıram. Alqışlayıram ona görə ki, gənclər, xüsusilə, kəndli ziyalıları başda olmaqla camaat yığışıb, necə deyərlər, öz gün-güzəranını yaxşılaşdırır, kənd-kəsəyi qurub-yaradır, tutulmuş bir bulağın gözünü açır, yaxud yol çəkir, körpü salır. Bu, bir tərəfdən təqdir olunmağa ona görə layiqdir ki, ictimai şüur və ictimai fəallıq bərkə-boşa düşüb formalaşıb, elin dərd-qəmi, hamının və hər kəsin dərd-qəmi bir olur və beləcə, birlik elin gücünə, selin gücünə çevrilir. Bir tərəfdən də məlum həqiqət təsdiq olunur ki, Vətən məhəbbətini vəsf etməklə yüksəltmək mümkün deyil– əgər onu yaratmırsansa, onu qurmursansa.

Bədxahlarımızın gözünə o vədə ox olub batırıq ki, yurdumuzun hər əlçimi təzə-tər gül-çiçək qoxusun, göz oxşasın. Diqqətdən yayınan nəyimiz varsa, deyim ki, batan kəhrizlərimiz, qəhr olan bağlarımız, qayğısız qalan qum-gilli çölümüz də gözü götürməyənlərimizin nəfinədir və kim ki, bu torpağın üstündə yaşayır və yaşaya-yaşaya da bu kimi hallara biganədir, demək o, torpağımız üçün ləkədir.

– Biz ətraf kəndlərə də əl yetirməyə hazırıq. Və əgər bir kimsə bu məqsədlə bizə üz tutsa kömək edirik və hər hansı şəkildə yardımımızı əsirgəmirik. Bununla yanaşı biz uzaq yerdə ya-

şayan həmyerlilərimizi soraqlayıb axtarırıq, onların qayğı və problemlərinə biganə deyilik.

– Təkrarlayıram, bütün bunlar ümumi işimizin yalnız bir tərəfidir və bu, ona bənzəyir ki, öz evimdə bolluq olsun, qonşu acından ölsə də olar. Bax budur ki, kənd-kənd doğranıb xırdalanırıq və beləcə doğrana-doğrana təkcə bu ayrı-seçkiliyə coğrafi kateqoriyalarla tərəfkeşlik etmirik. Həm də milli mənafe və ümumxalq mənafeyini məhz belə bir uca zirvədən durub, gözləmirik. İş o həddə çatır ki, milli ləyaqət, təəssübkeşlik, xalqın nəfinə və onun naminə məqbul olan nə varsa arzu olunmayan yad meyllər psixologiyasında kələ-kötürə düşüb və bu məqamda o yad meyllər çayır kimi qol-budaq atıb hər şeyi qamarlayır. Məsələn, yerlibazlıq kimi bir bəla qrup və yaxud da tayfabazlığa zəmin yaradır, bu isə istər vəzifədə, yaxud qeyri-şəxsi təmənnada yalnız şəxsi mənafeyə xidmət edir. Böyük məqsədlər naminə bir kənddən danışırıqsa, hər halda ümumi mənafeyimizdən və onun geniş platformasından xalqımızın böyüklüyünü, Azərbaycanı, onun bütövlüyünü və dünya orbitində mövqeyini və nüfuzunu düşünməliyik.

– Elçin müəllim, rəsmiyyət xatirinə yox, dediyiniz kimi, o böyük məqsədlər naminə fəaliyyətimiz tamamilə yenidən qurulmalıdır. Digər tərəfdən əgər itirdiklərimizi sərf-nəzər etsək, təskinliyimizi ondan tapacağıq ki, nə yaxşı «Vətən» Cəmiyyəti var imiş. Yoxsa bir belə yurddaşımızın nisgilli taleyinə etinasız qalarmışıq, həm də bu otaqdakı bu qədər qəzet-jurnal nüsxələri o təşnə ürəklərin çırpıntılarını öz soydaşlarına çatdırmazmış.

– «Vətən» Cəmiyyətinin məqsəd və məramı geniş ictimaiyyətə artıq məlumdur və onun fəaliyyətə başladığı ilk gündən bəri qürbətdə yaşayan azərbaycanlılarla müəyyən mənəvi-mədəni ünsiyyət körpüsü yaratmağa müvəffəq olmuşuq. Bu istiqamətdə görəcəyimiz işlərin miqyası o qədər böyükdür ki, hətta bu bir və ya iki müsahibəlik söhbətlərin imkanı xaricindədir. Bax, bu qəzet, jurnal, kitab və bağlamalar son poçtumuzun sovqatıdır. «Ana dili» qəzeti AFR-də, «Qaynarca» qəzeti Qərbi Berlində, «Frans islam» qəzet-jurnalı Fransada və digər mütərəqqi və loyal şəkildə dünyanın müxtəlif ölkələrində azərbaycanlıların yaratdıqları birlik və cəmiyyətlər nəşr etdirdikləri qəzet və jurnallarda milli sərvətimizin inciləri və adət-ənənələrimizi təbliğ edirlər. Bu qəzet və jurnallarda klassik və müasir ədəbiyyatımızın geniş mövzuları tədqiq

edilməklə musiqi, rəssamlıq və incəsənətimizin korifeyləri təqdim olunur. Biz tez-tez məqalələrdə kənd, şəhər adlarımıza, sözlərimizin termin mənşəyinə, Füzuli, Nizami, Nəsimi, Sabir və bu kimi klassiklərimizə necə hörmət və ehtiramın bəsləndiyinə təsadüf edirik.

– Dünyanın müxtəlif orqanlarında yaranmış bu cəmiyyətlər öz sırasında müəyyən qrup adamları birləşdirir və onlar öz fəaliyyətində minlərlə azərbaycanlını təmsil edir. Ümumiyyətlə, bu cəmiyyətlərdə təmsil olunan azərbaycanlıların miqdarı barədə məlumat varmı? Varsa, biz nə qədərik?

– Bayaq dedim ki, belə birlik və qruplaşmalar çoxdur. ABŞ-ın Nyu-York şəhərində Azərbaycan mədəniyyəti mərkəzi, Qərbi Berlinin Bonn şəhərindəki «Ocaq» cəmiyyəti, Qərbi Berlinin «Qaynarca» cəmiyyəti və digər cəmiyyətlər bu qəbildəndir. İspaniyada bu cür cəmiyyətin 100, AFR-də 500, Qərbi Berlində 500, ABŞ-da 150, Türkiyədə 1.000 və digər şəhərlərdə olan cəmiyyətlərdə xeyli üzvü vardır ki, onlar da on minlərlə azərbaycanlılar arasında mədəni-kütləvi və digər ictimai-təbliğat işləri aparırlar. Bu ölkələrdə olan azərbaycanlıların miqdarı barədə də məlumatımız var. ABŞ-da 150 mindən çox, Fransada 70 min, AFR-də 180 min, İsveçrə, Hollandiya, Norveç və Danimarkada 100 mindən çox, Yaponiya, Pakistan, Latın Amerikası ölkələrində minlərlə azərbaycanlı yaşayır, Cənubi Azərbaycanda 20 milyona yaxın, bütövlükdə götürsək isə Azərbaycan xalqı 30 milyondan artıqdır.

– Şəksiz həqiqətdir ki, Azərbaycan xalqı böyük və hünərvər xalqdır. Bu, bizi nə qədər fərəhləndirirsə, zamanın sərt və amansız hökm-fərmanları da canımızdan gizildəyib keçir. Bu halda ürək ağrımızı, nifrət və qəzəbimizi gizlədə bilmirik. Ən uca kürsülərdən bağırıb tarixdən soruşmaq istəyirik ki, qərib düşənlərimizin amansız hökmünü kim verdi.

– Parisli Banun (Ümmulbanu) keçmiş Bakı milyonçusu Musa Nağıyevin nəvəsidir. Mütərəqqi yazıçı dilimizin, ənənələrimizin və xalqımızın güclü təəssübkeşidir. Babası Böyük Oktyabr İnqilabını qəbul etməyib və xüsusi mülkiyyət sahibkarı kimi xaricə qaçası olub. Deməli, bu və bunun kimilərin mühacirəti 1920-ci və sonrakı illərin təsadüfüdür. Ən güclü axın isə II Dünya müharibəsinin payına düşür. İndi onların hamısına demək olmaz ki, doğma xalqına dönük çıxmışlar, yaxud Vətən üçün az həsrət çək-

mirlər. Əksinə, bir qədər qürbətdə yaşayıb acı taleləri ilə barışıb, sonra geri dönən də olmuş, məskunlaşan, hər cür əzab və məhrumiyyətə tab gətirərək qürbətdə yaşayanlar da günləri-günlərə calayıb ömür-gün keçirsələr də mənəvi həsrətlə qovrulmuşlar. Hər halda, həsrətdən söz düşəndə qəlbimizdə bir xəncər yarasının ağrı-əzabını duyuruq və bu, dağlar qədər ağır məşəqqətli olan həsrətin o yanğısını söndürmək üçün çətin ki, Arazın da suyu bəs eləyə. Handa ki, xəncərin özü də Araz boy-biçimdədir. Və bu xəncər böyük bir xalqın böyük ürəyinin tən ortasından keçir.

– Mətbuatdan bilirik ki, təbrizli iki qız Bakıda təhsil alır. Qəlbimizdən keçirdiyimiz xoş duyğulardan az qala kövrəlirik ki, bu qızlar kaş Bakıdaca ailə səadətinə qovuşalar. Bunlardan biri burda qala, o biri isə toy-bayramla Xudafərin körpüsündən keçib Təbrizə yola düşə.

– «Vətən» Cəmiyyətinin xəttilə onlar N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun birinci kursuna daxil olublar. Bunlar son 40 ildə ilk Cənubi azərbaycanlıdır ki, Bakıya gəlib çıxıblar. Qaldı ki, onların ailə səadəti, hər halda bu, taleyin öz işidir və əgər Xudafərin körpüsü gediş-gəliş üçün bu qızların toy gününə bənddirsə və bununla bu həsrət əbədi yox olarsa onda həmin gün dünyanın ən xoşbəxt və səadətli günü olacaq, həmin günə elə bir mahnı bəstələnməlidir ki, o mahnı bütün həsrətli qalanların vüsal himninə çevrilsin.

– Elçin müəllim, «Yurd» cəmiyyətini «Vətən» Cəmiyyəti ilə bir sıraya qoymaq iddiasında deyilik. Lakin öz mövqeyimizdən həyatın gerçək hadisələrinə laqeyd də qala bilmərik. Necə ki, dünyanın ən ucqar nöqtəsində bir azərbaycanlı varsa, deyək ki, o yerdə Füzuli, Nizami şeri, Qorqud sazı, Koroğlu nərəsi, bir sözlə, orda Azərbaycan torpağı var və bu torpağın nəyi varsa bizimdir, bizim qayğılarımızdır. «Vətən» Cəmiyyəti belə bir humanist məqsədli iş görür. Bu, bizim mənəvi təskinliyimiz və milli iftixarımızdır. Bəzən burda, öz evimizin içindəcə it-bata düşənlərimiz varsa və əgər «Yurd» Cəmiyyəti bir kəndin nümunəsində belə bir el qayğısını çəkirsə, niyə də o hər kənddə və ya şəhərdə, ən nəhayət hər kəsin və hamının qəlbində yaradılmasın? «Yurd» cəmiyyətinə və onun üzvlərinə nə arzulayardınız?

– Söhbətimizi necə başlamışdıqsa, eləcə nikbin sonluqla yekunlaşdırmaq daha münasib olardı. Qoy nə fikirlərimizdə, nə də

əməllərimizdə ayrı-seçkilik hiss olunmasın. Xalqımızın hamısına xeyirxah məqsədli bütün cəmiyyətlərin sırasında olmağı və bu yolda onlara mübarizlik, milli həmrəylik və bəşəri məqsədlər arzulayıram.

*Müsahibəni Rasim Vəliyev apardı.*

*1989.*

## DÜNYANIN MİN RƏNGİ

Əməkdar incəsənət xadimi, Ümumittifaq Lenin komsomolu mükafatı laureatı Elçin... Hələ verilən fəxri ad da, mükafat da onun çoxşaxəli zəhmətini tam dəqiqliyilə təcəssüm elətdirmir. Çünki onları nasir Elçin qazanıb. Bəs alim-tənqidçi Elçin, kinossenarist Elçinin, nəhayət vətəndaş-şəxsiyyət Elçinin həyatda qazandığı nədir? Bax, bütün bu suallara cavab tapmaq üçün gərək az-çox əziyyətə qatlaşasan: Elçinin respublika və Ümumittifaq nəşriyyatlarında işıq üzü görmüş onlarca kitabını vərəqləyəsən, mətbuatda dərc olunmuş kəskin publisistik yazılarını, yol qeydlərini, səfər təəssüratlarını, tənqidi məqalələrini, tərcümələrini oxuyasan. Ta görkəmli yazıçının 1987-ci ildə «Azərnəşr» tərəfindən buraxılmış «Seçilmiş əsərləri»nin iki cildinəcən – bir yol keçəsən. Sonra özünü tanıyasan, həmsöhbət olasan.

Bu gün «Sovet kəndi» Elçini «Qonaq otağı»na təkcə yazıçı kimi yox, həm də xalqın dərin rəğbətini və məhəbbətini qazanmış ziyalı kimi, «Vətən» Cəmiyyətinin sədri kimi dəvət edib. Çünki doğma yurda ali sevgi daşından-torpağından, kəndindən, kəsəyindən, qəsəbəsindən başlanır. Elə buna görə də Elçinin sorağı gah Azərbaycanın ucqar ünvanlarından gəlir, gah necə deyərlər, «dünyanın qurtaracağından» – müxtəlif qitələrdən – Asiya, Afrika, Avropa ölkələrindən...

Elçinin nəsrilə ilk tanışlığım neçənci ildən başlayıb, konkret tarix, ünvan yadımda deyil. Bircə o yadımdadı ki, bol-bol rəngin sehrinə, möcüzəsinə düşmüşdüm. İşıq selində belədən-beləyə üzürdüm. İlk dəfə tanış olduğum ədəbi qəhrəmanların sifətlərini bəmbəyaz görkəmdə görürdüm – gecə-gündüz gözlərimin qabağından çəkilmirdilər. Özü də məni çaşdıran, təsiri altına salan adi rənglər deyildi. O vaxtacan görüb əhəmiyyət vermədiyim, duymadığım rənglər idi; gümüşü, narıncı, məxməri, buğdayı, tünd yaşıl, bəmbəyaz, bomboz və s. Və bu rənglər bolluğu üz-üzə gəldiyim adamların talelərinə, ömürlərinə, günlərinə hopmuşdu. Ötən illərin müşahidəsindən və həyat təcrübəsindən sonra başa düşdüm ki, əslində, rənglər vasitədir: yazıçı emosiyasının, hissinin,

duyğusunun ifadəçisi, vasitəçisi. Əsas – oxucuya təlqin olunan fikir dünyası, mətləb və məqsəd aydınlığıdır.

Aylar, illər ötdü. Hisslər, duyğular da boy atdı, böyüdü. Uzun müddət o işıqlı rəngləri ürəyimdə yaşatdım. Yazıçının «Gümüşü furqon», «Açıq pəncərə», «Şuşaya duman gəlib», «Bozluq içində iki nəfər», «On ildən sonra», «Baladadaşın ilk məhəbbəti», «Qış nağılı», «Gümüşü, narıncı, məxməri», «Toyuğun diri qalması» kimi orijinal hekayə və povestləri stolüstü kitabıma çevrildi. Az sonra «Dolça», «Mahmud və Məryəm», «Ağ dəvə» yarandı. İşıq və rəng telləri azalmadı, daha da genişləndi, möhkəmləndi. Bir-birindən maraqlı fərdlər, ziddiyyətli obrazlar, surətlər yaddaşıma əbədi həkk olundu. Xarakterləri kimi adları da rəngbərəng ədəbi qəhrəmanlar – Baladadaş, Əliabbas, Kərim, Ağababa, Mirzə Muxtar, Ələkbər, Qoca, Əminə, Nisə, Cavanşir, Allahverdi, Əbil və s.

Bəs Elçini bir nasir kimi yaşıdlarından, ədəbi nəsildən fərqləndirən cəhət nədir? Hər şeydən əvvəl, incə lirizm, axar təbii dil, güclü yumor və hər hansı psixoloji vəziyyətdən ustalıqla baş çıxarmaq bacarığı. İstər kiçik hekayə olsun, istər qalın povest, roman, oxucu sonluğun necə nəticələnəcəyini qətiyyən ayırd edə bilmir. Ona görə başladığı əsəri bitdə-bitdə, cümləbəcümlə oxuyur. Və axırda peşiman olmur, nəsə tapdığına, kəşf elədiyinə sevinir. Heç təsadüfi deyil ki, Azərbaycan tənqidi fikrin və ədəbiyyatşünaslığın sütunları – Həmid Araslı, Məmməd Arif, Mehdi Məmmədov, Məmməd Cəfər kimi mötəbər simaları da dönə-dönə Elçinin yaradıcılığına müraciət eləmiş, xeyir-dua verməkdən, irəlicədən xoş söz söyləməkdən çəkinməmişlər. Görkəmli rus tənqidçisi L.Anninski isə ədəbiyyatımıza aid silsilə məqalələrin bir neçəsini məhz Elçinin nəsrinə həsr edib.

Mənə elə gəlir ki, Elçinin əsərlərində hər obrazın öz xüsusi rəng çaları, rəng boyası var. Ağababa – mərdliyin, Ələkbər – məsumluğun, Məryəm – gözəlliyin, paklığın, Xanım – həssaslığın, Baladadaş – məğrurluğun, Dürdanə, Nisə, Ədilə – ismət və həyanın simvoludur. Əlbəttə, kiçik qəzet məqaləsində özümdən «Amerika kəşf eləmirəm» – yəni irili-xırdalı bu və ya digər obrazların geniş təhlilinə varmaq, onların müxtəlif dünyagörüşlərinin açılmağına cəhd göstərmək – dəryada saman çöpündən yapışmaq kimi şeydir. Məqsədim başqadır. Kənd oxucusunun diqqətini az-çox bu obrazlar silsiləsinə yönəltməkdir. Onsuz da «Tal-

var»ı, «Dolça»nı, «Ağ dəvə»ni, «Mahmud və Məryəm»i oxuyan hər kəs götürdüyünü götürüb, öyrəndiyini lazımi qədər öyrənib.

* * *

Elçin xalq yaradıcılığı bulağından su içib. Ona görə onun yaradıcılığında bədii dil axar su kimi dumdurudu, şəffafdı. Elə buna görə oxucunu yormur, çəkib dalınca aparır. Əsərləri canlı xalq dilinə yaxın olan yazıçı üslubda, dəst-xətdə fərqlər yaratsa da sonra onunla tamamilə qovuşur, birləşir.

* * *

SUAL: Elçin müəllim, əsərlərinizin adlarındakı bu rəng çoxluğunu nə ilə izah eləyə bilərsiniz?

CAVAB: Bu barədə heç vaxt düşünüb-daşınmamışam. Yəni konkret surətdə fikirləşməmişəm ki, yazdığım hekayə və ya povest üçün ad tapım: bir az dəbdəbəli, bir az yaddaqalan, rəngarəng. Ad şərti şeydi. Yaradıcılıq prosesində hər şey təbii şəkildə baş verməlidi. Yoxsa süni surətdə ayrıca «adqoyma mərasiminə» nə ehtiyac var? Qaldı sizin dediyiniz, rəng bolluğu məsələsi... Mənə elə gəlir ki, rənglər müxtəlifliyi – əslində, xarakterlər müxtəlifliyidir. Xalq arasında belə bir məşhur söz var: beş barmağın beşi də bir-birinə bənzəmir. İnsan taleləri də eləcə. Oxşarlıq ola bilər. Tam şəkildə təkrar mümkün deyil. Mənim üçün işıqlı taleli adamlar var, tünd qara boyalı kəslər var...

SUAL: «Vətən» Cəmiyyətinin funksiyası, fəaliyyəti, məqsədi hər bir azərbaycanlıya yaxşı məlumdur. Ancaq hərdən bizim kimi kənardan baxana elə gəlir ki, bu Cəmiyyətin özü də bir yaradıcılıq ittifaqıdır, yaradıcılıq birliyidir. Və get-gedə daha çox taleyinizə daxil olmağa başlayır. Bütün bunlara siz necə baxırsınız?

CAVAB: Əlbəttə, «Vətən» Cəmiyyəti barədə mətbuatda çox yazılıb, çox deyilib. Bütün deyilənləri, yazılanları təzədən təkrar etmək istəmirəm. Aldığım saysız-hesabsız məktublardan görürəm ki, Cəmiyyət haqqında deyilən ən adi kəlmə söz də azər-

baycanlı oxucuların nəzər-diqqətindən qaçmayıb. Təkcə mənim üçün yox, bütün işçilərimiz üçün «Vətən» Cəmiyyəti od-ocaqdır. Və elə bilirəm ki, «Vətən» bütün şimallı-cənublu azərbaycanlıların, demək olar, dünyanın bütün qitələrinə səpələnmiş qərib həmvətənlərimizin dopdoğmaca evidir. Hər halda biz çalışırıq, əlimizdən gələni edirik ki, məhz belə olsun. Dünyada ünsiyyətdən, qarşılıqlı etibardan bəhrələnən vətəndaş əlaqəsindən, birlikdən gözəl nə ola bilər? «Vətən» Cəmiyyəti də belə ali mərama xidmət edir...

SUAL: Siz hələ «Vətən»də işləməzdən əvvəllər bir çox xarici ökələrdə olmusunuz. Həmin ölkələrdə qərib həmvətənlərimizlə qarşılaşmısınız. Üstəlik «Vətən»in xəttilə Azərbaycana təşrif gətirən neçə-neçə qan qardaşlarımızla, bacılarımızla görüşmüsünüz. Onların həyatından bədii əsərmi deyim, sənədil əsərmi deyim, ümumiyyətlə, nəsə yazmağa ehtiyac hiss eləmisinizmi? Heç olmasa, gələcək üçün, necə deyərlər, «ehtiyat mövzunuz» varmı?

CAVAB: Bilirsiniz ki, əvəllər «imkan daxilində» səfər təəssüratları, publisistik yol qeydləri yazmışam. Türkiyə, Macarstan, Qabrovo, Tunis, Qana səfərləri haqqında. Vaxt isə getgedə çatışmır. Əlbəttə, fikirlər, arzular çoxdur... Sağlıq olsun!

SUAL: Səhv eləmiriksə, bədii yaradıcılığınızın ilk dövründə səssiz-küysüz Abşeron kəndlərindən, bağ-bağatlı, əncirli-meynəli həyətlərdən, onların özünəməxsus milli xarakterə malik iddiasız sakinlərindən yazmağı xoşlayırsınız. «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması», «Dolça» povestlərindən və bir sıra hekayələrdən, xüsusən, Baladadaş haqqındakı hekayələrdən sonra s-anki bu mövzularınız birdən-birə arxa plana keçdi. Bu qəfil dəyişməyə səbəb nə idi? Əgər ciddi yaradıcılıq sirri deyilsə, ardıcıl surətdə həm tarixi, həm də müasir mövzulara girişməyiniz – «Mahmud və Məryəm», «Ağ dəvə» kimi iri həcmli monumental romanlar yazıb ortaya çıxarmağınız nə ilə əlaqədardır?

CAVAB: Mənim uşaqlıq illərim Abşeronla bağlı olub. Buranın bənzərsiz təbiəti, adamları yaddaşımda əbədi həkk olunub. Bunlar, necə deyərlər, «mənim» mövzularımdır... Həmişə də mənimlə olacaq. Lakin dünya heç də gözəl Abşerondan ibarət deyil... Yalnız onu deyə bilərəm ki, mən heç zaman roman yazmaq xatirinə makina arxasına keçməmişəm. Əslində, yenə illər boyu yığı-

lıb qalan xatirələri, müşahidələri, düşüncələri qələmə almışam. «Ağ dəvə» romanı da belə yarandı, «Mahmud və Məryəm» romanı da. «Mahmud və Məryəm»də, eyni zamanda, məşhur xalq dastanımızın motivlərindən istifadə etmişəm. Bildiyimiz kimi, bu ənənə klassik ədəbiyyatımızda çoxdan mövcuddur. Bircə fakt deyim: «Leyli və Məcnun» mövzusunu yüzlərlə sənətkar qələmə almışdır.

SUAL: Bir ictimai xadim kimi, yazıçı kimi tez-tez kənd rayonlarımıza yolunuz düşür. Hətta bir neçə il əvvəl Astara rayonunun «fəxri vətəndaşı» olmusunuz. Lənkəranın Port-İliç qəsəbəsindən respublika Ali Sovetinə deputat seçilmisiniz. Şübhəsiz, kəndlərimizin, qəsəbələrimizin sosial-iqtisadi inkişafı, indiki mənzərəsi sizə gün kimi aydındır. Bir ziyalı kimi gələcək Azərbaycan kəndini necə görmək istərdiniz?

CAVAB: Əlbəttə, özümüz böyük şəhərdə yaşasaq da, mayamız kəndə, torpağa bağlıdır. Qohum-əqrabanın, dost-tanışın çoxu kənddədir. Həm kənddən bizə tez-tez gəlib gedirlər, həm də mən imkan tapdıqca kəndlərimizə gedirəm. Gedirəm, kəndin gözəl ab-havası ilə nəfəs alıram və... çox zaman da pəjmürdə halda geri qayıdıram. Ona görə ki, küll halında Azərbaycan kəndlərində vəziyyət çox ağırdır. Həm maddi mənada, həm də mədəni quruculuq baxımından.

Bu gün kəndli Bakıya gəlib yağ-pendir, hətta ət, yumurta alıb evinə aparmaq məcburiyyəti qarısındadır. (Hələ Bakının özündəki ərzaq qıtlığını demirəm.)

Kənd kitabxanaları, klubları çox bərbad vəziyyətdədir.

Kəndlinin güzəranı ağırdır. Bizim dönə-dönə xatırladıb tənqid etdiyimiz sosial ədalətsizliklə rastlaşdığı zaman kəndli, demək olar ki, köməksizdir, özünü müdafiə edə bilmir, öz haqqını tələb etdikdə böyük çətinliklərə məruz qalır. Biz belə bir vəziyyəti aradan qaldırmaq üçün ilk növbədə bunun səbəblərini özümüz üçün dəqiq araşdırmalıyıq və vəzifəsindən, peşəsindən , yaşından asılı olmayaraq hər birimiz kəndlinin güzəranının yalnız kağız üzərində, arayışlarda, məruzələrdə, (o cümlədən hesabat məruzələrində) yox, nəhayət ki, həqiqətən, yaxşılaşması naminə əlimizdən gələni etməliyik. Dövrlər bir-birini əvəz edir, kəndlinin isə güzəranı yalnız sözdə yaxşılaşır...

SUAL: Bəs kənd oxucularına sözünüz, arzunuz?

CAVAB: Özlərinin və öz yaxınlarının haqqını tələb etməkdə daha artıq mübariz olsunlar! Kəndlinin böyük bir müttəfiqi var, onun halal zəhməti! Onun alnının təri, əllərinin qabarı! Kəndli bu böyük müttəfiqə arxalanıb əliəyriliyə qarşı, laqeydliyə qarşı, bürokratiyaya qarşı, təsadüf etdiyi harınlıq və ədalətsizlik hallarına qarşı daha artıq bir şövq və əzmkarlıqla mübarizə aparmalıdır.

* * *

... Eyni yaradıcılıq odu, yaradıcılıq hərarəti Elçinin publisistik yazılarında da özünü qabarıq büruzə verir. Müxtəlif taleli ictimai xadimlərə, elm və mədəniyyət dühalarına – Nəriman Nərimanova, Mirzə Cəlilə, Ömər Faiq Nemanzadəyə, Üzeyir Hacıbəyova, Bülbülə həsr olunan publisistik nümunələr aktuallığı, sanballılığı ilə diqqəti cəlb edir. Xalqın mənəvi dünyasında həmişəlik yaşamaq hüququ qazanmış şəxsiyyətlər barədə söz demək çətindir. Elçin sənət və vətəndaşlıq yanğısı ilə bu çətinliyə sinə gərir. Heç kimi təkrar eləmədən orijinal elmi-publisistik fikrini oxucu ilə bölüşür.

Yazıçı nədən yazır yazsın, hardan başlayır başlasın, fərdi üslubuna, dəst-xəttinə sadiq qalır. Yəni həm yol qeydlərində, həm tənqidi məqalələrində, həm də bədii əsərlərində qətiyyən yad notlar işlətmir, özünə xəyanət eləmir. Mənə elə gəlir ki, yazıçının yaradıcılığında bu sədaqətin özü gözəl bir rəng çalarıdı. Söhbətimizin əvvəlində haqqında bəhs etdiyimiz rəng çaları. Və həssas oxucunu bu rəngin zahiri parıltısı aldatmır, onun dərin məzmunu, hikməti, bir az da məcazi mənası daha çox çəkir...

... Qarşımda «Kommunist» qəzetinin 1989-cu il yanvar nömrələri var. Burada Elçinin yeni romanından – «Ölüm hökmü»ndən bir fəsil çap olunub. Deməli, oxucu ilə yeni bir ünsiyyət körpüsünün təməli qoyulub.

Qəzetlərə bir-bir nəzər salıram. Oxuduğum sətirlərə dönədönə qayıdıram. Adlarını ara-sıra orta məktəb dərsliklərindən, kitablardan eşitdiyim, sonra haqqında müfəssəl məlumat topladığım şəxsiyyətlər – Ruhulla Axundov, Hüseyn Rəhmanov, Ayna Sultanova, Məmməd Cuvarlı, Həmid Sultanov, Qəzənfər Musabəyov gözlərimin qabağına gəlir. Və bir daha əmin oluram ki, heç bir qara kabus, heç bir zülmət işığın qabağına sədd çəkə bilməyib. Cismən ölənlər mənən əbədiyyət qazanırlar.

Yazıçı ilə kiçik müsahibəni xatırlayıram. Yadıma dediyi ifadə düşür: «Tünd qara boyalı kəslər». Deməli Elçin yenə yazı üslubuna sadiqliyini qoruyub. Həmişə həyatda toqquşan iki qüvvəni – qara ilə ağı, xeyirlə şəri qarşı-qarşıya qoyub. Və bu qeyri-bərabər döyüşdə ağın, işığın qələbəsinə heç kəsdə şübhə yeri qalmır. Deməli, zamanın bir ləngər vura-vura irəliləyən ədalət qatarı da var. O qatar dayanacaqların birində dayanır. Ədalətsizliyi, nankorluğu, namərdliyi özü mühakimə edir, «ölüm hökmü» çıxarır, qətlinə fərman verir.

Görkəmli sənət xadimlərindən biri məşhur qırğız sovet yazıçısı Çingiz Aytmatovun yaradıcılığını yüksək qiymətləndirərək qeyd edir ki, onun gənclik dövrü olmayıb. Çingiz ədəbiyyata yetkin gəlib. Eyni sözləri mübaliğəsiz tanınmış Azərbaycan yazıçısı, respublika Ali Sovetinin deputatı, «Vətən» Cəmiyyətinin sədri Elçin barədə də söyləmək olar. Bu gün onun buna tam mənəvi haqqı var.

*Müsahibəni Ağacəfər Həsənli apardı.*
*1989.*

## BEYİNƏ QİDA, GÖZƏ NUR, DİZƏ QÜVVƏT

Yeni il ərəfəsində müxbirimiz «Vətən» Cəmiyyəti rəyasət heyətinin sədri, əməkdar incəsənət xadimi, yazıçı Elçinlə görüşmüş, ondan müsahibə almışdır. Həmin müsahibəni oxucularımıza təqdim edirik.

– Elçin müəllim, söhbətimiz «Vətən» Cəmiyyətinin yaranmasının ikinci ildönümünə təsadüf edir. Cəmiyyətin bu müddətdəki çoxşaxəli, faydalı fəaliyyəti barədə nə deyə bilərsiniz?

– Bakıda qonaq olan dünya şöhrətli rəssam İbrahim Əhrarinin bu yaxınlarda «Vətən» Cəmiyyətində keçirilən görüş zamanı dediyi bir cümləni xatırlatmaq istəyirəm: «Vətən» Cəmiyyəti biz qəriblərin beyninə qida, gözünə nur, dizinə qüvvət verir». Eyni sözləri bu və ya başqa şəkildə digər həmvətənlərdən də dəfələrlə eşitmişik. Əlbəttə, bu sözlərin əsası var və arxasında Cəmiyyətin bütün əməkdaşlarının gərgin işi, böyük zəhməti, axtarışları durur.

Bir neçə fakta diqqət yetirin. Fəaliyyətə başladığımız ilk aylarda 300-ə yaxın həmvətənlə əlaqə saxlayırdıq. İndi isə söhbət dördrəqəmli ədədlərdən gedir. Yenə ilk vaxtlar ayda cəmi 10-15 məktub alırdıq. Bu gün isə məktubların sayı müqayisəedilməz dərəcədə artmışdır. İki il ərzində Bakıda yüzdən çox həmvətən qəbul edilmiş, qürbətdə azərbaycanlıların məskunlaşdığı ölkələrə 10-dan çox nümayəndə heyəti göndərilmişdir.

Bu günlərdə «Vətən» Cəmiyyəti rəyasət heyətinin bürosu Avropa, ABŞ və Latın Amerikası şöbəsinin hesabatını dinləmişdir. Məlum olmuşdur ki, son 10 ay ərzində daha 115 nəfərə yaxın həmvətənlə əlaqə yaradılmşdır. Həmin müddətdə təkcə bu şöbə 754 ünvana müntəzəm olaraq mətbuat, kitab və musiqi valları göndərmişdir.

Həmvətənlərimizin yaşadıqları ölkələrdə iri miqyaslı kütləvi mədəni tədbirlər keçirilməsi sahəsində də müəyyən təcrübə əldə etmişik. Alman-Azərbaycan mədəniyyət mərkəzinin dəvətilə Qərbi Berlində keçirilmiş Azərbaycan həftəsi, ABŞ, Danimarka, Türkiyə və başqa ölkələrdəki tədbirlərimiz nəinki həmvətənlərlə, eyni zamanda, həmin ölkələrin xalqları ilə Azərbaycanın əlaqələ-


10-5

rini möhkəmləndirmişdir. İki il bundan qabaq həyat tərzi, məşğuliyyəti, psixologiyası, cəmiyyətdəki mövqeyi barədə adi məlumatımız olmayan bir çox həmvətənimiz bu gün xaricdə Azərbaycanın xoş məramlı elçilərinə çevrilməkdədir.

Yeri gəlmişkən deyim ki, «Vətən» Cəmiyyətinin yaranması ilə işə başlayan, yaxud fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan 30-dan çox ölkədəki mədəniyyət mərkəzi, cəmiyyəti, birlik, dərnək və ocaq azərbaycanlıları səfərbər etməklə, respublikamızla daha yaxın ünsiyyət yaratmaqda əhəmiyyətli rol oynayır. İndi Avropadakı azərbaycanlıların bir sıra mətbuat orqanları, dil kursları, ansamblları var. Onlar mədəniyyətimizin, ədəbiyat və incəsənətimizin, tariximizin öyrənilməsinə və təbliğinə böyük həvəslə qoşulmuşlar. Lap son bir məlumatı deyim: Strasburqdakı Azərbaycan mədəniyyət mərkəzi fransız dilində «Dağlıq Qarabağın tarixi və ona dair sənədlər» adlı bir kitab nəşr etdirmişdir. Müəllifi Əhməd Təbrizli olan həmin kitabı AFR-in «Dağyeli» nəşriyyatı buraxmışdır.

Həmvətənlərin iştirakı ilə Bakıda keçirdiyimiz tədbirlər respublika ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanır. Yəqin oxucularımızın yadındadır: M.F.Axundovun yubileyinə müxtəlif ölkələrdən adlı-sanlı həmvətənlərimiz dəvət olunmuşdular. Yaxud qürbətdəki azərbaycanlı rəssamların əsərlərinin R.Mustafayev adına Dövlət incəsənət muzeyindəki sərgisi respublikamızın mədəni həyatında hadisəyə çevrildi. Daha bir tədbir hazırlanır: üzümüzə gələn ilin payızında Bakıda adlı-sanlı həmvətən rəssamlarımız İbrahim Əhrarinin və Əkbər Behkəlamın əsərləri sərgisi açılacaqdır.

Bakıda qonaq olan həmvətənlərə paytaxtın, yaxud rayonlarımızın görməli, tarixi yerlərini göstərməklə kifayətlənmirik. Onların maraq dairəsini nəzərə alaraq Azərbaycan SSR Elmlər Akademiyasında, ayrı-ayrı ali məktəblərdə, ictimai təşkilatlarda görüşlər təşkil edir, tanınmış ədəbiyyat, mədəniyyət, səhiyyə xadimləri ilə ünsiyyət yaradırıq.

Fəaliyyətimizin daha bir sahəsi barədə. Yetmiş il ərzində qürbətdən bir nəfər belə azərbaycanlı Bakıda ali təhsil almamışdır. Cəmiyyətimiz yaradılan il iki nəfər təbrizli tələbənin Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul edilməsinə nail olduq. Bu il isə Bakıda təhsil alan əcnəbi azərbaycanlıların sayı 6 nəfərdir. Gələcəkdə də bu işi davam etdirəcəyik. Eyni zamanda, gəncləri-

mizi dünyanın adlı-sanlı ali məktəblərində təhsil almaq üçün başqa ölkələrə göndərməyə çalışacağıq.

– «Odlar yurdu» qəzetiniz demək olar ki, hər nömrəsində «Oxucularımızın nəzərinə» rubrikasında qohumları tərəfindən axtarılanların siyahısını verir. Qohumlardan bir-birinə qovuşanlar, ayrılığa son qoyanlar varmı?

– Bu cür məktublar, müraciətlər böyük axına çevrilmişdir. Son vaxtlar isə eyni məzmunlu məktublar xaricdən də daxil olmağa başlamışdır. Bizim xüsusi axtarış imkanlarımız və səlahiyyətimiz yoxdur. Sevindiricidir ki, elanlarımız vasitəsilə uzun illərin ayrılığına son qoyanlar, yaxın qohumlarını tapanlar vardır.

– Yeri gəlmişkən, «Odlar yurdu» qəzeti ilə bağlı bir sual da vermək istərdim: son iki ildə bu qəzetə maraq xeyli artmışdır. Onun tirajı 2,5 mindən 250 min nüsxəyə çatmışdır. Bu marağı nə ilə izah edə bilərsiniz?

– Xaricdəki həmvətənlərimiz Azərbaycana böyük maraq göstərdikləri kimi, respublikamızda yaşayanlar da qürbətdəki qardaşlarının həyatı ilə çox maraqlanırlar. «Odlar yurdu» qəzetində isə xaricdəki azərbaycanlıların taleyindən bəhs edən yazılar müntəzəm dərc olunur. Qəzetdə xalqımızı düşündürən, narahat edən problemlər barədə yazılar verilir. Xaricdəki azərbaycanşünasların məqalələri də geniş əks-səda doğurur. Məsələn, Tadeuş Svyatoxovski, Odri Alstadt kimi alimləri indi respublikamızda tanımayan yoxdur.

– Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələrlə bağlı bəzən iradlar eşidilir: nə üçün qürbətdəki azərbaycanlıların həmrəylik səsi eşidilmir? Bu barədə nə deyə bilərsiniz?

– Qürbətdəki azərbaycanlılar da xalqımızın haqq səsinə qoşulub, erməni millətçilərinin torpaq iddiasına düşməsindən hiddətlənirlər. Bonnda azərbaycanca çıxan «Ana dili» və Londonda çıxan «Ayrılıq» qəzetləri bu barədə dəfələrlə materiallar dərc etmişlər. Həmvətənlərimiz kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrdə bu məsələyə öz münasibətlərini bildirmiş, qəti sözlərini demişlər. Lakin xaricdəki erməni lobbisi ilə müqayisədə azərbaycanlıların fəaliyyəti zəifdir. Bunun həm obyektiv, həm də subyektiv səbəblərini görmək lazımdır. İstər daxildəki, istər xaricdəki erməni millətçilərinin çirkin təbliğat kampaniyası on illərlə aparılır, bu işə milyonlar xərclənir. Qürbətdəki azərbaycanlılar respublikamız, xalqımızın bu günü və tarixi barədə yalnız son

illərdə obyektiv məlumat alırlar. Bəzən elə həmvətənlə rastlaşırsan ki, o, Azərbaycan haqqında ingilisin, ya fransızın bildiyi qədər bilir. Mən söhbətin əvvəlində İbrahim Əhrarinin sözlərini xatırladım. Düzdür, «Vətən» Cəmiyyəti, onun orqanı olan «Odlar yurdu» qəzeti taleyin hökmü ilə xaricdə yaşayan azərbaycanlıların yurdumuz barəsində mənəvi ehtiyaclarını ödəməyə çalışır. Lakin bu ağır iş geniş fəaliyyət tələb edir. Hamımız əl-ələ verib bu nəcib işi görməliyik.

– Elçin müəllim, fəaliyyətinizə mane olan amillər, qüvvələr varmı? Ümumiyyətlə, işinizdəki çətinliklər barəsində nə deyə bilərsiniz?

– Son vaxtlar, yəni «Vətən» Cəmiyyəti öz fəaliyyət dairəsini genişləndirdikcə xaricdəki bəzi dairələrin təşviş və qorxusu artmaqdadır. Nəticədə böhtanlar atılır, şaiyələr yayılır. Bu, təbii hesab edilməli və bizi çəkindirməməlidir. Çünki xalqımızın övladlarının «Vətən» Cəmiyyəti vasitəsilə rəmzi və mənəvi cəhətdən qovuşması çoxlarını, xüsusilə, fars mühacirətini narahat edir.

«Vətən» Cəmiyyətinin valyuta imkanları çox məhduddur. Həmvətənlərimizin arzusunu yerinə yetirməkdə bəzən çətinlik çəkirik. Ərəb, latın əlifbaları ilə kitablar yoxdur, yaxud çox azdır. Bədii və sənədli filmlər əldə etmək, kasetə köçürmək problemə çevrilir. Musiqi alətləri, rəqs geyimləri almaq da çox vaxt müşkül olur. Müasir texniki avadanlıqlarımız yoxdur və s.

– Elçin müəllim, «Vətən» Cəmiyyətinin sədri kimi fəaliyyət göstərməyiniz sizi yaradıcılıqdan uzaqlaşdırmır ki?

– Mən həmişə həqiqəti deməyə çalışmışam və bu sualınızın cavabında da həqiqəti deyirəm: uzaqlaşdırır.

Müsahibəni A.Tahirov apardı.<br>1989.

## «QARABAĞ» XALQIN SƏSİDİR

Yazıçı, əməkdar incəsənət xadimi, Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri Elçinlə müsahibə.

– Elçin müəllim, Qarabağ sizin üçün nə deməkdir?

– Mən də sizin kimi, Azərbaycan xalqının övladıyam. Hərgah biz Azərbaycanı canlı bir orqanizmə bənzətsək, Qarabağ, o cümlədən də təbii ki, Dağlıq Qarabağ, xüsusən, indiki hadisələrin kontekstində, onun ürəyidir. Ürəksiz orqanizm yaşaya bilməz. Qarabağsız da Azərbaycan mövcud ola bilməz. Buna görə də Qarabağa qarşı erməni iddiaları, əslində, bütün Azərbaycan xalqına qarşı təcavüzdür, bu gün tez-tez işlədilən (amma təəssüf ki, çox vaxt əməl olunmayan!) «Demokratiya», «Azadlıq», «Hüquqi dövlət» kimi anlayışlarla bir araya sığmayan qanlı cinayətdir. Bu fikri mən, imkanım daxilində tarixi və hüquqi müddəalarla əsaslandıraraq, Moskvada da demişəm, Türkiyədə də, ABŞ-da da, AFR-də də, Fransada da... Son iki ildə mənim bütün çıxışlarımın, müsahibələrimin ana xətti məhz bu fikir olmuşdur.

– Bizim məqsədimiz aydındır: milli varlığımızı, torpağımızı qorumalıyıq. Bəs bu məqsədə, Sizcə, hansı yollarla çatmaq mümkündür?

– Milli birliyimizlə və hüquqlarımızdan ağılla istifadə etmək bacarığı dünyagörüşümüzdən, yaşımızdan, peşəmizdən asılı olmayaraq, hər birimiz öz sahəmizdə hay-küysüz və yorulmadan vətəndaş işimizi görməliyik. Xalqımızın mənafeyi naminə gördüyün işi bir sən özün, bir də sənin Allahın bilirsə, kifayətdir. Yeri düşdü, düşmədi, bu barədə ağız dolusu danışmaq həmin vətəndaş fəaliyyətinə yalnız və yalnız ziyan gətirir. Xalqımızın rifahı naminə bizim mübarizəmizin böyük müttəfiqi var: Həqiqət! Biz bu müttəfiqdən istifadə etməyi bacarmalı və onu dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün əlimizdən gələni etməliyik. Çox təəssüflər ki, bəzən «çayxana fəaliyyəti» vətəndaşlıq fəaliyyətini üstələyir və indi geniş yayılmış dedi-qoduçuluq, şayiəçilik xəstəliyi də bir tərəfdən elə bununla bağlıdır. Həmin xəstəlik bizi zəiflədir, düşmənlərimizə isə güc verir. Qədim yunan mifolojisində

yer (torpaq) Allahı Geyanın oğlu Antey torpaqdan güc alırdı, buna görə də Herakl onun ayaqlarını yerdən üzüb qalib gəldi. Antey torpaqdan güc alan kimi, erməni millətçilik təcavüzü də bizim öz içimizdə yaranan xəstəliklərdən güc alır. Biz əl-ələ verib yaranan həmin xəstəliyi dəf etməliyik, bir-birimizə qarşı iradları, kin-küdurət səviyyəsinə qalxmağa qoymamalıyıq.

– Məncə, bütün bu söylədikləriniz yalnız Sizin şəxsi fikriniz yox, həm də başçılıq etdiyiniz «Vətən» Cəmiyyətinin məqsədlərindən biridir.

– Elədir.

– Biz bilirik ki, «Vətən» Cəmiyyəti fəaliyyətə başladığı qısa müddətdə böyük işlər görmüşdür. Hər dəfə «Ayrılıq» mahnısına qulaq asanda, televiziyada Rəhmanın qürbət yanğısı ilə dolu qarmon çalmasına tamaşa edəndə, yadıma düşür ki, bütün bunlarla xalqımızı ilk dəfə Siz tanış etmisiniz. «Vətən» özümüz-özümüzü daha yaxından görüb dərk etmək üçün xaricə açılmış ilk vüsətli pəncərə oldu. Xaricdə yaşayan həmvətənlərimizin Qarabağ hadisələri, ümumiyyətlə, respublikamızda baş verən hadisələr, o cümlədən, Bakıdakı Qanlı yanvar hadisələri ilə bağlı fəaliyyəti barədə nə deyə bilərsiz?

– Əlbəttə, bu hadisələr o dərəcədə müdhişdir ki, yaşadığı coğrafi ərazidən asılı olmayaraq, bütün azərbaycanlıları sarsıtmışdır. Nəinki yalnız azərbaycanlıları, obyektiv məlumata malik bütün vicdanlı insanları. Lakin xalqımızın payına düşmüş ələm o qədər böyükdür ki, yalnız sarsılmaqla kifayətlənmək olmaz. Mübarizə etmək lazımdır. Bu baxımdan ayrı-ayrı fərəhli faktlar var: bizim bütün dünyaya tekslə göndərdiyimiz xəbərlərdən sonra, həmvətənlərimiz tərəfindən bir sıra ciddi bəyanatlar verilmiş, müsahibələr, məqalələr dərc edilmiş, kitab çap ounmuş, (misal üçün doktor Əhməd Mehribani Təbrizlinin «Dağlıq Qarabağın tarixi və ona dair sənədlər» adlı monoqrafiyası), yığıncaqlar, nümayişlər, sərgilər keçirilmişdir. AFR-də çıxan «Ana dili», İngiltərədə çıxan «Aydınlıq» qəzetləri oxucularına obyektiv məlumatlar vermiş, Türkiyədə, Qərbi Almaniyada, Danimarkada yaşayan həmvətənlərimiz Qanlı yanvar hadisələrindən sonra, yaralılar üçün az tapılan tibb ləvazimatı göndərmişlər. Lakin bizim Avropada, Amerikada yaşayan mühacirlərımızın sayı və potensial imkanları baxımından bu, çox azdır. Nə üçün? İki əsas səbəb var. 1-si ona görə ki,  bizim mühacirətin vətənlə, xalqla bağlılıq və ayrı-

ayılıqda yox, bir küll halında, vahid bir qüvvə kimi Vətənin, xalqın təəssübünü çəkmək ənənələri zəifdir, hələ yeni-yeni təşəkkül tapmağa başlayır. 2-si isə ona görə ki, xaricdəki həmvətənlərimiz arasında da birlik çatışmır. Misal üçün, bir ölkədə yığışıb Azərbaycan cəmiyyəti təşkil ediblər, sədr və müavin seçiblər. Həmin sədr ilə müavinin bir-biri ilə arası yoxdur, didişirlər. Nəticədə də cəmiyyət fəaliyyət göstərə bilmir. Mən bunu bütün açıqlığı ilə deyirəm, çünki artıq elə bir məqama gəlib çatmışıq ki, özümüz-özümüzdən heç nəyi gizlətməməliyik. Romantik əhval-ruhiyyə, sentimental ah-uflar daha dünənki gündə qalmalıdır. Xalqımızın taleyi fəaliyyətimizdə sərt realizm tələb edir. Bir də ki, qətiyyən özümüzə qapanmamalıyıq.

– Nəyi nəzərdə tutursunuz?

– Çox zaman özümüzün deyib özümüzün eşitməyini! Biz çalışmalıyıq ki, dediklərimizi başqaları eşitsin – sovet ictimaiyyətindən tutmuş, Avstraliya ictimaiyyətinəcən! Bunun üçün dediklərini əsaslandırmağı bacarmalısan. Həmin əsasların elmi-siyasi-tarixi təməli olmalıdır. Yoxsa ki, təkcə emosiya ilə heç nə əldə etmək mümkün deyil. Rusca, ingiliscə, fransızca, almanca deməyi bacarmalıyıq. Bəs biz çox zaman nə edirik? Oturub, durub, nitqi irad eləyib özümüz-özümüzə deyirik ki, Ermənistan SSR bizə qarşı fitnəkarlıq edir, ermənilər bizə qarşı xaincəsinə müharibə aparırlar. Bu, açıq qapını döyməyə bənzəyir. Məgər bu gün bütün bunları bilməyən azərbaycanlı var? Halbuki, ağıllı vətəndaş harayımız və fəaliyyətimizlə bağlı üzümüzə bağlı olan qapıları açmalıyıq. Axı, bizim milli siyasi mədəniyyət baxımından Azərbaycan Demokratik Respublikasından gələn böyük ənənələrimiz var. Bax, həmin ənənələri bərpa etmək lazımdır. Bütün dünya ilə təmasımızı genişləndirməliyik. Özümüz çıxış edib, sonra da evdə oturub öz çıxışımıza qulaq asmaq dünənki günün faktına çevrilməlidir. Çıxışımıza başqaları qulaq asmalıdır. Başqalarında elə obyektiv təəssürat yaratmalıyıq ki, bizim xeyrimizə olan həqiqəti onlar desin.

– Hələ «Vətən» Cəmiyyəti yaranmazdan əvvəl, Siz xarici səfərləriniz haqqında silsilə əsərlər yazırdız. Sizin «Yaxın, uzaq Türkiyə» əsəriniz on il bundan əvvəl yazılmasına baxmayaraq, bu gün də çox aktual səslənir və sevilə-sevilə oxunur. Ancaq bu gün Siz Qarabağ hadisələri ilə bağlı ABŞ senatına məktub yazırsız.

Berlin radiosuna, yaxud Türkiyə televiziyasına, xarici qəzetlərə müsahibələr verirsiz və s. Bəs yazıçı Elçin?

– İndi yazıçı Elçinə yalnız acımaq olar...

– Yaxşı, sonuncu sualımı verirəm: «QARABAĞ» qəzetinin yaranmasını necə qarşılayırsınız və həmin qəzeti gələcəkdə necə görmək istərdiniz?

– Bir müddət bundan əvvəl ölkənin rəhbərləri, mərkəzi mətbuat (və bu təsirlə də bütün xaric!) dönə-dönə deyirdi, yazırdı ki, Dağlıq Qarabağda biz erməni əhalisinin hüquqlarını tapdalayırıq, az qala onları kölə eləmişik. Həmin Dağlıq Qarabağda ki, Azərbaycan dilində heç olmasa, rəsmi vilayət qəzeti də yox idi.... «QARABAĞ» qəzeti çox gec nəşrə başlayıb. Mən bu nəşri ürəkdən alqışlayıram. Arzum isə ondan ibarətdir ki, qəzet xalqımızın problemlərini, dərdi-sərini, mənəviyyatını səviyyəli şəkildə işıqlandırmağı bacarsın.

*Müsahibəni E.Hüseynov apardı.*
*1990.*

## ƏHƏMİYYƏTLİ BİR HADİSƏ

*Əməkdaşımız «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri, yazıçı Elçinlə görüşmüş və aşağıdakı sualla ona müraciət etmişdir:*

– Elçin müəllim, artıq mətbuat xəbər vermişdir ki, ABŞ konqresmeni Cim Mudi Sizin dəvətinizlə respublikamızda olmuşdur. Xahiş edirik ki, konqresmen haqqında bir neçə kəlmə deyəsiniz və bu səfəri qısaca şərh edəsiniz.

– Konqresmen Cim Mudi Amerikanın məşhur siyasi xadimi, Demokratlar partiyasının liderlərindən biridir. Amerika siyasi dairələrində böyük nüfuza malikdir. Amerikada erməni lobbisi çox güclüdür, çünki zəngin və mütəşəkkildir. Erməni təəssübkeşliyi, hətta ABŞ kimi böyük bir dövlətin siyasətinə də təsir göstərir. Təsadüfi deyil ki, keçən il noyabrın 17-də ABŞ senatının xarici işlər üzrə komitəsi Dağlıq Qarabağ haqqında həqiqəti təhrif edən, qeyri-obyektiv qətnamə qəbul etmişdi. Bizim öyrəndiyimizə görə bu bədnam Qətnamə bilavasitə ABŞ-dakı erməni lobbisinin təhriki ilə meydana çıxmışdı. Əlbəttə, belə vəziyyət bizi son dərəcə narahat etməyə bilməzdi. Həmin Qətnamə ilə əlaqədar mən Azərbaycan SSR Ali Sovetinin deputatı kimi ətraflı bir məktubla ABŞ senatına müraciət etmişdim. Lakin bununla kifayətlənmək olmazdı. Amerika siyasət aləminin görkəmli nümayəndələrindən birinin Azərbaycana gəlməsinə, vəziyyətə obyektiv qiymət verməsinə ehtiyac böyük idi. Nəhayət, həmvətənlərimizin, ilk növbədə ABŞ vətəndaşı azərbaycanlı Ərcümənd Qılıncın yaxından köməyi ilə gərgin fəaliyyət nəticəsində konqresmen Cim Mudinin Azərbaycana səfərini təşkil edə bildik. Bu səfər Şəhidlər xiyabanının ziyarəti ilə başlandı və beş gün müddətində konqresmen respublikamızdakı vəziyyətlə tanış oldu, Qarabağı öz gözləri ilə gördü. Xankəndindəki qatı erməni millətçiliyini bilavasitə özü müşahidə etdi, Xocalıda azərbaycanlıların ağır güzəranını gözləri ilə gördü. Cənab Mudi əsl siyasət adamıdır: heç nə nəzərindən yayınmır, verdiyi suallara emosional yox, dəqiq və işgüzar cavablar tələb edir, həqiqəti axtarmağı və tapmağı bacarır.

Konqresmen Azərbaycandan böyük təəssüratla ayrıldı. Onda torpağımıza qarşı qəsbkarlıq, xalqımıza qarşı təcavüzkarlıq barədə tam təsəvvür yarandı. Ayrılarkən Amerika Birləşmiş Ştatlarının konqresində xüsusi çıxış edəcəyini, mətbuat konfransları keçirəcəyini, Azərbaycan və o cümlədən, Dağlıq Qarabağ haqqında əsl həqiqəti ABŞ ictimaiyyətinin diqqətinə çatdırmaq üçün əlindən gələni əsirgəməyəcəyini söylədi. Tam əsasla deyə bilərəm ki, bu səfər respublikamızın siyasi-ictimai həyatında fövqəladə əhəmiyyətli bir hadisədir. Çünki artıq danışmaq yox, iş görmək vaxtıdır.

*1990.*

## «DÜNYA - SİYASƏT MEYDANIDIR»

Cəmi üççə yaşı var: 1987-ci ilin dekabrında yaradılıb. Addımları yenicə bərkiyir, təzəcə mətinləşir. Buna baxmayaraq, «Vətən» Cəmiyyəti tezliklə Azərbaycan torpağının, onun halal-hümmət sakinlərinin mədəni-mənəvi güzgüsünə çevrilib. Bu güzgüdən dünyanın bir çox ölkələri ovuc içi kimi görünür. «Vətən» bu gün bizim bölünən, parçalanan Vətənimizin, diyar-diyar «cəla-yi-vətən» olan həmyerlilərimizin, bir sözlə, «Azərbaycan» kəlməsinə tapınanların söykək, təsəlli yeridir. Şübhəsiz Cəmiyyətin fəaliyyətinə heç bir azərbaycanlı biganə qala bilmir. Nə bizim yaşadığımız ölkədə, nə də xaricdə. Elə «Vətən» Cəmiyyəti rəyasət heyətinin sədri, görkəmli yazıçı Elçinlə görüşəndə, təşkilatın əmələgəlmə zərurətindən, işlərindən, qayğılarından danışmağa başlamaqla aramızda səmimi ünsiyyət körpüsü yarandı.

– Bəlkə də taledən, qismətdən alnımıza yazılıb: bütün vacib məsələlərdə gecikmək, başqalarından geri qalmaq. «Vətən» adında mənəvi yaxınlıq mərkəzi başqa respublikalarda, eləcə də bu gün bizə düşmən kəsilən Ermənistanda təxminən 30 il əvvəl yaradılıb. Halbuki «Gülüstan» və «Türkmənçay» sülh müqavilələrindən sonra Azərbaycan xalqı kimi bölünən, pərən-pərən düşən, təqiblərə məruz qalan ikinci faciəvi taleli xalqı təsəvvürə gətirmək çətindir. Özü də bu bölünmə, yerindən-yurdundan ayrıdüşmə, didərgindüşmə yaşadığımız əsrin ortalarınacan mərhələ-mərhələ aparılıb. Həm Arazın o tayında, həm də bizim yaşadığımız Şimali Azərbaycanda. Bu məsələlərdə çar Rusiyası da təqsirkardır, İran despotizmi və şah rejimi də, «SSRİ» adlandırdığımız nəhəng gəminin sükançıları da.

– İndi azərbaycanlı mühacirlərin müxtəlif ölkələrdə sayını ifadə edən təxmini göstəriciyə diqqət yetirin: Almaniya – 250 min; ABŞ – 250-300 min; Fransa – 90 – 100 min; İngiltərə – 60 min; Norveç, İsveç, Danimarka və Hollandiya – 100-150 min; İspaniya – 20 min, Avstraliya və Yaponiya – 2,5 min; Avstriya – 15 min; Hindistan və Pakistan – 30 min. Bundan başqa, İraqda 600 min, Şərqi Anadoluda və Türkiyənin başqa əyalətlərində 1,5 milyon qan-qardaşımız yaşayır. Cənubi Azərbaycanda məskunlaşan

azərbaycanlıların sayı isə İranın əhalisinin təxminən yarısı qədər – 20 milyondan artıqdır. Qərb ölkələrinə səpələnən yurddaşlarımızın 90 faizi müxtəlif səbəblər üzündən İrandan köçüb. Çünki bu qüdrətli Şərq ölkəsində baş verən dəyişikliklər – müharibə çətinlikləri, İslam inqilabı, təbii fəlakətlər adamları bəzən bir parça çörəkpulu qazanmaq üçün Avropanın sənaye şəhərlərinə aparıb çıxarıb. Əlbəttə, təhsil almaq niyyətilə Qərbə yollanan azərbaycanlı gənclərin də sayı get-gedə, durmadan artmaqdadır. Son iki-üç ildə formalaşan «Vətən» Cəmiyyəti təkcə bu faktları araya-ərsəyə gətirməklə kifayətlənməyib. Azərbaycanlılar arasında əsl dostluğun, qardaşlığın, mədəni əlaqələrin təməlini xeyli möhkəmləndirib. Bunu Cəmiyyətimizin təsirindən xaricdə yaranan birliklər, dərnəklər, mərkəzlər sübut edir.

– Bəli, bu barədə biz də eşitmişik, mətbuatda oxumuşuq: dünyanın bir sıra ölkələrində «Vətən»in qol-budaqları, övladları meydana gəlib – yeni-yeni mədəni mərkəzlər, birliklər, dərnəklər, ittifaqlar... Onlara münasibətiniz necədir və Cəmiyyətin təsirindən yaranan bu qruplarla əlaqələri hansı istiqamətdə qurursunuz?

– «Vətən» Cəmiyyətinin fəaliyyətinəcən xaricdə yaşayan həmvətənlərimizlə əlaqələr pərakəndə şəkildə idi, geniş deyildi – üç-dörd təşkilatın adını eşitmişdik, vəssalam. Ancaq indi bizim təşəbbüsümüzlə 50-dən yuxarı cəmiyyət, mərkəz, dərnək bizimlə qarşılıqlı əməkdaşlıq əsasında əlaqə yaradıb. Bunlar öz tərkibində minlərlə adamı – torpaq, yer-yurd təəssübü çəkən, ürəyi Vətənin ahəngi ilə döyünən Azərbaycan övladını birləşdirib. Belə mədəni həmrəylik təşkilatları narahat planetin müxtəlif regionlarında – Amerikada (4), Türkiyədə (4) AFR-də (4), İngiltərədə (3), Norveçdə (2), Fransada (2), Kanadada (2), Avstriyada (2), Danimarkada (2) və sairə ölkələrdə fəaliyyət göstərir. Bəziləri tezliklə şöhrət qazanıb, bütün dünyada tanınmağa başlayıb. Hətta onların doğma dildə orqanları var – qəzetləri nəşr olunur. Adlarına fikir verin: «Ana dili» və «Savalan» (Almaniya), «Aydınlıq» və «Odlar ölkəsi» (İngiltərə), «Dədə Qorqud» (İspaniya) və s. Düzdür, bu nümunələri poliqrafik, professional qəzetçilik baxımından kamil adlandırmaq mümkün deyil. Ancaq dilimizin yayılmasında, ədəbiyyatımızın, mədəniyyətimizin, tariximizin öyrənilməsində, təbliğində müəyyən rol oynayırlar.

Bizim Cəmiyyətin əlaqələrinə gəlincə, get-gedə güclənir və genişlənir. Get-gəllərin, müxtəlif səpkilərdə keçirilən görüşlərin sayı artıb. Heç şübhəsiz ki, yeni ildə münasibətlərimizdə keyfiyyət dəyişikliyi olacaq, biz qardaş və bacılarımızla mədəni ünsiyyətin yeni səviyyəsinə qalxacağıq. Belə bir fakt deyim: «Vətən» xaricdəki mərkəzlərin, dərnəklərin, cəmiyyətlərin ünvanına müntəzəm surətdə ərməğan göndərir: qəzet və jurnallar, elmi və bədii ədəbiyyat, məlumat xarakterli materiallar, qramafon valları, maqnitafon və video kassetləri...

– «Vətən»in xəttilə sənət adamları – yazıçılar, jurnalistlər, rəssamlar, bəstəkarlar, müğənnilər, habelə görkəmli elm xadimlərimiz müxtəlif səpkili səfərlərdə olub. Şəxsən siz ötən il cəmi iki ölkəyə – Qərbi Almaniyaya və Türkiyəyə getmisiniz. Həmin yerlərdən həmkarlarınızla birgə hansı konkret təəssüratla qayıtmısınız? Daha doğrusu, o ünvanlarda hansı məqsədyönlü plan istiqamətində hərəkət etmisiniz?

– Dünya – siyasi hadisələrin, toqquşmaların yarış meydanına çevrilib. Mədəni əlaqələr münasibətləri tarazlayır, hirsi soyudur, bəşəriyyəti «qanı qanla yox, su ilə yuyarlar» kimi müdrik Şərq psixologiyasının məntiqi nəticəsinə çağırır. Ona görə həmkarlarımın da, özümün də təəssüratımızı müsbət qiymətləndirirəm.

Son vaxtlar yaxın qonşumuz və dostumuz Türkiyədə təşkil edilən konqreslər, seminarlar, yaradıcılıq müşavirələri haqqında çox yazılıb. Mən Qərbi Almaniyaya səfər barədə bir neçə kəlmə deyəcəyəm. Ora alman nəşriyyat və redaksiyalarının dəvətilə Azərbaycan haqqında mətbuat konfransları verməyə getmişdim.

Səfərim bir həftə çəkdi: Bonn, Nürnberq, Frankfurt, Dortmund, Erlangen, Darmiştat kimi iri şəhərlərdə konfranslar verdim. Qısa vaxt ərzində müasir Azərbaycandakı siyasi vəziyyətlə, o cümlədən, Qarabağ hadisələri ilə, eləcə də ədəbiyyat və tariximizlə bağlı bir çox ciddi söhbətlərə nail oldum. Yerli televiziyaya, radioya, bir sıra alman və türk qəzetlərinə müsahibələr verdim. Qırxa qədər gərəkli, vacib tədbirin iştirakçısı oldum. Məncə həm qürbətdə yaşayan azərbaycanlılar, həm də almanlar dediyim məsələlər istiqamətində dolğun məlumat əldə elədilər. Necə deyərlər, bunu alman mətbuatı da səmimiyyətlə qeyd etdi.

– Güman ki, elə əlaqələrin bəhrəsidir: indi xaricdə respublikamıza sonsuz maraq göstərirlər. Bu yaxınlarda mətbuat xəbər

verdi ki, ABŞ konqresmeni Cim Mudi sizin dəvətinizlə Bakıya gəlib. Azərbaycanın bir neçə rayonunda, habelə Qarabağda olub. Qonaqdan məqsəd soruşmazlar, ancaq bilmək istərdik, amerikalının gəlişinin məqsədi nəydi və deyə bilərsinizmi, öz qitəsinə hansı təəssüratla qayıtdı?

– Əlbəttə, təbliğatın gücü özünü göstərir. Məgər elə Dağlıq Qarabağ hadisələrinin ilk mərhələlərində bizə edilən hücumların, arxadan dəyən zərbələrin əksəriyyəti xaricilərin haqqımızda məlumat azlığından irəli gəlmirdimi? Kəmfürsət düşmən bu manevrdən məharətlə öz xeyrinə istifadə elədi. Dünyanın bütün nöqtələrində çığır-bağır saldı. Bir müddət təkləndik. Çünki atalar demişkən: «oğru elə qışqırmışdı, doğrunun bağrı yarılmışdı». Səhvimizi gec başa düşdük...

Qaldı Cim Mudi – bu şəxs Amerikanın nüfuzlu siyasi xadimi, Demokratlar Partiyasının liderlərindən biridir. O, Azərbaycandakı siyasi vəziyyətlə tanış olmaq, erməni təcavüzünün həyasızlığını gözü ilə görmək məqsədilə yurdumuza təşrif gətirmişdi. Bu son dərəcə mühüm səfərlə bağlı çox danışdıq. Hörmətli qonağın hər arzusuna əməl edildi. Konqresmen, həqiqətən, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərində, ətraf rayonlarda oldu. Vilayətin xəritəsini, əhalinin tərkibini, onların məskunlaşma tarixini, münaqişənin başlanması səbəblərini təqdim etdiyimiz obyektiv faktlar əsasında öyrəndi. Amerikalı etiraf etdi ki, onun vətənində erməni lobbisi güclüdür və ABŞ-da «mənfi azərbaycanlı» obrazını onlar yaradıblar. Onu da bildirdi ki, qayıdan kimi ölkə konqresində çıxış edəcək, mətbuat konfransı keçirəcək, əsl həqiqəti bütün təfsilatı ilə ictimaiyyətə çatdıracaq. Əminəm ki, məşhur siyasi xadimin, iqtisadçı alimin respublikamız barədə qənaəti gələcəkdə müsbət nəticə verəcək.

– Elçin müəllim, SSRİ prezidenti M.S.Qorbaçov xalq deputatlarının son qurultayında təxminən belə bir fikir söylədi: Biz görünür, Dağlıq Qarabağda və ölkənin bir sıra bu kimi qaynar nöqtələrində prezident idarə üsulu tətbiq eləməli olacağıq. Bu fikir erməni millətçilərini yenidən qızışdırmırmı, prezidentin ölkənin daxili siyasətində yol verdiyi belə qeyri-sabit dəst-xəttini, kiminsə xeyrinə tərəfkeşlik eləməsi faktını necə qiymətləndirirsiniz?

– Ölkə iqtisadi tənəzzül okeanında üzür. Görünür, Dağlıq Qarabağ saman çöpüdür. Amma boğulanı nə Dağlıq Qarabağla, nə Oşla, nə də Şimali Osetiya ilə xilas etmək mümkün deyil. Çevik

və cəld dalğıc lazımdır ki, suda hər səmtə hərəkət edə bilsin, batanın canını qurtarsın. Təəssüf ki, sahildən, ancaq tamaşaçı sifəti ilə dayanıb baxırlar, sanki həzz alırlar, ölkənin sabahı barədə düşünmək istəmirlər. Bunlar qəsdənmi eləyirlər, bilərəkdənmi eləyirlər, məncə tarix tezliklə dürüstləşdirəcək...

– Yaradıcılığınızla bağlı bir ənənəvi sual. Siz «Vətən» Cəmiyyətinin sədri kimi ictimai, ümumazərbaycan, ümumölkə əhəmiyyətli iş aparmaqla yanaşı, həm də yazıçısınız. Tərəddüdlə qarşılaşdığımız Yeni ildə oxucularımıza töhfəniz nədir?

– Əvvəlcə əsas məsələyə qayıdaq. Sonra yaradıcılığım barədə danışacağam. 1990-cı ilin həmin elə bu yanvar ayı məmləkətimizə tankla, topla gəldi. Dinc əhaliyə amansızcasına divan tutulması ilə başlandı. Haqq səsini ucaldan övladlarımız qırıldı. Hərbi zirehin altında xışmalandı. Belə namərd addım xalqı hiddətləndirdi, coşub-daşan ehtirasları qızışdırdı. Axı, harada görünüb ki, ölkə rəhbərliyi torpağının bir guşəsində – iki milyonluq bir sənaye şəhərində qəfildən, elan edilməmiş fövqaladə hərbi vəziyyət yaratsın? Küçələrə səpələnmiş dinc əhalini güllə-baranla dağıtsın? Və səbəblər məlum ola-ola təqsirkarlar indiyədək axtarılıb tapılmasın? Bakı hadisələrinə niyə siyasi qiymət verilməsin? Deyir... haynan gələn vaynan gedər, onsuz da günlərin bir günü pərdə yırtılacaq...

Düzü qarışıqlıq hadisələrin sel kimi axını yazıçının yazı-pozu masasını da, əlbəttə, çox soyudur. Axı, qələm sahibi öz xalqının taleyinə necə biganə qala bilər? Nə isə... Ötən il Bakıda, Moskvada, həmçinin bir sıra xarici ölkələrdə – Almaniyada, Yuqoslaviyada kitablarım nəşr olunub. London televiziyası hekayələrim əsasında teletamaşa hazırlayıb ekrana buraxıb: «Evlənmək istəyirəm» adlı faciəvi komediyamı tamamlamışam. Teatrlarımızın birinə təqdim etmək fikrindəyəm. Sonra Molyerin «Skapenin kələkləri» və «Jorj Danden» komediyalarını Azərbaycan dilinə tərcümə eləmişəm, dahi dramaturq barədə elmi oçerkimlə birlikdə nəşriyyata vermişəm. Daha sonra filologiya elmləri doktoru Vilayət Quliyevlə müştərək neçə ildən bəri üzərində işlədiyimiz kitabı yazıb qurtarmışıq. «Klassik Azərbaycan ədəbiyyatında, folklorunda işlənən janrların, formaların izahlı lüğəti», «Cəhənnəm» adlı roman, təzə hekayələrim üzərində işimi davam etdirirəm. Görək, sağlıq olsun, çaplarına tələsmirəm.

– Bəs, «Vətən» Cəmiyyəti mədəni, mənəvi əlaqələr fonunda ilin başlanğıcında xalqına nə vəd edir, nə arzulayır?

– Cəmiyyətin xəttilə gördüyümüz və görəcəyimiz işlər barədə az-çox danışdım. Biz elə bir zəmanədə yaşayırıq ki, bəzən hər ayın, hər həftənin öz hökmü ilə rastlaşır, beləliklə, planlar alt-üst olur. Amma yenə təkrar edirəm, ümumilikdə həmvətənlərimizlə mədəni əlaqə körpülərini genişləndirəcək, münasibətləri əməlli-başlı sahmana salacağıq. Xalqa arzumuz nədir? Bütövlük, həmrəylik, dəyanət, əmin-amanlıq və xoşbəxt həyat. Dünyanın bütün siyasi oyunlarında udan da insandır, uduzan da...

*Müsahibəni apardı Ağacəfər Həsənli.*
*1991.*

## «AZƏRBAYCAN» JURNALININ SORĞUSU

1. Dünyanın özü kimi qədim olan POEZİYA zamanın bu mürəkkəb, son dərəcə təzadlı çağında Sizə necə təsir bağışlayır? Niyə onun səsi bu gün əvvəlki kimi gur səslənmir?

2. Azərbaycan poeziyasının son yetmiş ildə itirdikləri onun qazandıqları ilə müqayisəyə gələrmi? XXI əsrə qədəm basarkən dönüb arxaya baxmalı olsaq, nəyə təəssüflənərik, nəyə sevinərik? Bir sənət adamı kimi XX yüzilliyə, onun poeziyasına münasibətiniz? Sizcə, XXI əsrə hansı şairlərimiz canlı, diri gedib çıxacaq?

3. Qayıdaq bu günümüzə. Azərbaycan poeziyasının son dörd ildə keçdiyi yolu qısaca ümumiləşdirək. Xalqımızın bu ağır, məşəqqətli dörd ili və poeziyamız...

4. Sizinlə bir dövrdə ədəbiyyata gələn poetik nəslin bugünkü fəaliyyətindən razısınızmı? Xahiş olunur, konkret adlar çəkəsiniz.

5. Poeziyamızın yeni nəsli barədə sözünüz, arzularınız...

6. Poeziya və tənqid. Bu barədə sözünüz?..

7. Sorğuda daha hansı sualı gözləyirdiniz və siz ona necə cavab verərdiniz?

1. Çox təəssüflər olsun ki, bu gün ədəbiyyat və o cümlədən, poeziya on beşinci dərəcəli lazımsız bir şey kimi, arxaya atılıb qalıb və elə bil ki, o heç kimə lazım deyil...

Bunun iki səbəbi var:

Birinci – ədəbi proses tamam ölgün bir vəziyyətə düşüb və bu heç kimi, ilk növbədə isə bu işlə məşğul olası, bu işin təəssübün çəkəsi adamları, təşkilatları, redaksiyaları maraqlandırmır. Canlı ədəbi proses olmadığı üçün, son vaxtlar yaranan əsl poeziya nümunələri, yəni sənət əsərləri poeziya məmulatı içində itib-batır. Bu isə, təbii ki, zövqləri korlaşdırır, bizi, ümumiyyətlə, soyuqqanlı edir, yalnız poeziyanın, hətta yalnız ədəbiyyatın, sənətin yox, ümumiyyətlə, həyatın meyarları pozulur, naqisləşir...

İkinci – ilham da elə bil ki, xəsisləşib, ətalət onu üstələyib... Beş il bundan əvvəl bir ilin mətbuatından «Azərbaycan şer antologiyası» üçün, deyək ki, altmış sənət nümunəsi seçə bilərdinsə,

bu gün, elə bilirəm ki, on-on beşini ancaq axtarıb taparsan, yəni dediyim odur ki, tənasüb bu dərəcədə fəlakətli surətdə azalıb. Əlbəttə, belə vəziyyətin səbəbləri var: günahsız qanlar axıdılır, torpağımıza təcavüz olunur, yüz cürə fitnə-fəsadla üzləşirik, istiqlalımız, azadlığımız uğrunda mübarizə aparırıq...

Amma bütün bunlarla bərabər, bir həqiqət mənim üçün gün işığı kimi aydındır: o müstəqillik, azadlıq ki, poeziyasız, ədəbiyyatsız, sənətsiz olacaq, mən o müstəqilliyin və azadlığın həqiqi vüsətinə inanmıram. Çünki bu mümkün deyil. Müstəqillik və azadlıq uğrundakı mübarizə bu gün bizim həyatımızın məqsədi olmalıdır – bu sözsüzdür. Lakin sənət uğrunda mübarizəni də məhz müstəqillik və azadlıq, demokratiya uğrundakı mübarizənin tərkib hissəsi hesab edirəm.

2. Yalnız son yetmiş ildə, deyil, ümumiyyətlə, bütün dövrlərdə sənət ilə antisənət, indiki halda poeziya ilə antipoeziya yanaşı addımlayıb. Əsl şairlə birlikdə bütün dövrlərdə, bütün ictimai quruluşlarda buqələmun şair də, konyukturaçı, qrafoman, «zorən-təbib» şairlər də olub. İntəhası son yetmiş ildə bizdə bütün antisənət kimi, antipoeziyanın da «çiçəklənməsi» üçün başqa dövrlərlə müqayisə edilməyəcək dərəcədə əlverişli münbit zəmin yaranmışdı.

3. Poetik mövzu qələmə alınarkən, mənim aləmimdə burada iki cəhət vəhdət təşkil etməlidir: estetika və etika. Son yetmiş ilin ideoloji-müstəmləkəçi hökmranlığı Azərbaycan poeziyasında estetikaya da sözsüz zərbələr vurdu, amma etikanı tamam xəcalətli bir vəziyyətə saldı. Şerlər, poemalar yarandı ki, qafiyələri də yerindədi, poetik obrazlara da malikdi, dili də səlis və poetikdir, amma yalanın vəsfinə həsr olunduğu, yəni sənətkar etikasına zidd olduğu üçün antipoeziya nümunəsidir. Bu nümunələr Stalin mükafatlarına da layiq görülüb, dərsliklərə də salınıb, saysız-hesabsız təntənəli mərasimlərdə böyük artistlərimiz tərəfindən əzbər də söylənib, alqışlar qazanıb, müəlliflərin döşünə Lenin ordenindən tutmuş «Əzməkdə fərqləndiyinə görə» medalına qədər ən rəngarəng nişanlar taxdırıb, lakin nəticə etibarilə onlar antipoeziya nümunələridir. Yetmiş il istedadlı şair istilahını ordenli şair istilahı ilə əvəz edib və bu ideoloji təxribat ən böyük poetik itkilərimizə sövq edib. Antisənət mükafatlandlırılıb, həvəsləndirilib, inkişaf etdirilib, sənət aləmində sürrealist bir mənzərə yaradıb, amma bir həqiqət də var və onu unutmaq olmaz: bu dövrdə sənət

də ölməyib və ideoloji eybəcərlik içində olan o yetmiş ildə sövqtəbii ilə, yəni təbiətin, istedadın sayəsində əsl poeziya da yaranıb.

Əsl poeziya bu yetmiş ildə güllələnib də, həbsə də salınıb, təqiblərə məruz qalıb, heç vəhclə şirnikləndirilməyib, lakin mövcud olub və XX əsr Azərbaycan poeziyası bütün itkilərinə baxmayaraq, xalqımızın mənəvi sərvətinin bir hissəsidir.

O ki qaldı hansı şairimizin XXI əsrə «canlı, diri» gedib çıxmasına, bu suala belə cavab verərdim: o şairlər ki, bu gün bizə də «canlı, diri» gəlib çıxıblar: Nəsimi, Füzuli, Vaqif, Sabir... 70 ildəki sənətkarlarımızdan isə kimin XXI əsrə «canlı, diri» gedib çıxdığını isə XXI əsrin oxucusu deyəcək. Biz tələsməyək.

3. Bu sualın cavabı, elə bilirəm ki, 1-ci sualınızın cavabında var. Dediyiniz həmin dərd, məşəqqət poeziyamızın bir sıra yüksək səviyyəli, hüznlü, kədərli, tragik nümunələrini yaradıb, lakin poeziya özü özlüyündə elə bil ki, arxa plana keçib, bax, dərd bundadır...

4. Fikrət Qoca bu gün öz istedadının dərəcəsində yazıb çap olunurmu? Yox. Fikrət Sadıq necə? Yox. Məmməd İsmayıl? İsa İsmayılzadə? Məmməd Aslan? Musa Yaqub? Yox... Yox... Bir vaxtda ədəbiyyata gəldiyimiz, adlarını çəkdiyim və çəkmədiyim gözəl şairlərimizin istedadı bu gün o istedada layiq şəkildə təcəssümünü tapırmı? Yox... Təqsir nə fikrətlərdə, nə də məmmədlərdədi. Yuxarıda dediyim kimi, zəmanə mürəkkəb və ziddiyyətli, ədəbi prosesi vecinə alan yox, yaxşı ilə pisə qiymət verən yox... Bir tərəfdən də su yerinə axan günahsız qanlar...

5. Poeziyamızın və ümumiyyətlə, ədəbiyyatımızın ən yeni nəsli söykənə biləcəkləri ədəbi-mənəvi dayaq mənasında ən acınacaqlı bir vəziyyətdədir... Arzum, istəyim budur ki, təki mən yanılmış olum... Amma bütün daxilimdə hiss edirəm ki, yanılmıram. Yeni nəslin onlara münasibətdəki biganəlikdən doğan ədəbi yetimliyini hiss edirəm. Bu isə yalnız ədəbiyyatın yox, millətin fəlakətidir.

6. Siz hansı tənqiddən danışırsınız? Hanı o tənqid? Son illərdə poeziya ilə bağlı ciddi analitik bir məqaləni əvvəlcə mənə göstərin, sonra fikir mübadiləsi edək. Acı həqiqət budur: bu gün Azərbaycanda poeziyanın problemlərini ehtiva edən, yaxşını və pisi ünvanlı şəkildə göstərən ciddi vətəndaş tənqidi yoxdur və ədəbi prosesdəki bu vəziyyət, təkrar edirəm, heç kimi nəinki na-

rahat etmir, ümumiyyətlə, maraqlandırmır: nə ciddi qələm sahibləri, nə bu işlə məşğul olası təşkilatları, nə də redaksiyaları.

7. Bəs nə olacaq? Bizi nə gözləyir?

Mənim də cavabım: Bilmirəm...

*1991*

## YENİ İL ANKETİ

1. «Ulduz» jurnalının ədəbi taleyinizdə rolu?
2. Jurnalı indiki şəraitdə necə görmək istərdiniz, iradlarınız və tövsiyələriniz?
3. Mədəniyyətimizin böhrandan çıxış yollarını nədə görürsünüz?

1. «Ulduz» jurnalının nəşri o zamanın kirlənmiş (hamımız hələ də Mehdi Hüseynin Yazıçılar İttifaqında vəfatının acı təəssüratı altında idik, cəmiyyət isə Xruşşov açıqlamalarından və nisbi azadlığından, «İvan Denisoviçin bir günü»ndən sonra yenidən totalitar riyakarlıq içində qatı dumana bürünürdü...) ədəbi mühitində bir gənclik əhval-ruhiyyəsi yaratdı, içimizdəki boşluğa məhəlli də olsa, bir ruh yüksəkliyi gətirdi. Neçə illər idi ki, düşməyəndə də belə bir nəşri arzu edirik, xahiş edirik, tələb edirik.

Mənim xatirimdə «Ulduz»un nəşri ərəfəsinin həyəcanları arzu və xəyalları, canfəşanlığı, nəşrin sevincindən bəlkə də daha artıq dərəcədə özünə yer tapıb. Yadıma gəlir, o gözəl intizar günlərindən birində Fikrət Sadıqla görüşüb hər kəlməni ölçüb biçə-biçə, Azərbaycan KP MK-nın yeni katibi Şıxəli Qurbanova ərizə yazdıq ki, məni yeni açılacaq jurnalın nəsr, Fikrəti isə şer şöbəsinə işə götürsünlər...

Onda aspiranturada oxuyurdum və o ərizədən sonra Şıxəli Qurbanov belə tövsiyə etdi ki, əvvəlcə aspiranturanı bitirmək lazımdır. Mən də aspiranturanı atmadım. Aspiranturanı bitirdim, müdafiə etdim və 1971-ci ildə iş elə gətirdi ki, gözlənilmədən dünyasını dəyişmiş Şıxəli Qurbanovdan sonra MK-nın katibi işləyən unudulmaz Cəfər Cəfərov məni «Ulduz»a redaktor məsləhət bildi, o zamankı bürokratiyanın bütün mərhələlərindən keçdim, respublika komsomolunun bürosu məni «Ulduz»a redaktor təsdiq etdi (komsomolun o zamankı birinci katibi Rafiq Əsgərovla indi də görüşəndə o hadisəni xatırlayıb gülürük), baş elmi işçi işlədiyim Nizami adına Ədəbiyyat İnstitutunda dostlar mənim üçün gözəl bir «yolasalma mərasimi» düzəltdi və səhəri gün Yazıçılar İttifaqına gəldim ki, Mehdi Hüseyndən sonra növbəti dəfə İttifaqın

sədri olan hörmətli Mirzə müəllim protokol üzrə məni redaksiyaya təqdim etsin.

O zamanlar qalstuk taxmağı heç xoşlamazdım, amma, indiki kimi yadımdadı, o günün şərəfinə xüsusi qalstuk taxmışdım. Mirzə müəllim məni həmişəki kimi gülərüzlə qarşıladı və gülümsəyə-gülümsəyə də dedi ki, təqdimatı başqa vaxta keçirir... Mirzə müəllimə baxa-baxa başa düşdüm ki, o «başqa vaxt» getdi düşdü quyunun səsçatmaz, ünyetməz dibinə. O zaman Mirzə müəllimlə Cəfər Cəfərovun münasibətləri çox gərgin idi və mənim redaktorluq əhvalatım da, görünür, o gərginliyin bir hissəsinə çevrilmişdi və axırı Mirzə müəllimin parlaq qələbəsi ilə nəticələndi...

İndi mən bütün bunları tamam kinsiz-küdurətsiz, ılıq, səmimi bir həyəcanla xatırlayıram və ürəyimdən bir təəssüf, bir «heyhat!..» ovqatı gəlib keçir: indi səsçatmaz, ünyetməz bir uzaqlıqda (əbədi uzaqlıqda!) qalan bizim gəncliyimizdir...

«Ulduz» 67-də nəşrə başladı və indi bu cümlələri yazarkən, 67-ci ilin Fikrətləri, Anarı, Əkrəmi, İsisi, İsası, Fərmanı, Ələkbəri, Məmmədləri, Abbası, Arifi, Arazı, Şamili, Sabirləri, Gülruxu, Yaşarı, başqaları bir-bir gəlib gözlərimin qabağından keçir və elə bil ki, kimsə lap yaxından o gözəl və həzin misraları pıçıldayır: «Keçən günə gün çatmaz, calasan günü günə...»

O ki, qaldı «Ulduz»un «ədəbi taleyimdəki rolu»na, mənim bir sıra ciddi hesab etdiyim yazılarım burada çap olunub və xüsusən, o vaxtlar ki, çap olunmaq mənim üçün, çətin idi. Cabirin, Arifin vaxtlarında «Ulduz»un mənim üçün, hətta mənəvi dayağa çevrilən vaxtları da olub. «Azərbaycan»da rəhmətlik Cəlal müəllimin qaytardığı hekayələri «Ulduz» «rəhbərliyin» mənfi fikrini bilə-bilə çap edirdi. Bir sıra kəskin məqalələrim «Ulduz»da dərc olundu.

Amma doğrusunu deyim ki, mənim üçün «Ulduz»la bağlı ən yaddaqalan hadisə «SOS» povesti ilə bağlıdı. O povest «komsomol karyerimizdən», ictimai əxlaq pozğunluğundan bəhs edirdi, «mənfi qəhrəmanı»da komsomol katibi idi.

«Ulduz» – komsomolun orqanı! – həmin povesti çap etdi və bundan sonra bir haray-həşir qopdu ki, gəl görəsən! Povest gənc yazıçının kobud ideya səhvinin təzahürü kimi respublika komsomol təşkilatının o zamankı katibi Elmira Qafarovanın məruzəsinə düşdü, ideoloji katib Rauf Axundov povestin çapı ilə bağlı xüsusi müşavirə çağırdı, «Ulduz»un redaktoru Cabir Novruza həmin təş-

kilatın bürosunda töhmət verdilər, İsi, Abbas, redaksiyanın digər işçiləri atəşin komsomol tənqidinə məruz qaldı...

«SOS» gənclik hisslərinin olsun ki, bir az sadəlövh, xəyalpərvər ifadəsi idi və o povesti də, ondan əvvəl çap etdirdiyim «Açıq pəncərə» povesti kimi sonralar heç bir kitabıma daxil etməmişəm, amma «SOS»un «Ulduz»da çapı mənim üçün bir hadisə olub və elə bilirəm ki, gələcəkdə tutduğum ədəbi istiqamətə də təsir edib. Yəqin elə buna görə də «SOS»un «Ulduz»dakı nəşri ilə bağlı bu xatirə mənim üçün qiymətlidir.

2. «İndiki şəraitdə», yəni ədəbiyyatın təəssübkeşliyi çəkilmədiyi, ədəbi prosesin tamam ölgünləşdiyi, «bazar iqtisadiyyatına keçiddə» ədəbi meyarların bazar qiymətləri ilə əvəz olunduğu, «yaxşı» ilə «pis»ə biganəliyin baş alıb getdiyi bir zamanda «Ulduz»u mübariz görmək istərdim. Ədəbi mübarizə millətin istiqlal uğrundakı mübarizəsinin tərkib hissəsidir və istərdim ki, «Ulduz» bu baxımdan milli mədəniyyət uğrunda səviyyəli və səriştəli mübarizə aparsın. İstedad isə həmişə onunladır. Çünki gənclik onunladır.

3. Mədəniyyəti mədəniyyət xadimi, sənət xadimi yaradır. Sənət xadimi üçün nə lazımdır? Millət onu qiymətləndirsin. Eyni zamanda, millətə rəhbərlik edənlər də onun qədrini və qiymətini bilsin. Yalnız bu zaman milli mədəniyyətin inkişafı üçün münbit zəmin, əlverişli şərait yarana bilər. Əks təqdirdə qorxuram ki, dediyiniz (və düz də dediyiniz!) o böhran daha da dərinləşsin, millətə dəyən çox ağır mənəvi zərbəyə çevrilsin.

*1992.*

## E L Ç İ N: «ƏN BÖYÜK MÜTTƏFİQİMİZ HƏQİQƏTDİR!»

Görkəmli yazıçımız, «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri ELÇİN bu yaxınlarda Almaniyada qısamüddətli işgüzar səfərdə olmuşdur. Müxbirimiz səfərlə bağlı Elçindən müsahibə almışdır.

– Elçin müəllim, Almaniyaya kimlərin dəvətilə və nə məqsədlə getmişdiniz?

– Frankfurtda yaradılmış Türkdilli Xalqların Ədəbiyyat və Kültürünü Tanıtma Mərkəzi beynəlxalq bir qurum kimi bir ilə yaxındır ki, fəaliyyət göstərir. Və bu az zamanda xeyli nüfuz qazanmış, yalnız Almaniyanın yox, digər ölkələrin də elmi, ictimai dairələri, xüsusən, informasiya vasitələri ilə sıx əlaqə yaratmışdır. Mən həmin Mərkəzin həqiqi üzvlərindən biriyəm və onun, eləcə də, «Dağyeli verlaq» nəşriyyatının dəvətilə Azəraycandakı müasir siyasi vəziyyət və xüsusən, Qarabağ hadisələri, erməni təcavüzü ilə bağlı konfrans və görüşlər keçirmək, müsahibələr vermək üçün Almaniyaya getmişdim. Proqram çox geniş və samballı idi. Almaniyanın bir sıra böyük şəhərlərini əhatə edirdi. Təəssüf ki, o proqramı imkan daxilində qısaltmalı, daha doğrusu, sıxmalı olduq...

– Səbəb nə idi?

– Proqram on üç günlük tərtib edilmişdi və Almaniyanın Frankfurtdan başqa, Berlin, Köln, Hamburq, Nyürenberq, Bonn kimi böyük şəhərlərində konfrans və görüşlər nəzərdə tutulurdu. Mən Frankfurta mayın 15-də səhər gəlib çıxdım və elə təyyarədən enən kimi də ayın 14-də Bakıda baş verən hadisələrdən xəbər tutdum, sonra 15-16-sı hadisələri və Qərb informasiya vasitələrinin Azərbaycanla bağlı ziddiyyətli xəbərləri səbəbindən əsəb gərginliyi, nigarançılıq içində idim, bütün varlığım məni Bakıya çəkirdi. 13 günlük proqramı 6 günə məhdudlaşdırdıq, gecəni gündüzə qatıb əsas işimizi gördük və mayın 22-də səhər Frankfurtdan çıxıb Vətənə qayıtdım.

– Elçin müəllim, Azərbaycan hələ də informasiya blokadası içindədir. Siz tez-tez xarici ölkə mətbuat orqanları, televiziya və

radioları ilə əlaqə saxlayırsınız. Sizin Almaniyadakı konfransları-nız, görüşləriniz, çıxışlarınız da yəqin ki, faydalı olmuşdur. Bu barədə danışsanız, oxucularımız üçün maraqlı olar.

– Əvvəla, informasiya blokadası barədə. Bu, acı həqiqətdir və bütün görüşlərimdə, çıxışlarımda, müsahibələrimdə mən bu məsələyə xüsusi toxunurdum. Qərb informasiya vasitələri Azərbaycan haqqında, burada gedən siyasi proses və xüsusən, müharibə barədə məlumatın demək olar ki, hamısını iki mənbədən alır: erməni lobbisinin təsiri altında olan dairələrdən və Moskva mətbuatından, televiziyasından, radiosundan. Qərbdə Azərbaycanla bağlı informasiya boşluğu var, xəbərsizdirlər, tanımırlar, məsələlərin mahiyyətinə varmaq imkanları yoxdur. Təbii ki, bu boşluğu doldurmağa çalışırlar, çünki bütün dünyanın zehnində indi Qarabağdır, necə ki, vaxtıyla, deyək Kipr idi. Erməni lobbisi bundan məharətlə istifadə edir, öz təsiri altında olan dairələri yalan məlumat verməyə sövq edir. O ki qaldı Moskvadan alınan məlumatlara, onlar da birtərəfli, bəzən isə ağ yalan olur, çünki bir tərəfdən yenə də erməni lobbisinin təsiri, digər tərəfdən isə can verən imperiyanın marağı... Mən bir daha əmin oldum: Azərbaycanın informasiya blokadasını biz özümüz yara bilməsək, başqası gəlib bu işi bizim yerimizə görməyəcək. Kimin nə qədər imkanı varsa, əlindən gələn köməyi ortaya qoymalı, dünya jurnalistlərini Azərbaycana dəvət etməyə çalışmalıdır. Qoy gəlsinlər və hər şeyi öz gözləriylə görsünlər. Mən bunu həmişə demişəm və bir daha təkrar edirəm: Azərbaycan mübarizəsində ən böyük müttəfiqimiz həqiqətdir! Xarici müxbirlər üçün şərait yaradılmalıdır, mehmanxana qiymətləri, yol xərcləri güzəştli olmalıdır. Nə qədər imkan varsa, xarici dillərdə ədəbiyyat nəşr etmək, Azərbaycan həqiqətini xalqımızın məruz qaldığı təcavüzü, soyqırımını əyani şəkildə göstərən albomlar, bukletlər basmaq, sənədli filmlər çəkmək lazımdır. Bəs biz nə edirik? Bakıda oturub xarici radiolara Azərbaycan dilində intervülər verir, sonra da özümüz özümüzə qulaq asırıq: «Pəh, filankəs yaman dedi!». Belə bir «yaman dedi!» ilə dünya ictimaiyyətinin diqqətini Azərbaycan mübarizəsinə cəlb etmək və həqiqəti başa salmaq mümkün deyil. Əlbəttə, Azərbaycan dilində də intervülər verilməli, məqalələr yazılmalıdır. Lakin yalnız bununla kifayətlənmək heç bir nəticə verməz. Nə isə mən, deyəsən, sualınızdan bir az uzaqlaşdım... Elə bu dediklərimin kontekstində Almaniyadakı bir sıra çıxışlarım, intervülərim elə bili-

rəm ki, faydasız olmadı. Onların bəzisini xüsusi qeyd etmək istəyirəm. Bütün dünyada məşhur olan «Döytçe velle» radiostudiyasında görkəmli politoloq, professor Mark Batunski ilə mən birbaşa efirdə Qarabağa həsr olunmuş 50 dəqiqəlik dəyirmi masa görüşü keçirdik. Söhbət rus dilində gedir və alman dilində tərcümə olunurdu, yəni söhbəti «Döytçe velle»nin dünyanın hər tərəfinə səpələnmiş alman və rusdilli dinləyiciləri eşidirdi. Yenə də həmin radiostudiyada məşhur politoloq-icmalçı Yefim Şuhmana, türk redaksiyasının müdiri Mehmet Bariyə geniş intervülər verdim. Bu söhbətlərin əsas mövzusu Azərbaycan xalqının öz müstəqilliyi uğrunda apardığı mübarizə, vəhşi erməni təcavüzü, Xocalı soyqırımı, qədim və zəngin erməni emiqrasiyasının bədnam fəaliyyəti, Qərbdə və Moskvada erməni lobbisinin çirkin əməlləri barədə idi. Almaniyanın ən nüfuzlu siyasi qəzetlərindən olan «Frankfurter Rundşau»da, «Yazin» həftəliyində dərc edilmiş ətraflı müsahibələri də qeyd etmək istəyirəm. Tanınmış alman telejurnalisti Minette fon Krosika (Qazaxıstanın Semipalatinsk faciəsi haqqında dünyaya haray çəkən və oradakı nüvə sınaqlarının dayandırılmasına çalışan xanımdır) mənimlə geniş söhbət keçirdi, eləcə də Mayn, Bremen, Drezden, Münhen radiolarına (vaxt məhdudluğuna görə həmin şəhərlərə gedə bilmədim, müxbirlərlə Frankfurtda görüşdüm), digər informasiya orqanlarına müsahibələr verdim və bütün çıxışların da başlıca mövzusu Azərbaycan xalqının öz istiqlalını bərpa etmək uğrunda apardığı mübarizədə ərazi bütövlüyünü qorumaq yolunda qarşıya çıxan çətinliklər idi. Konfranslarda, görüşlərdə alman ictimai dairələrinin nümayəndələri saysız-hesabsız suallar verirdilər və çox zaman saat yarımlıq nəzərdə tutulmuş konfrans üç saatdan artıq davam edirdi.

– Bu sualları doğuran da, yəqin Sizin dediyiniz həmin informasiya qıtlığı idi.

– Bəli. Sözsüz belədir. Dünya ictimaiyyəti, informasiya orqanları bizimlə çox maraqlanır. Məlumatların azlığının təqsiri onlarda yox, bizdədir. Suallar həmişəki kimi professional, yəni ağıllı və səmimi olurdu. Düzdür, bəzən qərəzli suallar da verilirdi, amma cavab obyektiv olanda, həqiqət sübuta yetəndə, elə bil ki, o qərəz də əriyib yox olurdu. Lakin bir sual var ki, onu orada mənə vermirdilər, o sualı mən özüm özümə verirəm və cavab tapa bilmirəm. Cavabsız sualla yaşamaq isə, bilirsiz, daimi əzabdır.

– Əgər sirr deyilsə, o hansı sualdır?

– Biz yenə mövzumuzdan kənara çıxırıq... Baxın, hamı deyir ki, Xocalı soyqırımında da, Şuşa faciəsində də, Laçın dəhşətində də milli xəyanət var. Eyni sözü müxtəlif qütblərdə olan adamlar deyir. Rəhbərlik də deyir ki, xəyanətdir, müxalifət də deyir ki, xəyanətdir. Belə isə, xəyanətkar kimdir? Axı, bu suala cavab verilməlidir. Axı, nə qədər ki, bu suala cavab verilməyib, xəyanət davam edə bilər...

– Elçin müəllim, müsahibəyə görə çox sağ olun.

– Siz də sağ olun.

*Müsahibəni apardı M.Talıblı*
*1992.*

## E L Ç İ N: «BAYRAĞIMIZI BİRGƏ QALDIRMALIYIQ»

Görən dünyada Azərbaycan xalqı qədər talesiz, məşəqqətli bir xalq varmı? Didərginlik, ölüm, qan, kimsəsizlik sanki bizim alnımıza yazılıb. Mühacirətimiz də özümüzə bənzəyir. Tarixin qanlı-qadalı dolaylarında dünyaya pərən-pərən səpələnmiş ən qeyrətli oğul və qızlarımızın adını çəkməyi belə bizə qadağan ediblər. Bu qadağan öz işini görüb. Vətəndəkilər laqeydləşib, qürbətdəkilər özgələşib... İndi budur, neçə on illərdən sonra dekabrın son gününü bütün dünya azərbaycanlılarının həmrəyliyi günü elan etmişik.

Həsrətin, ehtiyacın, qəribçiliyin günü olurmu görən? Amma belə bir gün bizə lazımdır. Lazımdır ki, heç olmazsa, ilin bircə günündə hər birimiz öz vicdanımızın, hamımız Vətənin qarşısında bir də hesabat verək.

Müsahibimiz, «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri, yazıçı ELÇİNLƏ söhbətimizi elə bundan başladıq.

– Sizcə, Azərbaycan Ali Soveti Milli Şurasının bu qərarının əhəmiyyəti nədədir?

– Bu, çoxdan vaxtı çatmış hadisədir. İstədiyim odur ki, qərar qərar olaraq qalmasın. Şimalla, Cənubla bərabər bütün dünyaya səpələnmiş azərbaycanlılar üçün sözün həqiqi mənasında həmrəylik gününə çevrilsin.

Mən bunu siyasi əqidəsindən, cəmiyyətdəki mövqeyindən, savadından, yaşından asılı olmayaraq Vətən, xalq təəssübü çəkən insanların həmrəylik günü kimi başa düşürəm. Dekabrın 31-i məhz Vətən övladlarının mütəşəkkilliklə hesabat günü olmalıdır. Dünya nəhayət, xalqımızı tanımalıdır. Bu işin öhdəsindən yalnız «Vətən» Cəmiyyəti gələ bilməz. Bütün ictimai-siyasi təşkilatlar bu vətəndaşlıq vəzifəsi ilə ciddi məşğul olmalıdırlar.

– Dünya xalqlarının mühacirəti haqda çox eşitmişik. Ümumiyyətlə, bir faktor kimi Azərbaycan mühacirətinə necə baxırsınız? Sizcə, belə bir anlayış mövcuddurmu?

– Azərbaycan mühacirəti son dərəcə mürəkkəb mahiyyətli bir qurumdur. Qurum sözü burada bəlkə də yerinə düşmür. Çünki

Azərbaycan mühacirəti bir sıra səbəblərə görə mühacirət anlayışının ensiklopedik çərçivəsinə sığmır. Bu səbəblər hansılardı?

Xalqımız iki yerə bölünmüşdür və ikiyə bölünmək azmış kimi müxtəlif sistemlərdə yaşamış, bir-birinə daban-dabana zidd cəmiyyətlərdə tərbiyə olunmuşlar. Azərbaycan xalqı bu gün dünyada yeganə xalqdır ki, eyni zamanda üç əlifbadan istifadə edir. Biz kirillə, cənublular ərəblə, Türkiyə və Qərbdə yaşayanlar latınla yazıb oxuyurlar.

Əgər Araz çayı xalqımızı coğrafi mənada ikiyə bölübsə, əlifba xalqımızı mənəvi baxımdan üç yerə bölüb. Bütün bu səbəblərə görə də Azərbaycan mühacirətinin mütəşəkkil bir qüvvə kimi formalaşması, Vətənlə, xalqla bağlı ənənələrin yaranması xeyli ləngimiş, böyük çətinliklərlə üzləşmişdir.

20-ci illərdə M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycan emiqrasiyası böyük siyasi gücə malik mütəşəkkil bir qüvvə idi. Lakin illər keçdikcə həmin mühacirətin sıraları seyrəldi, biz beton sərhədlər daxilində tamam qapalı həyat keçirdiyimiz üçün bir küll halında inkişaf edə bilmədik. Azərbaycan mühacirəti kökündən, nüvəsindən ayrı düşdü. Doğrudur, Ankarada Azərbaycan milli mərkəzi, Müsavat Partiyası, Azərbaycan Kültür Dərnəyi kimi nüfuzlu siyasi-ictimai təşkilatlar fəaliyyət göstərir. Lakin çox təəssüf ki, Qərb ölkələrindəki təsisatlarımız kifayət qədər fəal deyildir. Mühacirətimizin bir xüsusiyyəti da var. Qərb ölkələrindəki Azərbaycan mühacirləri, əsasən, aşağı təbəqəni təmsil edirlər. Mühacirətin böyük əksəriyyəti son 10-15 ildə bu və ya digər səbəbdən Cənubi Azərbaycandan dünyanın bir sıra ölkələrinə səpələnmiş gənclərdir, onlar əsas etibarilə fəhlə işləyir, taksi sürür, xırda qulluqda çalışırlar. Lakin bu gənclərin müəyyən bir hissəsi səhərdən axşamacan çalışmaqla bərabər Avropanın, Amerikanın bir sıra universitetlərində təhsil alırlar. Əgər biz bu gün onlarla əlaqələrimizi sağlam əsaslar üzərində qura bilsək, onlardakı Vətən, xalq təəssübkeşliyini məmləkətimizin tərəqqisinə yönəltsək, 15-20 ildən sonra söhbət görkəmli alimlərdən, iş adamlarından, ictimai xadimlərdən gedə bilər. Həm də nəzərə alsaq ki, onların bir qismi yaşadığı ölkələrin vətəndaşlığını qəbul edib, Qərbdə öz siyasi xadimlərimizin yetişəcəyinə də ümid bəsləyə bilərik.

Etiraf edək ki, qonşularımız bu məsələdə xeyli irəliyə gediblər. Götürək elə ABŞ-ı... ermənilərin konqresdə, siyasi partiyalarda və başqa aparıcı təşkilatlarda onlarca nümayəndələri vardır.

Həm də bunlar ayrı-ayrı şəxsiyyətlər yox, fəaliyyətləri bir mərkəzdən tənzimlənən nüfuzlu qüvvədir. Bizsə, yenicə başlamışıq. Mən Azərbaycan mühacirətinin uğurlu perspektivinə inanıram. Biz həm də say etibarilə çoxuq. Bu da mühüm cəhətdir.

– Elçin müəllim, hələ ki, formal da olsa, biz artıq keçmiş SSRİ-nin sakinləri deyilik. Deməli, başqa respublikalarda yaşayan həmvətənlərimiz qeyri-ixtiyari xarici vətəndaşa çevriliblər. Elə deyilmi?

– Bu ciddi bir problemdir. «Vətən» Cəmiyyəti indiki şəkildə istər maddi, istərsə də idarəçilik baxımından təkbaşına bu işin öhdəsindən gələ bilməz. Məncə, bu məsələ ilə bağlı bir orqan yaradılmalıdır. Artıq bir sıra ictimai təşkilatlar, misal üçün, «Yurddaş» cəmiyyəti bu işlə məşğuldur. Görünür, indiki mərhələdə təcili surətdə əlaqələndirmə mərkəzi kimi bir orqan yaradılmalıdır.

– Bazar münasibətlərinə keçdiyimiz bir vaxtda həmvətənlərin Vətəni, vətəndəkilərin həmvətənləri görmək, ziyarət etmək işi xeyli müşkülləşib. Bu barədə nə deyə bilərsiniz?

– Yeganə çıxış yolunu xaricdə yaşayan həmvətənlərlə bağlı ikili vətəndaşlıq sisteminin yaradılmasında görürəm. Əgər Azərbaycan Ali Sovetinin Milli Şurası belə bir qanun qəbul edərsə, xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının vətəndaşı olmaq statusu elə bilirəm ki, bir çox problemləri aradan qaldıracaq. Bu bir tərəfdən onların özünün sosial statuslarını gücləndirər, yəni Azərbaycan Respublikası digər ölkələrdə yaşayan vətəndaşların hüququnu rəsmi olaraq müdafiə edər, digər tərəfdən isə həmin vətəndaşlar respublika ilə əlaqələrini gücləndirə bilər. Bu isə o deyən sözdür ki, onlar Azərbaycan Respublikası ərazisində şəxsi evlər tikdirər, təhsil alar, şəxsi müəssisələrini açar, turizmi inkişaf etdirərlər. Bu bir tərəfdən heç bir vizaya ehtiyac qoymaz, digər tərəfdən respublikaya valyuta qazandırar. Türkiyə Respublikasında belə ikili vətəndaşlıq sistemi tətbiq edilib. Məhz Türkiyənin son on ildəki böyük iqtisadi inkişafında bu cəhətin böyük rolu olmuşdur.

Bazar iqtisadiyyatı Cəmiyyət üçün də çətinliklər yaradıb. Bizə ayrılan vəsait hərgah dünənə qədər ildə 30 nəfər qonaq qəbul etməyə imkan verirdisə, indi bu, mehmanxanaların, yeməklərin bahalaşmasına görə heç beş nəfərə də çatmır. Eləcə də bizim xəttlə xaricə dəvət olunanlar. Hələ işçilərimizin miskin maaşını,

çətin iş şəraitini demirəm. Dörd ildir binanın təmirindən qurtara bilmirik. Otaqlar soyuqdur. Min bir əzab-əziyyətlə çıxan «Odlar yurdu» qəzetinin çətinlikləri öz həllini gözləyir. Bu yeganə qəzetdir ki, üç əlifba ilə nəşr olunur və xarici ölkələrdə yaşayan həmvətənlərimizə göndərilir.

– Elçin müəllim, Siz xaricdə, «Vətən» Cəmiyyəti və həmvətənlərimiz vasitəsilə Azərbaycan tarixinin, mədəniyyətinin, ümumiyyətlə, Azərbaycanda siyasi vəziyyətin, xüsusən, Qarabağ hadisələrinin təbliğində hansı cəhəti əsas sayırsınız?

– Yalnız bir cəhəti – həqiqəti. Azərbaycandakı erməni təcavüzü də daxil olmaqla müasir siyasi vəziyyəti dünya ictimaiyyətinə obyektiv çatdırmaqda böyük müttəfiqimiz həqiqət olmalıdır. «Vətən» Cəmiyyəti bilavasitə xarici ölkələrin siyasi dairələri, informasiya vasitələri ilə əlaqə saxlamaqda çətinlik çəkir. Çünki bu bizim nə səlahiyyətimiz, nə də imkanımız daxilindədir. Biz son dərəcə mühüm işi həmvətənlərimiz vasitəsiylə görməliyik. Buna görə də nail olmalıyıq ki, həmin dediyim həqiqəti ilk növbədə onlar özləri dərk etsinlər. Sonra yaşadıqları ölkənin siyasi-ictimai dairələri, nüfuzlu informasiya vasitələri ilə əlaqə yarada bilsinlər, o həqiqəti onlara çatdıra bilsinlər.

– Siz bu müsahibəni 1991-ci ilin son günü verirsiniz. Qürbətdə yaşayan bacı-qardaşlarımıza, ümumən məmləkətimizin vətəndaşlarına nə demək istərdiniz?

– Azərbaycan xalqı bu gün öz yeni tarixinin ən gərgin dövrünü yaşayır. Günahsız qanlar axıdılır, təcavüzə məruz qalırıq. Can verməkdə olan imperiya siyasətinin minbir fəsadı ilə üzləşirik. Lakin bütün bunlarla bərabər tarixi bir dövr yaşayırıq və Azərbaycanın həqiqi istiqlalı, müstəqilliyi bizim, yəni Vətəndəkilərin və qürbətdəkilərin canıdır. Biz üçrəngli bayrağımızı dünyanın başı üzərinə birgə qaldırmalıyıq.

*Söhbəti yazdı Vahid Əzizov.*
*1992.*

## E L Ç İ N: «ŞÜKÜRLƏR OLSUN Kİ, SƏRHƏDLƏR ZƏİFLƏYİB...»

– Elçin bəy, xalq ictimai hadisələrin burulğanına düşəndə öz işıqlı adamlarına üz tutur, onlardan kömək umur. Son hadisələrin başlanğıcında da biz bunun şahidi olduq. İndi aradan xeyli dövr keçib. Və siz bu dövrdə öz müstəqil yolunuzla addımladınız. İndi ötən beş ili xatırlayanda o addımlarınızı necə qiymətləndirirsiniz?

– Hadisələrin başlanğıcını ki, deyirsiniz, o vaxt da demişəm, indi də təkrar edirəm: bu, xalqın öz müstəqilliyinin bərpası uğrunda mübarizəsinin ilk addımları idi. Və o mübarizədə biri az, biri çox – hərə öz gücü və imkanı daxilində iştirak edirdi. Ancaq o günlərin spesifik bir cəhətini mütləq aydınlaşdırmaq lazımdır. Hərəkatın ilk günlərindən görünən və görünməyən tərəfi var idi. Görünən tərəfi o idi ki, xalq meydana axışırdı, mitinqlər keçirirdi. O vaxt bunu «cəmiyyətə yad ünsürlərin təxribatı», «başıpozuqluğu» adlandıranlar tapılırdı. Ancaq o hərəkat xalqın yüz səksən illik müstəmləkəçiliyə qarşı mənəvi etiraz səsi idi. Mən hələ o vaxt bir çox xarici müsahibələrdə, xarici radio və televiziya intervülərimdə dönə-dönə qeyd edirdim: bu – böyük xalq hərəkatı idi.

Hərənin öz sahəsində göstərdiyi müəyyən fəaliyyəti isə, o ümumxalq hərəkatının görünməyən tərəfi adlandırmaq olar. Bunu nə üçün deyirəm. Şəxsən mən tribunalardan alovlu nitq söyləməmişəm. Amma həmin beş il ərzində – bu az vaxt deyil və qiymət vermək olar – çalışmışam ki, işlədiyim «Vətən» Cəmiyyətinin xəttilə həmin hərəkata öz payımı verim. Onda bu çətin məsələ idi. Misal üçün, 1987-ci ilin sonunda Cəmiyyətimiz yarananda – bu elə vaxt idi ki, Kommunist partiyası da, DTK da iqtidarda idi – biz xaricdəki Azərbaycan Müsavat Partiyasının liderlərindən biri, M.Ə.Rəsulzadənin şagirdi və silahdaşı Məhəmməd Kəngərlini Bakıya dəvət etdik. Bu, çox gözlənilməz məsələ idi. Həm o dövrkü iqtidar üçün, həm də sözün açığı, Məhəmməd bəyin özü üçün. Mən hələ Yazıçılar İttifaqında işləyəndə onların nəşri olan «Azərbaycan» jurnalını gizli şəkildə, adda-budda görüb vərəqləmişdim. Ankaradakı «Azərbaycan kültür dərnəyi»nin nəşridir. Redaktoru da Əhməd Qaracadır. Bu dərnək M.Ə.Rəsulzadə əna-

nələrini şərəf və ləyaqətlə davam etdirən bir qurumdur. İndi bu barədə danışmaq, dostluq etmək asandır. Ancaq onda Kəngərlini Azərbaycana dəvət etmək, burada layiqincə qarşılamaq, müəyyən qüvvələrdən hifz etmək kiçik məsələ deyildi. Biz onu Moskvada qarşıladıq. Yola salanda da Moskvaya qədər özüm ötürdüm. Və Məhəmməd bəyin o səfəri ilə Azərbaycan Demokratik Respublikası ənənələrini davam etdirən «Azərbaycan kültür dərnəyi»lə, Milli Məclislə, Müsavat Partiyası ilə respublika arasında əlaqələr yaranmağa başladı. Biz respublikada ilk dəfə olaraq «Odlar yurdu» qəzetində ADR-in işıqlı şəxsiyyətləri, tarixi haqqında materiallar verdik. Bunun üstündə isə başımız çox ağrıdı. Yuxarı dairələrlə ciddi ixtilaflarımız, kəskin mübahisələrimiz oldu. Əhməd Qaracanı, Cəmil Ünalı, digər görkəmli xadimləri Azərbaycana dəvət etdik (bilirsiniz ki, indi C.Ünal Azərbaycan hökumətinin tərkibində fəaliyyət göstərir.) İstanbulda Azərbaycan Cəmiyyəti yaranan kimi, onun başqanı Nihad Çətinqayanı ilk dəfə Azərbaycana dəvət etdik. O vaxt bunlar həm daxili, həm də xarici vəziyyətə görə çətin işlər idi. Daxildə hakimiyyət kreslosu laxlamağa başlamışdı, iqidar ondan dördəlli yapışırdı. Və hər bir oyanışa, hənirtiyə ciddi nəzarət edirdi. İkinci çətinliyə gəldikdə isə xaricdə çoxlu azərbaycanlı yaşayırdı, lakin onların cəmiyyətləri  milli vüsətlə fəaliyyət göstərmək iqtidarında deyildi.

Yeri gəlmişkən deyim ki, mən «Vətən» Cəmiyyətinə çox romantik – vətənpərvərlik hisslərilə gəlmişdim. İşin içinə girəndən sonra gördüm ki, burada romantikalıq heç nə yoxdur, əksinə, realistcəsinə hərəkət etmək, işləmək lazımdır. İşin spesifikası elə idi ki, bəzən maraqlı olan dairələrin yaratdığı dedi-qoduya, şayiəçiliyə, qərəzçiliyə məruz qalırdıq, istər daxildə olsun, istərsə də xaricdə. Onda mənim qarşımda iki yol dururdu: Ya «Vətən» Cəmiyyəti ilə xudahafizləşib sakit şəraitdə yaradıcılıqla məşğul olmaq, ya da bütün maneələrə sinə gərmək, sədləri dağıtmaq və millət üçün xeyiri olan işi görmək. İkinci yolu seçmək az əsəb gərginliyi bahasına olmadı...

«Vətən» Cəmiyyəti dünya informasiya vasitələrinin diqqətini bizdəki xalq hərəkatının mahiyyəti haqqında dünya ictimai dairələrinə obyektiv məlumat vermək baxımından çox işlər gördü. Əgər mitinqlərə gedib alovlu çıxışlar etsəydim (onlar da şübhəsiz ki, lazım idi), bu işləri görə bilməzdim. Mən isə tribunalardan çıxış etmək üçün növbə gözləməkdənsə, əməli fəaliyyətimə

üstünlük verirdim. Bundan isə mitinqdəkilərin xəbəri olmurdu. Ancaq bilməsələr də işlərimizin xalq övladlarına çox xeyri dəyirdi.

Yanvar hadisələrini xatırlayaq. Yanvarın 20-dən sonra dörd gün Azərbaycanla dünya ictimaiyyəti arasında əlaqə kəsildi. (Heç respublikanın öz vətəndaşları düz-əməlli məlumat ala bilmirdilər.) Onda Azərbaycan həqiqətini xarici ölkələrə çatdıran yeganə kanal, yeganə vasitə «Vətən» Cəmiyyətinin teleksi idi. Artıq ayın 21-də Şeyxülislam Allahşükür Paşazadənin Qorbaçova məktubunu, öz bəyanatımızı teleks vasitəsilə sərhədlərin o tayına – müsəlman və Qərb ölkələrinə ötürdük. Bunun nəticəsi isə artıq ayın 22-nə keçən gecə göründü: Pakistan bizim teleksimizə istinad edərək Sov.İKP Siyasi Bürosuna etiraz notası göndərdi... Dediyim odur ki, indi bilən də danışır, bilməyən də. Məni tanıyanlar bilirlər ki, işlərimizi xatırlamaqda «gözə soxulmaq» fikrindən çox uzağam. Bunlarla fəxr etmək, döşümə döymək istəmirəm. Sadəcə borcum idi və elə bilirəm ki, xatırlamağa mənəvi haqqım var. Və yenə təkrar edirəm: o borc elə bir şəkildə, vəziyyətdə yerinə yetirilirdi ki, çoxlarının bundan xəbəri olmurdu.

– Söhbətimizin əvvəlində Cəmil Ünalın adını çəkdiniz. Ondan və onun kimilərdən Azərbaycan hökumətində istifadə etmək məsələsinə necə baxırsınız?

– Cəmil Ünal Ankaradakı «Azərbaycan kültür dərnəyi»nin rəhbərlərindən biridir. O, Ankaradakı müsavatçılar, ADR-in ənənələrini davam etdirənlər arasında çox önəmli yer tutur. Ümumiyyətlə, o adamlar ki, var, Məhəmməd Kəngərli, Əhməd Qaraca, Cəmil Ünal, Yəhya Daşdələn və başqaları, onlar sözün həqiqi mənasında Azərbaycanın vətənpərvər oğullarıdır. Beləəri min bir əziyyətə dözə-dözə Azərbaycanın dövlətçilik ənənələrini qoruyub saxlamış adamlardır. Heç şübhəsiz, onların Türkiyə ilə əlaqələrindən, təcrübəsindən istifadə etmək lazımdır. Ömürlərini Vətən naminə şam kimi əridiblər. İndi Azərbaycana xidmət üçün yetişiblər. Lakin bu o demək deyildir ki, beləəri məqam gözləyirdilər ki, M.Ə.Rəsulzadənin bayrağı qaldırılsın və gəlib vəzifə tutsunlar. Yox, min dəfə yox. Həqiqət odur ki, bu adamları yetmiş ilin əzab-əziyyəti öz əqidəsindən döndərə bilməyib.

Hələ mart ayında koalision hökumət yaradılması məsələsi ortaya atılanda, sabiq baş nazir Həsən Həsənovla mən fikir mübadiləsi etdik ki, həmin hökumətin tərkibinə mühacirətdə olan azər-

baycanlılar da daxil edilsin... Bu – təqdir olunası hadisədir. Hər halda, mənim şəxsi fikrim belədir.

– Elçin bəy, bütün demokratik ölkələr üçün çoxpartiyalılıq xarakterik haldır. Bizdə də indi-indi fikir müxtəlifliyi formalaşır. Amma hərdən adama elə gəlir ki, siyasi inkişafımız lazımi səviyyədə olmadığından çoxpartiyalılıq Azərbaycanda qüvvələri parçalayır...

– Azərbaycanın tam müstəqilliyinə və qadirliyinə aparan yollar haqqında fikir müxtəlifliyi ola bilər və bu təbiidir. Normal halda biz bundan, ancaq qazana bilərik. Necə deyərlər, həqiqət mübahisədə üzə çıxır. Əlbəttə, söhbət sağlam düşüncədən, mütərəqqi fikirlərdən gedir. Son məqsədi Azərbaycana xidmət edən əqidədən gedir. Yox, əgər fikir ayrılığı parçalanmaya, düşmənçiliyə gətirərsə, çox pis. Çoxpartiyalılıq işgüzar fikir müxtəlifliyi doğurarsa da, onu alqışlamaq lazımdır. İndi Azərbaycanda çoxpartiyalılığın başlanğıc mərhələsidir. Hərgah yeni partiyalar partiya yaratmaq xatirinə yaradılırsa, kiminsə şəxsi mənafeyinə xidmət edəcəksə, kimisə bir şəxs kimi hakimiyyətə gətirmək üçün mübarizə meydanına atılarsa, bundan biz yalnız itirərik. Ümumiyyətlə, bu fikir tez-tez təkrar edilir, mən də bir daha xatırlamaq istəyirəm: «Güclü müxalifət hər bir dövlətin inkişafı üçün vacibdir.»

– Siz AMİP-in yaradıcılarından birisiniz. Bu partiyanı dövrün hansı ehtiyacı meydana gətirdi?

– Oxucular yəqin ki, təşkilat komitəsindən məlum bəyanatı ilə, eləcə də partiyanın məramnaməsi ilə tanışdırlar. Biz onu layihə şəklində mətbuatda dərc etmişdik. İyulun 3-də, 4-də keçirilən birinci təsis qurultayımızda da bu layihə bəzi düzəlişlərlə qəbul edildi. AMİP-in üzvlərini həmin məramnamənin ideyaları birləşdirir. Yəni istiqlalçılıq, milliyyətçilik, türkçülük, azərbaycançılıq (vətənçilik), milli dövlətçilik, hürriyyətçilik və öncüllük. Bütün bunlar isə demokratik bünövrə üzərində, bir sözlə, xalqın tam müstəqilliyinə nail olmasına aparan yollar baxımından yaranan əqidə birliyi partiyanı yaratmaq ideyasına gətirib çıxartdı.

AMİP-in I qurultayı şəxsən mənim gözlədiyimdən çox yüksək səviyyədə keçdi. Demokratik şəkildə, gizli səsvermə ilə rəhbər orqanlar, partiyanın sədri, müavin seçildi. Bu belə də olmalıdır. Əgər AMİP demokratiyanın bərqərar olması uğrunda mübarizə aparırsa, onun daxili işləri demokratik prinsiplərə əsaslanmalıdır.

– Elçin bəy, müxalif qüvvələr o vaxt meydana gəlir ki, mövcud iqtidar dövlətin idarə edilməsində düzgün yol tutmur. Bu gün AMİP hakimiyyətə müxalifətdə durur. Onda mümkünsə, deyin görək, hökumətin hansı yanlış addımları istiqlalçıları müxalifətçi edib?

– Bu məsələ ilə əlaqədar öz fikrimi aydınlaşdırmaq istəyirəm. Artıq bir aydan çoxdur ki, bizim hörmətli Əbülfəz bəy respubikanın prezidentidir. Bu da heç kimdən gizli deyil ki, indiki böhran vəziyyətində məmləkətə rəhbərlik etmək çox çətin, ağır yükdür. Cəbhəçilər də iki-üç aydır ki, iqtidardadırlar. Amma mənə elə gəlir ki, hazırkı dövrdə daxildə yürüdülən siyasət, əgər belə demək mümkünsə, «yaxşı padşah» siyasətidir. Bu nə deməkdir? Bax, tutaq ki, mən səni tanıyıram, cəbhədə olmusan, yaxşı oğlansan və buna görə də səni filan rayona icra hakimiyyəti başçısı və yaxud hansısa sahəyə nazir təyin edirəm. Səbəbi bu olur ki, səndən əvvəlki pis oğlan idi, rüşvət alırdı. Ümid edirəm ki, sən rüşvət almayacaqsan, milləti aldatmayacaqsan.

«Yaxşı padşah utopiyası» ilə müasir dünyada çox da uzağa getmək olmaz. Burada köklü, əsaslı struktur reformaları lazımdır. Həm mədəniyyət, həm iqtisadiyyat, həm daxili və xarici siyasət, həm də hərbi sahədə. Özü də elə məsələlər var ki, islahatlar yox, hər şey yenidən başlanmalıdır. Məsələn, xarici siyasəti götürək. Biz indi-indi müstəqil xarici siyasət yürüdürük. Bax, bu konsepsiyaların, proqramların hazır olmaması məni narahat edir. «Yaxşı padşah utopiyası» isə xalqın rifah halını, ölkənin vəziyyətini müəyyən dərəcədə yaxşılaşdıra bilər.

– Deməli, problemləri «yaxşı padşahlar» yox, islahatlar həll edə bilər.

– Bəli, köklü, əsaslı islahatlar, hazır proqramlar. Orasını da qeyd etmək lazımdır ki, dəhşətli böhran vəziyyətindəyik. Məşhur yazıçı, milliyyətcə belorus olan Adamoviçin bir maraqlı fikri var: «Sosializmdən pis, yalnız onun xarabalıqları ola bilər». İndi elə eləməliyik ki, o xarabalıqlara çevrilməyin qarşısını ala bilək. Heç şübhəsiz, utopiyalarla bu – sadəcə mümkün deyil. İndi ciddi iqtisadi, mədəni və s. proqramlar, konsepsiyalar əsasında islahatlar keçirilməlidir. Mənə elə gəlir ki, indi parlament seçkilərinə hazırlaşmaq lazımdır. Çoxpartiyalılıq əsasında seçkilərə getmək zəruridir və o seçkilərdə hansı şəxsiyyətin fəaliyyəti yox, hansı parti-

yanın konsepsiyası, proqramı xalqı təmin edirsə, razı salarsa, qoy o yolla da respublikanı böhran vəziyyətindən çıxaraq.

– Har hansı vətəndaşın heç bir partiyaya daxil olmamasına, bitərəf qalmasına necə baxırsınız?

– Mənim fikrimcə insan azad bir quş olmalıdır. Vətəndaş partiyaya daxil olmaq istəmirsə, onu heç kim məcbur edə bilməz və lazım da deyil. Partiya üzvü olmadan da insan cəmiyyətə xeyir verə bilər. Və yaxud əksinə, partiya üzvü ola-ola ziyan verə bilər. Bu da şəxsiyyətin təfəkküründən, dünyagörüşündən, əqidəsindən, əxlaqından, saflığından asılıdır...

– Mənə elə gəlir ki, heç bir ölkədə ideal partiya yoxdur və hər hansı partiya insanın azadlığını müəyyən qədər məhdudlaşdırır. Mən ən çox yaradıcı adamları nəzərdə tuturam.

– Yox, mən elə deməzdim. O asılıdır adamın daxil olduğu partiyanın məramından. Əgər sənin hər hansı fəaliyyətin məhdudlaşacaqsa, belə proqramı qəbul etməməlisən. Deməli, həmin partiyaya girməməlisən. Yox, əgər ideyaların həyata tətbiq olunması üçün münbit zəmin yaranacaqsa, onda kənarda niyə durmalısan ki? Mən Milli İstiqlal Partiyasına niyə gəlmişəm? Mənə elə gəlir ki, xalqımızın mədəniyyəti, mənəviyyatı, taleyi ilə bağlı fikirlərimi tətbiq etmək üçün məhz bu partiya daha yaxşı imkan yarada bilər. Görsəm ki, fikrimdə yanılmışam, onda dərhal uzaqlaşaram. Amma elə bilirəm ki, belə bir təhlükə perspektivsizdir. Partiyanın rəhbərliyində demokratik bir əhval-ruhiyyə hökm sürməkdədir və münasibətlərdə əqidə birliyi ilə bərabər, insani hisslər də müştərəkdir.

– Yeni hakimiyyət «Vətən» Cəmiyyətinin imkanlarından istifadə edirmi? Ümumiyyətlə, bugünkü fəaliyyətiniz, vəziyyətiniz nə yerdədir?

– Bu barədə rəhbərliklə elə bir rəsmi kontaktlarımız olmayıb. Amma Milli Məclisdə qaçqınlar və xaricdə yaşayan azərbaycanlıların problemləri ilə məşğul olan xüsusi komissiya yaradılıb. O komissiyanın vasitəsilə əlaqələri xeyli genişləndirmək olar.

Bugünkü vəziyyətimizə gəldikdə isə, bütün yaradıcı təşkilatlar, bir sıra ictimai orqanlar kimi «Vətən» Cəmiyyəti də büdcədə olan idarədir. Doğrudur, öz hesabımız da var. Ancaq biz kommersiya ilə məşğul olmuruq və hazırda son dərəcə ağır maddi çətinliklərlə üzləşirik (bəzilərinin düşündüyü və dastan qoşduqları kimi otaqlarımızda dollar uçuşmur, kranlarımızdan süd ax-

mır). Çünki əlaqə saxladığımız mühacirətin əsas kütləsi imkansızlardır, ancaq patriotlardır. Yəni öz gündəlik güzəranlarının təmini ilə məşğul olan tələbələr, alimlər, müəllimlər... Bir daha təkrar edirəm: biz kommersiyaya getmirik, ancaq mədəni əlaqələr yaradırıq.

Bir də indi yəqin çox gileylənmək düzgün olmaz ki, hökumət bizə az vəsait ayırır. Dövlətimizin özü də çətin vəziyyətdədir. Müharibə, iqtisadi böhran, qaçqınlar problemi... Saymaqla qurtarmaz...

– Xaricdəki həmvətənlərimizdən bu dar günümüzdə necə istifadə etmək olar? Onlar özləri buna can atırlarmı?

– Şükürlər olsun ki, indi sərhədlər zəifləyib, gedib-gəlmək asanlaşıb. Ancaq burada bir arzuolunmaz hal meydana çıxıb. Elə Türkiyəni götürək. Mənim Türkiyəyə məhəbbətimi yəqin ki, heç kəs şübhə altına ala bilməz. Türkiyə bizim üçün doğma bir məmləkətdir. Biz Türkiyə ilə bütün əlaqələrimizi – siyasi, iqtisadi, hərbi, elmi, mədəni əlaqələrimizi sağlam bünövrə üzərində və eynihüquqlu tərəfmüqabil kimi durmadan inkişaf etdirməliyik. Hələ 13 il əvvəl Türkiyəyə getdim. Gələndən sonra «Yaxın, uzaq Türkiyə» adlı kitab yazdım. «Yaxın» ona görə ki, doğmadır, «uzaq» ona görə ki, beton, səsçatmaz, ünyetməz sərhədlər var idi. Onda ürəyimdən bir arzu keçirdi: görəsən 100 ildən sonra bir Azərbaycan yazıçısı Türkiyəni gəzib qayıdandan sonra «Yaxın və yaxın Türkiyə» adlı kitab yazacaqmı? Nə yaxşı ki, bu istəyim bir əsr sonra yox, 10-13 il sonra həqiqətə çevrildi. Özüm bunun şahidi oldum. Bu gün o kitab yazıla bilər... Ancaq indiki bu gediş-gəlişin içərisində bəzən təsadüfi adamlar, Türkiyədə özünə gün ağlaya bilməyən, iflasa uğrayanlar, Azərbaycana bir fürsət, qənimət kimi baxanlar da çox olur. Eynilə belələri bizdə də var. Bir sözlə, əlaqələrimiz dövlət səviyyəsində, eyni zamanda şəxsi vətəndaş məsuliyyəti üzərində qurulmayanda millətə həm maddi, həm də mənəvi xeyri olmayacaq.

Xaricdə yaşayan azərbaycanlılar arasında işinin ustası olan yaxşı mütəxəssislər çoxdur. Şübhəsiz, onlardan istifadə etmək üçün yollar axtarıb tapmaq lazımdır. Məncə respublikamızda ikili vətəndaşlıq haqqında qanun qəbul edilməlidir. Əski parlamentdə dəfələrlə bu təklifi irəli sürmüşəm. Təəssüf ki, hələ də heç bir real nəticə yoxdur. O qərarın nə kimi faydası ola bilər? Məsələn, Almaniya vətəndaşı olan azərbaycanlı respublikamızın vətəndaşı

kimi istədiyi vaxt gəlib burada vizasız yaşaya bilər, işləmək hüququ olar, abadlıq işləri görər, özünə villa tikdirər (daha gedib Yunanıstanda tikdirməz), uşaqlarını oxudar, ailə qura bilər və s. Azərbaycana valyuta axını başlayar. Onun özünün də daimi yaşadığı ölkədə respublikamızın qanunları timsalında siyasi-sosial müdafiəsi xeyli artmış olar.

– Elçin bəy, istər azərbaycanlı, istərsə də digər xalqın nümayəndəsi «Vətən» Cəmiyyətinin qonağı olanda ilk növbədə siz respublikamızın hazırkı vəziyyətinin hansı xarakterik cizgilərini onun nəzərinə çatdırırsınız?

– Biz bura son üç-dörd ildə xeyli qonaq dəvət etmişik. Həm azərbaycanlıları, həm də onların vasitəsilə başqa görkəmli ictimai xadimləri, populyar jurnalistləri və s. Əsas məqsədimiz Azərbaycan həqiqətini olduğu kimi dünyaya çatdırmaq, xalqımızın təcavüzə məruz qalmasını anlatmaq olub. Həmişə şərait yaratmışıq ki, qonaqlar gedib Qarabağı öz gözlərilə görsünlər. Respublikamızın ictimai-siyasi vəziyyəti haqqında düzgün təsəvvür əldə etsinlər. Qonaqları qəbul edəndə müxtəlif siyasi-ictimai qurumlara, o cümlədən, Cəbhəyə müraciət etmişəm. Bəziləri ilə görüşdə Əbülfəz bəy də, digər cəbhəçilər də iştirak edib. Eyni zamanda başqa partiyaların nümayəndələri ilə də tanış olublar. Bir sözlə, qonaqların sərbəstliyini və müxtəlif siyasi dairələrlə görüşlərini təmin etmişik.

Sumqayıt faciəsindən sonra erməni lobbisinin təsiriylə xaricdə Azərbaycan haqqında çox mənfi təsəvvür yaranmışdı. Biz belə yanlışlığı sındırmaq, həqiqəti aşkarlamaq üçün imkanlarımız daxilində az iş görmədik. Bakıya görkəmli siyasi xadimləri, misal üçün, Amerika konqresmeni, Demokratlar Partiyasının liderlərindən biri Cim Mudini dəvət etdik. Bu, respublikaya ilk rəsmi səfər idi ki, Şəhidlər xiyabanının ziyarəti ilə başladı. O dövrün rəhbərləri, arxalarınca danışmaq olmasın, bunun əleyhinə idilər, onunla görüşməkdən imtina edirdilər və s. Buna baxmayaraq, biz nəzərdə tutduğumuz planda işlərimizi qurduq. C.Mudinin Şəhidlər xiyabanından başlayan səfəri Qarabağa qədər uzandı. Onu Qarabağın qaynar nöqtələrinə qədər apardıq. Yandırılmış kəndləri, dağıdılmış xəstəxanaları, xarabalığa çevrilmiş məktəblərimizi ona göstərdik. Hər şeyi öz gözləri ilə gördü, qaçqınlar ilə görüşdürdük... Onu ilk dəfə bu otaqda qəbul edəndə Əbülfəz bəy də burada idi. Söhbətlərimizin əvvəlində amerikalı qonağın əhval-

ruhiyyəsi başqa cür idi. Erməni informasiya kanalları onda birtərəfli təsəvvür yaratmışdı. Bizim danışıqlara inanmırdı. Sözün qısası, hər şeyi öz gözlərilə görəndən sonra, dəyişib tamam ayrı adam oldu. Niyə? Çünki həqiqətin şahidi olmuşdu. Mən həmişə demişəm, bir daha təkrar edirəm. «Azərbaycanın bugünkü mahiribədə, müstəqillik uğrunda mübarizədə ən böyük müttəfiqi həqiqətdir».

– Elçin bəy, son səfərlərinizdən biri haqqında qısaca da olsa təəssüratınızı bölüşərsinizmi?

– Xalq şairi Bəxtiyar Vahabzadə ilə birlikdə Azərbaycan cəmiyyətlərinin dəvətilə İsveçə getmişdik. Təsəvvür edin ki, 12 gün ərzində bir-birindən çox uzaq olan şəhərlərdə 16 görüş keçirdik, radio və televiziyada, mətbuat orqanlarında erməni təcavüzü və Azərbaycanın istiqlaliyyət uğrundakı mübarizəsi haqqında intervülər verdik, avtomobillə min kilometrlərlə yol getdik. İnandırıram ki, olduğumuz şəhərləri, heç olmasa, ötəri də olsa gəzməyə vaxt tapmadıq. Mən heç, necə deyərlər, öyrəncəliyəm, amma Bəxtiyar müəllim bu ağır səfərə əsl vətəndaş mətanəti ilə dözdü. Qazancımız isə böyük oldu: İsveç mətbuatı ilk dəfə Azərbaycan haqqında obyektiv məlumat verməyə başladı.

– Biz sizi ən çox mütaliə edən yazıçılarımızdan, dərin elmi-nəzəri səriştəsi olan qələm sahiblərindən biri kimi tanıyırıq. İndi oxumağa vaxt tapırsınızmı?

– Dövri mətbuatdan başqa heç nə oxumağa vaxt qalmır. İldə-ayda bir monoqrafiya, ya bir roman oxumağa imkan tapanda, ona da min şükür.

– Əvvəllər siz çox məhsuldar işləyirdiniz, həm nəsr sahəsində, həm də ədəbi tənqid, ədəbiyyatşünaslıq sahəsində. Siz «altmışıncı illər nəsli»nin ən istedadlı nümayəndələrindən biri kimi, romanlarınızda, povestlərinizdə yalan yox, həqiqət deyirdiniz. İndi necə, yaradıcılıqla məşğul olmağa imkan əldə edə bilirsinizmi?

– Qardaş, yaralı yerimə toxunma. Çox xahiş edirəm, bu məsələnin üstündən keçək.

– Onda başqa bir sual verirəm: ədəbi mühitdəki bugünkü durğunluğu beş-on il sonra üçün faciə hesab etmək olarmı?

– Şübhəsiz. Bu gün ədəbi mühitdəki sizin dediyiniz həmin durğunluq, gələcəyin mənəvi qadirsizliyindən, mənəvi kasıblığından xəbər verir. Ədəbiyyat, daha geniş götürsək, ümumiyyət-

lə, mədəniyyət bu gün on beşinci dərəcəli məsələyə çevrilib. Guya ki, mədəniyyətin millətə dəxli yoxdu və günahsız qanlar axdığı bir vaxtda o barədə heç danışmaq da lazım deyil. Halbuki, kökündən yanlış bir fikirdir. Məhz o günahsız axan qanların naminə bu gün mədəniyyətin, ədəbiyyatın inkişafına daha ciddi yanaşmaq, münbit zəmin yaratmaq lazımdır. Müasir dünya sivilizasiyası ilə tərəf-müqabil ola biləcək milli mədəniyyətsiz, milli ədəbiyyatsız bir müstəqilliyi, doğrusu, təsəvvür edə bilmirəm. Məsələ burasındadır ki, milli ədəbiyyat, sənət uğrundakı mübarizə xalqımızın öz müstəqilliyi, ərazi bütövlüyü uğrundakı mübarizəsinin bir hissəsi, həm də tərkib hissəsi olmalıdır. Təəssüf ki, indi belə deyil. Və burasını da sizdən gizlətmək istəmirəm ki, mən yeni iqtidarın da bu sahədə xüsusi bir təşəbbüsünü hiss etmirəm. Respublikanın sənət adamları, ziyalıları ilə yeni rəhbərlik arasında milli mədəniyyətimizin inkişafı ilə bağlı hələlik ki, heç bir fikir mübadiləsi aparılmır. Halbuki buna böyük ehtiyac var. Milli mədəniyyətin qiymətini və qədrini xalqla bərabər, həmin xalqa rəhbərlik etmək istəyənlər də bilməlidir. Milli mədəniyyətin təəssübünü yalnız mədəniyyət xadimləri yox, rəhbərlik də çəkməlidir.

– Elçin bəy, biz sizə öz fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayır və maraqlı müsahibə üçün təşəkkürümüzü bildiririk.

*Qələmə aldı Mərhəmət Abiyev*
*1992.*

## E L Ç İ N: «MİLLƏTİN QILINCI İŞ GÖRƏN ZAMAN, SAZI, SÖZÜ DƏ SUSMAMALIDIR»

– Elçin bəy, müasir Azərbaycan ictimai fikrinin formalaşmasında ədəbiyyatımızın altmışıncı illər nəslinin bir sıra istedadlı nümayəndələrinin, o cümlədən Sizin böyük rolunuz olub. Bugünkü demokratlar, belə desək yanılmarıq ki, başqa mənbələrlə yanaşı, həmin mənbədən də su içə-içə yetişiblər. Bu barədə nə deyə bilərsiniz?

– Əslində, cavabı siz elə öz sualınızda verirsiniz. Gizlətmək istəmirəm, bu fikri demokratik hərəkatın liderlərinin, o cümlədən iqtidarın da ayrı-ayrı nümayəndələrinin təsdiq etməsi, yazı-pozu ilə məşğul olan bir adam kimi, mənim üçün əhəmiyyətsiz deyil. Əbülfəz Elçibəy «Yeni fikir»dəki müsahibəsində bu fikri söyləyir. Bu yaxınlarda İsa Qəmbərovla söhbətimiz əsnasında da o, eyni fikri söylədi. Siz hələ altmışıncı illər nəslini deyirsiniz. Mən isə bunu daha geniş aspektdə götürərdim. Son yetmiş ildə Azərbaycan ədəbiyyatında «gündəlik tələbat məmulatları» ilə bərabər, həqiqi sənət əsərləri də az yaranmamışdır. Elə təkcə bu faktı götürək ki, Azərbaycan yazıçısı Azərbaycan dilində yazmışdır. Yəni hakim müstəmləkəçilik siyasətinə baxmayaraq, ana dilini qorumuş, onu kasıblamağa qoymamış, əksinə, inkişaf etdirmişdir. Bu illərdə yalan deyən, qondarma «xalq düşmənlərini» ifşa edən, həyatda olduğu kimi, roman səhifələrində, teatr səhnələrində də onları güllələyən, partiyaya, Leninə, Stalinə, Moskvaya, Kremlə vəsfnamələr söyləyən yazılarla bərabər, həqiqəti deyən, xalqın dərdindən-sərindən, mənəvi və maddi ehtiyacından bəhs edən, tarixinin işıqlı səhifələrindən xəbər verən əsərlər də yaranıb. Bütün bunların isə, şübhəsiz ki, xalqın öz müstəqilliyi uğrundakı mübarizəsinin bugünkü mərhələyə gəlib çıxmasında mühüm rolu olub. Amma bir məsələni qeyd etmək istəyirəm: indi sizin dediyiniz fikri, bəli, təsdiq edirlər. Çox sağ olsunlar. Lakin yalnız fikir söyləməklə iş aşmaz. Ədəbiyyatın, o cümlədən altmışıncı illər nəslinin bu gün sanballı söz deməsi, qol-qanad açması üçün münbit zəmin, əlverişli şərait yaradılmalıdır. Hətta indiki çətin zamanda, günahsız qanların axdığı bir vaxtda belə, iqtidar ədəbiyyatın,

ümumiyyətlə, sənətin təəssübünü çəkməlidir. Təəssüf ki, belə bir təəssübkeşliyin heç olmasa başlanğıcı, əhval-ruhiyyəsi isə hələ hiss olunmur...

– İstərdik ki, fikrinizi bir az da inkişaf etdirəsiniz. Azərbaycanın suverenliyindən, müstəqilliyindən tez-tez danışılır, deyilir. Müstəqillik isə birtərəfli inkişaf deyil. Cəmiyyəti bütövlükdə əhatə etməlidir. Sizi yaradıcılıqda öz dəst-xətti olan, simasını, sözünü qoruyub-saxlayan, müstəqil fikir söyləyən və fəaliyyət göstərən bir ədib kimi tanıyırıq. Mədəniyyətimizin həm təmsilçisi, həm də təbliğçisisiniz. Bu mənada milli mədəniyyətin bugünkü durumu barədə fikirlərinizi bilmək istərdik.

– Çox təəssüflər olsun ki, mədəniyyət məsələləri bu gün ən arxa planlara keçməkdədir. Müasir dünya səviyyəsində mədəniyyətə sahib olmayan bir müstəqillik tam müstəqillik ola bilməz. Bu, mümkün deyil. Bu gün sənətin bir sıra sahələrini, xüsusən, ədəbi prosesi hayıflar olsun ki, yalnız bu sözlər səciyyələndirir: durğunluq, təşəbbüssüzlük, biganəlik... Bunun isə altını gələcək nəsillər çəkəcək. Deyək ki, hərgah Milli Teatrımızın təmiri illər boyu gecikirsə, yalnız mədəniyyət nazirliyində günah axtarmaq olmaz. Tək Polad Bülbüloğlu nə edə bilər? Onsuz da Polad bəy bu ağır vaxtda əlindən gələni edir... Mədəniyyətin inkişafı gündəlik dövlət siyasətinin tərkib hissəsi, həm də mühüm hissəsi olmalıdır. Halbuki həmin teatrın səhnəsində indi şəhidlərimizin taleyi öz bədii təcəssümünü tapa bilərdi... Bu, yalnız bir misaldır. Yeri düşmüşkən qeyd edim ki, mən Müslüm Maqomayevin 50 illik yubileyinin respublikada yaxşı səviyyədə keçirilməsini gözəl hadisə hesab edirəm. Millətin qılıncı iş görən zaman, sazı, sözü də susmamalıdır. Son vaxtlar çox dediyim bir fikri yenə təkrar etmək istəyirəm: milli mədəniyyət uğrunda mübarizə millətin öz müstəqilliyi, ərazi bütövlüyü uğrundakı mübarizəsinin bir parçası olmalıdır.

– Elçin müəllim, iqtisadi, siyasi böhran keçirən bir dövlətdə mədəniyyətimizin mövcudluğu görünür, xeyriyyəçilərin də fəaliyyətindən asılıdır.

– «Bazar iqtisadiyyatı» dediyimiz bizim üçün naməlum və hələ ki, çox işgəncəli dönüş nöqtəsinin həyata tətbiq olunmasının ilkin mərhələləri (ümid edək ki, yalnız ilkin mərhələləri!) millətin güzəranınıda çətinliklər yaratdığı kimi, mədəniyyətin də inkişafında çətinliklər yaradır. Belə vəziyyətdə xeyriyyəçilik fəaliy-

yətinə şübhəsiz ki, böyük ehtiyac var. Xeyriyyəçilik Azərbaycanda böyük milli-vətəndaşlıq ənənələrinə malik idi. Hələ əsrin əvvəllərində Azərbaycanda «Həmiyyət», «Nəşri maarif», «Nicat», «Səadət», «Səfa» və digər xeyriyyə cəmiyyətləri fəaliyyət göstərir və məktəblərin, qiraətxanaların, kitabxanaların açılmasında, teatr truppalarının yaranmasında, imkansız ailələrdən çıxmış şagirdlərin, tələbələrin təhsil almasında böyük rol oynayırdı. Azərbaycan Demokratik Respublikası zamanı Bakıda təşkil edilmiş «Təlim və tərbiyə əncüməni», «Tərəqqi», «Yaşıl qələm dərnəyi» və s. kimi dərnəklərin, ittifaqların, cəmiyyətlərin vətəndaş fəaliyyəti arxasında xalqı maarifləndirən böyük xeyriyyə ənənələri dururdu. Təəssüflər olsun ki, müstəmləkəçi totalitar rejim həmin ənənələri məhv etdi. Hacı Zeynalabdin Tağıyev xeyriyyəçi ənənələri yalnız əlçatmaz, ünyetməz xatirələrdə qalmışdı... Şəxsi mülkiyyət dağıldıqdan sonra, xeyriyyə işləri ilə böyük müəssisə, zavod, fabrik rəhbərləri məşğul ola bilərdi. Sistem isə elə bir şərait yaratmışdı ki, onların da çoxunu qazancın millətin ehtiyacına sərf olunması yox, Sosialist Əməyi Qəhrəmanının qızıl medalı, SSRİ, yaxud uzaq başı Azərbaycan SSR Ali Sovetinin deputatlıq nişanı, Lenin ordeni, Dövlət mükafatları və s. maraqlandırırdı. Amma bu gün də elə zavod müdirləri var ki, Əkrəm Əylisliyə şair deyir, Elçinlə Anarı da qarışıq salır. Bu gün biz gələcəyimizi düşünürüksə, keçmişimizin işıqlı ənənələrini bərpa və bərqərar etməliyik. Həmin dövrün o ənənələrinə bələd olub hiss etmək üçün, yalnız elə qocaman ədibimiz Qulam Məmmədlinin salnamələrinə nəzər salmaq kifayətdir. Azərbaycan teatr salnaməsinə fikir verin: xeyriyyəçilik fəaliyyəti teatr sənətimizin inkişafında nə qədər böyük rol oynamışdır! Yeri düşmüşkən qeyd edim ki, Qulam müəllimin bir neçə, çox lazımlı kitabları iqtisadi çətinliklər ucbatından bu gün mətbəələrdə yatıb qalır. Mən xeyriyyəçilərimizin diqqətini həmin kitablara cəlb edirəm.

– Azərbaycan musiqisinin, incəsənət ustalarının dünyada tanınmasında başçılıq etdiyiniz «Vətən» Cəmiyyətinin də qısa müddətdə az rolu olmayıb.

– Bu, məsələnin bir tərəfidir. Ən vacib cəhət isə ondan ibarətdir ki, minbir əzab-əziyyətlə, maddi qıtlıq içində xaricə göndərə bildiyimiz sənət ustaları əyani şəkildə zəngin Azərbaycan mədəniyyətini təbliğ etməklə bərabər, həmvətənlərimizi bir yerə toplamış, bir-biri ilə görüşdürmüşdür. Qərb ölkələrində fəaliyyət

göstərən bir sıra Azərbaycan cəmiyyətləri məhz həmin tədbirlərdən sonra yaranmağa başlamışdır. «Vətən» Cəmiyyətinin xəttilə xaricdə həmvətənlərimiz üçün verilən konsertlər milli dirçəliş, milli oyanma baxımından az iş görməmişdir. On illərlə vətənindən, torpağından, yaxınlarından, ana dilindən uzaq düşmüş adamlar üçün deyək ki, «Qarabağ şikəstəsi»nə qulaq asmaq sadəcə musiqiyə qulaq asmaq və həzz almaq deyil... Lakin bütün bunlarla bərabər, bu gün əsas iş informasiya blokadasını qırmaq, Azərbaycan həqiqətini bütün dünya ictimaiyyətinin diqqət mərkəzinə yönəltmək üzərində qurulmalıdır.

– Elçin müəllim, maraqlı müsahibə üçün Sizə təşəkkür edir və xalqımız üçün faydalı fəaliyyətinizdə uğurlar diləyirik.

*Müsahibəni apardı Elton Dünyamalıoğlu.*
*1992.*

## İSTİQLALIMIZ UĞRUNDA

ELÇİN – Əfəndiyev Elçin İlyas oğlu, 1943-cü ildə anadan olub. 1965-ci ildə BDU-nun ədəbiyyat fakültəisni bitirib. Azərbaycan EA-da baş elmi işçi, Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifələrində işləyib. Hazırda Xarici Ölkələrdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədridir. Müxtəlif dillərdə əllidən artıq kitabı nəşr olunub, yüzdən çox elmi məqalələri, eləcə də monoqrafiyaları dərc edilib. Əsərləri ingilis, fransız, türk, ərəb, ispan, alman, fars, macar, bolqar, çex, slovak və b. dillərə tərcümə olunub. Bir sıra beynəlxalq orqanların redaksiya heyətlərinin üzvüdür. Əməkdar incəsənət xadimidir. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademikidir.

– Elçin müəllim, perestroyka Azərbaycan siyasi-ideoloji mühitində aydın səmada ildırım çaxmasına oxşadı. Hadisələrin sürəkli axarı və inkişaf, cəmiyyətimizin bütün ictimai-siyasi təbəqələrində çaxnaşma yaratdı, gözlənilməz (eyni zamanda, gözlənilən) hadisələrə, siyasi proseslərə yuxarıdan aşağı bütün səviyyələrdə hazır olmadığımızı üzə çıxardı...

– «Perestroyka», hərgah belə demək mümkünsə, təmir üçün nəzərdə tutulmuş bir tədbir idi və mahiyyət etibarilə Sistemi möhkəmləndirmək, get-gedə biabırçı vəziyyətə düşən beynəlxalq nüfuzu artırmaq, onu nisbətən abırlı bir vəziyyətə salmaq məqsədini güdürdü. Lakin məlum oldu ki, qısa bir müddətdə (70 il qoca tarix üçün nədir ki?) Sistemin yaratdığı siyasi-ictimai qurum antiinsani, antibəşəri səciyyə daşıdığı üçün elə bərbad, elə eybəcər bir vəziyyətə düşmüşdür ki, həmin «təmirə» başlayan kimi, hər şey dağılmalıdır və dağıldı da. Bütün Şərqi Avropa qurban verildi. Əfqanıstandan qoşunlar çıxarıldı, ABŞ-ın, ümumiyyətlə, Qərb dünyasının şəksiz liderliyi, hətta diktəsi ilə beynəlxalq təhlükəsizliklə bağlı güzəştli müqavilələr imzalandı, lakin bütün bunlar da sistemi xilas edə bilmədi, imperiya tarixdə görünməmiş bir sürətlə dağıldı. Bu cür gedişat «perstroykanı» başlayanlar üçün, ilk növbədə Qorbaçovun özü üçün gözlənilməz oldu, çünki imperiyanın dağılmasındakı dialektik qanunauyğunluğu başa düş-

mədi və yaxud başa düşmək istəmədi. Vaxtilə Xruşşov da belə bir təmir tədbirinə əl atmışdı, lakin o, Qorbaçov kimi öz beynəlxalq «imicinin» qayğısına qalmadığı üçün (BMT-nin xitabət kürsüsünü ayaqqabısı ilə döyəcləməyə qadir bir adam idi), tez də geri çəkildi, təmir tədbirini ləğv etdi və Sistem də onun özünü bir kənara atdı. Qərb Qorbaçovu böyük reformator hesab edir, lakin bu belə deyil, bu cürə qiymət sovet mətbəxinə bələd olmamaqdan irəli gəlir. Qorbaçov 87-ci ildən sonra siyasi aləmin «zorən təbibi» idi. Reformatordan avantüristə çevrilmişdi. Hadisələr onu sürətlə qabaqlayırdı və o var gücü ilə çalışıb həmin hadisələrin qarşısını ala bilmədiyi üçün sonradan-sonraya onları öz qələbəsi kimi qələmə verirdi. Belə bir riyakarlıq hətta siyasət aləmində də cəzalandırmalıydı və cəzalandırıldı: can verən Sistem artıq Qorbaçovu, onun simasındakı Mərkəzi saxlaya bilmədi. Hadisələrin bu cürə sürətli inkişafına bizim hazır olmadığımız barədə sizin fikirinizlə isə mən tam şərik deyiləm. Düzdür, son 70 ilin mənəvi və fiziki terroru nəticəsində bizim siyasi mədəniyyətimiz, demək olar ki, tamamilə yox edilmişdi. Azərbaycan Demokratik Respublikasının milli siyasi ənənələri darmadağın edilmişdi, amma bütün bunlarla bərabər, Azərbaycanda son dörd ilin son dərəcə mürəkkəb, ziddiyyətli, fəlakətli, ictimai-siyasi və mənəvi həyatında bu gün yaşamağımızı, nəfəs almağımızı təmin edən fərəhli hadisələr də var və onun ən başlıcası budur ki, hətta xalq Qara yanvar qırğınından sonra da diz çökmədi, beynəlxalq erməni millətçiliyi təcavüzünə qarşı faktik olaraq meydanda tək və silahsız qalmasına baxmayaraq, mübarizə əzmini itirmədi və itirmir. Bu gün milli azadlıq hərəkatının Azərbaycandakı vüsəti də bütün çətinliklərinə baxmayaraq elə bununla izah olunur.

– Var gücümüzü bir yumruqda düyünləməli olan torpaq şərəfi də, Qarabağ dərdi də xalqı vahid bir cəbhədə birləşdrə bilmədi. Daxili və xarici düşmənlər tutarlı ideoloji-siyasi təxribatlar vasitəsilə güclü milli potensialımızı parçaladı...

– Mən başqa cürə düşünürəm. Bu gün Azərbaycanda parçalanma yox, birləşmə tendensiyası özünü daha qabarıq büruzə verir. Bu gün məhz həmin «Qarabağ dərdi», həmin daxili və xarici düşmənlərin tutarlı ideoloji-siyasi təxribatları, nəticəsində xalq vahid bir qüvvə kimi birləşməkdədir. Prezidentin istefası bunu sübut etmirmi? Millət yetmiş ilin fəlakətindən sonra siyasi mənada özünü tanıdı. Yetmişinci illərdə, səksənin əvvəllrində «dalğala-

nan» qırmızı bayraqlar tarixin faktıdır və bunu danmaq nə lazımdır, nə də mümkündür. O başqa məsələ ki, biz tarixə münasibətdə obyektiv olmağı bacarmalıyıq. Bir cəhəti xatırlayıb başqa cəhəti unutmaq olmaz. Bayaq adını çəkdiyim böyük milli ziyalımız Hüseyn Cavidin cənazəsinin uzaq və soyuq Sibirdən Azərbaycana gətirilməsi də həmin illərin hadisəsidi. Heç vaxt mənim yadımdan çıxmayacaq: Bakı Cavidin cənazəsini qarşıladı, bununla gecikmiş də olsa, vida görüşü keçirdi və doğma yurdunda torpağa tapşırıldı. Özü də durğunluğun ən şiddətli bir vaxtında. İndi məşhur demokratlar kimi çıxış edən bir sıra rus yazıçılarının ağzı onda açıla qalmışdı. Moskvada heyrətlə mənə deyirdilər: «Çto vı delaete?!» Nə isə... Mən ziyalılarla bağlı əvvəlki sualınıza qayıdıb onu yekunlaşdırmaq istəyirəm. Azərbaycan ziyalı zümrəsinin taleyi ilə bağlı XX əsrin həmin dəhşətli prosesləri acı bir təəssüf doğuracaq obyektiv səbəb olaraq bu gün də mənfi təsirini göstərdi. Yeri gəlmişkən, bir ciddi narahatlığımı da sizinlə bölmək istəyirəm. Bu gün ədəbiyyat, sənət on beşinci dərəcəli bir şeyə çevrilib və bu son dərəcə qorxulu bir təmayüldür. Mən başa düşürəm ki, indi Azərbaycan siyasi-ictimai, burulğanlar içində, təcavüz faciəsindədir. Lakin mən ədəbiyyatsız, sənətsiz azadlıq, müstəqillik təsəvvür etmirəm və təsəvvür etmək də istəmirəm. Son illərdə dəfələrlə dediyim bir fikri təkrar edirəm: yüksək səviyyəli milli ədəbiyyat, sənət uğrundakı mübarizə də azadlıq, müstəqillik, ərazi bütövlüyü uğrundakı mübarizəmizin tərkib hissəsi olmalıdır.

– Elçin müəlim, mən bilirəm ki, siyasi oyunlar burulğanına sürüklənmiş, çox vaxt öz ağrı-acılararıyla yalqız qalan xalqımızın ağır günlərində Sizin fəaliyyətinizdə görünməyən cəhətlər çox idi, görünən isə nisbətən az. Bu barədə nə deyə bilərsiniz?

– Bu barədə yalnız onu deyə bilərəm ki, bütün bu dörd il ərzində mən bir an da olsun özümü kənarda hiss etməmişəm və xalqımın mənafeyi naminə əlimdən gələni əsirgəməmişəm. Heç vaxt da daxili bir ehtiyac duymamışam ki, aləmə car çəkim: camaat, bax, bax, mən filan işi gördüm.

– Hər halda, indi bir qədər ətraflı danışmağınızı xahiş edirik.

– Bu dörd ildə müxtəlif ölkələrin bir çox informasiya vasitələrinə, radio və televiziyasına Azərbaycandakı siyasi durumla bağlı müsahibələr vermişəm, çıxışlar etmişəm. Bəlkə də yüzdən

çox konfraslar keçirmişəm. Böyükdən kiçiyəcən müxtəlif səviyyəli dövlət xadimləri ilə, müxtəlif siyasi dairələrlə görüşmüşəm. Və həmişə də xalqım haqqında, Vətənim haqqında həqiqəti demişəm, çünki Azərbaycan mübarizəsində həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün xalq şairi Bəxtiyar Vahabzadə ilə birlikdə İsveçrəyə getmişdk və orada qaldığımız səkkiz gün ərzində min kilometrlərlə yol getdik, gecə-gündüz onlarla konfrans verdik və yatanda da yuxumuza siyasi sual-cavablar girirdi. Bütün bu məşəqqətlərə mərdliklə sinə gərən Bəxtiyar müəllim bir dəfə özünü saxlaya bilməyib mənə dedi: «Vallah, bədxahların da sənin xaricdəki bu gününü görsə, dəsmal çıxarıb ağlayar». 90-cı ilin 20-21 yanvarında Azəraycanla xarici aləm arasında yeganə əlaqə vasitəsi «Vətən» Cəmiyyətindəki teleksi idi və o günlərdə Şeyxülislam Paşazadə cənablarının məşhur bəyanatını müsəlman ölkələrinə göndərməkdən tutmuş, öz bəyanatımızı dünyaya yaymağacan əlimizdən gələni etdik. Elə həmin günlər Bakıdan Qərbi Berlin radiosuna birbaşa reportajlar verirdim. Məhəmməd Kəngərli,Əhməd Qaraca və başqaları kimi xaricdə yaşayan görkəmli müsavatçı və ictimai-siyasi xadimləri ilkin olaraq Azərbaycana biz dəvət etdik və onları burada qoruya bildik. Bir çox digər görkəmli mübarizə adamları ilə Azərbaycan arasında əlaqə yaratdıq. «Odlar yurdu» qəzeti respublikada ilkin olaraq Azərbaycan Demokratik Resublikasının tarixini işıqlandırmağa başladı, onun görkəmli xadimləri haqqında yazdı, latın qrafikasında çıxdı. Qara yanvardan sonra bir çox nüfuzlu xarici vətəndaşları Azərbaycana gətirə bildik ki, canlı şahid olsunlar. ABŞ-ın görkəmli siyasi xadimi, Demokratlar Partiyası liderlərindən biri, konqresmen Cim Mudini köməkçiləri ilə birlikdə Bakıya dəvət etməyə nail olduq və həmin səfər ilk dəfə olaraq Şəhidlər xiyabanının Ziyarəti ilə başladı, onu döyüşən Qarabağa apardıq. Hər şeyi gözü ilə gördü. Cim Mudinin Azərbaycan səfəri dünya ictimaiyyətində obyektiv təsəvvür yaratmaq baxımından uğurlu addımlardan biri idi. Nə isə... Bunlar artıq dünənin hesabatıdır.

– Görkəmli yazıçı Elçinin birdən-birə radikal siyasi müxalifət mövqeli bir partiyaya üz tutması çoxları üçün gözlənilməz olub... Sizi AMİP-ə gətirən mənəvi ehtiyac, siyasi-ideoloji məqsəd nədir? Bir ziyalı kimi fəaliyyətinizin istiqamətlərini necə müəyyənləşdirmisiniz?

– Elə bilirəm ki, məni tanıyan, eləcə də AMİP-in Məramna-

məsi ilə tanış olan adamlar üçün burada gözlənilməz bir şey yoxdur. Parlament tipli bu partiyanın öz fəaliyyətində ideoloji əsas kimi qəbul etdiyi və mənim də partiyanın üzvü kimi fəaliyyətimin istiqamətlərini müəyyənləşdirən prinsipləri bir daha xatırlamaq istəyirəm. İSTİQLALÇILIQ, yəni milli müstəqillik və azadlıq MİLLİYYƏTÇİLİK (TÜRKÇÜLÜK), yəni digər millətilərin azadlığını, haqqını və hüquqlarını tanımaq və onlara hörmət etmək şərtilə Azərbaycan türk millətinin mənafeyini qorumaq, ümumi milli şüuru inkişaf etdirmək, AZƏRBAYCANÇILIQ (VƏTƏNÇİLİK), yəni Azərbaycan öz ərazisində yaşayan və onun mənafeyinə zidd fəaliyyət göstərməyən bütün millətlər, etnik qurumlar üçün vətəndir və həmin millətlərin nümayəndələri ilə bərabər hüquqlu vətəndaşlardır, onlar öz dillərini və dinlərini, mədəniyyətlərini qorumaq və inkişaf etdirmək hüququna malikdirlər: HÜRRİYYƏTÇİLİK, yəni insanın bütün hüquqlarını təminatı, əsl demokratik dövlət qürmaq üçün xalqın azadlığı ilə onun bütün fərdlərinin azadlığının vəhdət təşkil etməsi; MİLLİ DÖVLƏTÇİLİK, yəni Azərbaycan milli dövlətçilik ənənələrinə əsaslanan onun bölünməzliyini qoruyacaq, ümummilli mənafeyini gerçəkləşdirəcək, azadlığın, ədalətin və bərabərliyin təminatçısı olacaq bir institut; ÖNCÜLLÜK, yəni milli mədəniyyətimizi inkişaf etdirmək, milli mənafeyıimizə xidmət edən siyasi və iqtisadi quruculuğu sürətləndirmək üçün bəşəriyyətin yaratdığı elmi biliklərdən, iqtisadi və hüquqi mexanizmlərdən, mənəvi dəyərlərdən faydalanmaq bacarığı. Biz məhz bu prinsiplərə arxalanaraq və onlardan çıxış edərək millətin bu ağır günündə fəaliyyətimizi genişləndirməliyik. Mən nəinki inanıram, hətta tamam əminəm ki, bu prinsiplərə əsaslanan AMİP ciddi və nüfuzlu siyasi bir qurum kimi, Azərbaycan xalqının marağını dünya miqyasında qorumağa qadir olacaqdır.

– Bu gün ən ağrılı problemimiz Qarabağ problemi, ümumiyyətlə, ərazi bütövlüyümüzün təhlükə altında olmasıdır. Azərbaycan torpaqlarının tarixi bəkarətinə son yüz ildə artıq neçənci dəfədir ki, təcavüz edilir. Nə qədər acı da olsa, Yuxarı Qarabağ əldən verilmişdir. AMİP Qarabağın qaytarılması və sərhədlərimizin toxunulmazlığı sahəsində hansı siyasi vasitələri fəaliyyət dairəsinə çəkir?

– Bu siyasət ikili xarakter daşımalıdır: həm milli ordunun yaradılması, hərbi doktrinaların işlənilməsi sürətləndirilməli, həm

də siyasi-diplomatik fəaliyyət gücləndirilməlidir və bu paralel istiqamətlərin hər ikisinin əsasını təbii ki, yeganə prinsip müəyyənləşdirməlidir: Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

– Azərbaycanda baş verən son hadisələrin kontekstində, ümumiyyətlə, xalq – hakimiyyət münasitbətləri barədə nə deyə bilərsiniz?

– Rəhbərliyin başında duranın  da, onun öz ətrafına yığdığı adamların da şəxsi marağı ilə xalqın marağı üst-üstə düşməlidir, əks təqdirdə milli fəlakətdən xəbər verən böhran baş verir və biz neçə müddətdir ki, belə bir böhran içindəyik.

– Oxuculara sözünüz?

– Azərbaycan Milli İstiqlal Partiyasının Məramnamə və Nizamnaməsi ilə tanış olsunlar.

*Müsahibəni Müzəffər Talıblı apardı.*
*1992.*

## TARİXİN DƏRSLƏRİ
## VƏ YA MİLLİ FACİƏMİZLƏ ÜZ-ÜZƏ

Son vaxtlar ictimai-siyasi həyatımızdakı böyük dəyişikliklər, vaxtilə keçmiş SSRİ-nin tərkibində olan respublikaların indi görünməmiş bir fəallıqla öz milli-mənəvi köklərinə qayıdışlarını əks etdirən ciddi proseslər, təbiidir ki, yaradıcılıq mühitinə təsirsiz qalmır. Çətinliklə əldə olunan demokratiya və mətbuat azadlığı şəraitində ədəbi-mənəvi dəyərlərə, müxtəlif dövrlərdə işləyib yaratmış, geniş ictimai fəaliyyət göstərmiş görkəmli şəxsiyyətlərin həyat yoluna yenidən nəzər salınır, onlar bəzən mübahisəli, bəzən də, hətta zidd mövqelərdən qiymətləndirilir. Lakin doğru deyirlər ki, həqiqət yalnız mübahisə yolu ilə aşkar edilə biləcəyi üçün biz imkan tapdıqca qəzetimizdə belə mübahisəli fikirlərə yer verməyi nəinki mümkün, hətta vacib sayırıq.

Yazıçı-jurnalist Sadıq Elcanlının yazıçı Elçinlə apardığı söhbəti də bu məqsədlə oxuculara təqdim edirik.

S.ELCANLI – Elçin müəllim, «Ədəbiyyat qəzeti»nin keçənilki 40-41-ci saylarında sizin «Ədəbi proses: Olum, ya ölüm?» adlı məqalənizi oxudum. Bu başdan deyim ki, məqalə əsl vətəndaş yanğısı, milli ədəbiyyat təəssübü ilə yazılıb və ciddi elmi polemikası, yüksək intellektual səviyyəsi ilə diqqətimi cəlb etdi. Yəqin yadınızdadır, sizin həmin məqalənizlə təxminən eyni günlərdə «Aydınlıq» qəzetinin 34-35-ci saylarında mənim də «Qulluq qulları» adlı yazım çap olunmuşdu. Bir sıra sosial, estetik-fəlsəfi məsələlərə, xüsusilə, yaxın ədəbi-siyasi tariximizin Nəriman Nərimanov faktına münasibətdə fikir və mövqelərimizin qismən müxtəlifliyini hazırki milli-mənəvi mühitimizdə bu istiqamətli səmimi polemikaya, dostcasına mübahisəyə, fikir saflaşmasına kəskin ehtiyac olduğunu nəzərdə tutaraq sizə müraciət etməyi qərara aldım. Əvvala, sizin intellektinizə, ədəbi zövqünüzə, təmiz milli mövqeyinizə inanıram, ikincisi, ona inanıram ki, əsl həqiqət səmimi, təmənnasız, yaradıcı mübahisədə meydana çıxır. Ciddi, taleyüklü sosial çevrilişlər ərəfəsində azadlığın astanasında əsl həqiqətə ehtiyacımız daha çoxdur; nəsilbənəsil təkrarlanan səhvləri-

mizin qara, tilsimli yuxusundan oyanmaq, imperiya niyyətlərinin işğalçı, manqurtlaşdırma mexanizmi qarşısında davam, duruş gətirə bilmək, Azərbaycanın o tay-bu taylı birliyinə, bütövlüyünə, həqiqi dövlət müstəqilliyinə, milli suverenliyinə, böyük azadlığına nail olmaq və üç rəngli aylı-ulduzlu «bir kərə yüksələn bayrağımızı» bir daha endirməmək, istiqlalımızı daimi, əbədi yaşatmaq, davam və inkişaf etdirmək üçün əsl həqiqəti nə qədər acı olsa da bilmək, meydana çıxarmaq, yalançı, alverçi, xəstə milləttəəssübkeşliyinə son qoymaq lazımdır; bu, indiki keçid dövründə yeni-yeni səhvlərə, ziyalı-siyasətçi aldanışlarına və deməli, yeni-yeni milli faciələrə getməmək, xalqın inam və etibarından sui-istifadə etməmək, həmişə ehtiyatda saxlanan tragik tövbə qapılarını bəri başdan birdəfəlik bağlamaq üçün lazımdır. Beləliklə, Elçin müəllim, əsl həqiqəti aşkarlamaq, üzə çıxarıb ümumxalq mühakiməsinə təqdim etmək ümidilə milli mühitimizin ən acı, ağrılı söhbətinə başlayırıq: N.Nərimanov kimdir?

ELÇİN – Nəriman Nərimanov Kral Lirdir. Mən bu fikri sənin adını çəkdiyin məqaləmdə demişəm və yenə də təkrar edirəm. Bəli, mənim üçün Nəriman Nərimanov XX əsr tariximizin – mürəkkəb, ziddiyyətli, fərəhli (bütün Şərqdə, bütün müsəlman, bütün türk aləmində ilk dəfə yaradılmış Azərbaycan Demokratik Respublikası faktı!) və dəhşətli (1920-ci ilin apreli! 1937!) hadisələrlə zəngin bir dövrün ümumi konteksti daxilində Yaqo yox, Kral Lirdir. Burada mühüm bir nöqtəni qeyd etmək istəyirəm: Nəriman Nərimanovu Kral Lir kimi qəbul etmək mənim üçün onun sonradan siyasi səhvlərini bağışlamaq yox, onun daxili aləmini, psixolojisini, mənəvi iztirablarını başa düşməyə çalışmaq deməkdir. Nərimanov Kral Lir, onun nankor övladları Qonerilya və Reqana isə yolunda həyatını həm mənəvi, həm də cismani (Nərimanovun qətlə yetirilməsi get-gedə daha dəqiq sübut edilir) şəkildə həsr etdiyi sistem idi. Nərimanovu bəlkə də Kral Lirdən daha artıq dərəcədə faciə qəhrəmanı edən bir cəhət də bu idi ki, onun övladları arasında gücsüz, köməksiz, lakin mənən təmiz, vəfalı, mehriban Kordeliya yox idi, çünki sistem Qonerilya və Reqanadan fərqli olaraq nankor yox, başlanğıcdan, rüşeymdən iblisanə idi. Nərimanov uğrunda çalışdığı və ərəfəsində fəaliyyət göstərdiyi sistemin iblisanə mahiyyətini görməyi bacarmayıb, gördükdən, dərk etdikdən sonra isə həmin sistemin bir hissəsinə çevrilməyib. Lenin də, Stalin də, Nərimanov da 70 il ərzində taleləri sındıran,

hissləri, həyəcanları məhv edən, azadlıq və bərabərlik şüarları altında xalqları müstəmləkəçilik istibdadı içində saxlayan sistemin yaranması üçün biri az, biri çox dərəcədə əllərindən gələni etdilər, lakin həmin sistem yarandıqdan sonra, Nərimanov sistemin alətinə çevrilmədi və onun Lenindən də, Stalindən də fərqi, həm də çox ciddi fərqi bunda idi. Lenin, Stalin, Trotski, Buxarin, Orconikidze, Mikoyan, Molotov, Zinovyev, Kamenev, Mirzoyan, Kirov və bir çox başqaları, eləcə də Azərbaycanın qarayevləri, bağırovları uğrunda mübarizə apardıqları sistem yaratdıqdan sonra həmin sistemin tərkib hissəsinə çevrildilər, onun nüvəsini təşkil etdilər. Düzdür, sistemi kannibalizm – adamyemə ilə məşğul oldu, nüvədəkilərin bir qismini uddu (Trotski, Zinovyevi, yaxud Kirovu) gorbagor etdi (Stalini), zindanda guya canını qurtara biləcəkmiş kimi dəmir çarpayının altına soxulub gizlənməyə sürüklədi (Musabəyovu), lakin bütün bu dəhşətli faktların heç biri həmin xadimləri Nərimanov kimi bəşəri faciənin qəhrəmanı etmədi, onlar sistem daxilindəki təbii qanunauyğunluqların günahkar yemi idi. Bəli, biz, həqiqətən, Azadlığın astanasındayıq və mən tam şərikəm ki, bu yerdə əsl həqiqəti görməyi və onun gözlərinin içinə dik baxmağı bacarmaq lazımdır. Ona nə şirə, nə də acı qatmaq olar. Şirə – şübhəsiz ki, sənin dediyin «xəstə millət təəssübkeşliyinə» aparıb çaxaracaq, lakin acı da, əgər belə demək mümkünsə, «xəstə millət təəssübkeşsizliyinə» aparacaq. O ki, qaldı «tragik tövbə qapılarını bəri başdan birdəfəlik bağlamaq çağırışı, bu yerdə mən səninlə şərik deyiləm, çünki tövbə mənəvi, həm də görünür, zəruri bir kateqoriyadır və tövbəyə ehtiyac olan yerdə tövbəsiz keçinmək olmaz.

S.ELCANLI – Mənim şəxsi inamım, qənaətim belədir ki, N.Nərimanov, A.Bakıxanov və M.F.Axundovların qalib xələfi, Q.Musabəyov və M.Bağırovların məğlub sələfi idi. Yəni Azərbaycan xalqının tarixi yolunda qara bir daş kimi dayanan imperiya, vəhşi güc üçün ədəbiyyatçı və həkim N.Nərimanov Abbasqulu ağa və Mirzə Fətəlidən daha çox iş gördü: onlar Peterburqa, Çar sarayına gedib çıxa bilməmişdilər. N.Nərimanov Moskvaya, İmperator sarayına daxil ola bildi; xələflərinin axıra qədər gedə bilmədikləri yolu N.Nərimanov son dayanacağa qədər getdi! Bu, xalqın Azadlıq istəyinə qarşı dayanan, səmalarda soyuq Şimal günəşi, Kremlin vəhşi imperiya ulduzu parlayan gedər-gəlməz yolu idi. O yol 100 illik köləlikdən, imperiya əsarətindən, milli dövlət

itkinliyindən xalqın ruhunun tragik sərgərdanlığından sonra Məhəmməd Əmin Rəsulzadələrin yaratdığı müstəqil, azad Azərbaycan Demokratik Respublikasının işgəncə ilə öldürülən, alçaldılan, təhqir edilən meyiti üstündən keçib gedirdi; N.Nərimanov imperiya qüvvələrinin, XI Qızıl Ordu süngülərinin açdığı həmin qanlı yolla gəlmişdi hakimiyyətə, işğalçı Sisiyanovun işğalçı varisi Yefremova xalq adından qılınc bağışladı... Sizin məqalənizdə bu faciəli məqam ön plana çəkilib...

ELÇİN– Mən istəməzdim ki, sənin dediyin kimi istedadlı bir qələm dostum dolayısı ilə də olsa musabəyovlar və bağırovlarla A.Bakıxanov və M.F.Axundovu eyniləşdirsin, onlara eyni kəndirin iki ucu kimi baxsın. Musabəyovlar və bağırovlar gəldi-gedərdirlər və onlara qoca tarixin bütün mərhələlərində, məqamlarında təsadüf etmək mümkündür, intəhası dövrün konyukturasından asılı olaraq cildlərini dəyişiblər: bu gün rus imperializminə, yaxud fars şovinizminə xidmət ediblər, dünən ərəb istilaları zamanı öz xalqlarını satıblar və s. Axundovlar və bakıxanovlar isə xalqımızın mənəvi sərvətini yaradıblar və mənim fikrimcə, deyək ki, elə həmin Mirzə Fətəlinin altı komediyası bir ictimai xadim kimi onun bütün həqiqi və mifik səhvlərini heçə endirir. Təkcə elə bu cəhəti xatırlasaq ki, həmin ölməz komediyalar rus müstəmləkəçiliyinin tüğyan elədiyi bir zamanda canlı Azərbaycan dilini mühafizə və inkişaf etdirmişdir. Məncə, kifayətdir, çünki dili mühafizə və inkişaf etdirmək, əslində, milləti mühafizə və inkişaf etdirmək deməkdir. Belə olan təqdirdə o rəhmətliklə özündən sonra yalnız bəd əməllər qoyub getmiş və tarixi miqyas baxımından tamam cılız olan məhəlli «rəhbərləri», lap məhəlli «hakimi-mütləqləri» eyniləşdirmək, onlara eyni estafetin yolçuları kimi baxmaq nə dərəcədə insafdandır? İfrat radikallıq və ümumiyyətlə, ifrat heç zaman heç kimə xeyir gətirməyib. «Daloy Dostayevski!» kimi şüarlar.

Oxuma tar,
İstəmir proletar
Səndə çalınsın «Qatar»! –

kimi çağırış şerlər ən yaxın keçmişimizin eybəcər hadisələri deyilmi? Bu cürə şüarlar, çağırışlar yalnız ədəbiyyatımıza, sənətimizə yox, ümumiyyətlə, mənəviyyatımıza azmı zərbə endirmişdir? Bunları başqa şəkildə və başqa kontekstdə də olsa, təkrar etmək

mənim buna qəti şübhəm yoxdur ki, bizə çox baha başa gələr. M.Ə.Rəsulzadə – Nəriman Nərimanov rəqabətinə gəldikdə isə, tarix bunu parlaq şəkildə sübut etdi: hər ikisinin mənsub olduğu, dilində yazdığı xalqın gözündə Məhəmməd Əmin qalib, Nəriman isə məğlubdur. Bu da təbii və tarixin verdiyi bütün dərslər kimi, ibrətamizdir. Fakt fakt olaraq qalır: başa düşməyibsə də, irəlini görməyibsə də, sənin düzgün qeyd etdiyin «işğalçı Sisiyanovun işğalçı varisi» (bu yerdə «varislik» xəttini dəqiq tutmusan!) Yefremova hədiyyə qılıncı məhz Nəriman Nərimanov təqdim etmişdir, həmin qılıncın üzərindəki lövhədə ən xəcalətli sözlər Nərimanovun imzası ilə yazılmışdır və sənin də, mənim də, dediyimiz həmin əsl həqiqət naminə şübhəsiz ki, bunu unutmaq olmaz. Lakin həmin əsl həqiqət naminə burasını da unutmaq olmaz ki, cəmi on-on beş il bundan əvvəl, o zamanlar ki, Bakının üzərində Kirovun irəliyə doğru uzadılmış əli müstəmləkəçilikdən, köləlikdən xəbər verirdi. Nəriman Nərimanova ucaldılan heykəl milli varlığımızdan, milli oyanışımızdan xəbər verdi, sözün yaxşı mənasında millətçilik hisslərinin asfaltı deşən incə otlar kimi, müstəmləkəçi bolşevizm ideolojisi arasından baş qaldırmasına sövq etdi. Bəli, Nərimanov müstəmləkəçi Yefremova rəmzi qılınc bağışladı, amma burası da rəmzidir ki, həmin qılınc Nərimanovun özünün başını kəsdi.

S.ELCANLI – Son iki yüz illik Azərbaycan mühitinin tarixi-xronoloji təhlili, sosial-siyasi analizi adamı heyrətləndirir: İmperiyaya xidmət göstərən, çiyinlərinə yad rütbələr, sinələrinə yad ordenlər taxılan milli qulluq qullarımız zaman-zaman çoxalıb, qul psixologiyası ilbəil genişlənib, sınan, sındırılan ziyalıların, millət zəkalarının sayı durmadan artıb, imperiya üçün qulluğun çarizm və sosializm yarışı davam və inkişaf etdirilib! 1920-ci il aprelin 28-də baş verən milli faciəni bütün amansızlığı ilə qiymətləndirmək, dərk etmək, milli bolşevik bandasının Azərbaycan xalqına qarşı törətdiyi tarixi sui-qəsdi, xəyanəti bütün dəhşəti, ağrı-acısıyla anlamaq,bu yöndə həqiqətə yaxınlaşmaq üçün «Gülüstan» və «Türkmənçay» müqavilələrindən üzübəri genişlənən qulluq yarışının sosial-analitik təhlilindən, səbəb və nəticələrindən başlamaq lazım gəlir. Böyük dövlətçilik ənənələri, heyrətamiz tarixi gücü, misilsiz milli-mənəvi potensiyası, ədəbi fəlsəfi dahilər bolluğu ilə seçilən bir xalqın içindən necə oldu ki, bu qədər qulluq qulları, imperiya xidmətçiləri yetişdi? Necə oldu ki, məsələn,

N.Nərimanov kimi millətpərvər, xalqın böyük etibarını, hüdudsuz məhəbbətini qazanan ziyalı bir şəxsiyyət, imperiyaya xidmət göstərməyi özünə və millətinə rəva bildi?

ELÇİN – Mən sənin bu emosional və prinsip etibarilə düzgün meydana çıxan suallarının arxasındakı hissləri, həyəcanları yaxşı başa düşürəm və bu yerdə səninlə müttəfiqəm. Lakin bir cəhəti daha da dəqiqləşdirmək istəyirəm: qulluq qullarımız və onların yarışı yalnız «Gülüstan» və «Türkmənçay»dan sonranın hadisəsi deyil. Kimlər idi Səfəvilər (II İsmayıldan sonrakı dövrü nəzərdə tuturam), Əfşarlar, Qacarlar? Azərbaycan sülalələri. Bəs kimə xidmət edirdilər? Kimlərdir panfarsizmin ideoloqları? Özümüzünkülər... Dünənə qədər kimlər idi özümüzdən Moskvaya donoslar yazan? Özümüz... Kimlər idi elə həmin Nərimanovun özünü «millətçi» kimi ifşa edən, onun adını çəkməyi belə yasaqlayan? Yenə özümüz... «qulluq qulları, imperiya nökərləri» nə bu günün, nə də dünənin hadisəsidir. Özü də yalnız azərbaycanlılar üçün yox, bütün mədəni xalqlar üçün bu və ya digər dərəcədə səciyyəvidir. Kim idi Stalin? İmperiya hakimi, yoxsa imperiya nökəri? Azərbaycanlı, yaxud ukraynalı kimi, gürcünü də müstəmləkə məngənəsində sıxan gürcü yəqin ki, «imperiya nökəri» idi. Xoşbəxtlikdən xalqın böyüklüyü sənin dediyin həmin «ədəbi fəlsəfi dahilər bolluğu» ilə ölçülür və belə bir «bolluq» müqabilindədir ki, qulluq qulları xalqın mənəviyyatını axıra qədər məhv edə bilmir. Bax, bu yerdə söhbət bir tərəfdən bakıxanovlardan və axundovlardan, digər tərəfdən isə musabəyovlar və bağırovlardan gedir! Nərimanovun imperiyaya xidmətinə gəldikdə isə, həmin «millətpərvər, xalqın böyük etibarını, hüdudsuz məhəbbətini qazanan ziyalı bir şəxsiyyət» sadəcə olaraq başa düşmürdü ki, tutduğu yol onu böyük faciəyə aparır, səhvi də məhz bunda idi. Bəlkə də Nərimanova elə gəlirdi ki, o, azadlıq, qəhrəmanlıq dastanının personajıdır. Lakin sonra məlum oldu ki, yox, o, xəyanətlərlə, yalanlarla, saxtakarlıqlarla dolu, milli-insani faciənin personajıdır. Bunu dərk edəndə, artıq iş işdən keçmişdi – o, Lirə çevrilmişdi.

S.ELCANLI – Bu yerdə mənim yadıma Şərqin böyük zəka sahibi, Azərbaycan xalqının dahi oğlu Mirzə Kazımbəy düşür. Dərbənd Şeyxülislamı Hacı Qasımın oğlu Məhəmmədəli Mirzə Kazımbəy 1823-cü ilin iyulunda 21 yaşında xristianlığı qəbul etmişdi və atasına yazdığı məktubda «İslam dinindən üz döndərmək üçün mübarizə vasitəsidir... Mübarizə hələ qabaqdadır» deyirdi.

Və bizim ədəbiyyatşünaslığımızdan, neçə-neçə namizədlik, doktorluq dissertasiyalarından A.Bakıxanova, M.F.Axundova üz tutan belə bir yad cümlə eşidilir: «Onların çiyinlərində daşıdıqları çar epoletlərinin altında əsl azərbaycanlı ürəyi döyünürdü». Axı, niyə biz bu acı, dəhşətli həqiqəti qəbul və dərk edə bilmirik ki, o ürəklər o epoletlərin qulluqçusu idi. Ölümünə qədər müsəlmanların kafir dediyi, xristianların şübhə ilə baxdığı Mirzə Kazımbəyin faciəsi hansı milli mənəvi sarsıntılardan, xalq taleyinin hansı böhranlı məqamından doğmuşdu? Deyəsən, yenə də qulluq yarışının imperiya qüvvələri tərəfindən bizə zorla qəbul etdirilən tragik milli modelinə üz tuturuq...

ELÇİN – Mənə elə gəlir ki, bu yerdə sən hissə qapılırsan. Əvvəla, mən elə hesab eləmirəm ki, Mirzə Kazımbəy «Azərbaycan xalqının dahi oğludur». Böyük alimdir, son dərəcə savadlı və nüfuzlu qələm sahibi, zəmanəsinin məşhur oriyentalistidir, bəli, lakin xalqın dahisi (yəni onun Füzulisi!) Molla Cümənin təbiri ilə desək, ya bir olar, ya iki... İkincisi, Mirzə Kazımbəyin xristianlığı qəbul etməsi, sənin dəqiq dediyin kimi, «müsəlmanların kafir dediyi, xristianların şübhə ilə baxdığı» bir adama – Aleksandra çevrilməsi, məncə, fərdi hadisədir, necə ki, misal üçün, XVI əsrdə Səfəvilərin elçisi Oruc bəy Bayatın İspaniyada xristianlığı qəbul edib Don Juan olması da beləcə fərdi hadisə idi və burada «imperiya qüvvələri tərəfindən bizə zorla qəbul etdirilən tragik milli model» axtarmaq metodoloji baxımdan düzgün deyil. Bakıxanovla, Axundovla bağlı gətirdiyin o fikrin müəllifi isə Əbdürrəhim bəy Haqverdiyevdir və mən də hələ on il bundan əvvəl – bu gün tamam səsçatmaz, ünyetməz bir uzaqlıqda qalmış 1982-ci ildə Mirzə Fətəlinin 170 illiyinə həsr edilmiş yubiley gecəsindəki məruzəmdə o fikirdən istifadə etmişdim. Ə.Haqverdiyevin yazdığı belədir: «Mirzə Fətəlinin... epoletlər, imtiyazlar, xaç və medallarla bəzənmiş libasının altında od tutub alışmaqda olan bir ürək döyünməkdə idi». Mən on il bundan əvvəl olduğu kimi, bu gün də həmin fikirlə tam şərikəm və bu o demək deyil ki, mən M.F.Axundovun ictimai-siyasi fəaliyyətindəki bir sıra yanlış, hətta zərərli cəhətləri görmürəm, yox, belə deyil. Məsələ burasındadır ki, o rəhmətliyin qoyub getdiyi irs də, fəaliyyət də xalqın marağı baxımından naqis ilə müsbətin tənasübündə müsbətin müqayisə edilməyəcək dərəcədə üstünlüyünə malikdir. Onun bizim mənəvi dünyamızdakı yerini də həmişə üstünlük müəyyənləşdi-

rir. Başqa şəxsiyyətləri xatırlayaq: S.Mehmandarov və Ə.Şıxlinski. Hər ikisi rus ordusunun aktiv generalları idi. Rus ordusu isə müstəmləkəçi ordu idi. Lakin Azərbaycan Demokratik Respublikası yarananda onların epoletləri, imtiyazları, orden və medalları mane olmadı ki, bu cəsur və vətənpərvər şəxsiyyətlər gənc və təcrübəsiz respublikanın hərbi naziri və hərbi nazir müavini vəzifələrini layiqincə yerinə yetirsinlər, o zamankı erməni təcavüzünün qarşısına sinələrini (həmin orden və medallarla dolu sinələrini!) gərsinlər. Bu yerdə müəyyənedici amil şəxsiyyətin əqidəsi, milli təəssübkeşliyi, vətənpərvərliyidir. Mirzə Ələkbər Sabirin:

Millət necə tarac olur, olsun, nə işim var?
Düşmənlərə möhtac olur, olsun, nə işim var.

– deyən tipləri nə epolet gəzdirirdi, nə orden taxırdı, amma millətə bir xeyir vermək əvəzinə «bədbəxt Tükəzbanların» hesabına «sonyaların» qabağında sino gedirdi... Bir sözlə, bu baxımdan hər şey şəxsiyyətdən asılıdır.

S.ELCANLI – Nərimanov aldanışının, milli fəlakətə çevrilən Nərimanov faciəsinin tarixi-sosial analizini bir qədər də reallaşdırmaq, dərinləşdirmək üçün sizin məqalədən «antişair, antiyazıçı şirnikləndirilirdi» tezisini xatırlatmaq istəyirəm. Siz sovet dövründə sovet yazıçılarının «partiyanın vintçiyi», təbliğat qulu edilməsi mexanizmindən danışırsınız. İndiki halda həmin tezisi «Azərbaycanlı antiazərbaycan istiqamətində şirnikləndirilirdi» şəklində ifadə edə bilərik. Söhbət imperiya qüvvələrinin zaman-zaman gizli-aşkar təsir və təzyiqlərlə Azərbaycan ziyalısına qarşı Səlib yürüşlərindən, mənəvi müharibələrindən, onu «antiazərbaycan istiqamətində şirnikləndirmək», «yenidən qurmaq», qulluq tilsiminə salmaq siyasətindən və bu dəhşətli düşmən niyyətlərinə əyilən, cavab verən Azərbaycan ziyalısının tarixi faciəsindən gedir.

ELÇİN – Məsələnin bu cürə qoyuluşu real zəmindən doğur. Doğrudan da uzun onilliklər boyu həm Şimalda, həm Cənubda «Azərbaycanlıların antiazərbaycan istiqamətində şirnikləndirilməsi» az və çox dərəcədə nəzərə çarpıb və bu, bizim tariximizin, o cümlədən, ədəbiyyat və ümumiyyətlə, mədəniyyət tariximizin xəcalətli səhifələridir. Son yetmiş ildə isə «Azərbaycanlının (yaxud özbəyin, qazaxın, belorusun...) antiazərbaycan (yaxud antiöz-

bək, antiqazax, antibelorus...) istiqamətində şirnikləndirilməsi», əslində, hakim və irticaçı ideolojinin əsas əməli prinsiplərindən biri olmuşdur. Nəzəriyyədə isə bu bərabərlik, qardaşlıq (hərçənd, rəsmi «böyük qardaş» statusu var idi), xalqlar dostluğu adlanırdı və son yetmiş ilin siyasi riyakarlığı burada da özünü göstərirdi: əməl ilə nəzəriyyə daban-dabana zidd idi. Həmin «şirnikləndirmə» nəticəsində Azərbaycanda da ən müdhiş illərdə belə, külli miqdarda ordenlər, medallar, laureat nişanları alındı, vəzifələr tutuldu, hətta güllələnənlərin, Sibirə, yəni gedər-gəlməzə göndərilənlərin evləri belə ev əşyaları ilə bərabər «şirəyə qonanlara» verildi. Bütün bunlar yaxın keçmişimizin acı həqiqətləridir, lakin «düşmən niyyətlərinə əyilən, cavab verən Azərbaycan ziyalısı» dedikdə, buradakı ümumiləşdirməyə bir az ehtiyatla yanaşmaq lazımdır. Bəli, əyilənlər çox oldu, lakin eyni zamanda Azərbaycan ziyalısı güllələndi! Sibirə də göndərildi! Azərbaycan ziyalısının ailəsi də sürgünə, dəhşətli təqibə məruz qaldı. Azərbaycan ziyalısı mühacir həyatının məşəqqətləri ilə üzləşdi! Bundan başqa, həmin yetmiş ildə Azərbaycan ziyalısı ana dilini nəinki qoruyub saxladı, onu xeyli dərəcədə inkişaf etdirdi. Azərbaycan ziyalısı ədəbiyyatda da, musiqidə də, rəngkarlıqda da, başqa sahələrdə də bəşəri mahiyyətli, yüksək bədii-estetik səviyyəli milli sənət əsərləri yaratdı. Əlbəttə, son dərəcə mürəkkəb, bir çox məqamlarda ziddiyyətli bir mənzərə yaranır. Lakin əsl həqiqəti üzə çıxarmaqdan ötrü məsələni kompleks şəklində həmin mürəkkəbliklə, ziddiyyətlə birlikdə təhlil etmək lazımdır. Nərimanova gəldikdə isə, o, hər halda, «şirəyə qonyanlar»dan da olmayıb. «Şirəyə qonanlar» şəxsi mənfəət əldə edirdilər: dediyimiz kimi, ordenlər, medallar, akademiklik, deputatlıq, gözəl ev-eşik, pillə-pillə qalxan vəzifələr və s. sistem bir dev ehtirası ilə təşəkkül tapmağa başlayanda Nərimanov ən yüksək vəzifədə idi və məhz sistemlə barışa bilmədiyi, sistemi qəbul etmədiyi üçün vəzifədən uzaqlaşdırıldı, sistem onu məhv etdi, ölümündən sonra da onu rahat buraxmadı, ondan uzun müddət intiqam aldı.

S.ELCANLI – Tarixi həqiqətlərin, gözünün içinə dik baxmağı, o acı həqiqətlərdən nəticə çıxarmağı öyrənməliyik. Praporşik Mirzə Fətəlinin polkovnik Abasqulu Ağa Bakıxanovdan, bolşevik N.Nərimanovun peşmançılıq alovlarında qovrulan qoca Fətəli Axundzadədən, birinci katib Mir Cəfər Bağırovun xəstə, tənha, göynəmli ürəyi ilə üz-üzə dayanıb oğlu Nəcəfə etiraf məktu-

bu yazan Nərimandan... öyrənmədiklərini, ya öyrənib əməl etmədiklərini, nəhayət, öyrənməli və əməl etməliyik. Və nə qədər ki, yaxın-uzaq tarixi həqiqətləri ört-basdır edəcəyik, nə qədər ki, yalançı, lovğa, bayağı, xəstə «vətənpərvərlik» gözlərimizi kor, qulaqlarımızı kar edəcək, millətimizi növbənöv aldanışlar, səhvlər yoluyla tarixi fəlakətə sürükləyən, faciələrə aparan «böyüklərimizdən» yaxa qurtara bilməycəyik. Tarixi səhvləri bəzəyib «adam arasına çıxarmalı» şəklə salmağımız bu günün səhvlərinə meydan açır.

ELÇİN – Mən yenə təkrar edirəm ki, Mir Cəfər Bağırovun da, Nərimanov «bolşevizminin» də bünövrəsini Bakıxanovda, xüsusən də Mirzə Fətəlidə axtarmaq tamamilə yanlış bir təmayüldür. Bünövrə sistemdədir! Həmin sistem, əslində, Axundova əsl düşmən gözü ilə baxıb, çünki dilimizi əlimizdən almaq istəyib, çünki, «Dədə Qorqud»dan tutmuş üzü bu tərəfə Azərbaycan xalqının mənəvi zənginliklərinə düşmən kəsilib. Axundov isə qələmi ilə ana dilində o zənginlikləri yaradıb. Bircə anlıq təsəvvür edək ki, Azərbaycan ictimai fikrində və ədəbiyyatında Axundov hadisəsi yoxdur... Birdən-birə nə qədər mənəvi kasadlıq içinə düşmüş olarıq? Axundovun ədəbiyyatımızda və ictimai fikrimizdə elədikləri o qədər böyük, vüsətlidir ki, onun özünün ictimai səhvləri çiynindəki paqonlarla birlikdə müqayisəedilməz dərəcədə arxa plana keçir. Biz ayrı-ayrı şəxslərin taleyindən və əməlindən yox, sistemin qorxunc dərslərindən ibrət almalıyıq, bunun üçün isə deyildiyi kimi, «yaxın-„uzaq tarixi həqiqətləri ört-basdır» etmək olmaz. «Millətimizi növbənöv aldanışlar, səhvlər yoluyla tarixi fəlakətə sürükləyən» sistem idi, sistemdən əvvəl isə onun mənəvi sələfi müstəmləkəçilik idi. «Böyüklər» dünən də bunu başa düşməli idi, bu gün və sabah da bunu başa düşməlidir. 1989-cu ildə Tbilisidəki aprel hadisələrini yada salaq. SSRİ xalq deputatlarının qurultayında Gürcüstanın o zamankı «böyüyü» Patrişvili özünü təmizə çıxarmaq istəyirdi. Lukyanov isə dərhal onun Kremlə vurduğu gizli teleqramı bəyan etdi. Patriaşvili sistemə xidmət edirdi, sistem isə heç gözünü də siyasətin mahiyyətindəki bu riyakarlıq, belə satqınlıq dərs olmalıdır. Yəni belə bir sadə həqiqət ki, xalqın rəhbəri öz xalqını düşünməli və yalnız öz xalqına xidmət etməlidir. Belə olarsa, bu yolda qarşıya çıxan çətinliklərə (o çətinliklər isə şübhəsizdir!) xalq ilə birlikdə, xalqın köməyi ilə sinə gərmək mümkündür. Dudayev fenomenini

yada salaq. Bu fenomenin məğzini məhz xalqa arxalanmaq prinsipi təşkil edir. Ola bilsin ki, sabah Dudayev məğlub olacaq, yaxud onun siyasətinin təmayülü dəyişəcək, lakin bu günün həqiqəti belədir.

S.ELCANLI – Siz deyirsiniz ki, «Nərimanovun günahını bağışlamaq olmaz! – Şübhəsiz, belədir, lakin Nərimanovun fəryadını da qulaqardına vurmaq olmaz». Nərimanovun peşimançılığı, Kremlin soyuq divarları arasında sıxılan, üşüyən, göynəyən ürəyindən qopan hıçqırıqlar Şimalın qanlı Solovki düşərgələrində diri-diri çürüyən Azərbaycan fədailərinin yeri-göyü titrədən fəryad səslərinin müsibətli bolluğunda eşidilmir axı! Mən o hıçqırıqlardan daha əvvəl, illər boyu qürbət soyuğunda, həsrət buzlağında üşüyən böyük millət atası Məhəmməd Əmin Rəsulzadənin ölüm ayağında «Azərbaycan... Azərbaycan... Azərbaycan... » deyə müqəddəs bir kədərlə pıçıldadığını eşidirəm. O hıçqırtılarda gecikmiş etiraf, bu kədərli pıçıltılarda «Bir kərə yüksələn bayrağın» enməzliyi, ölümə qalib gələrək millət fədaisinin əbədiyyət heykəli var. N.Nərimanov məncə, özündən başlayıb, özündə qurtarır, M.Ə.Rəsulzadə özündən başlayıb xalqda qurtarır. Və xalqda qurtarmaq, əslində, qurtarmaq deyil, davamdır, əbədiyyətdir. N.Nərimanov 28 apreldə özü öz qəlbini imperiya xeyrinə işğal etdi, qalib gəldi, qalib gələ-gələ məğlub oldu; M.Ə.Rəsulzadə həmin faciəli gündə məğlub ola-ola qalib gəldi.

ELÇİN – Mən Nərimanovla bağlı həmin fikri «Ədəbi proses: Olum, ya ölüm?» məqaləmdə demişəm, indi isə elə həmin məqalədən başqa bir sitat gətirmək istəyirəm: «M.Ə.Rəsulzadə 28 Aprelə həsr etdiyi «Qara gün münasibətilə» adlı məqaləsində Nərimanovu və başqalarını kəskin tənqid etməklə bərabər, yazıldığı dövr üçün (məqalə 1936-cı ildə yazılıb) son dərəcə müdrik bir fikir söyləyir və biz də bu fikri ədəbi irsimizə münasibətdə metodoloji əsas kimi götürməliyik. Məhəmməd Əmin bəy yazır: *«Unutmamalıyız ki, başda yalançı Moskvanın yıldızlı vaizlərinə uyan bu adamlar sonda ağla qaranı seçməyə başlayınca nisanda (28 Aprel nəzərdə tutulur – E.) yapılan işin istiqlal deyil, sözün bütün mənası ilə bir istila işi olduğunu anlamış və bundan lazım gələn nəticəni çıxarmaq cəsarətini göstərmişlər; başda müəllim və yoldaş kimi qarşıladıqları şimallıların sonda kolonizator olduqlarını anlamış və bunu onların üzlərinə vurduqları sillə ilə bildirmişlərdir»? Bax, bu fikrin arxasında sənin dediyin həmin «müqəddəs*

*kədər»* dayanıb. «Azərbaycan... Azərbaycan... Azərbaycan... » deyən o müqəddəs kədər həmin fəryadı da qulaqardına vurmağa qoymur. Nərimanovun 28 apreldə imperiyanın, indiki halda, sistemin yaranması xeyrinə öz qəlbini işğal etməsi barədə dediklərinlə isə şərikəm. Elə o fəryad da burdan başlayır.

S.ELCANLI – «Türk nüfuzundan», «türk zabitlərindən kor bir alət kimi» istifadə edən, Xəlil paşaları diplomatiya torunda çaşdırıb hiyləgərcəsinə neytrallaşdıran Oktyabr – Lenin imperiyası XI Qızıl Ordunun süngüsüylə Azərbaycanı qəti işğal etmək üçün hücuma keçəndə M.Ə.Rəsulzadə Xəlil paşaya demişdi: «... *bizi öz halımıza buraxın, yüz ildən bəri əsarəti altında olduğumuz rusları biz daha yaxşı tanıyırıq! Onlar hiylə ilə gələr, sonra bizi əzərlər»* («Hakimiyyəti-milliyət» qəzeti, Ankara, 5 avqust, 1926-cı il. İstiqlal məhkəməsində Nail bəyin şahidlik çıxışından). Mən söhbətimizin axırına yaxın İstiqlal məhkəməsindəki bir çıxışından həmin sözləri təsadüfən xatırlamadım. Əvvala, «yüz ildən bəri əsarəti altında olduğumuz rusları biz daha yaxşı tanıyırıq!» nidasıdır ki, bu adi, üzdə olan, hər addımbaşı görünən çılpaq həqiqətdən N.Nərimanovun və onun azərbaycanlı silahdaşlarının şübhəsiz xəbəri vardı. Onlar 1736-cı ildə Birinci Pyotrun adından elan edilən və 1916-cı ildə «Dirilik» jurnalında çap olunan məşhur vəsiyyətnamədən şübhəsiz xəbərdar idilər...Və o istiqlal məhkəməsini bir də ona görə xatırladım ki, nə vaxtsa belə bir millət məhkəməsinin qurulacağına inanıram: ya hansısa nəhəng bir salonda, ya bu hadisələri ilk dəfə oxuyub öyrənən hansısa bir azərbaycanlı uşağın qəlbində, nə fərqi var. Lakin məncə hansısa bir azərbaycanlı uşağın qəlbində başlayacaq millət məhkəməsi daha dəhşətlidir.

ELÇİN – İstiqlal məhkəməsini, dediyin həmin Millət məhkəməsini qurmaq üçün ilk növbədə İstiqlalın özünü əldə etmək lazımdır, yəni İstiqlal kağız üzərindəki qərarlığından çıxıb həyatımızın, yaşayışımızın Ana xəttini təşkil etməlidir. Yalnız bundan sonra, fanatik deyil, obyektiv istiqlal məhkəməsi qurula bilər. Sən Birinci Pyotrun «Vəsiyyətnamə»sinin adını çəkdin və mən qəti əminəm ki, biz həmin bədnam «Vəsiyyətnamə»dən bu günün özündə şüurlu və əməli nəticələr çıxarmasaq, İstiqlalımızın üfüqləri xeyli dumanlı olacaq. Həmin «Vəsiyyətnamə»nin 9-cu bəndinə diqqət edək: «Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin aça-

rı olan İstanbul olsun. Tez və yerli-yerində çalışıb İstanbulun torpaqlarına sahib olmaq lazımdır. Əlbəttə, İstanbula sahib olan şah dünyada ilahi şah olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə İran arasında fitnə-fəsad törətmək, dava-dalaş yaratmaq lazımdır. Bu işdə sünni və şiə məzhəbləri arasındakı ixtilaflar böyük, kəskin silah və basılmaz ordudur. Rusiya nüfuzunu Asiyada qaldırmaq üçün, sünni-şiə ixtilafları yaxşı bir vasitədir. Türkiyə ilə İran dövlətləri arasındakı müvazinəti fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Həm İran, həm də Türkiyəni Avropa xalqları ilə təmas tapmağa imkan verməmək. Əgər bu ölkələrin müsəlmanları göz açıb hüquqlarını qansalar, o bizə böyük zərbə olar. Həm Türkiyə, həm də İran din xadimlərini ələ almaq və onlar vasitəsilə sünni-şiə ixtilaflarını qızışdırmaq lazımdır. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq zəruridir». Daha sonra Pyotr mütəmadi xatırladır ki, bu «böyük» məqsədə nail olmaqdan ötrü ilk növbədə Qafqazı və təbii ki, o cümlədən, Azərbaycanı işğal etmək lazımdır. Əlbəttə, indi dövr dəyişib, XVIII əsrin birinci yarısında yox, XXI əsrin astanasındayıq, lakin buna baxmayaraq, imperiya iddiaları bu gün də son dərəcədə aktual əhəmiyyətə malikdir. O iddiaların qarşısını almaq üçün biz imperiya siyasətini bütün incəliyi, çalarları ilə görməyi, saf-çürük etməyi bacarmalıyıq, yoxsa ki, hər şey yenə də əvvəlki məcrasına qayıda bilər. «Biz», yəni adi pinəçidən tutmuş respublika Prezidentinəcən hamı! Eləcə də yaxşı olar ki, qonşu Türkiyə və İran bu «Vəsiyyətnamə»nin müddəalarını bir an belə yaddan çıxarmasın və öz siyasətlərini öz xalqlarının mənafeyinə uyğun istiqamətdə aparsınlar. Mən, əlbəttə, heç kimə, xüsusən də Türkiyə və İran kimi böyük və təcrübəli dövlətlərə siyasət öyrətmək fikrində deyiləm, sadəcə, olaraq bir daha diqqəti fakta cəlb edirəm. Eyni zamanda söhbətimizin də belə bir sonluqla qurtarmağına təbii baxıram, çünki bu söhbətin əsasında da vətəndaş narahatlığı dururdu.

*1992.*

## «O KÜLƏK BİR DƏ ƏSƏCƏK»

– Elçin müəllim, əvvəla, Sizi 50 yaşınızın tamam olması münasibətilə təbrik edirəm. Bunu da deyim ki, kimisə – dostu, çox hörmət bəslədiyin adamı bu çür yaş münasibətilə təbrik eləmək həmişə mənə qəribə görünüb. Qəfilliyi, amansızlığı ilə. İndi Siz görkəmli bir yazıçısınız, müasir Azərbaycan ədəbiyyatının tarixində məxsusi yeriniz var, əsərləriniz bir çox dillərə tərcümə edilib, milyon tirajlarla nəşr olunub, oxucuların ürəyinə yol tapıb. Ancaq deyin, bu gün bir insan və bir yazıçı kimi özünüzu xoşbəxt sayırsınızmı?

– Təbrikə görə təşəkkür edirəm. O ki qaldı, qəribəliyə, Sizdən gizlətmirəm, bu 50 rəqəmi ilə bağlı mənim özümü də heyrət bürüyür: yəni doğrudanmı, söhbət mənim 50 yaşımdan gedir? Elə bil, dünən idi, 50 yaşlı adamlara, az qala, dinozavr dövrünün yadigarları kimi baxırdım... Məndə elə bir təəssürat var ki, 50 yaş elə bil pusquda dayanır və bir həmlə ilə atılıb adamın başının üstünü alır! «Xoşbəxtlik» söhbətinə gəldikdə isə, mənim üçün o da, «bədbəxtlik» də tamam nisbi məfhumlardır. «Yazıçı xoşbəxtliyi» isə, məncə, tamam boş söhbətdi. Tarixdə elə bir yazıçı, ümumiyyətlə, böyük sənətkar göstərin ki, «xoşbəxt» olub? Füzulinin rüşvət deyil deyə, salamını almayıblar. Balzak borçlu olduğu adamların əlindən yer tapmayıb. Van Qoq da öz qulağını kəsib. Kim xoşbəxt olub? Nəsimi? Şekspir? Yoxsa Bayron, Dostoyevski? Qoca Tolstoyun elə bil ki, hər şeyi var idi: pulu, malikanəsi, rütbəsi, şöhrəti, sağlamlığı... Amma gündəliklərini oxuyun, görəcəksiniz ki, ondan bədbəxt insan yoxdu! Cavid Sibir çöllərində tapmalıydı xoşbəxtliyi, yoxsa Sabir sabunçuluqda? Bəlkə Puşkin Dantesin gülləsində tapmalıydı o xoşbəxtliyi? Bir sözlə, yazıçı xoşbəxtdirsə, deməli, söhbət sənətdən yox, vəsfçilikdən, konyukturadan gedir. Əsl yazıçı, sənətkar həmişə öz dövrü ilə, dövrün qolugüclüləri ilə konfliktdə olub və başqa çürə mümkün deyil. Yaxın keçmişin Lenin, Stalin, partiya, Qızıl Meydan, Moskva, Qızıl ordu, al bayraq, qırmızı qalstuk məddahlığı elə həmin «yazıçı xoşbəxtliyi»nin əlamətlərinin göstəriciləri idi. Nə isə, bu elə söhbətdi ki, uzandıqça uzanacaq. Konkreti də budur: Mən nə xoşbəxtəm, nə

də bədbəxtəm, taleyin mənə ayırdığı vaxt müddətində bu dünyanın adi qonağıyam.

– Xalq yazıçısı, atanız İlyas Əfəndiyevin məşhur romanlarından biri «Geriyə baxma qoça!...» adlanır. Ömrünüzün bu çağında Siz dönüb geriyə – artıq yaşanmış fiziki zamana boylananda nələr düşünürsünüz? O mənada ki, yalnız çox olmasa da, çox hadisələrin şahidi olmusunuz.

– O «fiziki zaman» o qədər xatirələrlə doludur, o qədər zəngin, mürəkkəb, bəzən də ziddiyyətli təəssüratlar doğurur ki, çalışıram «oralara» imkan daxilində az boylanım... Bəzən, əlbəttə, bu mümkün olmur. Görürsən, bu gün bir qələm yoldaşının sözlərinə qulaq asırsan, hərəkətlərinə, münasibətinə fikir verirsən, özündən asılı olmayaraq birdən-birə beş il, on il bundan əvvəli xatırlayırsan, onun o zaman dedikləri, elədikləri, sənə yaltaq münasibəti yada düşür və onun əvəzinə xəcalət təri səni basır... Onun isə, çox zaman həmin xəcalət tərindən xəbəri olmur. Bax, bu, əsl «yazıçı xoşbəxtliyi»dir ki, onu bürüyüb. Şahidi (və bəzən də iştirakçısı!) olduğum hadisələri isə əməlli-başlı əxz etmək, dərk etmək və mütləq yazmaq lazımdır. Memuar şəklindəmi, sənədli bir əsərmi? Sağlıq olsun...

– Onda, heç olmasa, uşaqlıq yaddaşınızda ilişib qalan işıqlı bir xatirə söyləyin.

– ... Qırxıncı illərin sonralarıdır. Avqust ayı. Turşsuda sazaq bir gecə. Alaçığın içində isti yorğan-döşəkdə gözlərimi yummuşam, amma nə müddətdi yuxum gəlmir. Atam keçənin üstündə bardaşqurma oturub neft lampasının işığında mənim üçün dünyanın ən sirli bir möcüzəsi olan Bağdad oğrusundan, Əlibaba və qırx quldurdan, Ələddinin çırağından xəbər verən ərəb əlifbası ilə nəsə yazır. Sonra yavaş-yavaş yağış yağmağa başlayır və o yağış damcıları alaçığa düşdükcə tarım çəkilmiş çadır tappatap tappıldayır...

– Yəqin ki, o tappıltının yerini indi heç nə vermir?

– Dünyanın çox gözəl otellərində, xudmani pansionatlarında, kotteclərində olmuşam, amma Turşsudakı o alaçıq başqa şeydi.

– Qarabağda talan var... Qədir Rüstəmovun əlini astaca qaldırıb oxuduğu «Qarabağ şikəstəsi»ndəki naləyə nə demək istərdiniz?

– «Qarabağ şikəstəsi»ndə Qədirin o naləsinə nəsə əlavə etmək, nəsə demək mümkün deyil.

– Keçmişə ekskursla bağlı daha bir məqam: ümumiyyətlə, yazıçı olmaya bilərdinizmi? Filoloji təhsiliniz vardı, gəlib Ədəbiyyat İnstitutunda işləyərdiniz və müdafiə edib alim olardınız, elə bu cür də davam etdirərdiniz... Duzdü, bunların çoxu oldu, Siz eyni zamanda görkəmli ədəbiyyatşünassınız, tənqidçisiniz, sanballı elmi monoqrafiyaların, yüzlərlə məqalələrin müəllifisiniz. Ancaq necə oldu ki, bütün bunlara baxmayaraq, tənqidçi-ədəbiyyatşünas Elçin yazıçı Elçini üstələyə bilmədi?

– Əvvəla, orasını səmimi etiraf edirəm ki, çox istərdim yazıçı, ümumiyyətlə, yazı-pozuyla məşğul olan bir adam olmayım. Əziyyəti həddən artıqdı, gecəsi-gündüzü yoxdu. Axı, nə qədər işdən evə qayıdıb və evdə təzədən miz arxasına keçib: « – Səs salmayın, işləyirəm!» demək olar? Axı, bir il deyil, beş il deyil, bütün ömür belə keçir. İstəyərdim ki, yazıçı olmayım. Amma olmaya bilərdimmi? Bu, başqa söhbətdi. Ədəbiyyat İnstitutu ilə bağlı onu deyə bilərəm ki, mənim evimdəki iş otağım da mənim üçün elə kiçik bir Ədəbiyyat İnstitutu kimi bir şeydi: kitablar, əlyazmaları, kağız-kuğuz... Tənqiçi Elçinin yazıçı Elçini üstələyə bilməməsinə gəldikdə isə, bunun səbəbi ondadı ki, sadəcə olaraq gücü çatmır.

– Sizin də, mənsub olduğunuz ədəbi nəslin başqa istedadlı nümayəndələrinin də qələm məhsulları vaxtilə müqavimətlə, bəzən açıq-aşkar təzyiqlə qarşılanırdı. O zaman nəsə yeni bir şey yaratdığınıza əmin idinizmi və bu Sizə bir mənəvi təskinlik verirdimi?

– O zaman mənim əsas problemim çap olunmaq problemi idi. Nəşriyyatlar da, qəzetlər də, «Azərbaycan» jurnalı da, xüsusən, 60-cı illərin sonlarında və yetmişin lap əvvəllərində min bir bəhanə ilə hekayələrimi geri qaytarırdılar, «itirirdilər»: Qlavlit də ilişirdi... Mən çox erkən çap olunmağa başlamışam. İlk hekayəm hələ 1959-cu ilin yayında «Azərbaycan gəncləri» qəzetində çap olunub. Onda onuncu sinfə keçmişdim və çox maraqlıdır (həm də yəqin əlamətdardır) ki, o yeniyetməlik, ilk gənclik çağlarının yazıları mətbuata nisbətən asan yol tapırdı, onlar təbii ki, təcrübəsiz, bir çox məqamlarda sadəlövh bir qələmin təcrübələri idi, amma elə ki, o qələm bərkiməyə başladı (hətta dəqiq ilini də göstərə bilərəm: 1968-dən etibarən), onda da çap olunmağa qarşı çiddi ma-

neələr meydana çıxdı. Bəzən elə oldu ki, hansı yazımsa əvvəlcə Moskvada işıq üzü gördü, sonra Bakıda dərç edildi. Gənclik illərinin təcrübəsi olan «Açıq pəncərə» povestini 1965-də, «SOS» povestini isə səhv etmirəmsə, 1967-də yazmışdım. «Gümüşü, narıncı» adlı növbəti hekayələr kitabım isə yalnız altı ildən sonra, 1973-cü ildə nəşr edildi və o hekayələrin nəhayət ki, nəşr edilə bilməsi üçün «Gənclik» nəşriyyatının o zamankı gənc baş redaktoru, rəhmətlik Vidadi Paşayevin təkidi ilə bir gecəyə nisbətən «işıqlı» xüsusi bir hekayə də yazmışdım ki, kitabın əvvəlində getsin və o biri hekayələri də paravoz kimi ardıyca çəksin. Gənclik illəri idi və dünyada elə bir gənc yazıçı yoxdu, fikirləşməsin ki, nəsə yeni bir şey yaradıb...

– Elçin müəllim, Sizcə, 60-cı illər ədəbiyyatının milli oyanışdakı rolu nədən ibarət olmuşdur? «Yeni nəsr» ifadəsinin mübahisələr doğurması nə ilə bağlı idi?

– Ədəbiyyat həqiqəti istedadla ifadə etməyi bacarırsa, deməli, o öz xalqını ifadə edir. 60, 70, 80-cı illərdə Azərbaycan ədəbiyyatında meydana çıxan istedadlı əsərlər, əslində, gəmidə oturub gəmiçi ilə dava eləməyin nəticəsi idi. Gəmi – yaşadığımız Sovet İttifaqı idi, gəmiçi isə – SİSTEM idi. Yalnız Azərbaycanda deyil, Rusiyada da, Baltikyanı ölkələrdə də, Ukraynada, Gürcüstanda da həmin SİSTEMƏ öldürücü zərbələrdən birini heç şübhəsiz ki, bədii ədəbiyyat vurdu – həqiqəti göstərməsi ilə. Ədəbiyyat şərti olaraq iki yerə bölünürdü: xalqın təəssübkeşi və SİSTEMİN təəssübkeşi. Xalqın təəssübkeşi həqiqəti göstərirdi. SİSTEMİN təəssübkeşi isə yalançı həqiqət quraşdırırdı. Ədəbiyyat sahəsində həqiqət ilə yalançı həqiqət arasındakı mübarizədə zərbə SİSTEMƏ dəyirdi, çünki həqiqət vahiddir, onu yalandan «gözəlləşdirmək», «nikbinləşdirmək» mümkün deyil. Bu mənada Azərbaycan ədəbiyyatı az iş görməmişdir. Bir tərəfdən milli dili inkişaf etdirmək, digər tərəfdən isə milli hiss-həyəcanı ifadə etmək, «sosialist güzəranına» heç bir şirə qatmadan onu olduğu kimi göstərmək, sizin dediyiniz həmin «milli oyanışda» müstəsna rol oynadı. «Yeni nəsr»lə bağlı isə, təfərrüata varmadan sadəcə onu deyim ki, «yeni» varsa, deməli, «köhnə» də mövcuddur və buradan doğan ədəbi mübarizələr, mübahisələr təbiidir və tarix boyu da həmişə belə olub.

– Bu məsələ ilə ilişkili daha bir məqam: kənd nəsri-şəhər

nəsri bölgüsünə münasibətiniz? Sizcə, bu bölgü milli özünüdərkin göstəricisi idimi?

– Milli özünüdərk ədəbiyyatda hansısa bir sahə mövzusu ilə məhdudlaşa bilməz və ümumiyyətlə, mən belə bir «sahə» bölgüsünü qətiyyən qəbul etmirəm: «kənd nəsri», «şəhər nəsri», «müharibə nəsri», «istehsalat nəsri» və s. Bu, SİSTEMƏ qulluq edən yazıçıların bədii-estetik naqisliyini ört-basdır etmək üçün, mövzu arxasında gizlənmələrinə münbit zəmin yaradan süni bölgü idi. Semyon Babayevski SİSTEM tərəfindən «Kənd nəsri»nin klassiki vəzifəsinə təyin edilmişdi və özü də «roman»ının surəti kimi, qızıl ulduzlu qəhrəmana çevrilmişdi. Bu gün o «klassik»dən nə qalıb? Yalnız qeyri sənət haqqında kinayəli bir söz demək istəyəndə, adı yada düşür. Bir azdan o da olmayaçaq. Əgər kənd həyatından istedadlı bir əsər yazılıbsa, hansısa bir «kənd nəsri»nin yox, ümumiyyətlə, yaxşı ədəbiyyatın nümunəsidir. Bü gün bunları deməklə mən, yəqin ki, yeni Amerika kəşf etmirəm, amma stereotiplər o qədər estetik şüura yeridilib ki, onları dərsliklərdən çıxarmağa, ədəbiyyat nəzəriyyəsi kitablarından xariç etməyə, olsun ki, xeyli vaxt gedəcək.

– Elçin müəllim, nəsr əsərlərində məlumdur ki, hər bir obrazın öz temperamenti, öz psixikası olur və bu temperament, bu psixika yeni, gözlənilməz olduqda dərhal diqqəti çəlb edir. Baladadaş sizin nəsrinizdən xüsusi koloritli bir obraz kimi keçir. Həmin obraz oxuçuların sevimlisinə çevrildi. Siz onu necə qələmə aldınız? Bu, təsadüf idi, yoxsa necə?

– Mənim uşaqlığım Bakının köhnə məhəllələrində keçib və o məhəllələrdə, oradakı güzəranla, məişətlə, psixologiya ilə Abşeron kəndləri arasında çox yaxın və doğma bir ünsiyyət var idi. Mən Baladadaş kimi çavanların daxili aləminə yaxşı bələd olduğum üçün, bədii ədəbiyyatda, teatrda, kinoda onların yalnız satirik obrazlarının yaradılmasını, yalnız şit gülüş hədəfinə çevrilmələrini düzgün hesab etmirdim və günlərin bir gunündə məndə də daxili bir tələbat yarandı ki, baladadaşların görünməyən çəhətlərini qələmə alım. O zamanlar Vaqif küçəsindəki Yazıçılar Evində birotaqlı mənzilim var idi, yaxşı yadıma gəlir, 72-ci ilin yayı idi, gecə mətbəxdə makinanın arxasında oturub və səhərin gözü açılanda mən də «Baladadaşın ilk məhəbbəti» hekayəsini yazıb qurtardım. Sonra onun ssenarisini yazdım, film çəkildi.

– Biz Sizi daima axtarışda olan, məhsuldar bir yazıçı, ədib

kimi tanıyırıq. Siz necə yazırsınız? Yəqin ki, xüsusi vərdişləriniz var. Yazıçı laboratoriyanız barədə, xahiş edirəm, ətraflı danışasınız.

– Yazıçı laboratoriyası elə fərdi, məxsusi bir şeydi ki, onun barəsində ətraflı danışmaq mümkün deyil və güman ki, heç lazım da deyil. Bu, bir növ ailə münasibətlərinə, ailə sirlərinə bənzəyən bir şeydi... Dünyada nə qədər yazıçı varsa, yaxşısından, pisindən asılı olmayaraq, bir o qədər də yaradıcılıq psixologiyası var. Təkcə onu deyə bilərəm ki, mənim üçün nə vaxt – gecə, gündüz və harada yazmağımın fərqi yoxdu, mətbəxdə, təyyarədə, vaqonda, kitabxanada... Əsas odu ki, yazı məni tutsun və bir də ki, yarımçıq qalmasın. Misal üçün, əgər bir hekayə yazıramsa, yarımçıq qaldı, harasa getdim, yaxud nəsə bir iş çıxdı, qurtardı, nəinki beş gündən, on gündən, hətta üç gündən sonra o yarımçıq qalmış hekayəni davam eləyə bilmərəm. İndiyəcən nə yazmışamsa, birnəfəsə yazmışam və xüsusən, roman yazanda (illah da «Ölüm hökmü»nü!) bu pis xasiyyətin çox əziyyətini çəkmişəm. Məqalələr də bu çürə. İntəhası, məqalələri evdə iş otağım olmayan vaxtlar kitabxanalarda, indi isə iş otağımda yazmağa çalışmışam. Belə rahat olur. İstədiyin vaxt istədiyin mənbəyə baxıb faktı dəqiqləşdirirsən, mənbələr, ədəbiyyat əlinin altında olur.

– Elçin müəllim, indi zəmanə kardinal olaraq dəyişib və keçmiş sovet yazıçılarının, alimlərin arasında, əgər belə demək mümkünsə, «imtinaçılıq dövrü» yaranıb. Kim isə hansısa əsərindən imtina edir. Kim isə hansısa əsərinisə məcburən yazdığını deyir. Kimi inanıb yazdığını deyir. Bu mənada Siz öz yazılarınıza necə münasibət bəsləyirsiniz? Oxuçular onsuz da sizi sevir, odur ki, çavabınız nəyinsə üstünə kölgə salmayaçaq.

– Mən səmimi şəkildə Sizə deyirəm ki, heç bir bədii yazımdan imtina etmirəm. Yaxşıdır, pisdir, onların hamısı mənimkidir və mən heç bir məçburiyyət qarşısında hekayə, povest, roman yazmamışam. Onların hamısını viçdanımın səsiylə yazmışam və bu gün də o bədii yazıları yenidən nəşr etdirmək mənim üçün xoşdur. Şagirdlik, tələbəlik illərində yazdığım bədii yazılar isə «Açıq pənçərəy»lə, «SOS»la bərabər, bu gün sadəcə olaraq sırf bədii çəhətdən məni qane etmir, buna görə də kitablarıma salmıram. Onlar mənim üçün yeniyetməlik, ilk gənclik çağlarının yadigarı kimi əzizdir. İndiyə qədər yazdığım məqalələri, monoqrafiyaları da adda-budda cüzi redaktə ilə çap etdirərdim və onların da heç

birindən imtina etmirəm. Publisistik yazılarımın isə arasında elələri var ki, onlar, həqiqətən, məcburiyyət qarşısında yazılıb. Çünki onlar yazılmasaydı, həmin bədii yazılar, məqalələr çətin çap olunardı. Bu, bəraət deyil, etirafdır. Və o publisist yazıları, təbii ki, çiddi hesab etmirəm.

– Son zamanlar «ədəbi içtimaiyyət» anlayışı haqqında çox söz-söhbət gedir. Sizin bu məsələyə münasibətinizi bilmək maraqlı olardı.

– Əvvəla, orasını deyim ki, ədəbi prosesin tamam ölgünləşdiyi və bir az da beləcə getsə, lap can verəçəyi, millətin mənəvi sərvəti kimi, ədəbiyyat və ədəbiyyat təəssübkeşliyinin artıq həmin millətə dəxli olmayan doxsanıncı dərəcəli bir şey kimi ən arxa planlara atıldığı indiki məqamda qələm sahibinin ədəbiyyat haqqında, ədəbi mühit, ədəbi əxlaq, ədəbi zövq barədə söz deməsi, Sizin bu sualınız kimi suallara aid ürəkdən cavab verməsi, əgər insan kimi yaşamaq istəyimizin təntənəsi olacaqsa, gün işığı kimi vaçibdir. O söz deyilməyəndə, ədəbiyyatın təəssübü çəkilməyəndə yalançı qələm sahibinin səsi daha da gur eşidiləçək, anti-ədəbiyyat yenə də əsl ədəbiyyatı üstələyəcək, ədəbi zövqün korşalma prosesi daha artıq bir sürətlə inkişaf edəcək. Bu barədə mən son vaxtlar çox yazmışam, dediklərimi təzədən təkrar etmək istəmirəm, sadəcə sizin sualınızın cavabı olaraq deyim ki, «ədəbi içtimaiyyət» çəmiyyətin təkmənalı, eyni rəngli bir hissəsi deyil, əksinə, çoxmənalı və çoxrənglidir, bir küll halında bəzilərinin dediyi kimi, qorxunc yox, façiəvidir. «Ədəbi ictimaiyyət» sadə desək, yaxşı ilə pisin toplusudur, yəni orada istedadın da öz yeri var, qrafomanın da, ədəbi əxlaq da orada öz təcəssümünü tapır, ədəbi həyasızlıq da, əxlaqsızlıq da. Həmişə belə olub, bütün zamanlarda və içtimai quruluşlarda. O başqa məsələ ki, çox zaman və xüsusən, son 70 ildə sovet «ədəbi içtimaiyyətində» ədəbiyyat yaratmaq əvəzinə gündəlik ədəbiyyat məmulatı istehsal eləyən ədəbi həyasızlıq, ikiüzlülük, riyakarlıq istedadı və ədəbi vicdanı üstələmiş olub. Yazıçı (və yazıçı olmayıb özünə yazıçı deyənlər!) «ədəbi içtimaiyyət»in nümayəndəsidir (istəsə də, istəməsə də, bu onun şəxsi arzusunun fövqündədir!) və hərgah o SİSTEMİN yazıçı vəzifəsinə (!) təyin etdiyi antiqələm sahibindən, hakim ideolojinin tənzim etdiyi siyasi-ictimai həyatın bulanıq suyunda qələm qarmağı ilə balıq tutmağa çalışan (və çox zaman da tutan!) ədəbi konformistdən gedir. Bu həmin qrafoman, həmin antiqələm

sahibi, həmin ədəbi konformistdir ki, son 70 ildə öz şəxsi firavanlığı müqabilində ədəbiyyat dediyimiz mənəvi sərvətə öldürücü zərbələr vurub, yəni bəşər tarixində bəlkə də misli görünməmiş bir vüsətlə antiədəbiyyat hadisəsini meydana çıxarıb. Elə məhz buna görə də SİSTEM ona sərkərdə səlahiyyəti verib və bu çür faktlar Azərbaycan Sovet ədəbiyyatının tarixində az deyil. Sov.İKP MK, deyək ki, baramaçılığın inkişaf etdirilməsi haqqında qərar qəbul edirdi və o sərkərdə-yazıçı (yaxud sərkərdəlik ehtirası, arzusu ilə canfəşanlıq edən sıravi) dərhal o qərardan «ilhamlanaraq» roman (povest, poema, pyes) yazmağa başlayırdı, sərkərdə-tənqidçi (yaxud bayaqkı qorxunc sıravi) bədii ədəbiyyatdan Sov.İKP MK-nın həmin qərarının inikasını tələb edirdi. həmin əsər nəşr edilirdi, mükafatlandırılırdı, dərsliklərə salınırdı, orada barama planını 180 faiz yerinə yetirən əmək adamı «müsbət qəhrəman» kimi öyrədilirdi, baramaçılığın inkişafının əhəmiyyətini anlamayan o birisi isə «Mənfi qəhrəman» kimi siyasi damğalar hədəfinə çevrilirdi və bütün bunlar «Sovet ədəbiyyatının bədii-estetik nailiyyətləri» kimi qələmə verilirdi. Bəli, bu sürrealist mənzərə ədəbi içtimaiyyətimizin dünənki günü üçün səçiyyəvi idi. Amma o da bizim ədəbi içtimaiyyətimiz üçün səçiyyəvi idi ki, onun bütün nümayəndələri ədəbiyyat generalları olmaq oduyla alışıb yanmırdı, yoxsa ki, nə Müşfiq güllələnərdi, nə Cavid Sibirin çöllərində minbir məşəqqətlə dünyasını dəyişərdi, nə də Mirzə Cəlil millətin mənəvi sərvətini sobaya atıb yandırardı... Ədəbi içtimaiyyət bir tərəfdən sərkərdəlik uğrunda mübarizə aparırdı, digər tərəfdən isə faciələrlə, göz yaşları, iztirablar və sıxıntılar içində həqiqi ədəbiyyat yaradırdı və bəzən eyni müəllif özü-özü ilə kompromisə gedirdi... Bulqakov «Ustad və Marqarita»nı yaza-yaza Koba haqqında pyes quraşdırırdı. Pasternak gizlində «Doktor Jivaqo»nu yazır, əyanidə isə hərdən Stalini vəsf edirdi.

– Bütün bu mürəkkəbliklər, ziddiyyətlər, yaradıçılıq psixolojisinin sarsıntıları – hamısı məhz ədəbi içtimaiyyətin həyatının tərkib hissəsi idi o ədəbi içtimaiyyət iki yerə – rəyasət heyətinə və parterə bölünmüşdü və bu bölgünü müəyyənləşdirən qüvvə istedad yox, hakim ideolojinin inzibati tədbirləri idi. Bunları görə-görə gəlmişik. Amma bir məsələ var, necə deyərlər, qara bir təskinlik var: bir az çox dərəcədə, bir az az dərəcədə, bayaq dediyim kimi, həmişə belə olub, ədəbiyyat ilə antiədəbiyyat həmişə qoşa addımlayıb. Deyirlər ki, bir nəfər gənc proletar şairi küçədə Cavi-

din yolunu kəsib və Orçonikidzenin ölümünə həsr elədiyi şeri ona oxumağa başlayıb. Qurtardıqdan sonra bir müddət gözləyib, amma Caviddən bir səs çıxmayıb. Gənc proletar şairi hiddətlənib: «Niyə bir söz demirsiniz?»

Cavid əfəndi soruşub:

«– Bəs Kalininin ölümünə şer yazmamısan?»

Proletar şairi təəççüb edib:

«– Axı, Kalinin ölməyib!?» Çavid əfəndi: «– Nə olsun? – deyib. – Öləçək də!». Bu əhvalat ona görə yadıma düşdü ki, həm Çavid, həm də o bədbəxt gənc proletar şairi eyni ədəbi ictimaiyyətin nümayəndələri idi. Ədəbi ictimaiyyət bu çür mürəkkəb və təzadlı bir qurumdur.

– Elçin müəllim, hərdən mənə elə gəlir ki, son zamanlar nəsrimiz ancaq və ancaq müxtəlif cəlbedici hadisələrlə doldurulub. Sentimental ah-uflar baş alıb gedir. Boz ədəbiyyat heç vaxt indi olduğu qədər geniş intişar tapmayıb. Bu barədə nə deyə bilərsiniz?

– Sizin dediyiniz o «cəlbedici hadisələr» istedadla qələmə alınıbsa, burada pis bir şey yoxdu. Dünya ədəbiyyatında elə gözəl yazıçılar var ki, məhz «cəlbedici hadisələr» yazmaqla məşğul olublar. O.Henrinin, S.Moemin, Ömər Seyfəddinin məşhur novellalarını yada salın. Azərbaycan ədəbiyyatında M.S.Ordubadinin «Qılınç və qələm» romanı... Amma «cəzbedici hadisələr» ona görə qələmə alınıbsa ki, müəllif də özü bədii-estetik qadirsizliyini həmin «hadisələr burulğanında» ört-basdır eləsin, bu, əlbəttə, çox pisdir və o deməkdir ki, söhbət antisənətdən gedir – O «ah-uflar» da eləcə. Bu gün saysız-hesabsız qəzetlər nəşr edilir və o qəzetlərdə də saysız-hesabsız həmin «ah-uflar»la dolu mənsur şerlər dərc edilir. Əgər bizim ədəbiyyatın tarixindən, onun nailiyyətlərindən xəbəri olmayan bir adam birdən-birə Azərbaycan ədəbiyyatı ilə tanışlıq üçün o məşhur şerlərdən onunu oxusa, fikirləşər ki, bu millət bədii ədəbiyyat yaratmaq prosesinin hələ empirik dövrünü keçirir. Mən namizədlik dissertasiyası yazanda elmi rəhbərim rəhmətlik Mir Cəlal müəllim idi, deyirdi ki, qızıl da, xəzəl də eyni rəngdə olduğu üçün, bəzən onları bir-birindən seçmək olmur, çox vaxt da qızıl ağır olduğu üçün dibə çökür, görünmür, hər tərəfi xəzəl basır. İndi cəmiyyətimiz çox çətin keçid mərhələsini yaşayır (istiqlal elə bir şey deyil ki, küçədə tapıb cibinə qoyasan, vəssalam!) və mən də Mir Cəlal müəllimin o sözlərini tez-tez xa-

tırlayıram. Bir külək lazımdı ki, əsib o xəzəli dağıtsın və tezi-geci var, o külək mütləq əsəçək. Onda hər şey daha dəqiq məlum olaçaq: Kim bu xalq üçün nə edib? Kim bu xalq üçün nə yazıb?

– Oxuçular da, ədəbi içtimaiyyət də sizi «oxuyan yazıçı» kimi tanıyırlar. Son 15 ildə dünya ədəbiyyatında Sizi silkələyən əsər. Onlardan hansını Siz yazmaq istərdiniz?

– Suallarınızın sonundan başlamaq istəyirəm. O əsərlərin heç birini mən yazmaq istəməzdim, sadəcə ona görə ki, yaza bilməzdim. O mənada ki, yazı fərdi özünüifadədir. Mənim yazdıqlarımı da onlar yaza bilməzdi, daha yaxşı yazardılar, amma mənim yazdığım olmazdı. Elə buna görədir ki, ədəbiyyatda yazılmayan mövzu, toxunulmamış mətləb yoxdu, amma heç bir yazıçı o birisinin yerini tutmur. Biri zəif yazır, tarixin yaddaşında qalmır, o biri, əksinə, nəsillər dəyişdikçə dəyişməz qalır, üçüncüsü isə dahidir. Şekspir kimi, Füzuli kimi, Molyer kimi, Tolstoy kimi, amma heç kim heç kimi əvəz etmir. Zəif də məxsusi təfəkkürün bəhrəsidi, güclü də. Son 15 ildə (bəlkə də bir az əvvəllərin hadisələridi, dəqiq yadımda deyil) iki əsərin adını çəkmək istəyirəm ki, məndə son dərəçə zəngin təəssürat yaradıblar. Bulqakovun «Ustad və Marqarita», Markesin «Yüz ilin tənhalığı»... hərəsini çəmi bir dəfə oxumuşam, amma illər keçir, o işıqlı təəssürat isə dəyişməz qalır.

– Elçin müəllim, bir professional tənqidçi kimi, Siz həmişə amansız olmusunuz. Güzəştə getmək olmayıb Sizdə. Öz əsərlərinizin tənqid olunmağına neçə baxırsınız? Ümumiyyətlə, yazıçının tənqidi qəbul etməməsinin, bəlkə də ona saymazyana münasibət bəsləməsinin psixoloji əsası barədə...

– Sizin dediyiniz o «amansız» sözünü qəbul etmirəm. Kompromissiz, sərt, kəskin hə, amma «amansız» – yox. Tənqidçi yazıçıya qarşı yox, tənqid qrafomanlığa və ədəbi kəmfürsətliyə qarşı amansız olmalıdır. Mənim bu sözlərimdə uyğunsuzluq axtarmayın. Tənqid ümumi məfhumdur. Qrafomanlıq, ədəbi kəmfürsətlik də ümumi məfhumdur. Bu iki ümumi məfkum bir-birini inkar edir, bir-birinə qarşı amansızdır. Tənqidçi isə fərddir, onda insani hisslər zəngindir, onun tənqid etdiyi qrafoman da fərddir. Buna görə də tənqidçi həmin amansız mövqeyi, güzəştə getmədən, sərt, kəskin ifadə etməlidir, amma öldürməməlidir. Və ən əsas məsələ də ondan ibarətdir ki, həmin sərtliyin, kəskinliyin elminəzəri əsası olsun, yoxsa ki, «burda mənəm, Bağdadda kor xəli-

fə» psixologiyası ilə «dədəm mənə kor deyib, hər yetənə vur deyib» əlində qılınç ortaya düşməklə deyil.

Mənim əsərlərim barədə tənqid çox yazıb. Ağıllı yazıbsa, tərifindən-tənqidindən asılı olmayaraq maraqla oxumuşam, dayaz yazıbsa, gözdən keçirmişəm, vəssalam. Mən yazılarımı hələ əlyazması halında olanda, oxumaq üçün atama, zövqünə inandığım bir-iki yaxın dosta verirəm və onların əsər haqqında ilk fikirlərini çox qiymətləndirirəm. Soruşduğunuz o «psixoloji əsas»ın səbəbi isə məncə, çox sadədir: dünyada elə yazıçı yoxdu ki, yazıb bitirdiyi əsər haqqında yüksək fikirdə olmasın, o yazıya xususi ümidlərlə baxmasın – əgər varsa, demək, yazıçı deyil. O başqa məsələ ki, beş ay, bir il keçəndən sonra, olsun ki, fikrini dəyişirsən...

Bir də ki, mənim fikrimcə, tənqid üçün orası vacib deyil ki, konkret bir yazıçı onun dediyini qəbul edir, yoxsa yox; vacib orasıdır ki, tənqid böyük ədəbiyyatın təəssübünü çəkir, mövcudun bədii-estetik təsnifatını verməyi baçarır və inkişafın bir tərəfdən magistral yolunu müəyyənləşdirir, digər tərəfdən isə həmin ümumi magistral yolda hərənin öz izini görməyi və qiymətləndirməyi bacarır.

– Elçin müəllim, Siz, əgər belə demək mümkünsə, yüksək ixtisaslı, yəni yaxşı mənada professional nasirsiniz. Mən ona görə «yaxşı mənada» deyirəm ki, professionalizm bəzən pis mənada da işlədilir. Sizin buna münasibətiniz?

– Hər şeyi istedad müəyyənləşdirir. Əgər o Allah vergisi varsa və sən professionalsansa, deməli, yazıçısan, yox, əgər o vergi yoxdursa, sən də professionala çevrilmisənsə, o zaman quru nəsihətçilikdən, danq-danq danqıldayan mülahizələrdən, şit laqqırtıdan o tərəfə getməyəcəksən. Birinci, şübhəsiz ki, istedaddır, amma professionallığa da kinayə ilə, lağla yanaşmaq olmaz.

– Sizin «Ölüm hökmü» romanınız son illər Azərbaycan ədəbiyyatında bir hadisə oldu. İstedadlı və mən bu sözü təkrar edirəm yüksək istedadlı bu əsər ədəbiyyatımızın ciddi uğurlarından biridir. Ancaq eyni zamanda mənim üçün maraqlıdır, həmin romanı yazanda, misal üçün, qorxmurdunuz ki, birdən Bağırov surəti sxematik çıxar?

– Məsələ burasındadı ki, mən yazanda bütün ədəbiyyatşünaslıq terminlərini və o cümlədən, «sxematizm» terminini də yaddan çıxarıram. Mənim üçün yalnız insanlardı, onların hissləri, həyəcanlarıdı. Əgər mən onları dəqiq hiss etsəm və hiss etdiyim ki-

mi də təqdim etməyi bacarsam, qorxsam da, qorxmasam da, ortaya nəsə bir şey çıxaçaq. Yox əgər mən onları duya bilməsəm, yaxud duyduqlarımı bədii dəqiqliklə ifadə edə bilməsəm, yenə də sizin dediyiniz o «sxematizm»dən nə qədər qorxsam da, ehtiyat eləsəm də bir şey çıxmayacaq. Bağırov haqqında mən 80-ci illərin ortalarında hələ gizli saxlanılan bir sıra materiallarla, o cümlədən, onun məhkəməsinin protokolu ilə tanış oldum və çalışdım ki, canlı bir insan kimi onu həmin protokolların içindən çıxarım. Material çox idi, amma Bağırov «Ölüm hökmü»nün əsas surətlərindən biri olmadığı üçün, xeyli təəssürat, fikirlər, görüş romandan kənarda qaldı. Sağlıq olsun, bəlkə haçansa yenə ona qayıdaçağam.

– Elçin müəllim, Siz özünüz uşaqlıq çağlarında Mir Cəfər Bağırovu görmüşdünüzmü? Onunla bağlı bir xatirəniz varmı?

– Siz bu sualı verəndə o xatirələrdən biri yadıma düşdü. Əgər səhv etmirəmsə, 1952-çi ilin sentyabr, yaxud oktyabr ayı idi və mən üçüncü sinifdə oxuyurdum. O vaxt Bakıda Mirzə Fətəli küçəsi ilə keçmiş Ketsxoveli küçəsinin kəsişdiyi tində yaşayırdıq və bizim məhəllədə uşaqların, hətta yeniyetmələrin arasında iki, yaxud üç «podşipnik»li «sanka» ustalardan biri idim və bir gün səhər tezdən bir neçə uşaqla «sanka»larımızı götürüb keçmiş Çkalov küçəsinə gəldik (o zaman elə bil ki, sübh tezdən başqa bir şəhərə gedirik! Çkalov küçəsi yoxuş olduğu üçün, onun səkisi ilə üzüaşağı yüksək sürətlə «sanka» sürmək olurdu və biz də yarışmaq istəyirdik ki, görək ən yaxşı «sanka»sürən kimdi. Sankaları İnçəsənət muzeyi tərəfdən bom-boş səkinin başına düzüb bir dəfə səs-küylə üzüaşağı getdik. Küçənin aşağısında (Azneft tərəfdə) sankaları quçağımıza alıb Çkalov küçəsini üzüyüxarı qalxırdıq ki, təzədən sürək. Küçənin başına çatmağa az qalmışdı ki, birdən iki nəfər bizə yaxınlaşıb biri mənim qolumdan, biri də Vaqif adlı bir oğlanın qolundan yapışdı və bu adamların sifətində elə bir ifadə vardı ki, o saat başa düşdüm: işimiz xarabdı. Bu hadisəni sizə danışıram və danışdıqça da qırx il bundan əvvəl o çiskinli payız səhəri o adamın biləyimdən yapışmış əlinin sərt soyuğunu indi də hiss edirəm. Bu iki nəfər ağzını açmağa maçal tapmamış, orta boylu, gümüşü bığlı, gözlərinə girdə gözlüklü eynək taxmış, başına şlyapa qoymuş, əyninə boz makintoj geymiş çox ciddi bir adam ağaclıqdan səkiyə çıxdı, sərt baxışları ilə bizə tərəf ötəri nəzər salıb yavaşdan, amma çox da qəti: «OTPUSTİTE!» – dedi və bu söz onun ağzından çıxar-çıxmaz biləyimdən yapışmış o əlin dərhal

boşaldığını hiss etdim. O şlyapalı adam əllərini arxasında birləşdirib baş barmaqlarını oynada-oynada üzüyuxarı qalxmağa başladı və o iki nəfər də onun ardınca getdi və mən də birdən-birə başa düşdüm ki, bu – «OTPUSTİTE!» – sahibi o eynəkli adam atamın evdə kənar adamlar olmayanda söhbət əsnasında «Dördgöz» adlandırdığı Mir Cəfər Bağırovdur. Bundan sonra biz məhəllə uşaqları arasında xüsusi hörmət (və həsəd!) obyekti olduq və uzun müddət yeri düşdü-düşmədi, bir az da bər-bəzək vurub bu hadisəni danışırdıq. Məktəbdə isə (o zaman 7 nömrəli məktəbdə oxuyurdum) uşaqlardan heç kim mənim dediklərimə inanmadı. Hamı elə bildi ki, mən yenə də nəsə özümdən fantaziya quraşdırıb danışıram.

– «Ölüm Hökmü»nü yazanda bu xatirə tez-tez yadınıza düşürdümü?

– Biləyimdən yapışmış o əlin sərt soyuğunu tez-tez hiss edirdim, bir də ki, o yavaş və qəti «OTPUSTİTE!» – beynimdə müxtəlif çalarlarla tez-tez səslənirdi.

– Elçin müəllim, ədəbi nəsillər arasındakı ünsiyyət duyğusunun korşalmasına səbəb nədir? Siz uzun müddət Yazıçılar İttifaqında katib işləmisiniz və 70-ci illərdə, 80-çi illərin ortalarında o zamanın bir çox gənc müəlliflərinin kitablarını redaktə etmisiniz, ön söz yazmısınız, mətbuatda onları oxuculara təqdim edib, «uğurlu yol»la xeyir-dua vermisiniz, əsərlərinin «Azərbaycan» jurnalından tutmuş nəşriyyatlaraçan işıq üzü görməsi üçün çox çalışmısınız. Axır vaxtlar isə Rafiq Tağının kitabına yazdığınız ön sözdə bu cümlələri oxudum: «Bu gün mənim ətrafımda olan, sabah Anarın kandarına qonan, o biri gün Əkrəm Əylislinin qapısının ağzına uçan və o ətrafda, o kənarda, o qapı ağzında mızıldayan dostlar!» Siz hansı şikəst ədəbi nəsildən danışırsınız?

– Söhbət «şikəst ədəbi nəsil»dən yox, bir sıra ayrı-ayrı adamlardan gedir. Onların arasında, hətta istedadlıları da var, amma təəssüf ki, mənəvi ucuzluq, həmişə kim daha artıq ixtiyar sahibidirsə, kim daha artıq nüfuzludursa onun ətəyindən yapışmaq və dünən o birisinə dediyi sözləri tamam yaddan çıxarmaq istedadı yox edir. Elə bilirəm ki, Sizin həyəcanınız əbəsdir, bu gün «nəsillər arasında ünsiyyət duyğusunun korşalması» hadisəsi yoxdur, sadəçə olaraq bəzilərinin səmimiliyi və qeyri-səmimiliyi, dostluqda bütövlüyü, yaxud külək hara əsdi, ora qaçıb istifadə etmək hadisəsi var. Burası da çox qəribə (və əlamətdar!) cəhətdir

ki, «çərxi-fələk» dövran elədikcə həmin adamlar təzədən gəlib sənin qabağında boyunlarını bükürlər və utanmaq, həya eləmək ağıllarına da gəlmir.

– Sizin vaxtilə «Uğurlu yol» yazdığınız şair Adil Seyidzadə heç kəsin «kandarı ağzına» qona bilmədi. Nə evi-eşiyi var, nə də iş yeri... Onun misrasıdı, deyirəm: «Mən bədbəxt daha gözəl bir dünyanın şairi olmalıydım...» Elçin müəllim, bu məmləkətdə istedadlı olan adamların sahibi varmı?

– Adil kiminsə «kandarı ağzına» qona bilmədi, daxili mədəniyyəti, əxlaqı, istedadı buna imkan vermədi. Rafiq Tağı da həmçinin. Fərid adında çox istedadlı, çox da təmiz bir oğlan vardı, özünə qıydı... Dediyiniz o misraya gəlinçə, Adilin bir təskinliyi olsun ki, bu qoca dünyada bütün istedadlı şairlər həmişə «daha gözəl bir dünyanın» sorağında olublar. İstedadlı olmaq çətin bir həyata məhkum olmaq deməkdir. İstedadlı olan adamın isə sahibi ola bilməz. Sahibi onun istedadıdı. O başqa məsələ ki, məmləkətdə istedadı olan adamlar üçün əlverişli şərait, münbit zəmin yaratmaq lazımdı. Bunun üçün isə məmləkəti idarə edənlər bir tərəfdən mədəniyyətin qədrini bilməli, o biri tərəfdən isə həmin «qədirbilməni» həyata tətbiq etməyi bacarmalıdırlar.

– Gənc ədəbi qüvvələrin imzalarını izləyirsinizmi? Sizcə, çağdaş ədəbi prosesin hansı problemləri mövçuddur?

– Gənc ədəbi qüvvələrin çap olunmaq imkanları bu gün o dərəcədə məhduddur ki, onların (əlbəttə, istedadlıların!) imzalarını izləmək o qədər də vaxt tələb etmir. Mən bunu bir dəfə haradasa demişəm, yenə də ürək ağrısı ilə təkrar eləmək istəyirəm: yeni yaranmaqda olan (səksənin sonları, doxsanıncı illəri nəzərdə tuturam) ədəbi nəsil elə bil ki, bir yetimlik içindədi – onlara diqqət yox, çap imkanları acınacaqlı, güzəranları da ki, ondan da pis... Azərbaycan ədəbi prosesinin vəziyyəti haqqında isə qısaca olaraq, ancaq onu deyə bilərəm ki, heç zaman indiki kimi ölgün vəziyyətdə, mənasız və mətləbsiz olmayıb. Son vaxtlar çox dediyim bir fikri bir daha xatırlamaq istəyirəm: ədəbiyyat, ümumiyyətlə, sənət uğrunda mübarizə azadlıq, istiqlaliyyət uğrunda mübarizənin bir hissəsi olmalıdır, çünki sənəti olmayan müstəqilliyin perspektivi çox dumanlıdır.

– Elçin müəllim, gəlin sənət, yaradıcılıq söhbətindən bir qədər aralanaq. Sizin fərdi dünyanıza «səyahət» edək. Məsələn, be-

lə bir sual: Milli ifaçılığımızda ən çox sevdiyiniz üç kişi, üç də qadın müğənninin adını çəkin.

– Bülbül, Xan Şuşinski, Qədir Rüstəmov, Hacıbaba Hüseynov... Amma deyəsən, dörd oldu. Yavər Kələntərli, Şövkət Ələkbərova, Rübabə.

– Tarzən?

– Bəhram Mansurov.

– Əgər ən çox sevdiyiniz Azərbaycan bəstəkarını soruşsaydım, yəqin ki, Üzeyir bəyin adını çəkərdiniz?

– Elədir.

– Bəs xarici bəstəkarlardan?

– Şopen.

– Rəssam?

– Pikasso.

– Kinorejissor?

– Fellini.

– İndiyəcən baxdığınız kinofilmlər arasında Sizə ən çox təsir edəni?

– Berqmanın «Çiyələk talası» filmi.

– Sevdiyiniz fəsil?

– Payız.

– Mən az da olsa, «Odlar yurdu» qəzetində işləmişəm. Və bilirəm ki, «Vətən» Cəmiyyəti Azərbaycan həqiqətinin dünyaya yayılmasında çox işlər görüb, mühacirətin, xüsusən, müsavatçıların, Azərbaycan Xalq Cümhuriyyəti ideyası ilə fəaliyyət göstərənlərin nümayəndələri ilə Azərbaycan arasında əlaqələrin yaranmasında böyük rol oynayıb. Elə gərgin vaxtlarınız olub ki, siz yuxarılarla dava etmisiniz, aşağılar isə Sizi başa düşməyib. Bunlar nə vaxtsa yazılacaqmı?

– Sağlıq olsun!

– Elçin müəllim, maraqlı müsahibə üçün, çox sağ olun.

*Müsahibəni Cavanşir Yusifli apardı.*
*1993.*

## «AH, PARİS, PARİS!..»

Elçin (Əfəndiyev Elçin İlyas oğlu) müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış ictimai xadimdir. 1943-cü il mayın 13-də Bakıda anadan olub.

Elçinin «Bir görüşün tarixçəsi» («Gümüşü furqon»), «Dolça», «Toyuğun diri qalması», «Poçt şöbəsində xəyal» povestləri, «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanları yalnız Azərbaycanın yox, digər ölkələrin də ədəbi ictimaiyyətinin diqqətini cəlb etmiş, onlar haqqında çoxlu məqalə yazılmışdır. Onun yaradıcılığına xas olan psixoloji dərinlik, təhkiyə əlvanlığı, tarixi fəlsəfi zənginlik, qələmə aldığı mövzuların milli səciyyəsi, özünəməxsus yazı mədəniyyəti və texnikası Elçinin əsərlərinin həmişə böyük maraqla qarşılanmasına səbəb olan cəhətlərdir. Yazıçının lirikası ən incə insani hissləri bədii cəhətdən parlaq ifadə etmək bacarığı, müxtəlif tipli xarakterlər qalereyası yaratması, ciddi sosial-ictimai və əxlaqi problemlər qaldırması onu dünyanın bir çox ölkələrində də məşhur etmişdi. Əsərləri rus və keçmiş SSRİ xalqlarının dillərinə, həmçinin ingilis, fransız, alman, ispan, türk, fars, ərəb, macar, çex, slovak, bolqar və digər dillərə tərcümə edilib. Elçinin əsərləri əsasında beş-altı bədii film, bir çox sənədli filmlər çəkilib.

Elçin çoxlu elmi-nəzəri, ədəbi-tənqidi məqalələrin, «Tənqid və nəsr», «Üzeyir Hacıbəyovun publisistikası» monoqrafiyalarının, ümumiyyətlə, 30-dan çox kitabın müəllifidir. Bu kitabların ümumi tirajı 5 milyonu ötmüşdür.

Yazıçı qələmini tərcümə sahəsində də sınamış, Avropa və Amerika yazıçılarının əsərlərini dilimizə çevirmişdir.

Hazırda Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyəti rəyasət heyətinin sədridir. Filologiya elmləri namizədi, əməkdar incəsənət xadimidir.

– Elçin müəllim, əvvəlcə Sizi oxucularımız adından 50 yaşınızın tamam olması münasibətilə təbrik edirik. Eşitmişik Milli Dram Teatrı Sizin «Ah, Paris, Paris!..» adlı ilk komediyanızı tama-

şaya hazırlayır. 50 yaşda birdən-birə komediya. Bu «bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır» fikrinin təsdiqidirmi?

– Bəlkə də. Axırıncı irihəcmli əsərimin – «Ölüm hökmü» romanımın yaranmasından üç il keçir. Ötən müddətdə irihəcmli əsərlər yazmamışam. Yaradıcılıq psixologiyasının bir faktı kimi qeyd edim ki, 90-cı ilin yanvar hadisələrindən sonra mən daxilən tamam sarsılmışdım. Əlimə qələm götürüb nəinki hekayə, heç məktub da yaza bilmirdim. Birdən-birə haçansa oxuduqlarımı bir daha təzədən oxumağa başladım. «Robinzon Kruzo»dan, C.Londonun əsərlərindən tutmuş, L.Tolstoyun «Hərb və sülh»ünə, Dostoyevskinin əsərlərinə, Şekspirin faciələrinəcən. Sonra nədənsə Molyerin əsərlərini tərcümə etməyə başladım. Hərçənd bu əsərlər vaxtilə dilimizə çevrilib. «Skapenin kələyi»ni, «Jorj Danden»i tərcümə etdim. Molyer yaradıcılığı haqqında, Fransa-Azərbaycan ədəbi əlaqələri haqqında bir məqalə yazıb çap etdirdim, Molyerin kitabını nəşrə hazırladım. Bundan sonra əlim yavaş-yavaş qələmə yatmağa başladı.

Etiraf edim ki, mənim fikrimdə, düşüncəmdə də elə bil, bir təbəddülat yarandı. Deyəsən, özümüz-özümüzü çox tərifləmişik, içi mən qarışıq, Koroğludan, Babəkdən, Qaçaq Nəbidən, Həcərdən çox danışmışıq. Bununla da elə bil ki, sayıqlığımızı itirmişik. Elə bil ki, Azərbaycan ədəbiyyatında Mirzə Cəlil, Sabir ənənələri qiymətdən düşməyə başlayıb.

Xalqın ziyalısı olmaq, yalnız xalqı təriflməklə kifayətlənə bilməz. Sabirin bir tərifli sözü varmı? Amma gəlin görək bu xalqı onun qədər kim sevib? Sabirin yazdıqlarının arxasında böyük bir xalq sevgisi, vətəndaşlıq qeyrəti dayanmasaydı, əlbəttə, onun sözlərini xalqa təhqir kimi qiymətləndirmək olardı. Halbuki onun hər sözü bizim əvəzsiz mənəvi sərvətimizə çevrilib. Mirzə Cəlilin xalq məhəbbəti, vətən yanğısı olmasaydı, «Ölülər» yazılardımı? Əlbəttə, mən özümüzü onlarla müqayisə etmək fikrində deyiləm, sadəcə olaraq, «Ah, Paris, Paris!..» komediyasının necə meydana çıxdığını demək istəyirəm. O komediya yana-yana, ağrıya-ağrıya yazılıb. Bu əsər mənim dramaturgiyada ilk təcrübəmdir. Doğrudur, əvvəllər «Poçt şöbəsində xəyal» adlı bir dramatik povest yazmışdım, çap olundu, başqa dillərə tərcümə edildi, amma bizdə səhnə taleyi uğurlu olmadı, dedilər ki, mücərrəddi, bədbindi... İndi bilmirəm «Ah, Paris, Paris!..» necə qarşılanacaq, amma

teatr məni özünə çox çəkib və «Teatr» adlı yeni bir komediya da yazmışam.

– Uzun illər Siz çox gərgin və məhsuldar işləmisiniz. Buna öyrənmiş oxucular Sizdən hər dəfə yeni bir əsər gözləyir. Tez-tez televiziya ilə çıxış edirdiz, görüşlər keçirirdiz. Amma son vaxtlar elə bil Sizi az-az görürük.

– Bunun da bir əsas səbəbi var. İndi konkret iş görmək vaxtıdır. Yazıçı yazı mizinin arxasında oturub yazmalıdır. Məncə, yazıçı ilə oxucu arasındakı əsas ünsiyyət vasitəsi onun əsərləri, kitablarıdır.

Uzun illərdən bəri elə bir gün olmayıb ki, nəsə yazmayım, qeyd eləməyim. Olubsa da, necə deyərlər, üzrlü səbəblərə görə olub.

Mən lap erkən yaşlarından yazıçı olmaq istəmişəm, yazmışam, özü də bu işə sözün həqiqi mənasında çox ciddi yanaşmışam. Doğrudur, həyatımda müxtəlif mərhələlər olub. Gənclik illərində bəzən hamını inkar etmişəm ki, hər bir yazıçı öz xalqının tarixi və taleyi kontekstində qiymətləndirilməlidir.

Bu gün Azərbaycanda günahsız qanlar tökülür, müharibə gedir. Çoxları yazıçılardan dövrün bədii inikasını tələb edir. Bu tələbi, belə bir mənəvi ehtiyacı başa düşmək çətin deyil, lakin səbirsizlik də etmək olmaz. Həyat özü belə bir mənəvi tələbat doğurur və doğuracaq. Azərbaycan faciəsi böyükdür. Ancaq bu faciə mövzusu aktualdır deyə, yazıçı bir sənətkar kimi daxilən dolmayıbsa, istedadının dərəcəsi ona imkan vermirsə, Xocalı yaxud Kəlbəcər faciəsini qələmə ala bilməz. Bu faciələr haqqında zəif, gəldi-gedər əsər, səni müvəqqəti məşhur edəcək əsər yazmaq olmaz, çünki həmin faciə qəhrəmanlarının ruhu qarşısında gözükölgəli olarıq. Onlar haqqında yüksək istedadla yazılmalıdır. Gözümüzün qabağında baş verən bugünkü faciələrin ehtiva dairəsi, miqyası elə böyükdür ki, hadisələri zaman süzgəcindən keçirmədən, onları tam mənada əxz etmədən bədii təsvirini vermək çətindir. Bu miqyas Şekspir, Tolstoy, Mirzə Cəlil qələmi tələb edir. Bu şərəfli vəzifə kimin boynuna düşəcək – o da Allahın işidir. Mövzu arxasında gizlənmək yazıçıya müvəqqəti şöhrət gətirsə də, ədəbiyyatımıza sanbal verə bilməz.

Napoleon Moskvanı da tutmuşdu. Həmin müharibə haqqında isti-isti çoxlu əsərlər yazılmışdı. Amma o müharibənin ən dolğun, fəlsəfi təsvirini verən «Hərb və Sülh» romanı görün neçə il

sonra yazılıb. Müharibə qəhrəmanlarını yetirən xalq, yazıçını da yetişdirəcək, geci-tezi var. Mənə elə gəlir ki, bu müharibənin dəhşətlərini Xocalıdan, Şuşadan, Laçından, Kəlbəcərdən, ümumiyyətlə, Qarabağdan, Ermənistandakı torpaqlarımızdan didərgin düşən, o faciələri yaşayan qaçqın uşaqlar arasından çıxacaq, gələcək yazıçılar daha dəqiq, daha dolğun yazacaqlar.

– Bu gün Azərbaycanda ədəbi proses necə gedir?

– Bu gün bizdə ədəbi proses yox dərəcəsindədir. Bunun bir çox səbəbi var. Torpağımızda müharibə gedir. Bu müharibədə böyük dövlətlərin marağı var. Azərbaycan dünya siyasətinin nəhəng dalğaları arasında xırdaca bir gəmiyə bənzəyir. Ölüm-dirim mübarizəsidir. «Belə bir vaxtda mədəniyyət uğrunda mübarizə yersiz görünmürmü?» – sualına mənim cavabım belədir: Azərbaycan mədəniyyəti uğrunda mübarizə – torpağımızın bütövlüyü, respublikanın müstəqilliyi uğrunda mübarizənin tərkib hissəsi olmalıdı. Mədəniyyətsiz müstəqillik yoxdur, ədəbiyyatsız müstəqillik yoxdur.

Hazırda Azərbaycan ədəbi prosesində ürəksıxan bir mənzərə var. Misal üçün, ədəbiyyatımızda, xüsusən, poeziyada elə bir istedadlı yeni nəsil yaranır ki, tamamilə ədəbi yetimlik vəziyyətindədir, baxımsızdır. Söhbət heç də əvvəlki illərdə olduğu kimi, komsomol himayəsindən, ideoloji istiqamətləndirmədən getmir. Söhbət ondan gedir ki, gənc ədəbi qüvvələrin yazdıqları diqqətdən kənar qalır, təhlil olunmur, ədəbi tənqid onların kim olduğunu oxuculara və lazım gəldikdə özlərinə başa salmır. İstedad belə bir vəziyyətdə tam üzə çıxa bilmir. Belə davam etsə, ədəbi meyarlar tam itə bilər, antisənət sənəti üstələyər. Ədəbiyyatımıza yeni simaların gəlməsi, ədəbi prosesin sırf ədəbi-estetik meyarlar baxımından düzgün istiqamətləndirlməsini tələb edir.

– İndi keçmişin üstündən kor-koranə xətt çəkmək meyli var. Siz öz yaradıcılığınızda nələrdən imtina edərdiniz?

– Ötən 70 ildə dilimizin, elmimizin, sənətimizin inkişafını danmaq olmaz və lazım da deyil. Azərbaycan mədəni inkişaf səviyyəsinə görə bütün müsəlman ölkələri arasında irəlidə gedən respublikalardan biri, bəlkə də birincisidir. Bu həqiqətən də belədir. Amma ötən 70 ili səciyyələndirən bir cəhət məni çox narahat edir. Bu da şəxsiyyətin formalşması və o dövrə xas mənəvi riyakarlıqdır. İctimai əxlaq pozğunluğu elə bir səviyyəyə çatmışdı ki, hətta qədim Roma imperiyasının süquta uğradığı dövrdə də belə

şey olmayıb. Bir var şəxsi əxlaq, bir də var, ictimai əxlaq. Mötəbər məclislərdə, yüksək tribunalardan hamı yüksək materiyadan, ideyalardan danışır, amma dalda başqa cür hərəkət edirdi. Biz hamımız belə bir cəmiyyətin övladlarıyıq. Ona görə hər şeyin və hamının birdən dəyişməsi mümkün deyil. Əlbəttə istisnalar var, amma söhbət külldən gedir.

Bu ümuminin, bu küllün psixologiyasının dəyişməsi üçün illərlə vaxt lazımdır. İndiki keçid mərhələsində həm küllün, həm də fərdlərin necə dəyişməsindən çox şey asılıdır.

İndi bir növ tövbə vaxtıdır. Mən bədii əsərlərimin heç birindən imtina etmirəm. İndiyədək yazdığım bədii əsərlərdə elə bir şey yoxdu ki, onun xəcalətini çəkim.

Ədəbi-tənqidi məqalələrimdə də heç vaxt güzəştə getməmişəm.

O tənqidi məqalələr sistemə yox, ədəbiyyata xidmət edib. Amma elə «cari» publisistik yazılarım olub ki, onlardan imtina edərdim. Amma o vaxt o «cari» yazılar olmasaydı, digər yazılarımı da çap etdirə bilməzdim. 50 yaşın yüksəkliyindən baxanda, ictimai fəaliyyətimdə də üz qızardan bir hərəkətim olmayıb və xahiş edirəm bunu qeyri-təvazökarlıq hesab etməyin.

– Rəhbərlik etdiyiniz «Vətən» Cəmiyyətinin fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?

– Mən Yazıçılar İttifaqının katibi vəzifəsində çalışırdım və nə gizlədim, çox yüksək vəzifələr, kreslolar təklif olundu, amma mən «Vətən» Cəmiyyətini seçdim. Çünki burada xalqıma nəsə bir xeyir verəcəyimi görürdüm. 1987-ci ilin dekabrından «Vətən» Cəmiyyətində işləyirəm. Bu illər ərzindəki fəaliyyətimin xalqın marağı baxımından görünməyən tərəfi görünən tərəfindən çox olub.

Azərbaycan mühacirəti istilahı çox geniş məfhumdur. Azərbaycan mühacirəti mühacirat sözünün ensiklopedik mənasına sığmayan olduqca mürəkkəb, amma böyük potensial imkana malik bir qurumdur. Məqsəd və vəzifə də heç bir çətinliyə baxmadan, bəzən də şayiələrin yaratdığı xəstə atmosferin təziyqinə uymadan həmin potensiyanı üzə çıxarmaq, millətin mənafeyi naminə effektli istifadə etməkdir.

O vaxt hələ Kommunist Partiyası, DTK hakimiyyətdə idi. Biz, necə deyərlər, gəmidə oturub gəmiçi ilə dava edirdik. Təsəvvür edirsinizmi, o vaxt mühacirətdə olan Azərbaycan hökumətinin

sədri, Ankaradakı Azərbaycan Milli Mərkəzinin rəhbəri doktor Məhəmməd Kəngərlini Bakıya dəvət etmək nə demək idi? Amma biz onu Bakıya gətirə bildik. Hazırda Azərbaycan rəhbərliyində çalışan Nihad bəy Çətinqayanı, Cəmil bəy Ünalı da Azərbaycana ilk dəfə «Vətən» Cəmiyyəti dəvət edib. Vaxtilə, «Odlar yurdu» qəzetində ilk dəfə Azərbaycan Demokratik Respublikasının liderlərini təbliğ etmək, onların işıqlı ənənələrindən danışmaq asan deyildi. İndi asandır...

– İctimai fəaliyyət yazıçı Elçinə nə dərəcədə mane olur?

– Vaxt mənasında olduqca çox. Mütaliə etməyə də vaxt olmur. Etiraf edim ki, yeni əsərləri istədiyim qədər oxuya bilmirəm. Amma yazmaq lazımdır, çünki sənin yazacağını başqası yazmayacaq. Səndən yaxşı yazacaq, amma sənin yazdığını yazmayacaq.

Atam bir dəfə kitabxanasındakı dünya klassiklərinin əsərlərini mənə göstərib dedi ki, onlar yazandan sonra bizim yazmağımızın bir mənası varmı? Bu sadə sual doğrusu, məni çox düşündürdü. Yenə də əvvəlki fikrimi təkrar edirəm ki, hər bir yazıçı ilk növbədə öz xalqının yazıçısı olmalıdır və öz xalqından yazmalıdır.

– Mətbuatda və son zamanlar yazılan bədii əsərlərdə vətənpərvərlik, millilik hisslərini gücləndirmək üçün müxtəlif üsullara əl atırlar. Sizə elə gəlmirmi ki, bu gələcəkdə milli eqoizm yarada bilər?

– Mən totalitar rejim dövrü deyilən vaxtlarda da dəfələrlə yazmışam, bir də təkrar edirəm ki, milliliyin fövqündə, millilikdən kənarda bəşərilik yoxdur. Sənətin, ədəbiyyatın böyüklüyü ondadır ki, öz doğma xalqının ifadəsindən, yəni millidən bəşəriliyə doğru yüksəlsin. Əks halda kosmopolitizm yaranır. Dünyada elə bir böyük yazıçı yoxdur ki, o kosmopolit olsun. Onlar ilk növbədə məxsus olduqları xalqın arzu və istəklərinin ifadəçisidir.

Ötən illərin eybəcərliklərindən biri də o idi ki, millilik elmə məhkum edilmişdi. Mücərrəd bir sovet adamı, mücərrəd bir sovet ədəbiyyatı termini yaranmışdı. Mən o vaxt da yeri düşəndə deyirdim, ədəbiyyat dildə yaranır. Sovet dili varmı ki, o dildə də ədəbiyyat yaransın? Milliliyi irqçiliklə eyniləşdirmişdilər. Millilik nədir? Öz xalqının təəssübünü çəkmək. Öz millətini sevmək onu başqasından üstün tutmaq demək deyil. Lakin milli hisslərdən, milli dəyərlərdən sui-istifadə etmək olmaz. Bu hisslər müqəddəsdir. Bu sahədə indiki mətbuatımızın fəaliyyəti ilə razılaşmaq ol-

maz. Təəssüf ki, indi bizim bir çox qəzetlərimizə xırda hisslər hakim kəsilib. Qəzet hansısa bir qrupun intiqam almaq, qara yaxmaq alətinə çevrilir. Əlbəttə bunu bütün qəzetlərə aid etmək olmaz. Mirzə Cəlilin dahiyanə sözlərini yada salaq: «İndi qələmlə təşəxxüs satmaq vaxtı deyil».

– Bahalıq, qıtlıq mənəvi sərvətlərdən bəhrələnməyə də təsir göstərir. Kitab nəşri getdikcə çətinləşir. Bu həm mədəniyyətin inkişafına, həm mədəni mübadilənin genişlənməsinə, həm də yazıçıların dolanışığının pisləşməsinə səbəb olur. Mədəniyyətdə xəsislik hansı nəticələr verə bilər?

– Bu çətin keçid mərhələsində biz heç olmasa maarif məsələlərinə ciddi fikir verməliyik. Latın qrafikalı əlifba ilə oxumağa başlayan balalarımız üçün, təcili olaraq o əlifbada ədəbiyyat nəşr etdirməliyik. Mən qorxuram bu sahədə ləngiyək. Acı nəticəsi isə gələcəkdə özünü göstərəcək....

Kitab nəşri doğrudan çox çətinləşib. Ona görə görünür bu işə dövlət qayğısı daha artıq tələb olunur. Mədəni mübadilə isə həm tərcümə işini yaxşılaşırmaq, həm də bu sahədə yeni kadrlar yetişdirməyi tələb edir.

– Bu gün biz bir xalq, bir millət olaraq, nəyi itirməkdən daha çox qorxmalıyıq?

– Mənə elə gəlir ki, əsrlərin süzgəcindən keçib gələn milli dəyərləri itirməkdən, ən çox da ictimai əxlaqsızlığın davam etməsindən qorxmalıyıq.

– Yaxın vaxtlarda biz Sizin hansı əsərlərinizi oxuya biləcəyik?

– «Fikrin karvanı» kitabından sonra oxuculara çox qiymətli bir kitab da təqdim etmək arzusundayam. Ona görə qiymətli deyirəm ki, onu özüm yazmamışam, tərtib etmişəm, elmi redaktoruyam. «Karvan yola düzülür» adlanan həmin kitab Orxon-Yenisey abidələrindən üzü bu yana Azərbaycan yazılı abidələri və yazıçıları haqqında oçerklərdən ibarətdir. Bu kitaba görkəmli qələm sahiblərinin məxsusi yazılmış oçerkləri daxildir. 50 çap vərəqi həcmindədir. Amma düz 8 ildir ki, işıq üzü görmür.

«İsmayıl» adlı bir tarixi roman üzərində işləyirəm. Şah İsmayılın nəvəsi II İsmayılın həyatından bəhs edən bir əsərdir. Tarix mənim üçün şərtidir. Romanda iki əsas problem var – insan xisləti (Allah nələrə qadirdir!) və Azərbaycan dövlətçiliyi ənənələrinin yaranması.

«Dəlixanadan dəli qaçıb» adlı bir komediya üzərində də işləyirəm.

– 50 yaşın tamamında bir insan kimi düşüncələrinizi nə məşğul edir?

– Bir hekayə yazmışdım, «Ədəbiyyat qəzeti»ndə dərc olunub. Bir nəfər müdriklərdən birinin yanına gəlib deyir ki, mən qonşuma yaxşılıq edirəm, əvəzində pislik görürəm, neyləyim? Deyir, get, yaxşılıq elə. Bir də gəlir, deyir ki, mən yaxşılığı eləyirəm, amma qonşum pislik eləməyindən qalmır. Müdrik deyir: «Get, ona yenə yaxşılıq et!» Aradan bir müddət keçir. O adam yenə müdrikin yanına gəlir ki, mən daha qonşuma yaxşılıq eləməkdən yoruldum, o isə yenə pisliyindən əl çəkmir, neyləyim? Müdrik deyir: « O pislik eləməkdən yorulmur, bəs necə olur ki, sən yaxşılıq eləməkdən yorulursan?» Yadıma belə bir hekayət də düşdü. İki ovçu təbiətin qucağında həyatın gözəlliyindən, Həzrət Süleymanın neçə yüz il yaşamasından danışıb gileylənirlər ki, 60-70 il nə ömürdür ki, bizim payımıza düşüb. Çəməndə gülə bir kəpənək qonubmuş, bunu eşidəndə: «–Ey, naşükür insan!...» fikirləşib uçub gedir. O kəpənəyin ömrü cəmi bir gün idi...

Hərdən belə şeylər haqqında fikirləşirəm. İnsan xisləti yaşa dolduqca mənim üçün bir müəmmaya çevrilir. İnsan necə alicənab, necə xeyirxah ola bilər? Eyni zamanda, insan necə riyakar və simasız ola bilər? Bu xislətin insan deyilən bir varlıqda cəmləşməsinə heyrətlənməyib, neyləyəsən?

*Müsahibəni yazdı Q.Qəribov.*
*1993.*

## «HƏQİQƏT SONRA MƏLUM OLACAQ...»

- Elçin müəlllim, biz bilirik ki, Siz ədəbiyyatla bağlı bütün yazıları oxuyursunuz. «Yol» qəzetinin artıq 26 nömrəsi çıxıb. Oxumadığınız nömrə olubmu?

- Elə bilirəm ki, bütün nömrələri oxumuşam. Hətta mən Bakıda olmayanda da, evdə «Yol»u da, başqa qəzetləri də (abunədən əlavə) alıb yığırlar və qayıdanda bir neçə gecə qəzet oxumaqla məşğul oluram. Qəzet də ki, Allaha şükür, həddən artıq... Unudulmaz dostum – Allah min rəhmət eləsin! – Araz Dadaşzadə cavanlıq vaxtlarında səhər tezdən köşkdən qəzetləri alırdı, evə qayıdıb onları oxuyanacan səbri çatmırdı, küçədə ayaq saxlayıb divardan asılmış elə həmin qəzetləri tələsik gözdən keçirirdi... Mən də uzun illərin eləcə «qəzetçisiyəm». Yaxşı yadıma gəlir, lap uşaqlıqdan köşkdə oturub qəzet-jurnal satanlara həsədlə baxırdım: bu adamlar istədikləri vaxt istədikləri jurnalları oxuya bilirlər, şəkillərinə baxırlar... 7 nömrəli məktəbin birinci sinfində oxuyurdum. Umra müəlliməmizin sinifdə apardığı «Böyüyəndə kim harda işləmək istəyir?» – sorğusuna mən, «Qəzet köşkündə işləmək istəyirəm!» – cavabını vermişdim.

– Bir çox yazıçılar siyasi azadlığa münasibətlərini bildiriblər. Onlardan bir qrupu (məsələn, L.Tolstoy) siyasi azadlıq ideyasını, ümumiyyətlə, qəbul etmir və bəşəriyyətin xilasını mənəvi təkmilləşmədə görürdülər. Siyasi azadlığa Sizin münasibətiniz?

– Siyasi azadlıq Sizin dediyiniz həmin «mənəvi təkmilləşməyə» ucaldan pillələrdən biridir və bu mənada onları bir-birindən ayırmaq, təcrid etmək, elə bilirəm ki, düz deyil. Elə qoca Tolstoyun özünün nəhəng irsi bunu sübut edir. Əlbəttə, siyasi əsarət altında da hər hansı bir şəxsin mənəvi təkmillik əldə etməsi mümkündür (tarixi təcrübəsi göz qabağındadır!), amma məsələ burasındadır ki, siyasi azadlıq mənəvi təkmilləşməyə aparan yolda münbit zəmin yaradır, faciələri, sarsıntıları, əzabları azaldır ki, artırmır. Adətən deyirlər ki, siyasət və mənəvi yüksəklik bir-birlərinə zidd anlayışlardır və olsun ki, bu iddiada bir həqiqət də var. Amma o biri həqiqət də var ki, bəzən siyasət

də, mənəvi yetkinlik də eyni şəxsiyyətin timsalında təcəssümünü tapır.

Misal üçün?

– Misal üçün elə XX əsr tarixinin M.Handi hadisəsi!

– Elçin müəllim, Siz hələ Ayaz Mütəllimovun dövründə AMİP-in yaradıcılarından biri, hazırda isə onun Siyasi Şurasının üzvüsünüz. Bütün bunlar yazıçı kimi sizə mane olmurmu?

– Dərd burasındadır ki, dünyada çox az şey tapmaq olar ki, yazıçıya mane olmasın: eyş-işrətdən, firavanlıqdan tutmuş kasıbçılığacan, işsizlikdən tutmuş vəzifəyəcən!.. Dərindən fikirləşsən görərsən ki, dünyada az qala hər şey yazıçıya maneçilik edir. Amma, eyni zamanda, o hər şey» yazıçıya lazımdı və yazıçıya kömək edir. Burada təhtəlşüur məsələsi də var ki, yazı-pozu işinin mühüm xüsusiyyətlərindən biridir.

– Hər halda Sizin AMİP-də olmağınız oxucuların da, xüsusən, sənət adamlarının da diqqətini cəlb etdi, ümumi maraqla qarşılandı.

– Ola bilər...

– Sutkamız 24 saatdır. Bu 24 saat içərisində nisbəti nəzərə alsaq, daxilən özünüzü daha çox siyasətçi hesab edirsiniz, yoxsa yazıçı?

– Əlbəttə yazıçı!

– Elçin müəllim, biz bilirik ki, Siz ən çox mütaliə edən sənətkarlarımızdan birisiniz. Bu gün ən çox haqqında fikirləşdiyiniz, əsərlərini yenidən vərəqlədiyiniz, yaşamağa Sizə kömək edən, dadınıza çatan bir Azərbaycan yazıçısının, dünya ədəbiyyatı nümayəndələrindən birinin və bir də rus yazıçısının adını çəkin.

– Cəlil Məmmədquluzadə (və Sabir!). Rus ədəbiyyatından beş il bundan əvvəl yəqin ki, Dostoyevskinin adını çəkərdim, bu gün isə Lev Tolstoy. İkinci bir ad çəkmək lazım olsaydı – Çexov (amma ilk növbədə dramaturq Çexov!). Dünya ədəbiyyatından da beş il bundan əvvəl çox güman ki, başqa ad çəkərdim, amma bu gün üçün: Şekspir.

– Siz bu vaxta qədər bədii əsərlərinizlə «Yol»da çıxış etməmisiniz – baxmayaraq ki, haqqınızda yazılar gedib – bu nədən irəli gəlib? Ümumiyyətlə, bu Sizi narahat edirmi?

– Bu suala ən düzgün cavab yəqin o olar ki, son zamanlar yazdıqlarımdan birini sizə təqdim edim və mən də bunu çox

həvəslə edirəm. Özü də indi fikirləşirəm ki, «Su» adlı bu yazı mətbuatımızda, elə bil, elə «Yol» üçün nəzərdə tutulub.

– Çox sağ olun, məmnuniyyətlə çap edəcəyik. İndi isə belə bir sual: Sizcə mövzu nə deməkdi? Sizi ən çox narahat eləmiş və hal-hazırda narahat edən mövzu haqqında nə deyə bilərsiniz? Bu gün Azərbaycan ədəbiyyatında Sizin yazdığınız mövzuya daha çox kim toxunur?

– Sualınıza sualla cavab verirəm: yazıçı kimdir? Mən bu suala dəfələrlə cavab vermişəm və təbii ki, heç bir yeni Amerika kəşf etməmişəm: yazıçı o bədbəxt insandır ki, ağ vərəqlə üzbəüz oturub qələmi ilə özünü ifadə edir. Mənim üçün kənd mövzusu, şəhər mövzusu, məhəbbət, qəhrəmanlıq, nə bilim, pambıq mövzusu, neft mövzusu,  tarixi mövzu yoxdur, həmin özünüifadə var. Yaxın keçmişimizdə o qədər «sahə mövzusu» arxasında gizlənib bədii-estetik cəhətdən bərbad yazıları nəşr və təbliğ ediblər ki!.. Eləcə mövzu arxasında gizlənməyin nəticəsiydi ki, «əsərin» qəhrəmanı insan yox, traktor olurdu, dəzgah olurdu, plan olurdu, Sov.İK MK-nın deyək ki, camışçılığı inkişaf elətdirmək üçün qərarı olurdu... Və o əsərlər sosializm-realizm ədəbiyyatının parlaq nümunəsi kimi, dərsliklərə salınırdı, Stalin mükafatları alırdı, haqqında doktorluq (!!) dissertasiyası yazılırdı... Bu mənada mənim mövzumda məndən başqa heç kim yaza bilməz. Necə ki, mən də başqasının yazdığı yazını yaza bilmərəm, çünki mən o deyiləm, özüməm və onu heç zaman ifadə edə bilmərəm. Bir sözlə, mənim üçün mövzu fərdi yazıçı özünüifadəsinin bir hissəsidir.

– İndicə Siz yazıçıya «bədbəxt insan» dediniz. Bunu təsadüfən belə dediniz? Şəxsən siz özünüz necə, bədbəxt insansınız?

– Hər halda yəqin ki, xoşbəxtlik səmalarında üzən adam deyiləm... Ümumiyyətlə, məncə, xoşbəxtlik, bədbəxtlik məfhumları və bu qəbildən olan başqa məfhumlar (yaxşılıq, pislik, xəyanət, sədaqət və s.) tamam nisbi səciyyə daşıyır və bu həqiqətə olan bir nisbətdir. Həqiqəti bilmədən, həqiqəti dərk etmədən, bu məfhumların da cavabı yoxdur.

– Hansı həqiqəti?

– Biz kimik, yaxud nəyik? Həyat nədir? Dünya nədir? Həm də söhbət poetik suallardan getmir, yoxsa ki, bu cürə poetik sualları Nəsimidən tutmuş Bəxtiyar Vahabzadəyəcən bizim

poeziyamızda çox veriblər. Söhbət sırf realist, hətta mən deyərdim ki, praqmatik suallardan gedir. Bu suallara cavab verəcək həqiqət bizə yəqin ki, sonra məlum olacaq.

– Sonra, yəni nə vaxt?

– Biz öləndən sonra. Bu dünyada elm nə qədər inkişaf edir, etsin, sənət gəlib Şekspir, Füzuli, Rafael zirvəsinə çatsın, fərqi yoxdur, həmin suallar cavabsızdır. Mənim gənclik dostum var idi, Rafiq Qurbanov, mərhum Osman Sarıvəllinin oğlu. Universitetin fizika fakültəsində oxuyurdu və onunla söhbətlərimiz əsnasında mənim həyat, varlıq haqqındakı suallarımı fizika teoremləri ilə çox sadə izah edirdi, o suallara fizikanın dili ilə cavab verirdi. Sonra Rafiq Moskvaya aspiranturaya getdi, müvəffəqiyyətlə müdafiə edib orada qaldı, istedadlı bir alim kimi fizikanın fəlsəfəsi ilə məşğul olmağa başladı və bir dəfə görüşümüz, həmişəki söhbətlərimiz zamanı etiraf etdi ki, fizika fəlsəfəsinin dərinliklərinə getdikcə başa düşürsən ki, əslində, fizika heç nəyi izah etmir və acizdir. Mən tamam əminəm ki, həyat sadəsi ilə, mürəkkəbi ilə bərabər, başdan-başa bir sirri-xudadır! Və bu sirr açıldıqca (mən inanıram ki, açılacaq!), yalnız o biri dünyada açılacaq...

– Elçin müəllim, bəs, dövrlə bağlı yazılara necə baxırsınız? 80-ci illərin əvvəllərində mifik dünyaya maraqla paralel Sizin «Mahmud və Məryəm» romanınız meydana çıxdı. Sonra «Ağ dəvə» romanınız yarandı. Son zamanlar isə «Ölüm hökmü» romanınız nəşr edildi və oxucular tərəfindən də, tənqidçilər tərəfindən də yüksək qiymətləndirildi. Bu əsərlər daxili ehtiyacdanmı, yoxsa dövrün tələbindən meydana gəlib?

– Mənə elə gəlir ki, bu iki cəhəti də bir-birindən ayırmaq lazım deyil. Daxili ehtiyac yoxdursa və əsər yalnız dövrün tələblərindən irəli gəlirsə, bu – konyukturadır. Konyuktura nə sosializmə baxıb, nə kapitalizmə, nə də feodalizmə, həmişə olub, var və təəssüf ki, həmişə də olacaq. Yox, əgər əsər yalnız təcrid olunmuş bir daxili ehtiyacın nəticəsidirsə, dediyiniz «dövrün tələbləri» tamam sərf-nəzər edilibsə, burada da yəqin nəsə çatışmayacaq. Çox güman ki, ilk növbədə canlı nəfəs...

– Şelli deyirdi: «Şairlər dünyanın qeyri-rəsmi qanun yazanlarıdır». Sizcə bu gün yer kürəsində kim gələcəyin qanunlarını yazır?

– Hər halda Azərbaycan parlamenti deyil!.. Əgər ciddi cavab

versəm, o qanunları yazanın yer üzündə kim olduğunu deyə bilmərəm, amma göydə Allahdı.

– Sizin İlyas Əfəndiyev yaradıcılığına münasibətiniz?

– İlyas Əfəndiyev yaradıcılığına münasibətim çox müsbətdir və mən həmişə o yaradıcılıqdan öyrənirəm.

– Klassik Azərbaycan poeziyasında ən çox sevdiyiniz və tez-tez xatırladığınız ilk misra?

– Aşıq Bəstinin qoşmasından iki misra:

Qoca cadugərdir, aldadar səni,
Cavanlıq donunda qalan bu dünya!..

– Bəs bizim gənc şairlərimizin son vaxtlar çap etdirdikləri şerlərdən yadınızda qalan misralar varmı?

– Lap elə Sizin qəzetin builki birinci nömrəsində Tofiq Qaraqayanın şerindəki bu iki misra xoşuma gəldi:

Qəfəsdən sonra da torlar, tələlər,
Açarlar, kilidlər, nə bilim, nələr...

– Uşaqlıqda ən çox sevdiyiniz əsər?

– Azərbaycan nağılları, «Robinzon Kruzo», bir də Mark Tvenin «Şahzadə və dilənçi» romanı. İndi dedikcə, başqaları da yada düşür.

– Misal üçün?

– Misal üçün, «Başsız atlı» romanı. Yadıma gəlir, bu romanı həm rusca, həm də rəhmətlik Cabbar Məcnunbəyovun gözəl tərcüməsində, azərbaycanca azı on beş-iyirmi dəfə oxumuşam... Qəhrəmanlarının adı, epizodlar, indiyə qədər təfərrüatı ilə yadımdadı. Bu yaxınlarda təzədən götürüb oxumaq istədim, amma o uşaqlıq, yeniyetməlik təəssüratına qayıtmadım və kitabı bir kənara qoydum.

– Sizin yaradıcılıq dairəniz çox genişdir. Romanlar, povestlər, hekayələr, ssenarilər, elmi monoqrafiyalar, yüzlərlə məqalə, tərcümələr... Amma yenə də maraqlıdır, necə oldu ki, birdən-birə klassik yapon poeziyasından tərcümələr etdiniz və onları elmi şərhlərlə ilk dəfə Azərbaycan dilində nəşr etdirdiniz?

– Bizim hörmətli alimlərimizdən biri deyirdi ki, filan romanı oxudum, birtəhər romandı, heç özüm də bilmirəm ki, nə təhər ro-

mandı... İndi o rəhmətliyin sözü olmasın, mən heç özüm də bilmədim ki, nə təhər oldu? Təkcə onu deyə bilərəm ki, səhv etmirəmsə, 1978-ci il idi, bərk soyuqlamışdım, yüksək hərarətlə yorğan-döşəkdə yatırdım və «Nərgizin bircə ləçəyi» adlı o kitabı yorğan-döşəkdə başladım və 11 gündən sonra, yorğan-döşəkdə də bitirdim. Əlyazmasını ilk dəfə unudulmaz Teymur Elçin oxudu. İstifadə etdiyim məxəzlərin də çoxunu onun şəxsi kitabxanasından götürmüşdüm...

– Elçin müəllim, biz bilirik ki, bu il Sizin əlli illiyiniz olacaq. Belə bir ərəfədə keçirdiyiniz hissi yazıçı Elçin bir sözlə ifadə edə bilərmi?

– Heyrət! Bu mənada ki, doğrudanmı söhbət artıq mənim əlli yaşımdan gedir?!.

– Siz çox işgüzar bir yazıçısınız. Oxucularımız üçün maraqlıdır, yeni nə yazmısınız?

– Keçən ilin lap son günlərində iki yazı bitirdim: «Ah Paris, Paris!..» adlı bir komediya. Akademik Milli Dram teatrımızın bədii Soveti əsəri artıq tamaşa üçün qəbul edib və görkəmli rejissorumuz Vaqif İbrahimoğlu yaxın günlərdə məşqlərə başlayacaq. İkinci yazı isə «Klassik aşıq poeziyasında «Dünya» obrazı» adlı bir işdir və Allah qoysa, bir az başım açılan kimi, nəzərdən keçirib çapa verəcəyəm.

– Elçin müəllim, nəhayət sonuncu sual: Sizinlə bu müsahibəyə hazırlaşarkən məlum oldu ki, «Yol» qəzetinin altı əməkdaşından dördünə Siz bu və ya başqa şəkildə kömək etmisiniz, «uğurlu yol» yazmısınız və s. Belə yazıçılar arasında yetmişinci illərdə də ədəbiyyata gələnlər var, səksəninci illərdə də. Arıq tamam yeni imzalara rast gəlirik və onlar yeni bir nəslin gəlməsindən xəbər verir. Bu barədə düşünəndə hansı hissləri keçirirsiniz?

– Bu gün bir tərəfdən min bir fitnə-fəsadlı qəsbkar irticasına məruz qalmışıq, işğallara düçar oluruq, millət övladının günahsız qanı axır... O biri tərəfdən də... Qorxuram bu müsahibəni çox bədbin qurtaraq, amma soruşursunuz, mən də hissiyyatımı deyirəm: elə bil ki, ədəbi yetimlik dövrü başlayıb...

– Müsahibə üçün Sizə təşəkkürümüzü bildiririk.

*Müsahibəni Fəxri Uğurlu apardı.*
*1993.*

## DÜNYA TANISIN AZƏRBAYCANI

Çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və orijinal yaradıcılıq yolu olan görkəmli yazıçımız Elçin bu gün hər birimizin yaddaşına təkcə öz nəsri, ədəbi fəaliyyəti ilə deyil, ictimai-siyasi hadisələrə münasibətdə seçilən, dünyaya səpələnmiş qəriblərimizin yurd həsrətini sinəsinə çəkərək ayrılan yolları birləşdirməyə, qaranlıq talelərə işıq salmağa çalışan fədakar bir İnsan – əsl vətəndaş kimi də daxil olub. Hər bir sənətkarın görünən və görünməyən həyatı var. Yazıçı Elçinin görünür həyatı istəkli oxucular, – sizin rəflərinizdə sıralanmış kitablarıdır. Aldığımız çoxsaylı məktublarda siz yazıçının müxtəlif əsərlərindən ürək dolusu söhbət açır, xüsusən də müəllifin təzə kitabı «Ölüm hökmü» barəsində öz müsbət fikirlərinizi bildirirsiniz. Bu gün oxuyacağınız bu yazıda biz sizə istedadlı yazıçı ilə apardığımız müsahibəni təqdim edirik. Əlbəttə, burada söhbət Elçinin yaradıcılığından getmir. Məqsədimiz onun nisbətən görünməyən həyatından – «Vətən» Cəmiyyətindəki fəaliyyəti ilə bağlı bəzi məqamları, fikirləri sizə çatdırmaqdır. Vətənsizlər üçün «Vətən» çırağı yandıran bir cəmiyyətin müqəddəs amalından söz açmaq bizimçün də xoşdur. Deyək ki, müsahibə vaxtı aldığımız məlumatlar bizi bəzən mütəəssir etsə də, sevindirməyə bilmədi. Azərbaycanı dünyaya tanıtmaq, dünyadakı azərbaycanlıları da Azərbaycana tanıtmaq – bu, adicə əlavələr demək deyil, yurdsevərlikdir, vətəndaşlıqdır. Bütün mədəni-siyasi əlaqələrin mayası bu məhəbbətdən, bu qeyrətdən yoğrulmalıdır. İndiki halda «Vətən» Cəmiyyəti həm körpüdür, həm bələdçi, həm də təbliğatçı.

– Elçin müəllim, «Vətən» Cəmiyyətinin gördüyü işlərdən az-çox xəbərdarıq. Dünyaya səpələnmiş azərbaycanlıların taleyində yandırdığı çırağın şöləsindən çox zülmətlərə işıq düşüb. Bizim qəzetin oxucuları üçün məhz bu barədə danışmağınızı xahiş edirik.

– Cəmiyyət üç ildir ki, fəaliyyət göstərir. İdarəçilikdə biz sıfırdan başladıq. Ən əsası isə bizim heç bir idarəçilik ənənələrimiz yox idi (Ermənistanda isə belə bir cəmiyyət otuz ildən artıqdır ki, fəaliyyət göstərir, həm də Dövlət Komitəsi səviyyəsində...) və

çətinlik bunda idi ki, Azərbaycan diasporunun özünün də vətənlə əlaqə yaratmaq, birlikdə vətən təəssübü çəkmək baxımından ənənələri yox idi. Mən bu işə böyük romantik-vətənpərvərlik hissləri ilə başlamışdım və bu gün qəzetimizin oxucuları qarşısında etiraf edirəm ki, həmin romantikadan əsər-əlamət də qalmayıb. Nə üçün? Çünki bu üç ildə mən başa düşmüşəm ki, bu işdə o vətənpərvərliklə bərabər romantika yox, sərt bir realizm vacibdir. Biz yalnız hissiyyata qapılmaqla, Arazın qarasına deyinməklə, ah çəkib göz yaşları axıtmaqla heç nə edə bilmərik. Biz ilk növbədə Azərbaycanı tanıtmalıyıq, onu dünya ictimai-siyasi fikrinin subyektinə çevirməliyik. Azərbaycan mühacirəti arasında mütəşəkillik yaratmalıyıq. Axı, o mühacirət də bizim öz içimiz kimi, çox mürəkkəbdir. Azərbaycan dilinə və Azərbaycan müstəqilliyinə yuxarıdan aşağı baxan həmvətənlərimiz də var, bu Azərbaycan birliyini inkar edənlərimiz də, Azərbaycan üçün canlarını belə əsirgəməyən, xalqımızı, dilimizi qəlbən sevən və öz övladlarına da sevdirən, ömründə Bakıda, Gəncədə, Naxçıvanda, Şuşada olmayan, amma yatanda yuxularında Bakını, Gəncəni, Naxçıvanı, Şuşanı görən həmvətənlərimizlə bərabər, buqələmun kimi cildini dəyişib lazım gələndə fars, lazım gələndə mücərrəd avropalı, lazım gələndə də azərbaycanlı olan həmvətənlərimiz də var... Ümumi mənzərə haqqında təsəvvür yaratmaqdan ötrü Azərbaycan diasporunun qısa təsnifatını vermək istəyirəm. Bu mühacirəti şərti olaraq dörd nəslə ayırmaq lazımdır. Birinci nəsil – o adamlar ki, keçən əsrin sonlarından, bizim əsrin əvvəllərindən mühacirətə getmək məcburiyyətində qalıb və onların arasında adi kəndlilər də var idi, müxtəlif peşə sahibləri də, görkəmli ziyalılar da (Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev...). Erməni basqınlarından, qırğınlarından qaçıb əsas etibarilə Türkiyəyə pənah aparan azərbaycanlılar da həmin birinci nəslə mənsubdur. Bu nəslin törəmələri Türkiyədə də, qismən Avropa ölkələrində də yaşamaqdadır (məsələn, Ə. Hüseynzadənin oğlu rəssam Səlim Turan Parisdə yaşayır). İkinci nəsil – o adamlar ki, Azərbaycan Demokratik Respublikasının məhv edilməsindən sonra, mühacirliyə məhkum oldular. Mühacirətimizin bu nəsli də adi kənd camaatından tutmuş Məmməd Əmin Rəsulzadə, Ceyhun bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşov və başqaları kimi böyük qələm sahiblərini, siyasi və ictimai xadimləri ehtiva edirdi. Bu nəslin də böyük hissəsi Türkiyədə, qismən Fransada, digər Avropa ölkələrində

yerləşdi. Mən Cənubi Azərbaycanın adını çəkmirəm, ona görə ki, Şimaldan Cənuba pənah aparmış azərbaycanlılar mühacirət adlana bilməzlər, çünki vətəndən-vətənə köçüblər. Üçüncü nəsil – o adamlar ki, II Dünya müharibəsindən sonra, stalinizmin qorxusundan vətənə qayıda bilmədilər. Məlumdur ki, müharibədə üç fəlakət baş verə bilər: insan həlak olar, yaralanar və əsir düşər. SSRİ əsir düşənləri düşmən hesab etdi və əsir düşmüş azərbaycanlılar da güllələnmək qorxusundan, Sibir qorxusundan, öz doğma adamlarını təhlükə altına qoymaq qorxusundan Vətənə dönmədi və müxtəlif ölkələrə səpələndi: Almaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, İsveç... Bu talesiz insanların böyük bir qisminə Türkiyə sahib çıxdı, onlara kömək etdi. Nəhayət, dördüncü nəsil – əsas etibarilə Cənubi Azərbaycandan – xüsusən, son on ildə – xarici ölkələrə köçüb getmiş azərbaycanlılar. Birinci və ikinci nəslin indi yalnız törəmələri yaşamaqdadır. Üçüncü nəsildən də az adam qalıb və qalanların da ürəyi nisgillə doludur. Mən onların bir çoxu ilə görüşmüşəm və bu yerdə doğrudan da qəhərlənməmək mümkün deyil. Nə isə... Bu bədbəxt nəslin də törəmələri Avropanın bir sıra ölkələrində, ABŞ-da yaşayırlar, amma bu törəmələrin çoxunun anası alman, fransız, italyan olduğu, uzun müddət də Vətəndən xəbərsiz yaşadıqları üçün onlar daha artıq dərəcədə alman, ingilis, fransızdırlar, nəinki azərbaycanlı, Azərbaycan mühacirətinin əsas kütləsini dördüncü nəslin nümayəndələri təşkil edir və onların da böyük əksəriyyəti gəncdir, fəhləlik edir, taksi sürür, eyni zamanda, təhsil alırlar. Düzdür, bizim mühacirətdə professorlardan İren Məlikova (Fransa) və Turxan Gənceyi (İngiltərə), Həsən Cavadi və Şapur Ənsari (ABŞ), rəssamlardan Əkbər Behkalam və İbrahim Ehrari (AFR) və başqaları kimi görkəmli elm, sənət xadimləri də var və onlar da az, ya çox dərəcədə Vətənlə əlaqələrin inkişafında rol oynayırdılar, lakin ümumi vəziyyət belədir ki, Azərbaycan mühacirəti hələ güclü bir institut kimi, yaşadıqları ölkələrdə lobbi kimi formalaşmamışdır. Bax, əsas məsələ bu institut, bu lobbini yaratmaqdır. Bəzən mənə deyirlər ki, sizin cəmiyyətiniz mədəni əlaqələr cəmiyyətidir, belə məsələlərlə nə işiniz var? Mən də deyirəm: bəyəm mədəniyyət anlayışı vətəndaşlıq anlayışından kənardadır? Siyasi əqidəsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq biz mühacirətimizin Azərbaycan təəssübkeşliyində birliyə, vəhdətə nail olmalıyıq. İçərimizdə olduğu kimi, mühacirətimizdə də çox təəssüflər ki, məna-

sız çəkişmələr var. Bəzən yad ölkələrdə özləri zəhmət çəkirlər, Azərbaycan cəmiyyəti düzəldirlər, amma bir-birləri ilə yola getmədikləri üçün həmin cəmiyyət heç bir fəaliyyət göstərmir... Mən bütün bunları ona görə açıq deyirəm ki, belə məsələləri bir-birimizdən gizlətmək xalqımıza baha başa gəlir. İndi gizlətmək yox, açıq demək və real şəkildə iş görmək vaxtıdır.

– Azərbaycan tarixi onun qoynunda yaşayanlara düzgün öyrədilməyib. Bəs xaricdə yaşayan azərbaycanlıların öz millətləri, vətənləri, kök-soyları haqqında məlumatları necədir? Sizin rəhbərlik etdiyiniz Cəmiyyət bu sahədə nə kimi işlər görür?

– Mən iyirmi ildir deyirəm, yazıram ki, gəlin özümüz-özümüzə qapanmayaq, Azərbaycanı təbliğ etməyin, onu dünyaya tanıtdırmağın konkret və effektli yollarını müəyyənləşdirək və həmin yollardan istifadə edək. Hələ İngiltərə, Yaponiya bir tərəfdə qalsın, biz Azərbaycanın həqiqi mədəniyyətini, həqiqi tarixini, Moskvanın, özündə təbliğ edə bilmişikmi? Yox. Əlbəttə, bunun bir səbəbi də ondadır ki, öz tariximizi də, mədəniyyətimizi də düzgün işıqlandıra bilməmişik, çox zaman yalan həqiqəti üstələyib. Dərd burasındadır ki, bizim mühacirətimiz də (əlbəttə istisnalar var) bir küll halında Azərbaycana yaxşı bələd deyil. Xüsusən, dördüncü nəslin nümayəndələri Şimali Azərbaycanın yeni tarixini, Azərbaycan Demokratik Respublikası varlığını, buradan doğan ənənələri, erməni – Azərbaycan münasibətlərinin təfərrüatını, Türkiyə ilə Şimal arasındakı münasibətlərin əsasını yaxşı bilmirlər. Biz bütün görüşlərdə bu məsələlərə toxunuruq, nə qədər imkan varsa ədəbiyyat göndəririk. Bu işə beynəlxalq orqanları cəlb etməyə çalışırıq. Misal üçün, keçən il biz Berlindəki Dünya Mədəniyyət Evinin vasitəsilə Almaniyada Azərbaycan Mədəniyyəti həftəsi keçirdik və həmin günlər, əslində, tariximizin də, mənəviyyatımızın da böyük və obyektiv təbliğinə çevrildi. Xaricdə yaşayan azərbaycanlılar öz tariximizi bilməlidirlər, buna söz yox, amma biz istəyirik ki, azərbaycanlı olmayanlar da Azərbaycanı tanısınlar və bu işdə bütün vasitələrdən istifadə etməyə çalışırıq. İlk dəfə olaraq gözəl və qeyrətli müğənnimiz Zeynəb xanımın iştirakı ilə Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatında xeyriyyə konserti təşkil etdik və bu, bir çox ölkələrin rəsmi dairələrinin diqqətini Azərbaycana cəlb etdi.

– Bir şeyə kənardan baxanda onu daha aydın, olduğu kimi görmək, nisbətən asandır. Bu mənada dünyaya yayılmış qəriblə-

rimiz öz vətənləri üçün hardasa «kənar» adamlardılar. Bu «yad», uzaq baxışlarda Azərbaycan necə görünür?

– Biz çalışırıq ki, o yadlığı doğmalaşdıraq, o uzaqlığı yaxınlaşdıraq. Bu işdə Azərbaycan mühacirətinin görkəmli nümayəndələrinin də köməyindən istifadə etməyə çalışırıq, onları axtarıb tapırıq, necə deyərlər kəşf edirik, respublikamıza dəvət edirik. Azərbaycan Milli Mərkəzinin sədri Məmməd Əmin Rəsulzadənin silahdaşı doktor Məhəmməd Kəngərli (Türkiyə), Məmməd Əmin bəyin təşkil etdiyi Azərbaycan kültür dərnəyinin genel sekreteri Əhməd Qaraca (Türkiyə), İstanbuldakı Azərbaycan cəmiyyətinin başqanı Nihad Çətinqaya, Strasburqdakı Azərbaycan Cəmiyyətinin rəhbəri doktor Əhməd Mehribani Təbrizi, ABŞ-dakı türk lobbisinin prezidenti doktor Gəzən, Los-Anjelesdə Azərbaycan cəmiyyətinin rəhbərlərindən biri Həsən Əlipur və bir sıra digər görkəmli siyasi və ictimai xadimlər ilk dəfə «Vətən» Cəmiyyətinin dəvətilə respublikamıza gələ bildilər. Məşhur rəssamlar Əkbər Behkəlam, İbrahim Ehrari (AFR), Davud və Əyyub İmdadyan qardaşları (Fransa), professorlardan Sərvər Tanılı və İren Məlikova (Fransa), Turxan Gənceyi və Qulamrza Təbrizi (İngiltərə), jurnalist Nurəddin Qərəvi və yazıçı Yücel Feyzioğlu (AFR), məşhur fotomüxbirlər Rza Diqqəti (Fransa) və Azər xanım Təbrizi (İngiltərə), qarmonçalan Rəhman və müğənni Zurufçu... Bu adamların, onlarca başqalarının Azərbaycana gəlişi məhz siz dediyiniz mənada effektli nəticələr vermişdir.

– İndi dillər əzbəri olan «Ayrılıq» mahnısını da ilk dəfə televiziya ilə Siz göstərmisiniz...

– Elədir. Düzdü, indi bizi yaddan çıxarıblar, amma əsas məsələ budur ki, obrazlı şəkildə desək, «Ayrılığ»ın populyarlığı ayrılığı azaltmağa başladı... Qarabağ hadisələri, doxsanıncı ilin Qara yanvarı bizim mühacirəti Vətənə qat-qat artıq dərəcədə yaxınlaşdırdı, böyük bir oyanma prosesinə təkan verdi. Biz özümüz də mühacirəti daha artıq dərəcədə tanımağa başladıq. «Vətən» Cəmiyyəti bu işdə əlindən gələni etdi və edir. Bu isə bəzən xoşa gəlmir, şayiələr yaydırılır... Onsuz da bizim həm daxildə, həm də xaricdə problemlərimiz, çətinliklərimiz çoxdur. Amma nə edəsən? İki yol var: ya gərək çəkilib oturasan bir kənarda və Sabirin ölməz misrasını özün üçün həyat devizi seçəsən: «Millət necə tarac olur, olsun, nə işim var?!», ya da gərək ruhdan düşməyəsən, başını aşa-

ğı salıb bu ağır sınaq günlərində xalq üçün, Vətən üçün əlindən gələni əsirgəməyəsən.

– Xarici ölkələrin ali məktəb və elm mərkəzlərində Azərbaycanın qədim və orta əsr tarix üzrə mütəxəssislərin hazırlanmasını və təcrübə keçməsini təmin etmək mümkün olacaqmı?

– Əlbəttə, belə bir iş baş tutsaydı, gözəl olardı. Amma «Vətən» Cəmiyyəti bu yerdə heç nə edə bilməz. Bizim valyutamız yoxdu ki, təhsil üçün xaricə tələbə göndərək. Mühacirətimiz də erməni mühacirəti kimi zəngin deyil ki, bu işi öz boynuna götürsün. Bu vacib məsələ ilə başqa əlaqədar təşkilatlar məşğul olmalıdırlar.

– Xaricdə yaşayan azərbaycanlıların respublikamızda ali təhsil almaları üçün ilk addımlar atılıbmı?

– Bəli. Və sizdən gizlətmək istəmirəm ki, mən bununla fəxr edirəm. Bu üç ildə çox böyük çətinliklərlə ona nail omuşuq ki, bir sıra ali məktəblərimizdə, o cümlədən Tibb İnstitutunda, Politexnik İnstitutunda, Neft və Kimya İnstitutunda xaricdən gətirdiyimiz gənc azərbaycanlı qızlar və oğlanlar «Vətən» xəttilə təhsil alırlar. Lakin bu hələ başlanğıcdır və mütləq inkişaf etməlidir.

– Siz xarici ölkələrin siyasi dairələri ilə, misal üçün ABŞ konqresi ilə də əlaqələr yaradırsınız. Məqsədiniz barədə nə deyə bilərsiniz?

– Məqsəd yalnız birdir: Azərbaycan haqqında, onun müasir problemləri barədə saxtalaşdırılmış yox, həqiqi məlumat yaymaq. Mən «Vətən»də işə başlayandan həmişə demişəm ki, bu siyasi təşkilat deyil və çalışmışam da belə olsun. Lakin o yerdə ki, söhbət xalqın ümumi marağından gedir, burada susmaq olmaz. Bilirsiniz ki, ABŞ senatının Xarici İşlər Komissiyası Dağlıq Qarabağla əlaqədar çox birtərəfli qərar qəbul etmişdi. O zaman mən ABŞ senatına məktub yazmışdım və senatdan, yaxud konqresdən nüfuzlu bir nəfərin Dağlıq Qarabağla bağlı obyektiv məlumat əldə etməsinə çalışırdım. Nəhayət, həmvətənimiz Ərcümənd Qılıncın vasitəsilə ABŞ-ın məşhur siyasi xadimi, Demokratlar Partiyasının görkəmli üzvlərindən biri, konqresmen Cim Mudi ilə əlaqə yarada bildik və o bizim dəvətimizlə Bakıya gəldi. Bu vacib səfər şəhidlərin məzarının ziyarəti ilə başladı və cənab Mudi respublikanın siyasi vəziyyəti ilə bilavasitə tanış oldu, müxtəlif siyasi dairələrlə görüşdü, Dağlıq Qarabağa gedib hər şeyi öz gözləri ilə gördü və Azərbaycan haqqında, onun tarixi və mədəniyyəti barədə

obyektiv təsəvvür əldə etdi. Konqresmen öz vətəninə böyük və təkrar edirəm, obyektiv, həqiqət necədirsə o cürə təəssüratla qayıtdı. Cənab Mudi Azərbaycanın təcavüzə məruz qaldığının, erməni daşnak millətçiliyinin əyani şahidi oldu və təbii ki, bu barədə ABŞ siyasi dairələrində öz fikrini bildirəcək. Bu, böyük əhəmiyyəti olan səfər idi.

– Bu gün Azərbaycanda bir çox qəzet və jurnallar nəşr olunmağa başlayıb və onların səhifələrində yaxın keçmişimizin, o cümlədən Azərbaycan Demokrtaik Respublikasının tarixi işıqlandırılır. «Vətən» Cəmiyyətinin orqanı «Odlar yurdu» qəzeti bu sahədə hələ üç il bundan əvvəl mətbuatımızda ilk cığırlar salırdı.

– «Odlar yurdu» qəzeti 88-ci ilin ilk aylarından etibarən Azərbaycan Demokratik Respublikasının tarixi və xadimləri barədə yazmağa başladı. O zaman, bu, bir o qədər də asan məsələ deyildi... İndi, əlbəttə, çox fərəhli hadisədir ki, öz tariximiz özümüzə qayıdır və başqa cürə ola da bilməz. Tarixi inkar etmək, gizlətmək mümkün deyil. Onu yetmiş il təhrif edə bilərsən, amma nəhayət bir gün gələcək ki, həyatın dialektik gedişatı o təhrifi yad bir cisim kimi kənara atacaq.

– Vaxtilə müxtəlif yollarla xaricə aparılan və indi də muzey və kolleksiyalarda saxlanılan Azərbaycan sənət incilərini geri qaytarmaq mümkün olarmı?

– Yalnız xaricəmi aparılan? Bəs Ermitajdakı sənət incilərimiz? Bəs Leninqradın, Moskvanın digər muzeylərindəki? Mən hələ Pyotr Matveyeviç Yelistratov kimi partiya «namestnik»lərinin yığıb apardıqlarını demirəm... Dərd burasındadır ki, xaricdəki bir çox böyük muzeylərdə nümayiş etdirilən Azərbaycan sənət inciləri – xalçalarımız, miniatürlərimiz, zərgərlik nümunələri və s. İran-fars və bəzən də erməni sənətinin nümunələri kimi təqdim olunur. Verdiyiniz sualın cavabı müqəddəs bir vəzifə kimi hamımızı düşündürməlidir.

– «Vətən» Cəmiyyəti yarandığı gündən bəri sizin yaddaşınızda yaşayan ən unudulmaz bir görüşdən, hadisədən danışmağınızı xahiş edirəm.

– Yaddaşdan silinməyəcək unudulmaz görüşlər çox olub və onlardan hər hansı birini ayırmaq istəmirəm. Əslində, mühacirlərlə bütün görüşlər unudulmazdır. Mühacir sözünün özündə bir kədər, qüssə var və kədər, qüssə olan yerdə də, təbii ki, səmimiyyət olur. Doğru da səmimi olur, səhv də.

– Yaşadığımız günlərin ovqatı elədir ki, bu «Vətən»in taleyindən izsiz keçə bilməz. Bizim haqq səsimizi dünyaya necə yayırsınız?

– Bu üç ildə dünyanın bir çox ölkələrinin mətbuat orqanlarında, televiziyasında, radiosunda bizim müsahibələr, bəyanatlar verilib. Elə mənim özümün Azərbaycan tarixi, mədəniyyəti, müasir siyasi-ictimai vəziyyəti barədə, o cümlədən Qarabağ haqqında Türkiyənin, ABŞ-ın, Almaniyanın bir çox mətbuat orqanlarında yazılarım çıxıb, radio-çıxışlarım, televiziya müsahibələrim, konfranslarım olub. Qara yanvar günlərində, o vaxt ki, nə televiziya işləyirdi, nə qəzetlər çıxırdı, radioda, ancaq eybəcər bir hala salınmış Azərbaycan dilində komendantın tükürpədən əmrləri oxunurdu və Bakının küçələrində qan axıdılırdı, bax, həmin vaxt «Vətən» Cəmiyyətinin teleksi respublikamız ilə xaric arasında yeganə informasiya vasitəsi idi... Getsin o günlər, bir də gəlməsin!..

– Cəmiyyətinizin maddi çətinlikləri varmı?

– Bəli, var və işimiz bundan əsaslı şəkildə ziyan çəkir. Təkcə elə bunu deyim ki, «Vətən» Cəmiyyətinin yarandığı vaxtdan bu üç ildə biz bir qara qəpik də valyuta xərcləməmişik. Bu da təbii ki, xariclə əlaqələrimiz qarşısında sədd yaradır. Bütün qüvvələrini səfərbərliyə alıb o səddi dəf etməyə çalışan işçilərimizin özlərinin də aylıq maaşı çox azdır. Əlaqədar təşkilatlar binamızın təmirini gecikdirir. Hətta binamıza şərik də çıxmaq istəyənlər var. .. Nə isə! Görünür bu sahədə şərt də elə ondadır ki, çətinliklərə sinə gərəsən.

– Bütün bunlardan sonra oxucularımızı bir sual da maraqlandırır ki, Sizin yazıçı Elçinə münasibətiniz necədir? Bir dost kimi, doğma adam kimi görüşə bilirsinizmi?

– Sizin bu sualınız ustad Molla Cümənin məşhur qoşmasını yadıma saldı:

İsmi Pünhan, niyə məndən
küsübsən,
Dost mehriban ya bir olar,
ya iki.
Bir gün ölsəm hamı deyər
heyifdir,
Canı yanan ya bir olar,
ya iki...

Yazıçı Elçinlə birlikdə yazı mizinin arxasında oturanda hərdən bu misraları ona deyirəm... Dərdləşirik, götür-qoy edirik, mübahisələrimiz olur, təhlil edirik, xatırlayırıq, bəzən hissə qapılırıq, bəzən hirslənirik... Münasibətlərimizin dərininə varmaqdansa, qoyun sizin sualınızdan istifadə edib yazıçı Elçinə arzumu bildirim: Yazmaq, yazmaq və yazmaq! Bu arzunu bildirirəm, amma başqa bir səs də eşidirəm: Vaxt, vaxt və yenə də vaxt!

– «Azərbaycan müəllimi» qəzetinin oxucularına nə arzulardınız?

– Bu müsahibənin sonu deyəsən gətirib bizi gözlənilmədən poeziya aləminə çıxarır, çünki indi də qoca Seyid Əzimin misraları yadıma düşdü:

Bu qədər dərd kim olur
hadis,
Ona bielmlik olur bais.
Bir bəladır bu dərdi
nadani –
Ki, onun elm olubdu
dərmani.

Bu «dərdi-nadani» bəlasının xilaskarı – təbibi indiki halda müəllimdir və mən hörmətli müəllimlərimizə Seyid Əzimin dediyi o dərmandan son dərəcə effektli istifadə etməyi arzulayıram.

– Elçin müəllim, belə məzmunlu, yaddaqalan söhbət üçün sizə öz təşəkkürümüzü bildiririk.

– Siz də sağ olun ki, məni öz oxucularımızla görüşdürdünüz.

*Müsahibəni apardı Flora Xəlilzadə.*
*1993.*

## E L Ç İ N: «QİYMƏTİ TARİX VERƏCƏK...»

– Elçin müəllim, siz hələ yetmişinci-səksəninci illərdə milli mədəniyyətimizin, ədəbiyyatımızın, ədəbi prosesin problemləri ilə bağlı o dövrlər üçün çox cəsarətli, sərt, prinsipial məqalələrlə çıxış edirdiniz. Son zamanlar bu barədə yazırsınız, çıxış edirsiniz. Bu gün Azərbaycan mədəniyyətinin vəziyyəti barədə nə deyə bilərsiniz?

– Bu gün Azərbaycan milli mədəniyyəti milli inkişaf baxımından nəinki yerində sayır, çox yazıqlar ki, o istedadın çatışmazlığı ucbatından yox, güzəran ağırlığı nəticəsində tənəzzül dövrü keçirir və hərgah bu sahədəki yiyəsizlik, biganəlik və bacarıqsızlıq beləcə davam edərsə, yaxın gələcəkdə fəlakətə uğraya bilərik. Milli mədəniyyətin bir kompleks halında inkişafı uğrundakı mübarizə indiki vəziyyətdə, müharibə şəraitində belə Azərbaycan xalqının öz istiqlaliyyəti uğrundakı mübarizəsinin bir hissəsi olmalıdır. Mən axır vaxtlar bu barədə çox demişəm, yazmşıam. Bu prinsip dövlət səviyyəsində əsas götürülməlidir, mədəniyyətin problemləri ilə məşğul olan iqtidar nümayəndələrinin fəaliyyətini səciyyələndirməlidir. Təəssüf ki, belə bir təmayül heç olmasa bir başlanğıc kimi də, hələki, özünü göstərmir. İqtidarın bu sahədə yanğısı duyulmur, fəaliiyyət ehtirası, müdafiə etmək, dəyişdirmək, yenisini yaratmaq şövqü duyulmur. Söhbət mədəniyyət nazirliyinin fəaliyyətindən yox, ədəbiyyatdan tutmuş rəngkarlığacan respublika səviyyəli konseptual mədəniyyət siyasətindən gedir. Misal üçün təhsillə bağlı belə bir ehtiras, istək, yanğı hiss olunur. Mən testlə qəbul məsələsi ilə bağlı Vurğun Əyyubun (onunla yalnız telefon tanışlığım var) çıxışlarına qulaq asanda, məqalələrini, müsahibələrini oxuyanda mülahizələrinin bir qismini qəbul edirəm, bir qismini isə qəbul etmirəm. Dedikləri ilə razılaşdığım da var, razılaşmadığım da, amma bundan asılı olmayaraq fikirlərinin, fəaliyyətinin bünövrəsində məhz həmin vətəndaş ehtirasını, yanğısını hiss edirəm. Məndə inam yaranır ki, bu il çox çətin oldu, gələn ildə yəqin ki, asan olmayacaq. Amma... sonrakı illər üçün artıq tam formalaşmış, heç kimi yamsılamayan sabit bir qəbul sistemi əldə ediləcək, çünki, bünövrə böyük təəssübkeşliklə,

həvəslə qoyulur. Yəni bu fəaliyyətin arxasında millətə yaxşı xidmət edəcək perspektiv görünür. Amma ümumi, milli mədəniyyətimizin inkişafı ilə bağlı iqtidarın əməli fəaliyyətində isə mən bu perspektivi hələ ki, görmürəm. Belə bir vəziyyətin əsas səbəbi məncə, ondan ibarətdir ki, iqtidar Azərbaycan milli mədəniyyətinin inkişaf etdirilməsi ilə bağlı dövlət siyasəti konsepsiyasına malik deyil. Biz bütün bu kəsir cəhətləri bu gün deməliyik ki, sabah gec olmasın.

– Mədəniyyət abidələrimizlə bağlı fikriniz?

– Azərbaycan qədim mədəniyyət abidələri ilə xəttatlıqdan tutmuş, xalçaçılığa və misgərliyə qədər mədəniyyətin bütün sahələrində nadir sənət inciləri ilə zəngin bir ölkədir. Lakin bu gün hərc-mərclik, biganəlik nəticəsində həmin nadir sənət inciləri Azərbaycan muzeylərini bəzəmək, dünya miqyasında millətin qədim mədəniyyətin göstəricisinə çevrilmək əvəzinə, Türkiyədən tutmuş ABŞ-can xarici ölkələrə daşınır və su qiymətinə satılır. Yüz dollar xaricdə nədir? Heç nə. Bizdə isə 50 min rubl deməkdir. Gəlib yüz dolları rubla çevirirlər, xalqın ağır güzəranından istifadə edərək, istədiklərini alıb aparırlar. Xarici ölkə dəllalları, təbii ki, bu satış prosesini davam etdirir və milyonlar qazanırlar. Nəticəsi bu olur ki, misal üçün, Nyu-York metropolunda olduğu kimi Azərbaycan xalçası, Azərbaycan saxsısı erməni mədəniyyəti nümunəsi kimi nümayiş etdirilir. Qədim qəbiristanlıqlardan tutmuş, dağ başındakı qalalaracan torpağımızda mövcud olan abidələr, babalarımızın yadigarları isə tam biganələik nəticəsində qarın-boranın altında məhv olur. Bu ağır vəziyyət əlbəttə, keçmişdən miras qalmışdır. Bəs bu gün iqtidar həyəcanı, harayı hanı? Hanı xüsusi qanunlar paketi? Heç olmasa həmin paketin ortaya çıxması üçün təşəbbüslər hanı?

– Bəs mədəniyyət xadimlərimizin xaricə getməsinə necə baxırsınız?

– Bu gün Azərbaycan mədəniyyət xadimləri öz vətənlərini tərk edib xaricdə ən ucuz kontraktlarla işləməyə gedirlər. Bu cür də davam etsə, çox yaxın gələcəkdə bizim mədəniyyət ocaqlarımız acınacaqlı vəziyyətə düşəcəkdir və bu da təbii ki, milli mənəvi deqradasiya ilə nəticələnəcəkdir. Artıq indinin özündə simfonik orkestrlərimiz dağılmaq üzrədir, opera və balet səhnəsində ağır itkilərimiz var və s. Əlbəttə bu yerdə yalnız «adam nə qədər çətin olsa da, öz Vətənini tərk etməz!»– deyə emosiya ilə, quru

nəsihətçiliklə iş görmək olmaz. Bu vəziyyəti doğuran səbəblər ciddi təhlildən keçirilməli, tədbirlər görülməli (təbii ki, inzibati tədbirlər yox!) münbit zəmin, əlverişli şərait yaradılmalıdır. Bir az da belə getsə, vallah sonra gec olacaq, çox geri düşəcəyəik və bunun da ağrısını-acısını gələcək nəsillər çəkəcək! Deyəcəklər: Ay atalar, ay babalar, nə üçün böyük mədəniyyətimizin qədrini bilmədiniz ? Axı, doğrudan da biz musiqi sahəsində, rəngkarlıqda, ədəbiyyatda, teatr sənətində, müasir dünya miqyasında o nailiyyətləri əldə etmişik ki, başqa qardaş müsəlman ölkələrində, qardaş türk respublikalarında onlar yoxdur! Və bu mübaliğə deyil, həqiqətdir!

– Elçin müəllim, Milli Məclis Azərbaycan Respublikasının dövlət dili haqqında qərar qəbul edib. Biz bu barədə doğma dilimizdə onlarla kitab, yüzlərlə məqalə çap etdirmiş, hekayələr, povestlər, romanlar, elmi monoqrafiyalar müəllifi, yazıçı və tənqidçi-ədəbiyyatşünas Elçinin də fikrini bilmək istərdik.

– Çalışacağam ki, sualınıza qısaca cavab verim. Dilimiz türk dilidir. Və burada mübahisəli heç bir şey yoxdur. Ancaq hansı türk dili? Azərbaycan türk dili! «Azərbaycan dili» ifadəsini qorxunc Stalin inzibatçılığı ilə bağlayırlar və bu barədə böyük həqiqət var: 30-cu illərin ikinci yarısına kimi dilimiz «türk dili» adlanırdı və get-gedə dilimizi də, mənşəyimizi də türk dünyasından təcrid etdilər, «türk» sözündən Sibir qoxusu, barıt iyi gəldi, o yasaq edildi. Amma alimlərimizə burası da məlumdur ki, «Azərbaycan dili» ifadəsinin qədim tarixi var və onu son 55 ilin hadisəsi hesab etmək yalnız ədəbiyyatımızı deyil, ümumiyyətlə, bir millət kimi mənəviyyatımızı kiçiltmək, cılızlaşdırmaq deməkdir. İlkin orta əsr mənbələrinin açıqladığı bir fakt: XII əsrin əvvəlində böyük Azərbaycan ədibi Xətib Təbrizi Məərən-Neyman şəhərindəki məscidlərdən birində öz müəllimi, ərəb filosofu əl-Mərri ilə əsər oxuyurdu. Bu zaman namaz qılmaq üçün bir təbrizli qonşusu məscidə gəlir. Yaqub Həmavinin yazdığına görə Xətib deyir: «Mən qonşumla Azərbaycan dilində çox danışırdım...» Elmi ədəbiyyatda bu faktın şərhi verilib. Azərbaycan ədəbi dilinin, müasir Türkiyədə işlədilən türk ədəbi dilinin, eləcə də  özbək ədəbi dilinin, qazax ədəbi dilinin və s. formalaşması və iqtidar olması türk dünyasını mənən zənginləşdirən çox mühüm amillərdən biridir və onu bundan məhrum etmək lazım deyil və mümkün də deyil. Mənim üçün ən məqbul bu ola bilərdi: Azərbaycan respublikasında

dövlət dili – Azərbaycan (türk) dilidir. «Türk» kəlməsi ilə «Azərbaycan» kəlməsini xətlə birləşdirib («Azərbaycan-türk dili» şəklində) mötərizəsiz də yazmaq olar. Bu halda biz həm Azərbaycan sözünü saxlayardıq, həm də dilimizin-soyumuzun əsasını bərpa edərdik.

– Sədrlik etdiyiniz «Vətən» Cəmiyyəti artıq beş ildir ki, fəaliyyət göstərir və bu fəaliyyət şəxsən Sizin adınızla bağlıdır. Bu gün xaricdə yaşayan azərbaycanlıların bəzisi respublika rəhbərliyində təmsil olunmuşlar. İndi həmin beşillik fəaliyyətə nəzər saldıqda yazıçı Elçin nə fikirləşir, razıdır, təəssüf hissi keçirir, ya necə?

– Gurultulu səslənməsin, amma bu fəaliyyətə obyektiv qiyməti tarix verəcək və yazıçı Elçinin təskinliyi də yəqin elə bundadır. Siz rəhbərlikdə təmsil olunmuş həmvətənlərimizi yada saldınız, qeyri-təvazökarlıq olmasın, amma elə həmin prezident müşaviri hörmətli Nihat Çətinqaya ilə də, hörmətli nazir Cəmil Ünalla da ilkin əlaqələri biz yaratdıq. Hələ 1988-ci ilin əvvəllərində lap təzəcə fəaliyyətə başladığımız dövrdə KQB-nin, Sov.İKP-nin qılıncının dalı da, qabağı da kəsdiyi zaman gəmidə oturub gəmiçi ilə sözün həqiqi mənasında dava edə-edə, Rəsulzadə ənənələrinin ən layiqli davamçılarından biri – Türkiyədəki Azərbaycan milli mərkəzinin sədri Məhəmməd Kəngərlini ilk dəfə Bakıya dəvət edə bildik. Azərbaycanda onu yad həmlələrdən, fitnə-fəsadlardan qoruya bildik və mən özüm onu Moskvadan sağ-salamat, həm də aramızda inidyəcən davam edən qarşılıqlı hörmətlə, mənəvi nailiyyətlərlə Türkiyəyə yola saldım. İndi onunla əlaqə yaratmağa, dostluq etməyə nə var ki? Amma onda... həmin səfərin Azərbaycan Demokratik Cümhuriyyəti ideyalarının da davamçıları, keçmiş təbirlə desək, «qatı antisovet qüvvələrlə» Azərbaycan arasındakı ünsiyyətin çox tutarlı başlanğıcı kimi böyük rolu oldu və Məhəmməd bəy də həmişə bunu xüsusi qeyd edir. Azacıq sonra Ankara Kültür Dərnəyinin dəvətilə Bəxtiyar Vahabzadə, professor Nurəddin Rzayev və mən «Vətən» Cəmiyyətinin rəsmi nümayəndəliyi kimi Türkiyəyə getdik və bu, Azərbaycandan gəlmiş ilk rəsmi nümayəndəlik oldu ki, səfəri Məmməd Əmin Rəsulzadənin qəbrini ziyarəti ilə başladı, həm də gizli şəkildə yox, açıq. Allah o kişiyə rəhmət eləsin, onun silahdaşlarından olan Müsavat Partiyasının və Kültür Dərnəyinin genel-sekreteri, «antisovet və qatı millətçi», «Azərbaycan» jurnalının baş redaktoru Əhməd Qaraca-

nı ilk dəfə Bakıya dəvət etdik. Yəhyə Daşdələni... və ilaxır... 1990-cı ilin yanvarın 20-dən 21-nə və 21-dən 22-nə keçən gecələrdə Azərbaycan ilə xarici aləm arasında yeganə ünsiyyət vasitəsi «Vətən» Cəmiyyətinin teleksi oldu. Həqiqəti öz bəyanatımızla, başqa bəyanatlarla, xəbərlərlə dünyaya yaydıq. Allahşükür Paşazadə həzrətlərinin bəyanatını alandan sonra Pakistan hökuməti bizim teleksimizə istinad edərək yanvarın 22-də Sov.İKP MK Siyasi Bürosuna etiraz notası göndərdi. Az müddət sonra Yanvar hadisələri və erməni irticası barədə obyektiv məlumat vermək üçün ABŞ-ın görkəmli siyasi xadimi, indi iqtidara gəlmiş demokratlar partiyasının liderlərindən biri, konqresmen Cim Budini Bakıya dəvət edə bildik və bu da respublikamıza yüksək səviyyəli ilk rəsmi səfər oldu ki, onu Şəhidlər Xiyabanına apardıq, oranın ziyarəti ilə başladıq... Nə isə...

Mən Vaqifi istedadlı bir jurnalist kimi «Molodyoj Azerbaydjana» qəzetinin redaktoru olduğu vaxtdan tanıyıram və onu istəyənlər də, istəməyənlər də dana bilməzlər ki, söhbət ağıllı adamdan gedir. Mən fikirləşirəm: əgər onun millət qarşısında bu qədər günahı varıydısa, niyə başqaları kimi qaçıb gizlənmirdi? Moskvada komsomolun katibi işləmişdi. Jurnal redaktoru olmuşdu. Xarici İşlər Nazirliyinin məsul işçisi idi, oralarda dost-tanışı çox idi, niyə DTK-dan çıxdıqdan sonra, ailəsini də götürüb, evini-eşiyini də rahatca dəyiş-düyüş eləyib Moskvaya, yaxud başqa bir yerə köçüb getmirdi? Söhbət təkrar edirəm, sadəlöhv birisindən getmir, DTK generalından gedir. Məgər bilmirdi ki, bu qədər günahı varsa onu nə gözləyir? Axı köçüb getmək üçün hər cürə imkanı var idi... İndi isə, təbii ki, istəsə də heç hara gedə biməz. Qoy otursun evində, istintaq isə ən ciddi şəkildə obyektivcəsinə davam etsin, günahı varsa, məhkəmə qarşısında cavab versin, yoxsa da yox. Orasını da qeyd edim ki, bu dediklərim sırf şəxsi mülahizələrimdir.

– Elçin müəllim, hörmətli prezidentimiz Əbülfəz Elçibəy müsahibələrinin birində Azərbaycan xalq hərəkatının xüsusiyyətlərindən bəhs edərək deyir: «Yusif Səmədoğlunun, Anarın, Əkrəm Əylislinin, Elçinin yazıları 60-cı illər ədəbiyyatında birdən qabağa çıxdı, onun böyük müsbət əhəmiyyəti oldu». Bu sözlərə nə əlavə edərdiniz ?

– Əgər bir əlavə varsa, onu gələcək eləyəcək! Allah qoysa, müharibə ədalətlə xeyrimizə sona yetsin, istiqlalımız bərkisin, gü-

zəranımız babatlaşsın, o zaman rahat bir şərait yaranacaq ki, ədəbiyyatımızn da dəyərləri yaxşıca müəyyənləşdirilsin... Hörmətli prezidentimiz isə sağ olsun ki, Azərbaycan ədəbiyyatının elədiklərini diqqətdən kənarda qoymur.

– Elçin müəllim, siz hələ Ayaz Mütəllibovun guruldayan vaxtlarında sərt müxalifətdə olan bir partiyanın – AMİP-in Təşkilat Komitəsinin üzvü idiniz. İndi isə artıq təsis edilmiş həmin nüfuzlu partiyanın rəhbər orqanı olan Siyasi Şurasının üzvüsünüz. Bu cəhət bir yazıçı kimi sizin qələminizin demək istədiklərini mehdudlaşdırmırmı?

– Yox, hər hansı bir məhdudiyyətdən söhbət gedə bilməz. Belə olsaydı, məni kim məcbur edə bilərdi ki, AMİP-in sıralarında olum? Əksinə, bir yazıçı kimi, vətəndaş kimi mənim xalqın gələcəyilə, taleyi ilə, istiqlalımızla bağlı fikirlərim, prinsiplərim AMİP-in ideyaları ilə üst-üstə düşür, bu isə, nə gizlədim, təklik, tənhalıq hissini azaldır...

– Etibar Məmmədovla münasibətiniz?

– Qarışlıqlı hörmətə və səmimiyyətə söykənən bir münasibətdir.

– Elçin müəllim, Siz uzun müddət Yazıçılar İttifaqında işləmisiniz. Yazıçılarımızdan kiminsə elə bir sözü varmı ki, indi o sözü tez-tez yada salasınız, ona riayət edəsiniz?

– Rəhmətlik Əli Vəliyev deyirdi ki, ən böyük biclik düzlükdü!

– Bu il Sizin əlli illiyiniz olacaq. Oxucularımız üçün maraqlıdır, öz əlli illiyi ərəfəsində yazıçı Elçin yeni nə yazmışdır?

– Keçən ilin son günlərində satirik bir pyes bitirdim. Akademik Milli Dram teatrımızda tamaşa üçün qəbul edildi. Quruluşunu çox istedadlı rejissorumuz Vaqif İbrahimoğlu verəcək. Onunla yenicə yaradıcılıq əməkdaşlığına başlamışıq.

– Uğurlu olsun!

– İllah-amin!

– Elçin müəllim, maraqlı müsahibə üçün təşəkkürümüzü bildiririk.

*Söhbəti Taleh Həmid qələmə aldı.*
*1993.*

## YENİ TƏYİNATLAR:

## «DÜNYA SİVİLİZASİYASINDA AZƏRBAYCANIN YERİNİ MƏDƏNİYYƏTİMİZ MÜƏYYƏNLƏŞDİRƏCƏK»

Əfəndiyev Elçin İlyas oğlu (Elçin) 1943-cü ildə Bakı şəhərində anadan olmuşdu. M.Ə.Rəsulzadə adına BDU-nun (keçmiş ADU) filologiya fakültəsini və Azərbaycan EA-nın ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturasını bitirmişdir. Filologiya elmləri namizədi, əməkdar incəsənət xadimidir.

Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, Azərbaycan Yazıçılar İttifaqının idarə heyətinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyəti idarə heyətinin sədri vəzifələrində işləmişdir.

Yazıçıdır, 30-dan çox kitabın, o cümlədən 2 elmi monoqrafiyanın, 300-dən çox elmi məqalənin müəllifidir. Əsərləri bir çox dünya xalqlarının dillərinə tərcümə edilmiş, nəşr olunmuşdur.

Evlidir, 3 övladı var.

– Elçin müəllim, yeni təyinat münasibətilə Sizi təbrik edirik. Hökumət işi oxucuların əlindən onların sevimli yazıçısını almayacaq ki?

– Çox sağ olun. Yazıçı kimdir? Öz yazısı-pozusu ilə xalqa xidmət edən vətəndaş. Amma indi xalqımızın elə bir günüdür ki, yazı ilə edilən xidməti əyani xidmətlə birləşdirmək imkanı varsa, bundan istifadə etmək lazımdır. Bu gün mədəniyyətə, maarifə əməli kömək lazımdır. Qədim və zəngin milli ənənələrimiz olan bu sahələrdə onları bərqərar və inkişaf etdirmək gərəkdir. Bu sahələr dərin böhran içərisindədir. Bu böhran yalnız hansısa nazirliyin yaxşı və ya pis işləməsilə şərtlənmir. (Onlar yaxşı işləməlidir – bu öz yerində!) Respublikada bütün sahələrdə – iqtisadiyyatda da, hərbi sahədə də böhran mövcuddur və təbii ki, bu, mədəniyyətə də, sosial sahələrə də ciddi təsir göstərir. Mədəniyyət, maarif maddi ehtiyac burulğanındadır. Digər tərəfdən də, mənəvi sərvətlərin yaradıcıları maddi ehtiyaclarını həll etmək, özlərini sənətdə, elmdə ifadə etmək üçün xarici ölkələrə gedirlər. Bu da bu

sahələrin zəifləməsi prosesini gücləndirir. Bunlarla ciddi məşğul olmaq lazımdır. Mənim şübhəm yoxdur ki, torpaqlarımız da qaytarılacaq, maddi sərvətlərimizə layiq güzəran da görəcəyik, amma mənəvi sahədə itkilərin – mədəniyyət adamlarının çıxıb getmələri ənənələrin dağılması – bunların ağrısını sonra çəkəcəyik. Bunları sonradan əvəz etmək çox çətin olacaq. Ona görə də mən bu təklifi qəbul etdim və bu vəzifəyə gəldim. Mən bu təklifin məsuliyyətini yaxşı başa düşürdüm. İşin içərisinə girdikcə də bu mənim üçün əyaniləşir. Çalışacağam ki, heç bir siyasi fəaliyyətə uymadan Azərbaycan mədəniyyətinə, maarifinə xidmət edim. Bu da, gurultulu səslənməsin, xalqa xidmətdir. İndi prezident seçkilərini uğurla başa çatdırmalıyıq. Bu seçki cəmiyyətə, nəhayət ki, sabitlik gətirəcək son dərəcə mühüm amildir. Sabitlik şəraitində isə humanitar sahənin problemləri ilə məşğul olmaq daha asan olacaq.

– Humanitar sahənin problemləri deyəndə, yəqin ki, təkcə mədəniyyət və maarifin problemləri nəzərdə tutulmur.

– Mən bu sahələri bir-birindən ayırmaq istəməzdim. Yəni mədəniyyət, maarif, səhiyyə, sosial sahələr, idman, elm – dediyim böhran bunların hamısında özünü göstərir. Mədəniyyət deyəndə də mən yalnız Mədəniyyət Nazirliyinin funksiyalarına aid problemləri nəzərdə tutmuram. Ümumiyyətlə, söhbət Azərbaycan idrakından və mənəviyyatından gedir. Bu sahələrin hər birində ciddi və əsaslı islahatlar aparılmasına nail olmalıyıq. Ellikcə əl-ələ verib çalışmalıyıq ki, Azərbaycan mədəniyyətində bir dirçəliş mərhələsi yaradaq. Azərbaycan mədəniyyətinin inkişafı və onun dünya miqyasında təbliği paralel aparılmalıdır. Bunlar hamısı bir məqsədə, Azəraycan dövlətçiliyinin bərqərar olunmasına, möhkəmlənməsinə xidmət edir. Bu da dünya sivilizasiyasında müstəqil Azərbaycanın yerini müəyyənləşdirən çox mühüm amillərdəndir.

– Çox sağ olun, bu sahədə Sizə və həmfikir bilib arxalandığınız bütün ziyalılara uğurlar arzulayırıq.

*«RESPUBLİKA»*
*1993.*

## AZƏRBAYCAN HƏQİQƏTİNİ DÜNYAYA ÇATDIRA BİLSƏK...

Xəbər verdiyimiz kimi, bu yaxınlarda Pakistanın paytaxtı İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin humanitar məsələlərə həsr olunmuş toplantısı keçirilmişdir. Respublikamızı toplantıda Baş nazirin müavini, yazıçı Elçin təmsil etmişdir. Toplantıda müzakirə olunan məsələlər barədə ətraflı məlumat almaq üçün müxbirimiz Elçin müəllimlə görüşüb söhbət etmişdir.

– Elçin müəllim, Pakistana səfəriniz nə ilə bağlı idi?

– Pakistanda İqtisadi Əməkdaşlıq təşkilatı ölkələrinin humanitar məsələlərə həsr olunmuş konfransı keçirilirdi. Bildiyiniz kimi, bu təşkilat Pakistan, İran və Türkiyə dövlətləri tərəfindən 1985-ci ildə birlikdə yaradılıb. Bundan sonra bu təşkilata Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Tacikistan dövlətləri də daxil olublar. Nəhayət, Əfqanıstan da onların sırasına qoşulub. Təşkilatın yaradılmasında əsas məqsəd birliyə daxil olan ölkələr arasında qarşılıqlı iqtisadi əməkdaşlığı inkişaf etdirib, möhkəmlətmək olub.

Biz konfransa çox ciddi hazırlaşmışdıq. Çünki, İqitisadi Əməkdaşlıq Təşkilatı artıq dünyada nüfuz qazanmaqda, beynəlxalq aləmdə bir qurum, bir təşkilat kimi öz yerini möhkəmlətməkdədir. Digər tərəfdən də bu təşkilat Azərbaycanın beynəlxalq aləmdə sözünü deməsi üçün effektli bir tribunadır. Ona görə də biz bu tribunadan yalnız iqtisadi və humanitar məsələlərdə deyil, bütün sahələr üzrə maksimum istifadə etməliyik. Biz də bunu nəzərə alıb toplantıya ciddi təkliflər paketi ilə getmişdik.

Buraya təhsil sahəsindəki əməkdaşlıq, Azərbaycandakı diplomların, atestatların, sertifikatların beynəlxalq aləmdə tanınması məsələsi, yəni onların ekvivalentinin tapılması və belə bir elmi cədvəlin yaradılması, tələbə-müəllim, professor-müəllim heyətlərinin mübadiləsi, mədəni irs haqqında qarşılıqlı tədbirlər, texnologiya, arxeologiya, biotexnologiya, enerji mənbələrindən istifadə, idman, jurnalistika və s. sahələrdə əlaqələr və digər məsələlər daxil idi. Üç gün çox ciddi müzakirələr keçirildi. Bu müzaki-

rələrin yekunu kimi sonda rəsmi bir sənəd qəbul olundu. Sənəddə bizim bir sıra təkliflər də öz əksini tapdı. Bunlardan bizim üçün ən dəyərlisi Azərbaycandakı hadisələrlə bağlı qəbul olunan hissə idi. Belə ki, yekun sənədində Azərbaycandakı hadisələrə obyektiv qiymət verildi. Yəni Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qalması, onun ərazisinin 25 faizinin təcavüzkar qonşu tərəfindən işğal olunması, Azərbaycan əhalisinin öz torpağından məcburi qaçqına çevrilməsi sənəddə açıq və aydın şəkildə əksini tapdı.

Bu sənədin bizim üçün əsas bir mühüm cəhəti ondan ibarət idi ki, beynəlxalq səviyyələrdə buna qədərki qəbul olunmuş sənədlərin əksəriyyətində yalnız yerli erməni təcavüzündən, yerli erməni işğalından söhbət gedib. Ancaq budəfəki görüşdə biz ona nail olduq ki, cinayətkar öz adı ilə çağırıldı. Yəni torpaqlarımıza olunan bu təcavüz erməni işğalı yox, Ermənistan işğalı kimi qiymətləndirildi. Qəbul olunmuş müraciətin ruhu da öz reallığı və kəskinliyi baxımından razılıq doğurur. Bu hissəyə diqqət yetirin: «komitə Azərbaycan nümayəndə heyətinin Ermənistan tərəfindən törədilən dəhşətli hadisələrlə bağlı çıxışını böyük həmrəylik hissi ilə qəbul etdi. Bu hadisələr nəticəsində mədəni və tarixi dəyərlərin, təhsil sisteminin, sosial və elmi binaların dağıdılması və Azərbaycan xalqının məcburi qaçqınlığa məruz qalması xüsusilə diqqətə səbəb oldu». Beləliklə, məsələyə siyasi qiymət verildi.

Düzdür, bizə qarşı düşmənçilik mövqeyindən olmasa da, bürokratik protokol təəssübü baxımından bir sıra nümayəndələr yekun sənədinə bu hissənin daxil edilməsinə etiraz edirdilər. Əsas da onu göstərirdilər ki, bu görüş humanitar bir toplantı olduğundan hadisələrə siyasi qiymət vermək onun səlahiyyəti, funksiyası xaricindədir və rəsmi sənəddə bunu əks etdirmək düzgün deyil. Məsələ belədir ki, bu görüşlərdə qəbul olunan rəsmi sənədlər yekunda BMT-yə, YUNESKO-ya və digər nüfuzlu təşkilatlara göndərilir. Vəziyyətin ciddiliyini nəzərə alıb mən əlavə bəyanatla çıxış etməli oldum. Bəyanatımın məğzi ondan ibarətdi ki, biz burada oturub elmin problemlərindən, ədəbi irsə verilən qiymətdən, tarixi abidələrimizin bərpasından, idmanın inkişafından və s. humanitar məsələlərdən danışırıq. Bəs, onda əgər bu gün Azərbaycanın işğal olunmuş ərazilərində min illərin məscidləri dağıdılırsa, məktəblər, muzeylər yandırılıb, talan edilirsə, bu vəhşiliklərə münasibət bildirmək siyasətlə məşğul olmaqdır, yoxsa mədəniy-

yətin təəssübünü çəkməkdir? Və yaxud burada danışırıq ki, stadionlar sağlamlıq mənbəyidir, idmanı inkişaf etdirmək lazımdır. Yaxşı, bəs bu gün işğal olunmuş ərazilərdəki stadionlarda Azərbaycan gəncləri məşq etmək, idman yarışları, olimpiadalar, cürbəcür səviyyərlərdə dostluq yarışları keçirmək əvəzinə həmin stadionlarda Ermənistanın təcavüzkar ordusu təlim keçirsə, buna münasibət bildirmək nə vaxtdan siyasətlə məşğul olmaq sayılır?

Həmin çıxışın nəticəsi belə oldu ki, göstərilən hissə yekdilliklə sənədə daxil edildi, mənim bəyanatımın mətni də rəsmi bir sənəd kimi YUNESKO-ya göndərildi.

– Elçin müəllim, Pakistanda başqa səviyyələrdə görüşləriniz oldumu?

– Dediyim kimi, mən Pakistana rəsmi səfər yox, İqtisadi Əməkdaşlıq Təşkilatının toplantısına getmişdim. Lakin buna baxmayaraq, mənim Pakistanda yüksək səviyyədə bir sıra faydalı görüşlərim də oldu. Pakistan İslam Respublikası xarici işlər naziri vəzifəsini həyata keçirən cənab Zahid Səidlə keçirdiyimiz səmimi görüşdə qarşılıqlı əlaqələrimizin inkişafından geniş söhbət etdik. Mən Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibə, Azərbaycan qaçqınlarının ağır vəziyyəti və bir sıra digər məsələlər barədə cənab Zahid Səidə ətraflı məlumat verdim. Eyni zamanda, öz respublikamız adından Pakistan tərəfinə Türkiyədən sonra ikinci dövlət kimi bizim müstəqilliyimizi tanıdıqları üçün minnətdarlığımızı çatdırdım. Çünki, bu elə bir vaxta təsadüf edirdi ki, Azərbaycan öz müstəqilliyi uğrunda apardığı mübarizənin ən dramatik dövrünü yaşayırdı və Pakistanın o zaman bizi müstəqil dövlət kimi tanıması respublikamıza çox böyük siyasi və mənəvi kömək idi. Cənab Zahid Səid də öz tərəfindən bundan sonra da Azərbaycanla Pakistan arasında dostluq, qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün əlindən gələn köməyi əsirgəməyəcəyini bildirdi. Pakistanın xarici siyasətində Azərbaycana hörmətin, məhəbbətin, ehtiramın xüsusi yer tutduğunu söylədi.

Pakistan İslam Respublikasının elm və texnologiya naziri Pərviz Əhməd Battla söhbətimiz də qarşılıqlı əlaqələrin inkişaf etdirilməsindən, tələbə-müəllim mübadiləsindən, universitetlərin, elmi mərkəzlərin bir-biriləri ilə əlaqə yaratmalarından, əməkdaşlıqlarını artırmalarından və s. danışdıq. Pakistanda bu gün əhalinin yalnız 25 faizinin savadlı olmasına baxmayaraq, elm, xüsu-

sən də dəqiq elmlər çox yüksək inkişaf edib. Azərbaycanın da böyük elmi potensiala malik olduğunu nəzərə almaqla ümumi razılığa gəldik ki, hər iki ölkənin qarşılıqlı elmi əlaqəsini artırmaq vacibdir. Bu addım hər iki tərəfə yalnız fayda gətirər.

Digər bir görüşümüz Pakistan hökuməti yanında Elm və Texnologiya Şurasının (bizim Elmlər Akademiyası kimi bir qurumdur ) sədri doktor Altaf Hüseynlə oldu. Burada da qarşılıqlı əlaqələrin inkişafından ciddi söhbət getdi. Mən onu Azərbaycana dəvət etdim. Yaxın vaxtlarda cənab Altaf Hüseyn Azərbaycana gələcək. Bizim Elmlər Akademiyasında danışıqlar aparacaq. Sözsüz ki, onun bu səfərinin Azərbaycanla Pakistan arasında elmi əlaqələrin artmasında böyük köməyi olacaq.

Maraqlı görüşlərimizdən biri İqtisadi Əməkdaşlıq Təşkilatı Baş katibinin müavini Hüseyn Avni Botsali ilə oldu. Cənab Hüseyn Botsali təşkilatın işində fəal iştirak etdiyimiz üçün bizə öz təşəkkürünü bildirdi. İqtisadi Əməkdaşlıq Təşkilatının gələcək inkişafı barədə onunla xeyli söhbət etdik. Söhbət zamanı belə bir məsələdə ortaya çıxdı ki, təşkilat növbəti iclaslarından birini Bakıda keçirsin. Bu məsələ indi öyrənilir. Əgər bu görüş baş tutarsa, bu bizim üçün çox gərəkli olar.

Mən özümlə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Pakistan İslam Respublikası prezidentinə məktubunu da aparmışdım. Toplantı keçirilən müddətdə Pakistanda parlament seçkilərinin növbəti turu keçirilirdi. Həm prezident, həm də baş nazir əyalətlərdə seçki kompaniyasında iştirak etdiklərindən prezidentlə görüşə bilmədim. Heydər Əliyevin məktubunu xarici işlər nazirinə təqdim etdim. Heydər Əliyev məktubunda Pakistan prezidentini Azərbaycana rəsmi dostluq səfərinə dəvət etmişdi. Dəvət böyük məmnuniyyətlə qəbul olundu.

Bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, Pakistanın sadə adamları, Pakistan xalqı arasında Azərbaycana böyük məhəbbətin şahidi oldum. Konfransdan sonra mən orda bir mətbuat konfransı da keçirdim. İstər mətbuat konfransında, istərsə də ayrı-ayrı görüşlərdə Azərbaycana eyni hörməti, səmimiyyəti gördüm.

– Elçin müəllim, mənə elə gəlir ki, bir çox problemlərin həllində, o cümlədən müharibə məsələsində Azərbaycan üzünü daha çox Avropaya tutur. Bu nədən irəli gəlir? İslam aləminin bi-

zim faciələrimizə biganəliyindən, yoxsa burda başqa amillər də rol oynayır?

– Mən sualın bu cür qoyuluşunu qəbul etmirəm. Çünki, bu gün Azərbaycan «erməni militarizmi», erməni millətçiliyi kimi elə bir qorxulu düşmənlə üz-üzə dayanıb ki, bu düşmənə qalib gəlmək üçün o, həm Şərqin, həm Qərbin, ümumilikdə bütün dünyanın sivilizasiyalı ölkələrinin birgə köməyindən istifadə etməlidir. Bu kömək isə ilk növbədə Azərbaycan həqiqətini olduğu kimi dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatının da imkanları böyükdür və ondan istifadə etmək lazımdır. Bu fikri əvvəllər də demişəm, yenə də təkrar edirəm ki, Azərbaycanın öz ərazisi uğrunda mübarizəsində ən böyük müttəfiqi həqiqətdir. Biz həqiqəti olduğu kimi dünya ictimaiyyətinə, dünya ölkələrinin rəhbərlərinə çatdıra bilsək, çox şey qazanarıq. Ona görə də biz həm İslam aləmindən, həm Qərb aləmindən, həm Şərq aləmindən, ümumiyyətlə, bütün dünya ölkələrindən istifadə etməliyik.

– Axı, dünya bu günəcən bizim ağrılarımıza çox biganə yanaşır.

– Məsələ belədir ki, Azərbaycanın problemlərini Azərbaycanın əvəzinə heç kəs gəlib həll edəsi deyil. Öz problemlərimizi özümüz həll etməliyik. Amma bu problemləri həll etməkdən ötrü münbit beynəlxalq şəraitin yaradılması əsasdır. Siyasətimizin də məğzi bundan ibarət olmalıdır.

– Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatından daha nə kimi kömək əldə edə bilər?

– Açığını deyim ki, hələ indiyəcən biz öz qiymətimizi lazımınca ala bilməmişik. Mən bunu cəsarətlə deyə bilərəm ki, bu gün Azərbaycanda simfonik musiqidən, teatrdan, operadan, baletdən, rəngkarlıqdan, ədəbiyyatdan, ədəbi tənqiddən başqa sahələrəcən mədəniyyətin inkişafı ən qabaqcıl ölkələr səviyyəsindədir. Biz hansısa ölkədən təmənnasız yardım ummamalı, bütün bu sahələrdə qarşılıqlı əlaqələrə nail olmalıyıq. Təəssüf ki, indiyəcən hələ də biz özümüz öz qiymətimizi lazımınca dərk etməmişik.

*Söhbəti yazdı İlham Məmmədli.*
*1993.*

## ELÇİN VƏ İLYAS ƏFƏNDİYEV

*Elçinə suallar:*

1. – Elçin müəllim, Sizin nəslinizin kökü barədə atanız «Xəzər»ə verdiyi müsahibəsində danışıb. Aradan 5-6 il keçib. Hər halda Sizdən də bu barədə eşitmək istərdik.

– Əzizim Vaqif, həmin 5-6 ilin bizim nəslin kökünə, aydın ki, heç bir təsiri olmayıb. Mənim bu sözlərimdəki ironiyanın səbəbi odur ki, bu 5-6 ildə bəziləri nəsil bəzəyi ilə məşğul olub; kimisi bəy olub, kimisi xan, kimisi də şahzadə... Neçə ki, təzə böyük şairlər, böyük yazıçılar peyda olub, sən demə bunlar nəhəng ədəbi simalar imiş, qələmləri ilə sovet rejimirnə qarşı ölüm-dirim mübarizəsi aparırlarmış, sovet rejimi gecə-gündüz onların istedadına qarşı min bir fitnə-fəsad törətməkdən ötrü başını sındırırmış, amma bizim indiyəcən bundan xəbərimiz olmayıb, çağdaş ədəbiyyatımızın və ictimai fikrimizin bu böyük xadimlərinin heç adlarını da eşitməmişik... Vallah, Vaqif, bu, «dərə xəlvət, tülkü bəy» məsələsidi. Nə isə, bu başqa söhbətdi. O ki, qaldı sənin sualına, bizim ulu babamız Əhməd Xoça Türkiyənin Kars vilayətindən gəlib, indiki Füzuli rayonunun Saraçıq deyilən yerində kənd salıb və mənim hesablamalarıma görə, bu, XIX əsrin lap əvvəllərinin hadisəsidir. Əhməd Xoca dövrünün nüfuzlu ruhani ziyalılarından olub və ümumiyyətlə, bizim Əfəndiuşağı deyilən nəsil ruhani ziyalı nəslidir. Əhməd Xocanın oğlu Qarabağda məşhur bir şəxs olan Xoca Mustafa Əfəndi olub. Xoca Mustafa Əfəndinin Molla Ağa Məhəmməd və Abdulla Əfəndi adlı oğlanları olub. Mənim ata babam Abdulla Əfəndinin nəvəsi, Məhəmməd Molla Ağa Məhəmmədin oğludur və nəslin ruhani ənənələrindən fərqli olaraq tacir olub.

2. – Sizcə İlyas Əfəndiyev kimi bir yazıçının oğlu olub, sonra yazıçı olmaqla, elə belə adi bir adamın oğlu olub, sonra yazar olmaq arasında bir çiddi fərq varmı?

– Hər şey, şübhəsiz ki, istedaddan asılıdır. Sənin dediyin o «çiddi fərq»i də müəyyənləşdirən amil istedadın dərəcəsidir. Yaxşı bir yazıçının oğlu istedadsızdırsa, çox pis bir yazıçı ola bi-

lər (zorən təbib!), adi bir zəhmətkeşin isə (misal üçün Vaqif, elə sənin atan kimi!) oğlu istedadlıdırsa, yaxşı yazıçı ola bilər (sənin simanda yaxşı şair!) və eləçə də, əksinə. O başqa məsələ ki, yazıçı ailəsində doğulmuş istedadlı adam məşğul olmağa daha artıq münbit zəmin və şərait ola bilər: kitabxana, yaradıçlıq prosesini uşaqlıqdan bilavasitə müşahidə etmək imkanı və s.

3. – Gəncliyinizdə, uşaqlığınızda elə bir şey varmı ki, onu eləmədiyinizə təəssüflənirsiniz?

– Var. Misal üçün, xariçi dil öyrənməmişəm... Yaxud, musiqi ilə çiddi məşğul olmamışam... Mənim bir xalam əri var idi, Əli Axundov, hərbi həkim idi, Müsavat zabiti olmuşdu, sonralar Hərbi Tibb Akademiyasını bitirmişdi, çoxdan rəhmətə gedib. Ondan təsirlənərək uşaq vaxtı beynimə girmişdi ki, məktəbi bitirəndən sonra mən də Leninqrada gedib, həmin Akademiyada oxuyaçağam. Səndən nə gizlədim, elə vaxtlar olur ki, bu istəyimə əməl eləmədiyim üçün, ömrümü ədəbiyyat dediyimiz bir bəlaya həsr etdiyim üçün, heyfsilənirəm. Amma qismətdən artığını əldə etmək mümkün deyil.

4. – Gənclik dostlarınızdan kimlə əlaqə saxlayırsınız?

– Sənin tanıdıqlarının və tanımadıqlarının çoxuyla.

5. – Gündəlik yaşayış, iş rejiminiz haqqında?! Yoxsa elə ciddi bir rejiminiz yoxdu?

– Mənim heç vaxt nə ciddi, nə də qeyri-ciddi rejimim olmayıb. Mən bütün ömrümü rejimsizliyin «parlaq» nümunəsi kimi yaşamışam və ümumiyyətlə, rejim sözündən xoşum gəlmir.

6. – İndiyə qədər yaşadığınız ömrü bir cümlə ilə necə ifadə edərdiniz?

– «Bu da bir Allah qismətidi.»

7. – Siz Axundovun, Əliyevin, Bağırovun, Vəzirovun, Mütəllibovun, Elçibəyin, yenidən Əliyevin hakimiyyətləri dövründə (əgər belə demək mümkünsə) yaşamısınız. Onların hansı mədəniyyətin inkişafına daha çox fikir verirdi?

– Məni bir az çavanlaşdırırsan... Mir Cəfər Bağırovun, İmam Mustafayevin də vaxtında yaşamışam. Düzdü, o zamanlar uşaq və yeniyetmə olmuşam. O ki, qaldı sualının ikinci hissəsinə, çavab verirəm: Heydər Əliyev. Azərbaycanda, misal üçün, Respublika sarayından tutmuş rayonlardakı, kəndlərdəki mədəniyyət evlərinəcən nə qədər mədəniyyət müəssisəsinin tikintisi onun adı ilə bağlıdır?! Təsəvvür elə ki, bu gün Bakıda Respublka Sarayı

yoxdur, yaxud Nəsiminin, Füzulinin, M.F. Axundovun, Cabbarlının, Nərimanovun, nə qədər başqalarının heykəlləri yoxdur, neçə olar? Yetmişinçi-səksəninçi illərdə Bakı keçmiş Sovetlər İttifaqının mədəniyyət mərkəzlərindən biri idi və bu bizim mədəniyyət tariximizin işıqlı faktlarındandır, yetmişinçi illər, səksəninçi illərin əvvəlləri Azərbaycan ədəbiyyatının (və ümumiyyətlə, mədəniyyətinin!) milli və özünüifadəsində mühüm rol oynayıb.

8. – Şəxsən tanıdığınız Azərbayçan yazıçılarından daha çox kim yadınızda qalıb? Nəyinə görə?

– İş elə gətirib ki, mən Azərbaycan ədəbiyyatında Abdulla Şaiq, Əliağa Vahid, Süleyman Rüstəm, Səməd Vurğun, Süleyman Rəhimov, Mehdi Hüseyn, Rəsul Rza, Əbülhəsən, Əli Vəliyev, Məmməd Rahim, Mir Cəlal, Mehdi Seyidzadə, Məmməd Arif, Məmməd Cəfər, Osman Sarıvəlli, Nigar Rəfibəyli, Cəfər Cəfərov, Əhməd Cəmil, Cəfər Xəndan, İmran Qasımov, Zeynal Xəlil, Ənvər Məmmədxanlı, Mirzə İbrahimov, Həmid Araslı, Əbülqasım Hüseynzadə, Məmmədhüseyn Təhmasib, Əziz Şərif, Əli Səbri, Mikayıl Rəfili, Sabit Rəhman, Xudadat bəy Əzizbəyov, Qulam Məmmədli Abbas Zamanov, Mikayıl Rzaquluzadə, Əli Sultanlı, Məmməd Əkbər, Cabbar Məçnunbəyov, Əyyub Abbasov, Mirzəağa Quluzadə, Süleyman Vəliyev, Əkbər Ağayev, Hüseyn Şərifov, Beydulla Musayev, Səttar Axundov, Oruçəli Həsənov, Məmmədağa Sultanov, Məmmədağa Şirəliyev, Əzəl Dəmirçizadə, Rza Şahvələd, Hadi Mirzəzadə, Ələkbər Ziyatay, Müzəffər Nəsirli (qoçaman nəsllə bağlı siyahını bu xadmlərin ədəbiyyat qarşısındakı xidmətlərinin böyük-kiçikliyindən asılı olmayaraq, istedad dərəçəsinə ayırmadan, bilərəkdən beləcə geniş təqdim edirəm) və başqaları kimi yaşlı nəsil nümayəndələrini ta uşaqlıq vaxtlarımdan şəxsən tanıyıram, bu rəhmətliklərin böyük bir qismi ilə Yazıçılar İttifaqında on iki il katib işlədiyim müddətdə yaxın təmasda olmuşam, əməkdaşlıq etmişəm, bir qismi ilə də aramızdakı böyük yaş fərqinə baxmayaraq şəxsi dostluğumuz, yaxınlığımız olub (Məmməd Çəfər müəllimlə, Qulam Məmmədli ilə, Abbas müəllimlə...). Onların demək olar ki, hamısını – birini az, o birini çox dərəcədə xatırlayıram. Bəziləri mənim və ailəmizin yaxın bir adamı kimi, misal üçün Mehdi əmi (Mehdi Hüseyn), yaxud Ağa əmi (Mehdi Seyidzadə) kimi, bəzilərilə bağlı xatirələrimdə mürəkkəb və hətta ziddiyyətli hissiyyat var. Yeri gəlmişkən, mənim üçün vaçib olan bir cəhəti qeyd etmək istəyirəm: bu gün özü-

nü qəhrəman və təəssübkeş kimi təqdim edib, bu rəhmətliklərin bəzisinin qarasına danışmaq, kölgəsini qılınçlamaq, onları dövrün kontekstindən çıxarıb sonradan sonraya «ifşa etmək», şəxsiyyətlərinə hörmətsizlik göstərmək çox asan və deməliyəm ki, şərəfsiz bir işdir. Onların yaradıçılığına qiyməti onsuz da tarix özü verəçək və heç kimin bugünkü siyasi-ictimai konyukturadan istifadə edib tarixin missiyasını öz üzərinə götürməyə mənəvi haqqı yoxdur. Bu qələm sahibləri heç olmasa onu ediblər ki, ana dilimizin inkişafı təmin olunub və bunun özü balaca iş deyil. O başqa məsələ ki, bədii-estetik dəyərlər və elmi-nəzəri istiqamətlər, dərsliklər, XX əsr ədəbiyyatımızın tarixi (və ümumiyyətlə, ədəbiyyatımızın tarixi) yeni meyarlarla müəyyənləşdirilməlidir, özünün ideoloji azad obyektiv təhlil və tədqiqini tapmalıdır. Nə isə, sənin sualından uzaqlaşdım... Mən hələ bunlardan sonra gələn ədəbi nəslin (o zaman orta nəsil deyirdilər və onların da indi çoxu haqq dünyasındadı), öz ədəbi nəslimizin, bizdən sonra gələnlərin (yəni sizlərin), sizdən sonra gələnlərin nümayəndələrinin adını çəkmədim... Onların arasında da unudulmaz insanlar var idi və mən onları tez-tez xatırlayıram. Bizdən bir az əvvəl yaradıcılığa başlamış Əli Kərim, mənim ədəbi nəslimin İsi Məlikzadə, Sabir Süleymanov, Fərman Kərimzadə kimi istedadlı nümayəndələri, bir az sonra ədəbiyyata gəlmiş Aydın Məmmədov, sənin və mənim dostumuz Vidadi Məmmədov, lap qısa bir ömür sürüb özü öz həyatına qıymış Fərid adlı istedadlı bir oğlan və başqaları həmişə xatirimdədir.

– Sənin sualın məni tamam başqa bir aləmə apardı və bu aləmdə hissin qiyməti sözün qiymətindən artıqdı. Ona görə də, bu barədə kifayətdi.

9. – İndi harada olmaq istərdiniz? Ürəyiniz hansı əsri, dövrü istəyir?

– Deyirsən xəyala qapılaq, hə? Yaxşı... Bəzən ürəyimdən keçir ki, Robinzon Kruzo kimi, kimsəsiz bir adada olaydım... Elə bilirəm ki, bununla sualının ikinçi hissəsinə də cavab verdim. Çünki mənim aləmimdə o gözəl kimsəsiz adada zaman yoxdu.

10. – Ən yaxşı əsəriniz hansını sayırsınız?

– Bu suala cavab verməyə çətinlik çəkirəm... Ançaq hər halda elə bilirəm ki, ən sanballı yazım «Ölüm hökmü»dür.

11. – Həyatda şəxsi düşməniniz olub və indi də var?

– Yox.

12. – Səfərə çıxsaydınız kimlə yol yoldaşı olmaq istərdiniz?

– Öz ailəmlə.

13. – Əsərlərinizin adlarını neçə qoyursunuz?

– Mənim üçün o qədər də əhəmiyyətli deyil. Bir əsərin adını onu yazıb qurtarandan sonra qoyuram, ağlıma gələni yazıram. Ondan gülməli şey yoxdu ki, əsərin adı çox şey desin, içində isə bir şey olmasın. Bu, qrafomanın əsas xüsusiyyətlərindən biridir. Mən universitetdə oxuyanda, bir tələbə dostumuz var idi, xətti də gözəl idi. Ayrıça bir səhifədə təmtəraqlı bir hekayə adı yazırdı (otuz ildən artıq keçib, amma biri indi də yadımdadı: «Skeletlər rəqs edərkən»), rəngli karandaşlarla o ada min bir bərbəzək vururdu, amma sonra o hekayədən xəbər çıxmırdı.

14. – İnsanda hansı keyfiyyəti dana çox qiymətləndirirsiniz?

– Səmimiyyəti.

15. – Həyatınızın çətin anlarında borc aldığınız olubmu? Bu, axırıncı dəfə nə vaxt baş verib?

– Olub. Ançaq dünyada borçlu olmaqdan da pis şey yoxdu! İndi çalışıram ayağmı yorğanıma görə uzadım.

16. – Ən çox sevdiyiniz gül və rəng?

– Nərgiz gülü. Mavi rəng.

17. – Bəs yeməklərdən, içkilərdən hansı?

– Təzə balıq qızartması. Təmiz zoğal arağı, yaxud əsl «Şirvan» konyakı.

18. – Səhər-səhər idman eləyirsiz?

– Yox.

19. – Bu saat həyatınızda nəyinsə çatışmadığını hiss edirsinizmi?

– Əlbəttə, hərdən belə hissiyyat olur. Amma istəməzdim ki, bu barədə dərinə gedək.

20. – Xatirələrinizi yazmaq fikriniz varmı?

– Elə bilirəm ki, bu işə artıq başlamışam. Rəşild Behbudov, Aydın Məmmədov, Araz Dadaşzadə, Sabir Süleymanov haqqında xatirə tipli esselərim çap olunub. Allah qismət eləsə, xatirələr kitabını mütləq yazaçağam.

21. – Öz əsərlərinizdən hansını birnəfəsə oxuya bilirsiniz?

– Vaqif, mən indiyə qədər çapdan çıxmış heç bir əsərimi oxumamışam, o ki, qala, birnəfəsə... Bu oxucunun işidir, çünki əsər çap olunduqdan sonra artıq oxucuya məxsusdur.

22. – Bir nəfər deyib: İstərdim mənim istədiyim adamlar da

bir-birini istəsinlər. Sizin bu fikrə və bu sözü deyən adama münasibətiniz?

– O gözəl adama eşq olsun və o gözəl fikir də yüz faiz bəyənilsin.

23. – Ömrünüzdə yalan danışmısınızmı?

– Məni tanıyanlar və o çümlədən də, sən, güman edirəm ki, bilirlər ki, yalanla aram yoxdur. Rəhmətlik Əli Vəliyev deyərdi ki, ən böyük biclik düzlükdür və mən də onunla tamam şərikəm, həyatımı bu cur yaşamışam və bundan sonra da yəqin bu cür yaşayacağam.

24. – Hamıdan gizli sirriniz olubmu?

– Olub.

25. – Meydan hadisələri dövründə adı hallanan, ona qarşı iddialar irəli sürülən ziyalılardan biri siz idiniz. O günləri neçə xatırlayırsınız? Şəxsən mən həm sizin, həm də o zaman sədrlik etdiyiniz «Vətən» Cəmiyyətinin xarici soydaşlarımızla əlaqə yaradılmasında nə qədər böyük rolunuz olduğunu bilirəm və dünya azərbaycanlılarının cəmiyyətlər halında birləşməsində, Azərbaycan haqlarının qorunmasında Sizin adınızın Azərbaycan tarixinin ən şərəfli səhifələrinə yazılacağına əminəm.

– Bu sözlərə görə sənə təşəkkür edirəm, çünki mənim üçün ciddi və əhəmiyyətli sözlərdir. Meydan hadisələri xalq hərəkatı idi, xalqın oyanışı, laxlamış sovet imperiya dirəklərinin silkələndirilməsi idi və təbii ki, imperiyapərəst qüvvələr belə bir inqilabi əhval-ruhiyyə zamanı istər-istəməz özünü biruzə verən kütlə psixologiyasından istifadə edib təxribat məqsədilə şayiələr yayır, böhtanlar atırdılar ki, təhlükəli saydıqları nöqtələri zərərsizləşdirsinlər. Əgər yadınızdadırsa o vaxt «Vətən» Cəmiyyətinin reytinqi çox yüksək idi və bu lap bünövrədən milli vətənpərvərlik üzərində qurulmuş fəaliyyətin nəticəsi idi. Biz fəaliyyətə başlayanda heç nəyimiz, adicə bir qələmimiz də yox idi, ən əsası isə, mühacirat haqqında məlumatımız çox bəsit idi, ancaq qısa bir müddətdə idarəçiliyi yaratdıq, məktublaşdıq, zəngləşdik, arxivlərdə işlədik, köhnə mətbuatı vərəqlədik, məlumatlar topladıq və böyük bir kartoteka düzəltdik. Biz kərpiç-kərpiç hörərək dünya ölkələri ilə Azərbaycan arasında mənəvi körpü salmağa, əlaqə yaratmağa başladıq və fəaliyyətimizin elə ilk günündən milli təəssübkeşliyi əsas götürdük. Xaricə külli miqdarda milli mahiyyətli məlumatlar göndərirdik, ilk dəfə olaraq Türkiyə, ABŞ, Almaniya,

Fransa, İngiltərə, Danimarka, Hollandiya, İsveç, Norveç və s., ölkələrdə Azərbaycan mühacirətinin toplantılarını, görkəmli sənət ustalarımızın iştirakı ilə mühacirat hissini vətənpərvərlik üzərində kökləyən, onlar ilə təmasını artıran konsertlər təşkil edirdik, antisovet siyasi dairələrlə, o cümlədən Türkiyə hökuməti ilə, dərnək və çəmiyyətlərlə ilkin əlaqələri biz yaratdıq, eyni zamanda, bizim zövqümüz ilə xarici ölkələrdə bir çox Azərbaycan cəmiyyətləri təşkil olundu. Son dərəcə böyük çətinliklərə baxmayaraq onların nümayəndələrini ilk dəfə olaraq Azərbaycana dəvət etdik və buradakı təhlükəsizliyini də təmin etdik. Bircə misal çəkmək istəyirəm. O zaman Azərbaycan Milli Mərkəzinin rəhbəri Məhəmməd Kəngərlini ilk dəfə Azərbaycana dəvət etdik, onu məlum qüvvələrdən qorumaq üçün, özümüz Moskvadan Bakıya gətirdik, burada onu çoxdan tanıdığım və etibar etdiyim, indi «Vətən» Cəmiyyəti sədrinin müavini işləyən Əkrəm Məmmədov daima müşayiət etdi, gedəndə də Əkrəmi onunla birlikdə Moskvaya göndərdim, özüm də başqa bir bəhanə ilə həmin vaxt Moskvaya getdim və Məhəmməd bəyi Şeremetyeva aeroportundan Ankaraya sağ-salamat yola salandan sonra rahat nəfəs aldım. Amma bunun altını necə çəkdim və hansı səviyyədə didişdim, bunu bir mən bilirəm, bir də indi adını çəkmək istəmədiyim bəzi adamlar. «Odlar yurdu» qəzeti ilk dəfə Azərbaycan Demokratik Respublikasının tarixinə obyektiv və ətraflı surətdə müraciət etdi, geniş xalq kütlələrinin o zaman demək olar ki, tanımadığı Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyov, Ə.Topçubaşov, C. Hacıbəyli və b. haqqında materiallar dərç etdi. O zaman bu fəaliyyətə və bu yazılara görə də mənim başım nələr çəkdi, bunu bir mən bilirəm, bir də mənimlə birgə «Vətən»də və «Odlar yurdu»nda işləyən dostlar. Çox təəssüf ki, meydan tribunasından, kütlə psixologiyasından istifadə edən ayrı-ayrı şəxslər bu təxribat səciyyəli şayiələrin, təbriklərin əsl mənasını başa düşmədi və həmin şayiələrə uydu, bəzən heç özləri də istəmədən (bəzən isə bilərəkdən!) alət kimi istifadə olunmalarına yol verdi. Çox gərgin çağlar idi və səmimi deməliyəm ki, zəif adam ya başını itirərdi, ya da yolundan sapardı: özün təsəvvür elə, bir tərəfdən hakim dairələr məni antisovet mühacirata qəyyumçuluq etdiyimə görə qatı millətçi kimi ittiham edirdi, o biri tərəfdən də Bakını şayiə bürüyürdü ki, belə bir vaxtda Elçin xaricdə oturub videoya baxır... Sumqayıtda belə bir vərəqə yaymışdılar ki, Elçinin

həyat yoldaşı ermənidir... Həmin vərəqənin bir nüsxəsini tragikomik yaddaş kimi, arxivimdə saxlamışam. O zaman rəhmətlik Şahmar Ələkbərov mənim ssenarim əsasında (o ssenarini «Toyuğun diri qalması» povestimin motivlərinə yazmışdım) «Sahilsiz gecə» adlı film çəkmişdi və həmin film yüksək qiymətləndirilərək, o vaxtkı Ümumittifaq televiziyasının birinci proqramı ilə göstərilmişdi. Bu filmlə bağlı bir ajiotaj yaradıldı ki, gəl görəsən!.. Guya Elçin Azərbaycan qadınına pis baxır... Onsuz da xəstə olan Şahmar mənən necə sarsılmışdı, bunu yadıma salanda indi də bütün ovqatım təlx olur. Həmin adamlar Şahmarın heç olmasa yüzdə biri qədər Azərbaycanı sevsəydi və Azərbaycana bağlı olsaydı, yenə dərd yarı idi. Təlimat almış kiçik bir dəstə qadın «Vətən» Cəmiyyətinə basqın etmişdi və onların arasında biri xüsusi həyasızlıq edirdi, guya ki, Azərbaycan qadınının «qeyrətini» çəkirdi. Sonralar bir dəfə televiziya ilə «İnsan və qanun» verilişinə baxırdım və birdən sifətindən tanıdım ki, həmin qadını oğurluq üstə mühakimə ediblər. Nə isə, bu da uzun söhbətdi və Vaqif, səninlə söhbətimiz tutduğuna görə, birinci dəfədi bunları deyirəm, amma haçansa «Vətən»in fəaliyyəti ilə bağlı açıq (adlar və faktlarla!) və ətraflı bir yazı yazacağam və səndən gizlətmirəm, bu fikirdəyəm ki, mən o yazını yazsam da, yazmasam da tarix hər şeyi yerbəyer edəcək, kimin kim olduğunu, nə elədiyini dürüstcə göstərəcək. Aradan tarixilik baxımından çox az bir vaxt keçib, amma millətdə nə qədər bir oyanış var!.. Orasını da deyim ki, o gərgin vaxtlarda tanımadığım yüzlərlə adam mənə zəng eləyirdi, iş otağıma gəlirdi ki, ruhdan düşməyim, mən o adamları həmişə xoş bir hərarətlə xatırlayıram. Bəzilərinin sifəti yadımda qalıb, hərdən təsadüfən görüşürük və köhnə dostlar kimi, hal-əhval tuturuq. Bir sözlə, müəyyən qüvvələr hər vasitə ilə məni xalq hərəkatından təcrid etməyə çalışırdı və zahirən qismən buna nail olurdu. Sənə təkcə bu faktı deyim ki, həmin dövrdə mən 38 xarici informasiya orqanına (Berlin radiosundan tutmuş, Türkiyədəki çox populyar «32-ci gün» televiziya ya proqramınacan!) erməni təcavüzü və Azərbaycanda hökm surən müstəqillik ideyaları barədə müsahibə vermişdim. 1990-cı ilin 20 Yanvarında və sonrakı bir-neçə gündə isə xarici aləmlə Azərbaycan arasında yeganə informasiya vasitəsi «Vətən» Cəmiyyətinin teleksi idi. Şeyx həzrətlərinin bəyanatından tutmuş Yanvar şəhidlərinin ilkin siyahısınacan xarici ölkələrə yaydıq və bunun effekti az olmadı. Misal üçün, belə bir məlum

fakt ki, Pakistanın Baş naziri xanım B.Buxutto bizim teleksə istinad edərək, M.S. Qorbaçova etiraz notası göndərmişdi. Mən o gərgin çağları həyatımın çox mühüm və əhəmiyyətli bir dövrü, o xalq hərəkatını isə bütün o şayiələrə, dedi-qodulara, bəzi təsadüfi adamların ortaya düşməsinə baxmayaraq, tariximizin şərəfli və həmişə yada salınacaq səhifələrindən biri hesab edirəm.

– Elçin müəllim, «Klassik aşıq poeziyasında «Dünya» obrazı» adlı yeni tədqiqatınızı (məncə, əslində, bu böyük essedir) bu sayımızda oxuculara təqdim edirik. Bu esseni Siz unudulmaz Aydın Məmmədovun xatirəsinə həsr etmisiniz. Mən bilirəm ki, Siz Aydınla çox yaxın dost olmusunuz. Ancaq nə üçün məhz bu yazını ona həsr etmisiniz?

– Yəqin ona görə ki, rəhmətlik Aydınla dünyanın işləri barədə çox dərdləşirdik...

*Suallari Vaqif Bayatlı Önər verdi.*
*1994.*

## E L Ç İ N: KOMEDİYA VƏ DRAMLARIN KƏSİŞDİYİ YERDƏ

*(«Literaturnaya qazeta»nın müxbiri Elmira Axundova məşhur Azərbaycan yazıçısı Elçinlə müsahibə aparır.)*

– Elçin, son illərdə siz nəyə görəsə «Literaturnaya qazeta»dan uzaqlaşmısınız, halbuki lap elə bir qədər bundan əvvəl onun ən fəal müəlliflərindən biri idiniz? Bu müddət ərzində nə ilə nəfəs almısınız?

– 1990-cı ilin Yanvar hadisələri həyatımı ikiyə böldü. Özümü yazı stolunun arxasına keçməyə nəinki məcbur edə bilmədim, hətta uzun müddət nəsə yazmaq haqqında düşünmək belə iqtidarında olmadım. Qulaqlarıma hey elə güllə səsləri gəlirdi. Biz Bakının dağlıq hissəsində yaşayırıq, belə ki, bütün bu dəhşətlər mənim gözlərimin qarşısında baş vermişdi. Mənim üçün, xüsusən, ağır, iztirablı vaxtlarda kitab rəfinə əl atdım. O kitabları götürürdüm ki, yeniyetmə, gənclik illərində oxumuşdum. Məsələn, «Robinzon Kruzo»nu. Sonra Molyerin cildlərinə baxdım. Düşünürəm, Molyerin komediyaları hara, mənim o vəziyyətim hara? Zorlanmış şəhərin əzici ab-havası, fövqəladə vəziyyət, cəmiyyətdəki çaşqınlıq...

Amma mən, birdən yazı makinasının arxasına keçdim və gözlənilmədən Molyerin pyeslərindən birini tərcümə etməyə başladım. Məni bu vaxt tərcümə etdiyim əsərin Azərbaycan dilində olub-olmaması maraqlandırmırdı. Ümumiyyətlə, bu fikrə niyə düşdüyümü bilmirdim. Beləliklə, «Skapenin kələyi» və «Jorj Danden»i «birnəfəsə» tərcümə etdim. Sonra Molyer haqqında ədəbiyyatlara baxdım. Evdə nə vardısa, kitabxanamda nə tapdımsa, oxudum. Bulqakovun pyesindən tutmuş Azərbaycan-fransız ədəbi əlaqələrinə həsr olunmuş məqalələrə kimi. Nəticədə yazıçı haqqında böyük bir oçerk yazdım. Mənim tərcüməmdə Molyerin komediyalarından, ön söz də daxil olmaqla bir kitab hazırladım. Bir sözlə, o vaxtkı məşğuliyyətimlə ətrafımda baş verən hadisələr arasında böyük ziddiyyətlər vardı. Bu hal indinin özündə də mənim üçün qeyri-adi və izahedilməzdir. Bundan sonra içim-

də elə bil ki, nəsə çevrildi. Mən, hətta başqa cür yazmağa başladım. Əlimdəki İkinci Şah İsmayıl haqqındakı romanı, aşıq poeziyası haqqındakı monoqrafiyanı bir kənara qoydum, mücərrəd, sürrealist eksperimentlər etməyə başladım. Bütün bu şeyləri mən «Dialoq-hekayələr» adlandırdım... Sonra həyat tədricən yoluna düşdü. Təzədən makina arxasına keçdim. Bu dəfə həyatımda ilk dəfə komediya yazdım. Bu komediya belə adlanır: «Ah, Paris, Paris!» Bu tərcümələr, bu komediya elə bir «ruhi qida» oldu ki, bütün o hadisələrdən sonra yaşamaqda mənə kömək etdi...

– Buna baxmayaraq, oxucular «bu gün nə üçün müasir ədəbiyyat gözlərimizin qarşısında baş verən mühüm hadisələrdən qaçır» sualından əl çəkmirlər.

– Adam ürəyinə əmr edə bilmir. Gərək gördüklərin sözlə ifadə olunana qədər yetişsin. Bir də, niyə Qarabağ mövzusunda kitab yoxdur, soruşurlar. Publisistika, reportaj ki var, heç kəsi bu işə məcbur etmək lazım deyil. Mən şəxsən şübhə etmirəm ki, vaxt gələcək, Azərbaycanda altı ildən çox uzanan bu müharibə haqqında bədii əsərlər yazılacaq. 1812-ci il Rusiyada Böyük Vətən müharibəsini yada salaq. Bütün bunları kim və haçan ağıllı və dahiyanə təsvir etdi? Lev Tolstoy, həm də təxminən yarım əsr keçəndən sonra. Yazıçıdan Qarabağ hadisələrinə dərhal bədii cavab tələb etmək, düşünürəm ki, düz deyil. Əks təqdirdə bu vəziyyətə uyğunlaşmaq deməkdir, eynilə on-on beş il əvvəl bəzi istedadsız sovet yazıçılarının mövzu arxasında gizləndiyi kimi. Məsələn, Sov. İKP MK-nın heyvandarlığın inkişafına dair qərarına cavab olaraq povestlər, romanlar yazılırdı. Bununla da mövqe tutur, vəzifə qazanırdılar.

– Yadıma «Ölüm hökmü» romanınız düşdü. Çoxdan soruşmaq istəyirdim: bu qədər tutqun əhval-ruhiyyə, əlacsızlıq hardan gəlir? Axı, roman 80-ci illərin əvvəllərində qələmə alınıb. Qorbaçovun yenidənqurmasından şadlanıb vəcdə gəldiyimiz vaxtda tamamlanmışdır. Deyim ki, onun həm ictimai məzmunu Sizin üçün yeni idi, həm də üslubi qeyri-adi idi. Kitabda kiçicik bir ümid işığı görünmür. Bütün personajlarınız inçik, küskündür. Romanı oxuyub qurtarandan sonra məndə belə bir fikir hasil oldu. Görəsən, bu həmin Elçindir ki, kitablarının əsasında həmişə romantika, işıqlı bünövrə dururdu?

– Siz maraqlı bir mövzuya toxundunuz. Ancaq qabaqcadan bir şeyi demək istəyirəm: nə üçün son on illiklərdə Azərbaycan

ədəbiyyatında dissidentlərin olmaması sizi təəccübləndirmir? Bu suala cavab vermək üçün respublikada hökm sürən mənəvi mühitin bir fərqli cəhətini yada salmaq lazımdır. 70-ci illərdə o əsərləri ki, biz özümüzdə çap etdirirdik, onları İttifaqın başqa respublikalarında dərc etdirmək o qədər də asan olmurdu. Bu faktdır. Belə ki, Sistemə tənqidi baxış, hakim ideologiyaya qarşı ironiya, hətta düşmən münasibəti – bunlar hamısı bizim ədəbiyyatımızda vardı. Əlyazmalar sandıqlarda yatıb qalmırdı (əlbəttə, əgər onlar vüsətli istedadlı əsərlərdisə).

Bax mən Azərbaycanda ədəbi dissidentlərin olmamasının əsas səbəbini də bunda görürəm. Mənim kəskin ictimai mövzuya müraciətim buna toxunmağa icazə verildiyinə görə deyildi. Artıq bu ideya yetişmişdi və 80-ci illərin ikinci yarısında bədii əsərlərdə özünü büruzə verirdi. «Ölüm hökmü» Qorbaçovun yenidənqurmasından xeyli əvvəl düşünülmüşdü.

Son vaxtlar nədənsə imtina eləmək dəb düşüb. Tərcümeyihallarını dəyişib yazdıqlarından imtina edənlər var. Demə, birini az qala güclə Yazıçılar İttifaqına götürüblər, başqasını zorla partiyaya daxil ediblər. Halbuki bəzilərinin partiya sıralarına daxil olmaq üçün necə rüşvət verdiklərini də bilirik. Şəxsən mən heç vaxt bir sətrimdən belə imtina etmərəm. Ola bilsin, elə yazılarım var ki, xüsusilə, yaradıcılığımın ilk illərində yazdıqlarım bədii cəhətdən zəifdir, amma burada utanmalı bir şey yoxdu. Düzdür, «Ölüm hökmü» əvvəl yazdıqarımdan kəskin surətdə fərqlənir. «Mahmud və Məryəm», «Ağ dəvə» romanlarımdakı romantik işıqlı əsas burda yoxdur.

– Siz o az qisim Azərbaycan yazıçılarındansınız ki, yenidənqurma illərində öz fəallığınızı azaltmadınız. Bakıda, Moskvada çoxlu xarici ölkələrdə yeni nəsr əsərləriniz dərc olundu.

– Desəm ki, yazmaya bilmirəm – bayağı səslənər. Amma son doqquz ayda bir xətt belə yazmamışam və bunu özümə dərd etmişəm. Bununla bərabər mən təəssüf etmirəm. Yenidəndoğum prosesi başlanıb. Yeni respublika, yeni müstəqil dövlət yaranır. Mən sevinirəm ki, bu prosesdə təkcə müşahidəçi yox, həm də iştirakçıyam. Allah izn versə, sənədli bir kitab meydana çıxar...

– Doqquz aydır ki, siz Nazirlər Kabinetində humanitar məsələlər üzrə Baş nazirin müavinisiniz. Bugünkü cəmiyyətin mənəvi həyatını necə görürsünüz? Çoxları deyir ki, indi həyəcan təbili vurmaq vaxtıdır. Azərbaycan mədəniyyətində, ədəbiyyatında

indi tam durğunluq hökm sürür. Pul yoxdur ki, kitab nəşr eləyəsən, ən yaxşı yazıçılarımız qələmlərini yerə qoyublar. Kitab dükanlarını makulatura ağzınacan doldurub...

– Bu problemə açıq gözlə baxmaq lazımdır. Bəli, durğunluq adlandırdığımız dövrdə həm rus, həm də Azərbaycan ədəbiyyatında çox ciddi, deyərdim ki, hətta böyük əsərlər yaranmışdı. Ancaq «Sovet ədəbiyyatının inkişafında» ana xətti hakim ideologiyaya xidmət təşkil edirdi. Məhz buna görə də mədəniyyətə, ədəbiyyata, incəsənətə həddən artıq xərc sərf olunurdu. Elə götürək sənətə yeni gəlmiş bir ədəbiyyatçını. O, nəsr əsəri və ya şerlər kitabı dərc olunandan bir müddət sonra Yazıçılar İttifaqına üzv seçilirdi. Vəssalam! Bununla da əsərlərinin çapına kömək, istirahət evlərində dincəlmək, müalicə olunmaq üçün şərait yaratmaq və s. məsələlər tezliklə öz həllini tapırdı. Bu gün bunların hamısı birdəfəlik tənəzzülə uğrayıb və bu yaşlı, orta nəsil ədəbiyyatçıları tərəfindən indi şəxsi drama kimi qarşılanır.

– Mənə elə gəlir ki, bu gün müxalifətdə olmaq həm təhlükəsiz, həm də şərəflidir. Müxalifətdə olanlara hamı hörmətlə yanaşır, amma heç kim kabinetdə oturan, dövlət quruculuğu ilə məşğul olan hökumət adamlarının nazı ilə oynamaq istəmir...

– Tamamilə doğrudur. Burada məsələ realist bir şəkil alır. Özünü peşəkar həkim kimi göstərə bilməyən adam bu gün dönüb siyasətçi olur. İstedadsız şair, yazıçı da həmçinin. Bu gün siyasətdə çox zaman qrafomanlar və diletantlar məşğul olduğuna görə cəmiyyət bütövlükdə çox uduzur...

– Axı əsl yazıçılar da var... Bəs, onların səsi nə üçün eşidilmir?

– Əsl yazıçı nə deməkdir? Tərəddüd edən adam! Bu o adamdır ki, təkcə öz şəxsi mənafeyi, ailəsi haqqında düşünmür. Onu həm də xalqın taleyi narahat edir. Nə vaxt ki, cəmiyətdə sabitlik yoxdur, nə vaxt ki, hər şey kökündən məhv edilir, onu şübhələr didir: görəsən, düzmü yol tutmuşuq? Deyək ki, 90-cı ilin yanvarında bu qədər adam nəyə görə məhv oldu? Bu qurbanların mənası? Beləcə, hadisələrin əzab-əziyyətlə, fəlsəfi-mənəvi dərketmə prosesi gedir.

– Sizcə, bizim cəmiyyətdə ziyalılar niyə öz yerlərini tapmamışlar? Yeni həyata uyğunlaşa bilməmişlər?

– Ziyalı, çox zaman ideologiyanın himayəsində olub, indi həmin bağ kəsilib. Bundan əlavə, istər Azərbaycan, istər rus, is-

tər gürcü ziyalısı, sən demə, ürəyinin çağırışına hələ tam hazır deyilmiş. Bir də, milli mədəniyyətimizin tarixi ilə bağlı çox maraqlı, həm də çox faciəli bir anı nəzərinizə çatdırmaq istəyirəm. Bir az keçmişə qayıdaq. XIX yüzilliyin axırı, XX yüzilliyin əvvəlində Azərbaycanda nadir ziyalı təbəqəsi meydana çıxdı. Bu, Bakının dünya neft paytaxtına çevrilməsi ilə bağlı idi. Bu adamlar kimlər idi? Bir tərəfdən xalqın içindən çıxanlar idi ki, onlar sadə adamların müşküllərini yaxşı başa düşürdülər. Dilimizi, tariximizi, adət-ənənələrimizi bilirdilər. Bir sözlə, öz köklərindən ayrı düşməmişdilər. O biri tərəfdən də rus və Avropa təhsili alıb iki-üç dil öyrənmişdilər. İki mədəniyyəti – milli Şərq və Qərb – Avropa mədəniyyətini özlərinə üzvü surətdə birləşdirmişdilər. Elə buna görə də onların əsərlərində milli problemlər dünya mədəniyyəti səviyyəsində qaldırılırdı. Bizim yüzilliyin on-iyirminci illərində bir hissəsi mühacirətə getmiş, Vətəndə qalanları isə repressiyaya uğramışdılar. Beləliklə, bir boşluq yaranmışdı. Bu boşluq özünəməxsus şəkildə doldurulmuşdu. Təsəvvürünüzə gətirin ki, siz dünənki günə qədər tramvay sürücüsü, toxucu və s. idiniz. Bu gün isə Azərbaycan ziyalısı vəzifəsinə təyin olunursunuz...

– Yadımdadır, siz haçansa demişdiniz ki, müharibədən sonra Azərbaycanda iki – tamam müxtəlif, bir-birinə zidd ziyalı nəsli yetişmişdir. Millətçi və kosmopolit ziyalı.

– 1937-ci və 1945-ci illərdən sonra yeni ziyalı təbəqəsinin yaranması prosesi gedirdi. Məncə bu təbəqəyə çox ziyan dəymişdir. Mən onun istedadlı nümayəndələri haqda deyirəm. Tutalım (əlbəttə, burda istisna var) kimsə orta məktəbi, Moskvada, yaxud Bakıda institutu və ya aspiranturanı rus dilində bitirib. O, rus dili və ədəbiyyatını, bir və ya iki xarici dili mükəmməl bilir. Amma bu adam Azərbaycan muğamları səslənəndə radionu söndürür. Ona görə ki, onu duymur. Ona görə ki, öz kökündən süni surətdə qoparılmışdır. Belə adam öz xalqının istək və arzusunu heç vaxt ifadə edə bilməz. Başqa birisi orta və ya ali məktəbi azərbaycanca bitirmiş və öz xalqının adət-ənənələrini, dilini və psixologiyasını mükəmməl bilir. Radioda muğamları eşidəndə ağlayır. Amma bir sənətkar kimi, bir ziyalı kimi yenə də öz xalqının istək və arzularını dünyaya ümumbəşəri səviyyədə çatdıra bilməyəcəkdir. Ona görə ki, o, Tolstoyu, Dostayevskini orijinalda oxumamış, Kafkanın, Folnkerin və Prustun kim olduğunu dərk edə bilməmişdir. Başqa xalqların mədəni dəyərləri ona yaddır. O adamlar ki,

müasir Azərbaycan mədəniyyətində dərin iz qoymuşlar – Qara Qarayev, yaxud Niyazi, Bülbül, yaxud Fikrət Əmirov, Rəşid Behbudov kimi sənətkarlar özlərində iki mədəniyyəti birləşdirmişdilər.

– Nə üçün məhz bizim cəmiyyətimizdə tariximizə yenidən can atmaq meyli daim yaşayır sualına, deyərdim ki, sizin təsvir etdikləriniz bir növ cavab verir. Rusiyada 1917-ci ilin oktyabrından, Azərbaycanda iyirminci ilin aprelindən bu yana bütün illər biz ancaq onunla məşğul olmuşuq ki, bir meyidi basdırıb, o birini çıxaraq, birinin heykəlini ucaldıb, o birini taxtdan salaq...

– Ən qorxulusu odur ki, biz hələ bu gün də düşmən axtarırıq. Şəksiz: bizim tariximiz özünə yeni münasibət tələb edir. Ancaq bunu təzədən saf-çürük edəndə biz yenə də düşmən obrazı axtaracağıq? Dünənə kimi bizə Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.M.Topçubaşovun əsərlərini oxumaq, tədqiq etmək qadağan olunmuşdu. Bu gün isə tərsinə, başqa görkəmli adları ləkələyir, bunlarısa oxumadan, fəlsəfəsinə varmadan az qala ilahiləşdiririk. Başlamışıq M.F.Axundovu, A.Bakıxanovu, İ.Qutqaşinlını çara xidmət etdiklərinə görə nəzərdən salmağa. Gəlin bir az insaflı olaq, Axundov təmiz Azərbaycan dilində 6 komediya yazıb. O, bu janrı Azərbaycan ədəbiyyatına gətirib, onu mədəniyyətimizin milli faktına çevirib. A.Bakıxanov polkovnik idi. İ.Qutqaşınlı çar ordusunun generalı idi. Lakin bütün bunlar, eyni zamanda, milli mənəvi dəyərlərimizi yaratmaqda onlara mane olmurdu. Bizsə indinin özündə də tarixi qara, ağ ləkələrlə boyamaqdan çəkinmirik. Ağırdır...

– Sizinlə söhbətdə istəsək də, istəməsək də altı ildən çox torpağımızda dolaşan müharibəyə toxunmalıyıq. Ziyalılar ziddiyyətlərin başlanğıcında, bildiyimiz kimi, çox fəal idi. Təəssüflər olsun ki, bu fəallıq adamları öz ehtirarslarının gücü altına, beyinlərin coşğunluğu və ifrat vətənpərvər hisslərin təsiri altına salmaqla baş verirdi. Qarabağ hərəkatının ilhamverici lideri, şair Silva Kaputikyan «L.Q.»da yazırdı: «Mən indi çox şeydən imtina edərdim ki, xalqlarımızın arasındakı səmimi münasibətləri geri qaytarım» qanlı sonluqdan başqa çıxış yolu varmı?

– Təkrar edirəm: bu gün müstəqil respublikaların doğum prosesi hadisəsi baş verir – Azərbaycan, Ermənistan, Gürcüstan respublikalarında müharibə, xalqların qarşıdurması bu hərəkata olduqca böyük ziyan gətirər. İş o yerə gəlib çatar ki, bu respubli-

kalar öz müstəqilliklərini itirə bilərlər. Buna bənzər əhvalat iyirminci illərdə baş vermişdi. Ona görə də sağlam düşüncəyə və adi özünümüdafiə hissinə ümid bağlayıram. Torpaq iddiasından əl çəkilməlidir, barışdırıcı mövqedə durmalı, gələcəkdə isə bir-birimizə əl uzatmalıyıq. Onda Zaqafqaziya çiçəklənən bir diyara çevrilər. Güman edirəm ki, müharibə tezliklə qurtaracaq, çıxarılacaq nəticə ədalətli olacaq, başqa yol yoxdur. Hər iki millətin soykökünə, ekoloji quruluşuna, iqtisadiyyatına ağır zərbələr dəyib. Ola bilsin ki, mən dəbdəbəli, təntənəli sözlər deyirəm. Ancaq nə etmək olar ki, onsuz keçinmək mümkün deyil. Yazıçı gərək yeni dünyanın quruculuğunda iştirak etsin. İndi atılan daşları yığmaq zamanıdır.

– Bu çətin anlarda, ümumiyyətlə, Siz hansı mənəvi dayaqlara arxalanırsınız?

– Hərdən bu haqda düşünəndə bədbinliyə qapılır və hardasa panikaya düşürəm. Lap elə qədimdən ədəbiyyat həmişə xeyirxahlığa, əbədiyyətə və ağla xidmət edib. Şərlə xeyirin daimi mübarizəsində yazıçı təbii ki, xeyirin tərəfində dayanıb. Dünya ədəbiyyatı Homer, Şekspir, Füzuli, Höte kimi dahilər yetişdirib. Məndən soruşun ki, nə üçün küyə düşürəm? Axı, bu göyün altında olan dünyada nə dəyişib ki? Şər ilə xeyirin mübarizəsinin sonu görünmür. Ədəbiyyatsa dünyada və insanın təbiətində nəyisə dəyişdirmək iqtidarında deyil. Bu məni sarsıdır. O biri tərəfdən isə bir anlığa təsəvvür edin ki, Homer, Nizami, Şekspir yoxdu. Onda nə olar? Qaranlıq, boşluq, uçurum! Bilirsiniz, mən həyatımın ən ağır dəqiqələrində nə üçünsə «Don Kixot»u xatırlayıram. Və bir az rahatlıq tapıram. Bəli, ədəbiyyat bəşəriyyəti xilas etmək iqtidarında deyil, amma o bir fərdə kömək edə bilər. Və razılaşın ki, bu da az deyil...

*Tərcümə etdi Kamilə Nemət.*
*1994.*

## «BU GÜN MƏDƏNİYYƏTİMİZİN TALEYİ YALNIZ MƏDƏNİYYƏT XADİMLƏRİNDƏN ASILI DEYİL...»

– Elçin müəllim, indiki vaxtda yazıçı olmaq nə deməkdir?

– Bu suala cavab vermək çətindir, çünki siz mənim simamda bu saat «keçmiş yazıçı» ilə danışırsınız, mən bir il beş aydır ki, bu vəzifədə işləyirəm və bu müddətdə yazıçılığa bir növ «əlvida» demişəm. Yəni bu müddət ərzində bir dəqiqə olsun boş vaxtım olmayıb ki, oturub bir cümlə yazım. Sizin sualınıza belə cavab verirəm: yazıçı o kəsdir ki, ağ vərəqlə üzbəüz oturub hissini, ürəyini, dünyagörüşünü, sevgisini, nifrətini o ağ vərəqə köçürür, yəni özünü ifadə edir. Əgər o, istedadlı yazıçıdırsa, özü ilə bərabər xalqını da ifadə edir.Yazıçı mənim üçün bax, bu adamdır. Dediyim sözlər dövrə, şəraitə baxmır. Bu bütün dövrlər üçün belədir. Sadəcə olaraq, bu özünüifadənin müxtəlif dövrlərdə çətinlikləri olur. Bu gün də Azərbaycanda belə çətinliklər var. Müharibə aparan bir ölkənin iqtisadi vəziyyəti ağır olduğundan hamı çətin şəraitdə yaşayır. Bu baxımdan yazıçı üçün də cəmiyyətdə maddi və mənəvi çətinliklər var.

– Yazıçı və vəzifə. Bu barədə nə deyə bilərsiniz?

– Mən sizə səmimi deyirəm, yazıçı gərək heç bir vəzifə daşımasın, yalnız öz yazı-pozu işi ilə məşğul olsun. Bu, ideal variantdır. Təəssüf ki, həyatda ideal variantlar mümkün deyil. Yazıçı, eyni zamanda, vətəndaşdır. Deyək ki, Mirzə Cəlil oturub ancaq gözəl hekayələrini, pyeslərini yazmaqla məşğul olsaydı, indi ədəbi irsi qat-qat artıq olardı. Amma Mirzə Cəlil əsərləri ilə kifayətlənmədi, böyük ictimai işlə məşğul oldu, bütün əzablara qatlaşaraq «Molla Nəsrəddin» kimi bir jurnal nəşr etdi, ədəbi məktəb yaratdı. O, ictimai işlə məşğul olmasa idi, bəlkə də «Ölülər» kimi daha beş dahiyanə əsər meydana çıxa bilərdi – bundan bizim ədəbiyyatımız məhrum oldu. Amma digər tərəfdən ictimai fikrimiz «Molla Nəsrəddin»ə sahib oldu. Məncə yazıçı öz vətəndaşlığını həm yazılarında, həm də fəaliyyətində göstərməlidir. Şübhəsiz mən özümü klassiklərlə bir cərgədə tutmaq fikrində deyiləm, amma bəlkə də özümə mənəvi bəraət qazandırıb təskinliyi onunla

tapıram ki, işlədiyim bu müddət ərzində məşğul olduğum sahələrdə nəsə xeyirli bir iş görmək üçün çalışmışam.

– Bu barədə nə deyə bilərsiniz?

– Respublikanın məhdud iqtisadi imkanları şəraitində çalışmışam ki, mədəniyyət sahəsində əldə etdiklərimiz dağılmasın. Azərbaycanın tam istiqlaliyyətinə keçid dövründə çox problemlər yaranmışdır və bu da öz zərbəsini ilk növbədə mədəniyyət sahəsinə vurur. Hazırda kağız çatışmır, jurnallar çıxmır. Misal üçün, «Azərbaycan», «Ulduz» jurnalları çıxmırsa, deməli ədəbiyyat da yoxdur, çünki ədəbiyyat burada yaranır. Nə qədər yazıçılarımız var ki, imkansızlıq ucundan kitab çap etdirə bilmirlər. Amma biri var ki, imkansızlığa qane olasan, biri də var ki, məhdud imkanın içində nəsə bir şey eləyəsən, illərlə yığılanları dağılmağa qoymayasan, imkan verməyəsən ki, Azərbaycan mədəniyyəti öz kökündən ayrılsın. Mən çalışmışam ki, keçid mərhələsinin labüd iqtisadi çətinlikləri zamanı Azərbaycan mədəniyyətinə dəyən zərbə nisbətən yüngül olsun. Bu gün Azərbaycan mədəniyyətinin taleyi yalnız mədəniyyət xadimlərindən və məmurlardan yox, daha artıq dərəcədə zavod direktorundan, kənd təsərrüfatı rəhbərindən asılıdır. Gərək onlar istehsalı artırsınlar ki, mədəniyyət də bu münbit zəmindən bəhrələnsin.

– Sizcə hansı Elçin xalqa daha çox xeyir verirdi: yazıçı Elçin, yoxsa Baş nazirin müavini Elçin Əfəndiyev?

– Onları bir-birindən ayırmaq lazım deyil. Qiyməti isə tarix verəcək. Hərçənd indi tələsik qiymətlər vermək, çiy mülahizələr söyləmək çox dəbdədir və bu çox pisdir.

– Siz həm Baş nazir müavini, həm də «Vətən» Cəmiyyətinin sədrisiniz...

– Elədir. «Vətən» Cəmiyyəti mənim üçün çox doğmadır. Son 6-7 ilin hadisələri kontekstində, xüsusən, 80-ci illərin axırlarını, 90-nın əvvəllərini yada salsaq görərik ki, «Vətən» Cəmiyyəti, «Odlar yurdu» qəzeti nə qədər işlər görüb. Eybəcər şayiələrə, bəzən də açıq böhtanlara baxmayaraq «Vətən» işlədi, sınmadı.

Təəssüf ki, bu gün «Vətən» də, başqa ictimai təşkilatlar kimi, iqtisadi çətinlik içərisindədir.

– Vəzifə sizin üçün nə deməkdir?

– Vəzifə mənim üçün, gurultulu səslənməsin, xalqa xidmət deməkdir. Ona görə də mən bu gün vəzifədəyəm.

– Hələ siz bu vəzifəyə təyin olunmazdan əvvəl R.Mustafa-

yev adına İncəsənət muzeyindən oğurlanmış əsərlərin taleyi barədə nə deyə bilərsiniz?

– Bura gələn kimi qaldırdığım məsələlərdən biri də həmin məsələ oldu. Mən bu işə respublikanın inzibati orqanlarını cəlb elədim. İş rəsmi surətdə Nazirlər Kabinetindən Respublika prokurorluğuna, Daxili İşlər Nazirliyinə göndərildi. Bu hadisə Azərbaycan incəsənətinə, mədəniyyətinə böyük zərbədir, respublikamızın müstəqilliyinə qarşı xəyanətdir. Çalışıram ki, bu məsələ öz ədalətli sonluğunu tapsın, mümkündürsə əsərlər geri qaytarılsın və cinayətkarlar ifşa olunsun. Hələlik konkret olaraq bu məsələ ilə bağlı böyük istintaq işi gedir.

*1995.*

## SƏNƏTƏ QİYMƏTİ XALQ VERMƏLİDİR

Bu günlərdə «Gənclik» nəşriyyatı sənətşünas Firudin Şuşinskinin «Musiqişünasın düşüncələri» kitabının ilk nüsxələrini nəşr etmişdir. Bu nəşrlə əlaqədar müxbirimiz* əməkdar incəsənət xadimi, yazıçı Elçinə sualla müraciət etmişdir:

– Elçin müəllim, F. Şuşinskinin «Musiqişünaslıq düşüncələri» kitabı hələ tirajı basılmamış bir sıra görkəmli sənətkarların arasında ciddi narahatçılıq doğurmuşdur. Kitaba ön sözü siz yazmısınız. Son söz əvəzinə hörmətli yazıçımız İlyas Əfəndiyevin məktubu və müəllifin həmin məktuba cavabı verilmişdir. Oxucularımız sizi milli sənətimizi sevən və həmişə obyektiv meyarlarla onun təəssübünü çəkən bir qələm sahibi kimi tanıyırlar. Sizin, qısaca da olsa, bu kitabla bağlı fikirlərinizi bilmək maraqlı olardı.

– Doğrusu, bu kitab mənim üçün də gözlənilməzdir. Məsələ burasındadır ki, yeddi il bundan qabaq, 1988-ci ildə Azərnəşr F. Şuşinskinin «Musiqi məclisləri» adlı kitabını ön söz yazmaq üçün mənə göndərmişdi. Kitab Azərbaycan musiqi məclislərindən, o cümlədən Şuşa, Şamaxı, Bakı, Gənçə məclislərindən, ilk Şərq konsertlərindən, Şərq gecələrindən, dəsgahlardan bəhs edirdi. F. Şuşinski Azərbaycan xanəndəlik və xalq ifaçılığı sənətinin tarixi ilə məşğul olan, bu sahədə bir sıra qiymətli kitablar yazmış, fəaliyyət göstərmiş və tanınmış tarixçi-musiqişünasdır. Onun Azərbaycan xanəndələri haqqında Bakıda və Moskvada nəşr etdirdiyi kitabları, klassik xanəndələrimiz və instrumental ifaçılarımıza həsr olunmuş televiziya verilişləri buna sübutdur. O zaman Azərnəşrin göndərdiyi həmin kitabın əlyazması məhz bu baxımdan məndə maraq doğurdu və mən o müqəddiməni yazdım. Yeri gəlmişkən deyim ki, o müqəddimədə nə yazmışamsa, bu gün də həmin fikirdəyəm. Eyni zamanda, əlyazmasında bəzi müasir sənətkarlar haqqında ötəri fikirlər də var idi ki, mən onlarla razılaşmırdım və bu barədə də müqəddimədə yazmışdım. O zaman bir çox kitablar kimi həmin kitab da nəşr olunmadı və yaddan çıxdı.

---

* «Azərbaycan» qəzetinin müxbiri

Yeddi ildən sonra başqa bir nəşriyyatda nəşr olunmuş bu yeni kitabda isə müqəddimə mənim olsa da, orda toplanmış və müasir ifaçılıq sənətinə həsr olunmuş bir sıra məqalələri mən də oxucular kimi, ilk dəfə gördüm, həm də, doğrusunu deyim ki, buna təəssüf etdim. Söhbət ayrı-ayrı müğənniləri tənqid etməkdən getmir. Onları tənqid etmək olar və bəzi hallarda isə bu vacibdir də! Lakin tənqid təhqir deyil. «Mənim səndən xoşum gəlmir, ona görə də sənin səsin yoxdur, tar çala bilmirsən, kamança çala bilmirsan» – prinsipi, təbii ki, effektli ola bilməz və tamamilə əks təsirə malikdir, qarşılıqlı söyüşmədən o tərəfə aparmaz. Əlbəttə, mən istəməzdim ki, F. Şuşinski kimi ağsaqqal bir qələm sahibinin kitabında bu cür məqamlara rast gələk. Bir anlıq təsəvvür edək ki, müasir Azərbaycan muğam sənətində Əlibaba Məmmədov, İslam Rzayev, Arif Babayev, Canəli Əkbərov, Səkinə İsmayılova kimi sənətkarlar, yaxud Habil, Ramiz Quliyev kimi instrumental ifaçılıq virtuozları yoxdur, o zaman nə qədər sönük bir mənzərə yaranar?! Polad Bülbüloğlunun Azərbaycan musiqisinin, ümumiyyətlə, mədəniyyətinin təbliğində xidmətləri çoxdur və onun bu yaxınlarda keçirilən əlli illik yubileyi bunu bir daha təsdiq etdi. Töhfə Əliyeva, Tələt Qasımov, Vəli Məmmədov kimi müğənnilərin sənətdən uzaqlaşmalarına yalnız təəssüf etmək olar və bu gün onları subyektiv tənqid atəşinə tutmağa ehtiyac varmı? Rəşid Behbudov, Haçıbaba Hüseynov, Rübabə Muradova kimi klassik müğənnilərimiz haqqında bu gün tənqidçi-tədqiqatçı sözü deyərkən, gərək yüz ölçüb bir biçəsən. Eləcə də qələm dostların, musiqişünaslar haqqında elə yazmalısan ki, tərifinin də, tənqidinin də əsası olsun, dediyin sözün arxasında kin-küdurət yox, sənətə məhəbbət dayansın. Bir sözlə, təəssüflər olsun. Axı söhbət təsadüfi müəllifdən yox, uzun illərdən bəri ömrünü xalq musiqimizin tədqiqinə həsr etmiş və bu sahədə xeyirli işlər görmüş F. Şuşinski kimi tanınmış müəllifdən gedir. O ki qaldı İlyas Əfəndiyevin bu kitaba son söz yazmasından, onun, ümumiyyətlə, bu kitabdan xəbəri yoxdur. İlyas Əfəndiyevin «Açıq məktub» formasında yazdığı «Karvan gedir» adlı həmin məqalə F. Şuşinskinin «Yazıçı» nəşriyyatı tərəfindən nəşr olunmuş «Azərbaycan musiqiçiləri» kitabı haqqındadır və 1990-cı ildə «Ədəbiyyat» qəzetində dərc olunmuş, F. Şuşinski tərəfindən oradan götürülərək bu kitaba daxil edilmişdir. Bir cəhəti də qeyd etmək istəyirəm. Bu gün respublikamız öz tarixinin çətin keçid mərhələsini yaşayır. Həmin çətinlik ilk növ-

bədə mənəvi dəyərlərimizə, mədəniyyətimizə, görkəmli sənət xadimlərimizin güzəranına mənfi təsir edir. Belə bir şəraitdə sənət aləmində həmişəkindən daha artıq dərəçədə əl-ələ vermək, bir-birinin təəssübünü çəkmək, bir-birinə kömək etmək lazımdır. Bəzən əsl sənətə dəxli olmayan adamlar xoşagəlməz bir hadisədən istifadə edib qızışdırıçı rol oynayır, xəstə ab-hava yaratmaq istəyir, obıvatel dedi-qodusu törədirlər. Yuxarıda adını çəkdiyim sənətkarlar, eləcə də söhbəti uzatmamaq naminə adını çəkə bilmədiyim həqiqi sənət adamları özləri subyektiv tənqidə məruz qalsalar da, mən istəməzdim ki, onlar həmin qızışdırıçılığın təsirinə qapılsınlar. Qoy onların ürəyi geniş olsun, haqsız tənqidə sənətlərinin gücü ilə cavab versinlər. Çünki əsrlərin süzgəcindən keçib gəlmiş böyük bir həqiqət var: əsl qiyməti zaman verir. Qiyməti dinləyicilər, tamaşaçılar, yəni xalq verir.

*1995*

# E L Ç İ N: «BU GÜN VƏZİFƏDƏ OLMAQ – İŞLƏMƏK, İŞLƏMƏK VƏ YENƏ DƏ İŞLƏMƏK DEMƏKDİR»

*Azərbaycan Respublikasının Baş Nazirinin Müavini Elçin İlyas oğlu Əfəndiyev "Gündəlik xəbərlər" - "Yejednevnıye novosti" qəzetlərinin suallarına cavab verir.*

– Siz 42 təşkilata hamilik edirsiniz. Bir adama elə böyük işin öhdəsindən gəlmək necə müyəssər olur? Zəhmət olmasa, öz iş qrafikiniz, gün rejiminiz, köməkçilərinizin sayı haqqında danışın. Adamlarda hansı əsas keyfiyyəti qiymətləndirirsiniz?

– Bu gün vəzifədə olmaq – işləmək, işləmək və yenə də işləmək deməkdir. Hər halda, şəxsən mən bu cür başa düşürəm və respublikamızın yeni tarixinin indiki çox çətin mərhələsində tutduğum vəzifə ilə bağlı əlimdən gələni etməyə çalışıram. Cəmi bir nəfər köməkçim var. Nazirlər Kabinetinin iki şöbəsi mənim kurasiyamdadır: elm, mədəniyyət və xalq təhsili şöbəsi, bir də səhiyyə və sosial problemlər şöbəsi. Köməkçi də, hər iki şöbənin əməkdaşları da öz iş məsuliyyətini hiss edən, məşğul olduqları sahəni yaxşı bilən, az maaşla kifayətlənən, vicdanlı, təvazökar, zəhmətkeş insanlardır. Mənim üçün səmimilik və mənəvi təmizlik ən qiymətli insani keyfiyyətlərdir. O ki qaldı gündəlik rejim məsələsinə, mən bir o qədər də rejimlə yaşayan adam deyiləm. Çox erkən yuxudan qalxıram, səhər saat onun yarısına qədər yaradıcılıq işləri ilə məşğul oluram, dünənki mətbuatı oxuyuram, (vaxt çatışmazlığından qəzetləri çıxan gün müfəssəl oxuya bilmirəm) mütaliə edirəm. Saat 10-da isə iş kabinetimdə oluram və günorta bir saatlıq fasilə edib, günün axırına qədər işləyirəm.

– İş vaxtınız saat neçədə qurtarır?

– Axşam saat 9.30-da, 10-da. Bəzən isə elə olur ki, gecə saat 12-də, 1-də.

– Şənbə, bazar günləri necə?

– Bizim üçün şənbə, bazar yoxdur. Bunu da deyim ki, beləcə gərgin iş yalnız mənimlə bağlı deyil. Bütün rəhbərliyin işi be-

lədir. Bunun ən bariz nümunəsi Prezidentin gündəlik iş fəaliyyətidir.

– Zəhmət olmasa öz tərcümeyi-halınız və ailəniz haqqında danışın.

– Mən Bakıda, xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində anadan olmuşam. ADU-nun filologiya fakültəsini bitirdikdən sonra, universitetin Elmi Şurasının qərarı ilə imtahanları verib ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturaya daxil olmuşam, namizədlik dissertasiyasını müdafiə etmişəm, Nizami adına Ədəbiyyat İnstitutunda rəhmətlik Məmməd Cəfər müəllimin ədəbiyyat nəzəriyyəsi şöbəsində əvvəlcə kiçik elmi işçi, sonra baş elmi işçi işləmişəm. 1975-ci ildən etibarən düz 12 il Yazıçılar İttifaqına rəhbərlik etmişəm, «Vətən» Cəmiyyətini təsis edəndən sonra, orada sədr işləmişəm. 1993-cü il sentyabrın 1-dən indiki vəzifəmə təyin edilmişəm. Və bütün bu illər ərzində də yazmışam, yazmışam... Ailəyə gəldikdə isə, beş nəfərik: mən, yoldaşım, üç qızım. Amma indi altı nəfərik: böyük qızım ailə qurub və onun yoldaşı da olub ailəmizin altıncı üzvü.

– Siz çox məhsuldar yazıçısınız. Eyni zamanda cəsarətli tənqidçi, ədəbiyyatşünas, tərcüməçi... Yetmiş-səksəninci illərdə siz, o zamankı Ümumittifaq ədəbi prosesin ən fəal iştirakçılarından biri kimi geniş tanınırsınız. Misal üçün, sizin «Literaturnaya qazeta» kimi nüfuzlu mətbuat orqanındakı çıxışlarınız Azərbaycan ədəbi mühitində hadisəyə çevrilirdi. Siz bir çox Ümumittifaq əhəmiyyətli ədəbi mükafatların laureatısınız. Əsərləriniz dünyanın bir çox ölkələrində çap olunub. Yaradıcılığa nə zaman başlamısınız?

– Əlifbanı öyrəndiyim vaxtdan yazmağa başlamışam. Məktəbdə verilən ev tapşırıqlarının əvəzinə, oturub hekayə yazırdım. 1959-cu ilin yayında «Azərbaycan gəncləri» qəzetində ilk hekayəm çap olunanda 16 yaşım yenicə tamam olmuşdu. Amma bütün bunlar hamısı, əlbəttə, yaradıcılıq deyildi, həvəskarlıq idi.

– Siz dövlət xadimi ilə yaradıcılıq fəaliyyətini birgə necə aparırsınız? Elçin – yazıçı və Elçin Əfəndiyev – dövlət xadimi bir-birinə mane olmur ki?

– Əlbəttə, dövlət işində çalışmağım, vaxtın çatışmamazlığı baxımından yaradıcılıqla məşğul olmağa imkan vermir və bu mənada Elçin Əfəndiyev yazıçı Elçinə mane olur, amma təskinlik bu-

rasındadır ki, Elçin Əfəndiyev də müşahidə etdiyi, şahidi olduğu, gördüyü hadisələr haçansa yazıçı Elçinə lazım olacaq.

– Siz indi nəşr olunursunuzmu? Əgər olunursunuzsa, onda axırıncı nəşrləriniz və yaradıcılıq planlarınız haqqında danışın.

– Son dörd ildə bir-birinin ardınca üç komediya yazmışam və onlar Milli Dram Teatrımızda qəbul olunub. Ancaq maliyyə çətinlikləri ucbatından Milli Dram Teatrının təmiri uzanır. Bu komediyalar isə, məhz həmin teatr üçün yazılıb. Bir tamaşa demək olar ki, tamam hazırdır. «Ah, Paris, Paris!..» adlı bu tamaşanın quruluşunu istedadlı rejissorumuz Azər Paşa Nemətov verib, ancaq tamaşanı saxlamışıq ki, təmirdən sonra tamaşaçılara göstərək. «Mən sizin dayınızam» komediyası A.Şarovskinin quruluşunda bir ilə yaxındır ki, S.Vurğun adına Rus Dram Teatrının səhnəsində gedir. Professor V.Quliyevlə bərabər yazdığımız «Özümüz-sözümüz» kitabı nəşr edilib. Bu kitab klassik Azərbaycan ədəbiyatında, folklorunda işlənmiş janr və formaların izahlı lüğətidir və bu sahədə Azərbaycan ədəbiyyatşünaslığında ilk təşəbbüsdür. Məmməd Əmin Rəsulzadənin həyat və fəaliyyəti haqqında yazdığım kiçik monoqrafiya kitabça şəklində nəşr olunub. Üzeyir bəy Hacıbəyovun publisistikasına həsr edilmiş «Bəstəkarın vətəndaş sözü» adlı monoqrafiyam yenicə çapdan çıxıb. Molyerin komediyaları mənim tərcüməmdə «Molyer və Azərbaycan» adlı ön sözümlə nəşr edilib. «Klassik aşıq poeziyasında «Dünya» obrazı» adlı bir böyük esse yazıb bitirmişəm. Ancaq bu gün əsas etibarilə əvvəllər yazdığım əsərlər xarici ölkələrdə çap olunur və hər dəfə də gizlətmək istəmirəm, mənim üçün xoş bir sürpriz olur. Son iki ildə «Ölüm hökmü» romanı Moskvada rus dilində, İstanbulda isə türk dilində nəşr edilib. Moskva radiosu bu romanın əsasında hər biri bir saat olan altı hissəli radio-tamaşanı efirdə səsləndirib. «Ağ dəvə» romanı İsveçrədə alman dilində çapdan çıxıb. Seçilmiş hekayələrimdən ibarət kitabım Çində nəşr olunub. «Mahmud və Məryəm» romanım Ankarada və İstanbulda iki müxtəlif nəşriyyatlarda işıq üzü görüb. «Şuşa dağlarını duman bürüdü» adlı hekayələr kitabım İstanbulda çapdan çıxıb. Bu siyahını uzatmaq istəmirəm. Ancaq bütün bunlar, dediyim kimi, bu gün yox, dünən, srağagün yazdıqlarımdır. Yazmaq istədiklərim çoxdur, amma ən böyük çətinlik vaxt, vaxt, yenə də vaxtdır...

– Keçmiş SSRİ-də Siz yaradıcı adam kimi populyar idiniz. Bu indi sizə kömək edirmi?

– Söylədiyim bu nəşrlərin işıq üzü görməsində, xarici ölkə nəşriyyatlarının ayrı-ayrı nəşrlər üçün mənimlə müqavilə bağlamalarında, yaradıcılıq baxımından bir sıra çox maraqlı təklif və sifarişlərin (misal üçün, «Mahmud və Məryəm»in əsasında Fransada film çəkilməsi) verilməsində mən tərəfindən heç bir təşəbbüs olmayıb, təşəbbüs qarşı tərəfdən gəlib və burada yəqin siz dediyiniz o populyarlığın rolu az deyil.

– Sizin yazıçılıq keçmişinizin dövlət postundakı fəaliyyətinizlə kəsişdiyi qeyri-standart hadisə və vəziyyətləri xatırlaya bilərsinizmi?

– Əgər yazıçı, həqiqətən, yazıçıdırsa, onun keçmişi də, sabahı da yazıçıdır. Bu gün biz ərazisinin 20 faizindən çoxu işğal olunmuş, bir milyondan artıq qaçqına malik bir ölkənin öz müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə apardığı tarixi bir mərhələdə yaşayırıq və gündəlik iş fəaliyyətimdə bəzən elə məqamlar olur ki, yazıçı emosionallığı, həyəcanı dövət adamına lazım olan soyuqqanlığı üstələyir...

– Məlumdur ki, siz makinada çox pis çap edirsiniz... İndi necə – artıq öyrənmisiniz, yoxsa kimə isə tapşırırsınız?

– Pis-yaxşı, yazılarımı makinada yalnız özüm çap edirəm. Əvvəllər də belə idi, indi də belədir. Allah qoysa, yəqin ki, sabah da belə olacaq.

– Siz Azərbaycanın məşhur dramaturqunun oğlusunuz, atanızın ideyalarının davamçısısınız. Uşaqlarınız sizin yolunuzla gedirmi, siz onlara peşə seçimində təsir etmisinizmi? Zəhmət olmazsa, onlar haqqında və sizin onlara münasibətiniz haqqında danışın. Siz özünüzü tələbkar ata hesab edirsiniz?

– Böyük qızım Bülbül adına orta ixtisas musiqi məktəbini qızıl medalla bitirdikdən sonra Tibb Universitetinə daxil oldu, indi altıncı kurs tələbəsidir. Onun həyat yoldaşı iqtisadçıdır. İkinci qızım M.Ə.Rəsulzadə adına BDU-nun hüquq fakültəsində əyani oxuyur. Eyni zamanda, Qərb universitetinin politologiya fakültəsində qiyabi təhsil alır. Hər iki universitetin beşinci kursundadır. Kiçik qızım isə Bülbül adına musiqi məktəbinin dördüncü sinfini hələ yenicə bitirib. Böyük qızım Günayın yazmaq həvəsi var, hətta bir hekayəsi artıq dərc olunub. O ki, qaldı aramızdakı münasibətə, biz hər şeydən əvvəl dostuq.

– Həyatınızda elə şeylər olubmu ki, siz təəssüflənirsiniz və

düzəltmək istəyirsiniz? Özünüzdəki hansı keyfiyyətlər sizi qane etmir?

– Haçansa hədər keçirdiyim vaxta təəssüf edirəm. Bəzən lap yanıb-yaxılıram... Cavanlıqda adama elə gəlir ki, vaxt dayanıb gözləyir... Amma təəssüf ki, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Sualınızın ikinci hissəsinə gəldikdə isə, hərdən hissə qapılıram, sonra peşmançılığını çəkirəm...

– Təbiətcə siz fatalistsiniz, yoxsa praqmatik?

– Çox güman ki, fatalistlikdən nəsə var, amma qətiyyən praqmatik deyiləm.

– İşin «həddən aşan» vaxtlarında elə anlar olubmu ki, hər şeyi atıb tamamilə yaradıcılığa qayıtmaq istəyəsiniz?

– Olub.

– Zəhmət olmazsa, dinə münasibətinizdən danışın.

– Mən Allaha inanıram və dini bəşəriyyətin ən böyük mənəvi sərvəti hesab edirəm. 1994-cü il iyul ayının 9-da Məkkədə, müqəddəs Kəbə evində qıldığım namaz həyatımın ən işıqlı anlarındandır və o işıq, o təəssürat ömrümün sonunacan mənimlə olacaq.

– Asudə vaxtınızda nə ilə məşğul olursunuz?

– Təəssüf ki, mənim boş vaxtım olmur.

– Tənqidi necə qəbul edirsiniz?

– Ağıllı tənqiddirsə, o barədə fikirləşirəm, götür-qoy edirəm. Dayaz, primitiv tənqiddirsə, mənə təsir etmir. Adi iraddırsa, dedi-qodu, şayiə, yalan və böhtandırsa, çalışıram ki, imkan daxilində əhəmiyyət verməyim, ancaq əlbəttə, imkan daxilində...

– İşgüzar naharları sevirsinizmi, hansı şəraitdə onlara yol verirsiniz?

– Yox. Mənim aləmimdə yeyib-içmək, o cümldən də nahar ya ailə üzvləri ilə olmalıdı, ya da dostlarla.

– Dostlarınız çoxdur?

– Dost o adamlardır ki, bir-birinə canı yana. Ustad Molla Cümə isə deyib ki, «canı yanan ya bir olar, ya iki...» Bu yerdə qoca Molla Cümə ilə həmfikirəm.

– Vaxtilə Anar yazmışdı ki, ən çətin vaxtlarımda dostlarımın arasında birinci Elçin yadıma düşür. Bəs siz onun haqqında nə deyə bilərsiniz?

– Mən Anarın xətrini çox istəyirəm, onu həqiqi dost hesab edirəm.

– Ötən bu illər dostluğunuza xələl gətirməyib?

– Yox.

– Aranızda inciklik olmur?

– Hərdən olur. Amma bu inciklik yaxın adamların incikliyindən o tərəfə keçmir, tez də unudulur.

– Həyatdan köçən yaxın dostlarınız olubmu?

– Çox təəssüf ki, olub...

– Həyat yoldaşınız nə ilə məşğuldur? Mübahisəli məsələlərdə son söz kimindir və belə mübahisələr tez-tezmi olur?

– Mənim həyat yoldaşım musiqişünasdır. Bülbül adına musiqi məktəbində dərs deyir. Əlbəttə, hərdən ötəri mübahisələr olur, amma sonuncu sözün kimə məxsusluğu baxır həmin mübahisənin səbəbinə.

– Siz atanızın qeydlərinə qulaq asırsınızmı? Sizin yaradıcılığınızda onun daha çox nə xoşuna gəlir, nə daha çox etiraz doğurur?

– Bəli! Atamın fikirləri, məsləhətləri mənim üçün çox qiymətlidir və mən onunla hesablaşıram. O ki, qaldı sualınızın ikinci hissəsinə, onu atamın özündn soruşsanız, elə bilirəm ki, daha düzgün olar.

*Müsahibəni apardı Şahin Məmmədxanov.*
*1996.*

# E L Ç İ N: «MƏN O TƏRBİYƏNİN, O ƏXLAQIN YİYƏSİ DEYİLƏM»

– Yazıçı Elçin Baş nazirin müavini Elçin Əfəndiyevin kreslosunda özünü necə hiss edir? Səlahiyyətinə aid vəzifələrin öhdəsindən gələ bilirmi?

– Yazıçı Elçin, şübhəsiz, Baş nazirin müavini kreslosunda özünü yaxşı hiss edə bilməz. Təkcə ona görə ki, yazıçı Elçin öz vaxtının çox böyük hissəsini baş nazirin müavini vəzifəsini yerinə yetirməyə sərf edir. Yazıçı üçün ideal şərait vaxtını yazı masasının arxasında keçirməkdir. Yəqin bu fikirdən sonra soruşacaqsınız: onda niyə vaxtımı seçdiyim və sevdiyim peşəyə həsr etmirəm? Bu bir həqiqətdir ki, yaşadığımız keçid mərhələsində mədəniyyətimiz, ədəbiyyatımız çox böyük böhran içərisindədir. Hətta on illər boyu əldə etdiyimiz bir çox uğurlar belə məhv olmaq təhlükəsi ilə üzləşib. Bu sahədə gördüyüm və görmək istədiyim işlər məndə müəyyən təskinlik yaradır. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, mən, hər halda, Azərbaycan mədəniyyətinə hansısa bir çinovnikdən daha çox bələdəm. Bu baxımdan müstəqil dövlətimizin mədəniyyətinə xidmət etməyi də bir ziyalı kimi özümə mənəvi borc bilirəm. Daşıdığım vəzifələrə də vətəndaşlıq borcu kimi baxıram.

– Dövlət onsuz da mədəniyyətə, təhsilə, səhiyyəyə büdcədən çox az vəsait ayırır. Bizdə olan dəqiq məlumata görə, bu ayrılan az vəsaitin də hamısı təyinat yerinə çatmır. Sizin bunlardan xəbəriniz varmı?

– Bu, həqiqətdir və burada heç bir sirr yoxdur. Ötən il bu sahələrə ayrılan vəsait kəsrlə ödənilib...

– Ancaq hüquq-mühafizə orqanlarına dövlət üst-üstə mədəniyyətə, təhsilə, səhiyyəyə ayırdığından daha çox vəsait ayırır.

– Unutmayın ki, Azərbaycan müharibəyə cəlb edilmiş ölkədir. Və bir sıra dövlətlər hələ də Azərbaycanda sabitliyin olmasında maraqlı deyil. Öz məqsədləri üçün çox vasitələrə əl atırlar. Dövlətçiliyimizə qarşı bu qəbildən olan təxribat cəhdlərinin qarşısını vaxtında alıb zərərsizləşdirməkdən ötrü bizim güclü ordu-

muz və mütəşəkkil fəaliyyət göstərən hüquq-mühafizə orqanlarımız olmalıdır.

Mədəniyyətimizə gəldikdə isə, ayrılan vəsaitin azlığı, şübhəsiz, məni qayğılandırır. Ancaq nə etmək olar. Ayağı yorğana görə uzadarlar... Burada bir məsələyə də aydınlıq gətirmək gərəkdir. Qabaqlar mədəniyyət, ədəbiyyat təşkilatlarına ayrılan vəsaitin müqabilində hakim ideologiya öz iradəsini diqtə edirdi. Orası da var ki, əsl yaradıcı adamlar çətin olsa da, həmişə öz sözlərini deyiblər, yaratdıqları əsərlərdə mümkün qədər «xaltura»çılıqdan qaçıblar. Böyük əksəriyyətində isə bir qəyyumçuluq ovqatı yaranmışdı. Yeni hakim ideologiyanın istənilən tapşırığını «əlüstü» yerinə yetirirdilər. Bunun müqabilində həmin adamlara mükafatlar da verirdilər, ehtiyaclarını da ödəyirdilər. Bu cür sifarişli, «aktual» mövzular arxasında asanca gizlənmək olurdu. Beləlləri bu gün də var. Ancaq o da qeyd edilməlidir ki, bu axında istər mədəniyyət sahəsində, istərsə də dəqiq elmlərdə çox böyük nailiyyətlər əldə etmişik. İndi də fəxr etməkdəyik. Hazırda vəziyyət tamamilə dəyişib. Heç bir yaradıcı təşkilata yuxarılardan təlimatlar göndərilmir. Azad fəaliyyət üçün şərait yaranıb. Əvəzində pul yoxdur. Çalışıb elə mexanizmlər tapılmalıdır ki, maliyyə baxımdan dövlətdən az asılı olsunlar.

Azərbaycan iqtisadiyyatının bugünkü mənzərəsindən hamının xəbəri var. Rusiya ilə yolların bağlı olması və başqa səbəblər iqtisadiyyatımıza güclü zərbələr vurub, zavodların böyük hissəsi tam gücü ilə işləyə bilmir. İstehsalat yoxdursa, deməli, dövlətin pulu da yoxdur. Bu ümid var ki, iqtisadi islahatları başa çatdırdıqdan sonra problemləri həll etmək nisbətən asan olacaq.

– Namuslu sözün, səmimi sözün yiyəsi olanların qeyri-səmimi mühitə uyğunlaşmasını necə qiymətləndirirsiniz? Sizə elə gəlmir ki, bu mühitə uyğunlaşa bilənlərin səmimiyyəti də yalançı səmimiyyət imiş?

– Səmimi adamın qeyri-səmimi, qeyri-əxlaqi mühitə uyğunlaşması mümkün deyil. Bunun heç bir alternativi ola bilməz.

– İstedadlı yazıçı Elçin özünün bioqrafiyasında Surət Hüseynov kimi bir «intellekt» yiyəsinin müavini vəzifəsində işləməsinə razılıq verməsinə nə ilə haqq qazandırmaq istərdi?

– Burada nəyəsə haqq qazandırmağa ehtiyac yoxdur. Mən indiyə qədər tutduğum bütün vəzifələrdə yalnız və yalnız Azərbaycan xalqına, mədəniyyətinə, ədəbiyyatına, mənəviyyatına



10-14

xidmət etmişəm və bundan sonra da işimi bu yöndə təsəvvür edirəm.

– 1989-cu ildə çapdan çıxan «Ölüm hökmü» kitabınıza ön sözünüzdə şair İsa İsmayılzadə yazır ki, repressiya dövrünün müdhiş mənzərələri ilə yanaşı 70-ci illərin durğunluq dövrünün ağ yalanları, gözqamaşdırıcı təmtəraqları, pripiskaları əsərdə təbii boyalarla oxucuya təqdim olunur. Bu sözlərə dəstək kimi əsərdən bir neçə detalı xatırlatmaq istəyirəm: Həkim Nəcəf Ağayeviç qanunsuz eyvanını şikayətlərdən sığortalamaq üçün Brejnevin iri portretini şüşəbəndin üstünə vurdurur. Yaxud, Gicbəsər adlı bir it Qafarzadə mühitinə – 70-ci illərin ictimai-siyasi mühitinə etiraz əlaməti olaraq özünü dəmir relslərin üzərinə ataraq intihar edir. Adi bir itin intiharı fonunda Elçin bugünkü yüksək vəzifəsində Nəcəf Ağayeviçlərin, Qafarzadələrin daha çinli prototipləri ilə addımbaşı ünsiyyətdə olmasını necə həzm edir?

– Heç bir həzm etməkdən söhbət gedə bilməz. Mən əsərlərin heç birinin müəllifliyindən imtina etmək fikrində deyiləm. Öz əsərlərimi həmişə qəlbimin iradəsi ilə və səmimi şəkildə qələmə almışam. Aydındır ki, bu tipli adamlarla mən indi də rastlaşıram. Bu cür adamlar 10-20 il bundan qabaqlar da var idi, indi də var və gələcəkdə də olacaq. Belə adamlarla biz hamımız vəzifədə olub-olmadığımızdan asılı olmayaraq qarşılaşırıq. Öz sahəmdə imkanım daxilində onlarla mübarizə aparıram. O adamları yaxına buraxmamaq, onlardan uzaq olmağa çalışıram. Bir də ki, bu qəbildən olan adamlar olmasaydı, heç mübarizə aparmaq əzmində insanlar da olmazdı.

– «Aydınlıq» qəzetində dərc olunan H.Əliyevlə bağlı məqalənizin bugünkü karyeranızda xüsusi rol oynaması fikri ilə razılaşırsınızmı?

– Xeyr, razılaşmıram. Həmin yazı «Aydınlıq» qəzetində o zaman dərc olunmuşdu ki, layiq olan da, olmayan da, bacaran da, bacarmayan da nəsə bir vəzifə almaq, kiminsə gözündə yaxşı görünmək üçün H.Əliyevin kölgəsini qılınclamağa girişmişdi. Mən belə əxlaqı heç zaman qəbul etməmişəm və bundan sonra da qəbul etməyəcəyəm. Mənim H.Əliyev şəxsiyyətinə münasibətim həmişə sabit olub. Müəyyən vaxtlarda çox güclü təsirlər, hətta şirnikləndirici təkliflər olub ki, mən öz mövqeyimi dəyişim, necə deyərlər, əks mövqedən çıxış edim, amma mənim xasiyyətimdə bu mümkün olan şey deyil. Həmin yazı da mənim hələ cavan yaş-

larımdan H.Əliyev şəxsiyyəti, bu şəxsiyyətin miqyası ilə bağlı müşahidələrimin tamam obyektiv ifadəsi idi və məhz o dövrdə yazılmalı idi, çünki o dövrdə buna ehtiyac var idi. Həmin dövrdə mənim müsahibələrimi, publisist yazılarımı nəzərdən keçirsəniz, televiziyada, radioda, xüsusən, xarici radio dalğalarında çıxışlarımı yada salsanız, bu bir sabit xəttdir. O zaman H.Əliyev heç bir yerdə işləmirdi. Və mən də falçı deyiləm ki yazım... Əgər konyukturaya qalsaydı, sağ əli başının üstündən aparıb sol qulağı qaşımağa nə ehtiyac var idi? Məgər ən asan yol bir çoxları kimi, elə həmin dövrlərin rəhbərlərini təriflərnək deyildi? Məsələyə bu aspektdən yanaşanlara, olmayan yerdən qurdalayıb nəsə çıxarmaq həvəskarlarına demək istəyirəm ki, mən Elçin o tərbiyənin, o əxlaqın yiyəsi deyiləm. Hər hansı bir vəzifəyə də şəxsi rahatlıq, xüsusi imtiyaz mənbəyi kimi baxmamışam. Mənim üçün vəzifə qəti surətdə məqsəd deyil. Mən indiki vəzifəmə qədər kim idimsə, indi də həmin adamam və bu vəzifədən gedəndən sonra da həmin adam olacağam.

– Bir vaxtlar cəmiyyətdəki problemlərlə bağlı mətbuatda öz publisistik yazılarınızla da çıxış edirdiniz. Siz Azərbaycan TV-nin bugünkü şit, bayağı reklam «rolik»lərinə, «Azərbaycan» qəzeti başda olmaqla bir sıra mətbuat orqanlarının qarayaxmalarına necə baxırsınız? Mətbuatda siyasi senzuranın mövcudluğundan xəbəriniz varmı?

– Əvvəla orasını deyim ki, işimin həddən artıq çoxluğundan mətbuatı ardıcıl izləmək imkanım çox azdı, halbuki, uşaqlıqdan buna adət etmişəm. Hərdən elə olur ki, bir həftənin mətbuatını mən yalnız bazar günü imkan tapıb nəzərdən keçirirəm. Sualınıza cavaba gəldikdə isə burada da bir cəhəti qeyd etmək istəyirəm: «bu iqtidarındır, ona görə pisdir, bu isə müxalifətindir, ona görə yaxşıdır» prinsipini mən heç cürə qəbul etmirəm. Əsrin əvvəllərində Azərbaycanda yüksək intellektual səviyyəli və yüksək də mədəniyyətə malik milli jurnalistika məktəbi yaranmışdı və bu məktəbin parlaq ənənələri və müxtəlif dünyagörüşlü, müxtəlif nümayəndələri var idi: C.Məmmədquluzadə, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Faiq, H.Minasazov və başqaları həmin məktəbin ənənələri bu müxtəlif ədibləri milli təəssübkeşlik üstündə birləşdirirdi. Bu gün bir küll halında Azərbaycan mətbuatı da həmin işıqlı ənənələri davam və inkişaf etdirirmi? Yox! Bax, bizi ilk növbədə bu cəhət düşündürməlidir. İlk növbədə mətbuatımızın,

digər informasiya vasitələrimizin ümumi səviyyəsini qaldırmaq üçün çalışmalıyıq, yəni, milli, mədəni və intellektual səviyyəni qaldırmalıyıq. Yoxsa ki, «obıvatel» dedi-qodusu, bir-biri ilə haqq-hesab çürütmək, mərifət mənasında böyük-kiçik bilməmək, özündən demək... Senzura məsələsinə gəldikdə isə, konstitusiyamızda aydın göstərilib: mətbuat azaddır. Eyni zamanda, şübhəsiz ki, müharibəyə cəlb olunan və təklənən ölkənin spesifikası da nəzərə alınmalıdı.

– Təmsil olunduğunuz iqtidarın Azərbaycan cəmiyyətinin əxlaqında formalaşdırmaq istədiklərinin nə vaxtsa məsuliyyətinə şərik olacaqsınızmı?

– Bu sualın qoyuluşu, fikrimizcə, düzgün deyil. Aydın olmur ki, iqtidarın formalaşdırmaq istədiyi nədir ki, sizi bu qədər narahat edir. Millətin əxlaqı, onun formalaşması çox incə və qədimlərə gedib çıxası söhbətin mövzusu ola bilər. Millətin əxlaqı min illərlə böyük tarixi və mənəvi hadisələr zəminində mərhələ-mərhələ formalaşan, cilalanan bir prosesdir.

– 60-70-ci illər ədəbiyyatının görkəmli nümayəndələri – Ə.Əylisli, Anar, Y.Səmədoğlu, Elçin, V.Səmədoğlu, F.Qoca, M.Araz, nisbətən bir az gənc M.Süleymanlı, R.Rövşən, V.Bayatlı, M.Oruc, E.Baxış və başqaları bir vaxtlar əsl ədəbiyyatın yaradıcıları, təəssübkeşləri idilər. Bu mövqe siyasi müstəviyə keçəndə yollar ayrıldı. Kimlər iqtidar, kimlərsə müxalifət yolunu tutdu.

– Mən buna təbii baxıram. Ədəbi zövqlə siyasi mövqeyi eyniləşdirmək düzgün deyil. Eyni dərəcədə istedadlı adamlarda müxtəlif dünyagörüşü ola bilər. Bu, dünya praktikasında da özünü göstərib. Knut Hamsun kimi nəhəng yazıçı faşist ideologiyasına rəğbət bəsləyirdi. E.Heminquey isə faşizm ideologiyasına qarşı əlində silah mübarizə aparıb...

Adını çəkdiyiniz qələm doslarımdan bəzisi cəmi iki il yarım bundan əvvəl iqtidarın töhfə təbərciyi idi, müxalifətdə olan Elçin isə təkcanına gecəsini gündüzünə qatıb Azərbaycan milli mənliyinin təsdiqində və təbliğində az rolu olmayan «Vətən» Cəmiyyətini dağılmağa qoymurdu. Bu gün isə Akif Məmmədov adlı müəllif sizin qəzetdə yazır: «Əsərləri ilə 70-ci illər bədii nəsrinin yaradılmasında çox böyük xidmətləri olan yazıçı Elçin dövlət adamı olan kimi ədəbiyyatımız onu «dəfn» etdi». Doğrusu, bu iddialı, eyni zamanda gülməli mülahizəni oxuyanda gənc qələm dostuma (onu şəxsən tanımıram, amma güman edirəm ki, gəncdir) qoca

Mark Tvendən iqtibas edərək teleqram göndərmək istədim: «Əziz dost! Mənim dəfnimi bir az şişirtmisiniz!» Ancaq sonra ona əhəmiyyət vermədim, çünki «ədəbi dəfn» meyarlarını Akif Məmmədov yox, zaman müəyyən edir. İndi isə fürsətdən istifadə edib Akif dostuma bunu demək istəyirəm ki, Elçinin «dövlət adamı olması» səni nə üçün bu qədər dəhşətə gətirir və belə bədbin fikirlərə düçar edir? Axı, söhbət hər hansı bir başqa dövlətdən yox, Azərbaycan dövlətindən gedir. O dövlətdən ki, ona xidmət etmək mənim də, sənin də ilkin borcumuzdur: Mən sənə də, millətə imkanların daxilində xidmətlər göstərəndən, təcrübə, səriştə qazanandan sonra haçansa «dövlət adamı olmaq» arzulayıram. Mən hələ müxalifətdə olduğum 90-cı illərin əvvəllərində tez-tez dediyim bir fikri yenə təkrar etmək istəyirəm: müxalifət konstruktiv olmalıdır, iqtidar da, müxalifət də Azərbaycan dövlətçiliyinə xidmət etməlidir. Müxalifət Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi naminə iqtidarı obyektivcəsinə tənqid etməlidir, daha, itirilmiş kresloları bərpa etmək naminə yox.

– Baş nazirin müavini konstitusiyada dillə bağlı məsələlərin müzakirəsində öz müstəqil fikrini söyləyib, azlıqda qalan qrupun içində fikrini axıra qədər müdafiə yolunu tutdu. Maraqlıdır, başqa elə şeylər olubmu ki, Elçin yüksək kürsüdən çoxluğun dediyi fikirlə razılaşmayıb öz sözünü desin?

– Sizə niyə elə gəlir ki, mən baş nazir müavini olduğum üçün fikrimi deməkdən çəkinməliyəm. İstəyirəm biləsiniz, ola bilməz ki, istər öz sahəmdə, istərsə də iştirakçısı olduğum müzakirələrdə mən ziyanlı bildiyimin əleyhinə fikrimi bildirməyim. Sizə səmimi deyirəm. Buradan mən çox şeyləri sizlərdən – jurnalistlərdən, kənardan müşahidə edənlərdən yaxşı görür və bilirəm. Mən bu ada inana-inana işləyirəm. Mən özümə inanıram, xalqıma inanıram, H.Əliyevə inanıram.

*Müsahibəni Elçin SƏLCUQ apardı.*
*1996*

## BAKIDA ŞİMAL KÜLƏYİ ƏSİRDİ...

*(20 Yanvar faciəsi)*

Bu soyuq külək zaman-zaman öz sərtliyi ilə bu millətin köksünü dəlmiş, bəzən də bihuşedici mehi ilə onu uzun-uzadı oxşamış, mürgülətmişdir. Xalqımızın qan yaddaşındakı olaylar 70 il idi ki, onun yuxusuna «şirinlik» qatmışdı. Lakin mixaylovların, girenkoların, daha kimlərin başımızın altına qoyduqları yastıqların içi həmişə barıtla yüklənmişdi. Ona görə də öz vətənini sevib, lakin hadisələrin məntiqi sonluğunu düşünmədən müqəddəratımızı ağ əllərin qara niyyətinə tapşıran xan babalarımızdan başlanan səhvlərimizin kulminasiyası 19 yanvar 1990-cı ildə tamamlandı. Oyanışı gecəyə düşən bu başıbəlalı millət şəhid qanına boyandı. Şimaldan əsən buzlu küləklər bizə «ağıl dərsi», «həyat» dərsi verdi. Amma itkilərimiz qazancımızı üstələyə bilmədi. Çünki gözlərimizdən axan qanlı yaşlar qan yaddaşımızı silkələdi. Ayılıb gördük ki, bizi kəsən baltaların sapı özümüzdən olsa da, özümüzdən savayı söykənəsi kimsəmiz də yoxdur.

O faciəli günlərdə bütün ümidimiz hər yerdən üzülmüşdü, dünya ilə əlaqələrimiz kəsilmişdi. «Vətən» Cəmiyyəti isə bu millətin itmiş ümidini, tükənmiş səbrini özünə qaytardı. Başımıza gətirilən faciələri min bir çətinliklə də olsa bütün dünyaya yaydı. O faciəli günlərdə bir daha dərk etdik ki, ən çətin məqamda söykənəcəyi özüdür. Biz belə düşünürük. Bəs, həmin dövrü «Vətən» Cəmiyyətinin sədri, Ali Sovetin deputatı, hazırda baş nazirin müavini, yazıçı ELÇİN necə xatırlayır?

– Bəli, o günlər biz bütün dünyadan təcrid olunmuşduq, təklənmişdik. Həmin günlərdən bizi 7 illik vaxt ayırmasına baxmayaraq, o soyuq yanvar gecəsi heç vaxt xalqın yaddaşından silinməyəcək. Çünki həmin gecə bu millət özünün şərəfli tarixinin yeni bir vərəqini yazmışdır. Zaman məsafəsi çoxaldıqca faciənin kökləri daha da dərindən görünməyə başlayır. Yəni su duruldaqca dibindəkilər daha aydın görünür. O günlərdə köləlikdən azadlığa təşnə olan bu xalq azadlıq, müstəqillik eşqi ilə, ən nəhayət,

insan olaraq, millət olaraq öz haqqını müdafiə etmək məqsədilə ayağa qalxdı. İmperiya qüvvələri isə bu arzunu, ümidi gecə ikən atəşə tutdu. Siz o günlərin ağrı-acısını mənə yenidən yaşatdınız.

Həmin ərəfədə Moskvanın Bakıda yüksək rütbəli nümayəndələri var idi. Mərkəzi Komitənin katibi Girenko, Mixaylov və başqaları. Vəziyyət son dərəcə gərgin idi. Biz bir neçə nəfər ictimaiyyətin nümayəndəsi kimi onlarla görüşməyi tələb etdik. Yanvarın 17-18-də keçirilən görüşdə onlar şəxsən mənim özümə dedilər ki, Azərbaycana, Bakıya ordu yeridilməyəcək, Bakıda qan tökülməyəcək. Hətta bizim bir nəfər yüksək rütbəli şəxslə Mixaylov Azərbaycan televiziyası ilə çıxış edərkən şəhərə qoşun yeridilməyəcək, qan tökülməyəcək deyə xalqı sakitləşdirdilər.

Lakin real vəziyyət deyilənlərin əksini göstərirdi. Bütün ziyalılar gərginlik içərisində idi. Mən nə isə baş verəcəyini, nə isə olacağını hiss eləyirdim. Heç ola bilməzdi ki, bu qədər gərginlik səssiz-səmirsiz, asanlıqla öz məcrasına düşsün. Onda ola ki, bu gərginlik sovet imperiyası kimi bir kabusun can vermək ərəfəsində ola. Bilirsiniz, nəhəngin can verməsi də, ölümü də dəhşətli kataklizmlər yaradır. Bu imperiya da asanlıqla kürəyini yerə qoya bilməzdi, canını tapşırmazdı. O, yaşamaq üçün son qüvvəsini toplayıb ayağa durmuşdu. Diqqət yetirin, həmin illərdə bir neçə respublikada buna bənzər hadisələr oldu. Münaqişə ocaqları yarandı. Tarix boyu belə olmuşdur, imperiya yaşaması üçün nəyi desən qurban verməyə hazırdır. Həmin vaxt ölkənin başçısı M.S.Qorbaçov demokratiyadan, aşkarlıqdan, azadlıqdan, insan hüquqlarından uzun-uzadı danışsa da, başını itirmişdi. O, dağılmaqda olan imperiyanın ipini yığmaq üçün dəfələrlə bir neçə respublikada qan tökdü. Lakin bütün bunlar nəticəsiz qaldı.

Nə isə... yenə qayıdaq həmin günlərə. O şaxtalı qış gecəsinin səhəri biz akademiyaya yığışdıq, oradan da Prezident Aparatının qarşısına toplaşdıq. Xalqın etiraz səsləri ucalsa da, hələ ki, əlimiz heç yana çatmırdı. Tamamilə informasiya blokadasında idik, televiziyanın enerji bloku partladılmışdı, bütün radiostansiyaların səsi batmışdı, qəzetlər çıxmırdı. Şəhər tamamilə Sovet ordusunun əlində idi. Buna baxmayaraq heç bir qüvvə milləti sındırmamışdı. camaat evinə yığışmırdı. Vəziyyət çox ağır idi. Həmin vaxt mən «Vətən» Cəmiyyətində işləyirdim, Cəmiyyətdə bir ədəd teleks var idi. Biz dayanmadan teleksi işə saldıq və bu teleks bir neçə gün Azərbaycanla xarici aləm arasında yeganə əlaqə vasitəsi ol-

du. Başımıza gətirilən faciələri dünya ölkələrinə yaydıq. Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri bəyanat verdi. Həmin bəyanatı da teleksin köməkliyi ilə xaricə çatdırdıq. Artıq bir neçə xariic ölkə bizim yaydığımız məlumatlara və şeyx həsrətlərinin bəyanatına əsaslanaraq etiraz səslərini ucaltdılar. Məsələn, Pakistanın baş naziri B.Buhutto Siyasi Büroya etiraz notası göndərdi. Mərhum perofessor Araz Dadaşzadə ilə mən çox çətinliklə də olsa, görkəmli qazax yazıçısı Olcas Süleymenovla əlaqə saxladıq. Çingiz Aytmatova xəbər etdik, Moskvada bir neçə alimlərlə, yazıçılarla danışdıq, Ukrayna Respublikasına zəng edərək törədilmiş faciələr haqqında onlara məlumat verdik.

– Elə çətin bir vaxtda Ali Sovetin sessiyasının çağırılmasına necə nail oldunuz?

– Əlbəttə, çox çətinliklə. Bayaq dediyim kimi, ölkə tamamilə sovet qoşunlarının əlində idi. Lakin bu o demək deyildi ki, buna görə biz oturmalı, səsimizi çıxartmamalı idik. Həmin dövrdə mən Ali Sovetin deputatı idim. Bəxtiyar Vahabzadə, Anar və mən Ali Sovetin sədri Elmira Qafarova ilə çox ciddi danışıqlara getdik, sessiyanın çağırılmasını tələb etdik. Razılıq əldə etdikdən sonra B.Vahabzadə radio ilə xalq deputatlarına müraciət etdi. Qeyd edim ki, həmin sessiyanın iclası da çox gərgin bir şəraitdə keçdi. İclasın sonunda sessiyada xüsusi qərar qəbul olundu. Bu qərar əsas etibarilə mənim həmin sessiyadakı çıxışımın müddəaları əsasında hazırlanmışdı. Səhər elə həmin sessiyadan Cəmiyyətə gəldim, sessiyanın bəyanatını və əldə etdiyimiz digər məlumatları bir neçə gün dayanmadan teleks vasitəsilə dünyaya yaydıq.

– Elçin müəllim, «Vətən» Cəmiyyəti o qara günlərimizdə bütün qaranlıqları yararaq, sədləri keçərək dünyaya çıxdı. Körpədən tutmuş böyüyə qədər ümidimiz «Vətən» Cəmiyyətinə bir də «Azadlıq» radiostansiyasından gələn səslərə idi. Hamımıza məlumdur və bayaq siz də dediniz ki, şəhər tamamilə işğalçıların əlində idi. Bəs məlumatları xarici ölkələrə necə yaya bilirdiniz, təzyiqlər edilirdimi?

– İslanmışın yağışdan nə qorxusu, bizə olan olmuşdu. Təzyiqlərə gəlincə, onu sözlə ifadə etmək mümkün deyil. Onu da qeyd edim ki, qırğınlar, faciələr həmin gecə ilə qurtarmamışdır. Təsəvvür edin, biz yanvarın 20-də akademiyada etiraz aksiyası olaraq iclas keçirdik və bir-iki gündən sonra həmin iclasın iştirakçıları olan iki görkəmli elm xadimi, professorları tankın altında əz-

dilər. Demək istəyirəm ki, bu proses davam edirdi. Hərbçilər dəfələrlə bizim Cəmiyyətə hücum edirdilər, təzyiq göstərirdilər. Bir gün də bir nəfər rus generalı Cəmiyyətə gəldi və mənə dedi ki, sizi ancaq deputat toxunulmazlığı qoruyur. Onun gəlişi ilə də teleksimiz kəsildi, bizim dünya ilə əlaqələrimizə son qoyuldu. Bakıda bu faciəni öz gözü ilə görmək və obyektiv fikir əldə etmək üçün çox çalışdıq. Amerikanın çox nüfuzlu bir siyasətçisi, konqresmen Cim Mudini Bakıya dəvət elədik, onun Bakıya gəlməsini təşkil etdik. Ölkəmizə gələn Cim Mudi Bakıya səfərini Şəhidlər xiyabanını ziyarətlə başladı. Onu da qeyd edim ki, Cim Mudi Bakıda Şəhidlər xiyabanını ziyarət edən ilk qonaq idi. Sonra bu bir ənənəyə çevrildi. Ölkəmizə səfər edən xarici nümayəndələr, xüsusilə rəsmi şəxslər Bakıya səfərini Şəhidlər xiyabanından başladılar.

– Sizin fikrinizcə, biz 20 Yanvar faciəsini layiqincə dünya ictimaiyyətinə çatdıra bilmişikmi?

– Bu hadisələr o müdhiş faciəyə layiq şəkildə dünya ictimaiyyətinə çatdırılmadı. Həmin günlərdə yalnız bir neçə nüfuzlu sənəd əldə olunmuşdu ki, biz onları yaya bildik: o vaxt Moskvada yaşayan indiki prezidentimiz möhtərəm Heydər Əliyev yanvarın 22-də Moskvada Azərbaycan nümayndəliyinə gələrək kəskin bəyanatlar vermişdi. Həmin bəyanat, şeyx həzrətlərinin bəyanatı, yanvarın 20-də «Vətən» Cəmiyyətinin qəbul etdiyi bəyanat. İlk günlərdə əlimizdə olan nüfuzlu sənədlər ancaq bunlar idi. Tbilisi hadisələrindən bütün dünya, o cümlədən, Moskvanın rəsmi dairələri danışırdı, Bakı qırğını barədə susurdular. Vilnus hadisələri ilə Bakı qırğını müqayisəedilməz dərəcədə fərqli idi. Lakin Vilnusdan bütün dünya danışdığı halda, bizim faciəmiz yada düşmürdü. Mənim fikrimcə, nə biz, nə də xaricdə yaşayan soydaşlarımız bu faciəni lazımınca dünya ictimaiyyətinə çatdıra bilməmişik.

Mən inarıram ki, tariximizin o şərəfli və faciəli günləri haqqında böyük əsərlər yazılacaq. Ola bilsin ki, bizim dövrümüzdə olmasın, bizdən sonra gələn nəsil olsun. Amma Azərbaycanın bədii ədəbiyyatında, şerində, teatr səhnəsində qanlı Yanvar faciəsi özünün çox yüksək bədii-estetik ifadəsini tapacaq.

*Söhbəti yazdı Rəsmiyyə Rzalı.*
*1997.*

## E L Ç İ N: «ƏDƏBİYYAT SƏRBƏSTLİYİN, QƏLİBSİZLİYİN İFADƏSİDİR»

| | |
|---|---|
| Təvəllüd | – 1943-cü il |
| Bürc | – Buğa |
| Doğulduğu yer | – Bakı |
| İxtisası | – Filoloq |
| Vəzifəsi | – Yazıçı |
| Bəyəndiyi qəzet (jurnal) | – «Molla Nəsrəddin» |
| ...televiziya verilişi | – Az.TV-də «Xəbərlər», TRT-də «Haberlər», ORT-də «Vremya» |
| ...idman növü | – yüngül atletika, futbol |
| ...yemək növü | – şüyüdlü plov, yarpaq dolması, balıq kababı və s. |
| ...siqaret | – Fevralın 22-dən qırx ildə ilk dəfə olaraq tərgitmişəm |
| ...ölkə | – Türkiyə (təbii ki, Azərbaycandan sonra) |
| ...şəhər | – İstanbul və Paris (Bakıdan savayı) |
| ...yazıçı | – Azərbaycanda Mirzə Cəlil, Ə. Haqverdiyev və İ. Əfəndiyev |
| ...şair | – Füzuli, Vaqif və Sabir |
| ...aktyor | ...Azərbaycanda M. A. Əliyev, A. S. Gəraybəyli, M. Sənani, M. Mərdanov, M. Vəlixanlı, A. Cavadov, İ. Osmanlı, M. Davudova, B. Şəkinskaya, F. Qədri, S. Hacıyeva, H. Qurbanova... |
| ...müğənni | – S. Şuşinski, Bülbül, X. Şuşinski, Y. Kələntərli, ... |
| Üstün cəhətiniz | – çox fikirləşirəm |
| Çatışmazlığınız | – çox fikirləşirəm |
| Xobbisi | – indi daha xobbiyə vaxtım yoxdur |
| Şəxsi avtomobili | – yoxdur |
| Ailə tərkibi | – həyat yoldaşı, üç qızı, bir nəvəsi |

– Taleyinizdən və Azərbaycan cəmiyyətindəki bugünkü rolunuzdan razısınızmı?

– Mən taleyə (alın yazısına) inanıram və öz taleyimdən razı olsam da, olmasam da, payıma düşəni budur. O ki qaldı cəmiyyətdə bugünkü rolumdan, özümün razı olub-olmamağıma, hər halda,

əlimdən gələni edirəm və məni tanıyanlar bilirlər ki, bu, gəlişi gözəl söz deyil.

– Millətçilik məfhumuna münasibətiniz?

– Mən hələ sovet dövrünün ən şıdırğı vaxtlarında dəfələrlə yazmışam (və Bakıda da, Moskvada da çap etdirmişəm) ki, bəşəriliyə aparan yol millilikdən keçir, millidən kənarda, millinin fövqündə bəşərilik yoxdur. Ancaq milli təəssübkeşlik, millətçilik başqalarının inkarı hesabına olmamalıdır, çünki, belə olduqda, bu artıq sağlam bir əqidə yox, xəstəlikdir. Erməni millətçiliyi məhz belə bir xəstəliyin, iddialı məhduduyyətin bariz nümunəsidir.

– Yazıçılar Birliyinin dünəni ilə bu günü arasında uçurum var. Bunun səbəbini nədə görürsünüz?

– Yazıçılar Birliyinin taleyi mənimçün çox əzizdir. Mən gözümü açıb oranı görmüşəm, ora gedib-gəlmişəm, cavanlığımın düz on iki illik enerjisini ordakı işimə sərf etmişəm və bu on iki il (1975-1987) o dövr olub ki, həqiqətən, ədəbiyyatımıza təzə bir ab-hava gətirib, yuxarıda dediyiniz o millətçilik, milli təəssübkeşlik baxımından da çox zəngin olub. Axır vaxtlar bəzən «Azərbaycan» və «Ulduz» jurnallarının o dövrdəki fəaliyyətinə müsbət qiymət verən yazılar, müsahibələr çap olunur və bu, yaxşı bir hadisədir, çünki həqiqətdir. Ancaq o jurnallar Yazıçılar İttifaqının mətbu orqanları idi və Yazıçılar İttifaqı, birinci katib rəhmətlik İmran Qasımov (yalançı təvazökarlıq etmək istəmirəm), mətbuata baxan katib kimi, mən, bütün qalmaqallara, hakim ideologiyanın təqibinə və qrafomanların tərkibinə baxmayaraq, münbit şərait yarada bilməsəydik, xətt-hərəkatlarını müdafiə etməsəydik, o jurnallar necə fəaliyyət göstərə bilərdilər? Yaxşı yadıma gəlir, Əkrəm Əylislini «Azərbaycan»a redaktor gətirmək üçün, biz nə qədər əziyyət çəkdik, mən Allahın hər verən günü, çox xeyirxah adam olan rəhmətlik İmran Qasımovun başının üstünü kəsdirirdim, İmran müəllim də başqalarının redaktorluğa can atmasına, bizə güclü təzyiq etməsinə baxmayaraq, telefonun dəstəyini götürüb Əkrəmin redaktor təyin olunması üçün əlaqədar adamlara, təşkilatlata zəng çalırdı, axırda məsələ şəxsən Heydər Əliyev səviyyəsində həll olundu. «Ulduz» da həmçinin. Mən arxivimi götür-qoy etməyə başlamışam və o zaman, yəni biz onun redaktorluq məsələsini həll etməyə çalışdığımız vaxt Əkrəm Əylislinin mənə yazdığı bir məktub bu günlərdə əlimə keçdi, çox duzlu, mehriban və gələcəkdə «Azərbaycan»ın redaktoru işləmək həvəsi ilə dolu

bir məktubdu, hayıf ki, Əkrəmin özünə göstərib razılığını almamışam, yoxsa verərdim çap edərdiniz... Bir sözlə, Yazıçılar İttifaqı əlbəttə, çox ziddiyyətli, mürəkkəb 37-nin ideoloji təxribatlarının, inzibati hökmlərinin və müdhiş ifşalarının şahidi olmuş, amma eyni zamanda işıqlı xatirələrlə dolu tarixi bir mədəniyyət ocağı idi. Orada demaqogiya və böhtanlarla bərabər, əsl ədəbiyyat uğrunda mübarizələr gedirdi, ora öz mətbuat orqanları da daxil olmaqla coşğun bir ədəbi prosesin mərkəzi idi, rəsmi-ideoloji tədbirlərlə bərabər yaradıcılıq plenumları, ədəbi disputlar, müzakirələr keçirilirdi, oradakı Natəvan adına klubun divarları şüarlarla, həmin böhtan və ifşalarla yanaşı ağıllı, səmimi mülahizə və mükalimələri, əsl ədəbiyyat mübahisələrini də az eşitməyib. Ədəbiyyat, aydın məsələdir ki, sakitlik və tənhalıq içində yazıçının mizinin üstündə yaranır, amma bədii zövqün keşiyində dayanan ədəbi proses belə bir sakitlik və tənhalıqla daban-dabana ziddir, o enerji, ehtiras, həvəs tələb edir. Sizin soruşduğunuz səbəbi mən onda görürəm ki, dövran dəyişib, bu gün artıq tam başqa bir zəmanədir və mən çox arzu edirəm ki, Yazıçılar İttifaqı maddi və mənəvi çətinliklərə sinə gərərək milli ədəbiyyatımızın təəssübünü çəkən bir mədəniyyət ocağı kimi yeni zəmanədə öz yerini, həm də sanballı, nüfuzlu yerini tam dəqiqliyi ilə tapsın və möhkəmlətsin. Bəzən deyirlər:  Yazıçılar İttiafqı sovetdən qalıb, başqa ölkələrdə belə şey yoxdur və s. Bəli, sovetdən qalıb, amma sən onu özünkü et! Başqa ölkədə yoxdu, amma bizdə olsun!

– Siyasətlə ədəbiyyatı birləşdirən və ayıran cəhətlər.

– Siyasət ayıqlığın, praqmatizmin ifadəsidir, ədəbiyyat isə sərbəstliyin, azadlığın, qəlibsizliyin ifadəsidir. Amma hər ikisində həmişə improvizasiya üçün geniş imkanlar var, sadəcə olaraq, o improvizasiyaların istiqaməti çox zaman daban-dabana zidd olur.

–Elə bir hal olubmu ki, təzyiq altında öz iradənizin əleyhinə hərəkət edəsiniz?

– Yox.

– Sizin fikrinizcə, Azərbaycan ədəbiyyatının ən zəngin dövrü hansı əsrə təsadüf edir?

– Bütün böyük sənətkarlar öz dövrlərinin yetişdirməsidir. Ancaq küll halında bir dövr kimi, mənim üçün ən yaxın və doğma dövr XIX əsrin ikinci yarısı və XX əsr.

– Azərbaycan ədəbiyyatına mənfi təsir etmiş hərəkətləriniz olubmu?

– Yox.

– Belə bir fikir var ki, başımıza gələn bütün bu bəlalar Allahın bizdən üz döndərməsinin nəticəsidir. Bu fikirlə razısınızmı?

– Səhvlər çox olub, yanlış addımlar az atılmayıb, ləyaqətsiz işlər görülüb (və bu gün də görülür!), amma bütün bunlarla bərabər, mən həmin fikri tamamilə ziyanlı və millət üçün təhqiramiz bir fikir hesab edirəm. Bu, əlacsızlıq psixolojisinin yaratdığı qara arxayınçılıq ovqatıdır: yəni bizdən nə asılıdı, heç nə, Allahın bizdən üzü dönüb də, nə edə bilərik...

– Bədnəzərə inanırsınızmı?

– Bəli inanıram.

– Türk dünyasının bu günü sizi qane edirmi?

– Dünən dünyada cəmi bir müstəqil türk dövlətinin bayrağı BMT-nin qarşısında dalğalanırdı. Bu gün isə orada beş türk dövlətinin bayrağı dalğalanır. Bu fərəhli və tarixi hadisə ilə bərabər, hərgah bu gün Avropanın mərkəzində – Bolqarıstanda türklər Todorov, Stoyanov olurlarsa, Bosniyada qırılır, Albaniyada isə bir-birini qırırlarsa, Azərbaycanda bir milyon qaçqın varsa və torpaqlarımız da zəbt olunubsa, bir çox ölkələrdə milyonlarca bacı və qardaşlarımız öz dilində yazıb-oxuya bilmirsə, türk dünyasının çağdaş aqibəti məni necə qane edə bilər? Ancaq türk dünyasının sabahını mən işıqlı görürəm.

– Bildiyimiz kimi dünyanın yeddi möcüzəsi mövcuddur. Səkkizinci möcüzə əlavə etmək lazım gələrsə, Siz nəyi əlavə edərdiniz?

– Bu mənada 8-ci, əslində isə 1-ci möcüzə insanın özüdür. İnsan xisləti – bundan artıq möcüzə, bundan böyük sirri-xuda varmı?

– Qarşıdan Qurban bayramı gəlir. Bu bayramda siz nəyi çəkinmədən qurban verərsiniz?

– Qurban bayramına hələ bir az qalıb. Bu gün isə mən torpaqlarımızın qaytarılması naminə imkanımda olan hər şeyi qurban verməyə hazıram.

– Son bir ildə ən böyük itkiniz?

– Atamın haqq dünyasına köçməsi.

– Son bir ildə ən böyük sevinciniz?

– Nəvəmin dünyaya gəlməsi.

– A. Məsud olmasaydı ədəbiyyatımız nə qazanardı və nə itirərdi?

– Afaq Məsud olmasaydı ədəbiyyatımız istedadlı bir yazıçını, qeyrətli və işgüzar bir azərbaycanlı qadını və gözəl bir xanımı itirmiş olardı. Aydın məsələdir ki, burada qazancdan söhbət gedə bilməz.

*1997.*

# İSLAM SİVİLİZASİYASI BƏŞƏR MƏDƏNİYYƏTİNİN TƏRKİB HİSSƏSİDİR

Məlum olduğu kimi, bu ilin fevralında Azərbaycan prezidenti Heydər Əliyev Bakıda «İslam sivilizasiyası Qafqazda» mövzusunda beynəlxalq simpozium keçirilməsi haqqında sərəncam imzalamışdır.

Dekabrın 9-da paytaxtımızda həmin tədbirin açılışı olacaqdır. Bununla əlaqədar Azər.TAC-ın müxbiri simpoziumun hazırlanması və keçirilməsi üzrə təşkilat komitəsinin sədri, baş nazirin müavini Elçin Əfəndiyevdən bu beynəlxalq elmi məclis barədə oxuculara məlumat verməyi xahiş etmiş, onunla müsahibə aparmışdır.

SUAL: Elçin müəllim, bildiyimiz kimi, Qafqaz və ilk növbədə Azərbaycan tarixən İslam mədəniyyətinin yayıldığı bölgələrdən biri olmuş və onun formalaşmasına öz töhfəsini vermişdir. Bu baxımdan sabah Bakıda açılacaq beynəlxalq simpoziumun əhəmiyyətini necə qiymətləndirirsiniz?

CAVAB: İslam və sivilizasiya, İslam mədəniyyətinin mənbələri, dəyərləri və prinsipləri, bu dəyərlərin İslam dünyasının ayrı-ayrı regionlarında inkişaf yolları və spesifik xüsusiyyətləri əsrlər boyu geniş tədqiqat, araşdırma mövzusu olmuşdur. Lakin cəsarətlə demək olar ki, İslam sivilizasiyasının inkişaf sürəti, əhatə dairəsi heç bir tədqiqat çərçivəsinə sığmır və bu mövzu bəşər durduqca aktual olacaqdır.

İslam təkcə iman və əqidə deyil, həm də dünyagörüşü, həyat tərzidir, vacib əxlaq və hüquq normaları məcmusu, dünya mədəniyyətinin böyük və güclü tərkib hissəsidir.

Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb-islam ünsürləri daha qabarıq gözə çarpır. Lakin İslama qədərki mədəni ənənələrin bu və ya digər şəkildə saxlanılması, habelə XIX əsrin əvvəllərində rus mədəniyyətinin güclü təsirinə məruz qalması hesabına Azərbaycan spesifik xüsusiyyətlərə malik milli mədəniyyət yarada bilmişdir. Beləliklə, ölkəmizdə təşəkkül tapan mədəniyyət İslam mədəniyyəti kimi tanınsa da, onu Azərbaycan İslam mədəniyyəti kimi səciyyələndirmək daha düzgün olardı. Qərb və Şərq mədəniyyətlərinin qovuş-

duğu, sintez olunduğu bu məkanda formalaşan Azərbaycan mədəniyyəti eyni zamanda Şərq və Avropa xüsusiyyətlərini özündə birləşdirir.

İslam sivilizasiyasının Qafqazda yaradılması tarixi məsələlərinin elmi şəkildə öyrənilməsinin və bu tarixi aktual problemlərin obyektiv araşdırılmasının elmi-praktik əhəmiyyətini, habelə beynəlxalq və regional təşkilatların, respublikamızın elmi müəssisələrinin müraciətlərini nəzərə alaraq Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev Bakıda «İslam sivilizasiyası Qafqazda» mövzusunda beynəlxalq simpozium keçirilməsi haqqında sərəncam imzalamışdır. Bu tədbir müstəqil Azərbaycanın həyatında son dərəcə əhəmiyyətli və aktualdır, müasir dövrdə dünya mədəniyyətinin tərkib hissəsi olan İslam svilizasiyasının Qafqazda təşəkkülü, yeri, rolu və faydasını öyrənmək, təbliğ etmək baxımından mühüm məna kəsb edir.

Dövlət müstəqilliyini əldə etdikdən sonra demokratik, hüquqi və dünyəvi dövlətini qurmaq əzmində olan Azərbaycan xalqının öz mədəni-mənəvi irsinə, dininə, əsrlərdən bəri bəhrələndiyi, eyni zamanda zənginləşdirdiyi İslam sivilizasiyasına böyük maraq göstərməsi və sahib çıxması təbiidir.

Müstəqillik milli-mədəni ənənələrin dirçəldilməsi üçün nəinki şərait yaradır, həm də onu zəruri edir. Bu isə ümumbəşəri mədəniyyətin tərkib hissəsi sayılan İslam sivilizasiyasında ayrılıqda mümkün deyildir. Bu mənada möhtərəm prezidentimiz cənab Heydər Əliyevin dediyi sözlər olduqca dəyərlidir: «Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.» Beləliklə, müstəqil Azərbaycanın milli ideologiyasının xalqın tarixi keçmişi, milli adət-ənənələri, deməli, İslam sivilizasiyası ilə bağlılığı tarixi gerçəklikdir. Odur ki, İslam mədəniyyətinin, ədəbiyyatının, tarixinin, islami ənənələrin və əxlaq prinsiplərinin dirçəlişi və bərpası son dərəcə aktualdır. Heç şübhəsiz ki, simpozium bu mənada böyük tarixi əhəmiyyət kəsb edir.

İslam sivilizasiyasına həsr olunmuş beynəlxalq simpozium Azərbaycan tarixi üçün yaddaqalan dövrdə keçirilir. Bir tərəfdən, müstəqilliyə qədəm qoymuş respublikamız dünya ölkələri cərgəsində öz mövqelərini möhkəmləndirir, xalqımız demokratik, dün-

yəvi, sülhpərvər dövlətin sarsılmaz əsaslarını qoyur, yeni ictimai-iqtisadi münasibətlər, bazar iqtisadiyyatı bərqərar olur. Digər tərəfdən, Azərbaycan xalqı və dövləti tarixin ağır sınağı qarşısındadır. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, bir milyondan çox azərbaycanlı doğma yurd-yuvasından didərgin salınmış, qaçqın-köçgün vəziyyətinə düşmüşdür. İslam sivilizasiyasının, dünya mədəniyyət xəzinəsinin incilərindən sayılan Şuşa, Qarabağın digər tarixi, mədəni abidələri, ibadətgahları indi düşmən tapdağı altındadır. Əlbəttə, bütün bu ağrılı-acılı problemlər xalqımızın müstəqil dövlət qurmaq, respublikanın ərazi bütövlüyünü bərpa etmək əzmini nəinki qıra bilməz, əksinə, həmin əzmkarlıq getdikcə daha da artır.

İnsan haqlarının, vicdan, söz və etiqad azadlığının təmin olunması üçün respublikamızda sivil qanunlar mövcuddur və həmin dəyərlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan ərazi və tarixi inkişaf baxımından Şərqlə Qərbin qovuşuğunda qərar tutmuşdu. Bu amil respublikamızda hər iki sivilizasiyanın sintezini zəruri edir. Biz Şərq sivilizasiyasının tərkibindəyik, amma özümüzü Qərbdən ayırmırıq. Biz Nizamini və Füzulini çox sevirik, amma Şekspir və Pasternak da bizim üçün çox dəyərlidir. Möhtərəm Prezidentimiz Heydər Əliyevin dediyi kimi, ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etmək, onları öz mənəvi dəyərlərimizlə birləşdirmək və xalqımızın mənəviyyatını zənginləşdirmək bizim əsas vəzifələrimizdən biridir.

SUAL: Simpoziumun iştirakçıları və gündəliyi barədə məlumat oxucularımız üçün maraqlı olardı.

CAVAB: Simpoziumda dünyanın bir sıra ölkələrinin, o cümlədən, Türkiyənin, İranın, Misirin, Rusiyanın, ABŞ-ın, Almaniynın, Hollandiyanın, Fransanın görkəmli islamşünas alimləri iştirak edəcəklər. Simpoziumun açılışı dekabrın 9-da saat 11.00-da, iştirakçılar Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra, respublika EA-nın Rəyasət Heyətinin binasında olacaqdır.

Həmin gün və dekabrın 10-da simpozium bölmə iclaslarında öz işini davam etdirəcəkdir. Üç bölmədə «Qafqazda İslam svilizasiyasının təşəkkülü», «Qafqazda İslam maddi-mədəniyyət abidələri» və «İslam svilizasiyası və müasirlik» mövzuları ətra-

fında məruzələr dinləniləcəkdir. Simpozium dekabrın 11-də yekun iclası ilə başa çatacaqdır.
MÜXBİR: Müsahibə üçün sağ olun.

*Azər.Tac*
*1998*

## E L Ç İ N: «BU GÜN DƏ «ALTMIŞINCILAR»ı BİRLƏŞDİRƏN CƏHƏTLƏR, ONLARI AYIRAN CƏHƏTLƏRDƏN ÇOXDU!»

– Elçin müəllim, biz «Qobustan»ın 60-cı illərə həsr olunmuş xüsusi buraxılışını hazırlamaq istəyirik. Siz də «altmışıncılar» deyilən ədəbi nəslin görkəmli nümayəndələrindən birisiniz, istəyirəm Sizinlə birlikdə o illərə bir «retro-səyahətə» çıxaq.

– Mən hazır.

– Elə isə, Sov.İKP-nin XXII qurultayını yada salaq. Həmin qurultayın proqramının son cümləsi belə idi: «Partiya təntənəli surətdə elan edir: Sovet adamlarının indiki nəsli kommunizmdə yaşayacaq!» Siz həmin o xoşbəxt «indiki nəsil» idiniz – təqribən 18 yaşınız var idi. Ruhlanmışdınız bu sözlərdən, yoxsa bunun utopiya olduğunu bilirdiniz?

– Mən elə mühitdə böyümüşəm, elə ailədə tərbiyə almışam ki, orda nəinki ideoloji fanatizm, heç azacıq ideoloji təəssüb belə olmayıb. Məsələn, heç vaxt yadımdan çıxmayacaq, son zamanlar isə daha tez-tez fikrimə gələn bir uşaqlıq xatirəmi deyim: 7 nömrəli məktəbdə oxuyurdum, 1953-cü il idi, bizi böyük bir təntənə ilə pionerə keçirirdilər, çoxlu valideyn gül-çiçəklə məktəbə gəlmişdi, uşaqlar sevinirdilər, mənim də boynuma bir ipək qırmızı qalstuk bağladılar və mən də bir uşaq sevincəkliyi ilə evə getdim, o zaman Mirzə Fətəli küçəsindəki 110 nömrəli evdə yaşayırdıq, şəstlə qapını döydüm. Bütün ömrü boyu Sovet hökumətinə sidqürəkdən nifrət edən rəhmətlik nənəm Bilqeyis xanım qapını açdı, göy gözləri ilə eynəyinin üstündən həmişəki iti nəzərlərlə mənə baxıb: «– O nədi ə, boynuna taxmısan?– dedi. – Çıxar tulla o yana!», yaxud onun Stalin öləndə və bizim məhəllə yas içində olanda, evdə oturub qəzetləri oxuya-oxuya: «– Köpəy oğlu, axır ki, gorbagor oldu!»– deməsi, indiki kimi, gözlərimin qabağındadı. Sənə deyim ki, Maarif, o Bilqeyis xanım dünyanın çox maraqlı şəxsiyyətlərindən biri idi. Mənim ana nənəm Seyid Rübabə xanım nə qədər mülayim, üzügülər, namazının vaxtını keçirməyən

bir adamıydısa, ata nənəm Bilqeyis xanım bir o qədər sərt, sərbəst, bolşeviklərin onlara etdiyi pislikləri (o pislikləri İlyas Əfəndiyev bir sıra əsərlərində, xüsusən, ömrünün son çağlarında yazdığı «Hacı Axundun cənnət bağı necə oldu?», «Çovğunlu bir qış günündə», «Orfey quyudan çıxandan sonra nə gördü...» adlı xatirə-esselərində qələmə alıb) birçə dəqiqə də olsun, yadından çıxarmayan, eyni zamanda, zəngin hissiyyata, mənəvi aləmə malik bir adam idi. Mən haçansa – Allah qismət eləsə! – o rəhmətliyin haqqında yazacağam. Nə isə... Mən belə bir ev mühitində böyüdüyümə görə, bayaq dediyin o proqram sözləri də mənim üçün tamam boş bir şey idi.

– Amma ədəbiyyatda bu utopiyanın tərənnümçüləri, ümumiyyətlə, Kommunist Partiyası qurultaylarının proqramlarından «ilhamlanıb» dərhal palaz-palaz oçerklər, poema və roman yazanlar gen-bol idi.

– Belələri həmişə olub və yəqin ki, həmişə də olacaq. Mən buna təbii bir proses kimi baxıram. O vaxtkı ideologiyaya əsasən, partiyanın xəttini müdafiə etmək, partiya sənədlərindən irəli gələn müddəaları təbliğ və tərənnüm etmək rəsmi sovet ədəbiyyatının əsas vəzifəsi idi və qrafoman da, bütün epoxalarda olduğu kimi, bu dəfə də fürsəti fövtə vermirdi və nailiyyətlər qazanırdı. Sov.İKP-nin Mərkəzi Komitəsi Nazirlər Kabineti ilə birlikdə, məsələn, qarğıdalıçılığın inkişaf etdirilməsi ilə bağlı növbəti bir qərar qəbul edirdi və sovet ədəbi tənqidi bu qərarın bədii ədəbiyyatda inikasını tələb edirdi. Və bədii ədəbiyyatda qarğıdalı planını 200 (!) faiz yerinə yetirən ədəbi qəhrəman olurdu yüksək bədii-estetik səviyyəli qəhrəman. Mən bu barədə hələ 1966-69-cu illərdə yazdığım «Tənqid və nəsr» adlı monoqrafiyamda çox ciddi və ətraflı bəhs etmişəm və səndən gizlətmirəm, bu gün, dünya dəyişəndən sonra da, bu mənim üçün xoş bir hadisədir. Ədəbiyyata o qədər sxolastik bir münasibət var idi və onun predmeti o qədər dəyişmişdi ki, eybəcər bir mənzərə əmələ gəlmişdi, özü də təbii ki, təkcə Azərbaycan ədəbiyyatında yox, bütün sovet ədəbiyyatında. Ədəbiyyatın predmeti nədir? Bu sualın cavabında mənim üçün müəmmalı bir şey yoxdur: insan xisləti. Həmişə belə olub. Böyük ədəbiyyat bir sirri-xuda olan insan xislətini tədqiq edib və həmişə də Xeyirlə Şərin, İşıqla Zülmətin mübarizəsində Xeyirin, İşığın müttəfiqi olub. Bəs Sovet İttifaqında necə oldu? Rəsmi ədəbiyyatın predmeti dəyişdi və ədəbiyyatın qəhrəmanı

çevrilib oldu traktor, kombayn, kolxoz, Su-Elektrik Stansiyası, çəkiç-oraqlı qırmızı bayraq, Kremlin qırmızı ulduzu... Amma bu yerdə çox vacib bir cəhəti qeyd etmək lazımdı. Həmin sovet ədəbiyyatında, o cümlədən, Azərbaycan ədəbiyyatında çox çiddi uğurlar da az deyildi, bu uğurlar həqiqi istedadın o ideoloji çərçivələrə sığışmamasının nəticəsi idi və bir küll halında təkcə ədəbiyyatın, bədii-estetik səviyyənin yox, ümumiyyətlə ictimai fikrin ciddi inkişafına gətirib çıxarırdı. Həmişə olduğu kimi, sovet dövründə də istedad ilə qrafomanlıq qoşa addımlayırdı. Hakim ideologiya sosioloji qrafomanlığı öz qanadı altına almışdı, amma eyni zamanda istedadın da qarşısını kəsə bilmirdi. Düzdü, Hüseyn Cavid, yaxud Mikayıl Müşfiq qətlə yetirildi, amma güllələnməyənlər də Azərbayçan ədəbiyyatının və mənəviyyatının inkişafında az xidmətlər göstərmədilər. 37-38-dən cismən salamat qurtaran Süleyman Rəhimov, Mehdi Hüseyn və Mirzə İbrahimov, yaxud Səməd Vurğun, Süleyman Rüstəm və Rəsul Rza sonrakı dövrdə yazıb-yaratmasaydı, güman edirəm ki, bugünkü ədəbiyyatımız xeyli dərəcədə cılız bir şey olardı. Bir azdan ədəbiyyata İlyas Əfəndiyev gəldi, sonra deyək ki, İsa Hüseynov gəldi... Eləcə də ədəbi tənqiddə. Bəli, mürəkkəb zaman idi, ədəbi tənqiddə vulqar sosiologizm tüğyan edirdi, amma bununla bərabər, sən heç təsəvvür edə bilərsənmi ki, Azərbaycan filologiyasında Mustafa Quliyev, Məmməd Kazım Ələkbərli, Əli Nazim, Vəli Xuluflu, Hənəfi Zeynallı, Bəkir Çobanzadə – bunlar 37-38-də gedənlərdi, qalanlar: Məmməd Arif, Həmid Araslı, Mikayıl Rəfili, Məmməd Cəfər, Cəfər Cəfərov, Mir Cəlal, Feyzulla Qasımzadə, Məmmədhüseyn Təhmasib, Mirzəağa Quluzadə, Əzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Mehdi Məmmədov, sonra gələn Məsud Əlioğlu, yaxud Qulu Xəlilli və bu qəbildən olan başqa tənqidçilər, ədəbiyyatşünaslar, dilçilər olmayıb? Hərgah bu rəhmətliklər olmayıbsa, deməli heç nə olmayıb. Halbuki, bunların öz yazılarında da «Daloy tar!»dan tutmuş pantürkizm ittihamlarınacan, sənin dediyin o partiya qərarlarının ədəbiyyatda inikası tələbinəcən, kifayət qədər vulqar sosiologizm nümunələri tapmaq mümkündür. Uzun sözün qısası, tərəzinin bir gözünə mənfini, o birisinə müsbəti qoymaq və heç bir hissiyyata qapılmadan nəticələr çıxarmaq lazımdır.

– Mən bilən, «altmışıncılar»ın ən böyük xidməti o oldu ki, onlar, yəni siz, ədəbiyyata sadə insanı gətirdiniz. Ağrıyan, sevən, nifrət edən, duyan insanı. Yəni siz «altmışıncılar» insanın mənə-

vi dünyasına, iç dünyasına daha çox baş vurmağa başladınız. Planı 200 faiz yerinə yetirən qəhrəmanı – cüssəli «əmək bahadırı»nı Baladadaş əvəz etdi.

– Bu yerdə də bir balaca dəqiqləşdirmə aparmaq istəyirəm. «Sadə insan» məfhumunu tez-tez təkrar edirlər, amma mən bunu heç cürə qəbul etmirəm, çünki sadə insan yoxdur, o həmişə mürəkkəbdir. Sənin dediyin o kontekstdəki insanı isə Mirzə Cəlil də, Əbdürrəhim bəy də Azərbaycan nəsrinə gətirmişdi, elə sovet dövründə, belə irihəcmli əsərləri demirəm, misal üçün Süleyman Rəhimovun «Su ərizəsi» hekayəsinin qəhrəmanını, yaxud İlyas Əfəndiyevin «Qırçı və qırmızı çiçək» hekayəsindəki qırçını xatırlayaq. Güman edirəm ki, biz bu ənənəni ədəbiyyatın şah damarı kimi, dartıb çıxartdıq, davam və inkişaf etdirdik, sovet zamanında onun bədii-estetik qələbəsinə nail olduq. Mən «altmışıncılar»ın ədəbiyyatda gördüyü işi belə bir metodoloji istiqamətdə qiymətləndirirəm. Əks təqdirdə biz öz ədəbiyyatımızın miqyas və vüsətini azaltmış olarıq. O ki, qaldı, Baladadaşa, mən qələmə alana kimi, ədəbiyyatımızda o kim idi? Aşağı səviyyəli satiranın qəhrəmanı. Ədəbiyyatda Baladadaşın «aerodrom» papağına lağ edirdilər. Qanmaz, vecsiz bir adamın obrazı idi. Mən Baladadaşın o hisslərini qələmə almağa çalışdım ki, başqaları onları görmürdü.

– Elçin müəllim, mən belə hesab edirəm ki, bizim gənc ədəbi nəsil «altmışıncılar»dan başlayıb. Bəs «altmışıncılar» hardan başlamışdı?

– İndicə bu suala qismən cavab verdim. XIX-XX əsr Azərbaycan ədəbiyyatının çox zəngin ənənələri var. Mirzə Fətəlinin, Nəcəf bəy Vəzirovun, Mirzə Cəlilin, Sabirin, Üzeyir bəyin, Hadinin, Haqverdiyevin, Cavidin adlarıyla bağlı, bir tərəfdən «Molla Nəsrəddin», o biri tərəfdən «Füyuzat» ədəbi məktəbləriylə, Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Nəriman Nərimanovun, Firudin bəy Köçərlinin, Ömər Faiq Nemanzadənin, Hüseyn Minasazovun fəaliyyəti ilə bağlı ənənələr. Sovet dövrü haqqında mən dedim və bir daha təkrar edirəm ki, biz o dövrdə də yaranmağa imkan tapmış milli-mənəvi sərvətə malikik və bunun üzərindən xətt çəkmək olmaz. Yenə bir misal gətirmək istəyirəm: Səməd Vurğun «Vaqif»i 37-ci ildə yazıb və bu əsərdə dramaturji baxımdan nöqsanlar tapmaq, tarixi faktologiyanın təhrif olunması ilə rastlaşmaq mümkündür, amma «Vaqif»in mənim aləmimdə, əhəmiyyəti onda idi ki, çətin bir zama-

nədə ana dilini, milli patriotizmi tərənnüm edirdi. Bunlar hamısı bir yerdə dünya ədəbiyyatının, o cümlədən, rus ədəbiyyatının təcrübəsi ilə birlikdə «altmışıncılar» hadisəsini yaratdı.

– Altmışıncı illər ədəbiyyatı deyəndə, adətən, altmışıncı illərdə yazmağa başlayan sənətkarlar yada düşür. Ancaq həmin dövrdə yeni ab-hava ilə bağlı olaraq yaşlı və nisbətən yaşlı nəslin də çox dəyərli əsərləri yarandı.

– Tamamilə doğru fikirdir.

– Elçin müəllim, mən bilən, altmışıncı illərdə yeniləşmə meyli, ədəbiyyatda problemlər qoymaq məsələsi Rusiyada daha əvvəl yaranmışdı və bu dalğa bizə nisbətən gec gəlib çatdı.

– Bu, problematik məsələdi və belə paralellərdə elə bilirəm ki, bir az ehtiyatlı olmaq lazımdı. Azərbaycan yazıçısının qarşısında duran problemlərlə rus yazıçısının qarşısında duran problemlər eyni deyildi. Düzdü, eynilik də var idi. Sovet bürokratizminə, sovet riyakarlığına, qəddarlığına, deyilən ilə olanın qətiyyən üst-üstə düşməməsinə qarşı qələm mübarizəsi – bunlar rus yazıçısı ilə Azərbaycan yazıçısını birləşdirən cəhətlər idi. Eyni zamanda, Azərbaycan yazıçısının qarşısında elə problemlər də dururdu ki, onlar rus yazıçısının qarşısında dayanmırdı. Misal üçün, Azərbaycan müstəqil deyildi, yarımmüstəmləkə idi və rusdan asılı idi. Rus yazıçısının belə problemi yox idi. Yaxud, ana dili problemi rus yazıçısı üçün bizdə olduğu qədər qlobal mahiyyət daşımırdı. Və ya rus yazıçısının ikiyə bölünmüş Rusiya problemi yox idi. Bu ətrafda çox danışmaq, fikir mübadiləsi aparmaq və hətta mübahisələr də etmək olar. Odur ki, belə müqayisələrdə ehtiyatlı olmaq lazımdır.

– Siz «altmışıncılar»ın cavan vaxtlarınızda qəribə bir birliyiniz, mehriban ünsiyyətiniz, dostluğunuz vardı, ancaq bu gün «altmışıncılar» 60-ı keçib, 60 yaşı var, ya da ki, 60-a yaxınlaşırlar, yəni müdrik çağlarınızı yaşayırsınız, amma münasibətlərinizdə nəsə bir soyuqluq hiss olunur.

– Düzdü, o vaxt o mehribanlıq daha çox idi... Hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Yəqin yaşdandı... Nə bilim, bəlkə nahaq yerə günahın hamısını vaxtın, yaşın boynuna yıxıram?.. O zaman böyük ədəbiyyatın marağı bizi birləşdirirdi, çox zaman fikirlərimiz, ayrı-ayrı şəxslərə, hadisələrə, situasiyalara münasibətlərimiz üst-üstə düşürdü. Özümü kənara çəkib bura istedadı, savadı da əlavə edirəm. Buna görə də biz güclü idik. Gəmidə otu-

rub gəmiçi ilə mübarizə aparmağı bacarırdıq. 70-ci illərin ortalarında Rusiyada, bir çox başqa sovet respublikalarında baş verməyən hadisə Azərbaycanda baş verdi. Mən, cavan bir oğlan, Yazıçılar İttifaqının katibi oldum, özüm də mətbuata baxırdım. Əkrəm Əylisli «Azərbaycan» jurnalının baş redaktoru, Yusif Səmədoğlu «Ulduz»un baş redaktoru oldu, Anar «Qobustan»ı daha da əvvəldən buraxırdı... Bizdən sonra bizi başa düşən, qiymətləndirən və təəssübümüzü çəkən bir nəsl yaranırdı, xüsusən, tənqidçilər nəsli və bütün bunlar ona gətirib çıxarmışdı ki, hörmətli ağsaqqallarımız da bizimlə çox ciddi hesablaşırdı, biz ədəbi prosesin, ədəbi mühitin mərkəzində idik. Bütün bu hadisələrdə sənin dediyin o birlik az rol oynamadı.

– Bəs bu gün nə oldu sizə?

– Hər halda, mən elə fikirləşirəm ki, bu gün də bizi birləşdirən cəhətlər, bizi ayıran cəhətlərdən çoxdur.

– Mən də, hər halda, sizə o köhnə birliyi, dostluğu arzu edirəm. Növbəti sualım isə belədir: bu gün imtina elədiyiniz yazılarınız varmı?

– Mən indiyə qədər nə yazmışamsa, heç birindən imtina eləmirəm. Sadəcə olaraq imtina eləmək mümkün deyil, çünki yazıya pozu yoxdu! Mən indiyə qədər yazdığım bütün bədii əsərlərin, tənqidi və elmi məqalə və monoqrafiyalarımın altından bir daha qol çəkirəm. Məni bu gün bədii baxımdan qane etməyən – bu da çox təbii bir şeydir!– yeniyetməlik, ilk gənclik illərində yazıb çap etdirdiyim hekayələrim, kiçik povestlərim var, amma onlar da mənim üçün doğmadı.

– Bu gün belə bir fikir səslənir ki, altmışıncıların cəsarəti icazə verilmiş cəsarət idi.

– Bu çox gülünc bir söhbətdi. Əgər mənim istedadım yoxdursa, xislətimdə o yazı, o milli təəssübkeşlik yoxdursa, kim nə icazəni verir, versin, mən heç nə yaza bilmərəm. Sovet dövrünün ədəbiyyat generalları var idi, icazə cızığından kənara çıxmayıb, bütün döşlərini orden-medallarla doldurmuşdular. Nə oldu? Götürək auditoriyası ən böyük olan rus ədəbiyyatını. Bu gün hanı Semyon Babayevski, Anatoli Sofronov, Vadim Kojevnikov və bu qəbildən olan başqaları? Mən, misal üçün, «Fikrin karvanı» kitabını o vaxt nəşr etdirmişdim, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin portretlərini vermişdim ki, indi döşünə döyənlərin, özləri millət naminə, dil naminə, ədəbiyyat naminə heç nə eləməyib

yekəxana-yekəxana bizə ağız büzənlərin çoxu heç bilmirdi ki, onlar kimdir? Amma indi biz nəyin şahidi oluruq? Bilənlər qalıb bir kənarda, bilməyənlər düşüblər ortaya. Dünən Əhməd bəyi, Əli bəyi müxtəlif yarlıqlarla damğalayırdılar, bu gün də Mirzə Fətəlini, Mirzə Cəlili, yaxud Mirzə Ələkbər Sabiri gözdən salmağa çalışırlar, dünən Nəriman Nərimanovun kölgəsinə sığınıb dissertasiya müdafiə edirdilər, bu gün mətbuat səhifələrində ona nifrət aşılayırlar. Halbuki, bü gün bu şəxslərin Azərbaycan ictimai fikrində, bədiiyyatında, jurnalistikasında öz məxsusi yeri var.

– Elçin müəllim, söhbətimiz deyəsən bir az başqa istiqamətə yön aldı, mən istəyirəm ki, yenə «altmışıncılar»a qayıdaq və son olaraq Sizdən soruşum: bir də o illərə qayıtmaq istərdinizmi?

– Əzizim Maarif, bəyəm bu mənim istəyimdən asılıdır?

*Müsahibəni Maarif Soltan apardı.*
*1998.*

## E L Ç İ N: «ƏHLİ-QƏLƏM GƏRƏK BÖHTANA YOL VERMƏSİN, ÇİRKABDAN FAYDALANMASIN!»

– Elçin müəllim, siz uzun müddət Yazıçılar İttifaqında işləmisiniz və özünüz də çox istedadlı bir yazıçı, cəsarətli, yüksək savadlı bir tənqidçi və ədəbiyyatşünas kimi, həmişə ədəbi prosesin içində olmusunuz. O dövrü necə xatırlayırsınız?

– Bəli, mən 1975-ci ildən 1987-ci ilə kimi Yazıçılar İttifaqının katibi işləmişəm və o dövrün bütün ədəbi-ictimai mürəkkəblikləri, ziddiyyətləri, hətta bəzən absurd dərəcəsinə çatan kerçəklikləri (məsələn, L.İ.Brejnevin «Xam torpaq»ı və onun ədəbiyyat sahəsində Lenin mükafatı alması!) ilə bərabər, mən o illəri Azərbaycan ədəbiyyatı və ədəbi mühiti üçün parlaq illər kimi xatırlayıram. Bu gün dissident ədəbiyyatından çox yazırlar və belə bir fikir mövcuddur ki, bizdə dissident ədəbiyyatı olmayıb. Yaxud da görürsən ki, o zamanlar bədii səviyyəsinə görə yazıları işıq üzü görməyən istedadsız adamlar bu gün sponsorlar vasitəsilə, bəzi mətbuat orqanlarındakı hərc-mərcliyin, bulvar ovqatının, cahilçiliyin nəticəsində qəzetlərə, nəşriyyatlara yol tapırlar və sən demə bunlar keçmiş dissidentlərmiş, buna görə də sovet hökuməti onlarla mübarizə aparırmış, əsərlərinin nəşrini yasaq edirmiş. Bunlar hamısı bu günün ədəbi konyukturasından doğan söhbətlərdi. Sovet hökuməti onlarla mübarizə aparsaydı, məğlub olmazdı... Dissident ədəbiyyatı nə deməkdir? Həqiqəti yazan ədəbiyyat! Və bu mənada çox əlamətdar hadisə idi ki, o illərdə Azərbaycanın dissident ədəbiyyatı çap olunurdu. «Azərbaycan» jurnalında, «Ulduz»da, nəşriyyatlarda elə əsərlər işıq üzü görürdü ki, müəlliflər həqiqi mənada gəmidə oturub gəmiçi ilə dava edirdi, həm də yüksək bədii-estetik səviyyədə dava edirdi. Mənim üçün çox xoşdur ki, bu gün «Azərbaycan», «Ulduz» jurnallarının o illərki fəaliyyətini unutmurlar, bu barədə yazırlar, amma nədənsə Yazıçılar İttifaqı yaddan çıxır, halbuki həmin jurnallar Yazıçılar İttifaqının nəşrləri idi. Son zamanlar yeni bir «janr» yaranıb: özünütərif! Mənim bu «janr»dan zəhləm gedir, amma həqiqət naminə deməliyəm ki, o vaxt Yazıçılar İttifaqına rəhbərlik edən əlaqədar adamların yaratdığı şərait və onların çox ciddi müdafiəsi olmasaydı, bu

jurnallar tutduqları istiqamətdə necə fəaliyyət göstərə bilərdilər? Əkrəmin «Azərbaycan» jurnalına, yaxud Yusifin «Ulduz»a hansı çətinliklərlə və hansı rəqabətdə təyin olunmaları mənim yaxşı yadımdadı, çünki mən bu təyinatların bilavasitə iştirakçısıydım. Rəhmətlik İmran Qasımov Yazıçılar İttifaqında bu jurnallara redaktorluq etmək (ya da elətdirmək!) ehtirası ilə alışıb-yananların çox təzyiqlərinə məruz qalırdı, amma biz də öz təzyiqlərimizi edirdik. Xeyirxah və təbiəti etibarilə mütərəqqi bir adam olan İmran Qasımov Əkrəmin də, Yusifin də (bir az əvvəl elə mənim özümün də!) namizədliyini Heydər Əliyevə çatdırdı və onlar bilavasitə Heydər Əliyevin dəstəyi və təkidilə həmin vəzifələrə təyin olundular. Bütün bunları yaddan çıxarmaq olmaz.

– O zaman İmran Qasımov Yazıçılar İttifaqının birinci katibi, siz isə gənc yaşlarından katib işləyirdiniz...

– Bəli. Mən İttifaqın mətbuat orqanlarına baxırdım, həm də ədəbi tənqid sahəsi məndə idi. İndi sizlə danışdıqca mən o illəri, o prinsipial və sağlam ədəbiyyat davasını, o canlı ədəbi prosesi çox hərarətlə xatırlayıram. O illərdə yeni və parlaq bir tənqidçilər nəsli yetişdi, savadı ilə, milli və bəşəri dəyərləri qiymətləndirmək bacarığı ilə özünü ifadə və təsdiq etdi. Rəhmətlik Aydın Məmmədov, Kamil Vəliyev, bir az sonra Vilayət Quliyev, Kamal Abdullayev, Vaqif Yusifli, Nadir Cabbarov, Tofiq Hüseyenov, Nizaməddin Şəmsizadə, Cahangir Məmmədov, Rəhim Əliyev, Nizami Cəfərov, Şirindil Alışanov... Onları irsə, dilə, milli və bəşəri ədəbi dəyərlərə hörmət və bələdlik ədəbi prosesə çəkib gətirmişdi. Aydın, Kamil, Kamal, Nizami çox istedadlı dilçi alimlər idi, yaxud Vilayət, Vaqif, Şirindil, Tofiq istedadlı ədəbiyyatşünaslar idi və sonralar öz sahələrində uğurlar qazandılar. Mən böyük bir həvəslə Kamilin, Kamalın, Rəhimin, Vaqifin kitablarının redaktoru olurdum, onlara ön söz yazırdım və gurultulu, bir az da şablon çıxmasın, bütün bunlardan mənəvi qida alırdım. Bir yazıçı kimi, şəxsən mənim üçün yazı-pozularım haqqında Kamilin, ya Vilayətin, yaxud Nadirin dediyi söz, söylədiyi fikir qiymətli və əhəmiyyətli idi, çünki mən bilirdim ki, bu sözlərin, fikirlərin arxasında şəxsi münasibət yox (hərçənd şəxsi münasibətlərimizdə də bir gözəllik var idi!), həqiqi ədəbiyyat duyumu və marağı dayanıb.

– Elçin müəllim, siz indicə şəxsi münasibətlərdən danışdınız. O zaman kiminlə şəxsi dostluq edirdiniz və bu dostlar haqqın-

da nə deyə bilərsiniz? Məsələn, bilirik ki, siz Anarla yaxın dost olmusunuz.

– Olmuşuq və bu gün də dostuq! Əslində, gərək dostluğun o zamanı, bu zamanı olmasın. Dostluq əbədi bir məfhumdur. Hər halda, belə olmalıdır. Amma orası da düzdü ki, bəzən dostluq illərin, mühitin, konyukturanın sınaqlarından çıxmır... Mən tez-tez rəhmətlik İshaq İbrahimovu xatırlayıram. Yaşda bizdən xeyli böyük idi, dünya görmüşdü, amma cavanlıq şövqü, ehtirası bəlkə bizdən də artıq idi... Adını çəkdiyim o tənqidçilərin bir çoxu ilə dost idik və deməliyəm ki, bu dostluğun daxilində, əlbəttə, insani hiss-həyəcanlarla, məhrəmliklə bərabər, ədəbiyyata, sənətə bağlılıq çox mühüm bir yer tuturdu. Rəhmətlik Aydınla, unudulmaz Araz Dadaşzadə ilə dostluğumuz barədə onlar haqqında yazdığım xatirələrdə, Əkrəm Əylisli barədə onun 60 illiyi ilə bağlı sizin qəzetdə yazdığım yazıda danışmışam. Yusif Səmədoğlu ilə keçmiş dostluğumuz ayrı bir dastandı və Allah qoysa Yusifin 70 ili tamam olanda bu barədə yazaram. O zaman Yazıçılar İttifaqında Cabir Novruz şer üzrə, Hüseyn Abbaszadə isə nəsr üzrə katib idi və biz İmran müəllim başda olmaqla dostluq münasibətlərində idik. Müsahibəni sizə verirəm, ona görə də sizin qəzetin müəllifi olan və mənim üçün illərin sınağından çıxmış bir dostumun da adını çəkmək istəyirəm: Vaqif Bayatlı Önər (o zamanlar Vaqif Cəbrayılzadə idi və mənim üçün elə indi də elədir). Qəribədir, bax, indi dostluqdan danışırıq, mənim Əli Səbri yadıma düşür, Qulam Məmmədli, yaxud Məmməd Cəfər, Abbas Zamanov yadıma düşür. Bu işıqlı və mənim üçün unudulmaz şəxsiyyətlər yaşca nə qədər böyük idilər, amma onlar da mənim dostlarım idi, ağsaqqal dostlarım! Əli Səbri az qala 100-ü haqlamışdı, Qulam müəllim 90-ı xeyli geridə qoymuşdu, Cəfər müəllimlə Abbas müəllim 80-ni keçmişdi... Bu adamlar keşməkeşli illərin canlı tarixi idilər və öz daxili ziyalı ləyaqətlərini qoruyub saxlaya bilmişdilər. Sizdən nə gizlədim, bu yaş fərqinə baxmayaraq, onlarla hərdən-bir konyak vurmağımız da olurdu. Ruhən çox cavan idilər. Allah onlara qəni-qəni rəhmət eləsin! Sizə deyim ki, mənim üçün müasir ədəbiyyatımızda, ümumiyyətlə, cəmiyyətimizdə hər gün onların yeri görünür! Azərbaycanın müstəqilliyi onların da idealı idi. O ki, qaldı, dostlar haqqında mənim nəsə ümumi bir söz deməyimə, – onlar hamısı istedadlı adamlardır.

– Elçin müəllim, siz indicə dediniz ki, dostluğunuzun daxi-

lində ədəbiyyata bağlılıq mühüm yer tuturdu. Maraqlıdır, yeni əsərlərinizi bir-birinizə oxuyurdunuzmu?

– Bəli! Yadımdadır, səhv etmirəmsə 1970-ci ilin yayı idi, Kislovodska getmişdik və Paris səfərindən qayıtmış Anar yol qeydləri yazmışdı, bir bağçada oturduq və Anar o yazını oxumağa başladı, bir azdan bu tərəfdən də yağış başladı, amma yağışın altında islansaq da o yazının axırına çıxdıq. Mən hər hansı bir yazımı bitirən kimi, makina yazısını əvvəl atama verirdim ki, oxuyub fikrini söyləsin, həyat yoldaşım oxuyurdu, Anara, Əkrəmə, Araza, Yusifə, Aydına, Kamilə, Nadirə, İshaq İbrahimova, bir az sonra Vilayət Quliyevə, Vaqif Cəbrayılzadəyə verirdim. Eləcə də onlar. Bu çox gözəl bir ənənə idi və xüsusi bir mikromühit yaradırdı.

– İndi bu ənənəni davam etdirmirsiniz?

– Atam getdi... Dostlar seyrəldi, bəzisi haqq dünyasına köçdü, bəzisi illərin sınağına sinə gərə bilmədi... həvəs də görünür, o həvəs deyil... Təzə yazıları hərdən Anara verirəm, Vilayətə, Vaqifə verirəm... Ancaq bu gün əsas ilk oxucularım və tənqidçilərim həyat yoldaşım və qızlarımdı, kürəkənimdi.

– Sizin sözlərinizdə bir az kədər hiss edirəm, bu nədəndi? İllərin ötüb keçməsindən, yoxsa o dövrlə bağlı nisgildən?

– Görünür həm ondandı, həm də ikincidən, amma dövrlə bağlı nisgil yox, ədəbi mühitlə bağlı nisgildən. Yetmişinci illərdə, səksəninci illərin, xüsusən, birinci yarısında Azərbaycan ədəbi prosesi yaxşısı ilə, pisi ilə bərabər, canlı bir orqanizm idi və nəticə etibarilə millətə xidmət edirdi, milli təfəkkürün inkişafı üçün münbit zəmin yaradırdı. Ədəbi proses, yaranan bədii ədəbiyyat və həmin ədəbiyyatın cəmiyyətin inkişafında oynadığı rolu müəyyən etmək mübarizəsi deməkdir. Mən «ədəbi proses» anlayışını bu cürə qəbul edirəm. Azərbaycan ədəbiyyatının Azərbaycan milli-azadlıq hərəkatına çox ciddi təsiri gün işığı kimi, aydın bir həqiqətdir və bu mənada o illərin ədəbi prosesi müstəsna xidmətlərə malikdir. Bir tərəfdə hakim ideologiya və bu ideologiyanın həyata tətbiqi keşiyində dayanmış ədəbiyyat generalları, zabitləri, sıraviləri, o biri tərəfdə isə istedad və əsl ədəbiyyat fədailəri – mənzərə, bax, belə idi. Düzdü, bu gün özünün ədəbiyyat naminə və ümumiyyətlə, millət naminə hansı xidmətlər göstərməsi, nə yazıb, nə pozması məlum olmayan imza sahibləri bəzən təkəbbürlü bir əda ilə ədəbi-ictimai təsnifatçılıqla məşğul olurlar, hadisələrə, şəxsiyyətlərə, sənətə müəllim kimi, qiymət vermək istə-

yirlər, amma buna o qədər də fikir vermək və bundan əsəbiləşmək lazım deyil, çünki həmişə belə olub və bir müddət keçəndən sonra onların hamısı unudulub gedib. Unudulmamaq üçün, sənin sözünün kəsərli olması üçün, özün nəyəsə malik olmalısan.

– Elçin müəllim, o zaman siz yalnız Azərbaycan ədəbi prosesində yox, keçmiş İttifaq ədəbi prosesində də fəal iştirak edirdiniz. «Literaturnaya qazeta», «Drujba narodov», «Voprosı literaturı», «Yunost», «Literaturnoye obozreniye» kimi nüfuzlu mətbuat orqanlarında ən çox çap olunan yazıçı-tənqidçi siz idiniz. Bu barədə nə deyə bilərsiniz?

– Mənim o mətbuat orqanlarında onlarla böyük məqalələrim dərc edilirdi və onlar hamısı Azərbaycan ədəbiyyatının təbliğinə və dünya ədəbiyyatı, keçmiş İttifaq ədəbiyyatı kontekstində təhlilinə həsr olunmuşdu. Yadıma gəlir, o vaxt Mövlud Süleymanlının, yaxud Vaqif Cəbrayılzadənin, yaxud Saday Budaqlının, bir çox başqalarının Moskvada nəşr olunan ilk kitablarına mən ön söz yazmışdım. Bütün bunlar, yuxarıda dediyim o «ədəbi proses» anlayışının tərkib hissəsi idi.

– Elçin müəllim, bildiyiniz kimi, bizim rubrikanın adı «Qeybət»dir. Bu barədə nə deyə bilərsiz?

– «Qeybət»i dırnağa alanda onunla məşğul olmaq olar... Ancaq dırnaqsız qeybət – bu, cəhalət və nadanlığın fironluğuna gətirib çıxaran üfunətli bir şeydir. Və mən çox təəssüf edirəm ki, bəzən hansısa mətbuat orqanları da bu cürə şayiələrə, böhtanlara, qarayaxmalara öz səhifələrində yer verir. Qəzet nədir? Qəzet – yüksək amallar naminə əhli-qələmin minbir əzab-əziyyətlə ərsəyə çıxardığı yaradıcılıq məhsuludur. Bəs bizim bəzi qəzetlər? Əhli-qələm gərək böhtana yol verməsin, çirkabdan faydalanmasın. Əvvəllər hər gün səhər işə gələndə qəzetləri açırdım ki, görək bu gün nə böhtanlar, nə nadan şayiələri dərç olunub? Təbii ki, söhbət bütün qəzetlərdən getmir, ancaq axı, gərək bulvar qəzetləri də öz səhifələrində qara böhtanlara yol verməsin. Mən nəinki o səviyyəyə enməyi, onlara cavab verməyi özümə sığışdırmıram, ümumiyyətlə, son zamanlar onları heç oxumuram da. Anarda səbr var, deyir ki, onun haqqında yazılan böhtanları yığır, 1000 səhifə olanda çap etdirəcək. Məndə belə bir səbr və həvəs yoxdur. Mənim haqqımdakı böhtanları bürmələyib atıram layiq olduğu yerə – zibil yeşiyinə. Mən qəti surətdə müqayisə üçün yox, ibrətamizlik üçün deyirəm: baxın Mirzə Cəlilin, Mirzə Ələkbər Sabirin, Üze-

yir Hacıbəyovun həyat yollarına. Nə qədər iftiralara, böhtanlara, cahil şayiələrinə məruz qalıblar? Mən Üzeyir bəyin publisistikası haqqında monoqrafiya yazmışam və dövri mətbuatın ona münasibətini izləmişəm. Bu adamın üstünə nə qədər çirkab tökməyə cəhd ediblər? Yəni biz mütləq belə olmalıyıq? Böhtançı hər yerdə var (bu da bir sənətdir ki, peşəkarları var!), ançaq onlar axı gərək mətbuata bu dərəcədə yol tapmasın! Dəli hər yerdə var, ancaq dəli sayıqlamalarına qəzet səhifəsində yer vermək olmaz axı! Aydın məsələdir, əhli-qələm bu böhtanı, sərsəməni oxuyan kimi, başa düşür ki, iftiradır, amma qəzetində dərc edir. Bax, söhbət bundadır! «Sən pis yazıçısan, çünki iqtidara yaxınsan, sən isə yaxşı yazıçısan və gözümün işığısan, çünki müxalifətə yaxınsan, yaxud da əksinə» prinsipi ilə qəzet çıxarmaq olmaz. Prinsip bir olmalıdır: sən necə yazıçısan, necə xadimsən, millət üçün indiyə qədər nə etmisən? Bunu qəbul edib, etməmək başqa şeydir, böhtanlara rəvac vermək isə tamam başqa şeydir.

Nə isə, deyəsən bu məsələ barədə layiq olduğundan artıq danışdıq. Bilmirəm, bunun bir mənası var, ya yox? Hər halda məndə qarantiya yoxdur ki, bu fikirlərdən sonra, sabah təzə bir çirkab püskürməsi ilə rastlaşmayacağam. Ancaq oxucularımı, mənə zəng edib, rastıma çıxıb bu böhtanlardan hiddətlənən tanıdığım və tanımadığım gözəl insanları arxayın etmək istəyirəm ki, o üfunət mənə heç vaxt təzyiq etməyib, bundan sonra da qətiyyən təzyiq etməyəcək! Sizin dırnaq arasındakı «Qeybət»inizə isə uğurlar arzulayıram.

*Mühasibəni Zülfiyyə apardı.*
*1998.*

# ELÇİNLƏ ELÇİN VƏ ƏDƏBİYYAT BARƏDƏ SÖHBƏT

*Həmsöhbətim Xalq yazıçısı Elçindir.*

## *OVQAT*

Doğrusu, Elçinlə görüşəcəyimi biləndə bir az şaşırdım. Düşündüm ki, mən hansı Elçinlə söhbət etməliyəm axı: yazıçı Elçinlə, tənqidçi-alim Elçinlə, yoxsa Baş nazirin müavini Elçin Əfəndiyevlə?

Söhbətimizin müqəddiməsində Elçinin «içimdə bir ədəbiyyatdan danışmaq ehtiyacı var» deyimi isə yaman kövrəltdi məni. Bu sözlər qürbətdə qalıb, Vətən həsrəti çəkən qəribin sözlərinə bənzəyirdi. Elçin bu fikri ilə bütün iç dünyasını açıb tökürdü elə bil. Onu başa düşmək üçünsə sadəcə, Elçinin ömür yolunu, yaradıcılığını ani yada salmaq kifayətdir.

Amma...

– Mənim önümdə iki Elçin dayanıb: biri yazıçı Elçin, digəri isə Baş nazirin müavini Elçin Əfəndiyev. Və inandırım sizi, Elçinlə söhbət etməyə səskeçirməyən iki qapı arxasında, böyük kabinetdə, Baş nazirin müavini kürsüsündə əyləşən Elçin Əfəndiyev çox yox, nə qədər lazımdı, elə o qədər də mane olur.

– Əvvəla, gəl vəziyyəti bu dərəcədə dramatikləşdirməyək... İkincisi də, yadında saxla, Elçinlə Baş nazirin müavini Elçin Əfəndiyev arasında elə bir fərq yoxdur. Mən əvvəl kim idimsə, bu gün də həmin adamam və sabah vəzifədən gedəndən sonra da həmin Elçin olacağam. Mən vəzifəyə qədər bir fikir, vəzifədə başqa fikir, vəzifədən sonra da bir başqa fikir söyləyən adam deyiləm. Mən bu vəzifəyə qədər Heydər Əliyev haqqında nə düşünmüşəm və onun kölgəsi qılınclanan vaxt, o vaxt ki, indi vəzifədə olanlardan bir qismi ən yaxşı halda, susurdu, nə yazmışamsa, bu gün də o fikirdəyəm və Allah qoysa, sabah da vəzifədən sonra, o fikirdə qalacağam.

– Çox gözəl. Elə isə mənimçün maraqlıdı: bir vaxtlar «yaşamaq üçün bəzən öz-özünü gərək aldatmağı da bacarasan» – deyən Elçin indi özünü babat aldada bilir?

– Bu bir az dərin sual oldu. Yadıma düşür, 27-28 il əvvəl

yazmışam onu. Güman edirəm ki, düz də demişəm. Həyat o dərəcədə mürəkkəb bir şeydi ki, bəzən adam sövq-təbii öz-özünü aldadır. Yəni bunsuz mümkün deyil. İnsan elə doğuluşdan öz-özünü aldadır da! Əgər sənin sabahkı günün böyük bir sual işarəsi altındadırsa, tutaq ki, maşın altına düşə bilərsənsə min cür oyun gələ bilərsə başına, belə çıxır ki, yaşayışın özü elə aldanışdı da...

– Sizin qəhrəmanlarınızın əksəriyyəti çox darıxır. Amma bu heç də «darıxmaq üçün darıxmaq» deyil, eynilikdən, yeknəsəklikdən darıxmaqdır. İndi, Elçin müəllim, hər gün eyni ev, eyni xidməti maşın, eyni yol, eyni kabinet və sair eyniliklər, yeknəsəkliklər sizi bezdirmirmi?

– Bu xüsusiyyətimi çox düz tutmusan. Mən on iki il Yazıçılar İttifaqının katibi işləmişəm. Və inandırıram səni, hər gün işə gələndə küçələri dəyişirdim ki, eynilik olmasın. Ancaq tək qalanda darıxmıram. Mənim öz-özümlə söhbətim tutur. Amma yeknəsəklik dəhşətdir...

Bəs indiki yeknəsəkliyi necə aradan qaldırırsınız?

– İndiki işimə yeknəsəklik demək bir az çətindi. Ona görə ki, bu kabinet ki var, burada səhərdən axşamacan müşavirələr, müxtəlif problemlərin müzakirəsi yeknəsəkliyi dağıdır. Amma sən demiş, hər gün eyni yoldu da... Yeganə təskinliyim var ki, axşam evə eyni vaxtda qayıtmıram: ya 8-də, ya da iş çox olanda 10-da, 12-də qayıdıram. Çox vaxt da evə şəhəri fırlanandan sonra gedirəm.

## GƏLİŞ

– Elçinin ədəbiyyata gəlməyində İlyas Əfəndiyevin rolu nə dərəcədədir?

– İlyas Əfəniyevin rolu çox böyük, mühüm və həlledici olub. Həm də ikili səciyyə daşıyıb: biri sövq-təbiidir. Yəni gözümü açandan evdə ədəbiyyat söhbəti görmüşəm, o mühitdə böyümüşəm. İkincisi isə ədəbiyyata məndə bilavasitə marağı da İlyas Əfəndiyev oyadıb. Mən İlyas Əfəndiyevin şəxsiyyətinə yaxşı bələd olduğumdan əsərlərini oxuyurdum və bu yazılardakı özünü ifadədə atamı axtarırdım. Bir də çox erkən yaşlarımdan oxumağa başlamışam. Hələ orta məktəbə getməzdən əvvəl çoxlu nağıllar, dünya ədəbiyyatından nümunələr oxuyurdum...

– Mənə elə gəlir ki, siz qarşınıza məqsəd qoyub ədəbiyyata

gələndən sonra nağıllarımıza bir daha qayıtmısınız və bunu İlyas Əfəndiyevin məsləhəti ilə etmisiz. Ona görə bu fikirdəyəm ki, siz yazılarınızda dünya ədəbiyyatının incilərindən çox məlumatlı adam təsiri bağışlayırsınız. Və siz milliliyi qorumaq naminə, Azərbaycan nağılları ilə dünya ədəbiyyatından əxz etdiklərinizin sintezini yaratmağa yalnız cəhd edirsiniz.

– Sənin bu müşahidən xoşuma gəlir, güclü müşahidədir. Ancaq bir ifadə işlətdin, ona cavab vermək istəyirəm. Mən ədəbiyyata qarşıma məqsəd qoyub gəlməmişəm. Yəni, mən özümü tanıdığım vaxtdan yazmışam. Lap uşaq yaşından gopa basırdım, özümdən nağıllar quraşdırıb ona-buna danışırdım. Bu da yazmağın bir formasıdır da. Sonradan, əlim qələm tutandan da yazmağa başladım. İndi mənim arxivimdə 5, 6, 7 yaşında yazdığım yazılar qalır. Qəribədir ki, arxiv məsələsində atamdan fərqli olaraq, bir az səliqəliyəm. İndi o yazıları oxuyanda 50 il əvvəl onları yazdığım anı belə xatırlayıram, təsəvvür edirsən?!

Nağılları isə çox sevirdim. Mən yeniyetmə ədəbiyyatı deyilən kitabları məktəbə gedənə qədər oxumuşam. Evdə mənim oxumağım üstündə dava gedirdi. Atam gecə yarı durardı ki, mən işığı yandırıb gizlin kitab oxuyuram. Əsəbiləşirdi, kitabları yığıb mənim əlimdən gizlədirdi. Amma sən doğru deyirsən ki, mənim oxumağımda bir az kosmopolitik (bilmirəm uşaqlıq və yeniyetməlik dövrü üçün bu söz yerinə düşür, ya yox?) vardı. Yəni mən klassik Azərbaycan ədəbiyyatını böyük mənəvi sərvət kimi 8-10-cu siniflərdə əxz etmişəm... Tələsmə, sualına tam cavab verim, sonra... Hə, yəni gizlətmirəm də, olan şeydi deyirəm, Axundovu, Cəlil Məmmədquluzadəni, Sabiri və başqa böyük klassiklərimizi oxumağım, mərhələyə bölsək, ikinci oxu mərhələmə düşür. Buna görə də onları formalaşmış oxucu kimi oxumuşam və görünür bunun özünün də təsiri olub. Amma sənin dediyin o sintez məsələsi təbii bir şeydir, bunu məqsəd kimi qarşıma qoymamışam.

– «Beş dəqiqə və ədəbiyyat» kitabının girişində çox maraqlı bir detal var. Yazırsınız ki, mən atamın, xalq yazıçısı İlyas Əfəndiyevin iş otağında oturub onunla söhbət edirdim. Birdən atam iki əli ilə düzülmüş kitab dolablarını göstərərək...

– Bəli, bəli, yaxşı xatirimdədi: dedi ki, dünyada bu qədər böyük yazıçılar olub, bunlardan sonra biz nə üçün yazırıq?

– Təbii, klassiklərdən üstün olmaq haqda iddia yersiz görünür. Amma adam inanmasa ki, onlardan daha güclü əsər yaza biləcək,

məncə, qəti əlinə qələm almaz. Bunu da, təbii, Elçin bilməli idi, çünki İlyas Əfəndiyevin oğludur. Sizin xatirəniz də buna bir sübutdur. Bütün bundan sonra isə Elçin yazdı...

– Əvvəla, bu söhbət uzaq dövrün yox, 80-ci illərin əvvəllərinin söhbətidir. Yəni artıq yazıçı idim, ədəbiyyatda yeri olan bir adam idim. Amma bu sual məni sarsıtdı. Çünki bunu İlyas Əfəndiyev kimi Azərbaycan ədəbiyyatının klassiki deyirdi və bu sadə sözdə həqiqət vardı. O boyda nəhənglərdən sonra bizim yazmağımız, sən demiş, öz-özümüzü aldatmaqdı da.

Onda mən dedim ki, hər bir yazıçı öz xalqının taleyinin, tarixinin kontekstində qiymətləndirilməlidir. Hesab edirəm ki, düz də demişəm.

– Təbii, haçansa sizin dediyiniz kimi, «hər hansı bir yazıçının yerinə başqası gəlib onun xalqının hiss və həyəcanlarından... yazmayacaq». Öz sözlərinizlə desək, yazıçı Elçin özünüifadə ilə özünü təsdiq edə bilibmi?

– Yazıçı o adamdır ki, oturur ağ kağızın qabağında və özünü bir şəxsiyyət kimi, individum kimi ifadə edir. Əgər istedadlıdırsa, o özü ilə bərabər xalqını da ifadə edir. Yəni onun istedadı qələmi vasitəsilə xalqının psixologiyasını, hiss-həyəcanını, problemlərini yazır. Və bədii ifadə böyük ədbiyyat baxımından layiqli bir şeydisə, o, özünü təsdiq edir. Əksidirsə, yox. Bu sadə həqiqətdir. Təbii ki, qrafoman ədəbiyyatı özünü təsdiq edə bilməz.

– Deyəsən bir az konkret olmadı. Sizin özünüzdən söhbət gedirdi.

– Onu sən ayırd etməlisən ki, mən özümü təsdiq edə bilmişəm, ya yox?

– Aydındır. Amma etiraf edək ki, bizim yazarlar dünya ədəbiyyatında heç də layiqli yerlər tutub özlərini təsdiq edə bilməyiblər. Necə düşünürsünüz, bu xalqımızın hiss-həyəcanının, psixologiyasının «zəifliyindəndi», yoxsa yazarlarımızın talantsızlığından?

– Bu çox ciddi məsələdi. Desək ki, Azərbaycan xalqı say etibarilə kiçikdi, ona görə bizim yazıçılar dünya miqyasında lazım olan dərəcədə parlamayıblar, bu düzgün olmaz. Çünki İslandiya kimi 100 min əhalisi olan bir ölkənin Lakskensi var ki, Nobel mükafatı alıb. Bu yəqin onunla bağlıdır ki, Azərbaycan uzun illər SSRİ-nin tərkibində, əvvəl isə Rusiyanın müstəmləkəsi olub. Sadəcə, dil cəhətdən Azərbaycan dünya ədəbiyyatına birbaşa addım

ata bilməyib. O dövrün tərcümə problemlərindən yəqin ki, xəbərin var. Mən hesab edirəm ki, yazıçılarımızın həm tarixi, həm də müasirlik baxımından dünya miqyasında görünməməsi, dünya ədəbiyyatının özünün ehtiva dairəsinin tam olmamasına dəlalət edir.

## PROBLEM TƏKCƏ TƏRCÜMƏDƏDİRMİ?

– Belə başa düşdüm ki, əsas problem tərcümə olub. Bəs niyə indi tərcümə olunmuruq? Yoxsa layiqli, ortaya çıxarmağa əsərimiz yoxdu?

– Bəli, biz tərcümə edə bilmirik. Ona görə ki, kadrlarımız yoxdu. Bizim ədəbiyyatımızı xaricə dilə tərcümə etməkdən ötrü öz kadrlarımız olmalıdır. Yəni bir tərəfdən canıyla, qanıyla, götürək elə Mirzə Ələkbər Sabiri, Axundovu, Mirzə Cəlili... hiss etməlidi, digər tərəfdən isə ən yüksək bədii dillə onu ingilis, yaxud fransız dilinə tərcümə etməlidi. Bu tərcüməçiləri isə biz yetişdirməliyik, başqası gəlib bu işi görəsi deyil.

– Siz klassiklərimizin adını çəkirsiniz. Amma mənimçün maraqlıdı, sizcə, dediyiniz yüksək səviyyədə tərcümə olunsa, müasirlərimizdən dünya ədəbiyyatına qəbul olunanı olarmı?

– Əlbəttə! Götürək elə 60-cı illərdə ədəbiyyata gələnləri: İsi Məlikzadənin də, Yusif Səmədoğlunun da, Anarın, İbrahimbəyovların, Mövludun, Əkrəm Əylislinin də elə yazıları var ki, onların dünya ədəbiyyatında yeri var (Elçin müəllim çox güman ki, təvazökarlıqdan öz adını çəkmədi). Və bir çox kitablarımız da xarici dilə tərcümə olunub. Təzə kitablarım çap olunub, göstərərəm sənə. (Söhbətimizin sonunda Elçin müəllim İsveçrədə, Almaniyada, Türkiyədə, Fransada, Çində, İngiltərədə, İraqda (türkman dilində) və sair və ilaxır ölkələrdə son 7-8 ildə çap olunmuş kitablarını göstərdi. Mən də belə qənaətə gəldim ki, tərcümədən o qədər də gileylənmək də lazım deyilmiş.)

Yəni bu Azərbaycan ədəbiyyatının istedadsızlığına dəlalət edən bir şey deyil. Bu gün bütün düynada ən maraqlı ədəbiyyatlardan biri Latın Amerikası ədəbiyyatıdır. Amma Latın Amerikası ədəbiyyatı dünya miqyasına son 15-20 ildə daxil olub. Amma onları oxuyanda görürsən ki, bunlar gərək çoxdan dünya ədəbiyyatına daxil olaydılar. Yapon ədəbiyyatından elə Akutakavanı gö-

türək, XIX-XX əsr dünya ədəbiyyatının ən böyük klassiklərindəndir. Amma onu Avropada 20-25 ildi tanımağa başlayıblar.

... Və

– Elçin müəllim, uşaqlıqda ən böyük arzunuz Allah olmaq idi, yoxsa İlyas Əfəndiyev?

– Bir az qəribə sualdı. Amma vallah heç vaxt Allah olmaq fikrinə düşməmişəm. (Gülür).

– İnanıram ki, mənim nə demək istədiyimi çox gözəl başa düşürsünüz...

– Mən qarşıma o məqsədi də qoymamışam ki, İlyas Əfəndiyev olum, doğrudan, səmimi deyirəm. Sadəcə olaraq yaxşı əsər yazmaq istəmişəm. Yəni mən yazmaya bilməmişəm (özü dedi, yoxsa soruşacaqdım– A.) Onuncu sinfə qədər heç filologiyaya getmək istəmirdim. İstəyirdim Leninqraddakı Hərbi Tibb Akademiyasına gedim. Mümkün olmadı. Ona görə ki, gördüm yazı-pozusuz mənim həyatım həyat deyil.

– Elçin müəllim, bədii müqayisə kimi, bəzən, çox qəribə vasitələrdən istifadə edirsiniz. Tutaq ki, «Leoxarın Belvederli Apollundakı yarpaq kimi...» və sair. Belə müqayisələr çoxdu sizdə. Bu nə müqayisə, nə bənzətmədi belə?

– Mən onu sənətşünas diliylə vermişəm də...

– Olmazdımı burada Adəm və ya Həvvadan bənzətmə verəydiniz? Yazar oxucunu da nəzərə almalıydı axı!

– Söhbət xarakterdən gedir. Bu o sənətşünasdı ki, siniq deyirlər ona, hər şeyə ironiya ilə yanaşır, həyatın mənası yoxdu onun üçün. O, Adəm desəydi, olardı sadə, insani bir şey. Bu axı iddialıdı...

– Necə fikirləşirsiniz, oxucu bu müqayisələri həzm edə bilir?

– Oxucunun nəyi həzm edib, nəyi həzm etməməsi yazıçı üçün meyar olmamalıdır. Kütləni nəzərdə tutsam, onda gərək hind filmi yazam.

– Elçin müəllim, hekayələrinizin əksəriyyəti «sonra» ilə başlanır. Bu «əvvəl»i yazmamaq tənbəlliyindən irəli gəlir, yoxsa...

– Yəni davamı da, həyatın davamı. Sən bunu düzgün tutmusan. Bir dəfə mən də hekayələrimi çapa hazırlayanda gördüm ki, hekayələrimin çoxu «sonra» ilə başlanır. Onu bilərəkdən eləmirəm, bu nəsə təbii gəlir...

– Fikirdən fikrə isə çox vaxt ədəbi priyomla yox, «nə isə» ilə keçirsiniz.

– Güman etmirəm bunlar yazıçı tənbəlliyindəndir. Yazıçı əsərdə oxucuya deyəcəyinin, söz kütləsi baxımından, minimumunu deməlidir. Yəni başqa cür desək, bədii ədəbiyyatın mənim aləmimdə ən böyük keyfiyyət göstəricilərindən biri ondan ibarətdir ki, deyilməyən deyiləndən artıq olsun. Bu mənimçün ədəbiyyatın meyarlarından biridir və çox prinsipial məsələdir.

– Siz hələ 25 illik yaradıcılığınızdan danışarkən yazırsınız ki, «fikirləşəndə varlığımı bir məyusluq bürüyür, hədər getmiş vaxt barədə düşünürəm, lazımsız yazılarımın xəcalət təri məni bürüyür». Maraqlıdır: hansı lazımsız yazınızın xəcalətini çəkir və hansı lazımlı yazınızdan zövq alırsınız.

– Mənimçün əsərdə yeganə meyar onun bədii-estetik səviyyəsidir. 1967-68-ə qədərki yazılarım sırf bədiilik baxımından məni ifadə edən əsərlər deyil. Yəni bunlar Elçinin ilk qələm təcrübələri idi. Hansı yazılarımdı: «Açıq pəncərə», «Sos»... Hətta «Sos»u «Ulduz» jurnalında çap etdiyinə görə, komsomolun Mərkəzi Komitəsi Cabir Novruza töhmət verdi, məni komsomol məhkəməsinə çəkdilər. Baxmayaraq ki, bu əsər siyasi baxımdan bugünkü konyukturanın tələblərinə cavab verir, amma bədii-estetik cəhətdən məni qane etmədiyinə görə onu sonradan heç bir kitabıma salmadım. Bu o demək deyil ki, mən o yazılarımdan imtina edirəm. Əsla! Mən heç bir yazımın altından öz imzamı nə götürmək həvəsindəyəm, nə də buna ehtiyac var. Onsuz da yazıya pozu yoxdur! Bədii yazılarımda heç vaxt heç bir kompromisə getməmişəm. O dövrün konyukturasına uyğun publisistik yazılarım var. O yazılar bədii yazılarımın qarşısında yaşıl işıq yandırmaq üçün idi... O ki qaldı hansı əsərimdən zövq alıram məsələsinə, doğrusu, mən özüm zövq almaq üçün yazmıram. Bu suala yəqin Əkrəm Əylisli böyük həvəslə cavab verərdi.

– Bədii yaradıcılığınızda çox vaxt söz yaratmaq meylləri görünür. Məsələn, «telefonxana», «yolbənd» və sair...

– Telefonxana?! Yadıma gəlmir harada işlətmişəm. Bəlkə səhv eləyirsən?

– Qətiyyən: «Beş dəqiqə və ədəbiyyat», Bakı – 1984, «Gənclik», II hekayə, «Beş qəpiklik motosikl», səhifə 25, III abzas.

– Ola bilsin. Amma mənimki olanda nə olar? O qədər də

uğurlu deyil. «Şlaqbaum» mənasında «yolubənd» isə pis alınmayıb.

– Siz həmişə «nə üçün yazıram?» sualına cavab axtarmısınız. Bilmirəm indi bunun cavabını tapmısınız, ya yox? Amma siz 1988-ci ildən «Vətən» Cəmiyyətinin sədri kimi ictimai, 1993-cü ildən sonra isə Baş nazirin müavini kimi siyasi fəaliyyətinizlə bu sualı cavablandırmadınızmı?

Yenə «ikilik?»

– Məncə, bu sualı bir az başqa cür qoymaq lazımdır. «Nə üçün yazıram?» Bu yazıçının daimi sualıdır. Ədəbiyyat yaranandan bu sual olub və bu sualın konkret cavabı yoxdur. Həyat Xeyirlə Şərin mübarizəsidir. Bu mübarizədə Xeyirin müttəfiqi kimi ən aktiv iştirak edən ədəbiyyatdır. Sən istəyirsən sevgidən, məhəbbətdən yaz, qətiyyən siyasətə aid olmayan şeydən yaz, istər-istəməz mübarizənin ortasındasan... Darıxma, qoy sualına axıracan cavab verim... Məncə, sən sualı belə verməlisən ki, yazıçılıqla bu fəaliyyət tutur, ya yox? Cavabım isə belədir: dərindən yanaşsaq tutmur! Yazıçı üçün ideal variant masa arxasında oturub, yazı-pozu ilə məşğul olmaqdır. Təəssüf ki, bu, hamıya müyəssər olmur; o şey ki, Tolstoya müyəssər olub: Qraf idi, maddi ehtiyacı yox idi, malikanəsi var idi. O imkan indi yoxdur. Digər tərəfdən, bizim böyük ədiblərimizə diqqət yetir. Onların hansı ictimai həyatdan kənarda olub? Mirzə Cəlil «Molla Nəsrəddin» kimi ədəbi-ictimai məktəbi yaratmasaydı, indi bizə məlum olan əsərlərindən bəlkə də on dəfə artığını yazardı. Gəl fikirləşək: o düz edib, ya yox?! İndi mən Baş nazirin müaviniyəm və bu, vaxt baxımından yazıçı Elçin üçün ciddi problemdir. Digər tərəfdən: Elçinin günahı yoxdur, amma Elçin Əfəndiyevə cürbəcür böhtanlar atırlar, haqqında şayiələr yayırlar. Təbii ki, bu da eyni ünvana gəlir. Bu stulda olmasam bu böhtanlar da olmaz axı! İnan ha, bu səmimi sözlərdir!.. Başqa tərəfdən isə çox ciddi təskinliyim var: mən Azərbaycan dövlətinin qurulmağında, müstəqilliyinin möhkəmlənməsində müşahidəçi deyiləm, iştirakçıyam.

İkincisi də, o şeyləri ki, Elçin Əfəndiyev görür, şahidi, iştirakçısı olur, bunları vaxt gələcək, Elçin qələmə alacaq.

– Sözümüzün axarı tamam dəyişdi, elə axara uyğun da soruşum: sizə elə gəlmirmi ki, Baş nazirin müavini kimi verdiyiniz xeyirdən daha artığını yazıçı Elçin verə bilərdi?

– Ola bilər, bəlkə də elədir. Mübahisə etmək istəməzdim.

– Bəlkə siz bu və ya başqa şəkildə düşünməklə özünüz özünüzü aldadırsınız?

– Aldatmaq barədə fikrimi dedim. Sən əgər elə bilirsənsə ki, mən bu vəzifədən ötrü «sino» gedirəm, səhv düşünürsən. Mən çox gözəl bilirəm ki, vəzifə müvəqqətidir. Vəzifədən getmək mənim üçün qəti surətdə sarsıntı-zad deyil... Təkrar edirəm, mən bura gələnə qədər kim olmuşamsa, burada kiməmsə, vəzifədən sonra da həmin Elçin olacağam. Özü də mən burda da yazıram. Səhər tezdən 5-də dururam. Düz 9-a qədər vaxtım olur. Onun bir saatı çay dəmləməyə, filana gedir. Sonra isə oturub işləyirəm. Əlbəttə, azad yazıçı olanda daha sərbəst idim: dostlarımla restorana, kababxanaya gedə bilirdim (gülür), istədiyim toya, məclisə gedirdim, yaslara borcumu verirdim. İndi vaxt baxımından bu mümkün deyil.

– Bütün bu vaxtını, sərbəstliyini əlindən aldığına görə Elçin Elçin Əfəndiyevi ittiham etmir ki?

– Hərdən edir. Nə deyir? Deyir, niyə sən bu işlərlə məşğulsan ki, mənim də vaxtım qalmır, qoymursan məni istədiyim qədər yazmağa, ömür azdır, illər ötür...

– Bəs bu ittihamların cavabında Elçin Əfəndiyev özünə necə bəraət qazandırır?

– Elçin Əfəndiyev də deyir ki, (vallah boğazdan yuxarı demirəm, poetik deyil, səmimidir) əgər mən bir yetim-yesirə kömək eləyirəmsə, bunun savabı onlardan çoxdur.

## «ALTMIŞINCI»LARDAN BİRİNƏ BİRCƏ SUAL

– Elçin müəllim, sizin sonrakı yazılarınızdan fərqli olaraq «Dəyişmə», «Qatar. Pikasso. Latur. 1968» və sair kimi hekayələriniz həyatdan gələn, sırf realizmi əks etdirən dövrün ədəbi mühütündən elə bil qıraqdadır. Düzdü, bəzi tənqidçilər bu hekayələrinizi realizm adlandırırlar. Amma məncə bunları realizm adlandırmaq ən azı o hekayələrdən xəbərsiz olmaq deməkdir. O cür abhava içində birdən-birə romantika göstərməkdə «altmışıncılardan» fərqlənmək məqsədi güdürsünüz?

– Qətiyyən. Heç vaxt xüsusi olaraq fərqlənmək məqsədi güdmürəm. Fikirlərimi elə açıqlayıram da. ... Sən altmışıncılardan sual verdin, mən istəyirəm ki, altmışıncılardan birinin – Əkrəm Əylislinin sizinlə müsahibəsinə münasibətimi bildirim. Əkrəm

Əylislinin o müsahibədə dedikləri məndə təəssüf hissi yaratdı və doğrusu, mən Əkrəmin belə bir miskin vəziyyətə düşməsini heç istəməzdim. Əkrəm bu müsahibəsində və ümumiyyətlə, son dövrlər verdiyi müsahibələrdə özü özünə (!) əbədi abidə ucaltmaq istəyir, güzgüyə baxıb özü öz əksindən elə bil ləzzət alır, elə cuşa gəlir ki, tamam komik vəziyyətə düşür. Bu müsahibədə Əkrəm mənə də ədəbi şər atır (doğrusu, başqa söz tapa bilmirəm!), amma məsələ bunda deyil, özü də Əkrəmin mənə atdığı ədəbi şər Anara, Mövlud Süleymanlıya, Ramiz Rövşənə... atdığı ədəbi şərlərdən azdı.

Məsələ burasındadır ki, əvvəla, indicə dediyim kimi, mən istəməzdim ki, Əkrəm 60 yaşından sonra belə miskin və gülünc vəziyyətdə görünsün, ikincisi və ən əsası isə, Azərbaycan ədəbiyyatına bu cür bucaq altında münasibət bəsləmək, buradakı paralelləri aparmaq ədəbi hərc-mərcliyə və ədəbi xaosa gətirib çıxarar. Əkrəm heç olmasa başqa məqalə və müsahibələrindəki kimi, təkcə özünü tərifləyib göyün yeddinci qatına qaldırsa idi, «mən təbiətdəki yeddi rəngin yeddisində də yazıram» – deyə indiyəcən dediyi sadəlövh və primitiv sözlərini sadəcə təkrar etsəydi, dərd yarı idi və Əkrəmin son illərdə əsas etibarilə məşğul olduğu «özünütərif janrın»da növbəti iddialarının tragikomik məzmununa yəqin ki, heç kim, o cümlədən mən də fikir verməyəcəkdim. Amma burada Əkrəm özünü xüsusi bir ehtirasla böyüdə-böyüdə özü özünü başqaları ilə, o cümlədən, Cəlil Məmmədquluzadə ilə müqayisə edir və onun üçün gün işığı kimi aydın olan üstünlüyünü elan edir.

Bütün bunların psixoloji səbəbləri məlumdur: son 15 ildə yazıdan yazıya özü özünü təkrar edən, cidd-cəhdlə açıq bədii qapıları döyən, bu gün bir söz deyib, sabah başqa söz söyləyən, özünün bədii sözü, çox təəssüf ki, tükənmiş Əkrəm Əylisli unudulmaqdan qorxur və bunu özü də səninlə müsahibəsində etiraf edir: «Unudulmaq qorxusu çox dəhşətlidir» – deyir.

Bax, bu qorxu, bu qorxunu yaradan komplekslər, bir tərəfdən də görünür zamanın çətinlikləri və bu çətinliklər içində gah bu tərəfə, gah o tərəfə, gah da o biri tərəfə atılmaq, bu gün dediyini sabah danmaq onu belə eybəcər və təkrar edirəm, miskin özünü tərifə gətirib çıxarıb, qısqanclıq sarsıntısı, başqalarının hansısa bir uğurundan pəjmürdeyi-hal olmaq onun içini yeyə-yeyə daxilində bütün əhli-qələmə qarşı kin-küdurət yaradıb. Mən sidq-

ürəkdən buna acıyıram, çünki belə bir özünüifadə Əkrəmi yalnız və yalnız öz gözlərində təsdiq edə bilər.

Bundan əvvəl də Əkrəm yazırdı ki, guya onu özündən xəbərsiz partiyaya keçiriblər, özündən xəbərsiz Yazıçılar İttifaqına keçiriblər, özündən xəbərsiz ona Komsomol mükafatı veriblər... Bunlar hamısı, əlbəttə, boş sözlərdir. Əkrəm «Azərbaycan» jurnalında işləyəndə, partiya biletini itirmişdi və hər tərəfə ərizələr yazırdı ki, partiya biletini onunla bir redaksiyada işləyən bir yazıçı oğurlayıb... Bu ərizələrin biri mənim arxivimdədir. O zaman mən Yazıçılar İttifaqının katibi işləyirdim, çalışırdım ki, ona kömək eləyim və öz əli ilə yazdığı o ərizəni bircə dəfə gözdən keçirmək kifayətdir ki, Əkrəm Əylislinin bu cürə «xəbərsizliklərinin» biabırcasına tərsini görəsən. Mən özümə rəva bilmirəm ki, o ərizədə Əkrəmin Kommunizm iddialarına sədaqəti barədə ciddcəhdlə yazdıqlarını təkrar edim... Dövr elə dövr idi və bu gün o özünü o dövrdən təcrid edib qəhrəman kimi təqdim etmək ucuz bir şeydir. Bu mənada qəhrəman Soljenitsin idi, amma heç vəhclə Əkrəm Əylisli deyildi.

Nə isə, qayıdıram səninlə müsahibəsinə. Əkrəm özü haqqında yorulmaq bilmədən «məndə olan istedad... xalqımızın bədii dühasının bir zərrəsidi», «mən yaradıcılığımdan heç narazı deyiləm», «bu obrazlar (söhbət həm də qəhrəmanlarından gedir – *E.*) dərddən-kədərdən yoğrulmuş insan faciələri, tale yazılarıdır», «İsa Hüsyenov «Büllur külqabının nağılı» (öz hekayəsidi – *E.*) haqda demişdi ki, «elə bil öz taleyimi oxudum», «Mən öz yazılarımdan heç narazı deyiləm», «Əgər qoşmalarımdan yaxşı yazan olsaydı, mən onda onları çapa verməzdim» və sair – bütün bunlar, təbii ki, ancaq təbəssüm doğurur: Əkrəmdi də, o da bu yola düşüb... Amma mən heç istəməzdim ki, Əkrəm bu gün, yaşının bu çağında haçansa Kamran Bağırovun onu yanına çağırıb «... sən hamıdan talantlısan» deməyini xatırlayıb fəxr etsin. Yaxud: «Anar özü-özünü yaradıb, məni isə Allah» – desin, sənin «bəs kimi qəbul edirsiniz?» sualına «Allahı və özümü» – cavabını versin. Axı, Allahın adından belə sui-istifadə etmək olmaz! Özü də bunu müsahibələrində, çıxışlarında yeri düşdü-düşmədi Allahın kölgəsində gizlənməyə çalışan 61 yaşlı bir yazıçı söyləyir...

Mövlud Süleymanlının «Köç»ündən danışanda deyir ki, jurnal variantı kitab variantından min dəfə yaxşıdır! Nə üçün? «Çünki bir az əl gəzdirmişdim...» Yaxud: «Mən sözdən azad şəkildə is-

tifadə edirəm, Ramiz kimi sözü zorlamıram. İstəyirsən sözdən evcik qurum, ya imarət ucaldım... Çoxları kimi, Ramiz Rövşən də mənim povestlərimdən Ramiz olub. Bunu bir dəfə demişəm: mənim bir povestimi silkələsən, içindən çox «nəhənglərimiz» tökülər». Burada deyibər ki, ay maşallah!

Bütün bunların da üzərindən keçmək olardı. Hətta Əkrəmin: «indi düzdü, sxemləşdiriblər təsəvvürlərdə ki, Elçin, Əkrəm, Anar... Ədəbiyyatda bunun yeri bu sxemdən qat-qat genişdir. Bu sxemi haradasa bir az özləri də köməkliklə yaradıblar. Yəni iki yazar balası, bir də kəndli balası, yaxşı səslənsin deyə də...» – kimi əttökən və bayağı fikir söyləyərək 61 yaşında tamam obıvatel girdabına düşməsinə də göz yummaq olar, sadəcə onunla kəsdiyin çörəyin peşmançılığını çəkəcəksən, vəssalam.

Amma bu müsahibədə elə yerlər var ki, onlara biganə qalmaq mümkün deyil. Bu yazıçı üzünü sənə tutub: «sizə Mirzə Cəlil çox yuxarıda görsənirsə, bu mənim günahım deyil axı!» – deyə şikayətlənərək özünü Cəlil Məmmədquluzadə ilə müqayisə edib, üstünlüyü özünə verməsinə (!!!-E.) (???-A.) necə biganə qalmaq olar?

Belə bir müqayisənin özü tamam əxlaqsız bir şeydir! (?-A.) Yaxud: «Azərbaycan dilində mənim apardığım reformanı tarix boyu heç kəs aparmayıb» – deməsi, Azərbaycan dilinə, onun tarixinə qarşı təhqir deyil, bəs nədir? Bir tərəfdə Əkrəm Əylisli, o biri tərəfdə Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, ortada da Azərbaycan dili! Vallah, billah, mən hələ Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbi dili ilə bağlı bundan miskin bir şey oxumamışam!

Bu müsahibəni oxuyanda elə bil içimdən bir səs qopdu ki, ay Əkrəm Əylisli, vaxtilə «Kür qırağının meşələri», «Ürək yaman şeydir» kimi maraqlı yazıların müəllifi,sən indi niyə bu günə düşmüsən? Bəli, o yazılar vaxtilə ədbiyyatımıza yeni nəfəs gətirdi, amma bu yeni nəfəsin axırı niyə indi gəlib belə bir vəziyyətə düşdü?

Müsahibələr verən Əkrəm Əylisli bu gün biabırçı şəkildə özünü tərifləməklə məşğuldur, yazıçı Əkrəm isə bu gün hind filmlərindəki epizodları xatırladan hekayələr yazır. (Bu yaxınlarda birini oxudum: yağışlı bir gecə sərxoş ər arvadı məcbur edir ki, get, mənə araq al gətir, arvad yağış altında dəlicəsinə addımlaya-

raq bufetə gedir, axsaq, mənfi bufetçi qadından istifadə edir və qadın da bundan sonra özünü çaya atıb öldürür.) Bu gün Əkrəm yazı masasının arxasında «Əylisdən Əylisəcən» səyahət edərək özünün etiraf etdiyi kimi, «müsbət obrazımı yaradıram(!!!) – deyir, «orada özümün ideal obrazımı yaratmaq istəmişəm» – söyləyir. Daha bundan sonra nə deyəsən? Yaxud, elə həmin yazısında haçansa oxucuların ona yazdığı tərifli məktubları arxivdən çıxarıb xüsusi bir şövqlə üzünü köçürür və oxucuya təqdim edir. Yəni o işi edir ki, buna əlli ildən sonra ehtiyac olacaqsa, bunu bir arxiv işçisi görəcək.

Ancaq bu müsahibənin sonunda sən onu dahi adlandırırsan. Mən belə başa düşürəm ki, bu ironiyadır. Belədir, yoxsa yox?

– Siz elə qəbul etdiniz, bir başqası isə başqa cür.

– Bilirsən, Azərbaycan ədəbiyyatında böyük ucalıqlar var. Ancaq dahi, misal üçün Füzulidir. Bu gün Əkrəm Əylisli özünü Füzulidən də böyük yazıçı hesab etsə, mən daha mat qalmaram, bu, həmin sözü bu dərəcədə devalvasiyaya uğratmağa, ucuzlaşdırmağa əsas vermir.

Nə isə... Deyəsən mən bu barədə Əkrəmin layiq olduqlarından da artıq danışdım. Ancaq bilirsən, cavab verməyəndə, abıra qısılanda, susanda da Əkrəm Əylisli bundan başqa cür nəticə çıxarır, «burada mənəm, Bağdadda kor xəlifə!» – deyə ərköyünlük eləməyə başlayır. Mətbuatda yetənə yetir, yetməyənə də daş atır. Ümid edirəm ki, bundan sonra mən daha bu barədə yazmaq məcburiyyətində qalmayacam. İndi isə gəl, söhbəti dəyişək. (Müəllif hüquqlarına hörmət etdiyimizdən müdaxilələrimizi arzu ilə çıxarıb, Elçinin dediklərini nöqtəsinə, vergülünə toxunmadan veririk – A.)

## ATA RUHU...

– Son illər siz daha çox dramaturgiya ilə məşğulsunuz, komediyalar yazırsınız. Yeri gəlmişkən deyim ki, bu əsərlərinizdə İlyas Əfəndiyevin ruhunu hiss edirəm. Bu necə oldu belə. Elçin müəllim, birdən-birə, dalba-dal komediyalar yazmağa başladınız: «Ah, Paris, Paris!..», «Mən sizin dayınızam», «Dəlixanadan dəli qaçıb və yaxud, mənim sevimli dəlim», indi də Dram Teatrında «Mənim ərim dəlidir» adlı yeni komediyanızın məşqləri başlayıb...

– Doğrusu elə bu mənim özüm üçün də sirr-xudadır (Gülür). Bilirsən, dünyada nə qədər yazıçı varsa, bir o qədər də yaradıcı-

lıq psixolojisi var. Və yəqin mənim birdən-birə komediyalar yazmağımdan danışmaq, bunu izah etmək, məndən daha çox tənqidçilərin işidir. O ki qaldı sənin həmin əsərlərdə İlyas Əfəndiyevin ruhunu duymağına, mən buna şadam.

*Müsahibəni A.Niftəliyev apardı.*
*1998.*

## ELÇİNİN ABSURDU VƏ GERÇƏKLİYİ

Akademik Milli Dram Teatrı builki mövsümün repertuarına İ.Əfəndiyev və B.Vahabzadənin əsərləriylə yanaşı, yazıçı Elçinin də «Ah Paris, Paris!», «Dəlixanadan dəli qaçıb və yaxud mənim sevimli dəlim», «Mənim ərim dəlidir» komediyalarını daxil edib. Hər üç tamaşaya rejissor Azərpaşa Nemətov quruluş verib. Teatr bu tamaşalarla Türkiyə sənətsevərlərini də tanış etməyi planlaşdırıb. Başqa bir teatrımız – Gənc Tamaşaçılar Teatrı da mövsümün açılışına Elçinin «Mahmud və Məryəm» tamaşasını hazırlayıb.

– Elçin müəllim, son illər Sizin komediyalarınız Azərbaycanda və Türkiyədə uğurlu səhnə həyatı qazanıblar. Bəs absurd əsərlərinizi səhnədə nə vaxt görəcəyik?

– Mənə elə gəlir ki, bu komediyalar əvvəllər yazdığım absurd yazılarımın davamı və absurdlaşmış həyatın ifadəsidir.

– Absurd hekayələrinizə gəlincə, məncə, onların yaranma tarixi 1968-ci ildə yazdığınız «Qatar. Pikasso. Latur. 1968» hekayəsindən başlayır.

– Çox maraqlı müşahidədir... Yəqin bu yerdə demək olar ki, həyat özü başdan-başa absurd içindədir... Doğrusu, o hekayələr mənim özüm üçün də həm formasına, həm də məzmununa görə çox gözlənilməz oldu, amma sonra siz deyən cəhəti mən də hiss etdim. Yəni o mənada ki, otuz il əvvəl yazdığım həmin yazıların arxasında da bir absurd tənhalığı, qüssəsi var idi. Hətta bu gün mən o hekayələrdə o cavan müəllifin daxili bir naləsini hiss edirəm. Artıq kiminki olduğu yadımdan çıxıb, haçansa belə bir pyes oxumuşdum: səhnədə ancaq kəllədir, boğazacan yerə basdırılıb və tamaşaçıyla yalnız o kəllə ünsiyyətdədi. İndi keçmiş o qocalara nəzər salarkən mənə elə gəlir ki, o cavan Elçin o zaman boğazacan bir absurd içindəydi və özünü axtarırdı. Ən əsası isə, mən hələ dəqiq bilmirəm ki, o cavan oğlan özünü tapdı, ya yox? Görünür, həqiqətən, yazıçı ömrünün sonuna qədər özünü axtarır.

– Nə üçün məhz «Ölüm hökmü» romanınızı ən sanballı əsəriniz hesab edirsiniz?

– Mənə elə gəlir ki, o romanla 90-cı ilə qədərki yazılarıma bir növ yekun vurdum. Elə bil ki, o roman mənim yazı-pozu işim-

də müəyyən bir mərhələnin son akkordu oldu. Ümid etmək istəyirəm ki, yeni bir mərhələ başlanıb. Yazıçılıq dinamik bir məfhumdur, o, daima bədii axtarışda olmalıdır, yazmalıdır, özünü axtarmalıdır. Hər halda mən bu fikirdəyəm və mənim diri ola-ola keçmiş yazıların istisinə qızınmaqdan xoşum gəlmir. Əgər belədirsə, deməli, «sazım, dınqıl-dınqıl...» əhvalatıdır, söz qurtarıb, haçansa verdiyi suya görə çox sağ olsun, amma daha quyu quruyub!

– 1989-cu ilin dekabrından 1990-cı ilin avqustunacan Siz janr etibarilə əvvəlkilərdən fərqli bir sıra hekayələr yazmısız. Yeni əsərlərinizi özünüz «dialoq-hekayələr» adlandırırsız, onlar bir qayda olaraq «iştirak edirlər» deyə personajların yığcam təqdimatıyla başlayır, konkret zaman-məkan koordinatlarını təyin edir və sözü verirsiz onların özünə («Mehmanxana nömrəsində», «Xüsusi sifariş», «Hövsan soğanı» və b.).

– Mənə elə gəlir ki, bu, bayaq dediyim o yeni mərhələnin (hərgah doğrudanda yenidirsə!) başlanğıcıdır və buradakı hiss-həyəcanların, fikirlərin, demək istədiklərinin ifadəsi, bədii-estetik prinsip etibarilə əvvəlkilərdən fərqlidir.

– Bir vaxtlar Siz Azərbaycanda ilk dəfə klassik yapon poeziyasından maraqlı tərcümələr etmisiz. Necə oldu ki, o poeziyaya müraciət etdiz?

– Bu da, görünür, bayaq dediyim o özünüaxtarış məqamlarından birinin ifadəsi idi.

– «Ədəbiyyatın predmeti insan xislətidir.» Bu da Sizin sözlərinizdir. Bu mənada Siz istədiyiniz qəhrəmanları yaratmısınızmı?

– Bəli. Ancaq o xislət, o qədər mürəkkəb, o qədər ziddiyyətli, o qədər dibigörünməzdir ki, dediyiniz o qəhrəmanlar qurtaran deyil. Elə buna görə də ədəbiyyat ucu-bucağı olmayan təkrarsız bir şeydir.

– «Ömrümü ədəbiyyat dediyimiz bir bəlaya həsr etdiyimçün heyfsilənirəm» (Xəzər, I, 1997) deməyiniz yazıçı ömrünüzə xəyanət deyilmi?

– Məncə, Elmira xanım, siz baltanı lap kökündən vurursuz. O sözlər, çox güman ki, mənim ərkyana (yəni ədəbiyyata qarşı ərkyana) bir şikayətimdir.

– Alın yazısına, qismətə inanırsınızmı? Möcüzəyə necə?

– Alın yazısına, qismətə, taleyə inanıram. Mözücəyə də inanmaq istərdim...

– Ömrünüzdə bircə dəfə də olsa, gözlərinizlə möcüzə görmüsünüzmü?

– Əlbəttə, bu suala belə də cavab vermək olardı ki, elə həyatın, təbiətin özü bir möcüzədir, amma elə bilirəm ki, bu cavab indiki halda bəsit olardı. Yox! Təəssüflər olsun ki, görməmişəm. İlyas Əfəndiyev başqa sivilizasiyalardan gəlmiş «uçan boşqab»lar, onlarla təmas mövzusuyla çox maraqlanırdı və ömrünün son illərində yarızarafat, yarıciddi deyirdi ki, «yaxşı olardı, gəlib məni də aparaydılar...». Dediyiniz o möcüzəylə bağlı belə bir hissiyyat, maraq məndə də var. Hətta həyatımın ayrı-ayrı məqamlarında mən bir möcüzənin həsrətində olmuşam, amma təkrar edirəm, görməmişəm.

– Bəs Siz özünüz həmin «uçan boşqab»lara, başqa sivilizasiyaların mövcudluğuna, onlarla təmasa inanırsız?

– İnanıram! Və orasını da fikirləşirəm ki, bu çox mürəkkəb bir məsələdir, bizim təfəkkürümüzün dərkindən kənardadır. Nə üçün? Çünki həmin sivilizasiyalar bizdən min il irəlidədirlərsə, onlarla təmasda olmaq, onları bizim təfəkkürümüzlə dərk etmək güman ki, mümkündür. Ancaq onlar bizdən milyon il irəlidədirlərsə? Milyard il irəlidədirlərsə, onda necə? Əlbəttə, hər hansı bir sivilizasiyanın milyard il irəli getmiş inkişafı bizim dərketmə imkanlarımızın, bəlkə də vergimizin fövqündədir.

– Elçin müəllim, Nazim Hikmət deyib ki, ən yaxşı şer, hənuz hələ yazmadığım şerdir. Bu mənada Sizə elə gəlmir ki, ən yaxşı əsəriniz hələ bundan sonra yazacağınız əsərdir?

– Buna çox ümid edirəm.

*Müsahibəni Elmira apardı.*
*1998.*

## «MƏN VƏZİFƏDƏN YAPIŞAN ADAM DEYİLƏM»

*Əməkdaşlarımız Ləman Əliəşrəfqızı ilə Mahir Mehdinin həmsöhbəti yazıçı Elçin, Baş nazirin müavini Elçin Əfəndiyevdir.*

... Görüşə 20-25 dəqiqə gecikmişdik. Prezident korteji yolumuzu kəsdiyi üçün bir qədər yubanmışdıq. Elçin müəllim də deyəsən, köməkçisinə bir balaca narazılıq eləmişdi. Bizi görəndə də iradını bildirdi. Səbəbini öyrənəndən sonra bir söz deməyib gülümsündü, bizə yer göstərib «başlamaq olar» işarəsi verdi. Üz-üzə oturub başladıq...

– Yazıçılar İttifaqının katibi Elçin birdən-birə necə oldu ki, siyasətə qatıldı?

– Yox, elə olmadı. Düzdür, mən Yazıçılar İttifaqında katib idim. Amma 87-ci ildə «Vətən» Cəmiyyətini təsis etdik və mən sədr seçildim. Bundan sonra da bildiyiniz kimi, Qarabağ problemi ortaya çıxdı və həyat siyasiləşməyə başladı. «Vətən» Cəmiyyəti də siyasi həyatda öz rolunu oynadı. Bu artıq başqa söhbətdir, amma yadıma düşmüşkən bir şey demək istəyirəm.

– Yəqin Moinzadəylə bağlıdır?

– Bəli, bəli. Moinzadədi, kimdi, bu adamı tanımıram. Bəlkə də sifətdən görsəm, tanıyaram. Deyirlər ki, haçansa «Vətən»in dəvətiylə gəlib. Ola bilər, bu xətlə gələn yüzlərlə adamdan biri də Moinzadədir. Söhbət onda deyil. Məsələ burasındadır ki, yazıçını, sənətkarı bizimkinə və qeyri-bizimkinə bölmək olmaz. Yəni sən müxalifətə yaxınsan, ona görə də əzizimsən, canım-ciyərimsən. Amma sən iqtidardansan, ona görə bizimki deyilsən. Hesab edirəm ki, bu çox pis bir tendensiyadır və bu tendensiyanın başlanğıcını bizim mətbuat artıq qoyub. Bunu nəinki Azərbaycan mətbuatına, ümumiyyətlə, sözə yaraşmayan bir şey hesab edirəm. Məsələn, mətbuat yazır ki, Moinzadə «Vətən» Cəmiyyətinin xəttiylə 90-cı ildə Azərbaycana gəlib. Tez də mötərizə açıb kursivlə yazırlar ki, o vaxt Cəmiyyətə hazırda baş nazirin müavini postunu tutan Elçin rəhbərlik edirdi. Yaxşı, bunu yazırsan, yaz. Amma niyə onu yazmırsan ki, Azərbaycana ilk dəfə Məhəmməd Kəngərlini Elçinin rəhbərlik etdiyi «Vətən» Cəmiyyəti gətirib?! KQB-


10-17

nin qılıncının dalının da, qabağının da kəsdiyi, Mərkəzi Komitənin, ideologiyanın fironluq elədiyi bir vaxtda. Onda sən bunu niyə demirsən?! Əhməd Qaracanlı, Cəmil Ünalı, Nihad Çətinqayanı və başqalarını Azərbaycana «Vətən» Cəmiyyəti gətirib. Bilirsiz, ola bilər, adları çəkilən bu adamların mövqeyilə mənim mövqeyim bu gün üst-üstə düşmür. Ola bilər ki, bunların bir qisminin tutduğu yolu mən qəbul eləmirəm, yaxud əksinə, onlar mənim tutduğum yolu qəbul eləmirlər. Amma fakt bundan ibarətdir. Yəni dediyim odur ki, bu, xəstə bir haldı.

– Deyəsən, mətbuatdan bərk incimisiz?

– Bu gün Azərbaycan mətbuatı xoşagəlməz vəziyyətdədir və sizə deyim ki, bu, bugünün hadisəsi deyil. Məsələn, Qulam Məmmədlinin Üzeyir bəy haqda salnaməsini götürün vərəqləyin. Görün Azərbaycan mətbuatı Ü.Hacıbəyov haqqında nələr yazıb. Ü.Hacıbəyovu pul mənimsəməkdə günahlandırıblar, milli qeyrətsizlikdə günahlandırıblar. Hərdən fikirləşirəm, bu yəni bizim genetik kodumuzdadır ki, biz belə olmalıyıq. Axı, mətbuat bilir ki, Elçin kimdir. Amma avantürist, ləyaqətsiz bir adam deyirsə ki, Səbayel bankından qaçırılan pulun arxasında Elçin dayanır, müxalifət qəzetləri götürüb tez dərc edir bunu. Belə şey olmaz axı. Bunu ancaq ona görə çap edirsən ki, Elçin iqtidarda təmsil olunur. Və yaxud üzünü görmədiyim həmin adam gəlib deyir ki, E.Əfəndiyev məni qəbul elədi və rüşvət istədi. Əslində, əhli-qələmə bir dəfə həmin adamla söhbət etmək kifayətdir ki, bilsin, hansı yuvanın quşudur. Amma dediklərini çap edir.

– Siyasətə gəlişinizlə bağlı sualın cavabı yarımçıq qaldı.

– Hə. Deməli, mən «Vətən» Cəmiyyətinin sədri olarkən, dediyim kimi, Azərbaycanla bağlı çox ciddi proseslər getdi. Bu proseslərdə mən də, təbii ki, iştirak elədim. Nəhayət, biz AMİP-i təsis elədik və mən partiyanın Siyasi Şurasının üzvü seçildim. 1993-cü ildə Heydər Əliyevin gəlişi zamanı onun qayıdışıyla bağlı fikir ayrılığı oldu. Məhz buna görə bir qrup adam AMİP-i tərk etdi. Mən də bəyanat verdim ki, bundan sonra heç bir partiyanın üzvü olmayacam, öz həyat yolumu özüm seçəcəm. 1993-cü ildə bu vəzifə mənə təklif olunanda razılaşdım. Çünki hesab edirdim ki, (bu gün də belə hesab edirəm – E.) Azərbaycanın öz müstəqilliyi uğrunda mübarizə apardığı bir vaxtda mən kənarda dayanmamalıyam. Xususən, mədəniyyət sahəsiylə əlaqədar. Deyim ki, bunun üçün xüsusi canfəşanlıq eləməmişəm, qətiyyən. Mən vəzifə-

dən yapışan adam deyiləm. Ömrümdə bu kreslodan heç vaxt yapışmamışam və yapışmaq fikrim də yoxdu. Mən bu kresloda oturana qədər kim idimsə, indi də həmin adamam, sabah, yaxud bir ildən sonra burdan gedəndə də həmin adam olacam.

– Amma vəzifə yaxşı şeydir, eləmi?

– Bəlkə də. Ancaq mənimçün yaxşı şey deyil.

– Mən səmimi dedim.

– Başa düşdüm, elə mən də səmimi cavab verirəm.

– Vaqif Səmədoğlu müsahibələrinin birində demişdi ki, istəmişəm vəzifəm olsun, mən də dostlarımı yığım xidməti maşınıma, gedək Şıx restoranında yeyək-içək. Bu çox səmimi bir cavab idi.

– Mən də sizə deyim ki, Yazıçılar İttifaqında katib işləyəndə dostları maşına yığıb Qaradağ yolunun üstündə bir kababxana vardı, ora çox getmişik. Söhbət bundan getmir. Sizin sualdan gedir ki, vəzifə yaxşı şeydir, mən də eyni səmimiliklə deyirəm ki, yaxşı şey deyil vəzifə. Niyə? Mən ilkin olaraq yazıçıyam. Yəni mənim hər hansı bir vəzifədə işləməyim vaxt, enerji nöqteyi-nəzərdən yaradıcılığın bahasına başa gəlir. Bu, birinci cəhəti. İkinci cəhətinə gəlincə, bayaq sizə dediyim kimi, əgər mən vəzifədə olmasaydım, haqqımda böhtanları güman ki, qəzetlər çap eləməzdilər. Yaxud, bu qədər ki dedi-qodu haqqımda gedirdi, gedir, səngiyir, sonra təzədən başlayır, yəni mənim özümçün gülməli, bəzi məqamlarda isə miskin olan bu şayiələr, vəzifəm olmasaydı, yaranmazdı.

– Hər halda, dolanışıq probleminin olmamasında vəzifənin üstünlüyünü inkar etməzsiz.

– Bəlkə kimin üçünsə vəzifə dolanışıq mənbəyidir, amma mənim üçün bu belə deyil.

– Bəs Yazıçılar İttifaqında işləyərkən maşınınıza yığdığınız dostlar indiki xidməti maşınınızdan bəhrələnə bilirlərmi?

– Yox. Böyük məmnuniyyətlə dostlarımı bu maşınıma yığıb aparardım, sadəcə buna vaxtım və imkanım yoxdur.

– Əgər elə bir imkan düşsə, kimi aparardız?

– Cavanlıqda yeyib-içdiyim dostlar var ki, bu gün hayıf doyunca görüşə bilmirik. Onları aparardım.

– Heydər Əliyevin komandasına necə oldu düşdünüz?

– Zuğulbada dincəlirdim. Avqust idi. O vaxt Ali Sovetin sədri Heydər Əliyev məni dəvət etdi. Çox səmimi söhbətimiz ol-

du. Respublikada yaranmış gərgin vəziyyətdən bir xeyli danışdı. H.Əliyev həqiqi mənada mədəniyyəti bütün qəlbiylə yaşayan bir insandır. Bunun səmimiliyinə inanın. Bunu ona görə demirəm ki, H.Əliyevlə bir yerdə işləyirəm. H.Əliyevi 1969-cu ildən müşahidə edən adamam. Beləcə, H.Əliyev mənə bu vəzifəni təklif elədi. Mən də fikirləşəndən sonra razılıq verdim və sentyabrın 1-də bu vəzifəyə təsdiq olundum.

– İrəli çəkilməyinizdə Rəsul Quliyevin rolu necə, olubmu?

– Qətiyyən.

– Amma bəzi məlumatlara görə, Sizin Eldar Salayev vasitəsilə Rəsul Quliyevlə qohumluğunuzun vəzifəyə çəkilmənizə təsiri olub.

– Əvvəla o vaxt mən Eldar Salayevlə qohum deyildim. E.Salayevlə biz 1995-ci ildə qohum olmuşuq. Qudayıq. Qızım Eldar Salayevin oğluyla ailə qurub.

Söhbətin axarı dəyişir.

– Əkrəm Əylisli müsahibəsinin birində deyib ki, sözün yeddi rəngindən istifadə edirəm. Siz sözün neçə rəngindən istifadə edirsiz? Bəlkə Siz Ə.Əylislidən çox, 8-9 rəngdən...

– Yox, 8-9 mümkün deyil. Çünki Allah dünyanı yeddi rəngdə yaradıb. Əkrəm dostumuz da özünü yəqin Allahla bərabər hesab edib yeddi rəngdə yazdığını deyir. Yadıma gəlir, o, təxminən belə yazmışdı ki, mən yeddi rəngdə, Ramiz Rövşən beş rəngdə, Elçin dörd rəngdə yazır, o birilərin də heç rəngi yoxdur. Rəng meyarları görünür Əkrəmdə var. Bu sualı ona verin, görüm o bu meyarları necə əldə edib. Məndə belə meyarlar yoxdur, odur ki, sənin bu sualına cavab verə bilməyəcəm.

– Söz ki, Əkrəm Əylislidən düşdü, bir sual da verək. Bu sualı Vaqif Səmədoğluna da vermişdik. Ə.Əylislinin son vaxtlar siyasətdə tutduğu mövqeyə münasibətiniz?

– Ə.Əylisli şübhəsiz ki, ədəbiyyat adamıdır. Onunla 30-35 ildir ki, tanışıq. Vaxtilə dost olmuşuq. «Zakusoçnı»larda da çox vurmuşuq. Vaqif küçəsində birotaqlı mənzilim vardı. Onunla üzbəüz binada da Əkrəmin bir otağı vardı. Mən də subaydım, o da. Bir-birimizi elə hər gün pəncərədən də müşahidə edirdik, əl də edirdik. Ə.Əylislinin mənimçün ən qiymətli cəhəti ondan ibarətdir ki, o, həqiqi mənada ədəbiyyat adamıdır, ədəbiyyat mücadiləsi aparan adamdır. Ə.Əylislinin ən qiymətli cəhəti odur ki, indiyə qədər pis əsərə yaxşı deməyib. Amma Ə.Əylislinin mənim alə-

mimdə bədbəxtliyi də ondadır ki, onun ürək genişliyi imkan verməyib ki, yaxşı əsərə də yaxşı desin. Amma o, şübhəsiz, istedadlı bir adamdır. Əkrəm sadəcə özünü tapa bilmir. O hələ ki, özünü axtarır. Dünən müxalifətdəydi, bu gün iqtidara yaxındır. Amma yenə də mətbuat haqda dediyim kimi, Əkrəm müxalifətdə olanda müxalifət mətbuatının «töhfə təbərciyi» idi. Elə ki, Əkrəm orden aldı, o dəqiqə də «müxalifət mətbuatının ərköyünü vəzifəsindən» çıxarıldı.

– Yox, bilirsiz necədi, bu adam vaxtilə qəzetlərin birində Heydər Əliyevin adını çəkməsə də xeyli tənqid etmişdi. Bu gün onun ünvanına xoş sözlər deyir.

– Mahir, bu sualı Əkrəmə verərsən. Mən Heydər Əliyev haqqında haçansa nə demişəmsə, hamısının altından bu gün eyni qolu çəkirəm. Bu o demək deyil ki, iqtidarın fəaliyyətində nöqsan görmürəm. Nöqsansız fəaliyyət yoxdur. Amma mən sabah 130 dərəcə o tərəfə dönüb başqa şey deyə bilmərəm. Bu mümkün deyil. H.Əliyev haqqında söz deyəndə hər tərəfdən onun üstünə hücuma keçmişdilər və hamı girəvə axtarırdı ki, H.Əliyev haqqında bir pis söz deyib özünə xal qazansın. O vaxt öz sözümü demişəm. H.Əliyev haqqında hələ 1991-ci ildə xüsusi bir yazı yazmışdım, «Aydınlıq»da dərc olunmuşdu. Sənin Əkrəmlə bağlı həyəcanını başa düşürəm. Amma indi hərənin bir xasiyyəti var də...

– Bu gün Siz də iqtidar komandasının bir üzvüsüz. Bu komandanın səriştəsizliyi haqda deyilənlər haqda nə fikirləşirsiz?

– Komanda sözünün özü mənim xoşuma gələn söz deyil. Nə komanda? Yeddi milyon yarım əhali yaşayan Azərbaycanda hamı bir-birini tanıyır. Komanda o deyən şeydir ki, başqa bir komandaya qarşı mübarizə aparır. Bunun qəti əleyhinəyəm. Mən bir-birinə qarşılıqlı kin-küdurətin əleyhinə olan adamam. Söz gəlib, deyirəm: H.Əliyev xəstələndi, Türkiyəyə müalicəyə getdi. Mənim üçün son dərəcə gözəl bir hadisə olardı ki, müxalifət liderlərindən biri – daha prezidentin legitimliyini tanıyır, tanımır – bu, başqa söhbətdir – bütün müxalifətin adından gedib H.Əliyevi yoluxaydı.

– Siz inanırsızmı ki, prezidentin ətrafındakılar həmin müxalifət numayəndəsinə onunla görüşmək üçün imkan yaradacaqdılar?

– Yüz faiz əminəm ki, yaradılardı. Əgər yaradılmasaydı, bu çox pis olardı. Fakt budur ki, gedən olmadı. Açığı, mən bunu çox gözləyirdim. Yanvarın 25-də mən, Bəxtiyar Vahabzadə və başqa-

ları H.Əliyevi yoluxmaq üçün Türkiyəyə getdik. Və onda inandırım sizi ki, mən bütün varlığımla arzulayırdım ki, müxalifət belə bir addım atsın. Az qalmışdı, bir yazıçı Elçin kimi götürüb zəng edəm birinə, deyim ki, bu işi edin. Bu, müxalifətin özünə də hörmət gətirərdi, xalqın da ürəyincə olardı.

– Müxalifət liderləriylə münasibətləriniz necədir? Yəni ərklə telefon açacağınız birisi varmı?

– Güman edirəm ki, ərk edib hamısına zəng vura bilərdim. Əbülfəz Elçibəylə də, İsa Qəmbərlə çoxdan tanışıq. İlyas İsmayılovla bir yerdə işləmişik. Lalə Şövkəti çoxdan tanıyıram. Yəni bir adam ki, 30 il Azərbaycan dilində yazsın-pozsun, amma müxalifətin bir liderinə zəng edə bilməsin, onda daha bu nə oldu?

– Son vaxtlar Azərbaycanla Türkiyənin konfederasiyası məsələsi gündəliyə gətirilib. Bu nə dərəcədə real səslənir?

– Türkiyəylə imkan daxilində əlaqələrimizi inkişaf etdirməliyik. Amma siyasi nöqteyi-nəzərdən bunlar hamısı düşünülməlidir. Türkiyədən öyrənməli çox cəhətlər var, həmçinin Türkiyənin də Azərbaycandan. Türkiyə həmişə müstəqil olub, Azərbaycan yox. Amma Azərbaycanın mədəniyyət sahəsində əldə elədiyini nəinki Türkiyə, heç bir Şərq ölkəsi əldə etməyib. Bu, faktdır.

– Hərdən adama elə gəlir ki, biz öz mədəniyyətimizi həddən ziyadə şişirdirik, hardasa ehkamlaşdırırıq. Deyək ki, bir yazar kimi Mirzə Cəlil haqda ən adi iradı yaza bilmərəm. Çünki hamı töküləcək üstümə...

– Mahir, səninlə tamamilə şərikəm. Bu o demək deyil ki, Mirzə Cəlilin əleyhinə yazanların fikrini qəbul edirəm. Mirzə Cəlillə bağlı Rafiq Tağının yazısı vardı. Rafiq Tağını əvvəla düzgün başa düşməmişdilər. İkincisi, sən demişkən, ola bilər bir adam bir şəxsiyyət haqda başqa cür düşünür. Amma ona cavab verənlərin də cavab vermək səlahiyyəti var. Bu baxımdan Mirzə Cəlil haqqında kim nə yazırsa ona cavab vermək səlahiyyətini də müdafiə etmək lazımdır. Mənə qalsa Mirzə Cəlil Azərbaycan ədəbiyyatının çox böyük fiqurudur. Ancaq insanlar tamam azad olmalıdır. Hərə öz fikrini ifadə eləməlidir. Mənim dediyim odur ki, bizim bəyəndiyimiz və bəyənmədiklərimiz, birlikdə Azərbaycan mədəniyyətini təşkil edir.

– Elçin müəllim, üzr istəyirəm, fikrimi bir qədər də dəqiqləşdirim. Gözümü açıb muğam eşitmişəm. Bu gün deyəndə ki, saza qulaq asa bilmirəm, az qalır məni daş-qalaq eləsinlər.

– Tamamilə doğru deyirsən. Hərçənd mən də Qarabağda doğulmuşam, muğamla böyümüşəm, amma sazı da xoşlayıram. Məsəlçün, mənim çox yaxın adamlarımdan biri sazı xoşlamır. Başqa bir yaxın adamımsa muğamatı qəbul eləmir. Əgər sən bu gün hansı bir musiqini sevmirsənsə, sən azərbaycanlı deyilsən – bu çox əbləh bir fikirdir.

– İstedadlar arasında dostlarınız çoxdu. Hiss etmişik ki, xətrinizi ən çox istəyən Vaqif Bayatlı Önərdir.

– Mən də Vaqifi çox istəyirəm. Amma həmişə də özünə demişəm ki, sən mənim üçün Vaqif Cəbrayılzadəsən. Əgər mənə desəydilər, Azərbaycanda elə bir şair göstər ki, onun xislətiylə yaradıcılığı üst-üstə düşsün, – Vaqifi göstərərdim.

– Bəs şair Adil Mirseyidin ev məsələsi necə oldu?

– Farslar demişkən, bəqədər qüvvə çalışıram. Adil Mirseyid haqqında ilk dəfə söz yazmışam. Onun qabiliyyətinə bələdəm. Onun Avropa rəssamlığını, xüsusilə, impressionizmi bilməsini yüksək qiymətləndirirəm. Və güman edirəm ki, çalışıb birtəhər onun ev məsələsini həll edəcəyik.

– Nə vaxtsa atanızın adından istifadə eləmisizmi?

– (Gülür.) 20-22 yaşlarına qədər məni bir adamla tanış edəndə deyərdilər ki, bəs bu, o İlyas Əfəndiyevin oğludur. Bundan çox hirslənərdim. Məni təqdim edəni çəkib deyərdim ki, mənim kimin oğlu olduğumun nə dəxli var?! Amma bu gün bununla fəxr edirəm. O ki qaldı atamın adından istifadə etməyə, heç vaxt İ.Əfəndiyevin adından istifadə etməmişəm. Bir epizodu xatırladım. 1969-cu ildə namizədlik dissertasiyası müdafiə edəndə sənədlərim hələ gedib Moskvaya çatmamış (o vaxt sənədləri Moskvadakı Ali Attestasiya Komissiyası təsdiq etməliydi – *E.*) Bakıdan teleqram getmişdi ora ki, Elçinin dissertasiyasını atası yazıb. Atam rəhmətlik də həmişə bunu xatırlayıb gülürdü ki, əşi, mən dissertasiya yazan olsaydım, elə özümə yazardım da. Onu da deyim ki, o fikir tamamilə yanlışdır ki, əgər mən İ.Əfəndiyevin oğluyamsa, ya Anar Rəsul Rzanın və yaxud Vaqif Səmədoğlu Səməd Vurğunun oğludursa, bunlar pərqu döşəklərdə böyüyüblər. Bu, tamamilə yanlış fikirdir. Mənim uşaqlığım məşhur beşmərtəbənin beşinci mərtəbəsində keçib. 40-cı illərdə biz orda yaşamışıq. Beşinci mərtəbədə ikiotaqlı bir mənzil vardı. Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun ailəsi otağın birində, bizim ailə o birində yaşayırdıq. Mətbəximiz eyni, hər şeyimiz eyniydi. 50-

ci illərin əvvəllərində isə Mirzə Fətəli küçəsində yaşamışıq. Ola bilsin, o birilərinin həyat tərzi mənimkindən yaxşı olub. Amma əsas məsələ budur ki, bunlar yazıçı üçün göstərici deyil.

– Ailə üzvlərinizdən yaradıcılıqla məşğul olanı varmı?

– Əmim Mustafa Əfəndiyev tərcüməçi, o birisi – Tofiq Əfəndiyev məşhur «Prokuror» romanının müəllifi, yazıçı olub, şair Çingiz Əlioğlunun anası mənim bibimdir.

– Eşitdiyimə görə, Çingiz Əlioğluyla, ümumiyyətlə, aranız yoxdur...

– (Gülür.) Bu da o «gözəl» şayiələrdən növbətisidir. Çingiz Əlioğlunun yaradıcılığını yüksək qiymətləndirirəm, özüylə də dostam, çox gözəl də qohumluq münasibətlərimiz var. Ailə üzvlərimə gəlincə isə, 3 qızım var. Böyük qızım Tibb Akademiyasını bitirib. Onun hekayələri var. Hiss edirəm ki, yaxşı yazıçı ola bilər. Ortancıl qızım BDU-nun beynəlxalq hüququnu qurtarıb. Kiçik qızım da hələ məktəbdə oxuyur.

– Qayıdaq 60-70-ci illərə. Söhbətlərdən bilirik ki, o vaxt Azərbaycana yeni bir ab-hava gəlib. Deyək ki, caz musiqisi, filan. O vaxtdan maraqlı nəsə xatırlayırsızmı?

– Vaqif Mustafazadəylə yaxın dost idik. 60-cı illərin əvvəlləriydi. Vaqif Mustafazadə «Araz» kinoteatrında piano çalırdı. Yadıma gəlir, rəhmətlik Anadolu Qəniyev də orada oxuyurdu. Arxitektor Fuad Seyidzadə vardı (F.Seyidzadə çox gənc ikən, 24 – 25 yaşında avtomobil qəzasında həlak olub – E.). Onunla birlikdə gəldik Vaqifin yanına. Bir az pulumuz vardı, dedik, bir yerdə oturaq. O vaxt mən də universitetdə oxuyurdum. Götürdük Vaqifi də getdik. Vaqifin qoltuğunda bir kağız qovluq vardı. Kitab pasajı deyilən yerin qurtaracağında zirzəmidəki qəlyanaltıda bir az yeyib-içdik, çıxdıq. Bulvarda gəzirdik. Vaqifin də kefi yaman kökdü. Bir gözəl qızla görüşə getməliydi. Birdən qovluğa baxdı, gördü not yoxdu. Geri döndü. Deməli, bu, hardasa bir melodiya eşidib, onu kağıza köçürüb. Təzədən biz də onunla qayıtdıq həmən «zakusoçnı»ya. Buranı ələk-vələk elədik. Tapılmadı. Bütün küçəni axtarışa başladıq. Tapılmadı. Şəhərdə tanıdığımız cavanlar da qoşuldu bizə, Torqovı, «Vətən» kinoteatrının yanını büsbütün axtardıq. Sonradan özü zibilxanadan tapmışdı. Yəni demək istədiyim odur ki, mənim yaşadığım o Bakı həyatının zahiri göstəriciləri başqaydı, daxili göstəriciləri başqa. Mən çəkdiyim bu misal sə-

nətə gəlmək istəyən cavanların daxili göstəricisi üçün çox xarakterik bir şeydir.

– Deyilənə görə Bakıda bir Bakılıq qalmayıb. Hərdən söhbətimiz olur o dövrdə yaşayanlarla. Yəni mədəniyyətdə, sənətdə qaynarlıq o vaxt daha çox olub.

– Mən onu çox hiss edirəm. Düzdür, Azərbaycan ziyalılığının inkişafında böyük bir təhlükə vardı. Bu təhlükə də nədən ibarət idi? – haçalanma prosesi gedirdi. O dövrdə cavanlar təhsillə bağlı, elə bil, iki hissəyə ayrılmışdılar. Deyək ki, biri Azərbaycan dilində təhsil alıb, muğamata qulaq asanda onu bütün canıyla-qəlbiylə hiss edir. Amma bu adamın dünya mədəniyyyətindən xəbəri yoxdur və o, istedadı nəticəsində gördüklərini, yazdıqlarını yüksək bədii estetik səviyyədə təqdim edə bilmir. O heç vaxt Azərbaycan xalqını ondan kənarda ifadə edə bilməz. O birisi rus məktəbində təhsil alıb, dünya mədəniyyətindən xəbərdar adamdı, amma muğamat səslənəndə onu dinləmək istəmir. Bu da heç vaxt Azərbaycan xalqını ifadə edə bilməz. Azərbaycanı ifadə etmək üçün bu iki cəhətin sintezi lazımdır. Azərbaycanda bir-birindən uzaqlaşan xətt boyu inkişaf edən cavanlar vardı. Bakıda da o dövrdə «stilyaqa»lıq edənlərin arasında müəyyənedici nüvə bu iki cəhəti özündə birləşdirən adamlar idi. Bunlar kim idi? Məsələn, Tofiq Quliyevi sevən adamlardı. Tofiq Quliyev estradanın parlaq ulduzuydu. Amma Azərbaycan hissiyyatıyla melodiya yazan bir adam idi.

– Yenə siyasətə qayıdaq. Keçmiş baş nazir Surət Hüseynovla bağlı dövlət başçısı Heydər Əliyev dövlətin rəsmi şəxslərinə iradlarını bildirəndə Siz başınızı aşağı salmışdız. O iclas yadınızdadır?

– Bunu çox yaxşı oldu xatırlatdız. Orda Heydər Əliyev adını çəkmək istəmədiyim bir nəfər vəzifəlini (o da baş nazirin müaviniydi – E.) xeyli məzəmmət etdi. Qəzetlər bunu götürüb mənim ünvanıma yazıb. Bu gün vəzifədə olmadığı üçün o adamın adını çəkmək istəmirəm. Mənimlə bağlısa H.Əliyev dedi ki, «Sən yanmasan, mən yanmasam, biz yanmasaq, necə çıxar qaranlıqlar aydınlığa». O mənə təhqiredici nəsə demədi. O ki qaldı başımı aşağı salmağa, mən, ümumiyyətlə, başımı aşağı salan adam deyiləm. Vəzifədən sui-istifadə edən adam da deyiləm. Heç bunun yollarını da bilmirəm. Həmişə maaşa və qonorara baxan adam olmuşam. Ailəmi də maaş və qonorarla dolandırmışam. Qonorarıma

görə də ayağımızı uzatmışıq. Yaxşı qonorar almışam, yaxşı yaşamışıq, pis almışam, yenə pis yaşamamışıq. Borc almışam, sonra qaytarmışam. Vaqif Cəbrayılzadə bunları yaxşı bilir.

– Bizimçün bir şey maraqlıdır: H.Əliyev Sizə Surət Hüseynovla bağlı iradlarını bildirəndə Siz də öz sözünüzü deyə bilməzdizmi? Deyə bilməzdinizmi ki, Surət Hüseynovu baş nazir vəzifəsinə kim gətirib? Yəni bunu deyib vəzifədən getmək daha cəsarətli addım olmazdımı?

– Ləman, əvvəla o dövrü yadına gətir. 1993-cü il idi. Azərbaycan vətəndaş müharibəsi ərəfəsindəydi. Bu, faktdır. Aləm bir-birinə dəymişdi. O zaman Surətin gücünə də, müvəqqəti qüdrətinə də hamı bələd idi, yəni bunu kənardan demək asandır, amma içəridə bilirsən axı, vəziyyət necədir. Bunu istəyirəm biləsiniz və yazasız. Elçin Surət Hüseynovun müavini olmayıb, Elçin Fuad Quliyevin müavini olmayıb, Elçin bu gün şəxsən xətrini istədiyim Rəsizadənin də müavini deyil. Elçin baş nazirin müavinidir. Bunlar başqa-başqa şeylərdir. O ki, qaldı iş prosesində mən baş nazirə nə demişəm, baş nazir mənə nə deyib, bunu siz bilmirsiz. Allah qoysa, gələcəkdə yazanda oxuyacaqsız.

– Son olaraq gənclik dövrünüzdən, yəni yeyib içən, vurub-tutan vaxtınızdan nəsə bir şey xatırlayın. Nəsə yada düşür?

– Xatirələr çoxdu (gülür). Mahir məni danışdırır, sonra hamı fikirləşəcək ki, bu elə ancaq yeyib-içməklə məşğul olub.

– Siz narahat olmayın Elçin müəllim, Mahiri tanıyan biləcək ki, o niyə daha çox yeyib-içməklə bağlı sual verir. Bu söhbət qalsın sonraya...

Beləliklə, söhbətimizə yekun vururuq. Baş nazirin müavini bizimlə birlikdə qəbul otağına çıxır. Katibəyə deyir: «Zema, bu gün bizə çay vermədin ha». Amma Mahir də özünə görə deyil. Deyir ki, Elçin müəllim, çay yox, daha yaxşı olardı ki, bizi də xidməti maşınınızla «Şıx» restoranına aparasız. Baş nazirin müavini xidməti maşınıyla aparmağa söz verməsə də, yeyib-içməkdən boyun da qaçırmır. Söz verir ki, imkan olan kimi, bizi də dostlarıyla birlikdə Şıxa aparacaq.

*1999.*

# VƏZİFƏ MÜVƏQQƏTİ BİR ŞEYDİR...

*«Baladadaşın ilk məhəbbəti»ndən Nazirlər Kabinetinədək...*

– Elçin müəllim, XXI əsrin astanasındayıq, Sizcə XIX əsrin sonundakı Azərbaycan ziyalısının XX əsrin sonundakı ziyalı ilə nə kimi oxşar və fərqli cəhətləri özünü büruzə verir?

– XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda güclü bir ziyalı nəsli, ziyalı zümrəsi formalaşmışdı. Təbii ki, bundan əvvəl də Azərbaycanda görkəmli ziyalılar olmuşdu, ötən bir əsrə nəzər salanda görürük ki, sonradan cəmiyyətdə müəyyən keyfiyyət dəyişikliyi baş verdi, Sovet hakimiyyəti quruldu və nəhayət, əsrin sonunda müstəqillik əldə etdik. XIX əsrin sonu XX əsrin əvvəllərindəki Azərbaycan ziyalısı o şəxs idi ki, özünün yaradıcılığı ilə (əgər o, qələm əhli idisə), ictimai fəaliyyətlə xalqı ifadə edirdi. Yəni həmin Azərbaycan ziyalısı xalqın güzəranına, keçmişinə, psixologiyasına, etnoqrafiyasına yaxından bələd olan bir adam idi. Eyni zamanda, bütün bilikləri bəşəri səviyyədə təqdim etməyi bacarırdı. Yəni, sözümün canı odur ki, həmin ziyalılar milli ilə bəşəri dəyərlərin vəhdətini yaratdılar.

– Bəs Azərbaycanın, əgər belə demək mümkünsə, sovet ziyalısını necə səciyyələndirərdiniz?

– Sovet hakimiyyəti dövründə keyfiyyət dəyişikliyi əmələ gəldi. Mənfi bir cəhət özünü büruzə verdi. Yəni, ziyalıların bir qrupu rus məktəbini qurtardı, ali təhsilini rus dilində aldı, dünya mədəniyyətinə yaxından bələd oldu. Lakin Azərbaycan dilinə, onun mədəniyyətinə biganə olduğu üçün, məsələn, radioda muğamat səslənəndə radionu söndürürdü. Ona görə ki, milli musiqimizi başa düşmürdü. Əslində, onun elə bir böyük günahı yoxdur. Çünki onun tərbiyəsi, bir ziyalı kimi formalaşma prosesi birtərəfli getmişdi. Əsas məsələ odur ki, o, heç vaxt Azərbaycan xalqını ifadə edə bilməz. Əgər o, muğamı başa düşmürsə, Azərbaycan dilini bilmirsə, Azərbaycan məişətindən, nağıllarından, zərb-məsəllərindən, atalar sözündən xəbərsizdirsə, Şekspiri, Tolstoyu, Balzakı bilsə də, Azərbaycan xalqını ifadə edə bilməz. İkinci bir cəhətə də diqqət yetirmək lazımdır. Götürək, sovet dövründə yetiş-

miş başqa tip Azərbaycan ziyalısını. Orta məktəbi Azərbaycan dilində oxuyub, Azərbaycan dilində ali təhsil alıb, Azərbaycan nağıllarını, zərb-məsəllərini, atalar sözlərini də yaxşı bilir, hətta radioda muğamat səslənəndə gözləri yaşarır. Amma Bethovenin simfoniyasını başa düşmür. Balzakdan, ya Tolstoydan xəbəri yoxdur. Həmin ziyalı da indiki dövrdə Azərbaycan xalqını ifadə edə bilməz.

– Bəs müasir Azərbaycan ziyalısını necə görmək istərdiniz?

– İndi biz artıq müstəqillik əldə etmişik. Mənim fikrimcə, indiki əsl Azərbaycan ziyalısının yetişməsi üçün, əsrin əvvəlindəki Azərbaycan ziyalısının varisliyini, ənənələrini qoruyub saxlamaq üçün iki mədəniyyətin – milli və bəşəri mədəniyyətin üzvi vəhdətinə nail olmaq lazımdır. Yəni, bizim məktəblərimiz dünyəvi olmalıdır. Azərbaycan dilinə, tarixinə, ədəbiyyatına ciddi fikir verməklə yanaşı, xarici dillərin, dünya mədəniyyətinin öyrənilməsinə xüsusi diqqət yetirilməlidir. Qapalı şəkildə, dünyadan təcrid olunmuş şəraitdə heç bir inkişafdan söhbət gedə bilməz. Yalnız o zaman əsrin əvvəlindəki ziyalı estafetinin layiqli davamçıları ola bilərik. Bu mənada müasir Azərbaycan ziyalısını bəşəri dəyəri mənimsəyən, milli soy-kökümüzə arxalanan bir patriot kimi görmək istərdim.

– Yazıçı Anarın belə bir sözü var ki, ömrümün ən ağır məqamında dostlarımdan ilk yadıma düşən Elçin oldu. Bəs Elçin ömrünün ağır vaxtlarında dostlarından öncə kimi yada salıb?

– İndi mətbuatda belə şayiələr baş alıb gedir ki, guya Əkrəmin (yazıçı Əkrəm Əylisli nəzərdə tutulur – *Red.*), Anarın, Elçinin arasında intriqa mövcuddur, bir-biri ilə yola getmirlər. Düzü, Əkrəmin haqqında danışmaq istəmirəm (elə o cür də yazarsan). Amma Anarla aramızdakı uzun illərin isti münasibətləri dəyişməz olaraq qalır. Mən də Anarın xətrini çox istəyirəm. Və belə hesab edirəm ki, Anar doğrudan da ləyaqətli Azərbaycan ziyalısıdır, yazıçıdır, vətəndaşdır. Sadəcə olaraq, yaş üstünə yaş gəldikcə görüşlər bir qədər seyrəkləşir, istər-istəməz cavanlıq illərindəki çılğınlığını itirirsən. Onu deyə bilərəm ki, Anarla məni çox işıqlı cəhətlər, isti xatirələr birləşdirir. Və mən belə güman edirəm ki, ömrümüzün axırına qədər elə bu cür də olacaq.

– Elçin müəllim, ziyalılar arasında qütbləşməyə necə baxırsınız? İndi, etiraf etmək lazımdır ki, istər iqtidaryönlü, istərsə də

müxalifət partiyaları, az qala, ziyalı «ovuna» çıxıb, hansısa üzdə olan bir ziyalını öz tərəfinə çəkməyə çalışır.

– Təbii ki, ziyalılar arasında qütbləşmə olduqca təhlükəli bir tendensiyadır. Və bunun qarşısını hökmən almaq lazımdır. Belə ki, indi Azərbaycan ziyalısı, az qala, iki yerə bölünüb. Tutaq ki, əgər sən iqtidarı, Azərbaycan Respublikasının Prezidentini dəstəkləyirsənsə, pis ziyalısan, yox, müxalifət düşərgəsində qərar tutmusansa, səndən yaxşı ziyalı yoxdur. Və yaxud da əksinə. Məncə bu, olduqca nadan və cahil bir prinsipdir. Ziyalının, yazıçının bir göstəricisi var. O da həmin ziyalının xalqına nə dərəcədə xidmət etməsilə, onun istedadı ilə bağlıdır. Bu barədə çox danışmaq istəməzdim. Sadəcə olaraq, ziyalının, sənətkarın iqtidarı, müxalifəti yoxdur, xalqı var. Xalqın tarixi kontekstində də ziyalıya qiymət verilməlidir. Əgər iqtidaryönümlü qəzetlər müxalifətdəki ziyalını söyürsə, yaxud müxalifət qəzetləri iqtidara yaxın ziyalını söyürsə bununla uzağa gedə bilmərik.

– Yeri gəlmişkən, bir qədər əvvəl yazıçı Əkrəm Əylislidən söz düşəndə, onun haqqında danışmaq istəmədiyinizi vurğuladınız. Niyə?

– Təəssüf hissilə görürəm ki, bu gün Əkrəm çox vasvası bir vəziyyətə düşüb. Bu yaxınlarda qəzetdə onun bir müsahibəsini oxudum. Orda bir məqam mənə təsir etdi. Belə ki, teatrda Tofiq Kazımovun 75 illiyi münasibətilə tədbir keçirilirdi və mən də həmin tədbirə kiçik qızım Aysu ilə getmişdim. Antraktda 2-ci mərtəbədə ayaqüstü təşkil olunmuş kiçik bir məclisdə gördüm ki, Əkrəm bir kənarda tək-tənha dayanıb. Ona yaxınlaşdım. Səmimi görüşdük, söhbət etdik. Aysu foto həvəskarıdır, özünün də fotoaparatı var. Aysuya dedim ki, Əkrəm əmi ilə bizim birgə şəklimizi çək, qoy yadigar qalsın. Beləcə, səmimi şəkildə, zarafatyana görüşüb, şəkil çəkdirib ayrıldıq. Sonradan Əkrəm qəzetə verdiyi müsahibədə deyir ki, Elçinlə 40 ilin dostuyuq, amma o da gözləyirdi ki, respublika Prezidenti mənə bəraət versin və yalnız ondan sonra mənimlə birlikdə şəkil çəkdirsin. Bilmirəm, Əkrəm Əylisli hansı cinayət törədibmiş ki, (bəlkə də varmış, amma mən bilmirəm) sonradan bəraət alsın. Guya, oturub gözləmişəm ki, haçan Əkrəm bəraət alacaq (nəyə görə bəraət alır, onu bilmirəm), mən də gəlib onunla şəkil çəkdirəcəyəm. Nə isə, bu barədə söhbət bəsdir.

– Baş nazirin müavini Elçin Yazıçı Elçinə mane olmur ki?

– Düzü, bu sualı mənə tez-tez verirlər. Şübhəsiz ki, Baş nazirin müavini vəzifəsi yazıçı Elçinin vaxtını alır. Çünki demək olar ki, bütün vaxtımı işə sərf edirəm. Axşam saat 9-dan tez evə getmirəm, elə olur ki, gecə yarısınadək işləməli oluram. Vaxt nöqteyi-nəzərindən bir çox çətinliklər ortaya çıxır. Bir məsələni də qeyd edim ki, indi bizdə vəzifəçilik ajiotajı var. Və bu, özünü mətbuatda da büruzə verir. Məsələn, filankəs vəzifə istəyir, yaxud filənkəs, görəsən, vəzifədə qalacaq, ya qalmayacaq və s. Səmimi şəkildə deyim ki, (hər halda, sən məni çoxdan tanıyırsan və səmimiyyətimə bələdsən) mən heç vaxt vəzifədən ikiəlli yapışmamışam. Çünki gözəl bilirəm ki, vəzifə müvəqqəti bir şeydir. Və mən vəzifədə bu gün varam, sabah yox. Odur ki, dünənə qədər hansı Elçin idimsə, indi bu vəzifədə də həmin adamam və vəzifədən çıxandan sonra da həmin Elçin olaraq qalacağam. Üstəlik, bu vəzifədə heç kimin qarşısında gözüm kölgəli deyiləm. Bəzən görürsən ki, qəzetlər yazır: filankəs vəzifəni tutub durub. Açığı, bu mənə çox gülünc görünür. Mən vəzifədə olub-olmamağa çox soyuqqanlılıqla yanaşıram. Təbii ki, bu da mənim həyatımın müəyyən bir mərhələsi, müəyyən bir dövrüdür. Mən müstəqil Azərbaycan hökumətində müəyyən vəzifə tutmuşam və Azərbaycanın öz müstəqilliyi uğrunda apardığı mübarizənin iştirakçısıyam. Və mən bu prosesi kənardan yox, içəridən müşahidə edirəm...

– Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, bəs nə vaxtsa «Ölüm hökmü» kimi bir roman oxumaq bizə nəsib olacaqmı?

– ... Artıq 6 ildir ki, Nazirlər Kabinetində işləyirəm, heç şübhəsiz ki, bütün bunlar hədər getmir. Ara-sıra özüm üçün qeydlər aparıram. Allah qoysa, ömür qismət eləsə, böyük bir sənədli kitab yazmaq fikrindəyəm. Sözün əsl mənasında həqiqi, obyektiv bir kitab, həmin kitab da məhz burda çalışdığım 6 ilin kitabı olmalıdır.

– Bəlkə həmin kitabın şərti adını deyəsiniz?

– Hələ o kitabın adı yoxdur. Amma belə bir kitab hökmən yazılacaq. Burda mənim qarşılaşdığım problemlər, hadisələr, gördüyüm adamlar (heç şübhəsiz ki, bütün bunlar yazıçı üçün bir materialdır və yazıçılıqdan kənarda deyil) öz obyektiv əksini tapacaq.

– Hamımızın «Qlavlit» kimi tanıdığı senzura ləğv edildikdən sonra KİV-in, o cümlədən, qəzetlərin məhkəməyə verilməsi və onlara astronomik məbləğdə cərimə kəsilməsi adət halını alıb. Sizcə, bu, azad mətbuatın inkişafına mane olmur ki?

– Mətbuatın demokratikləşməsindən, söz azadlığından danışırıqsa, biz buna öyrəşməliyik. Çünki söz azadlığı böyük məsuliyyət tələb edir. Əgər söz azadlığının effektli olmağını istəyirsənsə, naşir də, redaktor da hədsiz dərəcədə məsuliyyətli olmalıdır. Məsuliyyətsizcəsinə götürüb qəzetə yazmaq olmaz ki, «mötəbər mənbənin dediyinə görə», filankəs filan iş görüb. Axı, kimdir bu mötəbər mənbə? Əgər sənin əlində tutarlı sübut yoxdursa, nə üçün bu mənbəyə istinad etməlisən? Axı, qara yaxdığın şəxsin ailəsi var, dostları var, şəxsiyyəti var.

– Digər tərəfdən, şübhəsiz ki, məhkəmə vasitəsilə qisas almaq, intiqam almaq, suçun ola-ola bəraət almaq da çox pisdir. İndi mətbuatda həqiqi mənada söz azadlığıdır. Amma ataların bir sözü var: «Bir dəlinin bir quyuya atdığı daşı, yüz ağıllı yığışıb çıxara bilmir». Bu mənada hansısa bir böhtançı redaksiyaya gəlib bir söz deyirsə, bunu yoxlamadan, həmin böhtançıya istinad edərək, onun dediklərini çap etmək düzgün deyil. Amerikada əsl söz azadlığının olmasına yəqin ki, heç kəs şübhə etmir. Amma Amerikanın ən məşhur qəzeti olan «Nyu York Tayms»ın ən böyük şöbəsi informasiyanın dəqiqləşdirilməsi və yoxlanması şöbəsidir. Ən xırda yazılarda, məqalələrdə gedən informasiyalar belə həmin şöbədə yoxlandıqdan sonra çapa verilir. Ona görə də son dərəcədə məsuliyyətli olmaq lazımdır.

– «Alternativ» qəzetinə sözünüz?

– İndi biz keçid dövrünü yaşayırıq və bu dövrün özünün çətinlikləri mövcuddur. Bu mənada həmin çətinliklər mətbuatın da, o cümlədən, «Alternativ» qəzetindən də yan keçməyib. «Alternativ» mənim oxuduğum qəzetdir. Sözün açığı, həmin qəzetdə mənim haqqımda bir böhtançının olduqca qərəzli, böhtan dolu bir yazısı çap olunmuşdu. İndi ad çəkmək istəmirəm. Amma bu cür qərəzli yazıların sizin qəzetin səhifələrinə ayaq açması məni təəssüfləndirir, halbuki mən bilirəm ki, qəzetin Baş redaktoru Mikayıl Kərimov Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alıb, ziyalıdır. Xaricdə ali təhsil alıb respublikamıza qayıdan ziyalılarımız azdır və indiki dövrdə müstəqil Azərbaycanın belə ziyalılara ehtiyacı var. «Alternativ» qəzetinə, bütövlükdə müstəqil mətbuat orqanlarına uğurlar, obyektivlik və qərəzsiz, maraqlı, oxunaqlı yazılar çap etməyi arzu edirəm.

*Söhbətləşdi: Akif.*
*1999.*

## E L Ç İ N: «MƏN HƏMİŞƏ SÖZÜ ÜZƏ DEMİŞƏM»

– Elçin müəllim, Sizin hansı dövlət və ya ictimai vəzifə daşımanızdan asılı olmayaraq, biz Sizi ilk növbədə yazıçı Elçin kimi tanıyırıq. Bəs Baş nazirin müavini Elçin Əfəndiyevlə yazıçı Elçin necə yola gedir?

– Bu sualı mənə tez-tez verirlər. Desəm ki, heç bir problem yoxdu, düz olmaz. Yazıçı Elçinin Baş nazirin müavinindən ən böyük şikayəti vaxtla bağlıdır. Vaxt, vaxt və bir daha vaxt! Vaxtın çatışmazlığı bu gün yazıçı Elçinin ən böyük problemidir. Bir də ki, mənim ara-sıra cahil və nadan böhtanlarına məruz qalmağım, mənimlə bağlı, təbii ki, təşkil olunmuş şayiələrin və dedi-qoduların yayılması da, şübhəsiz ki, vəzifə ilə bağlıdır. Bu böhtanları, şayiələri, dedi-qoduları mətbuat səhifələrinə çıxarmağı özlərinə rəva bilən qələmdaşlarım isə, əlbəttə, çox gözəl başa düşürlər ki, bütün bunlar məhz böhtan, şayiə, dedi-qodudur, çünki çirkab püskürən atəşli böhtançıya bircə dəfə qulaq asmaq kifayətdi ki, əhliqələm onun hansı yuvanın quşu olduğunu və hansı sifarişi yerinə yetirdiyini anlasın. Anlayırlar, amma qəzetlərində də dərç edirlər və mən çox gözəl başa düşürəm ki, bu kin-küdurət, bu ədavət, bu ayrı-seçkilik mənim tutduğum vəzifə ilə bağlıdır. Hansısa cavan bir qələm dostum yazmışdı ki, Elçin vəzifəyə getməklə yazıçı Elçini öldürdü. Gərək ki, elə «Azadlıq»da o gənc qələmçiyə Mark Tvenin məşhur sözləri ilə çavab vermişdim ki, mənim ölümümü, deyəsən, bir balaca şişirtmisiz. Yazıçını, ziyalını «sən iqtidara yaxınsan, ona görə də pis yazıçısan, indiyəcən nə eləmisən, hamısını pis eləmisən, sən isə müxalifətə yaxınsan, ona görə də böyük yazıçısan, gözümün işığısan və səndən böyük sənətkar yoxdur, hər nə edirsənsə də düz edirsən, ey mənim əzizim» prinsipini mən avamlıq göstəriçisi və ümumiyyətlə, biabırçı bir sənət hesab edirəm. Ancaq yazıçı Elçinin ciddi təskinliyi ondadır ki, Baş nazirin müavini Elçin Əfəndiyev gənc Azərbaycan Respublikasının öz müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü bərpa etmək, müqəddəratı başqasının yox, özünün əlində olan bir ölkə kimi, dünya birliyinə inteqrasiya prosesini gücləndirmək uğrundakı mübarizədə öz imkanları daxilində bilavasitə iştirak edir, bu tari-

xi hadisələrin bilavasitə iştirakçısıdır və bütün bunlar – Allah qismət eləsə, gələcəkdə mütləq qələmə alınacaq. Azərbaycanın son on ilini mən sınaq illəri hesab edirəm və bu on ildə mənim elə bir sözüm, elə bir fikrim olmayıb ki, sonradan onun əleyhınə olan bir söz deyim, fikir söyləyim. Bu həm Baş nazirin müavininə, həm də yazıçı Elçinə aiddir.

– Sizin böhtanlarla bağlı dedliklərinizi mən də qəbul edirəm. Bəs tənqid etmək?

– Bilirsiz, o böhtanları, qarayaxmaları, çirkab püskürmələrini mən az görməmişəm və onlar ola bilsin ki, qısa bir müddət mənim qanımı qaraltsın, bundan artıq bir şey olmur və məni tanıyanlar yaxşı bilir ki, böhtanla, qarayaxma ilə, şantajla mənə təsir etmək mümkün deyil. Mən həmişə sözü üzə demişəm, heç vaxt heç kimdən çəkinməmişəm. Hörmət etmişəm, etiqad göstərmişəm və bu, qarşılıqlı olub. Bu yaşa gəlib çatmışam, amma bu günə qədər heç kimin qarşısında mənim gözüm kölgəli deyil və çox zaman əksinədir. Səviyyəli tənqid isə, bəli, mənə təsir edir – həm yaradıcılığımla bağlı, həm də fəaliyyətimlə – məni düşündürür, götür-qoya sövq edir. Bir şərtlə ki, məni tənqid edən o adamın buna mənəvi səlahiyyəti olsun, istedadı olsun, əxlaqı olsun, daxili yanğısı olsun. Həm də tənqid ifşa olmasın, cılız və xain xislətin, kinküdurətin ifadəsi olmasın. Yadıma atamın danışdığı belə bir hadisə düşür: müharibədən sonrakı qorxulu qırxıncı illərdə Yazıçılar İttifaqının Natəvan adına klubunda keçirilən iclaslarda bir nəfər – adını yazmaq istəmirəm, indi haqq dünyasındadı – daima xitabət kürsüsünə qalxıb professor Mikayıl Rəfilinin əsərlərini ifşa edirmiş. Belə iclaslardan birində həmin adamın növbəti ifşasından sonra, Mikayıl Rəfili söz alır, xitabət kürsüsünə qalxıb deyir: «Mən bilirdim ki, bugünkü iclasda filankəs yenə məni ifşa edəcək. Öz-özümə dedim ki, daha bəsdi, mən də bunu ifşa edəcəyəm. Bu iclasdan qabaq üç gün kitabxanaları gəzdim, axtardım, ondan-bundan soraqlaşdım, ancaq bu filankəsin bir dənə əsərini tapa bilmədim ki, mən də onu ifşa edim!» Əlbəttə, kimisə tənqid etməkçün özün də nəyinsə sahibi olmalısan! Proletkultçuluq heç bir millətə və heç bir dövlətə heç vaxt xeyir gətirməyib, əksinə, tarın həbsinə, «Dədə Qorqud»un ifşasına və Cavidin qanına bais olub.

– «İnsanı başa düşəcək yeganə adam o özüdür.» Bunlar Sizin sözlərinizdir və mən Sizinlə tamamilə razıyam. Ancaq çox qə-



10-18

ribədir ki, bunu bilə-bilə təkidlə bizi başa düşəcək başqasını axtarırıq. Hərdən tənha qalmaq istəyiniz nədən irəli gəlir?

– Bu elə bir sualdır ki, qorxuram onun cavabı bu müsahibəmizə sığışmasın. Təkcə onu deyə bilərəm ki, mən tək qalanda heç vaxt darıxmıram.

– Elçin müəllim, son vaxtlar ara-sıra dissident ədəbiyyatı barədə söhbətlər gedir. Bu barədə nə deyə bilərsiz?

– Klassik mənada, yəni siyasi baxımdan çap olunmayan əsərlər mənasında Azərbaycanda dissident ədəbiyyatı olmayıb. Əlbəttə, söhbət bir şerdən, ya hekayədən yox, bir küll halında, güclü bir təmayül kimi, dissident ədəbiyyatından gedir. Ancaq bunun bir vacib səbəbini xüsusi qeyd etmək lazımdır: 70-ci və 80-ci illərdə «Azərbaycan» və «Ulduz» jurnallarında, nəşriyyatlarda o əsərlər çap olunurdu ki, onları başqa sovet respublikalarında «Qlavlit»dən keçirib çap etmək çox müşgül bir iş idi. Əkrəm Əylislinin «Azərbaycan»dakı fəaliyyəti barədə qəzetlərdə adda-budda yazırlar və həqiqətən «Azərbaycan»da da, «Ulduz»da da cəsarətli, dişli və bədii cəhətdən də səviyyəli əsərlərin çapı üçün münbit zəmin yaranmışdı. Ançaq Əkrəm Əylisli öz-özünə gəlib redaktor olmadı. Düzdü, Əkrəm redaktor olmağı çox istəyirdi, çox xahiş edirdi, amma bu təyinat məsələsi çox da çətin gedirdi. Onun redaktor təyin olunması üçün xeyli müddət mübarizə apardıq. Onda mən Yazıçılar İttifaqının cavan bir katibi idim, ədəbi tənqidə və mətbuat orqanlarına baxırdım, xeyli müddət də təşkilat işləri ilə məşğul oldum və gecə-gündüz Əkrəmlə bağlı birinci katibimiz rəhmətlik İmran Qasımovun başının üstünü kəsdirirdim. İmran müəllim daxilən yeniliyə, gəncliyə meyl edən bir adam idi və çalışırdı ki, Əkrəm redaktor olsun, ancaq o zamanın ədəbiyyat generalları buna maneçilik törədirdi, özləri redaktor olmaq, yaxud da öz adamlarını qoydurmaq istəyirdilər. Nəhayət İmran müəllim bu məsələni Heydər Əliyev səviyyəsinə qaldırdı və Əkrəm Əylislini «Azərbaycan»a bilavasitə Heydər Əliyev təyin etdi. Eləcə də bir az əvvəl Yusif Səmədoğlunun «Ulduz»a təyinatı. Eləcə də daha əvvəl mənim Yazıçılar İttifaqında o zaman ədəbiyyat aləmində ciddi səlahiyyətləri olan katib vəzifəsinə təyinatım. Bütün bunlar hamısı həqiqətdir və həqiqəti olduğu kimi göstərmək lazımdır.

– Elçin müəllim, indicə mətbuatda çalışan «əhli-qələmdən» danışdınız. Mənim üçün maraqlıdır, sizin kimi nüfuzlu bir əhli-qələmin özü müasir Azərbaycan mətbuatı barədə nə düşünür?

– Təəssüf ki, bu suala orijinal bir cavab verə bilməyəcəyəm. Bu gün Azərbaycan mətbuatı məsuliyyətsizliyin, şayiəçiliyin, böhtançılığın, dedi-qodunun, səviyyəsiz «şok açıqlamalar»ın, uydurma «mesaj»ların ayaq tutub yeriməsi üçün, çox təəssüflər olsun ki, münbit zəmin yaradır. Kimin kimlə nə qərəzkarlığı varsa, onu asanca mətbuata çıxarır. «Mötəbər mənbədən aldığımız məlumata görə, filandır, filandır, filandır...» Gəl indi bu naməlum «mötəbər mənbə»nin sayıqlamalarına çavab ver görüm, neçə cavab verəçəksən! Əlbəttə, bəzən çavab da yazılır, çap da olunur, amma şayiə ki, buraxıldı! Daş ki, quyuya atıldı! Barmaqla sayılası qəzetləri çıxmaq şərtilə, artıq biz «bulvar qəzetləri» həddini də aşıb keçmişik və «sarı mətbuat» deyilən bir girdabın içinə düşmüşük. Əsrin əvvəllərində də Azərbayçan mətbuatında böhtanlar, şayiələr olub. Mirzə Cəlil haqqında, Üzeyir bəy haqqında nə böhtanlar yazmayıblar? Pul mənimsəməkdən tutmuş, milli qeyrətsizliyə qədər... Təbii ki, indi o qara qələm sahibləri heç kimin yadında deyil, amma bunlar olub. Olub, ançaq bugünkü dərəçədə yox. Texnikanın inkişafı, nəşr avadanlığının modernləşdirilməsi həmin qara qələmlər üçün, daha əlverişli konveyr şəraiti yaradıb. hərdən fikirləşirəm: nə üçün biz beləyik ki, teknikanın inkişafı, avadanlığın müasrliyi daha artıq o «qara qələm»ə xidmət edir? Əlbəttə, qəzet sensasiya axtarmalıdır və əslində, bu, cari jurnalistikanın əsas xüsusiyyətlərindən biridir. Ançaq bu axtarışın bir səviyyəsi olmalıdır, yoxsa yox? Axı, səviyyəsiz mətbuat səviyyəsiz də oxuçu yetişdirir və bu façiədir. Biz nə ilə fəxr edirik? Hansı bir türksə bığlarını uzadıb və biz də bu uzunbuğun şəkillərini qəzetlərdə çap edib fəxrlə döşümüzə döyürük: bəli biz beləyik, biz türk oğlu, türkük! Axı, bunu uzaqbaşı bir məzə kimi çap etmək olar. Belə bir türk fəxarəti bizi hara aparacaq? Mənim Türkiyəyə ehtiramım və sevgim sual işarəsi altında deyil. Mən hələ 1979-cu ildə, KQB-nin və hakim ideologiyanın fironluq elədiyi bir vaxtda Türkiyə haqqında o kitabı yazmışam, həmin zamanlar mətbuatda, o cümlədən, «Literaturnaya qazeta»da Türkiyə haqqında o yazıları çap etdirmişəm ki, bu gün onların hər bir çümləsinin altından böyük məmnuniyyətlə imza ataram. Ancaq mən və güman edirəm ki, təkcə mən yox, uzun bığ fəxarətli türkçülüyü heç cürə qəbul edə bilmərəm. Doğrudur, bizdə bir sıra ciddi qəzetlər də nəşr olunur. Təəssüf ki, böhtançılıq və şayiəçilik bəzən onların da səhifələrinə yol tapır. İkincisi, bu qəzetlər çox zaman kəskin surətdə

qütbləşirlər. Əgər biz vətəndaş həmrəyliyindən danışırıqsa və sidq ürəkdən bunu istəyiriksə, elə bilirəm ki, ilk növbədə həmin ciddi qəzetlər bunu öz öhdələrinə götürməlidir.

– Elçin müəllim, Siz «Xalq qəzeti»nin «Cümə» əlavəsində Əkrəm Əylislini ciddi tənqid etmisiniz. İndi münasibətləriniz necədir?

– Normal. Ancaq mən buna da təəssüf edirəm ki, indiki zamanda Əkrəmlə Elçinin şəxsi münasibətləri ilə daha çox maraqlanırlar, nəinki onların əsərləri ilə. Güman edirəm ki, əksinə olmalıdır.

– Ancaq oxucuların görkəmli yazıçıların şəxsi münasibətləri ilə də maraqlanmalarında elə bir qəbahət yoxdur. Misal üçün son vaxtlar Anar – Elçin – Əkrəm Əylisli üçlüyünün arasındakı yazıçı qısqanclığından danışırlar. Sizcə bu söhbət nə dərəcədə həqiqətə uyğundur?

– Bu sualınıza təbii ki, mən, ancaq öz əvəzimə cavab verə bilərəm. Yazıçı qısqanclığı nədən doğur? Deyəcəyin sözünün qurtarmasından. «Sazım dınqıl-dınqıl» deməkdən. Bir az kobud da çıxsa, bədii qısırlıqdan. Mən son beş ildə altı komediya yazmışam. Hekayələr, məqalələr yazmışam. Mizimin üstündəki böyük həcmli romanı qurtarmaq üzrəyəm. «Ədəbiyyatda tarix və müasirlik problemi» mövzusunda doktorluq işi yazıb müdafiə etmişəm. Məmməd Əmin Rəsulzadənin və Nəriman Nərimanovun haqqında yazdığım monoqrafiyalarım nəşr olunub. «Klassik aşıq poeziyasında «dünya» obrazı» adlı yeni monoqrafiyam çıxıb və s. Haqqımda dissertasiya, kitab, məqalələr yazılıb. Mən nə üçün kiminsə qısqanmalıyam? Heç kim mənim yolumu kəsməyib və yerimi də tutmayıb. Ədəbiyyatda, sənətdə hərənin öz yeri, öz yaradıcılıq taleyi var.

– Məlumdur ki, Siz çox oxuyan bir yazıçısız. Maraqlıdır, sonuncu oxuduğunuz kitablar hansılardır?

– Mənim ən çox təəssüf etdiyim odur ki, indi əvvəlkilər qədər oxumağa vaxtım yoxdur. Deyəsən, daha həvəs də əvvəlki həvəs deyil. Son bir ayda oxumağa imkan tapıb oxuduqlarımdan biri Vaqif Bayatlı Önərin axırıncı şerlər kitabıdır. Bir var şeri tək-tək mətbuatda oxuyasan, bir də var onları bir yerdə oxuyursan. Fikrimə bir az təmtəraqlı da olsa, belə bir bənzətmə gəlir (əlbəttə, söhbət səni tutan, sənin zövqüncə olan, sənin hissiyyatına təsir edən poeziyadan gedir): bir var gecə göy üzündə bir ulduz görəsən və ona tamaşa edəsən. Bu, özü özlüyündə bir maraqlı əhvalat-

dı. Amma bir də var ki, açıq bir səmadır, göyün üzü sayı bilinməyən ulduzlardı və sən də o ulduzlar aləminə baxırsan. Vaqifin son kitabı mənim üçün o cürə bir ulduzlar aləmi idi. Yaqub Mahmudlunun «Azərbaycan diplomatiyası» kitabını oxudum. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ilə əlaqələrinə həsr olunmuş bu kitab zəngin məxəzlərə istinad edən çiddi bir tədqiqat əsəridir və elə bilirəm ki, müasir tarix elmimizin qiymətli bir nümunəsidir. Unudulmaz akademik Həmid Araslının yeni nəşr olunmuş «Azərbaycan ədəbiyyatı: tarixi və problemləri» kitabını oxudum. Kitaba toplanmış əsərlərin əksəriyyətini mən vaxtilə oxumuşam, amma rəhmətlik Məryəm Axundovanın və Həmid müəllimin qızı Nüşabə xanımın hazırladığı bu kitab elə bil ki, ayrı-ayrı əsərlər toplusu yox, Azərbaycan ədəbiyyatının tarixi haqqında sanballı bir monoqrafiyadır. Bu kitab Həmid müəllimin ədəbiyyat tariximizin öyrənilməsində gördüyü böyük işləri bizim üçün bir daha əyani şəkildə canlandırdı. Məndə Şekspirin rus dilində köhnə bir nəşri var və hər üç ildən-beş ildən bir onu əvvəldən axıra qədər oxuyuram. Yenə bu cildləri oxumağa başlamışam. Bu gün mizimin üstündə «Ş. Riçard»dır.

– Elçin müəllim, bir başqa planetə gedəsi olsanız, özünüzlə bir dənə hansı musiqi yazısını aparardız?

– Yadıma gəlir, xeyli qabaqlar bir dəfə mənə belə bir sual vermişdilər. Onda da elə bu cavabı vermişdim: Rübabə Muradovanın «Humayun»unu.

– Bəs kişi ifaçılardan?

– O da gərək bir dənə olsun?

– Hə.

– Ağabala Abdullayevin «Zabul»unu.

– Ən çox insanın hansı keyfiyyətinə nifrət edirsiz?

– Qeyri-səmimiliyə.

– Bəs ən çox nəyi qiymətləndirirsiz?

– Səmimiyyəti.

– Nəhayət sonunçu sual: Elçin müəllim, Siz böyük bir vəzifə daşıyırsız. Şəxsən Sizin üçün, yəni xalq yazıçısı Elçin üçün vəzifə nə deməkdir?

– Gəlimli-gedimli bu dünyada həyat yolumun bir mərhələsi.

*«525-ci qəzet»*
*1999.*

## «ƏDƏBİYYAT ÜÇÜN QADAĞAN OLUNMUŞ MÖVZU YOXDUR»

Qəbulunda olduğum vəzifə sahiblərinin, böyük kabinetlərə təsadüf etmiş işgüzar söhbətlərimin sayını xatırlatmaq istəsəm də, bir şey çıxmadı. Çünki əlimə qələm alandan demək olar ki, heç vaxt incəsənətdən-ədəbiyyatdan, ümumiyyətlə, mədəniyyətdən uzaq düşməmişəm. Budəfəki həmsöhbətimsə vəzifə sahibi idi, müsahibədən ötrü görüşü iş yerinə təyin etmişdi. Amma Elçin Əfəndiyev Azərbaycan Respublikasının Baş nazirinin müavini vəzifəsində çalışsa da, mənim həmsöhbətim yaradıcılığını (istər bədii, istər elmi) izlədiyim və bəyəndiyim xalq yazıçısı Elçin idi. Əslində, bu söhbət də vəzifə söhbəti idi. Azərbaycan ədəbiyyatında Elçin müəllimə çatan mənəvi borcdan və xalqının mənəvi-estetik tərbiyəsində ümumən milli ədəbiyyatın öhdəsinə düşən vəzifədən söhbət gedirdi.

– Televiziya verilişlərinin birində atanızla, mərhum yazıçımız İlyas Əfəndiyevlə bir söhbətinizi xatırlatmışdınız. Gərək ki, İlyas müəllim klassiklərin kitablarına işarə ilə belə deyibmiş: «Bütün bunlardan sonra biz nə üçün yazırıq?» İndi də mən sizin, özünü bir ədib kimi çoxdan təsdiqləmiş yazıçı Elçinin belə bir sualı necə cavablandırdığını eşitmək istəyirəm.

– Bu, çox məşhur əhvalatdır. Tez-tez xatırlayıram onu. Bir dəfə atamgilə gəlmişdim. Bilmirəm, ovqatının hansı məqamı idisə, birdən kabinetindəki kitab rəflərini göstərərək həmin fikri dedi. Rəflərdə də kimlər yox idi?.. NİzamiI, Tolstoy, Balzak, Şekspir, Füzuli... Bu adi sual məni tutdu. Və həmin suala belə cavab verdim ki, gərək hər bir yazıçıya öz xalqının kontekstində qiymət verilsin. Yazıçı özü ilə bərabər öz xalqını da ifadə edən adamdır. Gərək ilk növbədə öz xalqının böyük yazıçısı, şairi olasan ki, sonra səni başqa xalqlar da böyük yazıçı kimi qəbul etsin. Həmişə deyirəm ki, fikir verin, Azərbaycanda nə qədər Hamlet, Ofeliya var. Ona görə ki, Azərbaycan xalqı Şekspiri öz milli ədəbiyyatının faktı kimi qəbul edir. Elə həmin səbəbdən bu gün Azərbaycan xalqının qəbul etmədiyi bir sənətkarın xaricdə müvəffəqiyyəti yalnız müvəqqəti ola bilər.

– Atanızı xatırladınız... Odur ki, növbəti sualım da bu xatırlamadan və əvvəlki sualımdan doğur: İlyas Əfəndiyevin oğlu kimi ədəbiyyata gəlmək və öz sözünü demək sizə çətin olmadı ki? Əlbəttə, bəlkə də ilk vaxtlar atanızın adı müəyyən qapıların üzünüzə nisbətən asan açılmasına kömək edib. Ancaq bunun əksi də ola bilərdi və yəqin ki, olub da.

– Bilirsən, hər şeyi istedad həll edir. Əgər kimsə məhz yazıçı oğlu olduğuna görə yazıçılıq etmək istəyirsə, ondan heç nə çıxmayacaq. Bütün dünyada belə hadisələr çox olub. Özümü bir kənara qoyuram. Amma əsrimizin ikinci yarısında Azərbaycanda çox maraqlı hadisələr baş verib. Valideyninin yolunu sənətdə davam etdirərək böyük uğurlar qazanan yazıçıların, ümumiyyətlə, sənət adamlarının adını çəksək, xeyli uzun siyahı alınar.

Mənim böyük qızım Günay da hekayə yazır, çap olunur. İndi mən onu məcbur edim ki, otur, hər gün bir hekayə yaz, ya da əksinə, əlinə qələm alma!?

Əgər kimdəsə yazmağa mənəvi ehtiyac varsa, mütləq yazacaq. Əgər istedadı da varsa, təbii ki, o da olacaq yazıçı.

– İstedad demişkən, sizin dramaturji istedadınız son illərdə parlayıb. Pyesləriniz Azərbaycan səhnəsində İlyas Əfəndiyevin vəfatından sonra oynanılmağa başlayıb. Bunu «İlyas Əfəndiyev teatrı»nda yaranan boşluğu doldurmaq cəhdi kimi açıqlayanlara münasibətinizi bilmək yerinə düşərdi.

– Bilirsiz, birinci dram əsərimi 1969-cu ildə yazmışam: «Poçt şöbəsində xəyal». Teatrda onu tamaşaya qoymadıqlarından dramatik povest kimi çap etdirdim. Sonra uzun illər daha pyes yazmadım.

– Niyə, həvəsdən düşdünüz?

– Yox, həvəsdən düşməmişdim. Nəsr yazsam da, içimdə səhnə üçun yazmaq ehtiyacı var idi. Hərdən atamla yazmaq istədiyim mövzu barədə söhbət gedəndə məsləhət görərdi ki, pyes yazım. Amma mən həmin mövzunu ya roman edərdim, ya da povest. 1991-ci ildə məndə qəribə bir ovqat yarandı. Başladım Molyerin komediyalarını Azərbaycan dilinə tərcümə etməyə. Elə bil, pyes yazmaq yükünün altına girməkdən qaçırdım. Amma sonra özüm də gözləmədən dalbadal iki komediya yazdım: «Ah, Paris, Paris!..», bir də «Salam, mən sizin dayınızam».

Milli Dram Teatrı da hər iki pyesi qəbul etdi, amma orada təmir gedirdi. «Salam, mən sizin dayınızam» pyesi ruscaya çevri-

ləndən sonra onu Aleksandr Şarovski öz teatrlarında tamaşaya qoymaq istədi. «Dayı» Rus Dram Teatrında tamaşaya qoyuldu. Sonra «Dəlixanadan dəli qaçıb», («Mənim sevimli dəlim»), «Arvadımın əri dəlidir» komediyalarını yazdım, «Mahmud və Məryəm»i səhnələşdirdim. Hamısını özün görmüsən.

– Keçən il isə Sizin üçün premyeralar ili oldu...

– Elədir. Maraqlıdır ki, «Dəlixanadan dəli qaçıb» üç teatrda – Milli Dram Teatrında, Rus Dram Teatrında və Ankara Dövlət Teatrında tamaşaya qoyuldu. Həm də ilk dəfə idi ki, Türkiyədə müasir Azərbaycan dramaturqunun əsəri dövlət teatrı səviyyəsində oynanılırdı.

– Türkiyə demişkən, Anadolu türkcəsindən dilimizə son illər bir ifadə keçib: «Çılpaq yazar». Adətən, bu təyini insan münasibətlərindən daha açıq yazan şair və yazıçılara aid edirlər. Bu cür «təsnifata» münasibətinizi bilmək istərdim. Mən bilən, qəhrəmanları, situasiyaları dolğun təsvir etməyinizi Sizə az irad tutmayıblar...

– Bir var ədəbiyyat, bir də var ədəbiyyat adı ilə alver. Ədəbiyyat üçün qadağan edilən mövzu yoxdur. Ədəbiyyatı yaradan sənətkardırsa, o, hər şeydən yazmalıdır. Məhəbbətdən yazırsa, açıq deməyə ehtiyac yarananda açıq, qapalıya ehtiyac varsa, qapalı yazmalıdır! Bir də var ki, əxlaqsızlığı ifşa etmək adı ilə əxlaqsız yazılar yazırsan. Əgər əxlaqsız şeylər yazırsansa, deməli, sən əsl sənətkar deyilsən.

Hərdən öz mətbuatımızı oxuyanda dəhşətə gəlirəm. Ona görə yox ki, bu cür yazanlar var. Dəhşət ondadır ki, bunu alıb oxuyanlar var! Elə bil, bizim bəzi qəzetləri pıqqıldayan «sarı mətbuat» qazanına salıb çıxarırlar! Ən pisi odur ki, «sarı mətbuat» zövqsuz oxucuların sayını çoxaldır. Ədəbiyyat da elədir. Vaxtilə heç bir siyasi motivsiz, bədii cəhətdən zəif olan əsəri çap edilməmiş müəlliflər bu gün sponsor da tapır, kitablarını nəfis şəkildə çap etdirir. Hələ desən, özlərini dissident də adlandırırlar.

– Bəs ədəbiyyata dəyən bu zərərli prosesin qarşısını almaq üçün neyləmək lazımdır?

– Bilirsən, belə meyllərin qarşısını heç bir inzibati tədbirlə almaq mümkün deyil. Hər halda, ümid edək ki, hər şey yaxşı olacaq, əsl ədəbiyyat öz layiqli qiymətini alacaq.

– Elçin müəllim, Siz çağdaş milli ədəbiyyatımızda ədəbi 15 əsərləri ilə ədəbi tənqidi eyni sanbalda olan tək-tük yazıçılardan-

sınız. Bilirəm ki, işiniz də çoxdur. Amma hər necə olsa, mətbuatda ədəbi prosesə münasibətinizi bildirirsiniz?

– Ara-sıra yazıram, misal üçün bir cavan şair var: Rasim Qaraca. Heç üzünü də görməmişəm. Şerlərini oxuyanda çox xoşuma gəldi, onun haqqında bir məqalə yazdım. Yaxud Vaqif Bayatlı Önərin kitabı mənə təsir etdi və yazdım. Təəssüf ki, vaxt darlığı ucbatından çox fikirlərimi yaza bilmirəm. Yarımçıq yazılarım çoxdur.

– Sizin işinizin çoxluğuna görə ədəbi tənqiddən aralanmağınız aydındır. Amma bütövlükdə bizim ədəbi tənqid adama çox süst təsir bağışlayır. Özünüz necə, vəzifəyə keçəndən sonra çap olunan əsərləriniz, tamaşaya qoyulan pyesləriniz barədə də əsl tənqidi fikrə, rəyə rast gəlmisiniz?

– Nə demək istədiyini başa düşdüm. Əlbəttə, həmin tənqidi materialların içində mənimçün maraqlı, sanballı olanları da var. Amma, ümumiyyətlə, bu gün Azərbaycanda ədəbi prosesin təəssübünü çəkən insanların sayı azalıb. Elə bil, həmin qələm sahiblərinin yazmaq həvəsi sönüb. Mən belə danışanda bəzən etiraz edirlər ki, iclas çaqırmaqla ədəbi prosesə təsir göstərmək, yaxşı əsər yazdırmaq olmaz. Bəli, elədir. Ancaq ədəbiyyatın təəssübünü çəkmək lazimdır ya yox? Mənə etiraz edə bilərlər ki, gərək yaxşı bir əsər çap olunsun ki, onu təhlil etmək həvəsi yaransın. Deyək ki, belə bir əsər yoxdur, amma pisləri ki var. Bədii-estetik zövqü korlayan əsərlərin qarşısını almaq üçün haray salmaq lazımdır! Bu mənada ədəbi proses şəxsən mənimçün qayğılı məsələdir. Vaxtilə ədəbi proses haqqında çox ciddi məqalələr yazmışam. Görünür, yenə yazmaq lazımdır.

– Allah qoysa. Elçin müəllim, əsərlərinizi oxuyanda bir maraqlı cəhəti hiss etmişəm. Sizin bədii əsərlərinizdə qəhrəmanlarınıza müəllifin çox böyük doğmalığı hiss olunur. Bunu Sizin daha yaxşı tanıdığınız insanlar, bələd olduğunuz xarakterlər barədə yazmağınız kimi qiymətləndirmək olarmı?

– Özünə yazıçı deyən kəsin öz qəhrəmanlarına doğma olmaması qeyri-mümkündür. Doğmalıq o deməkdir ki, sən öz qəhrəmanını tanıyırsan, duyursan. Bu baxımdan qəhrəmanlarımın hamısı mənə doğmadır – mənimçün qəhrəmanın mənfisi, müsbəti yoxdur. Yazıçı öz qəhrəmanının həm ittihamçısı olmalıdır, həm də vəkili. İlk povestlərimdən birində – «Bir görüşün tarixçəsi»ndə Mirzoppa adlı bir obraz var. Onun çox pis xasiyyətləri olsa da, əlil

qardaşı oğlu Duduya qarşı çox mərhəmətli idi. Ona görə də deyə bilmərəm ki, baş qəhrəman Məsməxanımı onu döyüb incidən əri Mirzoppaya nisbətən çox istəyirəm – mənimçün onların ikisi də birdir. Məsələn, mən Mircəfər Bağırovu bir tarixi şəxsiyyət kimi XX əsrdə xalqımızın tale kontekstində çox qara yeri olan bir adam hesab edirəm. Amma söhbətimiz bədii surətdən getdiyi üçün deyə bilərəm ki, «Ölüm hökmü» romanımda yaratdığrım Mircəfər Bağırov bədii obraz kimi mənə çox doğmadır. O da var ki, həyatın özündə də doğmalarımızın hamısı ideal deyil...

– Elçin müəllim, yaradıcılığınızın erkən çağlarında Sizi kolxoz kəndindən, sovet fəhləsindən yazmamaqda heç günahlandırıblar?

– Təxminən yetmişinci illərin əvvəlləri idi. «Azərbaycan» jurnalının baş redaktoru rəhmətlik Cəlal Məmmədov idi. Cəlal müəllimin Azərbaycan tərcümə ədəbiyyatında böyük xidmətləri olub. Amma dövrün ideologiyasına inanan, ortodoks mövqeli bir adam idi. Bir gün hekayələrimi gətirib ona verdim. Oxuyandan sonra mənə belə bir sual verdi: «Zibil yeşiklərindən hekayə yazmaq olar?» Dedim ki, əgər zibil yeşiyini obraz kimi görürsənsə, yazmaq olar. Cavabımdan çox qəzəbləndi ki, bax, buna görə belə hekayələr yazırsan! Onun sözləri ilə desək, mən «həyatın dibindəki» insanlardan yazırdım. Yadımdadır, bir hekayə yazmışdım: «On ildən sonra». Qız Azərbaycan məktəbində, oğlan isə rus məktəbində təhsil alırdı. 134 nömrəli rus məktəbilə 132 nömrəli Azərbaycan məktəbi qonşu olduğundan, orada oxuyurdular. Yenə də «Azərbaycan» jurnalında mənə sual verdilər ki, 134 nömrəli məktəbin kimin adını daşıdığını bilirsən? Cavab verdim ki, bilirəm, uşaqları xilas edərkən həlak olan Tofiq Hüseynovun adınadır. İrad tutdular ki, bəs necə olur ki, o cür qəhrəman yeniyetmələrdən yox, VIII sinifdən bir-biri ilə öpüşən gənclərdən yazırsan? Hamı kimi mən də bu cür tənqidlərlə rastlaşmışam. Amma bir cəhəti demək istəyirəm ki, bu yaxınlarda hekayələr kitabımı hazırlayıb çapa vermişəm. Həmin kitabda düz 30 ildə yazdığım hekayələr toplanıb. Onların birinə də təzədən əl dəyməmişəm. Vaxtilə necə yazmışamsa, eləcə də qalıb. Çünki hekayələrimdə elə şey yoxdur ki, formasiya, ideologiya dəyişəndən sonra onu üzə çıxarmaq mümkün olmasın. Məqalələrim də həmçinin. Sovet dövründə tənqidi məqalə də ideoloji məhsul sayılırdı. Amma yenə də məqalələrimin nəinki bircə cümləsinə toxunmamış, çapa hazırla-

mışam. Həmin məqalələrdə vulqar sosioloji cəhət, yaxud Lenindən sitat yoxdur. Əgər istifadə etmişəmsə də, o, tənqidi məqalənin xeyrinə işlədilib, sitat xətrinə yox.

Vəzifə borcu... İnsan elə bu dünyaya gələndə taleyi kimi bəşər övladı olmaq vəzifəsi də boynuna biçili gəlir. Hər kəsin mənəvi borc kimi daşıyacağı istedad, həvəs, meyl, sevgi tək bu həyat vəzifəsinə bəzən hökumət vəzifəsi də əlavə olunur. Mənim budəfəki müsahibim də belə ikiqat vəzifə borcunu daşıyan insan idi. Problem araşdırmaq, qərar çıxarmaq, tədbir görmək, göstəriş vermək, tapşırığın yerinə yetirilməsinə nəzarət etmək... Özü də dövlət səviyyəsində. Amma xalq qarşısında Elçin müəllimin ömür boyu daşıyacağı və ağsaqqallıq yaşına çatdıqca məsuliyyəti və sanbalı artan bir tale vəzifəsi də var: milli ədəbiyyatın yazıçı və tənqidçi təəssübkeşliyi.

*Söhbətləşdi: Gülcahan Mirməmməd,*
*«Panorama», 10 iyun 1999*

## «MƏN İKİLİ HƏYAT YAŞAYIRDIM»

*(Birinci müsahibə)*

– Elçin müəllim, altı il öncə Cavanşir Yusifli sizinlə böyük bir sorğu keçirmişdi. O sorğu cüzi ixtisarla bu kitaba da daxil edilib. Bir yazıçı ömrünün ən maraqlı anlarını əks etdirmək baxımından zənnimcə, o müsahibə yetərincə dolğun idi. Amma mənim də sizə suallarım var.

– Buyur, Vaqif, suallarını ver.

– Elçin müəllim, siz yazıçı mühitində böyümüsünüz. Təbii ki, bu mühitdə tərbiyə alan uşaqların əksəriyyəti atalarının yolunu davam etdirirlər. Xeyli misal gətirə bilərəm: Səməd Vurğun – Yusif və Vaqif Səmədoğlular, Süleyman Rəhimov – Şamo Arif, Əli Vəliyev – Məsud Əlioğlu, Rəsul Rza – Anar, Məmməd Arif – Araz Dadaşzadə, Böyükağa Qasımzadə – İntiqam Qasımzadə və s. Nəhayət, İlyas Əfəndiyev – Elçin. Bilmək istəyirəm, siz bu yola könüllümü qoşuldunuz, ədəbiyyata bu sonsuz həvəs İlyas müəllimdən gəlmədi, yoxsa tamam ayrı bir səbəb var?

– Şübhəsiz o «könüllülük» – oğulun atasının yolunu seçməsi, davam etdirməsi ənənənin rolu ola bilər. Amma mən bunun əksini göstərən onlarla misal gətirə bilərəm, yazıçı ailələrində ya heç o yolu davam etdirən olmur, ya da olursa, zəif yazarlar yetişir. Deməli, məsələni ancaq bu amillə bağlamaq doğru deyil.

Məktəbə qədər mən artıq əlifbanı öyrənmişdim, çoxlu kitablar oxumuşdum. Bu kitabların təsirindənmi ya hər şeyi öyrənmək, dərk eləmək həvəsindənmi uşaqlıqda özümdən nağıllar uydurmağa başlamışdım. Böyük həvəslə bu nağılları dostlarıma, ən çox da məhəllə uşaqlarına danışardım. Özü də bu nağılların müəllifinin də kim olduğunu deyərdim, özümdən müxtəlif adlar uydurardım. I-II siniflərdə oxuyanda isə çürbəçür hekayələr yazmağa başladım, yenə deyirdim ki, bunlar filan yazıçının hekayələridir.

– Adətən «yaradıcılığa» şerlə başlayırlar, siz isə nağıl ilə, hekayə ilə.

– IV–V siniflərdə oxuyanda ara-sıra şer də yazırdım.

– Şübhəsiz ki, gələcək yazıçının dünyagörüşünün formalaşmasında mühitlə yanaşı, mütaliənin də rolu olmuşdur.

– Əlbəttə. Atam hərdən elə bilərdi ki, evdə heç kəs yoxdur, onda özü-özü ilə danışardı. Sonradan mənə məlum oldu ki, o öz əsərlərini yazmamışdan əvvəl danışır. Əlbəttə, bu mənada mühitin də «yazıçı kimi formalaşmağımda» təsiri olub. Bir tərəfdən də mütaliəm. Bizim evdə həmişə dava onun üstündə gedərdi ki, mən çox oxumayım. Təsəvvür edin, hamı yatandan sonra mən gizlincə kitab oxuyardım. Atam, rəhmətlik, tez keçib işığı söndürərdi ki, daha oxumayım, yatım.

Mən ikili həyat yaşayırdım. Bir Mirzə Fətəlidə məhəllə həyatım, bir də özünəməxsus «gizlin» həyatım. Bu gizlin həyatım həmin o kitablarla bağlı idi. Amma kitaba bağlılığımı məhəllə uşaqlarından gizlədərdim. Ona görə ki, onların çoxu kitab oxuyan deyildi və istəmirdim ki, kitab oxumağımı bilib mənə yuxarıdan aşağı baxsınlar. Nənəm də məni qorxudardı ki, sözümə baxmasan, sənin kitab oxumağını məhəllə uşaqlarına deyəcəyəm.

Vaqif, əgər desəm, bu vaxta qədər nə oxumuşamsa, onun çoxunu 13-14 yaşıma qədər oxumuşam, bu sözlərin səmimiliyinə inan. Həm rusca, həm də azərbaycanca oxuyurdum və indiyəcən hansı kitabları oxuduğum da yadımdadır. Azərbaycan nağılları, dastanları... Birinci sinfə qədər mən Robinzon Kruzo, Şerlok Holmsla bağlı kitabları mütaliə eləmişdim, o yaşda uşağın bu kitabları oxuması bəlkə indinin özündə də bir möcüzədir. Mayn Ridin «Başsız atlı» əsərini bəlkə indiyəcən bir on dəfə oxumuşam, uşaqlıqda o çağlarda mənə ən çox təsir edən, bax, o əsər olub.

– Deməli, gələcəyin yazıçısı 5-6 yaşından mehr və məhəbbətini kitablara saldı, başladı nağıllar, hekayələr yazmağa. Ancaq ən maraqlısı odur ki, gələcəyin yazıçısı olan bu uşaq hər gün öz evində atasının yazıçı dostlarını görürdü. Səhv eləmirəmsə, İlyas müəllimin ən yaxın dostu Mehdi Hüseyn olub. Bunu mərhum atanızın xatirələrindən də oxumuşam.

– Bəli, doğru deyirsiniz. Mehdi Hüseyn atamın ən yaxın dostu idi. O, mənim xatirələrimdə ən parlaq bir şəxsiyyət və insan kimi yaşayır. Xatırlayıram ki, atam məni götürüb tez-tez Mehdi Hüseyngilə gedərdi, ya da o bizim evimizdə olardı. İkilikdə olanda onlar Stalin haqqında danışardılar, ona «Bığı bəy» deyərdilər. Və mən dəhşətə gəlirdim ki, Stalin baba haqqında axı, belə şeylər danışmaq olmaz, günahdır.

Mehdi Hüseynin «Rəqiblər» adlı maraqlı bir hekayəsi var

və mən o hekayədən diplom işi yazmışdım. Elə o vaxtlar Mehdi Hüseyn rəhmətə getdi.

Aramızdakı böyük yaş fərqinə baxmayaraq münasibətlərimiz çox səmimi idi. Yadımdadır ki, «Surxay dayı» adında bir hekayə yazmışdım, o hekayə qəzetlərin birində çap olunmuşdu və o da yadımdadır ki, Mehdi Hüseynlə oturub bu hekayə haqqında xeyli söhbət elədik. Yazıçılar İttifaqında «Gənclər günü» keçiriləndə məni də dəvət etdilər və orada Mehdi Hüseynin təkidi ilə «Surxay dayı» hekayəsini oxudum.

Mehdi Hüseyn əsl ədəbiyyat adamı idi. Atam belə bir xatirə danışırdı: «Bir gecə «İnturist»dən çıxıb Mehdi ilə bulvarda gəzirdik. O zaman tanınmış bir dramaturqun pyesi də təzə tamaşaya qoyulmuşdu, amma Mehdi bu əsəri bəyənməmişdi.

Birdən-birə yenə bu pyes haqqında danışmağa başladı. Danışdıqca: «Ədəbiyyatı ələ salıblar» – deyə qızışırdı, əsəbiləşirdi, axırda elə bir vəziyyətə düşdü ki, dedim, əşşi, yazıb yazıb də, sənin nə işinə qalıb, sən niyə özünü bu vəziyyətə salırsan?! Birdən təəccüblə mənə baxdı, dedi: «Ə, necə yəni nə işinə qalıb? Bəs mən ədəbiyyat uğrunda mübarizə aparmıram?!»

Mehdi Hüseyn yox, bir başqası bu sözü desəydi, bəlkə də komik çıxardı, amma Mehdi Hüseyn həqiqətən ədəbiyyat mücadiləçisi idi.

Mehdi Hüseynin 1958-çi ildə nəşr edilmiş «Ədəbiyyat və sənət məsələləri» kitabı məndə böyük təəssürat oyatdı. O zaman 16 yaşım vardı və açığını deyim, o kitabı oxuyandan sonra uzun müddət onun təsirindən ayrıla bilmədim. Mehdi Hüseyn bu kitabı özü mənə bağışladı və hətta belə bir söz dedi ki, oxuyub fikrimi bildirim. Doğrudan da, bu kitab çox qiymətli kitabdır və indinin özündə də ədəbi tənqidin ən cəsarətli bir nümunəsi olaraq qalır. «Nə üçün?» sualına mən belə çavab verərdim: ona görə yox ki, bu kitabda çox dərin, qiymətli fikirlər var, ona görə ki, bu kitab yazıldığı dövrün (və mən deyərdim bütöv 30-40 ilin) ədəbi salnaməsi idi və bu salnamədə o dövrün ədəbi mənzərəsi dolğunluğu ilə əks olunmuşdu, dövrün özünün səciyyəsi əks olunmuşdu. Mən 30-40-cı illərin ədəbiyyatı, bu ədəbiyyatın müxtəlif təmayülləri, onun ayrı-ayrı görkəmli nümayəndələri, ədəbi mübarizələri barədə çox yazılar oxumuşam, amma həmin dövr Mehdi Hüseynin «Ədəbiyyat və sənət məsələləri» kitabında olduğu kimi belə ehtirasla canlandırılmamışdı.

Mehdi Hüseyn cəsarətli tənqidçi idi və bu günün özündə də o cəsarət simvolu kimi xatırlanır. Siz təsəvvür edin: mən Cəfər Cəfərovu Azərbaycan ədəbi tənqidinin ən görkəmli simalarından biri hesab etmişəm və indi də o fikirdəyəm. Amma Mehdi Hüseyn həmin kitabında hansı məqaləsindəsə Cəfər Cəfərovun fikir və mülahizələrini yerlə yeksan edirdi. Əlbəttə, bu günün ədəbi-tənqidi meyarları ilə yanaşanda onun fikirlərində obyektiv həqiqətlə səsləşməyən çox məqamlar var, ançaq Mehdi Hüseyn öz dövrünün ədəbi fanatiki idi, o, inandığı həqiqətə səcdə edirdi, inanmadığına kimsə onu inandıra bilməzdi.

Sonra Əli Vəliyevlə atamın «qədimi» dostluğundan söz aça bilərəm. Atam öz xatirələrində Əli Vəliyevi həmişə hörmətlə xatırlayır. Əli Vəliyevin qəribə və xeyirxah xasiyyətlərindən ürək dolusu danışırdı. Yaman küsəyən idi Əli Vəliyev və bir də görürdün ki, atamla düz beş ay danışmadı. Atam İmran Qasımovla, Fikrət Əmirovla, Soltan Hacıbəyovla, Rəşid Behbudovla, Adil İsgəndərovla da yaxın dost idi. Adil İsgəndərov atama nisbətən yaşlı idi, amma tez-tez bizə gəlib-gedirdi. Mən istedadlı rejissor, mərhum Tofiq Kazımovu da bizim evdə tez-tez görürdüm. Siz bilirsiniz ki, Tofiq Kazımov atamın bir çox pyeslərinə quruluş vermişdi, bu iki sənətkar bir-birini çox gözəl anlayırdı, mən deyərdim, bir-birini sözsüz anlayırdılar. Ona görə də «Atayevlər ailəsində», «Sən həmişə mənimləsən», «Məhv olmuş gündəliklər» uzun müddət milli teatrın repertuarından düşmədi, yeni bir aktyor nəslinin formalaşmasında da böyük rol oynadı. Uşaq vaxtı atam məni tez-tez məşqlərə aparardı, mən lojada oturub ilk tamaşaya qədər aktyorların öz rollarını neçə oynadıqlarının, Adil İsgəndərovun onlarla neçə danışdığının, arabir atamla necə məsləhətləşdiyinin şahidi olardım.

Ümumiyyətlə, uşaq vaxtlarımdan atamla mənim aramızda olan ata-oğul münasibəti, həm də, elə bil ki, dostluq münasibəti idi. O, məni, hətta restoranlara da aparırdı, burada mən o dövrün çox görkəmli sənətkarlarının söz-söhbətinin, zarafatlarının şahidi olurdum. Bir dəfə «İnturist»də Səməd Vurğunla, Mehdi Hüseynlə bir yerdə olmağımız da indiyə kimi yadımdadır. Bəxtiyar Vahabzadə də bizimləydi, onda çox cavan idi və o da yadımdadır ki, Bəxtiyar Vahabzadə həmin məclisdə dilinə içki almadı, Səməd Vurğundan, Mehdi Hüseyndən, atamdan utanırdı.

– Adətən, yazıçılar, şairlər, ümumiyyətlə, sənətçilərin dostluğu onların övladları arasında da davam edir. Bəs siz kimlərlə dostluq edirdiniz?

– Bayaq dedim, mən daha çox məhəlləmizdən olan uşaqlarla dostluq edirdim, indi onlar müxtəlif peşə sahibləridir, taksi şoferi, rabitə işçisi, milisioner...

Hər yay Şuşaya gedərdik. Orada yazıçıların bir yaradıçılıq evi vardı, yayda yazıçı ailələri bura istirahətə gələrdilər və mənim həmin o yazıçı uşaqları ilə tanışlığım da buradan başlandı. Süleyman Rəhimovun, Cəfər Xəndanın oğlanlarını ilk dəfə orada görmüşəm.

Universitetdə isə, çox qəribədir, mən yazıçı uşaqları ilə eyni qrupda oxumuşam: biri İntiqam Qasımzadə, sən tanıyırsan, biri Polad – Cabbar Məçnunbəyovun oğlu, bizdən yuxarı kursda da Araz – Mirmehdi Seyidzadənin oğlu oxuyurdu. Sonralar mən Anarla, Araz Dadaşzadə ilə tanış olmuşam.

– Bəs tələbəlik illərində necə oxumusunuz?

– Əvvəl orta məktəbdən başlayım. Açığını deyim, dərs oxumaqla bir elə aram yox idi. İndi desəm, bəlkə də təəccüb doğurar, ədəbiyyat dərsindən bəzən «2» alardım. Çünki o mövzuları ki, keçirdilər, mən onları oxumaq istəmirdim, darıxırdım. Bir dəftərim vardı: bir üzünə həndəsəni, bir üzünə fizikanı yazardım. Mənim kitab aləmim dərsliklərdən qat-qat zəngin idi. Bizə Azərbaycan ədəbiyyatı tarixi, xarici ədəbiyyat, rus ədəbiyyatı fənlərini keçirdilər. Amma mən Universitetə qədər o əsərlərin çoxunu oxumuşdum.

– Elçin müəllim, hər bir yazıçı üçün ən vacib, mən deyərdim, ən unudulmaz məqam yazı prosesidir, sonra isə bu yazının çapı ilə bağlıdır...

– Elədir. Bilirsiniz ki, ilk hekayəm 1959-cu ildə, «Azərbaycan gəncləri» qəzetində çap olunub. Onu da deyim ki, ilk hekayələrimi atama oxumuşam, o, hər dəfə «çap olunmağa tələsmə» deyirdi. Amma mən tələsirdim, bu da cavanlıqdan gələn bir xüsusiyyət idi. Ümumiyyətlə, atam mənim yazılarımın çapından ötrü kiməsə zəng eləməyi ağlına belə gətirmirdi.

Yəni onun fikrincə, istedadın varsa, kimliyindən asılı olmayaraq gec-tez səni çap edəcəklər və əlbəttə, bundan ötrü mübarizə də aparmalısan. Bu, sənin öz haqqındır.

1969-cu ildə mən namizədlik dissertasiyası yazdım və

Moskvaya göndərdim. Ardınca Moskvaya – VAK-a yazmışdılar ki, guya bu dissertasiyanı atam mənim üçün yazıb. Atam, rəhmətlik, gülə-gülə deyərdi ki, yazan olsaydım, elə özüm üçün yazardım də...

Tofiq Kazımovla atamın dostluğunu dedim. Siz bilirsiniz ki, «Poçt şöbəsində xəyal» əsərini 70-ci ildə yazmışam, özü də çox həvəslə yazmışdım, bunu atama da oxumuşdum, xoşuna gəlmişdi. Anar da oxudu, onun da xoşuna gəldi, daha sonra Cəfər Cəfərov da oxudu və onun da xoşuna gəldi. Yaşar Qarayev və Mehdi Məmmədov da əsəri oxuyub tərifləmişdilər. Mən də bundan ruhlanıb əsəri verdim Tofiq Kazımova, güman edirdim Tofiq Kazımovun xoşu gələcək və onu tamaşaya qoyacaq. Amma çox qəribədir ki, Tofiq Kazımov mənə heç bir söz demədi. Bir müddət keçdi və bunun fərqinə varmadım, o pyesi çevirdim dramatik povest elədim, o cür da çap olundu. Və bu hadisədən sonra uzun illər pyes yazmadım, amma, sən demə, içimdə o meyl sönməyibmiş. 1990-cı ilin yanvar hadisələrindən sonra heç nə yaza bilmirdim.

İndi təsəvvür edin, həmişə yazmağa vərdiş eləmiş, demək olar ki, hər gün yaradaçılıqla məşğul olan bir adam birdən-birə heç nə yazmır, yaza bilmir. Yazıçı üçün bu, ən ağır bir vəziyyətdir. Başladım oxuduğum kitabları bir də oxumağa. O kitabların içində Molyerin komediyaları da vardı və birdən-birə, özüm də gözləmədən Molyeri Azərbaycan dilinə tərcümə etməyə başladım. «Skapalenin kələkləri»ni, «Jorj Danden, yaxud Aldanmış ər»i dilimizə çevirdim. Sonra bir müddət Axundov kitabxanasına gedib-gəldim, «Azərbaycan səhnəsi və Molyer» mövzusunu işlədim (sonralar Molyerin bu iki komediyasını kitab halında çap edəndə, «Bizimçün qalan sənət» adlı məqaləni də o kitaba daxil etdim), sonra Mirzə Cəlili, Sabiri, Haqverdiyevi, N.Vəzirovu da təzədən mütaliə elədim. Və bütün bunlardan sonra özüm üçün də gözlənilməz bir hadisə baş verdi, oturub komediya yazmağa başladım: «Ah, Paris, Paris!».

– Elçin müəllim, hələlik söhbətimizə bir qədər ara verək. Məqamdı ki, sizin dramaturji yaradıcılığınız haqqında bəzi mülahizələrimizi söyləyək, sonra yenə müsahibəni davam etdirərik.

*Müsahibəni Vaqif Yusifli apardı.*
*1999*

## PROFESSİONAL TƏNQİDƏ NECƏ GƏLDİM

*(İkinci müsahibə)*

– Elçin müəllim, hər bir yazıçı ədəbi hadisələrə, qələm dostlarının yaradıcılığına, ədəbiyyatla bağlı hər hansı bir problemə öz münasibətini bildirir. Yəni bir ədəbiyyat adamı kimi bu, onun borcudur. Elə yazıçılar da var ki, onların yaradıcılığında bu cür yazılar ayrıca bir yer tutur. Həmin yazıçı yeri gəldikcə mətbuatda ədəbi-tənqidi yazıları ilə çıxış edir, hətta illər keçəndən sonra bu yazıları bir kitab halında da oxuculara çatdırır. Bu fəaliyyəti «yazıçı tənqidi»nin nümunəsi kimi səciyyələndirmək olar. Bir də var professional tənqidçi. Məsələn, mən Mehdi Hüseyni bu mənada professional tənqidçi hesab edirəm. O cümlədən, sizi...

Necə oldu ədəbi tənqidə gəldiniz?

– Burada mənim aspiranturaya girməyimin böyük rolu oldu. Bunun çox qəribə bir tarixçəsi var – 1965-ci ildə hansısa bir toplantı keçirilirdi və mən də orada çıxış elədim. Bilmirəm necə qarşılandı, amma iki gündən sonra məni Azərbaycan LKGİ-yə çağırdılar. O zaman respublika komsomolunun I katibi Maqsud Əlizadə idi və həmin toplantıda Maqsud Əlizadə də iştirak etmişdi. Onda mən, universiteti təzəcə bitirmişdim. Universitetin elmi şurası mənim, Aydın Məmmədovun, Sokrat Musayevin, İntiqam Qasımzadənin aspiranturada saxlanmağımız haqqında qərar qəbul etmişdi.

Açığını deyim ki, mənim aspiranturada oxumaq fikrim yox idi. O zaman «Ulduz» jurnalının nəşrə başlayacağı haqda söhbət gedirdi və mən istəyirdim ki, məhz həmin jurnalda əməkdaşlıq eləyim. Amma o jurnal 2-3 ildən sonra nəşrə başladı.

Bəli, gəldim komsomolun Mərkəzi Komitəsinə. Dedilər ki, səni Maqsud Əlizadə qəbul edəcək. Həm təəççüblənirdim – görəsən, Maqsud Əlizadənin mənimlə nə işi ola bilər, həm də sevinirdim – o zaman Maqsud Əlizadə gənclər arasında böyük hörmət qazanmışdı.

Oturduq üz-üzə və Maqsud Əlizadə dedi ki, bəs, sənin çıxışın mənim xoşuma gəlib, soruşub öyrənmişəm ki, universiteti tə-

zə bitirmisən, indi fikrin nədir, harada işləmək istəyirsən? Dedim ki, hələ bilmirəm, «Ulduz» jurnalının açılmağını gözləyirəm. Dedi ki, mən istəyirəm, sən gəlib burada bizim aparatda təlimatçı işləyəsən. Doğrusu, bu təklif mənim üçün gözlənilməz oldu. Dedim, icazə verin, gedim əməlli-başlı fikirləşim. Gəldim atamla məsləhətləşim. Atam dedi ki, bilirsən nə var, mən özüm çox təəssüf edirəm ki, niyə vaxtında müdafiə eləmədim, (atam əvvəllər də bunu təəssüf hissilə xatırlayırdı, çünki onun yazıçı dostlarından, qələm yoldaşlarından bir neçəsi elmlər namizədi, doktoru idi və onlar ali məktəblərdə ya da elmi-tədqiqat institutlarında işləyirdilər, atam kimi təkcə qonarar ümidinə yaşamırdılar, daimi iş yerləri vardı və hər ay dövlətdən maaş alırdılar), odur ki, sənə məsləhət görürəm aspiranturaya girəsən, müdafiə edəsən, sonra nə istəyirsən elə. Beləcə də həmin il mən aspiranturaya qəbul imtahanı verdim və qəbul olundum. Mənim mövzu seçməyimdə və ümumiyyətlə, tənqidə gəlməyimdə professor Kamal Talıbzadənin böyük rolu oldu. Başladım «Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965)» mövzusunda namizədlik dissertasiyası ilə bağlı araşdırmalar aparmağa. Hekayələrlə, povestlərlə bərabər, tənqidi məqalələr yazmağa başladım.

– Elçin müəllim, mənim fikrimcə, tənqidçi geniş erudisiyaya, yüksək nəzəri səviyyəyə malik olmalıdır, şeri, poeziyanı şair qədər, nəsri nasir qədər (bəlkə də artıq!) duymalıdır, ədəbiyyat tarixinə yaxşı bələd olmalıdır, Şərq və Qərb ədəbiyyatına dərindən yiyələnməlidir. Həm də bir şəxsiyyət kimi etiraf olunmalıdır, çünki tənqidçi şəxsiyyəti mühüm amildir – o, cəsarətli, prinsipial, obyektiv olmalı, şəxsiqərəzliyə, subyektivliyə, intriqaya uymamalıdır, eyni zamanda həssas bir ürək sahibi olmalıdır. Bax, bütün bu xüsusiyyətləri özündə birləşdirən hansı tənqidçinin adını çəkə bilərsiniz?

– Vaqif, bu sualın çox maraqlıdır və elə bu sualla əlaqədar bir müşahidəmi səninlə bölüşmək istəyirəm. Sən yəqin ədəbi mətbuata yaxşı bələdsən, 30-cu, 40-cı, 50 və 60-cı illərdə həmişə Azərbayçan ədəbi tənqidindən bu və ya digər dərəçədə narazılıq ifadə olunub, şikayətlər eşidilib. Qəribə orasıdır ki, bu şikayət və narazılıqları elə tənqidçilərin özləri ediblər. Məsələn, 20 – 30-cu illərin tənqidçisi Əli Nazim Azərbaycan tənqidinin o dövrkü vəziyyətindən və səviyyəsindən şikayətlənirdi, yaxud 40-cı illərin əvvəllərində M.Arifin «Tənqid və ədəbiyyatşünaslıq» yazısında

da eyni narazılığı eşidirik. Bu, nə deməkdir? Deməli, Azərbaycanda ədəbi tənqid var ki, ondan şikayətlər eşidilir, onun səviyyəsi, durumu kimisə narahat edir. Azərbaycan tənqidi həmişə (söhbət 20 – 90-cı illərdən gedir) ikili vəziyyətdə olub – bir olub hakim ideologiyaya qulluq eləyən tənqid, bir də həqiqi ədəbiyyatın qeyrətini çəkən, onun mücadiləsini aparan tənqid. Ancaq ən qəribə orasıdır ki, bir tənqidçidə bəzən bunların (bu iki tənqidçi tipinin) ikisi də birləşib.

Adını çəkdiyim Əli Nazimi mən Azərbaycan ədəbi tənqidində ən maraqlı şəxsiyyətlərdən biri hesab edirəm. Ondan əvvəl isə mənim bir tənqidçi kimi xoşuma gələn Seyid Hüseyn (Kazımoğlu) olub. Seyid Hüseyndən də əvvəl Abdulla Suru güclü tənqidçi hesab etmişəm. O ki qaldı sovet dövrünə, heç şübhəsiz, Məmməd Arif, Məmməd Cəfər, Cəfər Cəfərov, Mikayıl Rəfili, Mehdi Hüseyn Azərbaycan ədəbi tənqidi naminə çox iş görüblər.

Ancaq elə istedadlı tənqidçilərimiz də olub ki, onlar öz istedadlarını tam şəkildə üzə çıxara bilmədilər. Məsələn, Məsud Əlioğlu, İslam İbrahimov və Qulu Xəlilov istedadlı tənqidçi idilər, amma yaşadıqları dövrün ideoloji tələbləri bu istedadlı adamların yaradıcılığına da təsirsiz qalmadı. Ümumiyyətlə, dövrün hakim ideologiyasından xilas ola bilməyən tənqidçilərimizin çoxu bu təsirdən yaxa qurtara bilməyib. Misal üçün, Mərkəzi Komitə camışçılığın inkişaf etdirilməsi barədə qərar qəbul edirdi və hakim ideologiya məcbur edirdi ki Azərbaycan tənqidi bunun inikasını ədəbiyyatdan tələb etsin. Tənqid də bu tələblə ədəbiyyata yanaşırdı. Ədəbiyyatın qəhrəmanının kolxoz, sovxoz, traktor olduğu, insanın isə qıraqda qaldığı bir dövrdə tənqid də çox vaxt çalınan havaya oynayırdı.

Sən, «tənqidci cəsarətli olmalıdır» deyirsən. Nədir bu cəsarət? Yenə Mehdi Hüseyni, onun «Ədəbiyyat və sənət məsələləri» kitabını xatırlayaq. Bu kitab doğrudan da cəsarətli tənqid nümunəsidir, amma baxır bu cəsarət nəyə sərf olunub – bu, başqa bir söhbətin mövzusudur! Məsələn, sən tənqidçi Vaqif Yusifli kimi isə kəskin tənqid edirsən, bu, cəsarətdir, amma sən düz eləyirsənmi? Sənə elə gəlir haqlısan, amma illər keçir, məlum olur ki, yox, sən haqlı deyilmişsən. Ona görə də, sənin dediyin o cəsarət anlamını tənqid üçün şərti qəbul eləmək lazımdır.

– Mən tənqidçi Elçinə yox, yazıçı Elçinə bir sual vermək istəyirəm. Sizin nəsr əsərləriniz haqqında vaxtilə Pənah Xəlilov,

Xalid Əlimirzəyev tənqidi fikir söyləmişdilər. O zaman bu sizi qıçıqlandırmadı ki?

– Əvvəla, onu deyim ki, həm Pənah Xəlilov, həm də Xalid Əlimirzəyev bir tənqidçi və ədəbiyyatşünas kimi bizim ədəbiyyatımız üçün çox iş görüblər. Pənah müəllim, doğrudur, mənim əsərlərim barədə öz tənqidi iradlarını bildirmişdi, amma bu mülahizələrlə mən razılaşmadım və mətbuatda cavab məqaləsi çap etdirdim. Xalid Əlimirzəyevin hekayə haqqında fikirləri ilə razılaşmayıb ayrıca bir məqalə yazdım, o məqaləni Moskvada da çap etdirdim, həmin məqalə ilin ən yaxşı məqaləsi kimi mükafat da aldı.

Mən belə hesab edirəm ki, o dövr öz ədəbi mübarizələrinin qaynarlığı ilə seçilirdi.

– Elçin müəllim, sizin yaradıçılığınız haqqında həm qələm dostlarınız, həm də tənqidçilər söz deyib və təbii ki, bu deyilənlər, yazılanlar yazıçı Elçinin yaradıcılığı haqqında tam mənada olması da müəyyən təsəvvür yaradır. Bu yazılar içərisində sizi tam qane edən, ürəyinizdən xəbər verən nümunələr olubmu?

– Bilirsən, bu çox ciddi məsələdir. Xatırlayıram atamı, onun haqqında, yaradıcılığı, ya bir əsəri barədə məqalələr çap olunurdu, özünün oxumağa hövsələsi çatmırdı, mənə deyirdi ki, sən oxu, öz fikrini de.

İş elə gətirib ki, elə ilk kitablarımdan başlayaraq mənim yaradıcılığım barədə də fikirlər söylənib. Cavan bir oğlan idim, haqqımda Məmməd Arif, Məmməd Cəfər, Həmid Araslı, Mir Çəlal, Abbas Zamanov, Mehdi Məmmədov kimi görkəmli şəxsiyyətlər söz deyirdilər, xüsusi məqalələr yazırdılar. Deyim ki, mən indi o şəxsiyyətlərin hər birini hörmətlə yad edirəm və nə yazıblarsa, hərəsinin öz yeri var. Sonralar mənim haqqımda Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Gülrux Əlibəyova, Yaşar Qarayev, daha sonralar Aydın Məmmədov, Kamil Vəliyev, Vilayət Quliyev, Nadir Cabbarov, Kamal Abdulla və başqaları məqalələr yazdılar, elə sən özün bir neçə məqaləni mənim yaradıçılığıma həsr etmisən. Rus tənqidi kitablarım haqqında çox yazdı. Yenə təkrar edirəm, bu yazıların hər birinin öz yeri var.

Çox qəribədir ki, elə cavanlıqdan mən yaşlı nəsil tənqidçi və ədəbiyyatşünaslarla daha çox ünsiyyətdə olmuşam, nəinki öz yaşıdlarımla. Misal üçün, aramızda çox böyük yaş fərqi olmasına baxmayaraq mən Abbas Zamanovla dostluq edirdim, halbuki, o,

atamdan da yaşca böyük idi. Yaxud Məmməd Cəfər müəllimlə dost idim və o, ömründə heç kəsə deməmədiyi şəxsi sirlərini mənə açırdı. Gedib onunla yeyib-içirdik, məclislərdə olurduq. Ya Abbas müəllim ərklə mənə zəng vurub deyirdi ki, əla bir konyakım var, sabah gəl, bir balaca oturaq. Keçən əsrdə doğulmuş, atamdan 16 – 17 il böyük olan Qulam Məmmədli ilə də beləcə dost idik. Məmməd Arif müəllimlə də gözəl münasibətlərimiz var idi, ona öz dostumun – Arazın atası kimi həmişə hörmət etmişəm. Eləcə də Həmid Araslı, Mir Cəlal, Əziz Şərif, Cəfər Cəfərov...

– Elçin müəllim, bu müsahibəmizi bütünlüklə ədəbi tənqid üzərində qurduq. Bunun ardınca tənqidçi Elçinin yaradıcılığından söz açmaq yerinə düşərdi.

*Müsahibəni Vaqif Yusifli apardı.*
*1999.*

# XXI ƏSRDƏ GÖRÜŞƏRİK...

*(Üçüncü müsahibə)*

– Elçin müəllim, çox istərdim, siz mənsub olduğunuz ədəbi nəsil haqqında söz açasınız. Sizin ədəbi nəsli «altmışıncılar» adlandırırlar və dönə-dönə qeyd edirlər ki, (elə mən özüm də) bu ədəbi nəsil ədəbiyyata yeni bir ab-hava, nəfəs gətirdi. Onu da gizlətmək lazım deyil ki, bu fikir bəzilərinə xoş gəlmir...

– Vaqif, sən doğru deyirsən, bizim ədəbi nəslin yaradıçılığından söz açanda bəziləri əsəbiləşir. İndi biz ədəbiyyata təzə bir hava, təzə bir nəfəs gətirmişik, ya gətirməmişik – bu, ayrı söhbətdir. 60-cı illər ədəbiyyatından söz düşəndə bəziləri elə zənn edir ki, söhbət 60-cı illər ədəbi nəslindən gedir. Ola bilsin, siz tənqidçilər vurğunu daha çox bizim ədəbi nəslin yaradıcılığı üzərinə salırsınız. Məncə, 60-cı illərdə yaranan əsərlərin içində 60-cı illər ədəbi nəslinə mənsub olmayanların da əsərləri çoxdur. 60-cı illərdə poeziyada yaşlı və orta nəsildən olan şairlər gözəl əsərlərini yaratdılar. İlyas Əfəndiyevin roman və povestləri, İsmayıl Şıxlının «Dəli Kür»ü, İsa Hüseynovun povestləri də altmışıncı illərin məhsulu idi. Deməli, «altmışıncı illərdə yaranan ədəbiyyat»la (burada artıq müxtəlif ədəbi nəsillərin fəaliyyəti nəzərdə tutulur), «altmışıncı illərdə ədəbiyyata gələn nəslin yaradıcılığı»nı bir-birinə qarışdırmaq olmaz.

Ədəbiyyatın ümumi inkişafı ilə nəsil seçimini və fərqləndirilməsini bir-birinə qarşı qoymaq doğru deyil.

İkinci bir hal. «Altmışıncılar»ın yaradıçılığından söz düşəndə nədənsə 4-5 müəllif xatırlanır – Anar, Elçin, Ə.Əylisli, İsi Məlikzadə, bir də İbrahimbəyov qardaşları. Ancaq «altmışıncılar» yalnız bu adlarla bitmir...

– Elə isə belə bir sual: Sizin ədəbi nəsil ədəbiyyatda (söhbət, əlbəttə, nəsrdən gedir) hansı məxsusi xüsusiyyətləri ilə seçilə, fərqlənə bildilər?

– Bu suala cavab vermək üçün bir az uzaqdan başlamaq istəyirəm. Götürək XIX və XX əsrlərdə yaşayan üç böyük sənətkarı – Mirzə Fətəli Axundovu, Üzeyir Hacıbəyovu və Cəlil Məm-

mədquluzadəni. Onların böyüklüyü nədən ibarət idi? Ondan ibarət idi ki, bir tərəfdən, bu böyük sənətkarlar bütün varlıqları ilə milli köklərə, qaynaqlara bağlı idilər, Azərbaycan folkloru, Azərbaycan mənəviyyatı, Azərbaycan güzəranı və Azərbaycan psixologiyası onların yaradıcılığından qızıl xətt kimi keçirdi. Digər tərəfdən isə, onlar Azərbaycan dünyasını Avropa səviyyəsində təqdim edirdilər. Məsələn, Mirzə Fətəli Azərbayçan ədəbiyyatının qətiyyən tanımadığı bir janrı-dramaturgiyanı yaratdı. Bu janrı Azərbaycan ədəbiyyatının milli faktoruna çevirdi. Axundovdan sonra gələnlər onun bu yolunu davam etdirdilər. İndi mən sual edirəm, niyə Məşədi İbad, ya ondan əvvəl Hacı Qara bir əsər qəhrəmanı olmaqdan çıxıb xalqın sevdiyi qəhrəmanlara çevrildilər?

Üzeyir Hacıbəyov Avropa musiqisinin yüz illərlə keçdiyi bir mərhələni «Leyli və Məcnun»dan «Koroğlu»ya qədər olan bir dövrdə, 30 ilə keçmədimi? Bu, həmin o iki mədəniyyətin qovuşması, daha doğrusu, Azərbayçan mədəniyyətinin Avropa səviyyəsində (əlbəttə, öz milli xüsusiyyətlərini zərrə qədər itirmədən!) təqdimi deyildimi?

İndi konkret, keçək bizim ədəbi nəslə. Əkrəm Əylisli – kənddə böyümüş bir adam – Azərbaycan mentalitetinə bələd bir yazıçı, Azərbaycan güzəranını qədərincə bilən bir nasir... O biri tərəfdən, dünya ədəbiyyatına vaqif olan bir şəxs. Və o yazını ki, başqası istedadla yazardı, amma primitiv yazardı, Əkrəm Əylisli o yazını istedadla yazdı və eyni zamanda, primitivcəsinə yazmadı – bunun özü dediyiniz suala cavab deyilmi?

(Hərçənd ki, son illərdə Əkrəm Əylisli özünə çox vurğundur, bəzən bu vurğunluq o dərəcəyə çatır ki, özünü XX əsr Azərbaycan ədəbiyyatında ən böyük yazıçı hesab edir və mən müsahibələrimdə Əkrəmin bu ifrat özünəvurğunluğunu, özündən beləçə hədsiz razı olmağını, həmçinin başqa yanlış fikirlərini tənqid eləmişəm).

Digər tərəfdən, 60-cı illərin özü maraqlı bir dövr idi, bu dövr yeni təfəkkürü, həyata, gerçəkliyə bu təfəkkürlə yanaşan, hakim ideologiyaya qarşı daxilən müxalifətdə olan insanlar yetişdirdi. Təbii ki, daha əvvəlki ənənəvi üsullarla yazmayan, əvvəlki stereotipə qarşı çıxan yazıçılar da yetişməliydi. Özü də bu proses təkcə Azərbaycan mühitinə yox, bütünlüklə keçmiş SSRİ məkanına aid idi.

– Elçin müəllim, siz ədəbiyyatımızın sabahı olan neçə cavan

şairə, nasirə, tənqidçiyə xeyir-dua vermiş, onların yaradıcılığı haqqında ilkin söz demisiniz. O cavanlar sizi minnətdarlıqla xatırlayır və sevirlər. Hətta siz Yazıçılar İttifaqanın katibi və «Vətən» Cəmiyyətinin sədri olanda o cavanların bəzilərinin ilk kitablarının nəşrinə də qayğınızı əsirgəməmisiniz. Amma indi Siz daha yüksək postdasınız – Baş nazirin müavinisiniz və çavanların bir çoxu sizdən çox şey umurlar: kimi evsizdir, ev istəyir, kimisinin kitabı çıxmır. İndi necə, qayğınızı hiss edirlərmi?

– Vaqif, qabaq belə idi ki, Azərbaycan Yazıçılar İttifaqı deyilən bir təşkilat vardı, o İttifaq, əslində, nazirlik kimi bir orqandı. O, hər il evi olmayanlara ev paylayırdı, maşın növbəsinə dayananları maşınla təmin edirdi, xəstələnmiş yazıçını, ya onun ailə üzvünü istənilən xəstəxanaya yerləşdirmək üçün Səhiyyə Nazirliyinə müraciət edirdi və bu işi müsbət həll edirdi, kitabı gec nəşr olunan yazıçının kitabının çapını sürətləndirirdi, istirahət etmək istəyən yazıçını İttifaqın müxtəlif yaradıcılıq evlərinə göndərirdi və s. və i.a. Amma indi bütün bunlar mümkün deyil. Biz keçmişik bazar iqtisadiyyatına. Daha ev yoxdur və paylanmır. Olmayan şeyi necə alıb verəsən? Şübhəsiz, mən də bunun əzabını çəkirəm. İki ildir ki, evsiz-eşiksiz Adil Mirseyidə ev düzəltməyə çalışıram, hələ ki bir şey çıxmır... Yaxud, kitab məsələsi... Atamın – İlyas Əfəndiyevin son pyeslərindən ibarət bir kitabını nəşr etmək üçün bir sponsor tapa bilmirəm. Vaqif Mustafayevlə bir yerdə film çəkmək istəyirik. Maliyyə məsələsi həll olunmadığından qalıb belə. O ki qaldı cavanların yaradıcılığı haqqında söz deməyə... işim nə qədər çox olsa da, onların yaradıcılığını izləyirəm. Elə hesab edirəm ki, ədəbiyyata gələn hər bir istedadlı gəncin özündən yaxşı sənətkarın sözünə ehtiyacı var. Heç üzünü görmədiyim Rasim Qaraca adlı çavan bir şairin şerlərini oxumuşdum və bu şerlər öz orijinallığı ilə mənə çox qəribə təsir bağışlamışdı, oturub bu şerlər haqqında bir məqalə yazdım. Yəqin sənin bütün bunlardan xəbərin var ki, mən vaxtilə Vaqif Cəbrayılzadənin Moskvada çıxan kitabına ön söz yazmışam, Rafiq Tağının, Saday Budaqlının, Baba Vəziroğlunun hekayələri haqqında ayrıca məqalələr yazmışam, çox olub belə şeylər. Kamil Vəliyevin, Kamal Abdullanın, sənin özünün, Rəhim Əliyevin bir çox başqalarının ilk kitabları mənim ön sözüm, ya redaktəmlə nəşr olunub...

– Sizi həm də kövrək, həssas bir yazıçı kimi tanıyıram. Çox olub ki, dostlarınızdan, yaxud dostunuz olmasa da, istedadlı qələm

sahiblərindən kiminsə ölümü sizi sarsıdıb və bu kədəri dərhal bir yazıda ifadə etmisiniz. Elçin müəllim, bu ədəbi aləmdə ən çox kimin ölümünə təəssüflənmisiniz?

– Həyatdan hansı yaşda getməyindən, o adamın (yəni söhbət yazıçılardan gedirsə) yaxşılığından, pisliyindən asılı olmayaraq həmişə təəssüf hissi keçirmişəm. Əlbəttə, ilk növbədə, atam yadıma düşür... Mən yaşlı ədəbi nəslin çoxu ilə səmimi münasibətdə olmuşam və əlbəttə Süleyman Rəhimovun, Əli Vəliyevin, Rəsul Rzanın, S.Rüstəmin, Mirzə İbrahımovun, İmran Qasımovun, İshaq İbrahımovun, Abbas Zamanovun, Qulam Məmmədlinin, Ənvər Məmmədxanlının, Əliağa Kürçaylının, Bayram Bayramovun, Qasım Qasımzadənin, nə bilim, nə acı ki, saymaqla qurtaran deyil, ölümünə təəssüflənirəm.

Hələ o vaxtsız ölümləri demirəm... İlk növbədə, son dərəcə istedadlı şair – bənzərsiz şair Əli Kərimə təəssüflənirəm. Aramızda 12 il yaş fərqi olmasına baxmayaraq son dərəcə səmimi münasibətlərimiz vardı, 4 il eyni binada yaşamışıq, oturub yeyib-içməyimiz də olub, ədəbiyyat haqqında qızğın söhbətlərimiz də. Əli Kərimin yaradıcılığı ilə, onun istedadı ilə şəxsiyyəti üst-üstə düşürdü, bir-birini tamamlayırdı. Çox az danışırdı, amma yenə təkrar edirəm, çox səmimi bir adam idi.

Mən çox təəssüflənirəm istedadlı bir nasir olan Sabir Süleymanovun həyatdan vaxtsız, çox qəfil getməyinə. Onunla da çox yaxın münasibətlərimiz vardı. Sonra Fərman Kərimzadənin vəfatı, sonra İsi Məlikzadənin ölümü, sonra iddiasız bir adam olan Sabir Almazovun ölümü. İsi Məlikzadə bilirsən ki, mühəndis idi, amma öz sənətinin ardınca getmədi, bəlkə də getsəydi, firavan həyat keçirərdi, amma mühəndisliyi atıb «Ulduz» jurnalında işə girdi. Cavan olmasına baxmayaraq, İsi Yazıçılar İttifaqanın Rəyasət Heyətinə üzv seçilmişdi və biz o illərdə sevinirdik ki, bizim ədəbi nəsildən bir nəfər rəyasət heyətinin üzvüdür. Sabir Almazov da birdən-birə öldü, ölümündən sonra götürüb şerlərini oxudum və gördüm ki, doğrudan da, bu, gözəl şair imiş. Heyif ondan!

Daha bir qəfil, nakam ölümü xatırlayıram, çox da pərişan oluram. Fərid adında bir cavan var idi. Hekayələrini götürüb gəlmişdi yanıma, bu hekayələri oxudum və mənə maraqlı göründü, götürüb «Azərbaycan» jurnalına təqdim etdim, bir balaça söz də yazdım. Amma jurnalda hekayələri çıxmamış eşitdim ki, Fərid özünü öldürüb...

Sən bilirsən ki, mən Aydın Məmmədovla çox yaxın olmuşam, bir kursda oxumuşuq, sentyabrın 1-də tanış olduq, sentyabrın 2-də isə artıq dost idik. Onunla çox acılı-şirinli günlərimiz olub. Bu günün özündə də inana bilmirəm ki, Aydın Məmmədov dünyada yoxdur.

Araz Dadaşzadənin də, Yusif Səmədoğlunun da, Çingiz Ələkbərzadənin də vəfatı mənə çox ağır zərbə oldu. Yusif az yazsa da, həqiqi mənada istedad sahibi idi. Mən onu bir yazıçı kimi «Foto-fantaziya» hekayəsindən bəyənmişəm. Adam necə inansın ki, Rəfiq Zəka kimi şux təbiətli, koloritli bir adam indi həyatda yoxdu?

– Elçin müəllim, Allah bütün bu ölənlərə rəhmət eləsin, ruhları şad olsun, bircə təsəllimiz var ki, heç kim unudulmur, sizin adlarını çəkdiyiniz o istedadlı sənətkarları nə xalq, nə də tarix unudacaq.

İstərdim ki, yaradıcılıq psixologiyası ilə bağlı bəzi məqamlara toxunaq. Əsərlərinizi necə yazırsınız?

– Yaradıçılıq psixologiyası çox mürəkkəb bir aləmdir, mən deyərdim, son dərəcə fərdi bir prosesdir (hətta istəmişəm bu barədə bir kitab yazam).

Təsəvvür elə ki, bir romanı yazmaq üçün bütün qeydlər hazırdır, sadəçə olaraq oturub onu yazmaq lazımdır, yəni oturub yazmaq üçün vaxt lazımdır, amma bu vaxtı tapa bilmirsən. 77-ci ildə mən xəyalımda dolandırdığım belə bir romanı yazmaq üçün xüsusi olaraq yaradıcılıq evinə «putyovka» götürdüm. Gəldim yaradıcılıq evinə və fikirləşdim ki, daha hər şey hazırdır, bircə yazmaq qalır, 20 günə bu romanı yaza bilərəm. Oturdum birinçi gün nə elədimsə, birinci çümləni yaza bilmədim. Məndə də belə bir xasiyyət var ki, birinci cümlə (yəni mənim istədiyim birinci çümlə) yazılandan sonra hər şey rəvan gedir və çox sürətlə yazıram... Nə isə.. ikinci gün də oturdum və yenə o birinci çümlə yazılmadı. Əkbər Ruhi adlı əslən azərbaycanlı bir türkmən yazıçısı var idi, dedi bir düşək bufetə, bir-iki qədəh vuraq, ondan sonra yazacaqsan. Hərçənd, mən içki içəndə yaza bilmirəm, amma bunu da sınaqdan keçirdim, yenə alınmadı. Birdən-birə Şuşa yadıma düşdü, oradakı məşhur istirahət evini xatırladım, Şuşanın özünəməxsus təbiəti yadıma düşdü və mən qətiyyən hazırlaşmadan «Şuşaya duman gəlib» hekayəsini yazmağa başladım. Ondan sonra həmin yaradıcılıq evində-Dubultıda «Toyuğun diri qalması»nı yazdım. Heç

bu haqda da qətiyyən fikirləşməmişdim. Deməli, Dubultıda iki əsəri birnəfəsə yazdım. Halbuki, mən ora roman yazmağa getmişdim, amma o romanı yaza bilmədim.

O ki qaldı «Mahmud və Məryəm»ə...

Bu roman fikrimdə hazır idi, tarixi səpkidə olduğu üçün Şərq fəlsəfəsi ilə bağlı xeyli kitab oxumuşdum, «Dədə Qorqud»dan «Koroğlu»ya qədər bütün dastanları oxumuş, «Əsli və Kərəm»in bütün nəşrləri ilə tanış olmuşdum, romanın planı da beynimdə hazır,.. amma, yenə də oturub yaza bilmirdim, həmin o birinci cümlə alınmırdı. Ən azı 50 birinci çümlə yazmışdım, amma mən arzuladığım birinci cümlə olmadığı üçün ardı gəlmirdi.

Axşam oturmuşdum evdə, işıqlar da yanmırdı, birdən-birə yenə Şuşanın dağları, atamın danışdığı o xatirələr yadıma düşdü. Səhər durdum, gəldim İmran Qasımovun yanına. Dedim, mənə bir aylıq məzuniyyət ver (söhbət 81-ci ildən gedir). Birtəhər razı sala bildim. Musa Yaqub o zaman İsmayıllıda qəzet redaktoru idi, zəng elədim ona ki, gəlirəm İsmayıllıya. Amma xahiş elədim ki, mənə Talıstan kəndində bir ev kirayə elə, bir kənd evi olsun, oturacağam orda, özü də bundan heç kimin xəbəri olmasın, heç kimə də demirsən mən Talıstandayam. Özüm Füzuliyə, Şuşaya getmədim ki, qohum, dost-tanış çoxdu, gəlib arayıb-axtaracaqlar və beləliklə... Heç nə alınmayaçaq, İsmayıllıda Musa məni qarşıladı və əlbəttə, çox narazılıq elədi ki, mənim evim dura-dura niyə kirayə ev axtarırsan. Ancaq məni başa düşdü və dedi ki, bu kənddə bir traktorçunun evi var, onu bələdləmişəm. Gəldik o evə, çox qəşəng, gözəl həyəti vardı, ağacla dolu idi, bir alma ağaçı da var idi ki, üstündə almalarının sıxlığından budaqları yerə dəyirdi, lap çətirə oxşayırdı bu görkəmiylə. O ev sahibinin adı Əlləzi idi və biz tezliklə onunla dostlaşdıq, axırda elə oldu ki, məndən heç pul almadı. Bir stol qoydum ora, bir də makina. Gün çıxandan gün batana hər gün oturub «Mahmud və Məryəm»i yazmağa başladım. 18 günə, demək olar ki, birnəfəsə yazdım. Hətta elə olurdu yeməyə də getmirdim. Elə bil kimsə mənə diqtə edirdi və mən dayanmadan elə hey yazırdım. Ümumiyyətlə, mən bütün bədii əsərlərimi birnəfəsə yazmışam – birçə «Ölüm hökmü»ndən başqa. Tənqidi yazıları isə birnəfəsə yazmaq mümkün deyil, bunu özün bilirsən. Çox vaxt hər hansı bir əsərin süjetini heç fikirləşməmişəm. Məsələn, «Baladadaşın ilk məhəbbəti»ni yazanda onun süjeti mənə bəlli deyildi, təsəvvürümdə canlandırmamışdım, yalnız maki-

nanın arxasında oturanda başladım yazmağa. Bəzi başqa hekayələrim də belə. Və hansı şəraitdə yazmağımın da mənim üçün bir elə fərqi yoxdur. Yazıçı var ki, onun məxsusi yazı stolu var, ondan başqa heç harda yaza bilmir. Yazıçı var ki, ideal sakitlik olanda yazır. Mənim üçün isə bütün bunların elə bir mənası yoxdur. Mən təyyarədə də yazmışam, adi bir stol arxasında da... bir sözlə, harda gəldi.

– Siz Yazıçılar İttifaqının katibi və «Vətən» Cəmiyyətinin sədri işləmisiniz, indi də Baş nazirin müavini. Bunların hər biri məsul vəzifələrdir və bu məsul vəzifələr yazıçı Elçini, vaxt mənasında seytnota salmayıb ki?

– Mən işləyən yazıçıyam və bu mənada hansı vəzifədə olur-olsun, bir yazıçı və tənqidçi kimi «işlək» olmuşam, heç bir vəzifə və bu vəzifənin mənim üçün məhdudlaşdırdığı vaxt mütləq bir təsiredici faktora çevrilməyib.

– Söhbət ki, vəzifədən düşdü, bir sual da yerinə düşür: yazıçı var ki, keçir vəzifəyə, bu vəzifənin onun insani keyfiyyətlərinə hardasa mənfi təsiri də olur, əldə etdiyi kreslo və kabinetlə o qədər qürrələnir ki, hətta ən yaxın dostlarına belə üz çevirir, sanki həmin adam deyilmiş. Get-gedə karyerizm onun şairliyini, yazıçılığını da əlindən alır. Bu mənada Baş nazirin müavini Elçində bir dəyişiklik əmələ gəlibmi?

– İnsani çəhətdən dəyişilib-dəyişilmədiyimi mənimlə ən yaxın ünsiyyətdə olan adamlardan biri kimi sən bilirsən. Güman edirəm ki, sən deyən mənada məndə heç bir dəyişiklik yoxdur. Bu vəzifəyə gəlməmişdən qabaq hansı Elçin idimsə, indi də həmin Elçinəm. Və bu vəzifədən gedəndən sonra da həmin Elçin olacağam.

Özün bilirsən ki, Baş nazirin müavini çox ciddi vəzifədir, burada elə məsələlər meydana çıxır ki, o məsələlərin yazıçılığa heç bir dəxli yoxdur. Amma mən bu vəzifədə işlədiyim 5 il ərzində 6 komediya yazmışam, «Aşıq poeziyasında «Dünya» obrazı» monoqrafiyamı çap etdirmişəm, vaxtilə Ü.Hacıbəyov haqqında yazdığım monoqrafiyanı başa çatdırmışam, N.Nərimanov və M.Ə.Rəsulzadə haqqında kitabça yazmışam, dövrü mətbuatda neçə-neçə məqalə çap etdirmişəm...

– Elçin müəllim, sizin hekayə və povestlərinizdə, eləçə də «Mahmud və Məryəm» romanında sevgini, bu ali insan hissini

təsvir edən səhnələr çox təsirlidir, bunları, ancaq o sevgini yaşayan, duyan insan qələmə ala bilər. Sevgiyə münasibətiniz?

– Mənim aləmimdə həyat məhəbbət deməkdnr, dünya, kainat eşq ilə yaşayır. Allahın çox adı var və mənə elə gəlir ki, o adlardan biri də böyük hərflə yazılan Məhəbbətdir. Sənin bu sualına ağlamalı cavab verə bilməyəçəyəm.

– Böyük sevgi ilə yaşayanlar musiqini, muğamı çox sevirlər...

– Rəhmətlik Məmməd Cəfər müəllimin bir sözü var idi. Deyirdi ki, evə gec gəlirsən, girirsən yerinə, uzanırsan, çevrilirsən o yan-bu yana, yuxuya gedə bilmirsən və sanki içində bir filosof boylanır, başlayır deməyə ki, ay Məmməd Cəfər, bayaq o nə idi elədin, o işi niyə elədin, nəyə görə, nə səbəbə. Deyir, deyir, səni atəşə tutur və sən də söz verirsən ki, daha eləməyəcəyəm, beləliklə, danışa-danışa yuxuya gedirsən. Səhər durursan və o filosof da yox olur, bir də axşam gəlir. İndi məndə də, içimdən o filosof boylananda, bir müğamat ovqatı yaranır mənim üçün: Hacıbaba Hüseynovun «Rast»ı, Rübabənin «Humayun»u, Sara Qədimovanın «Qatar»ı, Şövkətin «Segah»ı, Yavər Kələntərlinin «Simayi-Şəms»i, Fatmanın «Kəsmə şikəstəsi», Seyidin «Heyratı»sı, Zülfü, Həqiqət...

– Bəs o aləmdə Alim Qasımovun yeri yoxdu?

– Bilirsən, Vaqif, Alim çox gözəl sənətkardır, amma onun yolu məni açmır. Ola bilər, səhv edirəm. Baxışından görürəm ki, sən başqa fikirdəsən, mənimlə razılaşmırsan.

– Elədir, Elçin müəllim.

– Nə olar, demokratiyadır, Vaqif.

– Söhbət ki, demokratiyadan düşdü, biz bu sözü çox işlədirik, amma sözün əksi olan antidemokratiya halları da baş alıb gedir.

– Demokratiya elə bir şey deyil ki, onu küçədən tapıb cibinə qoyasan. Hər şey tədricən olmalıdır...

– Elçin müəllim, söhbətə başlamamışdan əvvəl dediniz ki, bu gün nəvənizin ad günüdür. Təbrik edirəm. Yəqin ki, o ad günündə bütün ailə üzvləriniz iştirak edəcək.

– Sual verməsən də hiss edirəm ki, bununla oxuculara ailəmiz haqqında informasiya vermək istəyirsən. Çox gözəl! Bu fani dünyada iki qardaşıq – mən, bir də qardaşım – İnçəsənət İnstitutunun rektoru, professor Timurçin Əfəndiyev. Onun iki oğlu, bir

qızı var. Mənim həyat yoldaşım sənətşünasdır, müsiqiçidir, onun «Şekspir pyeslərinə Q.Qarayevin musiqisi» adlı monoqrafiyası çap olunub. 3 qızım var: Günay, Humay, Aysu. Humay dünyaya gələndə rəhmətlik Yusif Səmədoğlu zəng vurub təbrik elədi. Zarafatla dedim Yusifə ki, düşdüm sənin gününə. Dedi ki, evdə kişi bir nəfər olar! Yəqin bilirsən ki, Yusifin də 2 qızı var. Böyük qızım Günay Bülbül adına musiqi məktəbini qızıl medalla bitirib, sonra tibb universitetini qırmızı dipomla bitirdi. Hekayələr yazır. Ailəlidir. İkinçi qızım Humay da musiqi təhsili alıb. İki ali təhsili var, BDU-nun Beynəlxalq hüquq fakultəsini əyani bitirib, qiyabi isə Qərb Universitetinin Politologiya fakültəsini. Hər ikisini qırmızı diplomla. Bunların arasında 10-12 yaş fərqi var. Aysu isə orta məktəbdə oxuyur.

– Elçin müəllim, bax bu saat biz XX əsrin son günlərindən birini yaşayırıq. Siz özünüzü XXI əsrdə necə görürsünüz?

– Mən özümü XXI əsrdə XX əsrdən qalmış, XX əsrin adamı olan bir insan kimi görür və hiss edirəm. Həyat sürprizlərlə doludur, amma mən heç vaxt XXI əsrin adamı olmayacağam. Allah lazım bilsə, XXI əsrdə də yaşayacağam, amma XXI əsrdə yaşaya-yaşaya XX əsrin adamı olub qalacağam. Bax bu gün – 22 fevral 1999-cu ildə mənim nəvəm balaca Eldarın 2 yaşı tamam olur, XXI əsrin adamı odur.

*Müsahibəni Vaqif Yusifli apardı.*
*1999.*

## «VİLAYƏT QULİYEV QEYRƏTLİ VƏTƏNDAŞDIR»

*(«525-ci qəzet»in suallarına cavab verən xalq yazıçısı Elçin əmindir ki, yeni xarici işlər naziri heç bir təslimçi sənədə imza atmaz.)*

*Son günlər Qarabağ probleminin həlli, Tofiq Zülfüqarovun xarici işlər naziri vəzifəsindən istefası və Vilayət Quliyevin bu vəzifəyə təyin olunması ilə bağlı mətbuat səhifələrində xeyli söz-söhbət gəzməkdədir. Bəzi mətləblərə aydınlıq gətirmək məqsədilə Vilayət Quliyevi yaxından tanıyan xalq yazıçısı Elçinin bu məsələlərə münasibətini öyrənmək qərarına gəldik.*

– Elçin müəllim, bizdə olan məlumata görə, Siz Vilayət Quliyevi yaxından tanıyırsınız, onunla səmimi münasibətiniz var və ümumiyyətlə, deyilənə görə, Siz Vilayət Quliyevin ədəbi taleyində də rol oynamış adamsınız.

– Bəli, Vilayət Quliyevi mən yaxından tanıyıram, onunla uzun illərdən bəri, həqiqətən, səmimi münasibətimiz var. O ki, qaldı əhli-qələmin ədəbi tale məsələsinə, burada həlledici rolu şübhəsiz ki, onun öz qələmi oynayır. Vilayət bizim zəhmətkeş, daima öz üzərində işləyən, səriştəli və istedadlı bir ədəbiyyatşünas, tənqidçi, publisistimizdir. Vilayət Quliyev indiyə qədər nə əldə edibsə, bu həmin zəhmətin və istedadının nəticəsidir. Beyləqanın Şahsevən kəndində boya-başa çatmış bu adam, öz gücünə Bakıda ali təhsil alıb, rus və ingilis dillərini mükəmməl öyrənib, aspirantura qurtarıb, namizədlik və doktorluq müdafiə edib, monoqrafiyalar, yüzlərlə məqalələr, ingilis və rus orijinallarından bir çox tərcümələr çap etdirib. Bu gün onun sözü yalnız filologiyamızın yox, güman edirəm ki, ümumiyyətlə, ictimai fikrimizin ifadəsi səviyyəsindədir. Vilayət, eyni zamanda, passiv alim olmayıb, son onilliyin çətin siyasi-ictimai imtahanlarına məruz qalıb, bir vətəndaş kimi az iş görməyib. Mən, az qala, iyirmi ildir Vilayət Quliyevi qeyrətli bir vətəndaş kimi tanımışam. Daxili mədəniyyəti, dünyagörüşünün əhatəliliyi, Qərbi də, Şərqi də yaxşı tanıması, Azərbaycan Demokratik Respublikasının tarixinə yaxından bələd

olması, onun aqibətindən də nəticə çıxarmağı bacarması, yüksək intellektual səviyyəsi, dilləri bilməsi, ən mühüm görüşlərdə belə fikrini dəqiq ifadə etməsi Vilayətin üstün cəhətləridir.

– Siz deyirsiniz ki, V.Quliyev görkəmli filoloqdur. Bəs filoloqun xarici işlər naziri təyin olunmasına necə baxırsınız?

– Çox təbii baxıram, onun bu təyinatını layiqli və indiki siyasi-ictimai gedişat məcrasında xeyir verə biləcək hadisə hesab edirəm. Təcrübə işlə əldə olunur. Əsas məsələ odur ki, sən hansı təfəkkürün, hansı şüurun, dünyagörüşün, savadın, xarakterin sahibisən. Bu mənada, təkrar edirəm, Vilayətin təyinatını mən beynəlxalq vəziyyətin indiki mürəkkəb məqamı konteksində müsbət hadisə hesab edirəm. Deyirsiz ki, axı, o filoloqdur. Bəli, filoloqdur. Nə olsun? Bizim Türkiyədəki səfirimiz Məmməd Əliyev bu vəzifəyə təyin olunanda fizik idi, amma bu gün Azərbaycana fayda gətirən, Türkiyə hakim dairələrində, ictimaiyyətində hörmət qazanmış, sayılan bir diplomatdır və mən onun bacarığının, hörmət-izzətinin dəfələrlə şəxsən şahidi olmuşam. Bu cür misalları tarixdən də, müasir dövrdən də çox gətirmək olar. Bu gün Oljas Süleymenov Qazaxıstanın İtaliyada səfiridir. Və sairə. Yəni ədəbiyyat, filologiya diplomatiyaya zidd olan bir şey deyil.

– Ancaq siz də razılaşın ki, bu gün Azərbaycanın Qarabağ yarasına görə Vilayət Quliyevin tutduqu vəzifənin əhəmiyyəti böyükdür.

– Mən Vilayətin təyinatı və ümumiyyətlə, Qarabağ ətrafında gəzən söz-söhbətlə bağlı narahatlığı yaxşı başa düşürəm, hətta, nəinki başa düşürəm, mən bu narahatlığı yüksək qiymətləndirirəm. Bu narahatlıq o deməkdir ki, cəmiyyətdə tutduğu mövqedən, dünyagörüşündən, yaşından və peşəsindən asılı olmayaraq millət üçün Qarabağ məsələsi taleyüklü bir məsələdir. Ancaq narahatlıq başqa şeydir, böhtan atmaq, dedi-qodu ilə məşğul olmaq, bəzi mətbuat səhifələrində zəqqutun dolu kompaniyaçılığa başlamaq, şəxsi-qərəzlik etmək, bilərəkdən gözdən salmağa cəhd etmək başqa şeydir. Siz bunu sırf insani baxımdan təsəvvür edin: yeni nazir səhər tezdən işə gəlir, sənədləri öyrənməzdən, mühüm görüşlərə, mühüm hadisələrə hazırlaşmazdan, öz aparatının təxirəsalınmaz işləri ilə məşğul olmazdan əvvəl qəzetlərə yol tapmış şayiəçiliyin, qərəzçiliyin, qeyri-obyektivliyin yüksək dozalı zəhəri ilə («Təslimçi tapıldı!», «Qoymayın, xalqın əleyhinə olan sə-

nədlərə imza atır!» və s.) zəhərlənir... Necə bilirsiz, hər birimiz üçün son dərəcə məsuliyyətli bu günlərdə, həqiqətən, sınaq günlərində Vilayət Quliyevə göstərilən bu «xidmət» bizim çox xeyrimizədir? Mən yüz faiz inanıram ki, Vilayət Quliyev heç bir təslimçi sənədə, Azərbaycan xalqının mənafeyi əleyhinə hansısa bir sazişə imza atmayacaq. Əksinə, bu dedi-qoduların, bu şayiəçiliyin yaranmasının və mətbuata yol tapmasının, bu ajiotajın özü xalqın mənafeyinin əleyhinədir. İkinci və mənim üçün çox vacib olan bir tərəfdən isə, bu cür qərəzçilik, «sən bizdən deyilsən, ona görə də biz belə edirik» prinsipinə dirsəklənərək qələmi qara mürəkkəbə batırmaq əks tərəfdə də nifrət hissi oyadır. İndi mən sizdən soruşuram, məkrli düşmənlə üzbəüz dayandığımız bir məqamda millət daxilində, yəni öz içimizdə belə bir qarşılıqlı nifrət toxumunun səpilməsi, hər vəchlə o toxumu cücərtməyə çalışmaq kimin xeyrinədir?

– Axı, xalq Qarabağın taleyindən nigarandır. Sizə elə gəlmirmi ki, dediyiniz o dedi-qodunun, şayiəçiliyin əmələ gəlməsinə həmin nigarançılıq hissi də şərait yaradır?

– Mən indiki halda məsələni bir az başqa cürə qoyardım. Bu nigarançılıq var və şübhəsiz ki, böyük bir nigarançılıqdır. Amma Vilayətin təyinatı ilə bağlı o dedi-qoduların, əsassız mülahizələrin, «yozmaların» meydanda at oynatması həmin nigarançılıq hissiyyatından sui-istifadə etməkdir. «Nəyin bahasına olursa olsun, imkan düşüb, çirkab ataq!» – belə bir ictimai əxlaq göstəricisi bizi uzağa apara bilməz.

– Elçin müəllim, Sizin özünüzün Qarabağla bağlı aparılan danışıqlara münasibətinizi bilmək maraqlı olardı.

– Mən də, mənim atamın ruhu da hər birimiz kimi, böyük narahatlıq və nigarançılıq içindəyik. Bu məlum məsələdir ki, Azərbaycanın siyasətini Azərbaycanın prezidenti müəyyən edir. Mən uzun illərdən bəri bunu dəfələrlə müşahidə etmişəm ki, Qarabağla bağlı Heydər Əliyev tarix qarşısındakı məsuliyyətini dərindən dərk edən bir adamdır. Bu məsuliyyət hissini o özü də dəfələrlə qeyd edib və mən bütün varlığımla inanıram ki, H.Əliyev heç bir təslimçi sənədə imza atmaz. Mən bunu mümkün bir şey hesab etmirəm. Başa düşürəm ki, bu məsələ həll olunmalıdır və bu məsələnin bizim üçün məqbul olmayan həlli ilə bağlı böyük təzyiqlər də mümkündür, ancaq qəti inanıram ki, bütün bu təzyiq-

lərə sinə gəriləcək. Və mən sizin verdiyiniz bu fürsətdən istifadə edib Vilayət Quliyevə Vətən qarşısında, xalq qarşısında, tarix qarşısında çox ağır, çox mühüm işində uğurlar arzulayıram.

*Söhbəti Turqut yazdı*
*1999.*

# RƏSMİ İDEOLOGİYANIN BUXOVLARINI QIRDIQ

## ...VƏ TRAKTORUN, KOLXOZUN YERİNƏ ƏDƏBİYYATA İNSAN MÖVZUSUNU GƏTİRDİK

Zamanla əbədi mübarizə aparanlar içərisində Ədəbiyyat bəlkə də ən inadkarı və mübarizidir. Ara-sıra zamanın buyruqlarına qul olsa da, Böyük Ədəbiyyat gec-tez sözünü deməyi bacarır. Özü də bu sözü daha yaxşı eşidirlər. Nəinki başqasını...

Yəqin elə bu səbəbdəndir ki, «çərxi-fələyin tərsinə dövran etdiyi zamanlarda daha çöx tutarlı söz sahiblərinə, onların mülahizə və məqalələrinə ehtiyac duyulur. Bu ehtiyac ödənilmədikdə isə qınaq obyektinə çevrilir onlar. Bugünkü kimi...

Baş nazirin müavini, xalq yazıçısı Elçinlə də görüşmək istəyimiz məhz bu ehtiyacdan yarandı...

### MÜHİT MƏNİ YAZIÇI ETDİ

– Bu gün «Yeni Azərbaycan»ın oxucusu ilə görüşmək, ictimai-ədəbi proseslər barədə fikir yürütmək üçün hansı müsahib daha çox hazırdır? Yazıçı Elçin, yoxsa baş nazirin müavini Elçin Əfəndiyev?

– Baş nazirin müavini Elçin Əfəndiyev müstəqil Azərbaycanın quruculuğunda, dövlətçiliyimizin möhkəmlənməsində bilavasitə iştirak edən adamdır. Elçin isə yazıçıdır. Mən həm Elçin, həm də baş nazirin müavini Elçin Əfəndiyev kimi özümü hər mənada hazırlıqlı və rahat hiss edirəm.

– Onda ilk növbədə Sizinlə yazıçı kimi söhbət edək...

– Buyurun.

– Q.Q.Markes deyir ki, mən cəsarətsizliyim üzündən yazıçı oldum. Bəs, Siz niyə məhz yazıçılığı seçdiniz? Bu, doğulub, böyüdüyünüz mühitdən irəli gəlir, yoxsa başqa səbəblər də var?

– Markesdən fərqli olaraq, deyə bilmərəm ki, mən nə üçün yazıçı oldum. Şübhəsiz ki, yazıçı olmağımda mühitin böyük rolu olub. Çünki özümü tanıyandan kitaba, yazı-pozuya həvəsli olmuşam. Yadıma gəlir ki, uşaqlıq çağlarımda xalq nağılları adı ilə özümdən nağıllar uydurub yoldaşlarıma danışardım. Yazdıqlarımı

da ilk dəfə nənəmə danışardım. Deməyim odur ki, lap uşaqlıqdan özümü ədəbiyyat adamı kimi hiss etmişəm.

– Ədəbiyyatımızda belə bir anlayış var; 60-cı illlər nəsli...

– Bəli.

– Siz də bu nəslin təmsilçilərindənsiniz. Yəqin özünüz də hiss etmisiniz ki, bu nəslin yaradıcılığına bu gün təzadlı münasibət mövcuddur. Bu yaxınlarda Kamal Abdulla qəzetimizə verdiyi müsahibəsində deyir ki, 60-cı illər ədəbiyyatı nümayəndələrinin yaradıcılığı o dövrdə Biləcəridən, indi isə Türkiyədən o tərəfə getmir. Yaxud belə bir fikir də var ki, o illər ədəbiyyatı əsl azərbaycanlı, əsl ziyalı yetişdirməyi bacarmadı, özündə daha çox kosmopalitizm və erotizm elementlərini təcəssüm etdirdi. Sizlər Azərbaycan ədəbiyyatına nə verdiniz?

– Əgər dostum K.Abdulla deyirsə ki, 60-cı illərdə Azərbaycan ədəbiyyatı Biləcəridən, indi isə Türkiyədən o tərəfə getmir, çox təəccüblüdür. Əvvəla Türkiyə Biləcəri deyil. İkincisi də, o nəslin nümayəndələri haqqında 70-80-cı illərdə aktiv yazanlardan biri də elə Kamal Abdulladır. 60-cı illər nəsli Azərbaycan ədəbiyyatına heç nə vermədi sözlərini adi bir oxucu desəydi, bu məni yəqin təəccübləndirməzdi. Çünki oxucunun fikri adi fərdin fikridir. Əhli-qələm, tənqidçi Kamal Abdullanın fikri isə fərdin fikrindən seçilməlidir. Hər halda, bu məsələ mənim üçün maraqlı olduğuna görə, K.Abdulla ilə söhbət edəcəm, görüm, o, hansı ədəbiyyat axtarışları nəticəsində bu qənaətə gəlib. O ki, qaldı 60-cı illər nəslinə, bununla paralel həm də 60-cı illər ədəbiyyatı var. Bunlar bir-birləri ilə nə qədər yaxındırlarsa, bir o qədər fərqlidirlər. Bu nəsil 60-cı illərdə ədəbiyyata gəlib və 70-80-cı illərdə özünü tam təsdiq edib. 60-cı illər ədəbiyyatı dedikdə isə söhbət yalnız «60-cılar yaradıcılığından getmir. Burada məsələnin ehtivası daha genişdir. O dövrdə Azərbaycan ədəbiyyatında müxtəlif nəslin nümayəndələrinin dəyərli əsərləri çap olundu. Bu proses təkcə nəsrdə deyil, həm də poeziya və dramaturgiayada da gedirdi.

**60-CI İLLƏRDƏ BİLƏCƏRİDƏN UZAQLARDA DA TANINIRDIQ**

– Bəs, «60-cıların» ədəbiyyatımıza töhfəsini konkretləşdirsək...

– Konkret olaraq 60-cı illər nəsli ədəbiyyatımıza küll halında

böyük və istedadlı «ədəbi zümrə» verdi. O dövrdə Azərbaycan ədəbiyyatı sovet ədəbiyyatının bir hissəsi idi. Və rəsmi ideologiya da ədəbiyyatdan insan əvəzinə traktorun, xam torpaqlarda qarğıdalı yetişdirilməsinin, SES-in «bədii inikasını» tələb edirdi. Yəni, ədəbiyyat rəsmi ideologiyanın təsiri və təhriki altında öz qəhrəmanını insan əvəzinə traktor, MTS, kolxoz, plan etmişdi. Amma bu, bütün yazıçılara aid deyildi. İstedad bu buxovları qırırdı. 60-cı illər nəsli isə küll halında bu tendensiyaya qarşı çıxdı. Bu nəsil insan mövzusunu ədəbiyyata bərpa etdi. Çünki ədəbiyyatın predmeti insanın hissi, həyəcanı, daxili aləmi, xislətidir. Bu mənada 60-cı illər nəsli Azərbaycan ədəbiyyatında çox ciddi bir iş gördü və sovet ideologiyasının tələbləri üzərindən Mirzə Cəlil, Axundov ənənələrinə sadiq qaldı. Yenə də deyirəm, 60-cı illərdən əvvəl də ədəbiyyatımızda istisnalar olub, görkəmli əsərlər yaranıb. Bunlara birmənalı yanaşmaq, 20-30-40-cı illər ədəbiyyatının üstündən xətt çəkmək olmaz.

– Sizcə, «60-cıların» hamısına qəhrəman kimi yanaşılmalıdı?

– Ümumiyyətlə, heç bir yazıçıya qəhrəman kimi yanaşmaq lazım deyil. O dövrdə istedadsız yazıçılar da vard ki, onlar mövzu arxasında gizlənir və hakim ideologiyanın dediyini yazırdılar. Onların da qəhrəmanı yuxarıda dediyim kimi, MTS, plan olurdu. Onlar mükafatlandırılır, deputat seçilir, əsərləri dərsliklərə salınırdı. Bununla yanaşı, həqiqi ədəbiyyat da addımlayırdı. Bu hal təkcə Azərbaycanda yox, digər respublikalarda, rus ədəbiyyatında da müşahidə olunurdu. O ki, qaldı əvvəlcə verdiyiniz sualda qeyd edilən, kosmopalitizm və erotizmə, bunu eşitməmişdim. İndi eşitdim...

– Məsələn, Anarın yaradıcılığında bu cərəyanlar aydın görünür.

– Yazıçı hər şeydən yaza bilər. Amma demək ki, 60-cı illər ədəbiyyatının nümayəndələri ancaq erotikadan yazıb-yaradıb, bu çox gülünc və mənasızdır.

– Elçin müəllim, necə fikirləşirsiniz. 60-cı illər nəsli ədəbiyyatımıza «Böyük ədəbiyyat» anlayışını gətirə bildimi?

– «Gətirdi» sözü bir qədər dəqiq ifadə deyil. Çünki Azərbaycan ədəbiyyatının özü həqiqi ədəbiyyatdır. Həqiqi ədəbiyyatdan söhbət gedəndə, konkyunkturalar kənara çəkilir və olsun ki, say etibarilə çox az bir şey qalır, amma ədəbiyyatdan xəbər verən mənzərə yaranır. Axı 60-cı illər nəsli birdən-birə gəlib demədi ki,

mən varam və «Böyük ədəbiyyat» yaradıram. Məsələyə bu cür yanaşmaq düzgün deyil.

– Amma, hər halda, 60-cı illər ədəbiyyatı özündə nə qədər «Böyük ədəbiyyat» anlayışını ehtiva etsə də, bu böyüklüyü ancaq biz tanıdıq, biz dərk etdik...

– Güman edirəm ki, çox ciddi səhvə yol verirsiniz.

– Niyə?

– Əgər Siz 70-80-cı illər Ümumittifaq mətbuatına baxsaydınız, yəqin ki, belə fikirləşməzdiniz.

– Bu sualı verəndə biz ədəbiyyatımızın dünya miqyasında təmsil olunmadığını nəzərdə tuturduq.

– Əvvəla keçmiş İttifaq dünyanın yarısı idi. Vaxtilə «Literaturnaya qazeta»da, az qala, həftədə bir dəfə mənim yazım dərc olunurdu. Çalışırdım ki, Azərbaycan ədəbiyatını Ümumittifaq və dünya səviyyəsində mümkün qədər təbliğ edim. Mənim haqqımda rus yazıçılarından Lev Anninski , Yevgeni Şklovski və başqaları yazırdı. Eyni zamanda, nə qədər əsərlərimiz xarici dillərə tərcümə olunurdu və bu gün də olunur. Özümdən götürək. Son on ildə xaricdə 30 kitabım çap olunub. Və bu 30 kitabdakılar son on ildə yox, ondan əvvəl yazılıb. Biz özümüzə qapanıb qalmamışıq və ədəbiyyatımız da 60-cı illərdə Biləcəridən çox uzaqlara gedib.

**MƏŞHURLAŞMAQ İMKANIM MARKESLƏ EYNİ DEYİL**

– Elçin müəllim, gəlin belə bir müqayisə aparaq. Dünyanın kiçik ölkələrindən olan Kolumbiyadan bu gün bütün dünyanın oxuduğu Markes çıxdı. Amma biz yaradıcılığına dönə-dönə müraciət etdiyimiz, dahiliyi qarşısında baş əydiyimiz M.Ə. Sabirimizi Markes kimi tanıda bilmədik...

– Bu, məsələyə düzgün yanaşmaq tərzi deyil. Əvvəla hər bir yazıçıya öz xalqının tarixi və taleyi kontekstindən yanaşmaq lazımdır. Biz də Mirzə Ələkbərə qiymətimizi onun Azərbaycan xalqının tarixində, ictimai fikrində və mənəviyyatında oynadığı rolla müəyyənləşdirməliyik. İnanıram ki, Kolumbiyada Markesdən başqa tanımadığımız yazıçılar da var. Və onlar da öz xalqının tarixi, taleyi, mənəviyyatı kontekstində qiymətləndirilir. Üzeyir Hacıbəyov kimdir? Kim hesab edirsiniz onu?

– Azərbaycan xalqının böyük və dahi sənətkarı.

– Onu layiq olduğu dərəcədə Amerikada tanıyırlarmı?

– Yox.

– Əgər tanımırlarsa, deməli, Ü.Hacıbəyovun qiyməti aşağı düşür? Gördüyünüz kimi, həyatda heç kim heç kimi əvəz etmir. Çünki böyüyündən, kiçiyindən asılı olmayaraq hər hansı yazının deyə biləcəyini bir başqası deyə bilmir. Markes məndən yaxşı yazar, yüksək bədii, estetik səviyyəli əsərlər yaradar, amma mənim dediyimi heç vaxt deyə bilməz. Elçinin dediyini yaxşı-pis ancaq o, özü deyə bilər. Braziliya Kolumbiyadan böyük ölkədir. İnsi Siz mənə bir müasir Braziliya və yaxud da Çin yazıçısının adını çəkə bilərsinizmi? Bu, o deməkdir ki, Braziliyada, Çində ədəbiyyat, yazıçı yoxdur? Bəli, Kolumbiyadan Markes çıxdı. Və nəzərə alın ki, Markeslə Elçinin məşhurlaşmaq imkanı eyni deyil. Markes ispan dilində yazardı və bu dilin auditoriyasını nəzərə alsaq onun əsərlərini əvvəlcə başqa dilə tərcümə etmək zəruri deyildi. Amma Elçin, Anar, Əkrəm Əylisli Azərbaycan dilində yazırdı. Sonralar rus dilinə tərcümə olunurdu, yalnız bundan sonra başqa dillərə. Sabir kimi dahini biz lazımi səviyyədə tərcümə edib dünyaya təqdim edə bilməmişik.

– Elə əsas problem də budur...

– Bəli, nə üçün Sabir ingilis dilinə tərcümə olunmayıb? Ona görə ki, Sabiri orijinaldan tərcümə edəcək, ingilis tərcüməçisi yoxdur. Biz də o səviyyədə tərcüməçi yetişdirməmişik ki, Sabiri ingiliscəyə çevirə bilsin. Vaxtilə rus şairi Vasilyev Sabiri rus dilinə tərcümə etmişdi. Lakin bu tərcümə Sabirin yüzdə biri idi. Uzun sözün qısası, onu demək istəyirəm ki, bu nöqteyi-nəzərdən yazıçıları bir-birinə qarşı qoymaq və məsələyə «niyə dünya ədəbiyyatına Kolumbiya Markes kimi dahini verib, ancaq Azərbaycan dünya səviyyəsinə heç kimi təqdim edə bilməyib» prizmasından yanaşmaq düzgün deyil.

– Hər halda, «60-cılar» Azərbaycan ədəbiyyatında mövcud olan zərərli stereotipləri kənara qoyaraq ədəbi çevriliş etdi...»

– Zərərli stereotiplər deyəndə nəyi nəzərdə tutursunuz?

– O şeyləri ki, biz onları ictimai və ədəbi fikirdə zərərli tendensiyaların yaradıcısı kimi qəbul edirik. Yəni sovet ideologiyası ədəbiyyatdan yalançı qəhrəmanlar düzəltməyi tələb edirdi. Sizlər isə qəhrəmanlarınızı dediyinizə görə, həyatdan gətirdiniz...

– Bunlara da birmənalı yanaşmayın. Rus-sovet ədəbiyytının generallarından biri Babayevski idi. 10-a qədər Stalin mükafatı almışdı. «Kovaler Zolotoy zvezdı» əsəri əl-əl gəzirdi. İndi o

əsərdən heç nə qalmayıb. Ona görə ki, istedadsız yazıçı idi, mövzu arxasında gizlənmişdi. Eyni zamanda, sovet ədəbiyyatının generallarından biri də Şoloxov idi. Şoloxov XX əsrin ən böyük yazıçılarından, «Sakit Don» isə əsrimizin ən samballı romanlarından biridir. Çox istərdim ki, sizin kimi cavanlar bu tipli məsələlərə birmənalı yanaşmasınlar.

– Ümumiyyətlə, biz cavanlar, məsələyə hansı aspektdən yanaşırıq ki?

## II

## «BU GÜNÜN İSTEDADSIZLARI ŞƏHİD MÖVZUSUNUN ARXASINDA GİZLƏNİR»

### GƏNCLƏRİN ƏDƏBİYYATDA İMKANLARI iddiaları İLƏ TƏZADDIR

– Bir haşiyə çıxım. Baxmayaraq ki, işim çoxdur. Vaxtlm azdır. Universitetdə həm də professor kimi dərs deyirəm. İstəyirdim ki, cavanlarla təmasda olum, onların fikirləri, istəkləri mənim üçün maraqlı idi. Ancaq deyim sizə, rəncideyi-hal oldum. Cavan filoloqlarımız çox az oxuyurlar, onların iddiaları daha böyükdür, nəinki imkanları. Komiklik - iddia ilə imkan arasındakı təzaddır. «Məşədi İbad» da Sərvər Gülnazı sevəndə heç kim gülmür, ancaq Məşədi İbad Gülnaza deyəndə ki, mən səni sevirəm, hamı qarnını tutub gülür. Çünki Məşədi İbadın iddiası ilə imkanı arasında təzad var. Təəssüf ki, mən mətbuatda bəzən gənclərin ədəbiyyat haqqındakı fikirlərini oxuyuram və görürəm ki, onların söylədikləri, imkanla iddia arasındakı təzaddan başqa bir şey deyil.

– Sizə elə gəlmirmi ki, bu gün Azərbaycan ədəbiyyatında söz, üslub, bütövlükdə ədəbiyyat davası yox, fərdlərin mübarizəsi gedir?

– Güman edirəm ki, məsələni dramatikləşdirmək lazım deyil. Bəli, müasir Azərbaycan ədəbiyyatında ədəbi proses, ədəbiyyat mücadiləsi yox dərəcəsindədir. Amma inanıram ki, ədəbi prosesin yoxluğu da müvəqqəti bir şeydir.

– Elçin müəllim, gəlin bir məqamı da unutmayaq ki, bu gün Azərbaycan ədəbiyyatında özünü təsdiq etmiş, sözünü demiş

fərdlər arasında şəxsi motivli mübarizə gedir. Məsələn, Əkrəm Əylisli ilə Anar arasındakı narazılıq və bu sıraya Sizin də adınızın əlavə olunması zərurəti nədən yaranıb? Maraqlıdır, nə üçün Azərbaycan ədəbiyyatında ədəbi çevriliş edən «60-cılar» bu gün yola getmirlər?

– Əvvala bu məsələni problem kimi müzakirə etmək lazım deyil. Əkrəm də, Anar da, Elçin də yazıçıdırlar. Həm də insandırlar. Və bəzən arada yaranan umu-küsüləri təbii qarşılamaq lazımdır. Bəzən qardaş da qardaşdan küsür. İstəməzdim ki, bu münasibətlər mətbuata çıxarılsın. Amma onu deyə bilərəm ki, bunun təqsiri nə Anarda, nə də məndədir.

– Münasibətlərin pisləşməsində birbaşa ittihamlar var. Məsələn, Anar haqqında deyirlər ki, onun yaradıcılığı yalnız cızma-qaradan ibarətdir. Bu baxımdan Sizə qarşı da müəyyən ittihamlar irəli sürülür...

– Nə deyirlər?

– Deyirlər ki, Elçin kitablarının keyfiyyəti ilə yox, kəmiyyəti ilə öyünə bilər.

– Son on ildə çap olunmuş 30 kitabı gördünüz. Onlar dünyanın müxtəlif ölkələrində çap olunmuş «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanlarıdır. Burada hansı kəmiyyətdən söhbət gedə bilər? Anar haqqında da elə fikirlər söyləmək ayıbdır.

**YAZIÇILAR İTTİFAQININ SİMASI DƏYİŞİB**

– Söhbətin məğzi yazıçılar arasında yaranmış şəxsi inciklikləri doğuran amillərdir. Sizcə, bu qısqanclıq qarşı tərəfin iddialarını ödəyə bilməməzliyindən irəli gəlir, yoxsa bu, tərəfinizdən həmkarlarınıza göstərilən soyuq münasibətin nəticəsidir. Çünki Anar da, Elçin də məsul vəzifədədir və yaxşı mənada müəyyən sahələri inhisarlaşdırıblar...

– İnhisarın yaxşı mənasının nədən ibarət olduğunu bilmirəm. Və bu sualınıza da özümlə bağlı cavab verəcəm. Məndə heç nəyə və heç kimə qısqanclıq yoxdur, çünki qısqanclığı doğuran səbəb olmalıdır. Ya sən yaza bilmirsən, ya da bir yazıçı kimi özünü ifadə edə bilmirsən, ya millət səni bir yazıçı kimi tanımır. Bunlardan hansısa olmalıdır ki, mən başqasını qısqanım. Baxmayaraq ki, zaman və vaxt sarıdan çox böyük çətinliklərim var, amma yenə də

20 il bundan əvvəlki kimi yazıram. Yazdıqlarım diqqəti cəlb edir. Pyeslərim səhnəyə qoyulur. Bu günün özündə də daima oxucu məktubları alıram.

– Bu gün Yazıçılar İttifaqı da incik yazıçılarımızı birləşdirə bilmir. Çünki Yazıçılar İttifaqından kənarda da müəyyən yazıçı kütləsi var...

– Yazıçılar İttifaqı sovet dövründə güclü imkanlara malik olan super nazirlik idi. 1975-ci ildə İttifaqın katibi seçilmişəm və 11 il Yazıçılar İttifaqının katibi işləmişəm. O dövrkü Yazıçılar İttifaqına birmənalı münasibət bəsləmək olmaz. Bu yaxınlarda Yazıçılar İttifaqında cavan yazarlarla görüşümdə də dedim ki, bu «Natavan» klubu, bu xitabət kürsüsü çox şeylər görüb. Burada yazıçılar bir-birlərini ifşa ediblər, bir-birlərinə böhtan atıblar, bir-birlərinin qəsdinə durublar. Burada parlaq istedadlarla yanaşı, istedadsızlar da fəaliyyət göstərib. Yazıçılar İttifaqında Mehdi Hüseynin ürəyi partlayıb. 37-ci ilin plenumunda Y.V.Çəmənzəminlini, H.Cavidi bizim böyük yazıçı və şairlərimiz ifşa ediblər. Əli Nazim Əhməd Cavadı ifşa edib, sonra da əvvəlcə Əhməd Cavadı, sonra da Əli Nazimi tutublar. Eyni zamanda burada, dediyiniz ədəbiyyat uğrunda mübarizə də gedib. O dövrün Yazıçılar İttifaqının Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafında uğurlar əldə etməsində böyük xidmətləri də olub. İllər keçdi, dünya dəyişdi, Azərbaycan müstəqillik əldə etdi. Bu baxımdan Yazıçılar İttifaqının həm siması, həm də mahiyyəti dəyişdi. Əgər bu gün biz Yazıçılar İttifaqını qoruyub saxlaya bilmişiksə, bu orada işləyən dostların böyük uğurudur. Amma bu gün Yazıçılar Birliyinin maddi imkanları yoxdur ki, kiməsə ev, kiməsə maşın versin, televiziyada kiminsə haqqında veriliş hazırlasın. Digər tərəfdən o yazıçılar ki, bir vaxtlar günlərini Yazıçılar İttifaqında keçirirdilər, bu gün onlar maddi çətinliklər, böyük qayğılar içərisində sıxılırlar. Çünki bu gün Azərbaycanda vaxtilə potsovet məkanında yerləşən ölkələrdən fərqli proseslər gedir. Bir tərəfədən Azərbaycan müstəqilliyi uğrunda mübarizə aparır, Azərbaycan özünü doğrultmamış sosializm sistemini dəyişib bazar iqtisadiyyartına keçir, bu iki kataklizm mənbəyi azmış kimi, Azərbaycan üstəlik müharibəyə də cəlb olunub. Bu üç kataklizimdən ən çox ziyan da mədəniyyətimizə, mədəniyyət xadimlərimizə, daha dəqiq desəm istedadlara dəyir. Bu zərbədən də hərə bir cür çıxır.

– Bəs qeyd edilən problemin - yazıçılar arasında xoşagəlməz qarşıdurmanın aradan qaldırılması yönündən Birliyin fəaliyyəti qənaətbəxşdirmi?

– Yazıçılar İttifaqından da inciməməliyik ki, niyə bir-birindən küsmüş yazıçıları birləşdirmir. Çünki, bu, məsələnin tam həlli yolu deyil. Düzdür, Yazıçılar Birliyi də problemi aradan qaldırmaq üçün müəyyən iş görməlidir. Amma yenə də hər şey gəlib dirənir ədəbi prosesə. Ədəbi proses canlansa, yəqin ki, çox məsələlər həll olunacaq, umu-küsülər aradan götürüləcək. Ədəbiyyatın təəssübünü çəkmək lazımdır. Bəzən deyirlər ki, son illərdə ədəbi hadisəyə çevrilən əsərlər yaranmır. Mənsə deyirəm ki, bunun özü də ədəbi prosesin materialıdır. Əgər Azərbaycanda ədəbi proses canlansa, ədəbiyyat uğrunda mücadilə başlasa, çox şey geridə qalacaq.

## YAZIÇILARI CƏBHƏYƏ AYIRMAQ ƏXLAQİ CİNAYƏTDİR

– Bəlkə hadisəyə çevrilən əsərlərin yaranmaması problemi müasir günlərimizin hadisələrinə yazarlarımızın qiymət verməyib, neytral mövqe nümayiş etdirmək istəklərindən irəli gəlir?

– Şəhidlər, torpaqlarımızın işğalı, Qarabağ müharibəsi kimi mövzulara, əlbəttə, biganə qalmaq olmaz. Bu gün hansı qəzeti açırsansa şəhidlər haqqında şerləri, məqalələri oxuyursan. Şəhidlər haqda qalın-qalın kitablar çap olunur. Bunların da böyük əksəriyyəti keyfiyyətsiz və istedadsızdır, çoxunun heç ədəbiyyata dəxli yoxdur. Deməli, bu günün istedadsızları da, şəhid mövzusu arxasında gizləniblər. Şəhidlər haqqında yazmaq Azərbaycan ədəbiyyatının mənəvi borcudur. Onlar haqqında da elə yazmalıyıq ki, yazdıqlarımız şəhid ruhlarına layiq olsun.

– Elçin müəllim, unutmayaq ki, həm yazıçı, həm də ziyalıdır. Bu gün ziyalılar arasında da qruplaşmalar gedir. Və bu qruplaşmalar şəxsi motivdə deyil, siyasi motivdə cərəyan edir. Ziyalılarımızın bəziləri iqtidarı, bəziləri də fəal şəkildə müxalifəti müdafiə edirlər. Onların da bir-birlərinə olan ittihamları yaradıcı məsələlərlə bağlı olmayıb tutduqları siyasi mövqeyə söykənib. Adi bir misal: ötən illərin Motodrom mitinqlərinin birində Ramiz Rövşən mitinqdə iştirak etməyən ziyalılarımızı «vicdanı abort olunmuşlar»adlandırdı. Bəs, Siz ziyalının siyasətdə iştirakına necə baxırsınız?

– Çox ciddi, həm də xəstə bir məsələyə toxundunuz. Müxalifət iqtidara yaxın ziyalıları, yaradıcı adamları istedadsızlıqda günahlandırır, yaxınları isə əsl istedad bilir. Və yaxud da əksinə . Bu, kökündən zərərli mövqedir. Yazıçının yazıçılığını müəyyən edən bir göstərici var: o da istedaddır. Knut Hamsun faşizm ideyalarını qəbul edirdi. Almaniyanın məğlubiyyətindən sonra o, uzun müddət gözü kölgəli qaldı. Heminquey isə İspaniyada faşizmə qarşı mübarizə aparırdı. Əqidələrinin müxtəlifliyinə baxmayaraq, hərəsinin dünya ədəbiyyatında öz yeri var. Biz isə öz dilimizdə xalqımzın güzaranını yazan yazıçıları iki cəbhəyə ayırırıq. Bu, ədəbi və əxlaqi cinayətdir. Ramiz Rövşənin adını çəkdiniz. Mən iqtidara yaxın yazıçı olmağıma baxmayaraq, Ramiz Rövşəni ədəbiyyatımızın istedadlı bir şairi hesab edirəm. Amma bu, o demək deyil ki, misal üçün, Fikrət Qoca Yazıçılar Birliyində işləyir, orden alıb, deməli, istedadsızdır.

- Yenidən qayıdaq Sizə ...70-ci illərdən başlayaraq 80-cı illərin ortalarına qədər Yazıçılar Birliynin katibi olduğunuz vaxtlarda, daha sonra isə «Vətən» Cəmiyyətinin sədri kimi ictimai həyatda fəal mövqe tutdunuz. Amma 80-ci illərin sonunda ziyalıların, hətta «obıvatel»in ifrat dərəcədə siyasiləşdiyi bir dövrdə Siz fəal siyasətdən bir qədər kənarda durmağa üstünlük verdiniz...

## III

## MƏNİM VERDİYİM İNFORMASİYADAN SONRA BƏNƏZİR BHUTTO M.QORBAÇOVA NOTA GÖNDƏRDİ

### KQB-nin BOĞAZINDA QALMIŞDIQ

– Bu, kökündən yanlış fikirdir. Siyasi proseslərdə iştirakın həm görünən, həm də görünməyən tərəfləri var. Görünən tərəf o idi ki, milləti Azadlıq meydanına yığılıb, bəzən də fanatizmə qapılaraq «otur-dur» komandası ilə işləyirdi. Baxmayaraq ki, mən Azadlıq meydanını, orada keçirilən mitinqləri müasir Azərbaycan tarixində böyük hadisə hesab edirəm. Çünki orada «otur-dur» əhval-ruhiyyəsindən əlavə, həm də səviyyəli söhbətlər də gedir-

di. Görünməyən tərəflər isə ondan ibarət idi ki, axı xalqını sevən hər hansı ziyalı özünü «otur-dur» əhval-ruhiyyəsinə məcbur edə bilməz. Mən də həmçinin...

– Bəs, «otur-dur»a razılaşmayan ziyalı vətənkeşlik təəssübünü hansı fəaliyyətlə ödəyirdi...

– Mən o dövrdə «Vətən» Cəmiyyətində «Odlar yurdu» qəzeti buraxırdım. Bu qəzetdə ilk dəfə olaraq latın qrafikası tətbiq olundu, Azərbaycan Demokratik Respublikası haqqında materiallar verdik, ADR Parlamentinin stenoqrammasını, M.Ə. Rəsulzadənin xatirələrini, N.Ussubbəyov, Ə.Topçubaşov, C.Hacıbəyov, Ə.Ağayev haqqında materiallar dərc etdik. Baxmayaraq ki, o vaxtlar «Vətən» Cəmiyyəti haqqında KQB-dən verilən fitvalarla müxtəlif söhbətlər gəzirdi. Bu Cəmiyyətin xətti ilə ilk dəfə olaraq mühacirətdəki Azərbaycan hökuməti ilə əlaqə yaratdıq. 1988-ci ildə Bəxtiyar Vahabzadə ilə Türkiyəyə gedib Məhəmməd Kəngərlini, Əhməd Qaracanı, Cəmil Ünalı tapıb gizli olaraq M.Ə.Rəsulzadənin qəbrini ziyarət etdik. Və xaricdəki Müsavat Partiyasının lideri M.Kəngərlini, Əhməd Qaracanı ilk dəfə mən Azərbaycana dəvət etmişəm. İndi onlar hansı mövqe tutublar. Bu başqa məsələdir. 90-cı il yanvar hadisələri haqda A.Paşazadə və E.Qafarovanın bəyanatlarını xariclə yeganə əlaqə vasitəsi olan teleksimizlə bütün dünyaya yaydıq. Yanvarın 21-də Pakistanın baş naziri Bənəzir Buhutto bizim teleksimizə istinad edərək M.Qorbaçova etiraz notası göndərmişdi.

– Elçin müəllim, «Vətən» Cəmiyyətində fəaliyyətdən danışdınız. Amma nədənsə bu gün o Cəmiyyət fəaliyyətsizlik nümayiş etdirir. Bu vəziyyət «Vətən» Cəmiyyətinə ehtiyacın olmamasından, işgüzar rəhbərlərin yoxluğundan irəli gəlir, yoxsa KQB-nin fitvası hələ də öz əhəmiyyətini itirməyib?

– «Vətən» Cəmiyyəti tuği-lənət olub SSRİ KQB-sinin boğazında qalmışdı. Və bilirdim ki, «Azadlıq» radiosunda, Amerikada əleyhimə edilən çıxışların təşkilatçısı məhz, o qüvvələrdir. Mən Mərdəkanda sanatoriyada oturub yazı-pozu ilə məşğul olanda, Bakıda ilk mitinqdə deyirdilər ki, hanı Elçin, gedib xaricdə videoya baxır? Bunların hamısını həmin qüvvələr edirdi. Sonradan həmin KQB-yə, kimin də həmin millətə xidmət etdiyi məlum oldu.

– Bəs, söhbət «Vətən» Cəmiyyətindən gedəndə necə?

– Çox təəssüflər olsun ki, bu gün «Vətən» Cəmiyyəti əvvəlki kimi fəaliyyət göstərə bilmir. Səbəb isə ancaq və ancaq maddi vəsaitin olmamasındadır. Vaxtilə mənə çox dedilər ki, Cəmiyyəti inkişaf etdirmək üçün kommersiya strukturu yaratmaq lazımdır. Amma buna razı olmadım. Görünür. Səhv etmişəm.

– Demək «Vətən» Cəmiyyəti lazımdır bizə?

– Bu gün üçün çox lazımdır.

– Axı lazım olsaydı onun böhrandan çıxması üçün əlaqədar orqanlar ona müəyyən köməklər edərdilər?

– «Ölüləri» bu gün tamaşaya qoymaq necə olardı?

– Çox aktual zərurətdir.

– «Ölülər»i də, başqa əsərləri də çox böyük masştabda gözəl dekorasiya ilə səhnəyə qoymaq olar. Dövlətin vəsaiti isə yoxdur. Sponsorlar da ki...

**AMİP-i BİZ YARATDIQ**

1993-cü ildə Siz iqtidarın siyasi komandasına dəvət olundunuz...

– Bu komanda sözündən heç xoşum gəlmir. Komanda futbolda, idmanda olar. Var iqtidar, hökumət, onun üzvləri...

– Yaxşı, belə deyək. Sizə hakimiyyətdə təmsil olunmaq təklif edildi. Bu dəvəti necə qarşıladınız? Və seçimdə niyə məhz Siz oldunuz?

– Niyə məhz mənim bu vəzifəyə layiq bilindiyimi məni təyin edən adamdan soruşmaq lazımdır. İkincisi də mən həmişə ədəbiyyatın mübarizəsini aparan, dünyanın ən yüksək tribunalarında xalqın sözünü deyən və onun təəssübünü çəkən olmuşam.

– Siz vəzifəyə təyin olunmamışdan əvvəl həm də müxalifət mövqeyində dayanan Milli İstiqlal Partiyasında təmsil olunurdunuz...

– Bəli, o vaxta qədər MİP-nin rəhbərliyində idim və ümumiyyətlə, mən həmin partiyanın təsisçilərindən biriyəm. Amma 1993-cü il hadisələrində yeni iqtidarla əlaqədar fikir ayrılığı ortaya çıxanda mən və Siyasi Şuranın bir sıra üzvü partiyadan istefa verdik. Bir müddət sonra Ali Sovetin sədri Heydər Əliyev cənabları bu təklifi mənə etdi. Hətta belə bir söz də dedi ki, «mən səni bir vaxt Yazıçılar İttifaqına katib göndərəndə cavan oğlan idin». O ağır günlərdə mən Prezidentin təklifini qəbul etdim.

– Elçin müəllim, artıq 7 ildir ki, baş nazirin müavini kimi humanitar sahələrə kuratorluq edirsiniz. İctimaiyyət də Sizin nəzarət etdiyiniz sahələrdəki problemlərin həll olunmamasından narazıdır. Baş nazirin müavini olduğunuz bu müddətdə məlum sahələrdə irəliləyişlər olubmu?

– Əvvəla onu deyim ki, bu gün Azərbaycan mədəniyyətinin ən böyük təəssübkeşi Heydər Əliyev özüdür. Bu yeddi ildə xeyli irəliləyişlər olub. İlk növbədə əldə etdiklərimizi dağıtmağa, yox olmamağa qoymamışıq. Sovet dövründə Azərbaycan mədəniyyəti böyük nailiyyətlər əldə etdi. Və mən də vəzifəyə təyin olunanda qarşıma qoyduğum əsas məqsəd ondan ibarət oldu ki, ilk növbədə mədəniyətimizdəki dağılma prosesinin qarşısını alaq. Teatrımızı, simfonik orkestrimizi, baletimizi və s. qoruyub saxlayaq. Və mədəniyyət haqqında hansı məsələləri qaldırmışıqsa, onun həlli maliyyəyə dirənib. Ona görə də, bu gün Azərbaycan mədəniyyətinin taleyi, mədəniyyət xadimlərindən daha çox, zavod, fabrik direktorlarından, istehsalatdan, Azərbaycanın iqtisadi nöqteyi-nəzərdən güclənməsindən asılıdır.

– Bu gün Azərbaycanda hökumət üzvlərinin korrupsiyaya qurşanması haqqında müxtəlif mülahizələr söylənilir. Ötən il Sizin haqqınızda da müəyyən iddialar səslənirdi, guya özəl ali məktəblərin status almasında müəyyən maraqlardan çıxış edirsiniz...

– Əvvəla Siz gərək, o böhtançı ilə (Müstəqil Azərbaycan Universitetinin rektoru Abbas Mustafayev nəzərdə tutulur-red.) mənim fərqimi biləsiniz. Bu şayiələri mənə Binəqədidə üzünü görmədiyim bir böhtançı ünvanlayırdı. Deyirdi ki, Elçin məndən rüşvət istəyir, Səbayeldə yerləşən bankdakı yeyintini də Elçin təşkil edib. Onun böhtanlarına cavab vermək mənim şənimə şayəstə deyildi. Amma onun söylədiklərini çap edən qəzet redaktorlarına məktubum vardı ki, heç olmasa əhli-qələm təəssübkeşliyiniz olsun. Axı Elçin ən azından 35 il bu xalqın dilində yazıb. Feldşer işləmiş adam gəlib ali məktəb açmaq istəyir, Elçin də buna yox deyəndə, deməli, rüşvət istəyir?

– Sualımızın davamı olaraq soruşaq ki, məlum problemlə rəhbərlik etdiyiniz sahədə vəziyyət necədir? Yəqin ki, burada da müəyyən korrupsiya elementləri nəzərə çarpır.

– Demək olmaz ki, hər şey tamamilə pakdır və yaxud da bu sahədə tam korrupsiya hökm sürür. Azərbaycanda korrupsiya

mövcuddur. Lakin problemi aradan qaldırmaq əvəzinə, hay-həşir salıb, heç nə etmək, məsələnin həlli yolu deyil. Bu halı aradan qaldırmaq üçün mübarizə aparmaq lazımdır. Burada da əsas meyar təmənnasız fəaliyyət olmalıdır.

## VƏZİFƏM YARADICILIĞIMA MANE OLUR

– İstərdik ki, bir məsələ barəsində də fikrinizi öyrənək. Bu günlərdə ölkə mətbuatında belə bir informasiya oxuduq ki, Akademiyanın Nizami adına Ədbiyyat İnstitutunda komissiya yaradılıb və onlar himnimizlə əlaqədar son vaxtlar ortaya atılmış fikirlərlə bağlı müzakirələr aparırlar. Sizcə, bu məsələ bu gün üçün həqiqətənmi aktualdır?

– Deyə bilmərəm nə dərəcədə aktualdır. Amma gərək, hər bir məsələdə obyektivlik olsun. Himnimizin müəllifinin Əhməd Cavad və yaxud Cəmo bəy olmasını dəqiqləşdirmək ilk növbədə tədqiqatçıların işidir, bura heş bir hökumət müdaxiləsi ola bilməz və olmayacaq da.

– Elçin müəllim, söhbətimizin əvvəlində yazıçılarımızın maddi sıxıntı içərisində yaşamalarından bəhs etdiniz. Maraqlıdır ki, görəsən baş nazirin müavini kürsüsü yazıçı Elçinə maddi ehtiyaclarını ödəməkdə nə dərəcədə kömək edib?

– Son 8 ildə Azərbaycanda çap olunan kitablarımdan demək olar ki, qonarar almamışam. Baş nazirin müavini kimi isə mənim yazı-pozu, kitab çap etdirmək işlərim daha pisdir.

– Məgər vəzifə yaradıcılığınıza mane olur?

– Vaxt cəhətdən bəli. Bu yaxınlarda İlyas Əfəndiyevin «Hökmdar və qızı» əsəri teatrda tamaşaya qoyuldu. Hörmətli prezidentimiz Heydər Əliyev də gəlib bu tamaşaya baxdı və yüksək qiymətləndirdi. Söhbət getdi ki, bu əsərdən yaxşı kino işi alınar. Mən ssenari yazdım. Rejissor Vaqif Mustafayev o filmi çəkmək istəyir. 3 ildən çox vaxt keçir, amma vəsait yoxdur ki, film çəkilsin. V.Mustafayev ssenarisini yazdığım «Mənim ərim dəlidir» komediyasının film variantı üzərində işləyir. Yenə də filmin çəkilişi maddi çətinlik ucbatından ləng gedir. Mən yalnız xaricdə çap olunmuş kitablarımın, bir də səhnələşdirilən əsərlərimin qonararını alıram.

– Elçin müəllim, son dövrlərdə Azərbaycan ədəbiyyatının

həm nəsrində, həm də poeziyasında yeni gənc nəsil də formalaşmaqdadır. Onların yaradıcılığı Sizi nə dərəcədə qane edir?

– Sözün düzü, gənclərimizin yaradıcılığı ilə elə də dərindən tanış deyiləm. Ümumi təəssüratım bundan ibarətdir ki, Azərbaycanda çox istedadlı nəsil ədəbiyyatımıza gəlmək üzrədir. Amma bu nəslin sonrakı taleyinin necə olması yenə də ədəbi prosesdən asılıdır.

– Ancaq deyəsən, yaşlı nəsildəki ənənə gənc yazarlara da sirayət edib. O mənada ki, onların da yaradıcılığında bir-biriləri ilə bəhsə girmək meylləri aydın görünür.

– Güman edirəm ki, bunlar gəncliyin simptomlarıdır və tədricən çatışmamazlıqlar yox olub gedəcək. Nə olur-olsun, təki xəstə ajiotaj olmasın...

*Müsahibəni İxtiyar Hüseynli*
*və Yunis Orucov apardı.*
*2000.*

# TARİXİMİZİN, ƏDƏBİYYATIMIZIN İLK NİŞANƏSİ

20 aprel 1997-ci ildə respublika prezidenti möhtərəm Heydər Əliyevin «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyi haqqında imzaladığı fərmanda deyilir: «Oğuz türklərinin tarixini əks etdirən «Kitabi-Dədə Qorqud» yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur». Bu səbəbdən də dastanın 1300 illik yubileyini keçirmək üçün ölkə prezidentinin sərəncamı ilə dövlət komissiyası yaradılmışdır. Zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş tədqiqat aparmaq, onu xalqımıza və dünyaya çatdırmaq müqəddəs bir vəzifə kimi komissiyanın tədbirlər planına daxil edilmişdir.

Məlumdur ki, Heydər Əliyevin sədrliyi ilə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının son üç ildə keçirdiyi iclaslarda qorqudşünas alimlərin iştirakı ilə görülmüş və görüləcək işlərə bir daha diqqət yetirilmişdir.

Bu günlərdə müxbirimiz baş nazirin müavini, dövlət komissiyasının sədr müavini, xalq yazıçısı Elçinlə görüşərək söhbət əsnasında «Kitabi-Dədə Qorqud» dastanının yubileyi ilə bağlı bəzi məsələlərə yenidən toxunulmuşdur. Aşağıda həmin müsahibəni sizə təqdim edirik.

– Elçin müəllim, bütün türk dünyasını birləşdirən çox qədim bir abidənin, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi ilə əlaqədar görülən işlərin müəyyən qismindən artıq xəbərdarıq. Bizi indi bu yubileyin mənəvi tərəfi və əhəmiyyəti maraqlandırır.

– Yubileylə bağlı cənab prezidentin sədrliyi ilə keçirilən sonuncu iclasda söylədiyim bir fikri təkrar etmək istərdim. Siz təsəvvürə gətirin ki, «Dədə Qorqud» bəlkə də dünyada yeganə abidədir ki, vaxtilə öz xalqının düşməni elan olunmuşdur.

– Bu, yəqin ki, 37-ci ilin repressiyalarıdır?

– O illərin ölüm qoxulu küləkləri Cavidi, Müşfiqi, Ömər Faiqi, Səməd Mənsuru... aparsa da, qaniçənlər bu millətin mənəviyyatına zərbə vurmaqdan doymurdular. 50-ci illərdə Mir Cəfər Bağırov «Dədə Qorqud»da pantürkizmin əsasları, təzahürü olduğu-

nu rəsmi surətdə bildirmişdir. Min illərlə tarixi olan bir abidədə XX əsrin əvvəllərində təşəkkül tapmış pantürkizm ideologiyasını axtarmaq nəinki gülünc, həm də dəhşət və xəyanət idi. Ona görə də bu gün müstəqil Azərbaycanda ölkə rəhbərinin bu abidəyə yüksək qiyməti, münasibəti respublikamızın sabahı ilə bağlı olduğuna görə əhəmiyyətlidir.

– Söyləmişdiniz ki, bu üç ildə «Kitabi-Dədə Qorqud»la bağlı 37 kitab nəşr edilib. Yəqin ki, onların arasında dastanın özü də var?

– Bu 37 kitab ancaq dövlətin vəsaiti ilə çap olunanlardır. Məsələ ondadır ki, tədbirlər planında olmayan kitablar da nəşr edilibdir. Başqa sözlə desəm, «Dədə Qorqud»la bağlı tədqiqatda bir intibah dövrü yaşandı. Əlbəttə, «Dədə Qorqud» dastanı yenidən latın qrafikası ilə nəşr edildi. Hətta V.V.Bartoldun rus dilinə etdiyi tərcüməni də yenidən çap etdik. Bəzi nəşrlərin adlarını söyləyim: Əli Sultanlı «Kitabi-Dədə Qorqud» və qədim yunan dastanları»; Bəhlul Abdulla «Kitabi-Dədə Qorqud»un poetikası»; «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti»; «Kitabi-Dədə Qorqud»un biblioqrafiyası»; Şamil Cəmşidov «Kitabi-Dədəm Qorqud»; Səfərəli Babayev «Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri»; Anar «Dədə Qorqud dünyası»; Bəkir Nəbiyev, Yaşar Qarayev «Xalq mənəviyyatının güzgüsü» (beş dildə); Tofiq Hacıyev «Dədə Qorqud»; dilimiz, düşüncəmiz» və s. və i.a.

– Eləcə də ilk dəfə olaraq yaranan «Dədə Qorqud» ensiklopediyası.

– Sizə deyim ki, bu, qorqudşünaslıqda sanballı bir hadisədir. Flora xanım, bilirsənmi, bizim əsas uğurumuz nədən ibarət oldu? Təkcə Azərbaycan ədəbiyyatında, tarixində, folklorşünaslığında deyil, bütövlükdə biz dünya qorqudşünaslığında böyük nailiyyət qazandıq. Ölkə prezidentinin fərmanına uyğun «Dədə Qorqud»la bağlı təbliğatımız çox intensiv quruldu. Dünyanın türkoloq alimləri də bu abidənin tədqiqinə həvəslə qoşuldular. Fransada Lui Bazen türk ədəbiyyatşünası Göyp Alpla birlikdə «Dədə Qorqd»u fransız dilinə çevirdi, Parisdə nəşr edildi. Almaniyada Əhməd Şmide «Dədə Qorqud»u təkrar alman dilinə tərcümə edərək nəşrinə nail oldu. Əlbəttə, məsələ təkcə çap olunan kitabların sayında deyil, söhbət ondan ibarətdir ki, bu nəşrlər həqiqətən fövqəladə əhəmiyyətə malik sanballı əsərlərdən ibarətdir.

– İndiki günlərdə «Dədə Qorqud»a qayıtmaq qəhrəmanlıq

dolu keçmişimizə mənəvi körpü salmaq deməkdir. Və yəqin ki, bu hadisə təkcə bizim ədəbiyyatımızda, folklorşünaslığımızda, tariximizdə deyil, həm də ruhumuzda, mənəviyyatımızda əks-səda salacaqdır.

– Rəmzi mənada biz «Dədə Qorqud»un yaşını 1300 kimi qeyd etdik. Onun elə boyları var ki, daha irəli əsrlərə gedib çıxır. Yəni onun illərini doğulduğu əsrdə deyil, formalaşdığı əsrdən hesabladıq. İndi təsəvvürə gətirin ki, bu 1300 yaşlı möhtəşəm abidənin bütün dünyada bir növ təqdimat mərasimi keçirildi. Bu, həm də Azərbaycanın dünya miqyasında diqqət obyektinə çevrilməsi demək idi. Hər bir mədəni tədbirin mütləq siyasi tərəfi də var. YUNESKO-da keçirilən «Dədə Qorqud» günü heç vaxt yadımdan çıxmaz. O gün duyduğum fərəhin, iftixarın xoş hissləri uzun müddət məni tərk etməyəcəkdir. Çünki «Dədə Qorqud» günləri Azərbaycan günlərinə çevrildi. Bütün söhbətin mövzusu konkret olaraq bir tərəfdən «Dədə Qorqud» idisə, o biri tərəfdən bütünlüklə Azərbaycan idi. Beynəlxalq elmi simpozium keçirdik. Tədbiri mən aparırdım. Burada təkcə türkdilli dövlətlərdən deyil, Fransanın, İtaliyanın böyük alimləri də iştirak edirdilər. Şamil Cəmşidov, Kamal Talıbzadə, Anar, İsa Həbibbəyli və başqaları işğal olunmuş torpaqlarımızdan, qaçqınlarımızın ağır talelərindən tutmuş hər şeyi yüksək tribunadan deyə bildilər.

– «Dədə Qorqud» dastanının Drezden nüsxəsi ilə eyni olan surəti bu gün Azərbaycana gətirildi.

– Bilirsiniz ki, «Dədə Qorqud» dastanının əlyazmasının bir nüsxəsi Drezden kitabxanasında saxlanılır. 1999-cu ildə Drezdendə «Dədə Qorqud»a həsr olunmuş sərgi və elmi simpozium keçirildi. Qocaman alimimiz Şamil Cəmşidov israr edib ki, əlyazmanı mütləq əlinə almalıdır. Almanların təbiətinə dünya bələddir. Nadir eksponatı şüşənin altından nəinki çıxarmaq, ələ almaq, bu, mümkün sayılan iş deyil. Amma bizim nümayəndə heyəti buna nail olub. Şamil Cəmşidov onu ələ alaraq öpüb və...

– Çox təsirli, kövrək məqamdır. «Dədə Qorqud»la bağlı yüksək səviyyəli məclislər Rusiyada – Moskvada da keçirildi.

– Təkcə Rusiyada deyil, Türkiyədə, Gürcüstanda, Türkmənistanda və başqa türkdilli respublikalarda tədbirlər keçirilib və hələ də davam edir.

– Sovet dövründə C.Cabbarlı adına Kinostudiyada «Dədə Qorqud» adlı bədii film çəkildi. Bəs, bu yubileylə bağlı...

– «Azərkinovideo» İstehsalat Birliyi «Dədə Qorqud» haqqında filmi kasetlərə köçürdü. Teleradio şirkəti bu mövzuda 12 seriyalı bədii televiziya filminin çəkilişinə başlayıb. Bəzi seriyalar artıq hazırdır. Azərbaycanın teatr səhnələrində «Dədə Qorqud» motivləri ilə bağlı tamaşalar göstərilir. Bir sıra rəsm və musiqi əsərləri yaranıb. Cənab Heydər Əliyevin hamımızın ürəyindən xəbər verən bir fikrini təkrar etmək istəyirəm: «Dədə Qorqud»un yubileyi elə hadisədir ki, bu, aprelin 9-dakı tədbirlə sona çatmayacaqdır. Bu iş davam etməlidir və edəcəkdir».

– Əslində, bütün bunlar başlanğıcdır.

– Əlbəttə, sizə bir misal deyim. «Dədə Qorqud»la bağlı yaradılacaq tarixi etnoqrafik kompleksi götürək. Ölkə prezidenti bu barədə fərmanı aprelin 1-də imzalayıb. Bu, o deməkdir ki, Azərbaycan xalqının, bütün türk xalqlarının ən möhtəşəm abidəsi olan «Kitabi-Dədə Qorqud»la bağlı təbliğat işi həmişə gedəcəkdir. Bu, həm də sadəcə təbliğat yox, tədqiqatdır, öyrənməkdir, yaratmaqdır, yaşatmaqdır, paklaşmaqdır, durulaşmaqdır – bir sözlə, köhnəliyin içində bir təzəlik tapmaqdır.

– «Dədə Qorqud» bütün türk xalqlarının müştərək abidəsidir.

– Bu yubileyin Azərbaycanda türk dövlətləri prezidentlərinin iştirakı ilə bayram edilməsi elə bil ki, Azərbaycan mövzusunu, azərbaycançılığı daha da önə çəkir, qabardır. Hamı dastanın məhz Azərbaycanla bağlılığını təsdiq edir.

– İllərin dizini qatlayaraq bugünümzə gəlib çatmış və üzərində ədəbiyyatımız, tariximiz, mənəviyyatımız inkişaf etmiş bu dastan bu qələbəni hansı qüdrətin hesabına qazanıb?

– Bu, şübhəsiz ki, «Dədə Qorqud»un bədii-estetik səviyyəsidir. Dastanda xalqın ruhu öz ifadəsini elə tapıb ki, o, mütləq əsrlərin bütün müqavimətini sındıraraq əbədi yaşamaq hüququ tapmalı idi.

– Elçin müəllim, bu yubiley təntənəsində iştirak etmək üçün neçə ölkədən qonaq gözləyirik?

– Mərasimdə bütün dünyanın çox böyük şərqşünasları, elm, ədəbiyyat adamları iştirak edəcəklər. Rəqəmlərin dili ilə desək, 18 ölkədən 97 qonağımız olacaq. Aprelin 8-də Bakıda türk dövlətlərinin sammiti keçiriləcək. Səhəri günü, yəni ayın 9-da Respublika sarayında «Dədə Qorqud»un təntənəli yubiley gecəsi olacaqdır. Bu, adi tədbir deyil. Bir məsələyə təkrar diqqət verək ki,

bütün türkdilli dövlətlərin prezidentləri Azərbaycanda «Dədə Qorqud» yubileyində iştirak edəcəklər. Bu, həqiqətən də fövqəladə əhəmiyyətə malik bir hadisədir. Yubiley gecəsinin ssenarisini xalq yazıçısı Anar qələmə alıb, quruluşunu da görkəmli rejissorumuz Mərahim Fərzəlibəyov verib. Hər şey çox yüksək səviyyədə hazırlanıb.

– Bu söylədiyiniz ürəkaçan faktlar komissiyanın sədr müavini kimi səlahiyyətlərinizə daxil olan işlərdir. Bəs sizin yazıçı Elçin kimi bu yubileyə öz töhfəniz nədən ibarətdir?

– «Dədə Qorqud aliliyi» adlı kiçik bir monoqrafiya yazdım, çap olundu. Burada «Dədə Qorqud»un indiyə qədər olan tədqiqinin xülasəsini və təhlilini verməyə çalışdım. Bu abidənin Azərbaycan xalqının taleyi, tarixi kontekstindəki əhəmiyyətindən söz açdım. «Kitabi-Dədə Qorqud» doyulmaz çeşmədir. Yazdıqca, oxuduqca sehri-sirri tükənmir. Sağlıq olsun, bu abidə ilə bağlı gələcəkdə bir bədii əsər üzərində işləmək fikrim var. Hələlik qarşıda «Dədə Qorqud» işığı yanır. Gəlin hamımız onun pərvanəsi olaq.

– Səmimi və məzmunlu söhbət üçün sizə təşəkkür edirik.

*Müsahibəni apardı Flora Xəlilzadə.*
*2000.*

# DÖVLƏT DİLİ

Müsahibimiz Dövlət dilinin tətbiqi üzrə hökumət komissiyasının sədri, baş nazirin müavini, xalq yazıçısı Elçin.

– Elçin müəllim, həm Dövlət dilinin tətbiqi üzrə hökumət komissiyasının sədri, həm də müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri kimi xahiş edirəm belə bir suala cavab verəsiniz: Azərbaycan dilində «departament» sözü varmı?

– Bir sıra latın mənşəli sözlər var ki, onlar dilimizə rus dilindən keçiblər. Mən o fikrin tərəfdarı deyiləm ki, biz bunların hamısını ləğv etməliyik və əvəzində yeni adlar quraşdırmalıyıq. Amma o sözlərin ki, qarşılığını tapa, sırf türk mənşəli sözlə əvəz edə bilmirik, onu saxlamaq olar. Azərbaycan dilinə keçmiş, özümüzünküləşmiş sözlərə çox ehtiyatla yanaşmaq lazımdır. Konkret olaraq, «departament»dən söhbət gedirsə, düzdür, Azərbaycan dilinin ahəng qanunu baxımından bir az yad səslənir. Əgər onun qarşılığı tapıla bilərsə, yaxşı olardı ki, dəyişilsin. Amma yenə təkrar edirəm ki, bu məsələlərə birmənalı şəkildə, inkar nöqteyi-nəzərindən yanaşmaq lazım deyil.

Dünyanın bütün dillərində həmişə başqa dillərdən gəlmə sözlərlə zənginləşmə prosesi olub. «Departament» bizə rus dilindən keçsə də, rus dilinin özündə də nə qədər türkizmlər var. Rus dili bundan itirməyib, əksinə, qazanıb. Türkiyədə ikinci tənzimat prosesindən sonra ərəb və fars mənşəli sözlər türk dilindən təmizlənməyə başladı. Düzdür, onların bir sıra müqabilləri çox təbii alındı və bugünkü türk ədəbi dilində öz yerini tutdu. Lakin, eyni zamanda, çox süni sözlər də əmələ gəldi. Misal üçün, ərəb mənşəli və artıq türkləşmiş «məktəb»in əvəzinə «okul» işlətdilər ki, onun özü də fransız mənşəlidir.

– Bakı Şəhər İcra Hakimiyyətinin vaxtilə mövcud olmuş baş idarələri «departament»lə əvəz olunub. Azərbaycan ədəbi dilinə aid olmayan əcnəbi sözlərin yersiz işlənməsi sizin komissiyada müzakirə edilirmi?

– Şübhəsiz! Əvvəla onu deyim ki, dərinə getsək, «departament» kimi heç «idarə»də bizim söz deyil. Görünür, struktur məsələlərində bu cür hallara təsadüf eləmək mümkündür. Amma

yaxşı olardı ki, Azərbaycan dilinin xüsusiyyətlərinə uyğunlaşmayan sözləri özümüzün təbii sözləriylə əvəz edəydik.

Dövlət dilinin tətbiqi üzrə hökumət komissiyası öz yığıncaqlarında belə işlərə baxır. Komissiyanın üzvləri Azərbaycanın bir çox tanınmış dilçiləri, qələm sahibləridir. 3 ildən artıq idi ki, Azərbaycan dilinin orfoqrafiya qaydaları üzərində işləyirdik. Bu yaxınlarda, biz nəhayət ki, bu orfoqrafiya qaydalarını qəbul elədik. Latın qrafikalı əlifbamızda Azərbaycan dili orfoqrafiya qaydaları son dərəcə vacib məsələdir. Orfoqrafiya qaydalarının olmaması yazılı dildə savadsızlığa, hərc-mərciliyə gətirib çıxara bilər. Latın qrafikalı əlifbaya keçməyimizlə əlaqədar, ilk növbədə ixtisaslı, savadlı korrektorlar yetişdirməliyik. Bu korrektorları yetişdirə bilməsək, çox bərbad vəziyyət əmələ gələ bilər. Çünki Azərbaycan ədəbi dili sabitləşib, formalaşıb. Hətta deyərdim ki, Azərbaycan ədəbi dili başqa türk xalqlarının ədəbi dilindən daha mükəmməldir. Amma biz latın qrafikası ilə ixtisaslı korrektorlar yetişdirə bilməsək, bu dilin çox zərər çəkəcəyindən ehtiyatlanıram. Bir az kobud səslənsə də deyim ki, korrektoru qarabağlı olan qəzet Qarabağ, naxçıvanlıdırsa – Naxçıvan, bakılıdırsa – Bakı ləhcəsində çıxacaq. Nəticədə isə ədəbi dilə böyük zərbə dəyəcək. Eyni fikirlərim özəl nəşriyyatlara da aiddir. Bu baxımdan, latın qrafikasında orfoqrafiya qaydalarının yaradılması böyük əhəmiyyət kəsb edir. Bundan əvvəlki orfoqrafik qaydalar 1958-ci ildə Nazirlər Soveti tərəfindən qəbul olunmuşdu. İndiki orfoqrafik qaydalar komissiyada baxılandan və mətbuat vasitəsilə ictimai müzakirəyə çıxarılandan sonra qəbul olundu.

– Yeni orfoqrafik qaydalarda dilçilər arasında ciddi fikir ayrılığına səbəb olmuş apostrof işarəsi saxlanılıbmı?

– 1991-ci ildə Milli Məclis tərəfindən təsdiq olunmuş Azərbaycanın latın qrafikalı əlifbasında apostof işarəsi yoxdur. Bu qərar bizim komissiyada müzakirələr zamanı qızğın mübahisələrə səbəb oldu və çoxluq apostrofun olmamasına tərəfdar çıxdı. Eyni zamanda, Tofiq Hacıyev kimi görkəmli dilçi alimlər apostrofun saxlanılmasının lüzumlu olduğunu bildirdi. Ona görə də komissiya bu qərara gəldi ki, gələcəkdə Milli Məclisin müvafiq komissiyasında, lazım gələrsə, Milli Məclisin özündə bu məsələ müzakirə olunsun. O şəkildə yox ki, komissiya apostrofun saxlanılmasını və ya götürülməsini tələb edir. Sadəcə olaraq, komissiya bu fikirdədir ki, bu məsələ yenə Milli Məclis səviyyəsində müzakirə obyektinə çevrilə bilər.

– Komissiyanın dövlət təşkilatlarında Azərbaycan dilinin işlənmədiyi hallarda müdaxilə etmək səlahiyyəti varmı?

– Bizim komissiyanın əsas məqsədi odur ki, Azərbaycan Respublikasının dövlət dili bütün rəsmi dairələrin kargüzarlıq dili olsun. Bu sahədə böyük işlər də görülüb. Bu gün Prezident Aparatında və Nazirlər Kabinetində bütün yazışmalar ancaq latın qrafikalı Azərbaycan dilində aparılır.

– Bəs nazirliklərdə necə?!

– Hamısında Azərbaycan dili əsasdır. Əvvəllər Xarici İşlər Nazirliyində yazışmalar bəzən rus dilində aparılırdı. Bunun isə obyektiv səbəbləri var idi. Çünki bu sahədə işləyən səriştəli mütəxəssislərin savadı rus dilində olub.

– Bunu subyektiv səbəb adlandırmaq daha düzgün olmazdımı?

– Xeyr, obyektivdir. Ona görə ki, həmin mütəxəssislərin təhsili rus dilində olduğu üçün azərbaycanca yaza bilmirlər. Amma son dövrlərdə XİN-də bütün yazışmalar dövlət dilində aparılır.

– Qısa müddət tətbiq olunduqdan sonra, XİN-in mətbuat üçün açıqlamaları yenə də rus dilində hazırlanır...

– Bəzi spesifik nazirliklər ola bilər ki, mütəxəssislər özlərindən asılı olmayan səbəblərdən rus dillidirlər. Amma həmin mütəxəssislər çox ciddi surətdə Azərbaycan dilini öyrənməlidirlər. Amma dil öyrənməyin bir problemi də var ki, sonradan onu öyrənməklə danışmaq, fikirlərini izah eləmək mümkündür, amma yazmaq yox. Amma ümumilikdə götürəndə, Azərbaycan dilinin işlədilməsi ilə əlaqədar heç bir maneəçilik, ətalət yoxdur. Əksinə, Azərbaycan dilinin dövlət idarəçiliyində tamamilə bərqərar olunması üçün ruh yüksəkliyi var.

– Komissiyanın qoyduğu tələblərin icrası müəssisə və təşkilatlar üçün məcburidirmi?

– Mən xırdalığa varmaq istəməzdim. Amma dil problemi olan təşkilatlarla, xüsusən, böyük zavodlarla komissiya iş aparır. Tam obyektivliyi ilə deyirəm ki, bu sahədə işlər yaxşı gedir. O mənada ki, Azərbaycan dilinin Azərbaycan dövlətçiliyindəki rolu son dərəcə böyük sürətlə artır.

*«525-ci qəzet».*
*2000.*

## «SON BEŞ İLDƏ XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA HADİSƏ HESAB ETDİYİM BİR ƏSƏR OXUMAMIŞAM»

*«Amma bu o demək deyil ki, narahat olmağa əsas var. Çünki beş il Böyük ədəbiyyat üçün elə də çox vaxt deyil»*

*(Birinci müsahibə)*

*Yaradıcı insanların dünyasına, hamıdan gizlədikləri aləmə daxil olmaq marağım var. Uzunmüddətli müşahidələrimdən sonra yalnız bunu deyə bilərəm ki, o aləm qaranlıq bir otaq kimidir. Sadəcə bəzilərində otağın qapısı açıqdı və sən heç olmasa, astanadan durub içəri boylanmaq (hətta içəri keçməyi bacarmasan belə) imkanı qazana bilərsən – əlbəttə ki, otaq sahibinin icazəsi ilə. Amma elə yazıçılar var ki, (dünya ədəbiyyatı tarixində də olubdur) onlarda qapı bağlıdır. Və istəsən belə, ora daxil olmaq imkanın olmayacaq. Əl çəkməyib, orada baş verənlərlə maraqlansan, sadəcə haqqında sahibin bir neçə xırda izahını eşidə bilərsən. Lap səni qane etməsə belə.*

*Müsahibim, xalq yazıçısı ELÇİN də həmin ikinci qisim yazıçılardandır. Və etiraf edim ki, onunla söhbət əsnasında «qapıda qalmaq» hissini eynilə ANARla söhbətim zamanı da keçirmişdim. Bu isə o deməkdir ki, o söhbətə nə zamansa bir daha ehtiyac olacaq.*

*Bir də... Həmin fikrin təsdiqini müsahibənin sonundakı fikirləri ilə ELÇİNin də etirafında tapdım. Əlbəttə ki, buna təəssüfləndim. Eyni zamanda da sevindim – həqiqət olduğu üçün...*

– Son zamanlar ədəbi mühitdə Böyük ədəbiyyat anlayışından tez-tez istifadə edilir. Bu, ədəbiyyatı kiçilməkdən qorumaq, yoxsa yaranan əsərlər bolluğunda həqiqi ədəbiyyat numunələrini fərqləndirmək istəyindəndir?

– Böyük ədəbiyyat – terminalogiya kimi o qədər da uğurlu deyil. Amma bu ifadənin arxasında əsl ədəbiyyat dayanıb. Yəni istedadın təcəssümü kimi yaranan həqiqi ədəbiyyat Böyük ədəbiyyatın sinonimidir.

O ki qaldı dediyin əsərlərin «xırda ədəbiyyatcıq»lar arasından qaldırılmasına, burada həqiqət də var, əsl ədəbiyyata nostalji münasibət də. Yadınıza salın. Bir müddət əvvəl bizdə «Ulduz» jurnalının 65 min, «Azərbaycan» jurnalının 70 min, «Ədəbiyyat» qəzetinin isə 60 min tirajı var idi. Kitablarımız 50, 100 min tirajla nəşr olunurdu. Yadıma gəlir ki, 1983-cu ildə «Mahmud və Məryəm» romanı dalbadal 320 min tirajla dərc edildi. Bax, bu nöqteyi-nəzərdən ədəbiyyata nostalgiya hissi mövcuddur. Çünki indi onun təbliği ilə məşğul olan nəşrlərin tirajı aşağı düşüb, eyni zamanda, maddi və mənəvi səbəblər üzündən oxucusu azalıb. Maddi səbəbi məlumdur, mənəvi səbəbi isə ondan ibarətdir ki, insanların həyatında gedən siyasiləşmə ədəbiyyatı arxa plana keçirib.

– Siz nostalgiya hissindən danışırsınız. Bu o deməkdir ki, Azərbaycanda bu gün yaxşı ədəbiyyat nümunələri yaranmır?

– Nostalgiyanı dövr deyil, sırf keyfiyyət baxımından deyirəm. Yaxşı ədəbiyyatın yaranıb-yaranmamasına qaldıqda, həmişə mətbuatı izləyən adam kimi deyə bilərəm ki, son beş ildə XX əsr Azərbaycan ədəbiyyatında hadisə hesab etdiyim bir əsər oxumamışam. Təəssüflər olsun ki, belə şey olmayıb. Amma bu o demək deyil ki, narahat olmağa əsas var. Yox! Çünki beş il Böyük ədəbiyyat üçün elə də çox vaxt deyil. Böyük ədəbiyyat nümunələrinin yaranmasına vaxt lazımdır. Hər il o nümunəni tələb etmək olmaz.

– Yazıçıları «unudulan», «yada düşən» və «daima insanın içində olanlar» qisminə bölürsünüz. Bu bölgü ilə müəyyən mənada razılaşıram. Amma sizcə, böyük yazıçı olub, unudulmaq mümkündürmü?

– ...Böyük yazıçı olub az tanınmaq, az populyar olmaq mümkündür. Unudulmaq isə yox. Elə ədəbiyyat tariximizə nəzər salaq. Güman etmirəm ki, bizim ədəbiyyat tarixində elə böyük yazıçı, şair olub ki, onu unudaq. Öz zamanında anlanmayan, yaxud məşhur olmayan yazıçılar dünya ədəbiyyatı tarixində də olub. Lakin həyat belədir ki, yaradılanları süzgəcdən keçirir, nə xalisdirsə, əsl ədəbiyyatdırsa və istedadın ifadəsidirsə, onu saxlayır. Deyək ki, rus ədəbiyyatında da elə bir sima göstərə bilmərəm ki, isteda-

dına baxmayaraq unudulub. Məsələn, mənim fikrimə görə, rus ədəbiyyatının ən parlaq simalarından biri Plotonovdur. Amma o Şoloxov qədər populyar deyil. Hərçənd ki, Şoloxov da öz populyarlığına layiq yazıçıdır.

Yox, güman etmirəm ki, böyük yazıçı unudulsun. Əgər nəsə yazıb qoyubsa, onun unudulmağı çətin məsələdir.

– Ədəbiyyatda İnsan məsələsinə toxunmaq istəyirəm. Dövr baxımından əvvəl yaranan ədəbi numunələrdə İnsan – hətta əsərin mənfi qəhrəmanı olsa belə, oxucu tərəfindən asanlıqla dərk edilirdi. İndi isə o qəhrəman dərkedilməz varlığa çevrilir. Nə üçün?

– Maraqlı sualdır, ona görə ki, içində həm bizim mənfi saydığımız, həm də məqbul saydığımız cəhətlər mövcuddur. Əvvəla insanları – personajları heç vaxt mənfi və müsbətə bölməyi qətiyyən qəbul etməmişəm. Hətta sovet dövründə də mənim bir prinsipim olub. Bu, böyük ədəbiyyatın da prinsipidir – yazıçı öz qəhrəmanının həm ittihamçısı, həm də vəkili olmalıdır. Ona görə ki, insanın xisləti, daxili aləmi birmənalı deyil. Öz aləmində hamının bəraəti var. Elə bir adam yoxdur desin ki, mən əclafam, pis adamam. Əgər bunu deyirsə, deməli o, elə bir psixoloji məqama çatıb ki, artıq deyəndən sonra gedib intihar etməlidir. Yaxud anormal adama çevrilməlidir.

Əvvəllər məndən anonim məktublar yazırdılar. Həmişə atam rəhmətliklə bu haqda danışırdıq.

Son dəfə bu barədə bir söhbətimiz olmuşdu. «Toyuğun diri qalmağı» adlı bir povestim var. Şahmar Ələkbərov onun əsasında «Sahilsiz gecə» adlı film çəkmişdi.

– O film yalnız bir dəfə efirdə göstərildi.

– Bəli. Və dırnaqarası millətçi insanlar söylədilər ki, bu əsər azərbaycanlı qadınlar üçün təhqirdir. Mən onda «Vətən» Cəmiyyətində işləyirdim. Özüm də film efirə gedən vaxt səfərdə idim. Qayıdıb gələndən sonra məlum oldu ki, azərbaycanlı qadınların bir qismi burada yığılıb piket keçiriblər. Deyiblər ki, Elçin Azərbaycan qadınına böhtan atır. İşə gələndə kəlağayılı qadınlar və onlara başçılıq edən daha bir qadın otağa girdilər. Səhv etmirəmsə, 90-çı il idi. Başçılıq edən arvad böyük canfəşanlıqla «Sən bizə qara yaxmısan» deyirdi. Həmin hadisənin üzərindən bir ilə yaxın vaxt keçəndən sonra o qadını televiziyada «İnsan və qanun»

verilişində gördüm. Oğurluq və priton saxlamaq üstündə ittiham olunaraq, həbs edilmişdi. Bax, beləyik də. Nə isə...

Həmin povestlə bağlı o vaxt Kommunist Partiyasının Mərkəzi Komitəsinə və Moskvaya anonim məktublar yazılmışdı. Bu o dövr idi ki, həmin əsər SSRİ Komsomol mükafatına da təqdim edilmişdi. O zaman Həsən Həsənov Mərkəzi Komitənin ideoloji məsələlər üzrə katibi idi. Onun mənimlə söhbətini sonra atama da danışdım. İlyas Əfəndiyev dedi ki, «adətən hamının hərəkətlərinə haqq qazandırır, bəraəti var deyirsən. Bu adamların bəraəti nədən ibarətdir? Axı, onlar anonimdə sənin rus xalqının əleyhinə olduğunu, sovet Azərbaycanında müsbət heç bir şey görmədiyini yazıblar?». Mən isə dedim ki, yox, onun da bəraəti var. Bu anonim məktubu yazan yazıçı öz-özünə fikirləşir ki, Elçindən yaxşı yazıçıdır, Elçindən daha düzgün yazır, niyə mənim əsərlərim çap olunur, onunkular yox. Həmin adam öz yazısının səviyyəsinin aşağı olmasını düşünmür. Dünyada elə bir hadisə törədən insan yoxdur ki, özünə bəraət qazandırmasın. İnsanın daxili, xisləti olduqca mürəkkəbdir. O mürəkkəblikdən çıxış edərək kimini müsbət, kimini mənfi qəhrəman etmək absurddur. Müsbət qəhrəman məsələsi sövet ədəbiyyatını tamamilə eybəcər vəziyyətə qoymuşdu. Hətta Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi SSRİ Nazirlər Soveti ilə bir yerdə camışçılığın inkişafı barədə qərar qəbul edirdisə, sovet ədəbi tənqidi yazıçılardan bu qərarın ədəbiyyatdakı inikasını tələb edirdi. Və dırnaqarası ədəbiyyatçılar da bu tələbə uyğun əsər yazırdı. Eyni zamanda, ədəbi tənqid də bu «müsbət qəhrəmanı» yüksək səviyyəli bədii qəhrəman hesab edirdi. Onun bədiiliyi, estetikası nədən ibarətdir? Bunun elə bil ki, mətləbə dəxli yoxdur.

– Mən macar yazıçısı Dyula Çakla söhbətinizi xatırlayıram...

– O yazını mən o vaxt «Literaturnaya qazeta»da çap etdirmişdim. Sən uşaq olardın.

– O, «ədəbiyyat insanın daxili dünyasını dərk və izah etməlidir» prinsipindən danışırdı. Bizdə bu, əksər hallarda səthi olub. Lakin son zamanlar ədəbiyyatında insanın təfəkkürü, hətta bəzən yazıçının özünə belə aydın olmayan şüuraltı təfəkkürü, hətta qarışıq yuxuları nəsrdə əksini tapır. Və bu yola ciddi meyl sezilməkdədir. Yazıçı bunu ədəbiyyata gətirməkdə haqlıdırmı?

– Yazıçının predmeti xislətdir və onun istedadı xislətin də-

rinliklərinə nə dərəcədə enə bilməsi ilə müəyyənləşir. Yazıçı ora baş vura bilirmi, yaxud hansı dərinliklərə gedib çıxır? Əlbəttə ki, lap dərinliklərə enmək mümkün deyil. Mənim üçün Tolstoy qədər xisləti tədqiq və təhlil edən ikinci yazıçı yoxdur. Amma bu o demək deyil ki, o insan xislətini bütünlüklə açıb təqdim etməyi bacarıb. Hətta Tolstoyun enə bilmədiyi dərinliklər var. Allah bunu belə yaradıb. Əgər yazıçı sənin dediyin dərinliklərə enirsə, onu qaldırıb təsvir etmək istəyirsə, əlbəttə, bu ondan xəbər verir ki, o ciddi adamdır. İstəkdən əlavə həm də bunu bacarırsa, bu artıq istedadın təsdiqidir.

– Əgər oxucu yazıçını dərk edə bilmirsə?

– Əgər həqiqi ədəbiyyatdırsa və oxucu da onu dərk edə bilmirsə, deməli, oxucu öz üzərində işləməlidir.

– Deməli, bu, oxucunun günahıdır?

– Mən bir şeyə əminəm ki, oxucu Tolstoyun yazdığını dərk edə bilmirsə, onun günahıdır. Hər halda bu, Tolstoyun günahı deyil.

– Bəs yuxu haqqında nə deyərdiz. Hərdən oxucu bu qarışıqlıqda nəyin gerçəklik, nəyin reallıq olduğunu anlaya bilmir.

– Bir daha deyirəm ki, hər şeyi istedad müəyyən edir. Əgər yazıçı yuxusunu yazırsa və yuxusunu ədəbiyyatın predmetinə çevirirsə və o yazı ədəbiyyat nümunəsidirsə, çox yaxşı. Çünki ədəbiyyatın yaza bilməyəcəyi heç bir şey yoxdur. Yadıma gəlir ki, «Azərbaycan» jurnalına 60-cı illərin sonlarında «On ildən sonra» adlı bir hekayəmi aparmışdım. Jurnalın baş redaktoru rəhmətlik Cəlal Məmmədov idi. Cəlal müəllimin fikrinə görə, hekayədə açıq-saçıqlıqlar, lazım olmayan «eybəcərliklər»in təsviri var idi. Əlbəttə ki, bu onun fikri idi. Və bizim onunla mübahisəmiz oldu. Mən sübut etməyə çalışdım ki, ədəbiyyat hər şeydən yazmalıdır və yaza bilər də. O zaman Cəlal müəllim mənə sual verdi: «Belə çıxır ki, zibil yeşiyindən də yazmaq olar?». Mən dedim ki, bəli. İndi də bu fikirdəyəm ki, hər şeydən yazmaq olar, sadəcə nə üçün yazdığını və nə yazdığını aydın biləsən.

Yuxudan da nə üçün, hansı səviyyədə yazdığını bilməli, dərk etməlisən.

*Müsahibəni Nərgiz Cabbarova apardı.*
*2000.*

## «VƏZİFƏDƏ OLANDA İQTİDARI TƏRİFLƏYİB, ÇIXANDAN SONRA SÖYƏN ADAMLARDAN DEYİLƏM»

*«Əlbəttə, bu o demək deyil ki, iqtidarda mən hər şeydən razıyam.»*

*(İkinci müsahibə)*

*Yaradıcı insanların dünyasına, hamıdan gizlətdikləri aləmə daxil olmaq marağım var. Uzunmüddətli müşahidələrimdən sonra yalnız bunu deyə bilərəm ki, o aləm qaranlıq bir otaq kimidir. Sadəcə bəzilərində otağın qapısı açıqdı və sən heç olmasa, astanadan durub içəri boylanmaq (hətta içəri keçməyi bacarmasan belə) imkanı qazana bilərsən – əlbəttə ki, otaq sahibinin icazəsi ilə. Amma elə yazıçılar var ki, (dünya ədəbiyyatı tarixində də olubdur) onlarda qapı bağlıdır. Və istəsən belə, ora daxil olmaq imkanın olmayacaq. Əl çəkməyib, orada baş verənlərlə maraqlansan, sadəcə haqqında sahibin bir neçə xırda izahını eşidə bilərsən. Lap səni qane etməsə belə.*

*Müsahibim, xalq yazıçısı ELÇİN də həmin ikinci qisim yazıçılardandır. Və etiraf edim ki, onunla söhbət əsnasında «qapıda qalmaq» hissini eynilə ANARla söhbətim zamanı da keçirmişdim. Bu isə o deməkdir ki, o söhbətə nə zamansa bir daha ehtiyac olacaq.*

*Bir də... Həmin fikrin təsdiqini müsahibənin sonundakı fikirləri ilə ELÇİNin də etirafında tapdım. Əlbəttə ki, buna təəssüfləndim. Eyni zamanda da sevindim – həqiqət olduğu üçün...*

– Ədəbi mühitdən danışaq. Orada çirkinliklər var və bu, uzun illərdən bəri davam edir. Siz bilən, nə üçün bizim ziyalılarımız, yazarlarımız o mühitdə baş verənləri etiraf etmək istəmirlər?

– Mən onu deyə bilmərəm kim etiraf etmək istəmir. Vaxtilə bunu yazmışam, yenə də deyirəm. O Yazıçılar İttifaqında Mehdi Hüseynin ürəyi partladı öldü, orada yazıçılar bir-birinin üzünə

durdu, bir-birini ifşa etdi. Amma eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Yazıçılar İttifaqı Azərbaycan ədəbiyyatının inkişafı üçün çox iş görüb. O beş çap orqanında Azərbaycan ədəbiyyatını daima dərc və təbliğ edib. Azərbaycan dilini inkişaf etdirib, yaşadıb. Düzdür, Azərbaycan yazıçılarının hamısı Yazıçılar İttifaqının üzvü olub. Amma onların hamısı ifşa edən olmayıb ki... Bunların arasında ifşa olunanlar da var idi. Bunu da nəzərə alın. Yazıçılar Birliyinin üzvlərinin hamısı istedadsız olmayıb ki. İstedadlı adamlar da orda söz deyib, ədəbiyyatın təəssübünü çəkiblər. Mən Yazıçılar İttifaqının plenumlarının materiallarını oxumuşam. Vulqar sosioloji plenumlar keçirilib.

Partiya ideologiyasının prokurorluq missiyasını öz üzərlərinə götürüblər. Amma bununla belə, Yazıçılar İttifaqının nə qədər plenumları olub ki, yaradıcılıq, həqiqi ədəbiyyat məsələləri orada müzakirəyə qoyulub. Elə buna görə də Yazıçılar İttifaqı kimi qurumların üstündən qara xətt çəkmək olmaz. O yazıçı ki, şahidi olduğu, yaxud iştirak etdiyi hər hansı bir pis hadisə var və əhəmiyyətini başa düşür, lakin etiraf etmir, bu artıq onun öz problemidir. Mən güman etmirəm ki, sənin dediyin kimi üzdə olan yazıçılar elə hadisələrin şahidi olublar və bu gün onu etiraf etməli olsalar da etmirlər.

Mən bəzi yazıçılarımızın öz yazılarından imtina etmələrinin də əleyhinəyəm. Şəxsən heç bir yazımdan imtina etməmişəm. Bu yaxınlarda üç kitab hazırlamışam. «Azərbaycan ədəbiyyatının problemləri»nə otuz ildə yazdığım tənqidi məqalələr, hekayələr kitabına isə otuz ildə yazdığım hekayələr daxil olunub. Birində də dəyişiklik, ixtisar edilməyib, vaxtilə necə yazılıbsa, elədir.

– Bayaq ədəbi mühitdə olan qarşıdurmalardan danışdınız. Sizə elə gəlmirmi ki, həmin qarşıdurmalar eyni ahəngdarlığı ilə indi də davam etməkdədir, sadəcə bir az alt təbəqədə?

– Dediyiniz bu fikirdə çox ciddi həqiqət var. O zaman ideoloji qarşıdurma idi. Yəni vulqar sosiologizm həqiqi ədəbiyyata qarşı mübarizə aparırdı. Bu gün isə biz mühitdə eybəcər bir prosesin şahidi oluruq. Cızmaqara ilə məşğul olan səviyyəsiz adamlar yazıçıları iki yerə bölüblər. Birinə «sən iqtidara yaxın adamsan, ona görə də heç yazıçı deyilsən», digərinə isə «sən müxalifətə yaxınsan, ona görə də gözümün işığısan və nə yazsan şedevrdir» deyir. Bu, son dərəcədə ziyanlı tendensiyadır. Ədəbiyyatın keyfiyyətini müəyyənləşdirən yeganə meyar istedaddır. Elçin

indiki iqtidarda vəzifə tutubsa, deməli, pis yazıçıdır? Yaxud Ramiz Rövşən müxalifətə yaxındır, deməli, pis şairdir? Mən həm iqtidar, həm də müxalifət tərəfini nəzərdə tuturam.

– 1993-cü ildə siz iqtidarın komandasına dəvət olundunuz. Ona qədər isə AMİP-in təsisçilərindən biri idiniz. Əlbəttə ki, siyasət adamlarının bir cəbhədən o birinə adlamasına normal baxmaq olar. Bəs yazarın mövqe dəyişməsi ona qarşı münasibət dəyişkənliyinə səbəb olmur ki?

– Məndə qəti surətdə mövqe dəyişikliyi olmayıb. Bəli, mən AMİP-in təsisçilərindən biriyəm. AMİP-də keçirdiyim o günləri, iştirakçısı olduğum hadisələri, oradakı fəaliyyəti həyatımın xoş məqamları kimi xatırlayıram. O vaxt AMİP-in Heydər Əliyevə münasibəti müsbət idi. Və onda fikir bundan ibarət idi ki, Əliyev Azərbaycana lazımlı adamdır. Mən hələ AMİP-də ola-ola, mətbuatda Əliyev haqqında böyük bir oçerk yazmışdım. Xatırladıram ki, bu o zaman idi ki, Əliyev haqqında heç kim heç nə deyə bilmirdi. Kimi qorxurdu, kimi çəkinirdi. Sonra 1993-cü ilin yay hadisələri zamanı AMİP-də bugünkü iqtidarla əməkdaşlıq edib-etməmək barədə fikir ayrılığı oldu və bir qism insan ordan ayrıldı. O cümlədən mən, akademik Eldar Salayev, indiki xarici işlər naziri Vilayət Quliyev, hazırda muxalifətdə olan Vaqif Kərimov, Qabil Hüseynli, indi YAP-çı Mübariz Qurbanlı. Bu adamlar dediyim məsələdə fikir ayrılığı olduğu üçun ayrıldılar. Məndə mövqe dəyişikliyi olmayıb. Bu vəzifəyə gələndə kim idimsə, bu vəzifədə həmin adamam və gedəndən sonra da həmin adam – həmin Elçin olacağam. Nə ondan aşağı, nə də yuxarı. Vəzifədə olanda iqtidarı tərifləyib, çıxandan sonra söyən adamlardan deyiləm. Mənim öz prinsiplərim var. Əlbəttə, bu o demək deyil ki, iqtidarda mən hər şeydən razıyam.

Amma prinsipial məsələ odur ki, bu gün vəzifədə olub, bir söz demək, gedəndən sonra başqa – bu, yaramaz haldır.

– Heminquey faşizm əleyhinə olanlardan, Kunt Haltun faşizmin tərəfdarlarından biri idi. Bu fərqə baxmayaraq, hər ikisinin ədəbiyyatda yeri qaldı. Bizim bölünən, hətta bir-birinə qarşı ittihamlar irəli sürməkdən çəkinməyən yazarların sabahkı tarixə qalan ədəbiyyatda yerləri nə olacaq?

– Bunu istedad müəyyən edəcək.

– Yəni siyasi fəaliyyətləri kölgədə qalacaq?

– Əlbəttə ki. Hansı yazıçının siyasi fəaliyyəti yazıçılığından

üstündur? Əgər üstündürsə, deməli, yazıçı deyil, siyasət adamıdır. Ədəbiyyatda iyirmi-otuz ildən sonra kim qalacaqsa, bunu yalnız zaman və istedad müəyyən edəcək. Bu gün elə adlar çəkə bilərəm, otuz il bundan əvvəl Azərbaycan ədəbiyyatının canlı klassikləri hesab edilirdi. Amma bu gün siz xatırlasaz da, sabah sizdən sonra gələn nəsil onları heç tanımayacaq.

– Repressiya dövründən danışaq. Ədibin o dövrü xatırlatması əlbəttə ki, yazdığı, ortaya qoyduğu əsərlərlə müəyyənləşir. Siz «Ölüm hökmü»nü yazdınız. Amma həqiqətin yalnız bu cür təqdimi kifayət edirmi? Məsələn, Vaqif Səmədoğlu «atamı qınayıram ki, o dövrün həqiqətləri haqqında heç olmasa, oğul kimi mənim üçün bir şey yazıb qoymadı» deyirdi. Sizin atanızın arxivi necə, orada o dövrün deyilməyən həqiqətləri haqqında nə isə oldumu?

– Mən yazıçı kimi, sənətkar kimi qətiyyən atamı heç bir şeydə qınamıram. İlyas Əfəndiyev nə lazım idisə, ədəbiyyatda hamısını deyib. Deyə bilmədiklərini isə təbii ki, özü ilə götürüb apardı. Onun arxivində bir sıra yazılar var ki, yavaş-yavaş işıq üzü görəcək.

– İlyas Əfəndiyev evdə adam olmayanda Mircəfər Bağırovu «dördgöz» adlandırırmış...

– Bəli, amma bunları bilmək istəyən adam «Geriyə baxma qoca», «Üç atılan» romanını oxusun, hamısı orada yazılıb. Həm də sovet dövründə. Yəni mənim İlyas Əfəndiyevi qınayacaq elə bir səbəbim yoxdur. Belə hesab edirəm ki, o Azərbaycan ədəbiyyatında öz sözünü deyib.

– Deməli, repressiya dövrünün küləyi atanıza dəyməmiş keçib?

– Yox. Çünki atam o dövrdə ədəbi mühitdə yox idi. Otuz doqquzuncu ildə Bakıya gəlib və elə o il ilk hekayəsi çap olunub. Yazıçılar İttifaqına isə 1941-ci ildə daxil olub. Amma İlyas Əfəndiyevin atasının qolçomaq adı ilə səsini almışdılar. O qanundan kənar idi, nə seçmək, nə də seçilmək hüququ var idi. Atam da o zaman APİ-nin coğrafiya fakültəsinə daxil olmuşdu, lakin elə bu məsələlərə görə, təhsilini davam etdirə bilməyib. Onlar çox məşəqqətli bir həyat keçiriblər. Sonra babamı çərlədib öldürürlər, Bilqeyis nənəm böyük oğul olan atamın köməkliyi ilə yeddi uşağı böyüdüb. Atam yazıçı, ondan kiçik qardaş Mustafa Əfəndiyev tərcüməçi olub. O Lev Tolstoyun «Hacı Murad» əsərini Azərbay-

can dilinə tərcümə edib. Digər qardaşları Tofiq Əfəndiyev də yazıçıdır. Məşhur «Prokuror» romanının müəllifidir.

– Azərbaycan ədəbiyyatı sərhəddən kənara çox çıxmır. Bunun səbəbi nədir? Milliliyin çox olması, yoxsa əksinə, yetərincə olmaması?

– Məsələni bu cür qoymaq bir o qədər də dəqiq deyil.

Azərbaycan ədəbiyyatı bir çox xarici dillərdə çap olunub. Amma vacib bir məqam var sualınızda. Mən həmişə bu fikirdə olmuşam ki, bəşəriliyə gedən yol millilikdən başlayır. Heç vaxt ola bilməz ki, bəşəri yazıçı olasan, milli olmayasan. Onun başqa adı var – kosmopolit. Elə böyük yazıçı tapa bilməzsən ki, kosmopolit olsun. Əlbəttə, kosmopolitlik çox yüksək məqamdır. Sən insanlığın yüksək pilləsindəsən, insanlar, millətlər hamısı sənin üçün eynidir. Vətən ancaq yer kürəsidir, millət ancaq İnsandır... Bəşəriyyət hələ o gələcəyə gedib çatmayıb. Tolstoy Azərbaycanda çox sevilir. Nə üçün? Milli olduğuna görə. Eyni zamanda onun milliliyi bəşəriliyə aparıb çıxarıb. Hər böyük yazıçı ilk növbədə xalqının yazıçısıdır. Balzak ona görə böyük yazıçıdır ki, əsərləri ilk növbədə fransızların özünüifadəsidir.

– Azərbaycandan kənarda Elçin, Anar nəşr olunur. Sovet dövründən qalan əlaqələrinmi hesabına? Nə üçün başqaları yox, məhz Elçin?

– (Gülür.) Əgər belə fikirləşirsiniz ki, mən buradan İsveçrəyə öz kitabımı çap etdirmək üçün gedirəm, səhv edirsiniz. Bayaq göstərdiyim kitabların böyük əksəriyyətini sizin gördüyünüz kimi görmüşəm. Dərc olunandan sonra poçtla göndəriblər. Bundan əlavə, bir sıra Avropa nəşriyyatları mənim müəllif hüquqlarımı alıb. Həm də kapitalist rejimi elədir ki, istəyirsən doğma övladı ol, kitabının satılacağına inanmasalar, heç vaxt çap etməzlər. Sovet İttifaqında Elçini çap edirdilər, amma Yazıçılar İttifaqının beş yüz üzvü var idi, bəs onları nə üçün etmirdilər? Əlaqə yaratmaq pis şey deyil. Lakin əsərində məna yoxdursa, bu heç nəyi həll etmir.

– Elçin müəllim, məni narahat edən məsələlərdən biri haqda soruşum. Beynəlxalq yazarların təşkilatı mövcuddur – PEN-klub. Amma orada bir nəfər də olsun, Azərbaycandan üzv yoxdur. Nə üçün? Məsələn, siz heç maraqlanmısınızmı?

– Mən bu məsələnin içində deyiləm və PEN-klubla heç bir əlaqəm yoxdur. Çünki ehtiyacım olmayıb.

– Bu gun ədəbiyyat aləmində də ən yüksək mükafat sayılan

«Nobel mukafatı»... Nəinki Azərbaycandan, heç türk dünyasından da ora, heç olmasa, təqdim olunanlar da yoxdur.

– Nə olsun? Mən Tolstoy deyiləm, amma o da «Nobel» almayıb. Bu, göstərici deyil. Azərbaycan yazıçılarının əsərləri dünyaya rus dilinə tərcümə olunmaqla çıxıb. Bu, böyük maneədir. İkinci tərəfdən isə İslandiya kimi kiçik ölkənin «Nobel mükafatı» laureatı var. Amma o böyüklükdə Ərəb dünyasından yalnız keçən il bir nəfər alıb. Yaxud türk ədəbiyatından yalnız Yaşar Kamal təqdim olunub, ancaq almayıb. Rus ədəbiyyatında Şoloxov alıb. Əlbəttə ki, layiqdir. Sonra Soljenitsin də aldı, amma onun mükafatını mən ədəbiyyat mükafatından daha artıq, siyasi mükafat sayıram. Və bu məsələdə məni narahat edən və düşünülməli tərəf Azərbaycan ədəbiyyatının xaricə təqdim olunmasıdır. Bu, proqram şəklində işlənib qarşıya qoyulmalı və onunla ciddi məşğul olunmalıdır.

– Və bu kimin öhdəsinə düşür?

– Bizim hamımızın. Həm dövlətin, həm ayrı-ayrı qurumların, Yazıçılar Birliyinin, həm də yazıçıların və eləcə də mənim özümün – həm yazıçı, həm də hökumətdə işləyən adam kimi. Amma bunları demək asandır, həyata keçirmək çətin.

– Gündəlik yazırsınızmı?

– Var elə yazılarım. Amma böyük bir qismi çox pinti vəziyyətdə idi. Onların ədəbiyyatla əlaqədar hissələrini çap etdirirəm. Amma orada həyatla, dostlarla əlaqədar hissələr də var. Yazmaqdan əlavə gündəlik oxumağı çox xoşlayıram.

– Elə mən də. Amma bir həqiqət də var. Hətta ən səmimi yazıçı – İnsan belə özü üçün səmimiyyət sərhəddi cızır və oxucunun ümid etdiyi, heç olmasa, gündəliklərdə o sərhəddin keçilməsi ehtimalı var. Və çox zaman yanılırsan. Çünki gündəliyi də yazan yazıçı onun nə vaxtsa oxunacağını bilir və orada da yazıçılığını kənara qoyub axıra qədər səmimi olmur.

– O fikirdə həqiqət var, həm də bu tək yazıçıya yox, İnsana aiddir. Səmimiyyət son dərəcədə intim xüsusiyyətdir. Tam səmimi olan adam yoxdur və yaxşı da ki, yoxdur. Çünki hər adamın xüsusi dünyası var ki, orada başqa bir adamın olması mümkün deyil. Səmimi yazıçı var. Axıra qədər səmimi yazıçı isə yox. Əgər varsa, deməli, o anormaldır.

*Müsahibəni Nərgiz Cabbarova apardı.*
*2000*

## O YERİ BİZ TAPA BİLMƏRİK...

*(Suallara cavab)*

Vaqif Bayatlı Onər: Elçinin «Ədəbi düşüncələr»ində oxudum ki, İlyas müəllimlə Vidadi Məmmədovu xatırlayıblar. Sonra İlyas müəllim göyə baxıb, ondan soruşub ki, səncə, Vidadi indi göy üzünün harasındadır? Mən də Elçin müəllimdən soruşmaq istəyirəm ki, görən biz hardayıq, göy üzünün harasında?

Elçin. – Əzizim Vaqif, o yeri biz tapa bilmərik, çünki hələ ki, biz bu dünyanın sakinləriyik... Sənin sualının cavabı, yəqin, biz göy üzünə köçəndən sonra bilinəcək.

Fəridə Məmmədova: Elçin müəllim, komediyalarınızda söyüş çox olur. Həyatda da beləsiniz?

Elçin. – (Gülür.) Yox. Səhnədəki o söyüşlərin isə müəllifi, çox zaman mən yox, ifaçı artistlərin özü olur...

Sədi, «Xalq cəbhəsi» qəzeti: Yazıçılar nə vaxtacan ssenari yazıb kinomuzu yaman günə qoyacaqlar?

Elçin. – Bəs ssenarini kim yazmalıdır? Ssenariçinin özü də yazıçı deyil?

Nərgiz, Əfəndiyevlərin daimi oxucusu: Ədəbiyyat yolunuzu övladlarınız davam etdirirmi?

Elçin. – Hələ ki, tam şəkildə yox. Böyük qızım Günay həkimdir, amma yazı-pozuya da həvəslidir, hətta bir hekayə də dərc etdirib...

Qulu Ağsəs. İlyas Əfəndiyevin oğlu olmaq yazıçı Elçinə nə qədər kömək eləyib və nə qədər mane olub?

Elçin – İlyas Əfəndiyevin oğlu olmaq yazıçı Elçinə yaradıcı mühit, lap körpəlikdən kitaba, sənətə hörmət mənasında kömək edib. Heç bir maneçilik isə olmayıb. Bəzən gülməli hadisələr olub. Misal üçün, mən 25 yaşında «Azərbaycan bədii nəsri ədəbi tənqiddə» adlı namizədlik dissertasiyası yazıb müdafiə etdim. Müdafiə zamanı rəhmətlik Abbas Zamanov, Mehdi Məmmədov və başqaları bu işə görə birdən-birə doktorluq adı verməyi təklif edirdilər. Sonra o vaxtın qaydasına görə iş təsdiq olunmaq üçün Moskvaya, Attestasiya Komitəsinə göndərildi. O zaman ora Bakı-

dan bir atəşli anonim məktub yazmışdılar ki, bu dissertasiyanı Elçin özü yox, atası yazıb. Rəhmətlik İlyas Əfəndiyev gülə-gülə deyirdi ki, əşşi, mənim dissertasiya yazmaq hövsələm olsaydı, əvvəlcə elə özümçün yazardım də... Beləcə böhtan və şayiələri mən lap cavanlıq çağlarımdan görmüşəm və təəssüf ki, görə-görə də gəlirəm...

Jurnalist: Deyirlər ki, Baş nazirin müavini kimi, Azərbaycanda kağız mafiyasına Siz başçılıq edirsiniz. Qəzetləri niyə sıxışdırırsız?

Elçin. – (Gülür.) Görürsüz ki!.. Adsız jurnalist dostumu nigaran qoymaq istəmirəm. Yox, əzizim, mən heç bir mafiyaya və o cümlədən dediyiniz o «kağız mafiyası»na da başçılıq etmirəm. Ümumiyyətlə, mənim belə bir bacarığım yoxdur.

Rəşad Məcid «525-ci qəzet»in Baş redaktoru: Son bir neçə ayda «525-ci qəzet»də Sizin üç hekayəniz dərc olunub. Şənbə günü dərc olunan «Sarı gəlin»in təsirindən hələ də çıxa bilməmişəm. Hekayədə azərbaycanlı musiqiçi Fətulla kişinin qədim bir balabanın Nyu-Yorkda BMT-nin ofisi yanında yaşayan bankirin evinə gedib çıxmasından danışılır. Uzun müddət «Sarı gəlin»ə həsrət qalan həmin balaban qəfildən BMT-nin ofisinin yanında öz-özünə başlayır çalmağa. «Sarı gəlin»in bu yanıqlı nidası həmin BMT-nin ofisində də eşidiləcəkmi? Hekayədəki kimi o mahnını eşidib havalanan olacaqmı? Elçin müəllimin hekayələrinin adətən davamı olur? Bu hekayənin davamı olacaqmı?Bilirəm ki, xeyli müddət məzuniyyətdə olmusunuz. «Sarı gəlin»dən başqa sürprizlər də olacaqmı? Son vaxtlar dərc olunan hekayələrində indiki iqtisadi çətinliklər dəqiq və inandırıcı təsvir olunub. Elçin müəllim Baş nazirin müavinidir, əsasən, rəsmi tədbirlərdə olur. Bu insanların problemlərindən necə xəbər tutur? Necə olur ki, problemləri belə dərindən bilir? Özü təmasda olur həmin adamlarla, yoxsa bütün bunlar, sadəcə, təxəyyülünün nəticəsidir?

Elçin – Əvvala, «Sarı gəlin»lə bağlı o hissiyata görə çox sağ ol, ikincisi, əzizim Rəşad, mən də çox istərdim ki, «Sarı gəlin»in nidası sənin dediyin o rəmzi mənada BMT-də eşidilsin, amma təssüf ki, bu nə sənin, nə də mənim istəyimdən asılıdır. Əgər eşitsəydilər, bu gün Qarabağ düyünü açılmış olardı. Eşitsəydilər, bədnam 907-ci düzəliş olmazdı. Eşitsəydilər, elə BMT-nin özünün qərarları yerinə yetirilərdi.. Bu hekayənin davamı olacaqsa – güman edirəm ki, olacaq – onu oxucular, Allah qoysa, «525»-də

oxuyacaqlar. Bəli, məzuniyyətdə oldum və xeyli işlədim (belə məzuniyyətdən danış!). Amma sənin dediyin o «sürpriz»lər yəqin ki, zamanı yetişəndə üzə çıxacaq. Təkcə onu demək istəyirəm ki, bizim çox istedadlı rejissorumuz Mehriban Ələkbərzadə üçün «Qatil» adlı bir dram yazmışam. O ki, qaldı, «insanların problemlərindən necə xəbər tuturam», sən uzun müddətdi məni tanıyırsan, həm də fəhmli bir adamsan, ona görə də mənə verdiyin sualın cavabını da özün tap ki, Elçin «özü təmasda olub həmin adamlarla, yoxsa bütün bunlar sadəcə təxəyyülünün məhsuludur»?

Orxan: Həsənağa Turabovun belə qəfil işdən çıxmasına necə baxırsınız? Ola bilərmi ki, eyni aqibət Sizi də gözləsin? Siz, bir də Polad Bülbüloğlu vəzifədə olan sənət adamlarısız. Sizinçin nə vacibdir, məmurluq karyerası, yoxsa yaradıcılıq?

Elçin – Həsənağa Turabov bizim çox ləyaqətli və istedadlı sənət adamlarımızdan biridir və uzun illərdir ki, mənim də şəxsi dostumdur. O, ərizə verərək teatrın rəhbərliyindən gedib, sənətdən getməyib. Eyni zamanda, Həsənağa Turabov Teatr Xadimləri İttifaqı kimi nüfuzlu bir təşkilatın başçısıdır. O ki, qaldı, mənimlə bağlı dediyiniz o «aqibətə», məndə heç vaxt elə bir «aqibət» xofu olmayıb, vəzifə daimi bir şey deyil və bundan da nə sensasiya, nə də faciə etmək lazımdır. İkinci sualınıza gəldikdə isə, mən bunu həmişə demişəm və yenə də təkrar edirəm: mən ilk növbədə yazıçıyam.

Mənsurə İbadova, filoloq: Elçin siyasi xadimdir, ədəbi xadim?

Elçin. – Elə bilirəm ki, bu suala artıq cavab verdim. Bir də ki, şəxsiyyəti bir neçə yerə ayırmaq lazım deyil, insan onsuz da mürəkkəb bir varlıqdır...

Rasim Qaraca: 60-cı illər ədəbi nəsli sıralamasında özünüzü neçənci yerdə görürsünüz? Nəyə görə? Dünya ədəbiyyatı nümunələrinin dilimizə tərcümə olunması məsələsi problem olaraq qalmaqdadır. Nə üçün imkanlarınızdan istifadə edib bu məsələdə dönüş yaratmırsınız? Bunu Siz etməsəniz, kim edəcək?

Elçin – Ədəbiyyatda hər yazıçının öz yeri var və bu yer həmin «sıralama» çərçivələrinə sığışmır. Elçinin 60-cı illər ədəbi nəslinin yaradıcılığında öz məxsusi yeri var, ondan yaxşı da yaza bilərlər, ondan pis də yaza bilərlər, amma onun yazdığını heç kim yaza bilməz. Bu, ədəbiyyatda və ümumiyyətlə, sənətdə mənim üçün çox prinsipial bir məsələdir.Tərcümə sahəsindəki dönüşü

isə ilk növbədə istedadlı tərçüməçilər yaratmalıdır və o tərcüməçiləri yetişdirmək isə bizim borcumuzdur. Bu gün Azərbayçanda tərçümə sahəsindəki əsas problem odur ki, dünya ədəbiyyatını bilavasitə orijinaldan – ingilis dilindən, fransız, alman, ispan, yapon, çin və b. dillərdən Azərbaycan dilinə istedad və səriştə ilə çevirəcək tərcüməçilər yoxdur. Eləcə də əksinə, Azərbaycan ədəbiyyatını həmin dillərə tərcümə edə biləcək yaradıcı qələm sahibləri yox dərəcəsindədir. Bəli, biz Füzulini də, Mirzə Fətəlini də, Mirzə Cəlili də, Sabiri də dünya ictimaiyyətinə layiqincə təqdim etməyi bacarmamışıq, bu – faktdır. Ancaq bu işi bizim yerimizə hansısa bir ingilis, yaxud fransız gəlib görməyəcək. Bu işi biz özümüz görməliyik. Hətta rus dili ilə bağlı da, bizim səriştəli tərcüməçilərimizin sayı o qədər də çox deyil. Mən hələ 70-80-ci illərdə bu barədə cox yazmışam, çox məsələlər qaldırmışam. O zaman Azərbaycan dilində «Dünya ədləbiyyatı kitabxanası»nın, «Uşaq ədəbiyyatı kitabxanası»nın ilk proyektlərinin müəllifi mən olmuşam, onların layihələrini, mündərəcatını, annotasiyalarını özüm makina arxasında oturub bir-bir yazmışam və sonralar həmin nəşrlərin bir çox cildləri də çapdan çıxdı. Amma təəssüf ki, 80-ci illərin sonlarından etibarən davam etmədi. Mən klassik yapon poeziyasından nümunələri dilimizə çevirib, onlara şərhlər yazaraq «Nərgizin bircə ləçəyi» adı ilə 1979-cu ildə kitab kimi nəşr etdirdim. Bu, klassik yapon ədəbiyyatı ilə bağlı Azərbayçanda nəşr olunmuş ilk kitab idi. Amma, əlbəttə, yaxşı olardı ki, o kitab bilavasitə yapon dilindən tərcümə olunaydı. Mən isə onları rus dilindən tərcümə etmişdim. Yaxud 1982-ci ildə müasir dünya ədəbiyyatından (yadıma gəlir, Moruanın, Laksnesin, Truayyanın, Skott Fitsçeraldın, Bredberinin, Apdaykın və b. hekayələri idi, Pirandellonun, Malsın, Xoinskinin pyesləri idi və s.) nümunələr tərcümə edib «Necə oldu ki, Pyer Duş məşhurlaşdı?» adı ilə nəşr etdirmişdim. Sonra Molyerin komediyalarını tərcümə etdim... Ancaq, sual verən dostum düz deyir, tərcümə, həll olunması vacib, çox aktual bir problem kimi gündəlikdədir və biz bir sıra tələbənin xarici ölkələrdə bu sahədə təhsil almağa getməsinə nail olmuşuq. Onlar təhsillərini başa vurub Vətənə qayıtdıqdan sonra, ümid edirəm ki, bədii tərcümə sahəsində bir dönüş mərhələsi başlayacaqdır. Mənim üçün xoşdur ki, yeni ədəbi gəncliyin nümayəndələri tərcümənin əhəmiyyətini bu sualdakı kimi qiymətləndirməyi bacarırlar.

Lalə: Bu gün teatrlarımızda Sizin əvvəlki əsərləriniz səhnələşdirilir. Həmin pyeslərə düzəlişlər edirsinizmi?

Elçin. – İndiyə qədər mənim iki romanım – «Mahmud və Məryəm» və «Ölüm hökmü» – bizim istedadlı və zəhmətkeş rejissorumuz Loğman Kərimovun təşəbbüsü ilə səhnələşdirilib və Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulub. Onlara yalnız dramaturji baxımdan əl gəzdirmişəm. Bu yaxınlarda isə Şuşa Dövlət Teatrı mənim iki hekayəm – «Şuşaya duman gəlib» və «Ayaqqabı» – əsasında yenə də Loğmanın təşəbbüsü və quruluşu ilə tamaşa göstərib. Qalanları isə – «Ah, Paris, Paris!..», «Mən sənin dayınam», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir», «Poçt şöbəsində xəyal» – orijinal səhnə əsərləridir.

Anonim: Sifarişlə dram əsəri yazırsınızmı? İlyas müəllimə necə, teatrdan sifariş verilirdimi? Və ümumiyyətlə, sifarişli pyeslərin keyfiyyəti barədə nə fikirdəsiniz?

Elçin. – Mən sifarişlə nəinki dram əsəri, ümumiyyətlə, heç bir bədii əsər yazmamışam. Yalnız gənclik çağlarında qonarar xətrinə, Mədəniyyət Nazirliyinin sifarişi ilə rus dilindən cürbəcür pyeslər tərcümə etmişəm, yaxud Səhiyyə Nazirliyinin sifarişi ilə sağlamlıq plakatlarına (misal üçün, qrip əleyhinə) mətnlər yazmışam və indi onlar xoş və gülməli bir xatirə kimi hərdən mənim yadıma düşür. İlyas Əfəndiyev də sifariş ilə heç bir bədii əsər yazmayıb. İstəyir sifarişlə yazılmış olsun, istəyir sifarişsiz, o əsərin ki, bədii-estetik səviyyəsi yüksəkdir, deməli, yaxşıdır, aşağıdırsa, pisdir.

Müəllimə: «Molla Nəsrəddin» bir gün dil-ədəbiyyat müəllimlərinin nəzərinə çatdırır ki, Əhməd ölüb, özünüzə başqa bir mübtəda tapın. Deyirəm, görən bir gün «Və» ölsə, Elçin müəllim neyləyər?

Elçin. – Əvvəla müəllimədən xahiş edirəm ki, «Və»ni ölməyə qoymasın, çünki çox vacib bağlayıcıdı və mən də onu çox sevirəm, müəllimə düz tutub. İkincisi də, arzu edirəm ki, hörmətli müəllimə mənim (və eləcə də, başqalarının) yazılarımı oxuyanda «Qrammatika»dakı bəzi təriflərə bir az azad, sərbəst, yaradıcı yanaşsın. Ancaq ümumilikdə isə «Qrammatika» qaydalarına riayət etmək lazımdır.

Tahir Məmmədov: Yazıçıların ədəbiyyata dair fikirləri heç də öz yazdıqlarından az maraqla oxunmur. Anarın esseləri, Əkrəm Əylislinin «Ədəbiyyat yanğısı» kitabı və Sizin «Ədəbi düşüncə-

lər» ədəbiyyatsevərlər arasında kifayət qədər populyarlıq qazanıb. Bu, həm də ədəbi tənqidin zəifliyinə dəlalət etmir ki?

Elçin. – Bu gün Azərbaycanda ədəbi tənqid tam bir böhran içindədir. Amma güman edirəm ki, sizin adlarını çəkdiyiniz yazıların maraq doğurması yalnız ədəbi tənqidin zəifliyinə görə deyil.

Araz: Mətbuatdan öyrəndim ki, gələcək seçkilərdə prezidentliyə namizədliyinizi irəli sürmüsünüz. İqtidara gəlsəniz, bu iqtidardan nəylə fərqlənəcəksiniz?

Elçin. – Mən heç vaxt, heç kimin yanında prezidentliyə namizədliyimi irəli sürməmişəm və sürməyəcəyəm, sadəcə olaraq ona görə ki, heç vaxt belə bir fikirdə olmamışam və hörmətli Araz, sizi inandırıram ki, heç vaxt da belə bir fikirdə olmayacağam. Allah qoysa, 2003-cü ilin seçkilərində mən, həmişə olduğu kimi, yenə də yalnız və yalnız seçici kimi iştirak edəcəyəm.

Anonim: «Vətən» Cəmiyyəti Sizin sədarətiniz dövründə xaricdə yaşayan azərbaycanlılarla ardıcıl iş aparıb, Azərbaycan lobbisinin yaranmasında əlindən gələni əsirgəmirdi. Baş nazirin müavini vəzifəsinə təyin olunandan sonra bu Cəmiyyətin işi sönük görünür. Bəlkə Siz əvvəlki vəzifənizə daha çox lazım idiniz?

Elçin – «Vətən»in fəaliyyəti ilə bağlı dediyiniz səmimi sözlərə görə çox sağ olun. Ancaq «Vətən»in bugünkü fəaliyyətini qiymətləndirəndə, elə bilirəm, nəzərə almaq lazımdır ki, dövr dəyişib, qorxunc sovet sərhədləri qaldırılıb, söz azadlığıdır, gəliş-gediş tamam sərbəstdir və s. İndi «Vətən»dən on il bundan əvvəlki kimi bir fəaliyyət tələb etmək, güman ki, düz deyil. Vəzifəyə gəldikdə isə, mən «Vətən»dəki vəzifəmdən çıxmamışam...

Zamin Haçı «Azadlıq» qəzeti: «Ölüm hökmü»nü yazmış Elçin özünü yazıçı kimi hiss edirmi?

Elçin – Bilmirəm, bu sualın müəllifi gəncdir, yoxsa yox, amma bu sualı yaradan daxili ovqat mənə elə həmin «Ölüm hökmü» romanındakı tələbə surətini xatırlatdı. Bu sualın arxasında, daxili aləmin dərin və qaranlıq, dibi görünməyən, bəlkə də faciəvi bir qadirsizlik, əlacsız bir qadirsizlik kompleksi var... Belə adamlardan incimək olmaz, çünki həyat onsuz da onlar üçün müsibətdir...

Çingiz İskəndərzadə: Elçin müəllim ən yaxşı yazıçılardan biridir. Həm də Nazirlər Kabinetində sədr müavinidir. Vəzifə sahibi olub, korrupsiyaya qarşı mübarizə aparırmı?

Elçin. – Hörmətli Çingiz! Korrupsiyaya qarşı hamımız bir-

likdə mübarizə aparmalıyıq. Rüşvət alan, deyək ki, bəli, vəzifə sahibidir. Bəs rüşvət verən kimdir? Korrupsiya qarşılıqlı bir anlayışdır və ona qarşı mübarizə bütün millətin daxilində olmalıdır.

Arifə Mahmudova: Dövr dəyişdikcə, adamların adətlərə münasibəti də dəyişir. İllər uzunu «Mən Allahı öz içimdə görürəm» deyən Ramiz Rövşən də indi oruc tutur. Siz necə? Bu il oruc tutdunuz?

Elçin. – Ramizin oruç tutmağı ilə Allahı öz içində görməsi arasında mən bir təzad görmürəm. Şəxsi səciyyəli suallar isə, ona görə şəxsi səciyyəlidir ki, onları mətbuat vasitəsilə verməzlər...İndi isə, deməli, dostum Kamal Abdullaya bir sual verməliyəm? Yaxşı... «– Əzizim Kamal, necəsən?»

*2001.*

## İŞGÜZAR SƏFƏR

Bu ilin sentyabr ayında BMT-nin Baş Assambleyasının Xüsusi Sessiyası – uşaqlara dair dünya dövlətləri başçılarının Zirvə Görüşü keçiriləcəkdir. Yanvar ayının 29-dan fevralın 3-nə kimi Nyu-Yorkda BMT-nin həmin sammitə hazırlıq Komitəsinin İkinci Əsas Sessiyası keçirilmişdir. Respublika Prezidentinin sərənçamı ilə hazırlıq Komitəsində Azərbayçan Respublikası Prezidentinin şəxsi nümayəndəsi təyin edilmiş Baş Nazirin müavini Elçin Əfəndiyev İkinçi Əsas Sessiyanın işində iştirak etmişdir. Müxbirimiz Elçin Əfəndiyevlə görüşüb müsahibə almışdır.

– Elçin müəllim, xahiş edirik səfəriniz haqqında qısaça da olsa məlumat verəsiniz.

– 1990-çı ildə BMT-də Ümumdünya Zirvə görüşü keçirilmişdi və orada qərara alınmışdı ki, gələçək nəslin problemləri son dərəçə aktual mahiyyət kəsb etdiyi üçün, həmin problemlər dünya miqyasında çiddi öyrənilməli, təhlil olunmalı və bu problemlərin həlli ilə bağlı xüsusi Ümumdünya Zirvə görüşü keçirilməlidir. Əlbəttə, belə bir narahatlıq təsadüfi deyil. Təəssüflər olsun ki, XX əsrin son onillikləri qlobal sarsıntılarla, siyasi-ictimai kataklizmlərlə, qanlı təçavüzlər və təbii fəlakətlərlə «zəngin» olmuşdur. Bu zaman, təbii ki, ən çox zərər çəkən, həm maddi, həm də mənəvi sıxıntılara məruz qalan uşaqlardır. Bunu elə Azərbaycanın timsalında da aydın görmək olar. Ölkəmizdə bir milyondan çox qaçqının əsas hissəsi uşaqlardan ibarətdir və onların hüququ tapdaq altındadır, onlar normal təhsildən, səhiyyə xidmətindən, məişət atributlarından məhrumdur. Bu baxımdan Azərbaycan, payızda keçiriləçək dövlət başçılarının Ümumdünya Sammitinin işində, şübhəsiz ki, çox maraqlıdır və mən qəbul olunaçaq Əsas Sənədlə bağlı verdiyim təkliflərdə, keçirdiyim görüşlərdə Respublikamızda təzahürünü tapmış problemləri diqqət mərkəzinə çəkirdim.

– Keçirdiyiniz görüşlər barədə nə deyə bilərsiz?

– Çox gərgin bir qrafiklə işləyirdik. Hazırlıq Komitəsinin sessiyası BMT-də səhər saat 10-da işə başlayır və bir saatlıq fasilə ilə axşam saat 6-ya qədər davam edirdi. Buna baxmayaraq mən

Meksikanın BMT-dəki xüsusi nümayəndəsi, səfir cənab Manuel Tello, Perunun səfiri cənab Corç Luis Valdes Korilla, Əlcəzairin səfiri cənab Abdulla Bali, Bəhreynin səfiri cənab Casim Məhəmməd Byula, Omanın səfiri cənab Fuad Mübarək əl-Hinai, Burkina-Fasonun səfiri çənab Mikel Kofando, Avstriyanın səfiri cənab Hernard Pfanzelter, YUNİSEF-in Regional direktoru cənab Filip S.O.Brayn, YUNİSEF-in Baş icraçı direktoru xanım Karol Bellami ilə rəsmi görüşlər keçirdim. Bu görüşlərin keçirilməsində bizim BMT-dəki nümayəndəliyimizin işgüzarlığını qeyd etmək istəyirəm. Mən bu görüşləri çox əhəmiyyətli hesab edirəm. Görüşlər zamanı söhbət məhdud bir mövzu ətrafında getmirdi. Biz müxtəlif siyasi hadisələr haqqında fikir mübadiləsi aparırdıq, mən respublikamızdakı vəziyyət barədə, bizim istək və ehtiyaclarımız haqqında, o cümlədən, təbii ki, erməni təcavüzü, işğal olunmuş torpaqlarımız və bir milyondan çox qaçqınlarımızla bağlı məlumatlar verirdim, ölkələrimiz arasındakı əməkdaşlığı artırmaq üçün təklifləri müzakirə edirdik. Elə bilirəm ki, bu görüşlər həmin ölkələrlə Azərbaycanın BMT-dəki nümayəndəlikləri arasında əlaqələrin daha da sıx olması baxımından, yəni ciddi problemlərin BMT-dəki gələcək müzakirələri, səsvermələr zamanı kordinasiyalı fəaliyyət göstərə bilmək işində əhəmiyyətli oldu. YUNİSEF-in rəhbərliyi ilə, xüsusən, xanım K.Bellami ilə danışıqlarımız da respublikamızda gələcək nəsillərin hərtərəfli yetişməsi üçün münbit beynəlxalq şərait yaratmaq, bu nüfuzlu təşkilatın Azərbaycandakı fəaliyyətində daha effektli nəticələr əldə etmək baxımından çox xeyirli oldu.

*Azər.TAC.*
*2001.*

# MƏN İNSANIN İÇƏRİSİNDƏKİ AZADLIĞIN TƏRƏFDARIYAM

İllər ötüb keçəcək. Tarixdə daha böyüklər və daha güclülər qalacaq.

Amma bu gün o xoşbəxt ədəbiyyat nəhənglərinin kimliyi və ünvanı gələcək zamana məxsus sirlərdən biridir.

Xalq yazıçısı Elçinlə həmsöhbət olarkən mən o müqəddəs gələcəyə boylanmaq istəsəm də, xəyalım yenə də keçmişdə cərəyan edirdi. Bugünkü ədəbiyyatı Mirzə Cəlillər, Sabirlər, Cavidlər yaradır. Bizim balalarımıza məxsus olan zaman isə gözlərini hələ ki indiyə zilləyib. Gələcək böyük ədəbiyyatın təmənnasındadır. Bu gün isə...

– Elçin müəllim, qəribədir ki, artıq Azərbaycan cəmiyyətində iqtidar-müxalifət münasibətləri ədəbi həyatımıza da sirayət edib və o da heç kəsə sirr deyil ki, bizdə az qala ədəbiyyatın özü də iki qütbə: iqtidar-müxalifət qütblərinə bölünüb. Bu, əlbəttə iqtidara mənsub ədəbi qüvvələrlə müxalifətə mənsub olan ədəbi qüvvələr mənasında deyil, sadəcə iqtidarda olan ədəbiyyatla müxalifətdə olan ədəbiyyatın münasibətləri şəklində başa düşülür.

– Xüsusən, mətbuatda dərc olunan qeyri-ciddi və qərəzli yazılarla əlaqədar əvvəllər də demişəm və bir daha təkrar edirəm ki, ədəbiyyatı, ümumiyyətlə, sənəti iki yerə bölmək olmaz. Sənətin yeganə meyarı istedaddır və bu təsnifatda bir bölgü var: istedadlı sənətkar və istedadsız sənətkar. Bu baxımdan «Yeni Azərbaycan» qəzetinin ədəbiyyat səhifələri verməyini mən çox təqdir edirəm və bunu indiki vaxtda, indiki zamanda xüsusi olaraq əhəmiyyətli hesab edirəm. Nə üçün indiki vaxtda deyirəm, ona görə ki, bu gün çox təəssüflər olsun ki, ədəbi proses yox dərəcəsindədir. Və mən bunu böyük ürək ağrısı, böyük təəssüf hissilə qeyd edirəm. Yadınıza salıram, 70-ci, 80-ci, 90-cı illərin əvvəllərini. Azərbaycanda çox maraqlı bir ədəbi proses var idi. Yəni, Azəraycan maraqlı bir ədəbi həyat yaşayırdı. Ədəbiyyat söhbətləri gedirdi, ədəbiyyat haqqında fikir mübadiləsi, ədəbiyyat mücadiləsi aparılırdı, ədəbiyyatın maraqları güdülürdü. Əsərlər hadisəyə çevrilirdi.

– Və, eyni zamanda, ədəbiyyat düşüncələri formalaşdırırdı, cəmiyyəti tərbiyə edirdi...

– Ədəbiyyat, əgər həqiqi mənada ədəbiyyatdırsa, o əlbəttə ki, siz dediyiniz missiyanı da yerinə yetirməlidir. Bu bir başqa məsələdir ki, indi yerinə yetirə bilir, ya yox? İbtidai dövrdən üzü bəri ədəbiyyat həmişə Şərlə Xeyirin mübarizəsindən, Xeyirin müttəfiqi olub. Amma o mənada hələ ki, Xeyir Şərə qalib gəlməyib. Ədəbiyyat, Siz deyirsiniz ki, nəsil tərbiyə etməlidir, yəqin o da ədəbiyyatın missiyalarından biridir. Amma nə dərəcədə ədəbiyyat buna nail olur, onu deyə bilmərəm.

– 60-cı illərin ədəbiyyatı bir nəsil yetişdirdi. Sizcə indiki nəsil gələcək üçün yeni bir nəsil yetişdirə biləcəkmi?

– Bunu indi hamı etiraf edir. Heydər Əliyev dəfələrlə deyib ki, 60-cı illər Azərbaycan sənətinin milli fikrinin formalaşmasında 60-cı illər ədəbiyyatının böyük xidmətləri olub. Eyni zamanda, Əbülfəz Elçibəy də deyib ki, 60-cı illər ədəbiyyatının Azərbaycan milli şüurunun yetişməsindəki rolu böyükdür.

Amma bu gün elə bir nəsil yaranacaqmı ki, o gələcək nəsilləri, gələcək vətənpərvərləri, böyük intellekt sahibi olacaq insanları yetişdirə bilsin. Bunu demək mənim üçün bir az çətindir. İndiki nəslin içərisində mən əlbəttə maraqlı, istedadlı adamlar görürəm. Xüsusən şerdə. Məsələn Rasim Qaracanın, Adil Mirseyidin şerlərini mən maraqlı hadisə hesab edirəm. Bu şairlər şübhəsiz ki, istedadlı və özlərini ədəbiyyatda ifadə etmək qabiliyyətinə malik insanlardır. Ancaq onlar o qədər də gənc deyil. Gənc ədəbi nəslin isə içərisində elələri var ki, deyir: Bizdə ədəbiyyatşünaslıq yoxdur, elçinşünaslıq, anarşünaslıq var. Bunu mən özüm oxumamışam, amma Əsəd Cahangirin mənim haqqımdakı məqaləsindən bilmişəm. Əlbəttə, gülməli bir şeydir (gülür). Məgər Elçin, Anar ədəbiyyata o qədər yad adamlardı ki, Elçindən yazan elçinşünas ədəbiyyatşünas ola bilməz? Bu bir. İkinci, mən sizə çox səmimi deyirəm, 60-cı illərdə mən də inkarçı olmuşam, tənqid etmişəm, amma kin-küdurət bəsləməmişəm. Yəni mən nəyin bahasına olursa-olsun kimləri isə «ifşa etmək» həvəsində olmamışam. Belə yaramaz.

Əgər sən belə hesab edirsənsə ki, Elçin haqqında yazmağın ədəbiyyata dəxli yoxdur, gərək bunu sübut edəsən. Gərək sübut edəsən ki, Elçin filan romanını aşağı səviyyədə yazıb, bunun bədii-estetik səviyyəsi dəyərsiz olduğuna görə, Elçin haqqında yaz-

mağın ədəbiyyata dəxli yoxdur. Yoxsa, elə-belə ağzına gələni de, bu gülünc bir şeydir... Bilmirəm o oğlan hansıdır... Əgər səhv etmirəmsə, 70-ci illərin axırlarında Vaqif Cəbrayılzadə biri oğlanı mənimlə tanış etdi. Dedi ki, bu Qafar Kəndlinin oğludu və Həzrət Məryəm haqqında bir poema yazıb. Herisçini, həmin adamdırsa, mən o vaxt görmüşəm. Rəhmətlik Qafar Kəndli layiqli ziyalılardan biri idi və yaxşı da ədəbiyyatşünas idi. Onda o poemanı oxudum və o oğlanla söhbət etdim. Sonra görmədim, bilmirəm nə oldu-nə olmadı, hara getdi, bilmədim. İndi eşidirəm orda-burda müsahibə verir. Amma bunların müqabilində bilmirəm, bir şey yazıb ortaya qoyubmu? Amerika yazıçısı Kolduelin bir hekayəsi var. Təsvir edir ki, yarmarkada bir pəhləvan dayanıb əzələlərini oynadır. Pəhləvanın meneceri deyir ki, ay camaat dayanın, baxın, pul verin, bu böyük bir pəhləvandır, bir dəfə yumruğuyla bir öküzün başından vurdu, öküz yerə yıxıldı, bir dəfə qatarı yolundan çıxartdı... Camaat heç fikir vermir. Axırda bir alkoqolik kişi keçəndə görür ki, bu menecer çox boşboğazlıq edir. Deyir ki, əşi, sən bu qədər söz deyincə, qoy bu pəhləvan əyilib yerdən bir daş qaldırsın, camaat da görsün ki, daş qaldırıb, yığışsınlar başına. İndi də, Herisçi dostum, sən özün bir şey yaz, qoy ortaya, baxaq görək nə deyirsən? Sonra da məni inandır ki, Elçinin ədəbiyyata dəxli yoxdur, mən də sənə minnətdar olum və canım da bu ədəbiyyat dediyim bəladan qurtarsın.

– Biz tarixi bir dönəmdəyik. Ədəbiyyat belə bir tarixi məqamda məfkurəyəmi, yoxsa bədiiyyatamı meyl etməlidir? Ümumiyyətlə, bizə məfkurə ədəbiyyatı lazımdırmı?

– Fəlsəfilik, siyasilik, bədiilik bir-birini inkar etmir. Məsələn, İtaliya intibahı illərində fəlsəfi traktatlar da yazılırdı, elm də inkişaf edirdi, amma, eyni zamanda, «Dekameron» yazılırdı. Bu gün təəssüf ki, Azərbaycanda xəstə bir siyasiləşmə prosesi baş verir. Həqiqət bundan ibarətdir. Siz dediyiniz məfkurə ədəbiyyatı əgər, Sabir və Mirzə Cəlil ədəbiyyatıdırsa, mən bunu alqışlayıram və bu mənada məfkurə ədəbiyyatını qəbul edirəm. Və bu kontekstdə məfkurə ilə ədəbiyyatı bir-birindən ayırmıram. Amma başqa məsələdir ki, sən qabağına siyasi bir məqsəd qoyasan və bu siyasi məqsədə nail olmaqdan ötrü bir roman yazasan. Bu artıq antiədəbiyyatdır. Amma bir məsələ ondan ibarətdir ki, sovet sisteminin çökməsi böyük bir kataklizm yaratdı. Və bu kataklizm təkcə siyasi, iqtisadi mənada yaranmadı, eyni zamanda, mənəvi mə-

nada yarandı. Çünki dünyanın xəritəsində yeni ölkələr meydana çıxdı, o ölkələrdəki insanlar sistemi dəyişdilər, müxtəlif sınaqlara məruz qaldılar. Problemlər artdı: qaçqınlar, torpaqların istilası problemi çıxdı ortaya. Və bu dəqiqə, bu an ədəbiyyatdan tələb etmək ki, bunlara layiq bir hiss, həyəcanla həmin hadisələrin bədii ifadəsini verməlisən, elə bilirəm ki, bu vaxt baxımından düzgün tələb deyil. Amma mənim dediklərim ona da bəraət deyil ki, son illər ədəbiyyatın maraqları qorunmur, qeyrəti çəkilmir.

İşim elədir ki, mətbəədə çıxan kitabları gətirirlər mənə, cild-cild kitablar görürəm və həmin cild-cild kitabların annotasiyalarında, ön sözlərində oxuyuram ki, bu kitabın müəllifi böyük və dahi bir yazıçıdır. Amma mən belə bir yazıçının heç adını da eşitməmişəm. Və kitabının bir səhifəsinin yarısını oxuyanda artıq bilirəm ki, burda nəinki dahilikdən, hətta elementar ədəbiyyatdan belə söhbət gedə bilməz. Bunun özü də ədəbi prosesin, ədəbiyyat təəssübkeşliyinin predmetinə çevrilməlidir. Mən bu məsələləri deyəndə çox zaman dostlar, tanışlar mənə deyirlər ki, hansı bir ədəbi hadisə baş verdi ki, bunun ətrafında ədəbi proses hərəkətə gəlmədi? Əgər böyük ədəbiyyat yaranmırsa, bunun özü ədəbi tənqidin qayğı obyekti olmalıdır. Ədəbi makulatura aləmi bürüyüb başına. Axırı necə olacaq, bilmirəm.

– Bu prosesin qarşısını kim almalıdır?

– Yalnız və yalnız qələm. Bunun üçün inzibati qaydada heç bir tədbir görə bilməzsən. Kimə qadağan edə bilərsən ki, roman yazma, ya da ki, filankəsin romanını çap etmə. Romandı, oturub yazıb, aparıb pulunu verir, çap etdirir. Parnoqrafiya ilə məşğul olmur, dövlət sirlərini açmır ki, inzibati tədbir görülsün. Buna, ancaq ədəbiyyatın təəssübünü çəkən məqalələrlə cavabını verməlisən. Mübarizəni qələmlə aparmalısan və ədəbiyyat haqqında fikirlərini oxucu ilə bölüşməlisən. Başqa cür mümkün deyil.

– Belə bir fikir də var ki, əgər sovet sistemi olmasaydı, bizim tanıdığımız sovet yazıçılarının əksəriyyəti heç bir əsər yaza bilməyəcəkdi.

– Mən bu fikri ədəbiyyata bəsit münasibət hesab edirəm. Ədəbiyyatın tarixi elə məsələdir ki, gərək faktlara istinad edəsən. Fakt isə ondan ibarətdir ki, məsələn, Mirzə İbrahimov yazıçı oldu və eyni zamanda, sovet ideologiyasına xidmət etdi. Mən 30 il bundan qabaq həmin nəsil Azərbaycan yazıçılarına tənqidi münasibət bəsləyirdim. Amma bu gün fikirləşirəm ki, Mirzə İbrahimov da,

Əbülhəsən də, Əli Vəliyev də Azərbaycan ədəbiyyatı naminə az iş görməyiblər. Bunlar Azərbaycan ədəbi dilini formalaşdırıblar. Stalinizmin qorxunc zamanlarında həmin yazıçılar Azərbaycan ədəbi dilini yaradıblar. Azərbaycan ədəbiyyatının tanımadığı janrlara müraciət ediblər və həmin janrları sabitləşdiriblər. Bir sözlə, ədəbiyyata münasibəti fərziyyələrlə qurmaq, quru yerdə inkar etmək – metodoloji baxımdan düzgün deyil.

– Əli bəy Hüseynzadədən Cavidə qədər bir dil sistemi də var idi. Məgər bu dilin yaşama haqqı yox idi? Bəlkə sonralar ədəbi dil olaraq Cavidin dili seçiləcəkdi?

– Bu məsələyə də fərziyyə ilə yanaşmaq düzgün deyil. Mən belə hesab edirəm ki, müasir Azərbaycan dilinin formalaşmasında Əli bəy Hüseynzadənin də, Hüseyn Cavidin də, Cəlil Məmmədquluzadənin də böyük rolu olub. Ədəbi dil böyük yazıçıların – Cəlil Məmmədquluzadənin, Sabirin, Cavidin – hamısının müştərək süzgəcdən keçirdiyi bir dildir.

– Elçin müəllim, yazdığınız əsərlərə görə nə vaxtsa Sizə təzyiqlər olubmu?

– Cavanlıq dövründə olub. İlkin dövrlərdə mən çox çətin çap olunurdum. Sonra başladıq haqqımızı tələb etməyə. Bilirsinizmi, mənim elə hekayələrim var ki, əvvəlcə Moskvada, sonra isə Azərbaycanda çap olunub. Sonralar isə, sizə deyim ki, 70-ci illərdə, 80-ci illərin əvvəllərində Azərbaycan mətbuatında çap olunan əsərlər, cəsarətinə, milli ruhuna görə və həqiqəti ifadə etmək baxımından Sovet İttifaqının başqa heç bir yerində çap olunmurdu. Sovet İttifaqının digər respublikalarında bu kəskinlikdə olan əsərlər «Samizdat»da və xaricdə çap olunurdu. Amma Azərbaycanda vəziyyət başqa cür idi. Bizdə belə əsərləri «Azərbaycan», «Ulduz» jurnallarında çap edirdilər. O vaxt mən Yazıçılar İttifaqının katibi idim və mətbuata baxırdım.

O vaxt biz Əkrəm Əylislini gətirdik «Azərbaycan» jurnalına redaktor. Düzdür, indi Əkrəm hər yerdə müsahibələr verəndə deyir ki, mən «Azərbaycan» jurnalında belə etdim, elə etdim, daha Yazıçılar İttifaqının adını çəkmir. Amma Elçin olmasaydı, eləcə də İmran Qasımov, İshaq İbrahimov olmasaydı, Əkrəm onları çap edə bilməzdi. Yusif Səmədoğlunu isə gətirmişdik «Ulduz» jurnalına redaktor. Deməli, bizim nəsil Azərbaycan mətbuatını öz doğmasına çevirdi və bu ədəbi prosesdə böyük hadisə idi. Şübhəsiz ki, orada Əkrəmin də, Yusif Səmədoğlunun da böyük rolu

olub. Amma, eyni zamanda, Yazıçılar İttifaqının katibliyinin də böyük xidməti olmuşdu.

– Elçin müəllim, bir halda ki, söhbət Yazıçılar Birliyi ilə Əkrəm Əylislinin üzərinə gəldi. Sizdən şəxsən, məni çox maraqlandıran bir məqama aydınlıq gətirməyinizi xahiş edirəm. Əkrəm Əylislinin Yazıçılar Birliyi barədə irəli sürdüyü sərt ittihamları, bir qisim gənc yazıçıların Yazıçılar Birliyilə bağlı kəskin mövqeyini götür-qoy edib, bu münasibətlərə normallıq gətirmək, Azərbaycandakı ədəbi qüvvələri birləşdirmək mümkün deyilmi?

– Əkrəmin niyə elə dediyini özündən soruşmaq lazımdır. Eləcə də həmin cavanlardan. Amma mənim fikrim belədir ki, Azərbaycan Yazıçılar Birliyini ki, bu keşməkeşlərin içərisində qoruyub saxladıq, bu öz-özlüyündə çox ciddi və uğurlu bir hadisədir. Amma bu gün Azərbaycan Yazıçılar Birliyi artıq Sovet İttifaqındakı Yazıçılar İttifaqı deyil. Sovet dövrünün Yazıçılar İttifaqı böyük nüfuza, sanbala malik idi. Onun imkanları var idi. Sovet dövrünün Yazıçılar İttifaqı hakim ideologiyanın çox güclü institutlarından biri idi. Həqiqət bundan ibarət idi və həqiqəti danmaq, ondan qaçmaq lazım deyil. O başqa məsələ ki, mən o institutda otura-otura necə işləmişəm – bunu bilmək üçün o dövrün yazılarına, kitablarına baxmaq bəs edər. Kamil Vəliyevin, Kamal Abdullanın, Vaqif Yusiflinin, Rəhim Əliyevin və başqalarının ilk kitabları mənim redaktəm və ön sözümlə çap olunub. Rafiq Tağının ilk kitabının ön sözünü və onun barəsində «uğurlu yol»u da mən yazmışam. Adil Mirseyidin, Fəxri Uğurlunun, Rövşən Mustafayevin və başqalarının da həmçinin. Mövlud Süleymanlının, Vaqif Cəbrayılzadənin, Saday Budaqlının Moskvada nəşr olunmuş rus dilində ilk kitabları da həmçinin. Amma biz orada gəmidə oturub gəmiçi ilə dava edirdik. Yazıçılar İttifaqı, bir daha təkrar edirəm, o dövrdə hakim ideologiyanın mötəbər institutlarından biri idi. Ona görə də nüfuzu var idi. Yazıçılar İttifaqı gedib Mərkəzi Komitədən ev, maşın, putyovka ala bilirdi. Yazıçılar Birliyinin indi həmin imkanları yoxdur. Yazıçılar Birliyindən bunu ummaq da düzgün deyil. O başqa məsələ ki, Yazıçılar Birliyi ədəbi prosesdə aktiv iştirak etməlidir. Mən çox istərdim ki, Yazıçılar Birliyində işləyən mənim əziz dostlarım daha artıq bir şövqlə, həvəslə müasir ədəbiyyatımızın maraqlarını müdafiə etsinlər, yorulmasınlar.

– Bəs narazı gənclər?

– 60-cı illərin gəncləri bir tərəfdən əsər yazdılar, o biri tə-

rəfdən əsərlərini müdafiə etməyi bacardılar. Əgər indiki ədəbi nəsil belə fikirləşirsə ki, «Azərbaycan» jurnalını məcməyinin içərisinə qoyub hədiyyə etdilər Əkrəm Əylisliyə – bu, tamam yanlış düşüncədir.

Mən 1968-ci ildə Yazıçılar İttifaqına qəbul olunmuşam, 1975-ci ildə isə İttifaqın katibi seçilmişəm. Amma siz gedin, Yazıçılar İttifaqının hələ o vaxta qədər keçirdiyi plenumların, ədəbi disputların stenoqrammasına baxın, görün mən orada hansı ədəbiyyat davası aparmışam. Mən ədəbiyyatın davasını apara-apara gəlib ora çıxmışam. Həmçinin də Əkəm Əylisli, Anar, Fikrət Qoca...

Bu başqa məsələdir ki, sizin təmsil etdiyiniz ədəbi nəsil öz maraqlarını müdafiə etməyi bacarmalıdır. Amma bu şəkildə yox ki, Yazıçılar Birliyi dağılsın, oradakıların hamısını bizə versinlər. Bu şəkildə yox. Əgər Yazıçılar Birliyinin mətbuatı, həqiqətən, onların əsərlərini çap etmirsə, gedib tələb etsinlər ki, əsərlərimiz niyə çap olunmur, onlar da cavab versin. Əgər sənin əsərin bədii cəhətdən zəif əsərdirsə, yaxşı edib çap eləmirlər, yox, əgər sənin əsərin hansısa subyektiv səbəblərə görə çap olunmur, onda sən haqqını tələb etməyi bacarmalısan.

Dedi-qodu ilə məşğul olmaqdansa, kin-küdurət bəsləməkdənsə, sağlam ədəbiyyat mücadiləsi aparmaq lazımdır. Ədəbi proses də bu zaman canlanır.

Bütün bunlar ədəbiyyatımızın tarixidir və ədəbiyyat barədə fərziyyələr əsasında fikir yürütmək yanlışdır.

– Amma, Elçin müəllim əgər 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti yaşasaydı, bu saat biz sizinlə yəqin ki, bu söhbətləri etməzdik. Fərziyyə deyirsiniz, amma fərziyyələr də müəyyən məqamlarda həqiqətə çevrilir.

– Mənim Türkiyəyə məhəbbətim, ehtiramım güman edirəm ki, sual altında deyil. Mən 1979-cu ildə Türkiyə haqqında yazdığım kitabın bütün cümlələrinin altından bu gün məmnuniyyətlə qol çəkərəm. O illərdə mən «Literaturnaya qazeta»da Türkiyə barəsində «Türkiyədən gətirdiyim nərgizlər» adlı yazı çap etdirmişəm ki, həmin oçerk böyük söz-söhbətə səbəb olmuşdu. Silva Kaputukyandan tutmuş, Sero Xanzadyana qədər hamısı Moskvaya teleqram vurmuşdular ki, sovet yazıçısı Elçin gedib NATO ölkəsindən nərgiz gülləri gətirir, bir sözlə, mən Azərbaycanın gələcəyinin strateji siyasətinin tərkib hissəsini Azərbaycanın Türkiyə ilə

son dərəcə yaxınlığında, doğmalığında görürəm. Amma götürün Türkiyə ilə bugünkü Azərbaycanın ədəbi tənqidini, poeziyasını, nəsrini, dramaturgiyasını, rəngkarlığını, musiqisini, teatrını müqayisə edin. Azərbaycan bu sahələrin heç birində Türkiyədən geridə deyil.

Sovet dövründə Azərbaycan mədəniyyəti çox inkişaf edib. Sovet dövründə Azərbaycan – bu, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tahir Salahov, Adil İsgəndərov, Bülbül, Hökumə Qurbanova, Tofiq Kazımov deməkdir. Bu sənətkarlar dünya miqyasına çıxası sənətkarlar idi.

– Bizim bir çox yazıçılarımızı, o cümlədən sizi nə vaxtsa sovet yazıçısı olmuş bir ədəbiyyatçı kimi təsəvvür etmək olmur.

– Əvvəla sovet yazıçısı və sovet ədəbiyyatı anlayışı yalançı ədəbiyyat və yalançı yazıçıdır.

– Nə üçün?

– Çünki, bayaq dediyim kimi, ədəbiyyatın əsas faktoru dildir. Sovet dili deyilən dil yox idi. Ədəbiyyatın əsas predmeti xalqdır. İnsanların daxili aləmini ifadə etmək deməkdir. Yəni millilik nöqteyi-nəzərindən. Sovet xalqı yox, sovet vətəndaşları – azərbaycanlılar, gürcülər, ruslar... var idi. Sovet ideologiyasının yazıçı vəzifəsi var idi. Bu ideologiya bir neçə yazıçı vəzifəsi təsis etmişdi. Məsələn, deyirdi: – Berdi Kerbabayev, sən təyin olunursan görkəmli və istedadlı yazıçı vəzifəsinə. Berdi Kerbabayev, düzdür, pis kişi deyildi, yaxşı adam idi. Amma ədəbiyyata dəxli olmayan bir adam idi. Berdi Kerbabayevin yazıları istedada və görkəmli olmaq meyarlarına malik deyildi. Eyni zamanda, Sovet ideologiyası Çingiz Aytmatovu da həmin vəzifəyə təyin elədi: görkəmli və istedadlı sovet yazıçısı vəzifəsinə. Amma Berdi Kerbabayevdən fərqli olaraq Çingiz Aytmatovun istedadı, fitrəti onu bundan da yuxarıya qaldırdı.

– Hər halda, Azərbaycan ədəbiyyatının səsi dünyadan Azərbaycan musiqisinin səsi kimi gur eşidilmədi.

– Ədəbiyyatda dil faktoru var. Azərbaycan ədəbiyyatı dünya miqyasına çıxmaq üçün tərcümə olunmalıdır. Çingiz Aytmatovu tez-tez misal gətirirlər ki, dünyada məşhurdur. Bəli, məşhurdur. Və mən hesab edirəm ki, layiqincə məşhurdur. Amma Çingiz Aytmatovun üçüncü tərcümə problemi yoxdur. Yəni Çingiz Aytmatov rus dilində yazıb və rus dilindən də ingilis dilinə tərcümə olunub.

– Ümumiyyətlə, nə vaxtsa rus dilində yazmaq niyyətiniz olubmu?

– Yox! İlyas Əfəndiyevin bir dostu var idi, görkəmli rus dramaturqu Aleksey Fayko. «Bahar suları»nı rus dilinə tərcümə etmişdi. Bir dəfə mən, 80-ci illərdə Moskvada, artıq xeyli qocalmış Fayko ilə rastlaşdım və onu Mərkəzi Ədəbiyyatçılar Evinin restoranında nahara dəvət etdim. Söhbət əsnasında dramaturgiyadan söz düşdü və Fayko dedi ki, əgər İlyas Əfəndiyev rus dilində yazsaydı, bütün dünyada Tennesi Uilyams kimi məşhur bir dramaturq olardı.

Faykoya dedim ki, siz düz deyirsiniz, amma o zaman, İlyas Əfəndiyev də İlyas Əfəndiyev olmazdı.

Şəxsən mənim ürəyimdən heç vaxt keçməyib ki, oturub rus dilində yazım. Ümumiyyətlə, mən belə yaza bilmərəm. O mənada yox ki, mən rus dilini bilmirəm, edə bilmərəm ona görə ki, bu mənim içimdən süzülüb gəlməyəcəkdi. Mənim içimdən süzülüb gələn, ancaq Azərbaycan dilində ola bilərdi.

– Cəlil Məmmədquluzadədən bizə bir kamança kompleksi miras qalmadımı?

– Mən o fikirlə razı deyiləm.

– Nə üçün razı deyilsiniz?

– Əksinə, Cəlil Məmmədquluzadə bu psixologiyanı ifadə etmişdir. Bu xalqın daxilində humanizm, qonaqpərvərlik, mehribançılıq əbədi mövcuddur. Bu Azərbaycan xalqının genetik bir xüsusiyyətidir. Sən Azərbaycan ədəbiyyatının heç bir səhifəsində rast gələ bilməzsən ki, yazıçı öz xalqına ermənilərə qarşı düşmənçilik aşılasın. Amma gəlin, mən sizə erməni ədəbiyyatından türkə pataloji nifrətlə bağlı istənilən qədər misal gətirim. İndi bunun hansı yaxşıdır, hansı pisdir, bu başlıca məsələdir. Şəxsən mənim üçün Azərbaycan hissəsi qat-qat qiymətlidir, çünki bəşəridir. Amma bu bir tərəfdən də bu cür bəşərilik torpaqlarımızın 20 faizinin istilasına gətirib çıxarır...

– Belə çıxır ki, Qarabağın işğal olunmasına görə, həm də Azərbaycan ədəbiyyatı günahkardır?

– Bəli, biz humanist əsərlər yazanda erməni yazıçıları türkün əleyhinə əsərlər yazırdılar. Bu mənada Qarabağ mövzusunda Azərbaycan ədəbiyyatı erməni ədəbiyyatına uduzdu.

– Yeri gəlmişkən, bütün bu proseslər milli-ideoloji doktrinanın zəruriliyini diktə etmirmi?

– Mən təsəvvür etmirəm ki, milli-ideoloji doktrina nə deməkdir. Milli ideologiya – bu, Sabirdir, Cəlil Məmmədquluzadədir, Mirzə Fətəli Axundovdur. Mən onun əleyhinəyəm ki, mütləq nəsə bir ideologiya olmalıdır. Bizə sadəcə olaraq Vətən, xalq, millət təəssübkeşliyi lazımdır. Biz hər yerdə deyirik ki, türkün türkdən başqa dostu yoxdur. Və bu, həqiqətən, belədir. Amma tarixə baxın, görəcəksiniz ki, çox vaxt türkyün düşməni də türk olub. Kim idi Əmir Teymur, Şah İsmayıl, Sultan Səlim... Türk deyildilərmi? Kimlərlə müharibə aparıblar? Və bu müharibədən kim qazanıb? Uzun sözün qısası, mən milli-ideoloji doktrina deyilən anlayışı deyil, insanın içərisindəki azadlığı qəbul edirəm.

– Yazıçı Elçin Azərbaycan ədəbiyyatında kimdir?

– Yazıçı Elçin Azərbaycan ədəbiyyatında Elçindir. Yəni Elçinin tutduğu yeri heç kim tuta bilməz. O yer, ancaq Elçinindir. Elçindən gözəl yazıçılar ola bilər, onların öz yeri var. Elçindən zəif yazıçılar ola bilər. Onların da öz yeri var. Amma o yeri ki, Elçin tutub, o yerə heç kim müdaxilə edə bilməz.

*Söhbətləşdi: Hacı Azər Əbilov.*
*2001.*

# YAZMAQ ÜÇÜN XÜSUSİ BİR ŞƏRAİTƏ EHTİYAC DUYMURAM

Uzun illər idi ki, Azərbaycandan, eləcə də, Orta Asiyadan söz düşəndə xiffətlə deyirdik: «Orada bir «kənd» var, gedib–gəlməsək də bizimdir...» Sovet İttifaqının dağılması, türk respublikalarının müstəqillik əldə etməsi ilə yollar açıldı və gedib gördük ki, «kənd» dediyimiz yerdə nəhəng şəhərlər, zəngin muzey və kitabxanalar, gözəl kinoteatrlar var.

Gördük ki, «kənd» dediyimiz yerdə yaşayan türklərin ədəbiyyatı təkcə Ç.Aytmatovla (yaradıcılığına az-çox bələd olduğumuz!) məhdudlaşmır və zaman keçdikcə onların varlığını daha çox hiss edirik. Bir faktı deyim: Azərbaycanın xalq yazıçısı Elçinin son bir neçə il ərzində Türkiyədə 10-a qədər kitabı yüksək tirajla, həm də nəfis şəkildə nəşr olunmuşdur və onların hər biri geniş oxucu kütlələri tərəfindən rəğbətlə qarşılanmışdır. Güman edirəm ki, böyük yazıçıdan götürdüyüm bu müsahibə də türkiyəli ədəbiyyatsevərlərin böyük marağına səbəb olacaqdır.

Mühsin ÖZTÜRK: Sizin üçün birinci yerdə nə gəlir: yazıçılıq, yoxsa dövlət məmuru olmaq?

ELÇİN: Təbii ki, yazıçılıq.

Mühsin ÖZTÜRK: Bəs yazmağa nə qədər vaxt ayırırsınız?

ELÇİN: Bu mənim ən böyük problemimdir. Səhərlər yuxudan lap tez qalxıram. Çalışıram ki, işə gedənə kimi bir şey yazım. Bir də, yazı yazmaq üçün xüsusi bir şəraitə də ehtiyac duymuram. Harda olsa yaza bilərəm: təyyarədə, mehmanxanada və yaxud başqa bir yerdə...

Mühsin ÖZTÜRK: Yəni, yazılarınız sirli-sehrli bir yerdə dünyaya gəlmir...

ELÇİN: Əlbəttə, bir kənara çəkilib yazmaq ideal variantdır. Təəssüflər olsun ki, belə bir imkanım yoxdur. Amma onu deyim ki, bu cür imkanı olan yazıçını dünyanın ən bəxtəvər yazıçısı hesab edirəm.

Mühsin ÖZTÜRK: Bir çox əsərlərinizdə məhəbbətlə tənhalığı bir-birinin paraleli kimi işlətmisiniz. Bunu necə başa düşmək olar?

ELÇİN: Böyük, ciddi ədəbiyyat həmişə insanın mənəvi aləminə müraciət etmişdir. Burada biz son dərəcə əhəmiyyətli bir məqamla – insanın tək qalmaq və yaxud tənha olmaq istəyi ilə üzləşirik. İnsan tənha olanda öz-özüylə baş-başa qalır, öz-özüylə dərdləşir, sevinir, kədərlənir, sərt və yaxud mülayim olur, bir sözlə, bütün xüsusiyyətləri üzə çıxır, həm də olduğu kimi. Bəlkə elə buna görə də, ən qüdrətli yazıçılar belə, kamil insan obrazı yaratmaq üçün tənhalıq mövzusuna dönə-dönə müraciət edirlər.

Mühsin ÖZTÜRK: Belə çıxır ki, ədəbiyyatın başlıca vəzifəsi kamil insan yaratmaqdır...

ELÇİN: Tamamilə doğrudur.

Mühsin ÖZTÜRK: Nə vaxt və necə oldu ki, yazmağa başladınız?

ELÇİN: Bu sualı mənə çox verirlər. İlk hekayəm 1959-cu ildə, 16 yaşımda çap olunub, «Azərbaycan gəncləri» qəzetində. Amma necə olub yazıçı olmaq istəmişəm, yazmağa başlamışam, doğrusu, bu mənim üçün də sirdir.

Mühsin ÖZTÜRK: Çingiz Aytmatovun ədəbiyyata gətirdiyi bir ifadə var: manqurtlaşmaq. Siz buna necə baxırsınız?

ELÇİN: Bu məsələnin kökü, bəlkə də insanın yarandığı və yaxud icma halında yaşadığı vaxtlara gedib çıxır. Fərqi yoxdur, istər kapitalizm olsun, istər sosializm, hər ikisində də manqurtlar var. Ümumiyyətlə, o yerdə ki, istismara söykənən ideologiya var, orada manqurtlaşmaq üçün istər-istəməz münbit şərait yaranacaq.

Mühsin ÖZTÜRK: Siz görkəmli bir yazıçı olmaqla yanaşı, həm də Azərbaycanın tanınmış dövlət adamlarındansınız. Odur ki, istəyirəm sualın yönünü bir qədər dəyişəm: güclünün bir silahı da manqurtlaşdırmaq deyilmi?

ELÇİN: Bilsəm ki, manqurtluq əleyhinə çoxlu fikir söyləməklə bu problemi həll edəcəyəm, çox məmnun olardım. Amma, təbii ki, bu mümkün deyil. Burada məsələ başqa cürdür: ideologiya var, cəmiyyət var. Lap sadə bir misal çəkim: manqurtlaşdırmaq Şərin işidir, elə deyilmi? Ədəbiyyat ilk nümunələrindən – laylalardan tutmuş ta bugünkü əsərlərə qədər həmişə Xeyirlə Şərin mübarizəsini təsvir etmiş və Xeyrin tərəfində olmuşdur. Bu baxımdan yanaşanda, gərək indiyə kimi yer üzündə şər adında bir şey qalmayaydı. Amma belə deyil. Çünki bu, cəmiyyətin təməlində olan bir məsələdir və yeri gəldikcə özünü göstərir.

Mühsin ÖZTÜRK: Sovet İttifaqı dağıldıqdan sonra belə məlum oldu ki, sizdə fizika, riyaziyyat və digər fənlərlə yanaşı tibb elmi çox inkişaf edib, amma sosial elmlər geridə qalıb. Bu barədə nə deyə bilərsiniz?

ELÇİN: Biz, doğrudan da, dünənə qədər sosialist iqtisadiyyatını öyrənirdik. Bu gün isə birdən-birə bazar iqtisadiyyatına keçmişik. Şübhəsiz ki, üç-beş günün içində böyük nailiyyət qazanmaq olmaz. Vaxt lazımdır. Amma deyim ki, bizim ədəbiyyatşünaslığımız, ədəbi tənqidimiz, dramaturgiyamız, nəsrimiz, eləcə də poeziyamız Avropa standartları səviyyəsindədir. Bizdə bir məsəl var, deyir, yüz dəfə imama ağlayanda, bir dəfə də Yezidə ağla. Biz Sovet hökumətini mütəmadi olaraq tənqid edirik, – haqlıyıq. Amma onun yaxşı cəhətləri də olub axı. Təsəvvür edin ki, klassik dünya ədəbiyyatı: az qala, küll halında Azərbaycan dilinə tərcümə olunub. Bu bir həqiqətdir. Bu gün Türkiyədə, eləcə də Azərbaycanda mənim kitablarım min tirajla nəşr olunur. Amma 15 il bundan əvvəl «Mahmud və Məryəm» romanım Bakıda 360 min tirajla çıxmışdı...

Mühsin ÖZTÜRK: Bəs necə oldu ki, bu rəqəm birdən-birə 360 dəfə azaldı?

ELÇİN: Məsələ bundadır ki, müstəqillik əldə edən kimi bir çox problemlərlə üzləşdik. Bu gün kitabların az satılmasının birinci səbəbi heç şübhəsiz ki, əhalinin iqtisadi vəziyyətinin nisbətən aşağı olmasıdır, ikinci səbəbi cəmiyyətin siyasiləşməsidir, üçüncü səbəbi torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunmasıdır. Hazırda Azərbaycanda 1 milyon qaçqın var, yəni, hər yeddi-səkkiz nəfərdən biri qaçqındır. Yuxarıda sadaladığım problemlər, doğrudan da, ədəbiyyata, ümumiyyətlə, sənətə güclü təsir göstərdi.

Mühsin ÖZTÜRK: Belə bir fikir var ki, ingilis dilində çıxan bir kitab dünyanın bir çox ölkəsində asanlıqla satılır. Ərəb dilində çıxan kitab da bütün ərəb ölkələrində oxucu tapa bilir. Amma türk dünyasında belə deyil. Türkiyədə dərc olunan kitab Türkiyədə, Azərbaycanda dərc olunan kitab isə Azərbaycanda satılır. Bunun səbəbi nədir?

ELÇİN: Deyə bilmərəm, nə dərəcədə doğrudur, amma belə bir fikir var: ərəb dilində çıxan bir kitabı suriyalı da, misirli də, iraqlı da alıb oxuya bilir, amma onlar danışanda bir-birlərini başa düşmürlər. Bunun səbəbi nədir? Quran! Quran ərəb ədəbi dilini

formalaşdırdı və qorudu. Amma türkdilli xalqların ədəbi dillərini formalaşdıracaq belə bir ortaq abidə yox idi. Hər halda, ortaq abidəmiz olan «Kitabi-Dədə Qorqud» dastanı bu cür rol oynamayıb. Mənə elə gəlir ki, bu, türklərin köçəri həyat tərzi keçirmələrindən irəli gəlir. Bu zaman mənsub olduğun mədəniyyəti qoruyub saxlamaq mümkün deyil – zəbt etdiyin yerdə yaşayan xalqların mədəniyyətlərini nə qədər dəyişdirsən də, özün də onlardan nə isə götürməli olursan.

Mühsin ÖZTÜRK: Azərbaycanda çox gözəl kino və teatr binaları var. Bu gün onların fəaliyyəti nə yerdədir?

ELÇİN: Bu yaxınlarda yeni bir pyesim tamaşaya qoyuldu. Salon ağzına kimi dolu idi. Deyə bilərəm ki, artıq bu gün teatr özünə kifayət qədər tamaşaçı toplaya bilib.

Mühsin ÖZTÜRK: Türkiyədə kitablarınız tez-tez nəşr olunur. Buna müvafiq olaraq, türkiyəli oxucularınızın da sayı gündən-günə artır. Bu sizdə nə kimi duyğular oyadır?

ELÇİN: Əsərlərim bir çox dünya xalqlarının dillərinə tərcümə olunub. Əlbəttə, dünyaya açılmaq xoşdur, amma mənim üçün Azərbaycanda və məmləkətim hesab etdiyim Türkiyədə dərc olunan kitablar daha əzizdir.

*2001.*

## «BİRTƏRƏFLİ KOMPROMİS YOXDUR, ƏGƏR VARSA, BU – MƏĞLUBİYYƏTDİR»

*(Xalq yazıçısı, filologiya elmləri doktoru, professor ELÇİN: «Yaxşı, Milli Məclisin 23 fevral sessiyasındakı bəzi çıxışların məntiqi ilə Qarabağdan əl çəkdik (yoxsa ki, bazar iqtisadiyyatından istifadə edib gəlib Bakını özəlləşdirəcəklərmiş!), bəs «Qarabağ şikəstəsi»ni nə edək?»)*

– Elçin müəllim, bu gün ən ağrılı-acılı problemimiz olan Qarabağla bağlı cəmiyyətdə qızğın mübahisələr gedir və mən də söhbətimizi elə bu mövzu ilə başlamaq istəyirəm. Siz Qarabağ hadisələrini ən yeni tarixin kontekstində necə qiymətləndirirsiniz?

– Qarabağ erməni millətçiliyi üçün Sovet İttifaqının dağıldığı çox məsuliyyətli bir dövrdə həmrəylik, birlik, onların aləmində vətənpərvərlik (əslində isə, daimi və xəstə torpaq iddiaları, təcavüzkarlıq) stimulu rolunu oynadı və Ermənistanda bir-biri ilə boğuşmaq, bir-birini qırmaq sonralar – işğaldan sonra başladı. Bizim üçün isə, çox acılar olsun ki, Qarabağ hakimiyyət uğrunda mübarizə amillərindən birinə çevrildi və Azərbaycanın müstəqilliyini istəməyən, eləcə də bu müstəqillikdən ehtiyat edən müxtəlif dövlətlər, qüvvələr əvvəlcə cidd-cəhd və fitnə-fəsadla buna sövq etdi, sonra da bundan bolluca istifadə etdi və bəhrələndi.

– Deməli, ermənilər istədiklərinə çatdı?

– Yox, əslində, ermənilər öz başlarına bəla açdılar. Qarabağ hadisələri erməni ekstremizminin yad torpaqlar hərisliyi nəticəsində Azərbaycan xalqının başına gətirdiyi faciədir və bu işdə dediyim həmin xarici qüvvələr onlara əməli surətdə kömək etdi. Ancaq mən buna qətiyyən şübhə etmirəm ki, erməni xalqı da xoşbəxtliyə çıxmadı və bu mənada gələcəkdə də onu heç bir xoşbəxtlik gözləmir. Keçən payızda mən Avropa Təhlükəsizlik Şurasının mədəniyyət məsələləri ilə bağlı Krakovda keçirdiyi toplantıda iştirak edirdim və təyyarədə qəzetlərə baxarkən Zori Balayanın Moskva mətbuatında çıxmış növbəti səfsəfəsinə rast gəldim. Krakovdakı toplantıda ölkələri əlifba sırasına görə Ermənistandan gəlmiş yüksək vəzifəli nümayəndə ilə yanaşı oturmuşduq və mən özümü saxlaya bilməyib ona Zori Balayan və ümumiyyətlə, Zori

balayançılıq barədə bir-iki yağlı söz dedim. O isə dedi ki, siz Zori Balayana fikir verməyin, başı xəstə adamdır və Ermənistanda da düşünən adamlar onu məhz belə tanıyırlar. Mən də dedim ki, ola bilsin, Ermənistanda həmin «düşünən adamlar» Zori Balayan haqqında belə fikirləşirlər, çünki, bu, həqiqətən, gün kimi aydın bir şeydir və məsələ bunda deyil. Məsələ ondadır ki, bu gün Ermənistan Zori balayançılıq xülyalarına və əgər belə demək caizsə, «ideyalarına» söykənərək siyasət yeridir. İndi sizin sualınıza cavab olaraq deyirəm: inanmıram ki, Zori balayançılıq «ideyaları» Ermənistanı haçansa ağ günə çıxarsın.

– Artıq neçə illərdir ki, biz faktiki olaraq Qarabağsızıq və hərdən adamı dəhşət alır ki, bu nə qədər davam edəcək? Qarabağsız Azərbaycan ola bilərmi?

– Qarabağsız (mən dağı da, aranı da bir yerdə götürürəm) Azərbaycan, əlbəttə, şikəst bir Azərbaycandır və bu əbədi bir şikəstlikdir. Necə ki, Şirvansız Azərbaycan, yaxud Muğansız Azərbaycan, yaxud da ki, Naxçıvansız Azərbaycan təsəvvür etmək mümkün deyil. Həm də bu, yalnız fiziki şikəstlik deyil, bəlkə daha artıq dərəcədə mənəvi şikəstlikdir. Yaxşı, Milli Məclisin 23 fevral sessiyasındakı bəzi çıxışların məntiqi ilə, Qarabağdan əl çəkdik (yoxsa ki, sən demə bazar iqtisadiyyatından istifadə edib gəlib Bakını özəlləşdirəcəklərmiş!), bəs «Qarabağ şikəstəsi»ni nə edək? Seyid Şuşinskiyə, Xan Şuşinskiyə necə qulaq asaq? Onların familini dəyişək? İndi təəssüflər olsun ki, unudulmuş yazıçı Əyyub Abbasovun «Zəngəzur» romanını oxuyun və görün ki, biz mənəviyyatımızın, etnoqrafiyamızın hansı zəngin bir parçasından məhrum olmuşuq. Bu gün radiodan Xanın səsini eşidəndə: «İrəvanda xal qalmadı, o xal nə xaldı, üzə düzdürmüsən...» – mənim bütün içim göynəyir, çünki Azərbaycan mənəvi dünyasındakı o İrəvan artıq səsçatmaz, ünyetməz bir uzaqlıqda – əbədi bir uzaqlıqdadır. Yaxud «Qaçaq Nəbi»yə qulaq asanda nə təhər qəhrəmanlıq, igidlik, mərdlik hissləri yaşayıramsa, Gorus yadıma düşəndə bir o qədər də ağrıyıram. Aydın məsələdir ki, bu gün biz Şuşanın, ya Laçının, ya Kəlbəcərin həmin gedər-gəlməz İrəvan, ya Zəngəzur, ya Gorus uzaqlığına yuvarlanmasına dözə bilmərik. Yenə bir epizod yadıma düşdü. Fevralın əvvəllərində mən Nyu-Yorkda idim. BMT-nin sessiyasında iştirak edirdim və oradakı görüşlərdən birində bir Amerika jurnalisti mənə dedi ki, Siz bir neçə dəfə vurğuladınız ki, Qarabağsız Azərbaycanı təsəvvür etmək

mümkün deyil, amma bağışlayın, bu primitiv düşüncə tərzidir. Mən ondan soruşdum: «Siz Amerika vətəndaşısınız?» «Bəli!» «Siz Amerikanı sevirsiz?» «Şübhəsiz!» «Onda deyin, siz ABŞ-ı Kaliforniyasız təsəvvür edirsiz?» «Mən ABŞ-ı nəinki Kaliforniyasız, heç Alyaskasız da təsəvvür etmirəm!» «Siz ABŞ kimi nəhəng əraziyə malik bir ölkəni, hətta buzlar diyarı Alyaskasız belə təsəvvür etmirsinizsə, mən nə üçün Azərbaycan kimi kiçik ərazili bir ölkəni Qarabağsız təsəvvür etməliyəm?»

– Elçin müəllim, bu gün Sizin kimi nüfuzlu, hörmətli ziyalıların sözünə böyük ehtiyac var.

– Bu yaxınlarda hansısa qəzetdə oxuyuram ki, yazırlar:

«Əslən Qarabağdan olan Elçin, Polad Bülbüloğlu sessiyadan sonra niyə bir söz demirlər?» Əvvəla, bu gün bütün azərbaycanlılar qarabağlı olmalıdır. İkincisi, bəli, mənim əslim qarabağlıdır və mən bununla fəxr edirəm, amma daha artıq dərəcədə azərbaycanlı olmağımla fəxr edirəm və hər bir azərbaycanlının da bu gün ən böyük problemi Qarabağdır. Və mən Qarabağ hadisələri başlayan gündən (əslində, həmin gündən də qat-qat əvvəlki dövrlərdən!) etibarən sözümü, həm də əməli sözümü həmişə demişəm, deyirəm və deyəcəyəm. Mən fevral ayında BMT-nin xüsusi nümayəndəsi, səfir M.Tello ilə, Perunun səfiri C.L.Korilla ilə, Əlcəzairin səfiri A.Balli ilə Bəhreyninin səfiri C.M.Buyla ilə, Omanın səfiri F.M.əl-Hinai ilə, Burkina-Fasonun səfiri M.Kofando ilə, Avstriyanın səfiri H.Pfanzelter ilə, YUNİSEF-in regional direktoru F.O.Bryan ilə, YUNİSEF-in baş direktoru K.Bellami ilə rəsmi görüşlər keçirdim. Bu rəsmi görüşlərdəki söhbətin əsas məğzi Qarabağ, erməni təcavüzü idi. Bunu mən BMT səviyyəsində oradakı gələcək müzakirələr kontekstində çox ciddi bir söz, çox ciddi bir səs hesab edirəm. Mən heç vaxt boş hay-küyçülüyü qəbul etməmişəm və Allah qoysa heç də qəbul etməyəcəyəm. Mən o adamlardan da deyiləm ki, bir iş görüb (ya heç görməyib), onu 10 dəfə reklam eləyim. Mənim belə bir reklama ehtiyacım yoxdur. Yeri düşmüşkən deyim ki, Polad Bülbüloğlu da ən yüksək beynəlxalq tribunalardan Qarabağla bağlı həmişə öz sözünü deyib və mən dəfələrlə bunun şahidi olmuşam. Poladın həmin sözünün sorağını eşitmişəm.

– Elçin müəllim, bu gün Azərbaycan cəmiyyəti Qarabağla əlaqədar taleyüklü bir seçim qarşısındadır: sülh, yoxsa müharibə? Siz Qarabağ münaqişəsinin həllini necə görürsünüz?

– Əvvəla, mən «Qarabağ münaqişəsi» anlayışını qəbul etmirəm. Bu Ermənistan tərəfindən Qarabağın işğalı, Azərbaycan tərəfindən isə Qarabağ mücadiləsidir. Mən əlbəttə, sülh istəyirəm. Ancaq zəifin arzuladığı sülh yox, güclünün arzuladığı sülh. Yalnız texniki təchizat və say mənasında yox, həm də mənəvi mənada güclü orduya malik, torpaqlarını qəsbkardan azad etməyə qadir olan ölkənin sülh arzusu. Ancaq Vətəninn bütövlüyü ilə bağlı sülh istəyi eləcə daimi istək olaraq da qala bilməz. Sülh istəyi divara dirənəndə, əlbəttə, hərb öz sözünü deməlidir. Torpaqlar qılıncla azad olunmalıdır. Bu, müharibə deyil. Bu, Vətənin bütövlüyü uğrunda mübarizədir, vətən uğrunda mübarizə şərəfli bir işdir və burada da hər işi hissə qapılmadan, hay-küyə getmədən, ağılla görmək lazımdır.

– Ordu ilə bağlı «mənəvi məna» deyəndə siz nəyi nəzərdə tutursunuz?

– Güclü ordunu yalnız iqtidardan, yalnız prezidentdən tələb etmək düzgün deyil. Milli və güclü ordu quruculuğu iqtidarlı-müxalifətli bütün xalqın şərəf və ləyaqət amalına çevrilməlidir. Ümummilli prioritet statusunda olmalıdır. Mən bax, bunu nəzərdə tuturam. Bu, o deyən sözdür ki, vəzifə sahibi, yaxud varlı bir adam öz oğlunu ordudan gizlətməməlidir. Eyni zamanda, kasıb da ordudan gizlətmək üçün oğlunu Rusiyaya, ya başqa bir ölkəyə qaçırmamalıdır. Əgər rüşvət alan zabit varsa, o gedib öz-özünü asmalıdır. Həmin zabitə rüşvət verən də dərk etməlidir ki, xain iş görür. General da, əsgər də xidməti ilə fəxr etməlidir və eyni zamanda, onlar görməlidir ki, xalq da onlarla fəxr edir. Cəmiyyətdə onların elitar yeri mövcuddur. Orduda xidmət namus işi olmalıdır. Bütün bunlara əlbəttə, yalnız prezident fərmanları ilə, yaxud nazirlər kabinetinin qərarları ilə nail olmaq mümkün deyil. Bu həvəs, bu ehtiras, bu ehtiram xalqın mentalitetinin bir hissəsinə çevrilməlidir. Necə ki, bunu bu gün biz, misal üçün, Türkiyədə görürük.

– Elçin müəllim, bu gün kompromislərdən çox danışırlar. Cəmiyyətdə yasdan tutmuş toyacan müxtəlif səviyyəli məclislərdə Qarağbağla bağlı sülh danışıqlarının nəticələri, imzalanacaq sazişlərlə bağlı müxtəlif söz-söhbət gəzir. Bu barədə siz nə deyə bilərsiniz?

– Sülh danışıqları olan yerdə, əlbəttə, kompromislər olmalıdır. Ancaq qarşılıqlı kompromislər. Birtərəfli kompromis yoxdur, əgər varsa, bu məğlubiyyətdir. Söz-söhbətə gəlincə, təəssüf ki,

hələ nə bir nəticə var, nə də bir saziş. Bolluca şayiəçilik, populist sözlər, ağılsız iddialar, situasiyadan öz məqsədi üçün istifadə etmək cəhdləri. Ancaq bir əminliyimi bildirmək istəyirəm. Mən bütün varlığımla inanıram ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vətənlə, millətlə bağlı heç bir ləyaqətsiz sazişə qol çəkməyəcək. Bu mənim üçün 100 faizli bir istisnadır.

– Maraqlıdır, Siz Milli Məclisin 23 fevral sessiyasını necə qiymətləndirirsiniz?

– Bir sıra boş və səviyyəsiz çıxışlara, hətta bəzi zərərli mülahizələrə baxmayaraq, mən o sessiyanı yüksək qiymətləndirirəm. Həmin sessiya elə bil ki, bizim cəmiyyəti silkələdi və Qarabağ mücadiləsini ümumxalq işi kimi ortaya qoydu. Sessiyada Heydər Əliyevin çıxışı son illərin ən təsirli çıxışı idi, mən bunu prezidentin xalq ilə səmimi təmasının gözəl bir nümunəsi kimi qəbul edirəm. Rəhmətlik Əli Vəliyev deyərdi ki, ən böyük biclik düzlükdür.

– Elçin müəllim, Sizin ümumxalq işi deyiminizi Qarabağ məsələsində müxalifətlə iqtidarın birliyi, yəni milli birlik mənasında başa düşmək olarmı?

– Bilirsiz, çox-çox insanlar var ki, nə müxalifətdədir, nə də iqtidarda və buna görə də mən məhz ümumxalq işi deyirəm. Ancaq, eyni zamanda, əlbəttə, bu mənim müxalifətlə iqtidarın birliyini eyni çəkicdən yapışıb eyni ritm ilə zindana vurmaqlarını görmək arzum, istəyimdir. Bilirsiniz, mən əvvəllər də çox demişəm, yazmışam. Müxalifət də, iqtidar da dövlətin maraqlarını güdməlidir. Prinsip dövlətçilik olmalıdır. Bu gün Azərbaycanda Qarabağ mücadiləsindən də vacib dövlət marağı varmı?

– Siz belə bir birliyin əldə ediləcəyinə inanırsınızmı?

– (Dərindən köks ötürür). İnanmaq istəyirəm və yaxşı başa düşürəm ki, bu bizim reallıqlarda çox çətin məsələdir. Fikir verin, bir-biri ilə yola getməyən, yalnız müxalifətlə iqtidar deyil, müxalifət özü bəyəm bir-biri ilə yola gedir? Nələr demirlər, yazmırlar bir– biri haqqında? Elə iqtidarın özündə də belə hallar az deyil. Hərdən fikirləşirəm, biz kimik, niyə beləyik? Yenə yadıma bir hadisə düşdü. 80-ci illərdə ABŞ-a getmişdim. Məni qarşılayanlar arasında orada yaşayan azərbaycanlılar da var idi. Gecə aeroportdan otelə bir azərbaycanlının maşınında gedirdim. Orada Azərbaycan cəmiyyəti qurmuşdular, onun sədri idi. Maşını özü sürürdü və bizimlə maşında gedən ikinci azərbaycanlı da həmin

cəmiyyətdə sədrin, yəni maşınsürənin müavini seçilmişdi. Onun evinin yanından keçdiyimiz üçün mənimlə də, sədrlə də çox mehriban öpüşüb, sağollaşıb yolun yarısında düşdü. O maşından düşəndən sonra sədr otelə qədər bütün yol boyu həmin adamı – müavinini pisləməyə başladı. Çox pis adamdı, əyyaşdı. Yalandan özünü vətənpərvər kimi göstərir, kəşfiyyatçılarla əlaqəsi var, ondan ehtiyatlı olun və s. Bu cür söz-söhbətə qulaq asmaq mənim üçün işgəncədir və otelə çatanda rahat nəfəs aldım ki, canım bu işgəncədən qurtardı. Otel otağına girib hələ əl-üzümü yumağa macal tapmamış telefon zəng çaldı. Bayaq maşından düşən həmin müavin idi. Çox təlaşla «Elçin müəllim sağ-salamatsız?» soruşdu. «Allaha şükür. Qorxdum o yaramaz (sədri deyirdi) sizin başınıza bir iş gətirər. Çox nadürüst adamdır, qorxulu dairələrlə əlaqəsi var, ehtiyatlı olun» Bax, bu cür. Bu tipli çox misal nümunə gətirə bilərəm. Yəni bu xüsusiyyət bizim genimizdədir.

– Elçin müəllim, Siz yüksək mütaliəyə malik, geniş dünyagörüşlü, təcrübəli, necə deyərlər, tanınan, sayılan bir şəxsiyyətsiniz və indi dedikləriniz də təəssüf ki, acı həqiqətdir. Ancaq bu cəhət axı ziyalıların özünə də aiddir.

– Bilirsiniz, bizim ziyalı zümrəsi müasir cəmiyyətimizin mürəkkəb və ziddiyyətli bir hissəsidir. XX əsrin əvvəllərində Azərbaycanda çox güclü ziyalı nəsli yetişmişdir və bu gün biz Azərbaycanın müstəqil bir dövlət kimi xəritədə öz yerini tutmasına görə onlara borcluyuq. O rəhmətliklər, onların milli maarifçilik ideyaları və həmin ideyaların ifadəsi kimi vətəndaşlıq fəaliyyətləri Azərbaycan Demokratik Cümhuriyyətini yaratdı. Bir azdan 1920-ci il gəldi. Ziyalıların bir qismi güllələndi, bir qismi mühacirətə getdi, bir qismi də qaldı. Sonra 37-ci il gəldi. Və qalanların da böyük əksəriyyəti bu dəfə məhv edildi. Dünyada misli olmayan eybəcər bir vəziyyət əmələ gəldi. Hakim sovet ideologiyası və qorxunc Stalin qılıncı cəmiyyətdə ziyalı təyinatı ilə məşğul oldu. Sən istedadlı yazıçı, görkəmli ziyalı vəzifəsinə təyin olunursan. Sən sevimli şair və vətənpərvər bir ziyalı vəzifəsinə təyin olunursan. Sən böyük pedaqoq və humanist ziyalı vəzifəsinə təyin olunursan və s. və ilaxır. Beləliklə, əsl ziyalı yetişdirən mühitimiz həmin süni mayalanmaya məruz qaldı. Təbii axarın məcrası dəyişdi, ziyalılıq ənənəsinə ziyanlı tendensiya dürtüldü. Bu gün adını ziyalı qoyub, amma düşüncəsi, savadı, amalı və əxlaqı etibarilə ziyalıya dəxli olmayan vətəndaşlarımız bax, həmin ten-

densiyanın yetirmələridir. Siyasi-ictimai və sosial problemlər ardıqda, cəmiyyət siyasiləşəndə, o zərərli tendensiyanın çiçəklənməsi üçün bu gün olduğu kimi, əlverişli şərait yaranır. Ancaq bir vacib prinsipial cəhəti qeyd edim ki, bütün bunlar bir küll halında ziyalılara qarşı hücuma, ziyalı məfhumunu hörmətdən salmağa qətiyyən əsas vermir. Yalançı ziyalı Azərbaycan ziyalısının simasını müəyyən etmir və mən ziyalılara qarşı sterikanı bu günümüz və gələcəyimiz üçün çox ziyanlı, hətta çox qorxulu bir cəhət hesab edirəm.

– Axı, elə Sizin qələm dostlarınızın, Sizin ədəbi nəslin nümayəndələrinin bu gün bir-birinə münasibəti yumşaq desək, o qədər də xoşagələn deyil. Siz bunu normal hesab edirsiniz?

– (Gülür.) Siz ad çəkmirsiniz. Amma başa düşürəm nələri nəzərdə tutursunuz. Birincisi mən heç vaxt heç yerdə, heç bir qələm dostum haqqında bir pis söz deməmişəm və yazmamışam. Mən ancaq cavab vermək məcburiyyətində qalmışam və bu da görünür, xasiyyətimdən irəli gəlir. Şüur deyir ki, o cavab əvəzinə get bir hekayə yaz, məqalə yaz, ya bir kitab götür oxu və çox zaman da elə belə olur. Amma bəzən emosiya qalib gəlir. İkincisi, əlbəttə normal baxıram, bilirsiz, yazıçı gərək əsər yazsın və onun yazmaması üçün heç bir bəhanə məqbul deyil. Bəhanə o zaman köməyə gəlir ki, yaza bilmirsən. Hıqqana-hıqqana ayda ildə bir şey meydana çıxarasan, ya çıxarmayasan. Yaza bilməyəndə də dedi-qodu, özünü tərif, gülünc iddialar səviyyəsinə düşürsən, diqqət mərkəzində qalmaq istəyirsən, özün öz imicinin rejissoru olursan və bu miskin təsir bağışlayır.

– Elçin müəllim, yeri gəlmişkən, Sizin ədəbi nəsldən – «60-cılardan» danışanda adətən üç yazıçının, Elçinin, Anarın və Əkrəm Əylislinin adını çəkirlər. Sizcə nə üçün belədir?

– (Yenə gülür.) Bu sualın cavabını siz verməlisiniz, ya da tənqidçiləri sorğu-suala tutmalısınız. (Ciddiləşir.) Əlbəttə, 60-cılar nəsli yalnız Elçindən, Anardan və Əkrəm Əylislidən ibarət deyil. Ümumiyyətlə, mən 60-cılar məfhumunu estetik bir kateqoriya kimi qəbul edirəm və bizimlə İsi Məlikzadə, yaxud Fərman Kərimli, Sabir Süleymanovla birlikdə bizdən əvvəlki nəslin nümayəndələri də həmin estetik kateqoriyanın ədəbi hadisə kimi meydana çıxması prosesində çox ciddi və səmərəli iştirak ediblər. 60-cı illərdə İlyas Əfəndiyevin Azərbaycan dramaturgiyasında etap

səciyyəli «Sən həmişə mənimləsən» əsəri yaranıb. Yaxud İsa Hüseynovun «Teleqram» povesti yaranıb.

Ən mühümü isə budur ki, «60-cılar» Azərbaycan ədəbiyyatında məktəb yaratdılar və sonrakı dövrdə ədəbiyyata gəlmiş bir sıra yazıçılar da, əslində, həmin məktəbin nümayəndələridir.

– Doğrusu Sizin bu fikirləriniz çox yeni və orijinal səslənir. «60-cılar» haqqında çox yazılıb, lakin sizin söylədiyiniz ümumiləşdirmələr hələ aparılmayıb. Ümumiyyətlə, müasir ədəbi prosesə Sizin məqalələrinizdə tez-tez işlətdiyiniz, təbirlə desək, «ədəbiyyat təəssübkeşliyinin» müasir vəziyyətinə necə baxırsınız?

– Çox pis baxıram və inandırıram sizi, bu barədə fikirləşəndə elə bil ki, fiziki ağrı hiss edirəm. Çünki bu gün Azərbaycanda ədəbi proses son 100 ildə heç vaxt olmadığı dərəcədə ölgündür. Ədəbiyyatın təəssübü harada çəkilməlidir? Qəzetlərdə, jurnallarda, müzakirələrdə, ədəbi məclislərdə. Gəlin xatırlayaq görək, sonuncu dəfə nə vaxt toplaşıb ədəbi prosesi müzakirə etmişik, tənqidin problemlərindən, müasir nəsrin, şerin, dramaturgiyanın problemlərindən danışmışıq, baş alıb gedən antiədəbiyyata münasibətimizi bildirmişik?

Şəxsən mənim yadıma gəlmir. Mən ibtidai bir həqiqəti çox gözəl başa düşürəm ki, ədəbi məclislərdə ədəbiyyat yaranmır, həmin məclislərdə ədəbiyyatın – söhbət əsl ədəbiyyatdan gedir – təəssübü çəkilirsə, heç nədən və heç kimdən çəkinmədən obyektiv və prinsipial ədəbiyyat söhbəti gedirsə, deməli, ədəbi proses canlanır, antiədəbiyyatın həmlələri qarşısında əsl ədəbiyyatın maraqları ön plana çəkilir, indiyə qədər əldə etdiyimiz ədəbi dəyərlər müdafiə olunur, həmin dəyərlərin unudulmasına yol vermirik. Yoxsa yasda, toyda şikayətlənirlər ki, cild-cild biabırçı şerlər, poemalar, romanlar, hekayələr, məqalələr aləmi bürüyüb, heç nə əldə edə bilmirik, əksinə, bədii estetik meyarları da artıq dərəcədə ayaq altına salırıq.

– Siz «60-cılar» məktəbinin sonrakı dövr nümayəndələrini xatırladız. Onların arasında şəxsən Sizin maraqla oxuduğunuz bir yazıçı varmı?

– Var. İstəyirsiniz adını çəkim? Misal üçün, Afaq Məsud. Mən ədəbiyyatda «kişi nəsri», «qadın nəsri» kimi meyarları qəbul etmirəm. Ancaq kişi nəsli dedikdə daha sərt, daha çılpaq, epikliyə meyl edən, əgər bu söz yerinə düşərsə, daha preqmatik bədii təfəkkür bəhrəsi olan nəsr nəzərdə tutulursa, bəli. Afaq bu gün «ki-

şi nəsri» yazır və istedadla yazır. Afaqın nasir qələminin imkanları böyükdür, o, xislətin dərin qatlarını görür, hiss edir və mən onun son dövrlərdə yazdığı roman və hekayələrdə gələcəyin çox sanballı prozasını görürəm.

– «60-cılar»la bağlı bir sual da vermək istəyirəm. Əkrəm Əylislinin Milli Məclisdəki çıxışından sonra bəzi gənclərdə onun kitablarını yandırmaq fikrinin yaranmasına necə baxırsınız?

– Olduqca pis baxıram. Əkrəm Əylislinin ara-sıra söylədiyi mülahizələr, onun bəzi atmacaları, çıxışları, hərdən subyektivliyə qapılması mənim də xoşuma gəlmir və mən bunu açıqca, həm də sərt şəkildə demişəm. Ancaq bir həqiqət də var ki, o, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridi və bu ədəbiyyatın inkişafında ciddi xidmətləri var. Onun həmin sessiyadakı çıxışının necəliyindən asılı olmayaraq, Əkrəmin kitablarına belə münasibət bəsləmək olmaz. Bu yaramaz bir hərəkətdir, kitab yandırmaqla ağ günə çıxmaq mümkün deyil, tarixə baxın, kitab tonqallarından indiyə qədər kim faydalanıb. İnkvizisiya nə əldə etdi? Tarixin nifrətini. Faşizm kitab tonqalları ilə başladı, dünyanın yarısını aldı, amma axırı nə oldu, şərəfsiz bir sonluqla qurtardı və öz xalqını yarım əsr bir-birindən ayırdı. Əkrəm Əylislinin çıxışını qəbul etmirsən, lap yaxşı, sən də qələmi əlinə al və arqumentlərlə Əkrəmi təkzib et. Yoxsa ki, kitab yandırmaq kimi dəhşətli bir günaha batmaq olmaz. Bu gün kitab yandıran sabah insanları diri-diri yandıra bilər. Qoy bizim cavanlar, əksinə, daha artıq dərəcədə kitabı sevsinlər, daha artıq kitab oxusunlar və Vətən uğrunda, torpaq uğrunda müstəqillik uğrunda mübarizədə kitab da onların mənəvi dayaqlarından birinə çevrilsin.

– Biz XX əsri yola saldıq. Maraqlıdır, Siz XX əsrə bir küll halında necə qiymət verirsiniz? Və bu sualın davamı kimi sizdən soruşmaq istədim ki, XX əsri Azərbaycanın tarixində necə görürsünüz?

– XX əsrin səciyyəsi məlumdur: elm və texnikanın sürətli inkişafı və bu inkişafın atom bombası, yaxud kompüter kimi bəhrələri, müharibələr, o cümlədən vətəndaş müharibələri, qanlı inqilablar, yaranan və dağılan imperiyalar və s. Ancaq mənə görə bütün bunlar zahiri görüntülərdir. Daha dərin bir qatda isə mənim üçün XX əsrin, əslində, XIX əsrdən, yaxud deyək ki, XVI əsrdən elə bir fərqli cəhəti yoxdur. Əsr nədir? Əsr hansısa bir vakkum içinə pərçim edilmiş və öz-özlüyündə mövcud olan zaman vahidi

deyil. Əsr insandır. Hamlet XVI əsrin yaratdığı insan idi, amma o eyni dərəcədə, XX əsrin adamı deyilmi? XIX əsrin Anna Kareninası bəyəm XX əsrə yaddır? Əsrlər bir-birini əvəz edir. Bəli, forma, şərait, xəritə, mənzərə və s. dəyişir, mahiyyət isə dəyişməzdir. Eyni hisslər aləmi, təbiətin eyni qanunauyğunluğu. Ancaq tarixilik baxımından yəni ölkələrin, xalqların taleyindəki hadisələr məcmusu mənasında XX əsr Azərbaycanın tarixində tale əhəmiyyətli bir əsr oldu. XX əsr Azərbaycan üçün sınaqlar dövrü oldu və güman edirəm ki, Azərbaycan bu sınaqlardan çıxdı. Çox çətin, çox ağrılı-acılı, çox uzunmüddətli, təxminən elə əsrin özü qədər. Bir siyasi ictimai doğuş prosesi baş verdi və Azərbaycan respublikası dünyaya gəldi.

– Bəs XX əsri Azərbaycan ədəbiyyatı, sənəti, ictimai fikiri baxımından necə səciyyələndirirsiniz?

– Böyük və prinsipial uğurlar əsri kimi. Mirzə Cəlil, Sabir və Üzeyir Hacıbəyov əsri kimi. «Molla Nəsrəddin» və «Füyuzat» əsri, «Arşın mal alan» və «Koroğlu», «Qara Qarayevin portreti» və «7 gözəl» əsri kimi. Milli teatrın, simfonizmin, rəngkarlığın, nəsrin, poeziyanın, dramaturgiyanın, elmin, maarifçilik ideyalarının, dünyəvi dövlətçilik prinsiplərinin özünü təsdiq etdiyi əsr kimi.

– Elçin müəllim, bir halda ki, söhbətimiz belə səmimi alınır, onda deyin, XX əsrdə siz kim idiniz və XXI əsrdə özünüzü necə görürsünüz?

– Mən özüm də hərdən fikirləşirəm. XX əsrdə mən kim idim? Əlbəttə, oğul idim, ata idim, yazıçı idim, ictimai xadim idim, dövlət quruculuğunda iştirak edirdim. Amma bunlar mənə çox kiçik görünür. Çünki, əslində, mənim üçün mahiyyət başqadır. Mən XX əsrin milyardlarla sərnişinlərindən biri idim. XXI əsrə isə XX əsrin adamı kimi (sərnişin kimi) gedirəm. Mən bilmirəm XXI əsrdə nə qədər yaşayacağam, 5 il, 10 il, 20 il, bəlkə də lap 30 il. Sərnişin ona görə sərnişindir ki, hansı dayanacaqda isə mütləq düşməlidir. Amma bundan asılı olmayaraq mən XXI əsrdə həmişə XX əsrin adamı olaraq qalacağam.

– XX əsrdə Sizin həyatınızın ən xoş hadisələri hansılardır?

– Ailə qurmağım, övladlarımın dünyaya gəlməsi, yazılarımın nəşri, tamaşalarım, dost məclisləri, cürbəcür ünsiyyətlər, səfərlər, təmaslar və əlbəttə, Azərbaycanın müstəqilliyi.

– Bəs ən kədərli hadisələr?

– Şəxsi itkilərim və Qarabağ.

– Son sualım. Qarabağla bağlı bədbinsiniz?

– Yox, çox fikirliyəm, qayğılıyam, nigaranam, amma bədbin deyiləm.

*Müsahibəni Turqut Mustafayev apardı.*
*2001.*

## NAZİM HİKMƏT HAQQINDA

– Bildiyiniz kimi, Nazim Hikmət kommunist olub. Əqidəsi onun şerlərində də əks olunub. Sizcə Nazim Hikməti Azərbaycanın kommunist şairləri ilə müqayisə etmək olarmı?

– Bəli, Nazim Hikmət ömrünün sonlarında, əgər belə demək mümkünsə, ideya-mənəvi pərişanlıq, hətta sarsıntılar keçirsə də, siyasi illüziyaları gerçəkliyin acıları içində yavaş-yavaş əriyib getsə də, Moskvada yaşayıb çox şeyi başa düşməyə başlasa da, düz deyirsiniz, o, kommunist olub. Amma məsələ burasındadır ki, əllinci illərdə, altmışın əvvəllərində Azərbayçan oxucusu və daha geniş götürsək, Azərbaycan xalqı qətiyyən fikirləşmirdi ki, Nazim kommunist idi, ya yox. Əsas o idi ki, Nazim böyük türk şairi idi, türk dilində yazırdı, onun dili ilə ən yüksək tribunalarda türk şeri səslənirdi. Azərbaycanın Nazimə məhəbbəti, əslində, KQB-nin, hakim və qorxunc sovet ideologiyasının tüğyan etdiyi bir dövrdə Azərbaycanın Türkiyəyə məhəbbətinin ifadəsi idi. Mən Türkiyədə olarkən cürbəcür ictimai-ədəbi məclislərdə sağlara da, sollara da həmişə bu həqiqəti başa salmağa çalışıram. Nazim deyəndə ki:

*– Mən bir ceviz ağacıyam Gülhanə parkında,*
*nə sən bunun fərqindəsən, nə də polis fərqində,*

– Azərbaycan xalqı da onun fərqində deyildi ki, həmin misraları kommunist söyləyir, yoxsa qeyri-kommunist. Azərbaycan xalqı onun fərqində idi ki, söhbət məhəbbəti yasaq edilmiş sevimli bir məmləkətdən və o məmləkəti böyük istedadı ilə ifadə edən doğma şairdən gedir. O ki, qaldı, Nazim Hikməti Azərbaycanın kommunist şairləri ilə müqayisə etməyə, mən belə bir müqayisəyə ehtiyac görmürəm və onu düzgün hesab etmirəm.

– Sizcə Nazim Hikmət Azərbaycan ədəbiyyatına nə dərəcədə təsir edib? Onu eyni zamanda da Azərbaycan şairi hesab etmək mümkündürmü?

– Bu təsir ikili xarakter daşıyıb. Azərbaycanda sözün məhdud yox, geniş və sivil mənasındakı millətçilik hissləri hakim sovet ideologiyası və xüsusən, otuzuncu illərin müdhiş gerçəklikl-

ri daxilində xislətin ən gizli dərinliklərinə çökməyə məcbur olmuşdu və Nazim Hikmətin məhz həmin hisslərinin yeni tərpənişi üçün münbit zəmin yaranmasında rolu oldu. Digər tərəfdən isə, güman edirəm ki, Nazim şeri sırf estetik baxımdan, bədii fikri sərbəst ifadə etmək mənasında, eləcə də mövzunun bəşəriliyi, geniş ehtiva dairəsi baxımından, xüsusən, altmışıncı illər Azərbaycan poeziyasına təsir edib. Nazimi Azərbaycan şairi hesab etmək olarmı? Bu sualla bağlı, yaxın keçmişimizin bir hadisəsi yadıma düşdü. 1984-cü ildə mən «Fikrin karvanı» adlı bir kitab nəşr etdirdim. Kitab görkəmli Azərbayçan tənqidçi və ədəbiyyatşünasları haqqında esselərdən ibarət idi, orada ilk dəfə olaraq Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev haqqında yazılar getmiş, onların şəkli çap edilmşdi və bu nəşr ədəbi ictimaiyyətdə böyük marağa səbəb olmuşdu. Elə həmin il mən, bu kitabın ikinci hissəsi kimi düşündüyüm klassik Azərbayçan ədəbiyyatının böyük nümayəndələri haqqında esselərdən ibarət «Karvan yola düzülür» adlı yeni bir kitab hazırladım və ora Qaracaoğlanla Yunus İmrəni də daxil etdim. O zamanın biabırçı senzura idarəsi olan «Qlavlit»də işləyən bir nəfər (indi yas məclislərində də, toyda da alovlu millətçi söhbətləri aparır) iki ayağını da bir başmağa dirədi ki, sən nə üçün onları kitaba daxil etmisən, axı onlar Azərbayçan şairləri deyil, türk şairləridir. Mən də Yunusun məşhur qoşmasındakı bu misraları ona söylədim:

Bilirəm mən səni – yalan dünyasan...
Şahları taxtından salan dünyasan...
Şahid qanadını yolan dünyasan...
Üzə gülüb könül qıran dünyasan...

Sonra da soruşdum: » – Burada sizin başa düşmədiyiniz bir söz var?» «– Yox»– dedi. «– Onda bəs nə üçün bu şair Azərbaycan şairi deyil?» Ancaq təəssüf ki, o kitabı nəşr etdirməyə nail ola bilmədim... Mən bu hadisəni ona görə yada saldım ki, əgər biz Nazimi orijinalda oxuyub başa düşür və nəinki başa düşür, seviriksə, deməli o, Türkiyə ilə bərabər, Azərbaycanın da böyük şairidir. Yəqin bu da təsadüfi deyil ki, onun ilk kitabı, səhv etmirəmsə, 1928-ci ildə Bakıda nəşr olunub.

– Nazim Hikmətin 100 illik yubileyi şəxsən Sizin üçün nəyi ifadə edir?

– Nazimin 100 illiyi müasir dünya ədəbiyyatı üçün çox əlamətdar bir tarixdir və şəxsən mənim üçün sevinc dolu bir hadisədir.

*«Ekspress» qəzeti,*
*2001.*

## E L Ç İ N: «SƏN DEMƏ, TƏYYARƏNİN SƏSİ DÜNYANIN ƏN GÖZƏL SƏSİ OLA BİLƏRMİŞ...»

– Elçin müəllim, bu günlərdə yalnız Bakı sakinləri yox, bütün xalqımız bayram əhvali-ruhiyyəsi yaşadı. «Türk ulduzları»nın uçuşları hamımızda nikbin ovqat yaratdı. Bu barədə nə deyə bilərsiz?

– «Türk ulduzları»ının Bakının üzərindəki uçuşu mənim həyatımın ən gözəl hadisələrindən biri oldu və doğrusu, əvvəldən də mən bu təşəbbüsü çox yüksək qiymətləndirirdim, bu uçuşu çox böyük bir həyəcan və səbirsizliklə gözləyirdim, türk əsgərinin qüdrətini, şücaətini, əlbəttə, yaxşı bilirdim, amma avqustun 24-dəki uçuş zamanı o fərəh hissini, o qürur hissini ki, mən keçirdim, bu dərəcədə yüksək olacağını, mənə bu dərəcədə təsir edəcəyini fikirləşmirdim. Təkrar edirəm, bu uçuşlar mənim həyatımın ən gözəl hadisələrindən biridir. Sən demə, təyyarənin səsi dünyanın ən gözəl səsi ola bilərmiş və o səsin, o gurultunun doğurduğu hissiyyatı məndə indiyə qədər heç bir hərbi marş, heç bir təntənəli musiqi yaratmamışdı.

– Bu uçuşları siz necə mənalandırırsınız?

– Bu uçuşların siyasi mənası, həm də böyük siyasi mənası gün işığı kimi aydın bir şeydir və bunun üzərində dayanmağa, yəqin ki, ehtiyac yoxdur. Yalnız onu qeyd etmək istərdim ki, bu hadisə Azərbaycan Prezidentindən və Türkiyə rəhbərliyindən böyük də siyasi cəsarət tələb edirdi və «Fantom»ların o uçuşu həmin siyasi cəsarəti yaxşı nümayiş etdirdi. Güman edirəm ki, həm avqustun 24-də, həm 25-dəki uçuşların və millətin bu dərəcədə təsirlənməsinin milli-strateji mənasında da tam aydınlıq var. Eyni zamanda təbiət də, elə bil, o uçuşlarla sözləşmişdi, göyün üzü tərtəmiz idi və bu təmizlik içindəki o uçuşlar mənim üçün həm də rəmzi bir məna daşıyırdı: təmizliklə cəsarət əkizdir, təmizlik olmayan yerdə hünər yoxdur.

– Maraqlıdır, «Türk ulduzları»nın uçuşu, yazıçı Elçində hansı assosiasiyaları doğurdu?

– «Fantom»lar o tərtəmiz göy üzündə böyük bir ürək şəkli cızdılar və göydəki o ürəyin təmizliyi, o ürəyin genişliyi müqabi-

lində, bizim Yer üzündəki Azərbaycan dediyimiz bu gözəl məmləkətdə adamların bir-birini çirkaba bulaşdırması, ona-buna böhtan atmaq, kreslo hərisliyi naminə hər şeyə hazır olmaq, xalqa, vətənə iş, əməl əvəzinə, boşboğazlıqla xidmət etmək, şəxsi mənafeni milli mənafedən üstün tutmaq, varidat ehtirası, yalançı pəhləvanlıq, yalançı «millət qəhrəmanlığı», cahil və nadan mülahizələr mənə nə qədər cılız və nə qədər misgin göründü...

– Son olaraq nə demək istərdiz, nə arzulayardız?

– Əvvəlcə sual vermək istərdim.

– Sual?

– Bəli. Bakının bütün küçələri, eyvanları, damları insan ilə dolu idi və o insanların hamısı bir fərəh içində idi. «Azadlıq» meydanındakı yüz minlərlə insan arasında iqtidarın da, müxalifətin də nümayəndələri var idi və onların gözləri eyni bir qürur hissi ilə gülürdü və mən fikirləşirdim ki, əgər, bizim fərəh, qürur mənbəyimiz bu dərəcədə eynidirsə, nə üçün bir-birimizə qənim kəsilməliyik? Bu düşmənçilik nədir belə? «Sən müxalifətə yaxınsan, ona görə də gözümün işığısan, sən isə iqtidara yaxınsan, ona görə də pissən!»– düşüncəsi ilə, o eyni qürur, eyni fərəh necə uyuşur? Bu mənim suallarım. İndi isə arzumu deyirəm: o gün olsun ki, «Türk ulduzları»ilə bərabər, «Azərbaycan ulduzları» da ərazisi tam və həmişəlik bərpa olunmuş Azərbaycan Respublikasının, o cümlədən, Qarabağın səmasında da beləcə dinc uçuş nümayiş etdirsinlər. Və bu da mənim inamım: o gün uzaqda deyil!

*Müsahibəni Turqut Mustafayev apardı.*
*2001.*

# İLK NÖVBƏDƏ DOĞMA DİLİN TƏƏSSÜBÜ ÇƏKİLMƏLİDİR

Müstəqilliyinin onuncu, XXI əsrin ilk ilini yaşayan Azərbaycanda xalqın taleyində, tarixində əhəmiyyətli iz buraxan taleyüklü proseslər gedir. İnstitusional quruculuq təkmilləşir, iqtisadi islahatlar aparılır, beynəlxalq birliyə inteqrasiya davam edir. Bütün bunlarla yanaşı mənəviyyat amilləri də yaddan çıxarılmayıb. Son günlər Respublika Prezidentinin dillə bağlı verdiyi fərman ictimaiyyətin əsas müzakirə obyektinə çevrilmişdir. Ədəbiyyatımızda öz dəst-xətti ilə seçilən, ədəbi dili «Ölüm hökmü», «Ağ də-və», «Mahmud və Məryəm» romanları, povestləri, hekayələri, dram əsərləri ilə zənginləşdirən xalqın yazıçısı, vətəndaşı, ictimai xadimi kimi tanınan, bu gün də sözünə ehtiyac duyduğumuz, Baş nazirin müavini, xalq yazıçısı Elçinlə söhbətimiz həm dil, həm də ədəbiyyatla bağlı oldu.

– Elçin müəllim, biz Sizinlə ictimaiyyət tərəfindən dövlət başçısının dil, əlifba haqqında fərmanının geniş müzakirə edildiyi bir dövrdə görüşürük. Sizin fikriniz həm bizim üçün, həm də oxucularımız üçün maraqlıdır...

– Bu çox vaxtında verilmiş bir fərmandır. Çünki dil dövlətçiliyin əsas atributlarından biridir. Dil haqqında fərman son dərəcə böyük əhəmiyyət kəsb edir.

– Əsrlər boyu təqib və təzyiqlərə məruz qalan dilimizin bu gün dövlət qayğısını hiss etməsini necə dəyərləndirirsiniz?

– Bu sənəd xalqa və onun dilinə olan ehtiramın ifadəsidir. Hələ Konstitusiya layihəsi hazırlanan vaxt – 1995-ci ildə çox geniş və obyektiv müzakirələr getdi. Heydər Əliyev 1969-cu ildən bu sahəyə xüsusi münasibət bəsləyib. Bunun dəfələrlə canlı şahidi olmuşam.

Bilirsiniz, hər bir xalqın, dövlətin iki sərhəddi olur. Birincisi coğrafi, ikincisi mənəvi. Mənəvi sərhəd çox qorxuludur.

– Niyə?

– Çünki bu günlə keçmişimiz arasında olan sərhəddir. Mən əlifbanın dəyişməsini millətin öz içində, daxilində, özü ilə özü arasında bir sərhəd hesab edirəm. Mirzə Fətəli Axundov ərəb qra-

fikasının dəyişməsi üçün çox çalışıb, çox təkliflər irəli sürüb. Hətta latın qrafikasının əsasında xüsusi əlifba yaradıb. Türkiyənin Üləmalar məclisində bunu təsdiq etdirmək istəyib. Lakin ona «Məcidiyyə» ordeni veriblər, əlifbanı isə qəbul etməyiblər.

– O dövr üçün bu çox böyük hadisə idi?

– Mən də əvvəllər belə fikirləşirdim. Bu gün isə bir az başca cür düşünürəm. Doğrudan da M.F.Axundov əlifbanı yüngülləşdirmək istəyib. Xalqı maarifləndirməyə çalışıb. Bu gün isə görürük ki, Yaponiya kimi inkişaf etmiş bir ölkənin heroqlifləri ərəb əlifbasından qat-qat çətindir. O isə kompüter aləmində dünyanın aparıcı dövlətlərindəndir. Deməli, əlifbanın çətinliyini maarifləndirmənin qarşısında mühüm maneə kimi dəyərləndirmək özü-özlüyündə səhv fikirdir.

– Ancaq faktiki olaraq Azərbaycan bir əsrdə üç dəfə əlifba dəyişikliyinə məruz qalıb.

– 1929-cu ildə ərəb əlifbasından latın əlifbasına keçməyimizin müsbət cəhətləri olmuşdur. Onun siyasi əhəmiyyəti böyük idi. Xalq ətalətə qarşı çıxaraq sivil inkişaf səviyyəsinə qədəm qoydu. Digər tərəfdən latın qrafikası Azərbaycan dilinin ahəng qanununa, xüsusiyyətlərinə, fonetikasına ən uyğun əlifbalardan biridir, bəlkə də birincisidir. Amma buna baxmayaraq o zaman biz böyük bir mənəvi irsimizdən uzaqlaşmalı olduq. Bu mənada arada böyük bir sərhəd yarandı. Sonra 1939-cu ildə Stalinin əmri ilə latın qrafikasından kiril qrafikasına keçdik.

– Bununla da arada yeni bir sərhəd yarandı?

– Bəli, tamamilə doğrudur. Kiril əlifbasını isə bir növ özümüzünküləşdirmişdik. Ancaq müstəqil dövlət kimi biz bu əlifbanı dəyişmək barədə qərar qəbul etdik.

– Keçid elə də asan məsələ deyil. Bunun tərəfdarları da var, əleyhdarları da olmamış deyil...

– Rəhmətlik İlyas Əfəndiyev böyük bir məqalə yazmışdı. Ömrünün sonunda çap elədiyi kitabda da o məqalə nəşr olunub. Latın qrafikasını həvəslə, şövqlə müdafiə edirdi. Ancaq 60 ildə biz kiril qrafikası ilə külli miqdarda elmi, bədii, tarixi və s., və s. kitablar çap eləmişik. Böyük bir xəzinə ilə özümüz arasında faktiki olaraq yenidən sərhəd qoyası olduq. Əlbəttə, indi ah-uf etməyin, düz eləyib-eləməmək haqqında fikirləşməyin vaxtı deyil. Yadımdadı, o vaxt əlifba ilə bağlı qərar qəbul olunanda və rəhmətlik Mirzə İbrahimov «ay camaat, tələsməyin, fikirləşin» deyəndə,

biz hamımız ondan narazı qalmışdıq, o cümlədən, mən də. İndi isə fikirləşirəm ki, belə şeylərdə hay-küyə getməyin axırı çətin olur. Bu on ildə ki, biz latın qrafikasına keçmişik, faktiki olaraq bizim uşaqlarımız bisavad böyüyürlər. Çünki iqtisadi vəziyyətlə bağlı biz məktəbdənkənar ədəbiyyatı lazımi qədər latın qrafikası ilə çap edə bilməmişik. Birinci sinifdən onuncu sinfə qədər latın qrafikası ilə oxuyub-yazmağı öyrənənlərin dünya ədəbiyyatından xəbəri yoxdur. Çünki Tolstoyun, Qrim qardaşlarının nağıllarından, «Min bir gecə»dən, Azərbaycan nağıllarından xəbərləri yoxdu. Bu, böyük xəzinədir və onları yeni əlifba ilə çap eləmək üçün geniş maddi imkanlar lazımdır. 60 ildə yarananları birdən-birə yeni qrafika ilə çap eləmək mümkün deyil. Ancaq nə etmək olar? Bu da bir taledir. İnsanların taleyi kimi, dilin də taleyi var. Bir yüz ildə üç dəfə əlifba dəyişmək də bizim ana dilimizin taleyinə yazılıbmış. Burada nikbin bir məqam da var: gör bizim ana dilimiz nə qədər güclü, zəngin, qadir bir dildir ki, taleyin bu ağır sınaqlarına sinə gərməyi bacarıb. Prezidentin fərmanı Azərbaycan xalqının gələcəyi ilə bağlı çox ciddi və taleyüklü bir sənəddir. Burda artıq konkret vaxtlar müəyyən edilib. Avqustun 1-dən mətbuat latın qrafikasına keçməlidir.

– Bu yəqin ki, problemsiz ötüşməyəcək...

– Əlbəttə, böyük problemlərin ortalığa çıxacağı gözlənilsə də, biz bu yolu keçməliyik. Azərbaycan dili türk xalqları arasında ən formalaşmış, sabit ədəbi dilə sahibdir. Biz bu ədəbi dili yaratmışıq. Bu gün isə bizim latın qrafikası ilə lazım olan lüğətlərimiz yoxdu, lazım olan qədər ixtisaslı korrektorlarımız yoxdu. Bu da qəzetləri bir növ ləhcəçiliyə sürükləyə bilər və ədəbi dilə zərər gətirər. Biz çox ciddi surətdə yeni mütəxəssislər, korrektorlar nəsli yetişdirməliyik. Latın qrafikası ilə əsərlər çap olunmalıdır. İndiyə qədər çap olunan əsərlərin latın qrafikası ilə nəşri bir nömrəli məsələ kimi qarşımızda durur.

– Bazis sayılan dilçiliklə bağlı məsələlər də nəzərdən qaçırılmayıb...

– Azərbaycan dilçiliyi türkologiyada xüsusi yeri, çəkisi olan bir sahədir. Fərmanda göstərilir ki, axır illər bir durğunluq var. Mən hesab edirəm ki, bu sənəd durğunluğu aradan qaldıracaq. Görkəmli dilçilərlə söhbətlərimizdə aydın oldu ki, bu fərman nə qədər ruh yüksəkliyi gətirib, yazmaq, yaratmaq şövqü, ehtirası ya-

radıb. Bu baxımdan, elə bilirəm ki, çox ciddi keyfiyyət dəyişikliyi olacaq.

– Dil haqqında qanun layihəsi üzərində də iş gedir. Burada hansı məsələlərin öz əksini tapacağı gözlənilir?

– İdarəçilikdə dildən istifadə, dilin maraqlarının qorunması, bu dildəki məktəblərin, dərsliklərin keyfiyyətini yüksəltmək və s., Bu dilə qarşı təxribat yaradanlarla bağlı da ölçü götürülməlidir. Mahiyyət etibarilə fəaliyyətləri bu dilə qarşı olanlarla da mübarizə aparılmalıdır. Söhbət müstəqil Azərbaycan Respublikasından gedirsə, doğma dilin ümumxalq təəssübü çəkilməlidir.

– Elçin müəllim, biz sizin ictimai fəaliyyətinizin bir şaxəsi olan «Vətən» Cəmiyyətində gördüyünüz işlər barəsində söhbət açmağınızı da istərdik.

– «Vətən» Cəmiyyəti yenə də fəaliyyət göstərir və mən həmin ictimai fəaliyyətimi davam etdirirəm.

– Bu ilin payızında Dünya Azərbaycanlılarının Bakıda I qurultayının keçirilməsi gözlənilir.

– Mühacirətdə olan azərbaycanlıların qurultayının keçirilməsi çoxdankı ideyadır. Azərbaycan mühacirəti ilə əlaqədar Milli Məclisin iclasında da cənab Prezident bir sıra fikirlər söyləmişdir. Bunlar doğrudan da həqiqətdir. Azərbaycan mühacirəti son dərəcə mürəkkəb bir məfhumdur. Ona görə ki, Azərbaycanda başqa ölkələrlə, xalqlarla müqayisədə analoqu olmayan məsələlər ortalığa çıxır. Xaricdəki azərbaycanlıların böyük əksəriyyəti Azərbaycan Respublikasından gedən adamlar deyil. Buradan da ortaya böyük problemlər çıxır... Etnik olaraq azərbaycanlı olsalar da, vətəndaş kimi başqa ölkənin vətəndaşlarıdır. Digər tərəfdən müxtəlif ictimai-siyasi formasiyalarda yaşamış azərbaycanlılar arasında münasibətlər yoxdur, bir-birlərinə qarşı soyuqluq mövcuddur. Ona görə də formalaşmış Azərbaycan diasporu hələ də yaranmayıb. Vaxtilə mən bu barədə çox yazmışam, indi təkrar eləmək istəmirəm.

– Xatirimizdədir, siz bu məsələlərlə çox ciddi məşğul idiniz.

– Bu, «Vətən» Cəmiyyətinin xəttilə həyata keçirilirdi. 1987-ci ildə dekabrın 31-də Cəmiyyəti təsis etdik və o geniş fəaliyyət göstərdi. Həmin vaxtlar haqqımızda müxtəlif şayiələr yayırdılar. Onlar da müəyyən dairələrdən təlimat almış adamlar idi ki, istəmirdilər «Vətən» Cəmiyyəti bu dərəcədə milli məsələr-

lə məşğul olsun. Çünki həmin ərəfədə Cəmiyyət böyük işlər görmüşdü. Xaricdəki azərbaycanlılarla əlaqə yaratmış, dərnəklərin təşəkkülünə dəstək vermişdi. Nə qədər azərbaycanlı mühacirləri ölkəyə dəvət etmişdi. Onların sırasında siyasi mühacirlər də var idi. Misal üçün, Məhəmməd Kəngərlini də, Əhməd Qaracanı da, Cəmil Ünalı da, başqalarını da ilk dəfə Azərbaycana «Vətən» Cəmiyyəti dəvət etmişdi. Avropadan rəssam Behkəlamı, Davud və Əyyub İmdadyan qardaşlarını Azərbaycana çağırmışdıq. O vaxt mənim haqqımda şayiə yaymışdılar ki, millət burada mübarizə aparır, Elçinsə Fransadan erməniləri dəvət edir. Davud, Əyyub İmdadyan qardaşları isə olduqca vətənpərvər insanlar idi. İlk dəfə olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin tarixi ilə bağlı materialları, onun liderləri haqqında geniş məlumatları söyə-söyə yox, sevə-sevə «Odlar yurdu» qəzetində çap etdik. M.Ə.Rəsulzadənin xatirələrini Türkiyədən gətirdim və onu da qəzetdə dərc etdik. Qəzetin çox fədakar, vətənpərvər əməkdaşları var idi. Düzdür, müəyyən dairələrin təhrik etdiyi təxribatçılar da olurdu. Bütün bunlarla bağlı mənim başım çox qalmaqallar çəkdi. İndi döşünə döyən bəzi «millət qəhrəmanları» o zaman guya mənim qayğıma qaldıqları üçün məni «ehtiyatlı olmağa» çağırırdılar. İndi təbii ki, bunu «yaddan çıxarıblar», amma bu onların öz işləridi, çünki mən belə şeyləri çox görmüşəm və görə-görə də gedirəm... Ümumiyyətlə, «Odlar yurdu» qəzetinin Azərbaycan milli-siyasi şüurunun müasir mərhələdəki inkişafında və formalaşmasında çox mühüm rolu oldu. 90-cı ilin yanvar hadisələrində isə «Vətən» Cəmiyyətinin fəaliyyəti hamıya məlumdur. Təkcə bir fakt demək istəyirəm: biz yanvarın 20-dən 21-nə keçən gecə Şeyxülislam Allahşükür Paşazadənin bəyanatını teleks ilə bütün dünyaya yaydıq və 21-də Pakistanın o zamankı baş naziri xanım B.Buhutto bizim teleksə əsaslanaraq SSRİ rəhbərliyinə etiraz notası göndərmişdi. O zamanlar mən ABŞ-ın nüfuzlu senatoru Cim Mutini Bakıya dəvət edə bildim və ilk dəfə olaraq onunla birgə öz protokolumuzla Şəhidlər Xiyabanını ziyarət etdik. Sonradan bu, rəsmi dövlət ənənəsinə çevrildi.

– Qarşıdan həm də qurultay gəlir...

– Qurultayın azərbaycanlıların birləşməsində, təşkilatlanmasında mühüm rolu oynyacağına inanıram. Müxtəlif siyasi fikirləri olan, müxtəlif əqidə sahibi, cəmiyyətdə müxtəlif mövqeləri olan insanları Vətənin maraqları naminə bir araya gətirmək bizim

borcumuzdur. Qurultayın qarşısında duran vəzifədir. Məqsədimizə nail olacağımıza da inanıram. Əks halda biz diasporu formalaşdıra bilməyəcəyik.

– Qurultaya hazırlıq işləri necə gedir?

– Çox normal.

– Belə demək mümkünsə, alternativ forumlar keçirilib.

– Çox yerdə çox şey ola bilər. Nə qədər çox tribunalardan Azərbaycan sözü eşidilsə, nə qədər azərbaycanlılar bir yerə yığışsalar, bir o qədər yaxşıdır. Çox şeyi də dramatikləşdirmək lazım deyil. Amma qlobal problematika ilə ortaya gələn bir qurultaya ehtiyac var idi. O da ölkə prezidentinin fərmanı ilə keçirilir.

– Yeni əsrə qədəm qoymuşuq. Arxada isə yüz illərin, min illərin mədəni, maddi sərvətləri durur. Biz onu qoruyub saxlaya biləcəyikmi?

– Söhbətimizin əvvəlində toxunduğumuz məsələ bununla sıx bağlı idi. Bu günlər çox şikayət edirik ki, ədəbi proses məhv olub getmək üzrədir. Mən də bu fikirdəyəm ki, ədəbi proses çox durğundur. Yaranan əsərlərin bədii-estetik səviyyəsi 15 il əvvəl yaranan əsərlərdən aşağıdır. Bunların öz səbəbi var. Yaddan çıxarmaq lazım deyil ki, böyük bir imperiya çökdü. Nəhəng bir dövlət tar-mar oldu. Bu da öz növbəsində böyük siyasi kataklizmlər yaratdı. Eyni zamanda, mənəviyyatda da kataklizmlər yarandı. Bu çox ciddi bir məsələ idi. Azərbaycanda nə baş verdi? Azərbaycan öz müstəqilliyi uğrunda mübarizəyə başladı. Dövlət sistemi dəyişdi. Bunlar azmış kimi Azərbaycan həm də təcavüzə məruz qaldı. Bir milyondan artıq qaçqın ordusu yarandı... Ərazilərimiz işğal edildi. Bu gün qazandığımızı, mədəniyyət, təhsil, elm sahəsində əldə etdiyimiz uğurları qoruyub saxlamaq ən böyük vəzifəmizdir. Mədəniyyətin, ədəbiyyatın taleyi bu gün mədəniyyət xadimlərindən çox, zavod, firma, şirkət rəhbərlərindən asılıdır. Ona görə ki, hansı həlli vacib məsələ qaldırılırsa, o gəlib dirənir maliyyəyə. Maliyyə qıtlığını, sıxıntısını, keçid mərhələsini qurtardıqdan sonra inanıram ki, Azərbaycan mədəniyyəti daha da inkişaf edəcək.

– Altmışıncı illər nəslinin bir çox əsəri həm ədəbi ictimaiyyətdə, həm də oxucular arasında çox böyük rezonans doğururdu. Biz sizləri həm də «bir udum təmiz hava sayırdıq». İndi necə, o havanı qoruyub saxlaya bilmisinizmi?

– O suala gərək siz – oxucular cavab versinlər. Biz o havanı qoruyub saxlaya bilmişik, yoxsa yox. Şəxsən söhbət məndən

gedirsə, yazdıqlarım göz qabağındadır. Mən sizə bir məsələni deyim...

– Söz sizindir, buyurun...

– Bu yaxınlarda çapa üç kitab hazırladım. Biri «Baladadaşın ilk məhəbbəti» hekayələr kitabıdır. Bu kitaba 1968-ci ildən üzü bəri yazdığım hekayələri toplamışam. Bir cümləsinə, abzasına toxunmadan. Çünki burada konyuktura yoxdur. Tənqid sovet ideologiyasının tərkib hissəsi idi. Buna baxmayaraq mən son 33 ildə yazdığım tənqidi əsərləri bir yerə topladım, nöqtəsinə, vergülünə toxunmadan. Qeyri-təvazökarlıq olmasın, bu onu göstərir ki, mən ideologiyaya yox, ədəbiyyata xidmət etmişəm. Cavan vaxtlarımda «Azərbaycan bədii nəsri dünya ədəbi tənqidində» adlı monoqrafiya da yazmışdım. Və onu 1981-ci ildə kitab şəklində çap etdirmişdim. Bu gün də o olduğu kimi çap olunub.

– Mənsub olduğunuz «Altmışıncı illər» nəsli barədə müxtəlif söz-söhbətlər də eşidirik. Narazılıqlar və s. barədə fikirlər səslənir.

– Mətbuata baxanda bu fikirlərə mən də rast gəlirəm. Bu gün hərə bir söz deyir. Ona görə də oxucu qiymət verməyi, seçməyi bacarmalıdır. Savad, səviyyə ilə cəhaləti, nadanlığı bir-birindən ayırmalıdır.

– Hələ yeni inkarçılar da meydana çıxır...

– İnkarçılar nəsə ortalığa qoysun, sonra meydana çıxsınlar. Mən özüm inkarçılıq psixologiyasına bələd bir adamam və hələ vaxtilə çox inkarçı çıxışlarım olub. Bu gün də çox şeyi mən inkar edirəm. Amma bu inkarçıları o zaman qəbul edirəm ki, ortaya bir yazı qoysunlar... Bir misal gətirim. Atam, rəhmətlik, həmişə danışardı. Bir nəfər (indi rəhmətə gedib, tanınmış adam idi) Yazıçılar İttifaqının Natəvan klubunda iclaslar olanda birinci çıxardı xitabət kürsüsünə. Başlayardı professor Mikayıl Rəfilini ifşa etməyə (iclasın mövzusundan asılı olmayaraq). Növbəti bir iclasda Mikayıl Rəfili söz alıb çıxır tribunaya. Deyir ki, ay camaat, mən bilirəm ki, bu iclasda filankəs yenə söz alıb mənim yazılarımı ifşa edəcək. Mən də buna indiyə qədər cavab vermirdim. Qərara gəldim cavab verəm. Getdim, oturdum kitabxanada, nə qədər axtardım, ora getdim, bura getdim, soraqlaşdım, bu adamın bir əsərini tapa bilmədim ki, indi onu tənqid edim. Ona görə də mən heç nə demirəm... Gedib oturur yerində.

– Son illər dramaturgiyaya meyliniz nə ilə bağlıdı. Yaranmış boşluğu doldurmaq üçün...

– Bilirsiniz, yazıçı o adamdı ki, yazılarında özünü ifadə edir. Roman, hekayə, dram əsərləri – hansı şəkildə ifadə etməsinin fərqi yoxdur. Bir məsələni qeyd edim ki, dramaturgiya mənim üçün son illərin məhsulu deyil. İlk pyesimi – «Poçt şöbəsində xəyalı» 1969-cu ildə yazmışam. 26 yaşım var idi. O vaxt Mədəniyyət Nazirliyinə, teatra təqdim etdim. Bu əsəri bədbin, çarəsiz, iztirablarla dolu, işıqsız hesab etdikləri üçün icazə vermədilər. Cəfər Cəfərov oxuyub bəyənmişdi. Mehdi Məmmədovun xoşuna gəlmişdi, tamaşaya qoymaq istəyirdi. Onlar belə, bu əsəri səhnəyə qoya bilmədilər. Mən də adını dəyişib dramatik povest kimi Moskvada çap etdirdim. Ondan sonra bir çox xarici ölkələrdə, respublikamızda nəşr olunan kitablarımda çap olundu. Uzun müddət dram əsəri yazmadım. Düzdü, xeyli radio pyesi yazmışdım, bəzi hekayələrimi səhnələşdirmişdim. Romanları, povestləri yazandan sonra verirdim, ilk dəfə atam oxuyurdu. O, həmişə oxuyandan sonra mənə deyərdi ki, sən nahaq dramaturgiya ilə məşğul olmursan. Görünür, düz deyirmiş...

– Elçin müəllim, sevilən, oxunan bir yazıçı kimi yazı masası üçün darıxmamısınız ki?

– Mən burada işləməyimə baxmayaraq yenə də yazıram. Ancaq, əlbəttə, yazıçı üçün ideal variant odur ki, gedib otursun yazı masasının arxasında və nə işi var, orda görsün.

– Sizə həm yaradıcılıqda, həm də tutduğunuz mövqedə uğurlar arzulayırıq.

– Sağ olun.

*Söhbəti Elton Dünyamalıoğlu,*
*Mikayıl Nərimanoğlu,*
*Qənbər Cəlilov yazdılar.*
*2001.*

## E L Ç İ N: «YUXU SONSUZ OLA BİLMƏZ...»

SUAL. Elçin müəllim, «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri» silsilə məqalələriniz ədəbi dairələrdə ciddi marağa səbəb olub. «525-ci qəzet»in mən oxuduğum nömrələri o qədər əldən-ələ gəzmişdi ki, az qalırdı didilib tökülsün.

ELÇİN (Gülür). Ona görə də «525-ci qəzet» kimi qəzetləri hər gün səhər-səhər alıb oxumaq lazımdır.

SUAL. Yəqin elədir. Eyni zamanda, bu onu göstərir ki, bu gün yüksək elmi-nəzəri səviyyəli tənqid nümunələrinə mənəvi ehtiyac böyükdür. Sizin silsilə məqalələriniz son dərəcə vaxtında yazılmışdır və qaldırdığınız problemlər də olduqca aktual mahiyyət daşıyır. Oxucular elə «525-ci qəzet»də Sizin yeni hekayələrinizi gözləyirdi, lakin birdən-birə bu silsilə məqalələr meydana çıxdı. Necə oldu ki, bu məqalələri yazdınız?

ELÇİN. Hər halda, «birdən-birə» olmadı. Siz özünüz «mənəvi ehtiyac» sözünü işlətdiniz. Bilirsiniz, artıq geriləməyə yer qalmayıb. Ədəbi proses silkələnməli, ayılmalıdır. Yuxu sonsuz ola bilməz, hətta lotargiya yuxusunun da sonu var. Sonsuz yuxu – ölümdür.

SUAL. 70-80-90-cı illərdə Sizin «Müasir tənqidimiz. Vəziyyət və vəzifələr (Azərbaycan ədəbi tənqidi haqqında düşüncələr)», «Uman yerdən küsərlər (Son beş ilin tənqidi haqqında)», «Tənqidimizin metodoloji problemləri» silsiləsi, «Tənqid və ədəbiyyatşünaslığımızın yaradıcılıq məsələləri», «Ədəbi proses. Olum, ya ölüm» silsiləsi kimi Azərbaycan və keçmiş mərkəzi sovet ədəbi mətbuatında dərc edilmiş əhatəli, prinsipial ədəbi-nəzəri əsərləriniz yada düşür. Siz o məqalələrlə yalnız Azərbaycan yox, o zamankı ümumsovet ədəbi prosesinin fəal və nüfuzlu iştirakçılarından biri idiniz. O məqalələr rus mətbuatında da yüksək qiymətləndirildi, «Drujba narodov» jurnalının, «Literaturnaya qazeta»nın «Ən yaxşı məqalə» mükafatlarını aldı. Yeni silsilə məqalələrinizi həmin məqalələrin davamı hesab etmək olarmı?

ELÇİN. Əvvəla, bu xatırlamalara görə çox sağ olun, belə məlum olur ki, hamının yaddaşı, bəzi adamlarda olduğu kimi, qlo-

bal korşalmaya məruz qalmayıb. Bu məqalələr isə, əlbəttə, əgər belə demək mümkünsə, bir yaradıcı xəttin, bir istiqamətin ifadəsidir. Ancaq bir məsələ var ki, 70-80-90-cı illərdə tənqid heç zaman indiki kimi ağır vəziyyətə düşməmişdi, ədəbi proses heç vaxt indiki kimi ölgün və səviyyəsiz olmamışdı.

SUAL. Dediyiniz yaradıcı xətti bundan sonra da davam etdirmək fikriniz varmı?

ELÇİN. Bilirsiniz ki, «525-ci qəzet» bu silsilə ilə Azərbaycan ədəbi tənqidinin müasir vəziyyəti haqqında müzakirə açıb. Əgər o müzakirə baş tutsa və ciddi ədəbi söhbət aparılsa, mən, çox güman ki, həmin müzakirəyə yekun vura bilərəm. Mən çox istərdim ki, belə bir müzakirə baş tutsun. Ona görə yox ki, söhbət mənim məqalələrimdən gedir, ona görə ki, ədəbi tənqidimizdə, ədəbi prosesdə artıq elə bir məqam yetişib ki, gecikmək olmaz. Dedi-qodu, primitiv inkarçılıq, elmi-nəzəri qadirsizlik, naşı və bayağı mülahizələr, arxasında heç bir baqaj olmayan iddialar ədəbi tənqidi əvəz etdikdə, təbii ki, ədəbi prosesdən heç nə ummaq olmaz. Ədəbi prosesin ölgünlüyü isə milləti ədəbi inertliyə, ədəbi biganəliyə sürükləyən mənfi bir stimuldur. Bu stimul müsbət fazaya keçirilməsə, ümumiyyətlə, ədəbiyyatımızın yaxın gələcəkdəki inkişafı böyük problemlərlə rastlaşa bilər.

SUAL. «Böyük problemlər» dedikdə, Siz nəyi nəzərdə tutursunuz?

ELÇİN. Bu gün Azərbaycanda nə qədər nəşriyyat var? Şəxsən mən, bütün ömrü nəşrlərlə bağlı olan bir adam, bu sualın dəqiq cavabını bilmirəm. Bu gün bir rəqəmdir, sabah başqa rəqəm. Yəqin belə də olmalıdır. Söz azadlığıdır, sahibkarlar dünyasıdır. Amma gəlin baxaq, o nəşriyyatlarda roman, poema, şer adı ilə nələr çap olunur? Daha doğrusu, nələr çap olunmur? Ədəbiyyat adı ilə təqdim olunan bu məmulatın ədəbiyyata zərrə qədər də dəxli yoxdur. Kimin pulu var, kim sponsor tapır, bütün o səfsəfəni nəşr etdirir, özü haqqında monoqrafiya, sənədli povest buraxdırır və s. və i. a. Belə bir vəziyyətdə, təbii ki, oxucu zövqü korşalır, ədəbi-estetik meyarlar heçə enir. Bəs, nə etmək lazımdır? Axı, hökumət qərar çıxara bilməz ki, istedadsız yazını nəşriyyatlarda nəşr etmək, qəzetlərdə çap etmək olmaz. Bu işi tənqid görməlidir. Tənqid susduqca, qeyri-ədəbiyyat daha artıq bir ehtirasla ədəbiyyatı üstələməyə başlayacaqdır.

SUAL. Bu baxımdan Siz Azərbaycan Yazıçılar Birliyinin, Nizami adına Ədəbiyyat İnstitutunun fəaliyyətini necə qiymətləndirirsiniz?

ELÇİN. Mən istərdim ki, bu qurumlar daha artıq bir həvəs və enerji ilə ədəbiyyat mücadiləsi aparsınlar.

SUAL. Elə bil ki, bu suala konkret açıqlama vermək istəmirsiniz...

ELÇİN. Əvvəla, mən nə lazımdırsa, onları son məqalələrimdə demişəm. Bir də ki, indi mətbuatda elə bir dedi-qodu, qeybətçilik baş alıb gedir ki, sizə doğrusunu deyim, adam heç düz söz də demək istəmir... Sizi konkret nə maraqlandırır?

SUAL. Misal üçün, bu gün Azərbaycan Yazıçılar Birliyi və onun fəaliyyəti müxtəlif səviyyələrdə mübahisələr obyektinə çevrilib. Siz silsilə məqalələrinizdə Yazıçılar Birliyini çox ciddi müdafiə etmisiniz. Elçinlə Anarın dostluğu məlumdur. Ona görə də bəziləri belə fikir söyləyirlər ki, guya, siz dostunuzu müdafiə etmək istəyirsiniz.

ELÇİN. Onu deyənlər hamını öz arşınları ilə ölçməsinlər. Yazıçılar Birliyi heç kimin monopoliyası deyil, Yazıçılar Birliyi yazıçılarındır və o cümlədən də, mənimdir. Mən 35 ildir Yazıçılar Birliyinin üzvüyəm və gənc yaşlarımdan 12 il oranın katibi işləmişəm. Necə işləmişəm? (Gülür.) Bu barədə danışmaq istəmirəm, yoxsa, mən də başlayaram Əkrəm dostumuz kimi özünütəriflə məşğul olmağa.

SUAL. Mətbuatda belə bir xəbər yayılır ki, guya, yazıçıların qurultayında Anar istefa verəcək. Bu barədə yazıçılar arasında fikir müxtəlifliyi var, bəziləri deyir ki, Yazıçılar Birliyinin rəhbərliyi mütləq dəyişməlidir, digərləri isə onları müdafiə edir. Bir qismi də deyir ki, ümumiyyətlə, Yazıçılar Birliyinə ehtiyac yoxdur. Sizin bu məsələyə münasibətinizi bilmək çox maraqlı olardı.

ELÇİN. SSRİ dağılandan sonra Yazıçılar İttifaqının qorunub saxlanması, mənim fikrimcə, yalnız ədəbiyyatımız üçün yox, ümumiyyətlə, mədəniyyətimiz üçün çox faydalı, əhəmiyyətli bir hadisə oldu. Bilirsiniz nə var? Yazıçılar İttifaqını sovet sistemi ilə bağlayırlar və həqiqətən də, belədir. Yazıçılar İttifaqını Stalin sistemi yaradıb. Bəli, xüsusən, 30-cu illərdə, elə sonralar da Yazıçılar İttifaqında çox intriqalar olub, çox «ifşalar» olub, bəli, Yazıçılar İttifaqı sistemə xidmət edib, amma Yazıçılar İttifaqı eyni zamanda ana dilimizin, milli mədəniyyətimizin təəssübünü də çə-

kib. Birini deyib, o birini dememək olmaz. Bizim bir çox məktəblərimizi, o cümlədən, Bakı Dövlət Universitetindən başqa, bütün ali məktəblərimizi, teatrlarımızı, kitabxanalarımızı, muzeylərimizi, elmi tədqiqat institutlarını və s. və i. a., elə həmin Stalin sistemi yaradıb. İndi nə edək, onların hamısını bağlayaq, dağıdaq, daşqalaq edək? Nə ilə qalaq? Boş sözlərlə, arxasında heç bir məsuliyyət hissi dayanmayan hay-küyçülüklə? Naşılar mənim bu sözümdən tutub deyə bilərlər ki, Elçin Stalin sistemini müdafiə edir, amma qoy desinlər. Onsuz da, kimin ağzına nə gəldi, deyir. Naşı elə ona görə naşıdır ki, qanmazdır. Mən istərdim ki, Anar Yazıçılar Birliyində qalıb işləsin, onun təcrübəsinə də, hörmətinə də, əlaqələrinə də, mənim fikrimcə, Yazıçılar Birliyinin ehtiyacı var, amma orada çox ciddi islahatlar aparılsın, üzvlük axınının qarşısı alınsın, indiki üzvlər mütləq attestasiyadan keçirilsin, cavanlar mütləq irəli çəkilsin, amma yalnız cavan olduqlarına görə yox, istedad və bacarıqlarına görə irəli çəkilsin, orada prinsipiallıqla, cəsarətlə, kompromissiz olaraq ədəbiyyat təəssübkeşliyi çəkilsin, qrafomanlığa, ədəbi dəllallığa, bayağı zövqə, zərərli iddialara qarşı ədəbiyyat mücadiləsi aparılsın və Yazıçılar Birliyi ədəbi prosesin, ədəbiyyat aləminin, ümumiyyətlə, mədəni həyatımızın canlı mərkəzinə çevrilsin. Həm də Anarın «istefa» məsələsi ətrafında ajiotaj yaratmaq lazım deyil, çünki ajiotaj, xüsusən də bizim mühitdəki xəstə ajiotaj olan yerdə, dedi-qodu da, kin-küdurət də, «ədəbi» alverçilik də yeni bir həvəs və enerji ilə ortaya düşəcək.

SUAL. Elçin müəllim, Siz indicə «Əkrəm dostumuz» deyəndə, təbii ki, Əkrəm Əylislini nəzərdə tuturdunuz?

ELÇİN. Bəli, Əkrəm Əylislini nəzərdə tuturdum. Fürsətdən istifadə edib Əkrəmin 65 yaşını, «İstiqlal» ordeni almasını sidqürəkdən təbrik edirəm. 60 yaşı olanda ürək sözlərimi yazıb onu mətbuatda təbrik etmişdim. Onda «Şöhrət» ordeni almışdı. Əkrəm bizim aramızda ən çox orden alan yazıçıdır. Sovet İttifaqının da xeyli orden və medallarını almışdı. Səmimi-qəlbdən arzu edirəm ki, 70 yaşında da, Allah qoysa, ondan sonralar da çoxlu ordenlər alsın. Gözəl əsərlər yazsın. Sağlam, xoşbəxt və bir az da... təvazökar olsun. Əkrəm son illərdəki «özünütəriflərlə» ədəbiyyatın qatarından yapışıb: «Birdən mənsiz irəli gedərsiz, ha! Qoymaram!» – deyir. Amma nahaq bu dərəcədə nigarançılıq keçirir, bu dərəcədə narahat olur. Onsuz da, Əkrəm əvvəllər – 70-80-ci illərdə yazdıqları ilə o qatarın içindədir.

SUAL. Siz Yazıçılar İttifaqında işləyəndə, Əkrəm müəllim də «Azərbaycan» jurnalında işləyirdi?

ELÇİN. Bəli, Əkrəm «Azərbaycan» jurnalının redaktoru işləyəndə, mən Yazıçılar İttifaqının katibi idim, ədəbi orqanlar da mənim kurasiyamda idi və Əkrəmi də jurnala İttifaqın o zamankı birinci katibi və 60-cıların xeyirxahı rəhmətlik İmran Qasımovun köməyi ilə biz gətirdik. Yeri düşmüşkən deyim ki, mənim də cavan yaşımda o vaxtlar çox nüfuzlu bir təşkilat olan Yazıçılar İttifaqında katib işləməyimin təşəbbüskarı rəhmətlik İmran müəllim idi. Əkrəmi orada biz müdafiə etdik. Bizsiz o, orada nə edə bilərdi? O zamankı ədəbiyyat generalları və onların ətrafına yığışanlar Əkrəmi bir göz qırpımında jurnaldan uzaqlaşdırardılar. Mənim onun yaddaşına qəti surətdə ehtiyacım yoxdur, amma gecə-gündüz «Azərbaycan»dakı hünərlərindən danışanda, heç olmasa, bir dəfə rəhmətlik İmran müəllimin adını çəksə, elə bilirəm, savab iş görər. Eləcə də onunla bir yerdə o zaman «Azərbaycan»ı çıxaran fədakar redaksiya işçilərini də hərdənbir xatırlasa, pis olmaz. Əkrəm «Azərbaycan»ı tək çıxarırdı? Yadıma gəlir, orada onunla birlikdə Fikrət Qoca, Dilsuz, Mövlud Süleymanlı, Vaqif Yusifli, İntiqam Qasımzadə, Məmməd Oruc, Natiq Səfərov, Nemət Veysəlli kimi əsl ədəbiyyat fədailəri işləyirdi və jurnal üçün əllərindən gələni əsirgəmirdilər. Bu adamların da hamısı Əkrəmin yadından çıxıb? Xatırlayanda da necə xatırlayır? Bu cür: «mənim tabeçiliyimdə işləyən Fikrət Qoca»... Rəhmətlik Əli Vəliyev demişkən, ətin tökülsün! Yaxşı ki, ondan böyük vəzifədə işləməyib. (Gülür.) Yoxsa, Əkrəmin qabağında durmaq olmazdı! Sonra da Fikrətdən hörmət umur...

SUAL. Bəs, necə oldu ki, Əkrəm müəllim «Azərbaycan» jurnalının redaktoru təyin edildi?

ELÇİN. O zaman Əkrəm çox istəyirdi ki, jurnalın redaktoru olsun, mən də bunu çox istəyirdim. Hər gün mənə telefon açırdı, danışırdıq, görüşürdük, mən də Allahın hər verən günü rəhmətilik İmran müəllimin başının üstünü kəsdirirdim ki, Əkrəmin işi nə oldu?

Mən bir müddət Kislovodska gedəsi oldum və Əkrəm ora da mənə məktublar yazırdı, mən də demək olar ki, hər gecə Kislovodskdan İmran müəllimə telefonla zəng edib, Əkrəmin məsələsini xəbər alırdım, onu tələsdirirdim. İş o yerə çatmışdı ki, İm-

ran müəllimin həyat yoldaşı Minarə xanım telefonda mənim səsimi eşidən kimi:

– «Elçin, Əkrəmin işindən, deyəsən, yenə bir xəbər yoxdu...» – deyirdi və İmran müəllimi telefona çağırırdı. Bu yaxınlarda arxivimi bir az səliqə-sahmana salmaq istəyirdim, Əkrəmin Bakıdan Kislovodska, mənə yazdığı o məktublardan üçü gözümə sataşdı. Axtarsam, yəqin yenə var, çünki yadıma gəlir, çox idi, hətta, yadımdadır, birini də zarafatla, şerlə yazmışdı. Əlimə keçən o üç məktubu təzədən oxudum. Vallah, nə deyim? Əkrəmin o məktublarda yazdıqları hara, indi dedikləri və unutduqları hara?

SUAL. Maraqlıdır, Əkrəm Əylisli o məktublarda nə yazırdı?

ELÇİN. Bax, bunun sizə heç dəxli yoxdur!

SUAL. Elçin müəllim, çox sərtsiniz!

ELÇİN (Gülür). Əksinə, mən çox demokratik adamam...

Sadəcə, bu məktublar Əkrəmə, mənə, bir də, yəqin ki, əgər maraqlansalar, gələcəyin arxiv işçilərinə aiddir. Dediyim həmin ədəbiyyat generalları Əkrəmin redaktor olmağını istəmirdilər, öz namizədlərini verirdilər, İmran müəllimə təzyiq edirdilər. Mərkəzi Komitədə də Əkrəmin birdən-birə «Azərbaycan» kimi bir jurnalın redaktoru olmasını istəmirdilər. Yalnız o zaman Mərkəzi Komitədə bölmə müdiri işləyən Xeyrulla Əliyev bu işin tərəfdarı idi və bunu da unutmaq lazım deyil. Sonralar da Xeyrulla Əliyev Əkrəmi sidq-ürəkdən müdafiə edənlərdən biri idi. Yazıçılar İttifaqında o zaman tərcümə məsələləri üzrə katib işləyən rəhmətlik İshaq İbrahimov da Əkrəmi aktiv müdafiə edirdi. Nə isə, axır ki, İmran müəllim bu məsələni Heydər Əliyev səviyyəsinə qaldırdı və Heydər Əliyevin şəxsi göstərişi ilə Əkrəm «Azərbaycan» jurnalının baş redaktoru təyin edildi. Həqiqət belədir.

SUAL. Yeri düşmüşkən, Elçin müəllim, Əkrəm Əylisli «525-ci qəzet»ə verdiyi geniş müsahibəsində həm sizin atanız, həm də Anarın atası haqqında yazmağınızdan narazılığını bildirir...

ELÇİN. Əkrəm özündən başqa, kimdən razıdır ki? O müsahibənin hamısını oxumağa, doğrusu, mənim hövsələm çatmadı, onsuz da, bilirəm ki, yenə özünü tərifləyəcək, «Azərbaycan»da belə elədim, Ramiz Rövşənin yolunda canımı belə qoydum, Mövluda bunu elədim, yeddi rəngin yeddisində də, ancaq mən yazıram, filan müxbir dediyimi təhrif edib, filan sözü hirslənib demi-

şəm və hakəza... Amma o müsahibədə sizin dediyiniz o yeri mənə göstərdilər. Əkrəmin bir xasiyyəti var, qanamayan yerdən həmişə qaşıyıb qan çıxartmaq istəyir. Özü də mənim xasiyyətimi bilir, bilir ki, cavab verəcəyəm, amma özünü saxlaya bilmir. Bəlkə də, əksinə, istəyir ki, tez-tez ona cavab versinlər. Əkrəm müsahibəsində, doğrusu, o qədər qarmaqarışıq sözlər deyir ki, düz-əməlli bir şey başa düşə bilmədim, bircə bunu başa düşdüm ki, yenə qan qaraltmaq həvəsindədir. Məndən fərqli olaraq, bəlkə, Əkrəmin hövsələsi çatdı və mənim bu müsahibəmi oxudu, ona görə də onun özünə müraciət edirəm: Əzizim Əkrəm, bu qədər qarışıq fikirlər söyləməkdən, mənim İlyas Əfəndiyev haqqında yazdıqlarımın bu qədər iztirabını çəkməkdənsə, gənc yaşında müharibədə həlak olmuş atan haqqında bir kitab yaz. Ya da Əylisdə cəmi bircə dəfə gördüyüm, amma nurlu çöhrəsi, zəhmətkeşliyi, qonaqpərvərliyi həmişə mənim xatirimdə olan anan haqqında bir kitab yaz. Sən yazmasan, bunları kim yazacaq?

Onları səndən yaxşı tanıyan kimdir? Amma, işdi, yazsan, çalış, yaxşı yaz. Elə bir iş görmüş olsan, səni birinci mən təbrik edəcəyəm! Təbriki qəbul edərsən, eləməzsən, öz işindir, amma indi imkan ver, sənə cavablar yazmaq əvəzinə, daha fərli yazı-pozu işlərilə məşğul olum. Onsuz da, səndən fərqli olaraq, mənim vaxtım çox məhduddur və vaxt mənim üçün çox qiymətlidir. Bir də ki, Əkrəm, bizim (sənin də!) indi boş-boş işlərə vaxt sərf etmək çağımız deyil.

SUAL. Elçin müəllim, Azərbaycan ədəbiyyatında parlaq 60-cılar ədəbi nəslindən söhbət gedəndə, oxucular da, tənqidçilər də ilk növbədə ən çox oxunan, ən çox sevilən məşhur üçlüyü – Əkrəm Əylislini, Anarı, Elçini yada salırlar. İllər keçəndən sonra nə oldu? Nə baş verdi? Münasibətlərə xələl gətirən nə oldu?

ELÇİN. Mənim münasibətlərimdə heç bir problem yoxdur. Amma bu sualın cavabı sizi çox maraqlandırırsa, onda bunu Elçindən, yox, Anardan da yox, dostumuz Əkrəmdən soruşun. Bununla da, xahiş edirəm, daha «Əkrəm mövzusu»nu bitirək.

SUAL. Onda, yenə «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri»nin üzərinə qayıtmaq istəyirəm. Elçin müəllim, Siz həmin məqalələrinizdə İradə adlı bir müəllifin şerlərini qeyd etmişdiniz. O isə, Sizin məqalənizə etirazını bildirib.

ELÇİN (gülür). Görünür, bu qız, ya da ki, qız adı altında giz-

lənənlər nəinki o məqalələrdə deyilənləri, heç onun özü haqqında yazdıqlarımı da başa düşməyib. Ümid edirəm ki, gələcəkdə onun, ya da dediyim kimi, onun adı altında gizlənənlərin şerləri «nəzəri bilikləri» və «tənqidləri» səviyyəsinə enməyəcək.

SUAL. O çox şeyə etirazını bildirir.

ELÇİN. İndi nədir, istəyirsiniz ki, mən o qıza cavab verim? Elə bilirsiniz ki, bundan vacib işim yoxdur? Bilirsiniz, mənim Əkrəm Əylisliyə cavab verməyimdə təəccüblü bir şey yoxdur, çünki Əkrəmin də, Fikrət Qocanın da, Anarın da, Fikrət Sadığın da Azərbaycan ədəbiyyatı qarşısında böyük xidmətləri var, onlar, səhnə terminologiyası ilə desəm, həqiqətən, tərəf-müqabildirlər. Yoxsa ki, hansısa bir qızcığazın uşaq hikkəsini özünə dərd etmək? (Gülür.) Mən o adam deyiləm!

SUAL. Elçin müəllim, şəxsi səciyyəli bir məqama da toxuna bilərəmmi?

ELÇİN. Buyurun.

SUAL. Siz suallara cavab verərkən, bir-neçə dəfə güldünüz. Bu nədir, daxili ağrının-acının ifadəsidir?

ELÇİN (gülür). Yox. Sadəcə olaraq, hərdən baxıb görürəm ki, gülməli işlərin içindəyik...

*2002.*

# E L Ç İ N: «MƏN İLK NÖVBƏDƏ YAZIÇIYAM...»

## MÜASİR TEATR PROBLEMLƏRİ

– Elçin müəllim, artıq 2001-2002-ci teatr mövsümü sona yetmək üzrədir. Yalnız bu mövsümün deyil, ümumiyyətlə, ölkəmizdə son illərin teatr həyatı xeyli dərəcədə sizin adınızla bağlıdır və məlumdur ki, tamaşaçıların yenidən teatra üz tutmasında sizin bu müddət ərzində yazdığınız səhnə əsərlərinin rolu az olmayıb. Maraqlıdır, ötən teatr mövsümünü siz necə qiymətləndirirsiz?

– Çətin və maraqlı – belə desəm, sizin sualınıza cavab vermiş olarammı? Çətin, ona görə ki, bu mövsümdə də Azərbaycan teatrı ciddi maddi çatışmazlıqlarla üzləşdi, bir sıra mühüm texniki problemlər yenə də həll olunmamış qaldı. Ancaq həm də maraqlı, ona görə ki, bu çətinliklərə baxmayaraq, bir sıra yaddaqalan teatr hadisələrinin – quruluşların, tərtibatların, ifaların şahidi olduq.

– Dediyiniz hər iki cəhətin üzərində daha da ətraflı dayanmaq olarmı? Özü də, mümkünsə, yalnız ötən teatr mövsümü haqqında yox, ümumiyyətlə, son illərdəki Azərbaycan teatrı haqqında.

– Niyə olmur? Əvvəla çətinliklər barədə. Bu gün Azərbaycan teatrının maddi-texniki bazası istənilən səviyyədə deyil. Bəlkə də, bu sözləri mənim dilimdən eşitmək, təəccüblü səslənə bilər, çünki iş elə gətirib ki, bu məsələlərlə məşğul olmaq mənim bilavasitə vəzifə borcumdur. Belədir və mən bu işlə məşğulam. Mədəniyyət Nazirliyi və konkret olaraq, Polad Bülbüloğlunun özü də ciddi surətdə bu işlə məşğuldur. Eyni zamanda, güman edirəm ki, Prezident Heydər Əliyevin teatra münasibəti barədə də əlavə bir söz deməyə ehtiyac yoxdur. Təkcə elə bu faktı yadınıza salım ki, 1993-cü il kimi çətin bir vaxtda Heydər Əliyevin ilk tədbirlərindən biri, tikintisi ağır vəziyyətə düşmüş Musiqili Komediya Teatrı binasına getməsi və o tikintinin başa çatdırılmasını öz nəzarətinə götürməsi oldu. Ən sonuncu hadisəni də xatırlatmaq istəyirəm: Prezident mükafatlarını və deməliyəm ki, bu, şəxsən Prezidentin özünün təşəbbüsüdür. Ancaq, bilirsiz, teatrda maddi-tex-

niki bazanın möhkəmləndirilməsi ilə bağlı bütün təşəbbüslər, istəklər gəlib, təbii ki, maliyyəyə dirənir. Azərbaycan büdcəsinin isə minbir dərdi var. Sosial vəziyyətin yaxşılaşdırılması, yəni pensiyaların, müxtəlif sahələr üzrə maaşların artırılması, sosial təminatın başqa problemləri, qaçqınların güzəranı, dövlət quruculuğu prosesində xarici ölkələrdə səfirliklərin açılmasından tutmuş, dövlətçilik baxımından zəruri olan yeni qurumların yaradılmasınacan, ortaya çıxan problemlərin həlli, ordu quruculuğu problemləri və s. və i. a.

Eyni zamanda, mən açıq deyirəm, bütün dövrlərdə olduğu kimi, bu gün də elə vəzifə adamları var ki, xeyli dərəcədə əziyyət çəkə-çəkə onlara teatrın mədəniyyət üçün, xalq üçün, ölkə üçün nə demək olduğunu başa salmaq lazımdır... O da, əgər başa düşsələr... Elə vəzifəli adamlar da var ki, bir iş görəndə, nəticəsi yaxşı olanda, dividentləri özünə götürür, nəticə yaxşı olmayanda isə, baş barmağını yuxarı tuşlayır: «Nə edim? Mənlik bir şey yoxdur, tapşırıq belədir!» Güman edirəm ki, bu da, satqınlığın bir növüdür.

– Dedi-qoduların da bir çoxu elə buradan yaranır.

– Əlbəttə. Mən yenə söhbətimizə qayıdıram. Son illərdə teatrla bağlı az iş görülməyib. Akademik Milli Dram Teatrının təmiri nəhayət ki, başa çatdı, Musiqili Komediya Teatrı açıldı, Kukla Teatrının qəza vəziyyəti aradan qaldırıldı, Gəncə, Şəki, Mingəçevir, Lənkəran Dövlət teatrlarında bu və ya digər dərəcədə təmir-bərpa işləri aparıldı, Akademik Milli Dram Teatrı üçün səhnə-texnoloji avadanlıq alındı, Akademik Opera və Balet Teatrının binasında kondisioner sistemi yaradıldı və s.

Ancaq bu gün də bir sıra teatrlarımızın maddi-texniki bazası ağır vəziyyətdədir. Misal üçün, Azərbaycanda unikal Kukla Teatrları sistemi yaradılıb və bu baxımdan biz Avropanın ən inkişaf etmiş ölkələrindən irəlidəyik ki, geri qalmırıq. Bu, fəxr etməli bir nailiyyətdir və bu nailiyyəti əldən verməyə bizim mənəvi haqqımız yoxdur.

– Azərbaycan kukla teatrları artıq beynəlxalq festivallarda da qələbə qazanırlar.

– Tamamilə doğrudur. Misal üçün, keçən il İzmirdə keçirilən çox nüfuzlu Beynəlxalq Kukla Teatrları Festivalında Gəncə Dövlət Kukla Teatrı böyük uğur qazandı. Təəssüf ki, elə həmin Gəncədə, Naxçıvanda, Qaxda, Salyanda Kukla Teatrlarının maddi-texniki vəziyyəti yaxşı deyil. Yaxud, bu günə kimi, biz aparıcı

teatrımızı – Akademik Milli Dram Teatrını müasir işıq avadanlığı ilə təmin edə bilməmişik. Bu tipli başqa faktlar da az deyil.

Bilirsiz, müasir dövrdə teatr sənəti mədəniyyətin o növüdür ki, elmi-texniki inkişaf çox effektli surətdə ora müdaxilə edib, yəni bu o deyən sözdür ki, teatrın texnoloji avadanlığı, maddi vəziyyəti bədii-estetik nəticələrə bilavasitə, həm də çox güclü şəkildə təsir edir.

Hərgah, misal üçün, səhnə rejissorun istədiyi kimi fırlanmırsa, projektorların biri ağdərəyə, o biri qaradərəyə baxırsa, rekvizit köhnəlib yararsız vəziyyətə düşübsə, hətta bəzən aktyor öz paltarında səhnəyə çıxmaq məcburiyyətində qalırsa, görün tamaşanın quruluşunda nə qədər bədii-estetik problemlər yaranır?

Eyni zamanda, müasir dövrdə rejissor sənətinin, teatr musiqisinin, tərtibat estetikasının, hətta aktyor ifasının da inkişafında səhnə texnologiyasının mükəmməlliyi ciddi rol oynayır. Rejissorun da, rəssamın da, bəstəkarın da tamaşaya müasir estetik tələblərə uyğun quruluş verməsindən, tərtibat hazırlamasından, musiqi səsləndirməsindən ötrü teatrın ən yeni texnologiyaya malik olması vacib şərtdir. Azərbaycan teatrının müasir səhnə texnologiyası ilə təmin olunmaması milli teatr sənətimizi inkişafdan qoyur, yeni və mən bu sözü yaxşı mənada işlətmək istəyirəm, modern rejissorlar nəslinin yetişməsində əngələ çevrilir.

– Deməli, səhnə texnologiyası ilə teatr estetikası bu gün bir-birindən asılı vəziyyətə gəlib çıxıb?

– Bəli. Baxın, bu gün teatr artıq internetə çıxır, teatrşünaslıqda «internet-tamaşalar» anlayışı yaranır və əlbəttə, bizim teatrlar da bu cür tamaşalar verə bilsəydi, mədəniyyətimizdə böyük hadisə olardı. Ancaq biz bunu edə bilmirik. Nə üçün? Bizim teatrlarımızda çox güclü aktyor potensialı var. Son illərin bir sıra tamaşaları göstərir ki, rejissuramızda da potensial imkanlarını hələ sonacan üzə çıxarmamış istedadlı sənətkarlarımız var. Repertuarda dünya klassikası, milli klassika, müasir əsərlər var. Amma tamaşanı internet səviyyəsinə çıxara biləcək maliyyə imkanları və bunun da nəticəsi kimi səhnə texnologiyası – yoxdur. Ona görə də, bu gün Azərbaycan teatrından internet tamaşaları tələb etmək, ən yaxşı halda, özünü aldatmaqdan başqa bir şey deyil.

Mən bu ilin may ayında BMT-nin Xüsusi Sessiyasının işində iştirak edirdim və bir axşam vaxt tapıb Brodveydə Ueberin məşhur «Fantom» müziklna baxdım. Heç bir yalançı vətənpərvər-

lik hissinə qapılmadan səmimi şəkildə deyirəm: mən o unudulmaz tamaşada elə bir aktyor oyunu görmədim ki, təəssüf edim ki, biz buna nail ola bilmərik. Eləcə də rejissor işi. Amma dekorasiyalar, geyimlər, bir anın içində səhnənin, tamamilə, dəyişməsi, bir göz qırpımında mizanların gah üçüncü qata qalxması, gah birinci qata enməsi, kütləvi səhnələr, teatral effektlər – bir sözlə, XlX əsrin karetası ilə aya uçan raketin arasında nə fərq varsa, bu gün, müasir səhnə texnologiyasına malik olan teatrla, buna malik olmayan teatr arasındakı fərq də o qədərdir.

Mən Brodveydəki «Fantom»un – yalnız bir tamaşasının xərci ilə maraqlandım: iki milyon yüz yetmiş min dollar! Bu məbləğ ilə internetə çıxmaq, güman edirəm ki, çətin bir problem deyil.

Ona görə də, bu gün Azərbaycan teatrından internet tamaşaları tələb etmək əvəzinə, əl-ələ verib onun maddi-texniki bazasını möhkəmləndirmək barədə fikirləşməli və bu istiqamətdə işləməliyik. Məlum məsələdir ki, bu gün biz bir tamaşaya bu qədər vəsait ayıra bilmərik, amma milli teatrımızın sabahı naminə bu günün təməllərini qoymalıyıq.

– Yəni, artıq vaxt itirmək olmaz.

– Bəli və bu işi teatrı sevə-sevə görmək lazımdır. Sovet vaxtı Mərkəzi Komitənin bir funksioneri teatra gəlirdi, rəhbər göstərişlər verirdi, bu belə olmalıdır, bu da belə olmalıdır, vəssalam! Ancaq bu gün, əlbəttə, belə yaramaz. Belə olsa, həm özünü hörmətdən salarsan, həm də təmsil etdiyin təşkilatı. Teatrı pis tanımadığım üçün, deyirəm, teatrda hörmətdən düşmək, bütün Azərbaycanda hörmətdən düşmək kimi bir şeydir, çünki aktyor dostumuzun ürəyi təmizdir və o, ürəyini boşaldan, danışandır...

Bu yerdə çox vacib bir cəhəti xüsusi qeyd etmək istəyirəm.

Bizim aktyorlarımız, teatr xadimlərimiz bütün bu çətinliklərə (onların maaşlarının azlığını da bura əlavə edək) böyük fədakarlıqla dözürlər və nəinki yalnız dözürlər, əsl sənət eşqi ilə, ehtirası ilə səhnədə yaşayır və səhnəni yaşadırlar. Eyni zamanda mən Mədəniyyət Nazirliyinin və ilk növbədə Polad Bülbüloğlunun bu istiqamətdə effektli fəaliyyətini də xüsusi qeyd etmək istəyirəm. Baxın, digər Zaqafqaziya respublikalarında, yaxud Orta Asiya respublikalarında, misal üçün, rus teatrlarının vəziyyəti necədir?

Mən sizə deyim: çox pis! Bəzilərində bu teatr artıq yoxdur. Bizdə isə, Rus Dram Teatrı qaldı və nəinki qaldı, inkişaf etdi, re-

pertuarını Azərbaycan milli dramaturgiyası hesabına daha da genişləndirdi və zənginləşdirdi. Ara-sıra bizdə də belə fikirlər səslənir ki, müstəqil Azərbaycanda bu teatr nəyə lazımdır və s. Sizə deyim ki, çox məhdud düşüncənin doğurduğu sualdır. Yalnız bir faktı qeyd edim: keçən il Sankt-Peterburqda Avropa teatrlarının və görkəmli teatr xadimlərinin iştirakı ilə rusdilli teatrların «Baltika evi» Beynəlxalq Teatr Festivalı keçirildi və həmin festivalda bizim Rus Dram Teatrı M.F.Axundovun «Lənkəran xanının vəziri» tamaşasını göstərərək festivalın xüsusi mükafatını aldı. Festivalda bir çoxları Mirzə Fətəlini və ümumiyyətlə, XlX əsr Azərbaycan dramaturgiyasını özləri üçün kəşf etdi. Qoy bizim lap ingilis dilində də teatrımız olsun və bizim sənətkarlarımız orada Şekspiri orijinalda, Mirzə Fətəlini, yaxud Cəlil Məmmədquluzadəni isə ingilis dilində tamaşaya qoysun, pis olar?

Yaxud, başqa bir məsələni deyim. Bu gün Azərbaycan teatrlarında dövlət sifarişi ilə ildə 25-30 tamaşa hazırlanır. Bu, kiçik rəqəm deyil. Son beş ildə bizim teatrlarımızda 500-dən artıq tamaşa oynanılıb. Hər il 100-110 tamaşa qoyulur. Biz bu rəqəmlərin mənasına varmalıyıq və bir tərəfdən teatra hörmət, o biri tərəfdən də xidmət etməliyik.

Deyəsən, mən yavaş-yavaş uğurlarımıza keçirəm və bu da, yəqin, təbiidir, respublikamızın öz müstəqilliyi uğrunda mübarizə apardığı son illərdə uğurlarımız da az deyil. Baxın, bu müddətdə Azərbaycan teatrı Moskvada, Kazanda və Tiflisdə, Parisdə, Ankarada və İstanbulda, Tehranda və Təbrizdə milli mədəniyyətimizi təmsil edib. Misal üçün, belə bir faktı mən Azərbaycan teatr sənətinin simasını müəyyən edən qiymətli dəyərlərdən biri hesab edirəm ki, biziim Opera və Balet Teatrımız bir tərəfdən İstanbulun məşhur «Camal Rəşid Rey» salonunda «Leyli və Məcnun» və «Aşıq Qərib» kimi muğam operalarını göstərir, o biri tərəfdən isə Moskvada, Böyük Teatrın səhnəsində Qara Qarayevin «Leyli və Məcnun» və «Don Kixot» baletlərini nümayiş etdirir. Bir sözlə, Azərbaycan teatrı bütün çətinliklərə baxmayaraq, yaşayır. Azərbaycan teatrında yaradıcı ab-hava var. Mən Mədəniyyət nazirliyi ilə bərabər, Həsənağa Turabov və Azər Paşa Nemətov başda olmaqla, Teatr Xadimləri İttifaqının da təşəbbüskar və işgüzar fəaliyyətini qeyd etmək istəyirəm.

– Elçin müəllim, belə bir söz var ki, teatrın siması, onun repertuarıdır. Müasir teatr repertuarımız barədə nə deyə bilərsiz?

– Gəlin, sadəcə olaraq, Azərbaycan teatrının müasir repertuarını nəzərdən keçirək: Sofoklun «Şah Edip»i, Şekspirin «Hamlet» və «Kral Lir»i, İ. Rasinin «Fedra»sı, M.F.Axundovun «Lənkəran xanının vəziri», C. Cabbarlının «Ədirnə fəthi» və «Aydın»ı, N.Hikmətin yazdığı «Kəllə», İ.Əfəndiyevin «Hökmdar və qızı» (Milli Dram Teatrı), Q.Qarayevin «Don Kixot» və Leyli və Məcnun», F.Əmirovun «1001 gecə», Ə.Bədəlbəylinin «Qız qalası», X.Mirzəzadənin «Ağlar və qaralar» baletləri, C.Verdinin «Traviata»sı, R.Leonkavallonun «Payatslar»ı, Ü.Hacıbəyovun «Arşın mal alan»ı, F.Əmirovun «Sevil»i (Opera və Balet Teatrı), «Otello» («Yuğ» teatrı), «Maqbet» (Gənclər teatrı), H.Cavidin «Topal Teymur»u və N.Nərimanovun «Nadir şah»ı (Naxçıvan teatrı), Lope de Veqanın «Rəqs müəllimi» (Rus Dram Teatrı), «Yağışdan çıxdıq, yağmura düşdük» və «Almaz» (Füzuli teatrı), E. de Flipponun «Ruhlar» (Şəki teatrı), «Bəxtsiz cavan» və «Sevil» (Lənkəran teatrı), «Danabaş kəndinin əhvalatları» və «Dağılan tifaq» (Mingəçevir teatrı), «Ağa Kərim xan Ərdəbili» (Ağdam teatrı), «Büllur sarayda» (Gənc Tamaşaçılar Teatrı), N.Hikmətin «Bayramın birinci günü» (Şuşa teatrı), Bekketin «Ümid»i və Ç.Aytmatovun «Manqurt»u (Pantomima teatrı) və s., eləcə də müasir dramaturqların bir sıra əsərləri... Mən hələ yalnız hafizəmdə qalanları deyirəm. Elə bilirəm ki, mənzərə kifayət qədər fərəhlidir və ən əsası isə təmayül düzgün istiqamətdədir: dünya klassikası, milli klassik dramaturgiya və müasir dramaturgiya.

– Elçin müəllim, yeri düşmüşkən, indi belə söhbətlər gəzir ki, guya, teatrlara, ancaq klassik dramaturgiyanı tamaşaya qoymaq tapşırılır. Bu, nə dərəcədə düzgün xəbərdir?

– Bu, absurddur. Klassik dramaturgiya ilə müasir dramaturgiyanı qarşı-qarşıya qoymaq olmaz, heç olmasa ona görə ki, bu, mümkün deyil. Klassik dramaturgiya ilə müasir dramaturgiya eyni zəncirin həlqələridir. Mirzə Fətəlinin «Hacı Qara»sı nədir? Təbii ki, öz dövrünün müasir dramaturgiyası. Eləcə də «Müsibəti-Fəxrəddin», eləcə də «Sevil»... Həm də məsələ yalnız mövzuda deyil, çünki müasir dramaturgiya yaranmasa klassika necə yarana bilər? Bu gün müasir bir dramaturqun əsəri, tarixi mövzuda yazılmış əsərlər də daxil olmaqla, bizim müasir dramaturgiyamızın nümunəsi olduğu kimi, Şekspirin, yaxud Marlonun pyesləri də XVl əsrin sonu və XVII əsrin əvvəllərində o dövr üçün müasir olan in-

gilis dramaturgiyası nümunələri idi. Bütün bunlar aydın məsələdir və mən təəssüf edirəm ki, bunu izah etməyə ehtiyac yaranır.

– Elçin müəllim, belə bir söz də yayılıb ki, guya, teatrlardan 5 illik plan istəyirlər...

– 5 illik planlarla iş düzəlsəydi, Sovet İttifaqının iqtisadiyyatı o biabırçılıqla tarmar olmazdı. Teatrda bəyəm falçılar oturur ki, görsünlər beş ildən sonra hansı gözəl əsər meydana çıxacaq? Bu, qeyri-ciddi bir söhbətdir. O başqa məsələ ki, hər bir teatr öz repertuarının perspektiv istiqamətlərini, öz məxsusi estetik simasına uyğun təmayülləri müəyyənləşdirməlidir, öz müəllifini tapmalı, öz tamaşaçısını formalaşdırmalıdır. Bu işdə, şübhəsiz ki, teatr tənqidi də mühüm rol oynamalıdır və bu baxımdan mən ciddi bir narahatlığımı bildirmək istəyirəm: teatr tənqidimiz passiv və kəsərsiz bir vəziyyətə düşüb.

– Siz, eyni zamanda, Azərbaycan ədəbi tənqidinin görkəmli bir nümayəndəsi kimi də tanınırsız və yalnız bədii ədəbiyyatın yox, ədəbi tənqidin özünün problemləri ilə də ciddi məşğul olmusunuz. Elçin müəllim, bizim teatr tənqidinə nə olub?

– Teatr tənqidi nədir? Teatr tənqidi ümumi ədəbi prosesin bir hissəsi, bir istiqamətidir. Bu gün Azərbaycanda, ümumiyyətlə, ədəbi proses ölgün vəziyyətdədir və bunun obyektiv və subyektiv səbəbləri var. Mən o səbəblər üzərində dayansam, söhbət çox uzun çəkər.

Yalnız bunu deyim ki, 60-ın ikinci yarısı, 70-80-ci illərdə Azərbaycan teatr tənqidi Azərbaycan teatrının inkişafında – bu inkişaf isə sözsüzdür! – çox ciddi rol oynayır. Teatr tənqidi milli teatrımızın estetik prinsiplərinin müəyyənləşdirilməsi işində nüfuz sahibi idi. Belə bir həlledici nüfuzun əsasında Cəfər Cəfərovun, Mehdi Məmmədovun, Abbas Zamanovun, bir az sonralar Yaşar Qarayevin, Ədilə Əliyevanın, İnqilab Kərimovun, Gülrux Əlibəylinin, R. Rayevanın, Veta Nadirovanın, daha sonralar Məryəm Əlizadənin, İlham Rəhimlinin və başqalarının teatr tamaşaları haqqında səriştəli, prinsipial, necə deyərlər, teatr maraqları ilə nəfəs alan dolğun resenziyaları, teatrşünaslığın ciddi nəzəri problemlərini qaldıran məqalələri, milli teatrımızın yaradıcılıq məsələlərinə həsr olunmuş kitabları dayanırdı. Hər yeni bir tamaşa öz mətbu qiymətini gözləyirdi, bəzən bu qiymətlər üst-üstə düşmürdü, o zaman mətbuatda, ədəbi məclislərdə sağlam ədəbi mübahisələr başlayırdı və nəticədə də teatrın maraqları qazanırdı. Bu gün

ayrı-ayrı tamaşalar haqqında çox nadir hallarda yüksək elmi-nəzəri səviyyəli, səriştəli məqalələr yazılır, teatrın ümumi estetik problemlərindən isə, tənqid, demək olar ki, sərf-nəzər edir. İki-üç nəfər peşəkar və səriştəli teatrşünasların adını çəkə bilərik, vəssalam...

– Elçin müəllim, bəzən müxtəlif səviyyələrdə «vəzifəli yazıçı» dedi-qodusu olur...

– Bilirsiz, ədəbiyyata, o cümlədən, təbii ki, dramaturgiyaya da qiymət verərkən, uzun əsrlərdən bəri formalaşmış yeganə bir meyar var: istedad. Əsər istedadın bəhrəsidir, yoxsa qrafomanlığın – məsələ bundadır. Əsəri qiymətləndirərkən onun müəllifinin vəzifəsini yoxlamaq nə dərəcədə ciddi bir işdir? Əgər öz vəzifəndən istifadə edib yararsız əsərini səhnəyə çıxardırsansa, bu, eybəcər bir haldır. Yararsız əsər, ümumiyyətlə, səhnəyə yol tapmamalıdır və bu, vəzifəli qrafomana da, vəzifəsiz qrafomana da aiddir. Yox, hərgah əsər bədii-estetik səviyyəsi etibarilə yararlıdırsa, ona iradın yoxdursa, onun müəllifinin vəzifəli olub-olmamağının nə dəxli var? Vəzifəli yazıçı yoxdur. Var – yazıçı, bir də var qeyri-yazıçı, yəni qrafoman.

Bu gün mən müstəqil Azərbaycan dövlətində kifayət qədər yüksək bir vəzifə tuturam, ancaq əvvəllər də dediyim kimi, mən bu vəzifəyə gələnə qədər də hansı Elçin idimsə, bu gün də həmin Elçinəm və sabah vəzifədən gedəndən sonra da həmin Elçin olaraq qalacağam.

Mən ilk növbədə yazıçı, ondan sonra isə müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesində iştirak edən və imkanlarım daxilində əlimdən gələni əsirgəməyən bir vəzifə adamıyam. Əgər mən görsəm ki, həmin vəzifə mənim yaradıcılığımda nəsə məhdudlaşdırıcı bir şeyə çevrilməyə başlayır, mənim yazıçı kimi özümü ifadə etməyimə mane ola bilər, onda, bir saniyə də vəzifədə qalmaram. Burada mənim üçün alternativ yoxdur və bu fikrimi də mən heç vaxt gizlətməmişəm.

Mənim İsveçrədən tutmuş Çinəcən, Macarıstandan tutmuş İraq və İranacan, Almaniyadan tutmuş Slovakiyayacan, Rusiyadan tutmuş Qazaxıstan və Tacikistanacan, bir çox xarici ölkələrdə, hətta Afrika ölkələrində kitablarım nəşr olunur. Təkcə elə Türkiyədə son illər bu qardaş ölkənin ən nüfuzlu özəl nəşriyyatlarında mənim ondan artıq kitabım nəşr edilib, üç pyesim Türkiyənin Dövlət Teatrlarında tamaşaya qoyulub. Obıvatel belə düşünə bilər

ki (və belə düşünənlər də var!), Elçin vəzifəsindən istifadə edib kitablarını nəşr etdirir, əsərlərini tamaşaya qoydurur. Türkiyəni mən yaxşı tanıyıram və inandırıram sizi, istəyirsən, əstəğfürullah, lap Allahın bacısı oğlu ol, əgər naşir əmin olmasa ki, sənin kitabın yaxşı satılacaq, mətbuatın, televiziyanın diqqət mərkəzində olacaq, «Ötüken», yaxud «Everes» kimi məşhur nəşriyyatlar heç vaxt o kitabları nəşr etməz. Eləcə də teatrlar. O kitabların, tamaşaların əksəriyyəti mənim üçün, sürpriz, həm də sizdən gizlətmirəm, gözəl bir sürpriz olub.

– Elçin müəllim, siz kinodramaturgiya ilə də fəal məşğul olmusunuz. Az qala, otuz il bundan əvvəl çəkilmiş «Baladadaşın ilk məhəbbəti» bu gün də tamaşaçılarımızın sevimli filmlərindən biridir.

Sonrakı dövrlərdə Tofiq Tağızadə («Bağ mövsümü»), Arif Babayev («Arxadan vurulan zərbə»), Şahmar Ələkbərov («Sahilsiz gecə»), Oqtay Mirqasımov («Gümüşü furqon»), Kamil Rüstəmbəyov («Mən hələ qayıdacağam») kimi görkəmli rejissorlarımız sizin ssenariləriniz əsasında bədii filmlər çəkmişlər. Mətbuatdan məlumdur ki, rejissor Vaqif Mustafayev sizin ssenariniz əsasında «Milli bomba» adlı film çəkib. Ancaq bu filmin intizarı, deyəsən, bir az uzun çəkir...

– O filmin ssenarisini «Mənim ərim dəlidir» komediyasının motivləri əsasında Vaqif Mustafayevlə birlikdə yazmışıq. Düz deyirsiniz, filmin tam başa çatması bir az ləngiyir, amma, necə deyərlər, gec olsun, yaxşı olsun. Çəkiliş zamanı ssenaridə bir sıra dəyişikliklər etmişik, əsas ideya isə dəyişməz olaraq qalır: insan və cəmiyyət, insanın cəmiyyətdəki yeri və rolu, cəmiyyətin öz üzvünə – insana fərdi münasibəti. Güman edirəm ki, yaxın gələcəkdə tamaşaçılar ciddi və prinsipial bədii-estetik əhəmiyyətə malik bir filmə baxa biləcəklər. Vaqif istedadlı adamdır, onun bədii təxəyyülü, fantaziyası güclüdür və bir rejissor kimi də xoşbəxtliyi ondadır ki, həmin fantaziyanı yaxşı bədii-estetik səviyyədə, yaxşı zövqlə təqdim etməyi bacarır. Mən filmin tam, amma hələ ki, işçi variantına baxanda da bu qənaəti bir daha özümçün təsdiq etdim. Fikrimcə, «Milli bomba» Azərbaycan kinosunda yeni hadisə olmalıdır.

– Elçin müəllim, siz həmişə yazan, necə deyərlər, daima formada olan bir yazıçısınız. Sizin yaradıcılıq diapazonunuz, həqiqətən, böyük miqyasa malikdir. Elçin – nasir, Elçin – dramaturq,

Elçin – tənqidçi, ədəbiyyatşünas, kinossenarist, publisist, tərcüməçi, neçə-neçə kitabın tərtibçisi, redaktoru... Hazırda nə üzərində işləyirsiniz?

– Gəlin, bu sualınıza da müsahibəmizin mövzusuna uyğun olaraq teatr və kino ilə bağlı cavab verim. «Qatil» adlı psixoloji drama (bəlkə də ona faciə demək daha düzdür) yazmışam və bu günlərdə Akademik Milli Dram Teatrına təqdim edəcəyəm. «Ağ dəvə» romanının motivləri əsasında yazılmış pyesimi bizim istedadlı rejissorumuz Loğman Kərimov Gənc Tamaşaçılar Teatrında tamaşaya hazırlayır. Türkiyədən aldığım sifariş əsasında yazdığım yeni komediyanı da təhvil vermişəm.

Hələ 1997-ci ilin sentyabrında Heydər Əliyev Akademik Milli Dram Teatrında İlyas Əfəndiyevin «Hökmdar və qızı» tamaşasına baxdı, əsəri çox yüksək qiymətləndirdi, bu əsərin əsasında bədii film çəkməyin vacibliyini qeyd etdi. Cənab Prezidentin 2001-ci ilin mart ayında İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncamında isə «Hökmdar və qızı» əsəri əsasında ikiseriyalı filmin çəkilməsi tapşırığı verilib. Hazırda mən həmin əsərin motivləri əsasında yazdığım XVII-XVIII əsr Qarabağ tarixini əks etdirən ssenari – kinopovesti bitirmək üzrəyəm.

Yazı mizimin üstündə tamamlanmış, eləcə də hələ tamamlanmamış bir sıra yazılar var. Sağlıq olsun.

*2002.*

## E L Ç İ N: «MƏNİM ƏSƏRLƏRİM MƏNİM DAXİLİ ALƏMİMİN İFADƏSİDİR...»

– Sizə elə gəlmirmi ki, Azərbaycan ədəbiyyatında bu günün real hadisələrinə biganəlik var?

– Ümid edirəm ki, belə deyil. Sizin dediyiniz «bu günün real hadisələri»nin elə bu gün də mənzərəsini əks etdirmək publisistikanın vəzifəsi və missiyasıdır. Bədii ədəbiyyat isə «bu günün real hadisələri»ni öz təxəyyülünün süzgəcindən keçirməlidir, onu özü üçün mənalandırmalıdır, gördüklərini, duyduqlarını əxz etməlidir və yalnız bundan sonra «bu günün real hadisələri»nin ifadəsi olan böyük bədii əsərlər meydana gələ bilər. Mən tamam əminəm ki, üç ildən-beş ildən sonra biz o əsərləri oxuyacağıq.

– İndi şairlərimizin də silahı sözdür, siyasətçilərimizin də. Bir tərəfdən də yazanlarımızın sayı artıb. Bu, ələmdəndir, yoxsa nəşədən?

– Nəşədən heç vaxt əsl ədəbiyyat yaranmayıb. Ədəbiyyatın və ümumiyyətlə, sənətin əsasında ələm dayanıb. Ədəbiyyat nədir? Bu sualda mənim üçün tam aydınlıq var: ədəbiyyat insan xislətinin təhlilçisi, tədqiqçisidir. Xislətin isə nüvəsi nəşəli yox, ələmlidir. SSRİ dövründə hakim ideologiya 70 il müddətində bu cəhəti təftiş etməyə, dəyişməyə çox güclü surətdə cəhd etdi. Sosializm realizmi ədəbi metodunun mahiyyətində «xoşbəxtlik tərənnümü» tələbi dayanırdı. Roman, poema, pyes qəhrəmanları – insanlar xoşbəxt olmalı idi, xoşbəxt gələcək uğrunda xoşbəxtcəsinə çalışmalı idi və biz sovet ədəbiyyatı tarixində rəsmi-inzibati şəkildə «klassika» elan edilmiş bu cür «əsərləri» az görməmişik. İndi onlar haradadır? Əbədi olaraq, tarixin ağır səhifələrinin arasında! Əlbəttə, sovet dövründə də əsl ədəbiyyat nümunələri yaranırdı, amma onları sosializm realizmi modellərinə pərçim etmək mümkün deyil. O ki, qaldı, bu gün yazanların çoxalmasına, bu, dəniz ləpəsi kimi bir şeydir, sahilə gəlir və qayıdır... Daimi olan – dənizdir. Hər yazılan ədəbiyyat deyil, bu, aydın məsələdir. SSRİ kimi nəhəng bir imperiya sürətlə tarmar olduqdan sonra yaranmış kataklizm bu gün Azərbaycanda bütün cəmiyyəti siyasiləşdirib və buna görə də bəzən şair də, siyasətçi də Sözü səhv salır...

– Son illərdə siz çox ciddi surətdə dramaturgiya ilə məşğulsunuz. Bu, atanız, xalq yazıçısı, böyük dramaturq İlyas Əfəndiyevdən sonra həmin sahədəki boşluqla bağlıdır?

– Əlbəttə, yox! Mən heç vaxt qarşıma məqsəd qoymamışam ki, filan sahədə boşluq var, ona görə mən bu sahədə fəaliyyət göstərim, bu janrda yazım. Mənim əsərlərim mənim daxili aləmimin ifadəsidir və həmin əsərlərin janrını da daxildən gələn həmin bədii ifadə müəyyən edir.

– Yazdığınız bir sıra komediyalarda dəlilik mövzusu qabarıq nəzərə çarpır. Sizin dəliləriniz Kefli İsgəndəri xatırladır. Bu mənada dəlilərinizi Kefli İsgəndərin sələfləri adlandırmaq olarmı?

– Dəlilər və ağıllılar mövzusu həmişə bədii ədəbiyyatın predmeti olub. İlyas Əfəndiyevin bir pyesi elə belə də adlanır: «Dəlilər və ağıllılar». Kim idi Don Kixot? Dəli idi, ya ağıllı idi? Kim bu suala dəqiq cavab verə bilər? Güman edirəm ki, heç kim. Dəli ilə ağıllı arasındakı fizioloji-klinik sərhəd bədii ədəbiyyatda mövcud deyil. Bədii ədəbiyyatdakı bu sərhəd çox incədir, elə bil ki, impressionist akvarel arxasındadır. Kefli İsgəndər dərd xəstəsi idi, çünki, sizin indicə dediyiniz həmin aləm içində idi və bu mənada mənim də «dəlilərim»in diaqnozu dərddir, yaradır: ədalətsizlikdən doğan yara, cahillik və nadanlıqdan doğan yara, şeytani hisslərin vurduğu zərbənin yarası...

– Bu gün əsl dost dediyiniz şəxs kimdir?

– Dostların bir qismi yaşadığımız mürəkkəb dövrün – epoxal dəyişikliklər dövrünün sınağından çıxmadı. Bir qismi, çox acılar ki, artıq həyatda yoxdur. Bir də ki, mənim çox sevdiyim aşıq Cüma düz deyir: «Dostu qanan ya bir ola, ya iki».

– İmperiya dövründə qələmə aldığınız mövzularla indiki mövzular arasında dəyişikliklər hiss edirsinizmi?

– Heç bir dəyişiklik hiss etmirəm, sadəcə olaraq, ona görə ki, mənim üçün heç bir mövzu dəyişikliyi yoxdur. Mənim mövzum – insan xislətidir. Dövr dəyişir, ictimai quruluşlar dəyişir, epoxalar bir-birini əvəz edir, amma xislət daimidir.

– Türkiyənin, eləcə də dünyanın hansı tanınmış ədiblərini mütaliə edirsiniz?

– Türk ədəbiyyatı mənim üçün həmişə doğma olmuşdur. Klassik türk ədəbiyyatını mən, klassik Azərbaycan ədəbiyyatı qədər özümə doğma hesab edirəm. Sağçılığından, solçuluğundan

asılı olmayaraq, modern türk ədəbiyyatı nümayəndələri – Orxan Kamal, Nazim Hikmət, Səbahəddin Ali, Ömər Seyfəddin, Orxan Vəli, Məlik Cövdət, Əziz Nesin, Yaşar Kamal və bir çox başqaları mənim mütaliə etdiyim müəlliflər olub. O ki qaldı, dünya ədəbiyyatına, güman edirəm ki, ad sadalamağa ehtiyac yoxdur. Yalnız onu deyə bilərəm ki, kitab oxumaq da yazmaq kimi, mənim gündəlik həyatımın çox ciddi bir hissəsidir və ta uşaqlıq çağlarımdan etibarən də, belə olub.

– Elçin müəllim, Siz «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» kimi məşhur romanların, oxucuların böyük maraqla qarşıladığı bir çox hekayələrin müəllifisiniz. Sizin bu roman və hekayələriniz Türkiyədə də Azərbaycanda olduğu kimi geniş yayılıb və türk oxucuları tərəfindən sevgi ilə qarşılanıb. Lakin son zamanlar biz Sizin maraqlı yeni hekayələrinizi oxusaq da, yeni romanlarınızı görmürük.

– Mətbuatda ilk dəfədir ki, bu barədə sizə deyirəm: mən çoxdan bəri üzərində işlədiyim böyük həcmli romanı artıq bir ildən çoxdur ki, bitirmişəm. Bu, ailə romanıdır və XX yüzili əhatə edir. Əsər 1900-cu ilin ilk günü ilə başlayır və 2000-ci ilin ilk günü ilə sona yetir. Ancaq romanı hələ üzə çıxarmaq istəmirəm və belə bir istəyimin səbəbini heç özüm də əməlli-başlı bilmirəm... 80-ci illərdən yazmağa başladığım və II Şah İsmayılın həyatından bəhs edən romanı da bitirmək istəyirəm.

– Maraqlıdır, hazırda başqa hansı əsərlər üzərində işləyirsiniz?

– İki yeni pyes yazmışam. «Qatil» adlı psixoloji dramanı Akademik Milli Dram Teatrımıza, «Bolbolustan əhvalatı» adlı komediyanı isə Ankara Dövlət Teatrına təqdim etmişəm. Hər iki əsər tamaşa üçün qəbul olunub və yəqin ki, bu il onlar tamaşaçılara göstəriləcəkdir. Bu günlərdə mən İlyas Əfəndiyevin Azərbaycan dilində yeddi böyük həcmli cildlərdən ibarət «Seçilmiş əsərlər»ini, eləcə də rus dilində ikicildlik «Seçilmiş əsərlər»ini tərtib və redaktə edib nəşriyyata təhvil vermişəm. Bu, çox ağır, amma ağır olduğu qədər də, mənim üçün maraqlı bir iş idi. İlyas Əfəndiyev haqqında «Sənətkarın ikinci ömrü» adlı salnamə də mənim tərtib və redaktəmlə artıq nəşr olunub. Yeni hekayələrim var, İlyas Əfəndiyevin «Hökmdar və qızı» faciəsi əsasında ikiseriyalı bədii film üçün kinopovest yazmışam, onun şəxsiyyəti və

yaradıcılığı haqqında kitab üzərində işləyirəm. Bir sözlə, planlar çoxdur. Sağlıq olsun.

– Sizin «Mənim ərim dəlidir» komediyanızın motivləri əsasında yazdığınız ssenari üzrə çəkilən «Manifest» filminin adını dəyişmisiz...

Tamaşaçılar bu filmi səbirsizliklə gözləyirlər.

– Hə, «Manifest» «Milli bomba»ya çevrilib... Ssenarini filmin rejissoru Vaqif Mustafayevlə birlikdə yazmışıq. Ümid edirəm ki, «Milli bomba» milli sənətimizi layiqincə təmsil edəcək.

– Azərbaycanın son illərdəki sosial, iqtisadi, siyasi aspektləri barədə fikirlərinizi açıqlayasınız.

– Bu gün Azərbaycan öz müstəqilliyi uğrunda, dünya birliyi arasında layiqli yer tutması uğrunda mübarizə aparır. Bu, öz-özlüyündə böyük problemlər doğuran çətin bir prosesdir. Bu azmış kimi, bu gün Azərbaycan sistemi dəyişir, yəni özünü doğrultmayan sosializm sistemi bazar iqtisadiyyatı ilə əvəz olunur. Bu da çox ağrılı-acılı, mürəkkəb bir prosesdir. Bu da azmış kimi, bu gün Azərbaycan Ermənistanın təcavüzünə məruz qalıb, Vətənimizin bir hissəsi işğal olunub, bir milyondan artıq qaçqınımız var. Üst-üstə düşən bu hadisələr, təbii ki, böyük sosial, iqtisadi və siyasi problemlər yaradır. Ancaq mən bütün varlığımla inanıram: bütün bu problemlər arxada qalacaq və ərazi bütövlüyü bərpa olunmuş Azərbaycan həqiqi mənada çiçəklənən bir ölkə olacaqdır.

– Elçin müəllimin təsəvvüründə canlandırdığı ideal türk dünyası necədir?

– Gəlin, biz ideallıq illüziyalarına qapılmayaq və gözəl xəyalpərəstlikdən real və işgüzar vətənpərvərliyə keçək. Türk dünyası, ilk növbədə, ümumtürk mənəvi dəyərlərinin ifadəçisinə çevrilməlidir. Bu isə o deyən sözdür ki, türk dövlətləri lazım olan məqamlarda vahid bir yumruğa çevrilməyi bacarmalıdır və mən, dediyim həmin «vahid» anlayışında mədəni-mənəvi və siyasi-ictimai maraqların mütləq birliyini nəzərdə tuturam.

– Avrasiya bölgəsində mühüm nəticələrin əldə olunmasının təməlində nələr olmalıdır? Bu bölgənin Avropa və bir-biri ilə daha sıx inteqrasiya olmasında hansı işlər önəmlidir? Sizcə, «Dialoq Avrasiya» jurnalı bu mənada qarşıya qoyulmuş vəzifələri həqiqətən də yerinə yetirir?

– Mənim fikrimcə, sizin dediyiniz həmin təməldə iki mədəniyyətin – milli mədəniyyətin və Avropa mədəniyyətinin süni

yox, təbii, üzvi vəhdəti dayanmalıdır. Milli və bəşəri – bunlar zəncir həlqələri kimi bir-birinə bağlıdır. Milli olmadan böyük sənət yaradıcısı olmaq mümkün deyil. Eyni zamanda, milli məhdudluğa qapılmaq böyük sənətin təbiətinə yaddır. «Dialoq Avrasiya» ciddi bir jurnaldır və mənim dediyim mənada, ciddi də fəaliyyət göstərir. Amma keçiləsi yol o qədər möhtəşəmdir ki, «Dialoq Avrasiya» jurnalı hələ ilk (və güclü!) bir başlanğıcdır. Biz hamımız «Dialoq Avrasiya»nın nəcib işində ona yardımçı olmalıyıq.

– Nə üçün bu gün Qarabağla bağlı başımıza gələn faciələr ədəbiyyatımızda öz əksini tapmır?

– Mütləq tapacaq! Qarabağla bağlı Azərbaycan faciəsi mütləq böyük ədəbiyyat nümunələri yaradacaq. Həm də həmin böyük ədəbiyyatı yaradanların arasında bu gün uşaqlığını qaçqınların vaqon, çadır şəhərciklərində keçirən gələcəyin böyük sənətkarları da olacaq.

*2002.*

# E L Ç İ N: «BİZİM ƏDƏBİ PROSESDƏ LÜMPENÇİLİK YARANIB... DƏHŞƏT BUDUR!»

Çoxşaxəli yaradıcılığa malik sənətkarlardan söz düşəndə, dərhal Elçini xatırlayırsan. Elçin – müasir Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biri. Elçin – son on ildə pyesləri böyük müvəffəqiyyətlə müxtəlif səhnələrdə tamaşaya qoyulan dramaturq. Elçin – daima maraqla qarşılanan professional tənqidçi. Elçin – «Dədə Qorqud»dan, aşıq poeziyasından tutmuş, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Sabirin, Nəriman Nərimanovun, Ömər Faiqin, Cəfər Cabbarlının, Hüseyn Cavidin yaradıcılığınacan klassik Azərbaycan ədəbiyyatını tədqiq edən ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor. Elçin – ssenarist, tərcüməçi, tərtibçi, redaktor... Nəhayət, Elçin – dövlət xadimi. Bütün bunlarla bərabər, Elçin həm də olduqca maraqlı bir müsahibdir. «525-ci qəzet» üçün Elçinlə apardığımiz bu yeni müsahibə də dediyimizi təsdiq edir.

SUAL. Elçin müəllim, məzuniyyətə getməzdən əvvəl, söz vermişdiniz ki, məzuniyyətdən qayıtdıqdan sonra sırf ədəbiyyat məsələləri ilə bağlı müsahibə verəcəksiniz. Artıq məzuniyyətdən qayıtmısınız.

ELÇİN. Bəli. Bu, son on ildə mənim üçüncü məzuniyyətim idi.

SUAL.Ümid edirəm ki, yaxşı dincəlmisiz?

ELÇİN (gülür). Mənim üçün dincəlmək nə deməkdir? Yaxşı işləmək, yəni masanın arxasına keçib yazmaq. Bu mənada, pis olmadı.

SUAL. Mətbuatda oxudum ki, bu müddətdə siz Türkiyədə çox nüfuzlu olan Yarın Araşdırmalar Mərkəzinin 2002-ci il üçün «Türk Dövlət və Toplulukları Ədəbiyyat Ödülü»nü almısınız, Moskvada isə «Drujba narodov» jurnalı Redaksiya Şurasının üzvü seçilmisiniz. Hər iki münasibətlə sizi təbrik edirəm.

ELÇİN. Çox sağ olun.

SUAL. Elçin müəllim, mən bilirəm ki, siz mətbuatı ardıcıl olaraq izləyirsiniz. Məzuniyyətdən qayıtdıqdan sonra da, yəqin ki, son aylarda ölkəmizdəki ədəbi proseslə maraqlanmısınız. Siz ke-

çən il noyabrın sonlarında «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri» silsilə məqalələrinizi çap etdirdiniz. Bu məqalələr tənqidimizin vəziyyəti və ədəbi proseslə bağlı əsl mənada həyəcan təbili idi. Bu barədə mən Sizə ayrıca sual verəcəyəm. İndi isə, sualım belədir: bəs, son ayların ədəbi prosesi Sizə necə təsir etdi, bu barədə nə deyə bilərsiniz?

ELÇİN. Bilirsiz, bir var mətbuatı gündəlik izləyəsən, bir də var, təxminən, iki ayın mətbuatını birdən nəzərdən keçirəsən və burada ədəbiyyatla bağlı yazıları birdən, dalbadal oxuyasan. Gündəlik oxuyanda hansısa yazının mənfi təsiri növbəti yazını oxuyana qədər yumşalır, azalır, amma küll halında oxuyanda, təəssürat təəssürat üstünə gəlir. Sara, mən sizə həqiqəti demək istəyirəm: təəssüratım çox ağır oldu.

SUAL. Nə üçün? Mən istərdim ki, Siz belə təəssüratın səbəblərini izah edəsiniz.

ELÇİN. Son aylarda mətbuatda ədəbiyyatla bağlı bu yazıları bir küll halında oxuyanda, mən, necə deyərlər, əyani şəkildə gördüm ki, bizim ədəbi prosesdə bir lümpen qolu yaranır və bunun qarşısı alınmasa, həmin lümpençilik Azərbaycan ədəbi prosesində həlledici qüvvəyə çevrilə bilər. «Anderqraund sənəti» deyilən bir məfhum var, onun təxmini mənası həyatın dibinin ədəbiyyatda və ədəbi prosesdə özünü ifadə etməsidir. Bir var, misal üçün, Dikkens, yaxud Hüqo kimi (Tenardyeni yadınıza salın), yaxud rus ədəbiyyatında Qorki kimi həyatın dibində olan adamların bədii surətini yaradasan, bir də var ki, mənəviyyat və əxlaqca, dünyagörüşü etibarilə həyatın dibində olan o adamlar özləri ədəbiyyat yaratmaq, ədəbi prosesə müdaxilə etmək istəyirlər – bax, dəhşət budur. Bəlkə, mən boyaları bir az qatılaşdırıram? Təki belə olsun... İkinci tərəfdən, mən gördüm ki, elementar savadsızlıq, məlumatsızlıq, əgər belə demək mümkünsə, ədəbi kütlük bu gün Azərbaycan ədəbi prosesinin ən yaralı yerlərindən biridir. Ədəbi prosesdə nadanlıq at oynatmağa başlayırsa – bu da çox pisdir. Gözdən keçirdiyim o yazıların hansındasa yazıblar ki, Elçin getsin internetdən bir az ədəbiyyat oxusun, görsün ki, dünyada nələr yazırlar. (Gülür.) Mənim, doğrusu, internetdən ədəbiyyat oxumağa həvəsim yoxdur, oxumaq imkanım və həvəsim olanda kitab oxuyuram, amma bu adamların yazı-pozu əhlini mütaliəyə çağırmaqları yaxşı cəhətdir. Bu o ümidi yaradır ki, başqalarını oxumağa çağıra-çağıra, bəlkə, axırda özləri də oxumağa başladılar... Nəhayət,

bir müşahidəmi də demək istəyirəm. Bir sıra yazıları oxuyanda istər-istəməz Lusto yadıma düşdü. Lusto yadınıza gəlir, Etyenn Lusto? Balzakın qəhrəmanlarından biridir... Ağıllı, amma rəzil bir jurnalistdir. Bizim lustoların Balzakın Lustosundan fərqi ondadır ki, bizimkilərin heç ağlı da yoxdur, rəzalət içində cəhalət və nadanlıq, kin-küdurət, intriqa, özlərinin natamamlıq, qadirsizlik kompleksindən doğan üfunət püskürürlər.

SUAL. Hə, doğrudan da, sizdə ağır təəssürat yaranıb... Yəni vəziyyət bu dərəcədə dramatikdir?

ELÇİN. Bilirsiz, Qumilyova görə, uşaqlıq, gənclik, qocalıq yalnız fərdə aid deyil, xalqa, millətə də aiddir. Və bu proses mütəmadi davam edir. Görünür, bu xüsusiyyət estetik dəyərlərə də aiddir, bu dəyərlər də daimi yerdəyişmədədir, son bitən kimi, dinamika yenə əvvəli gətirir və təkamül də bu prinsiplə artır, inkişafa çevrilir. Azərbaycanda olmadığım az qala iki ayın mətbuatında ədəbiyyatla bağlı yazıları nəzərdən keçirdikcə, mənə elə gəlirdi ki, elə bil, estetik dəyərlərimiz, ədəbi-bədii meyarlarımız öz yerini yenidən uşaqlıq mərhələsinə təhvil verib: primitiv mülahizələr, arxasında heç bir özünüifadə dayanmayan iddialar, ibtidai savadı böyük bir dünyagörüşünün ifadəsi kimi gözə soxmaq, elementar müzakirə qanunlarının dibi görünməyən bir quyunun içinə düşməsi, vulqar və sırtıq «mənəm mənəmlik». Bütün bunlar gələcəkdə hansısa, yeni bədii-estetik və mənəvi dəyərlərin əldə edilməsi yolundakı bir başlanğıcdırsa, görünür, buna dözmək lazımdır, yox, əgər bu, prespektivsiz bir qaragüruhçuluqdursa, dediyim həmin «ədəbi lümpençiliyin» güclənməsi deməkdirsə, onda vay bizim halımıza!

SUAL. Sizcə hansıdır?

ELÇİN (bir az sükutdan sonra). Qorxuram, sonuncu ola...

SUAL. Yəni Sizə maraqlı görünən, Sizi razı salan heç bir yazıya rast gəlmədiniz?

ELÇİN. Yox, niyə? Mən küllün təəssüratından danışıram. İstisnalar isə, şübhəsiz, var və adama az-çox təsəllini də elə həmin istisnalar verir. Ümumiyyətlə, istisnalar həmişə olub. Hətta dahiyanə istisnalar da olub. «Don Kixot»u yadınıza salın. XVI əsrin sonu, XVII əsrin əvvəllərində ispan nəsri «rıtsar romanları»nın sönük konyukturası içində idi. Və birdən-birə «Don Kixot» peyda oldu.

SUAL. Maraqlıdır, bu baxımdan son iki-üç ayın mətbuatında hansı əsərlər, hansı məqalələr Sizin diqqətinizi cəlb etdi. Mən bu sualı müsbət mənada verirəm.

ELÇİN. Misal üçün, Anarın Nazim Hikmət haqqında kitabından fraqmentləri «525»də oxudum və doğrusunu deyim ki, həm mövzunun özü, həm də bu mövzunun ədəbi-nəzəri araşdırma tərzi mənim xoşuma gəldi. Bu, nə elmi kitabdır, nə də bədii əsərdir. Bu kitab Nazim Hikmət şəxsiyyəti və ümumiyyətlə, sənətkar taleyi, Nazim Hikmət şeri və ümumiyyətlə şer, Nazim Hikmət sənəti və ümumiyyətlə, sənət haqqında fikirlər, düşüncələrdir və bu mənada bu kitab da, mənə görə Anarın Rəsul Rza haqqında yazdığı kitabın davamıdır. Onun Rəsul Rza haqqında kitabını hələ əlyazmasında oxumuşdum və bu kitab da, mənim fikrimcə, yalnız oğulun ata haqqında yox, həm də sənət və sənətkar haqqında düşüncələr kimi maraqlı və uğurlu bir əsərdir. Yenə «525»də Anarın Tatyana Bek ilə müsahibəsini gözdən keçirdim. Ona görə «gözdən keçirdim» deyirəm ki, onu «Voprosı literaturı»da oxumuşdum. Ağıllı və maraqlı müsahibədir.

SUAL. O müsahibədə heç razılaşmadığınız bir məqam olmadı?

ELÇİN (gülür). Oldu. Misal üçün, Anar yazır ki, cavanlıqda Remarkı oxuyurdu, amma indi Remarkı «ikinci cərgə» yazıçısı hesab edir. Mən isə, əksinə, otuz il bundan əvvəlki kimi, bu gün də Remarkı «birinci cərgə»nin nümayəndəsi hesab edirəm. (Gülür.) Bilirsiz nə yadıma düşdü? Neçə illərdir ki, mən Jorj Amadunu Anara «təbliğ etməklə» məşğulam, amma, deyəsən, bir şey çıxmır... Yenə Remarkla bağlı bir fakt yadıma düşdü və elə bilirəm ki, o fakt bu gün çox şey deyir: Remark «Qərb cəbhəsində təbəddülat yoxdur» romanını 1929-cu ildə yazıb. Həmin roman 1930-cu ildə rəhmətlik Məmməd Arifin tərcüməsində Azərbaycan dilində Bakıda nəşr olunub. Maraqlı faktdır, elə deyilmi? Ümumiyyətlə, mənə elə gəlir ki, Remark XX əsrin ikinci yarısında Avropa ədəbiyyatına, o sıradan alman ədəbiyyatına az təsir etməyib. Misal üçün, mən elə hesab edirəm ki, Remark olmasaydı, alman ədəbiyyatında Henrix Böyll hadisəsi olmazdı. Orasını da deyim ki, Əkrəm Əylisli Böyllün, əgər səhv etmirəmsə, iki povestini Azərbaycan dilinə gözəl tərcümə edib.

SUAL. Siz indicə Anarın Rəsul Rza haqqında yazdığı kitabın adını çəkdiniz. Bu gün Rəsul Rza haqqında bəzən inkarçı ya-

zılar dərc edilir. Siz keçən müsahibədə də buna toxunmuşdunuz. Anarın atası haqqında yazması da, elə sizin özünüzün İlyas Əfəndiyev haqqında yazmağınız da bəzi qələm yoldaşlarınız tərəfindən birmənalı qarşılanmır...

ELÇİN. Mənim elə «qələm yoldaşlarım» yoxdur, o mənada ki, mən o tipli adamları özümə «qələm yoldaşı» hesab etmirəm. Bilirsiz, nə var? Nəyə görəsə Anardan xoşu gəlməyənin, Anardan inciyənin, bu incikliyin hayıfını Rəsul Rzadan çıxmasını, mən, tamam əxlaqsız bir şey hesab edirəm. Bu – namərdlikdir. O ki, qaldı Anarın Rəsul Rzadan, ya mənim İlyas Əfəndiyevdən yazmağıma, bu da, görünür, ancaq Azərbaycanda müzakirə predmetinə çıxarıla biləcək absurd bir söhbətdir. Niyə, Anar Əhməddən yaza bilər, Məmməddən yaza bilər, amma Rəsul Rzadan yaza bilməz? Ona görə ki, Rəsul Rzanı hamıdan yaxşı tanıyırdı? Bilirsiz, mənim təsəvvürümdə «ədəbi kəmfürsətlik» deyilən bir qara əxlaq göstəricisi var və çox təəssüflər olsun ki, Azərbaycan mətbuatında ayaq açıb sürət yığmaqla məşğuldur. Anarla ədavət aparırsan, ona görə də onun atasının – Rəsul Rzanın mənfi obrazını yaradıb obıvatelin beyninə yeritmək istəyirsən, bax, həmin «ədəbi kəmfürsətlik» nümunəsi budur. Mən belə bir əxlaqdan, belə bir «ədəbi kəmfürsətlik»dən iyrənirəm. Mənimçün bu – ədəbi üfunətdir. Tarixə suflyorluq etmək lazım deyil, xüsusən də ona görə ki, bunun heç bir mənası yoxdur. Tarix suflyorluq qəbul etmir.

SUAL. Yaxşı, onda yenə qayıdaq Sizin son mütaliələrinizlə bağlı əvvəlki suala.

ELÇİN. Bilirsiz, mənim uzun illərdən bəri bir xasiyyətim var, istirahətə, məzuniyyətə, hətta ezamiyyətə gedəndə, çamadanın yarısını oxumaq istədiyim, amma macal tapmadığım kitablarla, cürbəcür qəzet-jurnal kəsmələri ilə doldururam. Bu dəfə də bir xeyli kitab yığıb aparmışdım.

SUAL. Mənim üçün çox maraqlıdır, hansı kitablar idi?

ELÇİN. F.Bobkovun «KQB və hakimiyyət» kitabı. KQB və keçmiş Sovet təəssübkeşliyi ilə yazılmış boz bir kitabdır, amma maraqlı faktlar var. Culetto Kyezanın «Əlvida, Rusiya» kitabını. Siyasi publisistikanın yaxşı nümunəsidir və bu italiyalı müəllifin Rusiyanı bu dərəcədə tanıması, hiss etməsi, məni, deyim sizə ki, mat qoydu. Hətta, başqa-başqa aspektdə olsalar da, vaxtıyla Stendalın İtaliya haqqında yazdığı kitabları mənim yadıma saldı. Stendalı oxuyanda da, bir fransızın İtaliyanı, bəlkə, italyandan da artıq

hiss etməsi mənə çox təsir etmişdi. Rusiyada daima yaşamayan qeyri-rus üçün Rusiyanı hiss etmək, tanımaq, Rusiya ilə bağlı diletant yox, professional söhbəti aparmaq balaca məsələ deyil. Roy Medvedyevin «Vladimir Putin – işləyən prezident» kitabını. Roy Medvedyev, həmişəki kimi, bu kitabda da qeybətlə məşğul olur və orda-burda eşitdiklərini, necə deyərlər, gimgə söhbətlərini, çayxana dedi-qodularını qələmə alır. Cəmil Həsənlinin «Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941–1946)», Şirindil Alışanovun «Romantizm» kitablarını, Viktor Pelevinin povestlər kitabını, Hollideyin, Le Karrenin dedektivlərini, eləcə də Çingiz Abdullayevin «Haronun haqqı» romanını.

SUAL. Qəribədir, dedektivlərdən başqa, bu kitabların arasında bədii əsər demək olar ki, yoxdur... Təkcə Pelevin...

ELÇİN. Nə üçün qəribədir?

SUAL. Belə çıxır ki, siz indi bədii əsərləri az oxuyursunuz. Axı, Sizin mütaliəniz hamıya məlumdur. Mən Sizin «Ədəbi düşüncələr»inizi böyük maraq və həvəslə oxumuşam, orada dünya ədəbiyyatının bir çox nümunələrindən bəhs edirsiniz. Bu dərəcədə geniş mütaliə miqyası, həqiqətən, heyrətamizdir. Ona görə də, indi Elçinin bədii əsərləri az oxumağı mənə olduqca qəribə görünür...

ELÇİN. Bəlkə də, belədir... Hər halda, həqiqət budur ki, bu gün mən sənədli ədəbiyyatı, elmi ədəbiyyatı bədii ədəbiyyatdan artıq oxuyuram. Bu gün mənim üçün, məsələn, Tarlenin «Napoleon»unu, yaxud «Taleyran»ını, Taleyranın özünün memuarlarını təzədən oxumaq, hər hansı bir tarixi roman oxumaqdan maraqlıdır. Yaxud bu gün Stefan Sveyqin Fuşe, ya Mariya Stüart haqqında bioqrafik əsərləri mənə onun novellalarından daha maraqlı görünür. Amma, əlbəttə, bu, o demək deyil ki, bu gün mənim üçün bədii ədəbiyyat sənədli ədəbiyyatdan sonrakı bir şeydir. Əlbəttə, yox. Yadınıza gəlir, elə həmin Napoleon haqqında «Hərb və sülh»də bircə kiçik epizodla Tolstoy onun obrazını necə yaradıb? Knyaz Bolkonskinin yaralanması o boyda romanda cəmi bircə səhifə yer tutur. Andrey üzüqoylu yerə sərilib, amma bayrağın dəstəyini əlindən buraxmayıb. Napoleon kiçik dəstəsi ilə döyüş meydanını gəzir və əlindəki bayrağı buraxmayaraq yerə sərilmiş Bolkonskini görərkən bir anlıq atını saxlayıb: «Vot prekrasnaya smert!» – deyir. Və bununla da Napoleonun bəlkə də, neçə-neçə tarix kitablarına sığışmayan obrazını yaradır. Yaxud, indicə Stefan

Sveyqin adını çəkdik, onun general Qruşinin Vaterloo döyüşünə gecikməsi barədə üç-dörd səhifəlik bir novellası var və mən o novellanı Vaterloo haqqında yazılmış onlarla, bəlkə də, yüzlərlə kitaba dəyişmərəm.

SUAL. Maraqlıdır, Çingiz Abdullayevin romanı haqqında Sizin təəssüratınız necədir? Bəzən, mətbuatda Çingizin də ünvanına cürbəcür sözlər deyirlər.

ELÇİN. İndi kimin haqqında o «cürbəcür sözlərdən» demirlər ki? Bilirsiz, Çingizin fantaziyası çox güclüdür və sizə deyim ki, onun romanları, o cümlədən «Haronun haqqı» həmin Hardnerin, Hollideyin dedektivlərindən, hətta bu gün bütün dünyanı əlinə almış Sidni Şeldonun gərgin süjetli romanlarından əskik deyil. Yaxud Çingiz, mənim fikrimcə, bu saat Rusiyada böyük tirajlarla çap olunan Aleksandra Marininadan da, Eduard Xrutskidən da üstündür ki, aşağı deyil. Əgər üstün olmasaydı, onun familiyası nə Sidorovdur, nə də İvanovdur, Çingizi Moskvada böyük tirajlarla nəşr etməzdilər. Böyük tirajla çap olunmaq, həm də yaxşı qonorar deməkdir, buna görə də orada güclü rəqabət var və mənim üçün çox xoşdur ki, sırf dedektiv süjetlər qurmaq bacarığından başqa, Çingizdə yaxşı yazıçı müşahidələri var, xarakter yaratmağı bacarır, bəzən onda elə detallara rast gəlirəm ki, bu, əsl yazıçı istedadının ifadəsidir. Bilmirəm niyə, amma mətbuatda ayrı-ayrı adamların Çingizə qarşı qısqanc bir münasibəti üzə çıxır. Çingiz kimin əlindən tutub deyir ki, ay aman, qoymaram səni yazmağa! Heç kimin! Onda Çingizdən nə istəyirlər? Zəhmətkeş və istedadlı adamdır, gecəsini gündüzünə qatıb öz janrında yazır və çap olunur. Çox gözəl. Bunu qısqanmaq yox, buna sevinmək lazımdır. Bir kitabı da xüsusi qeyd etmək istəyirəm. Cəmil Həsənlinin «Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946)» monoqrafiyası yalnız müəllifin vətəndaş mövqeyinə, faktların zənginliyinə, elmi təhkiyənin aydınlığına, dünya görüşünün genişliyinə görə yox, ən çox faktları ümumiləşdirmək, XX əsr dünya siyasətinin damarını tuta bilmək bacarığına, məhəlli faktları bəşəri bucaq altından mənalandırmaq qabiliyyətinə görə mənim xoşuma gəldi. Bu kitab ciddi axtarışların, tədqiqatın nəticəsidir. Arxiv sənədlərindən, o cümlədən SSRİ Nazirlər Sovetinin, Xarici İşlər Nazirliyinin, güc strukturlarının, eləcə də bu tipli tədqiqatlarda, səhv etmirəmsə, ilk dəfə ABŞ Dövlət Departamentinin sənədlərindən, ingilis dilli ədəbiyyatdan, İran mətbuatı ma-

teriallarından səriştəli istifadə bu monoqrafiyanı faktların zənginliyi və təzəliyi baxımından, müasir tarixşünaslığımızın prinsipial uğurlarından biri səviyyəsinə qaldırmışdır. Mən istərdim ki, «525»in oxucuları, peşələrindən asılı olmayaraq, bu kitabı mütləq oxusunlar. Şirindil Alışanovun kitabı isə, Məmməd Cəfər Cəfərovun yazılarından sonra, xüsusən, onun Cavid romantizmi haqqında yazdıqlarından sonra, romantizm haqqında Azərbaycan ədəbiyyatşünaslığında ən ciddi əsərlərdən biridir. Şirindilin mükəmməl nəzəri hazırlığı ilə onun təhkiyə bacarığı arasında yaxşı bir vəhdət var, onlar bir-birini tamamlayır və buna görə də sırf nəzəri problemlərə həsr olunmuş bu kitab canlıdır, asan və maraqla oxunur. O da yaxşı cəhətdir ki, kitab rus dilindədir, auditoriyası geniş və müxtəlifdir və o auditoriya həm Azərbaycan romantizmi haqqında, həm də Azərbaycan ədəbiyyatşünaslığının, ədəbi-estetik nəzəri fikrinin səviyyəsi haqqında bizim üçün müsbət olan bir təsəvvür əldə edəcəkdir.

SUAL. Siz Pelevinin də povestlərinin adını çəkdiniz. Bu gün o Rusiyada çox dəbdə olan bir yazıçıdır.

ELÇİN. Dəb nə vaxtdan yaxşı şey olub? Mən «dəb» mərhələsini keçmişəm və sizə birmənalı deyirəm ki, hər şeyi dəb yox, istedad müəyyən edir. Elə həmin rus ədəbiyyatında vaxtilə Puşkindən də, Tolstoydan da, Çexovdan da, Bulqakovdan da çox «dəbdə» olan onlarla yazıçı saya bilərəm ki, bu gün siz bəlkə, onların heç adını da eşitməmisiz, çünki yüz illərin, hətta on illərin sınağından çıxmayıblar. İyirmi il bundan əvvəl ən «dəbdə» olan rus dramaturqu Gelman idi. İndi hanı o? Bilirsiz, Sara, Pelevin mənim yazıçım deyil. Onun romanlarını, o cümlədən «Çapayev və boşluq»u oxumuşdum, bu dəfə də «Plan Komitəsinin şahzadəsi», «Həşəratların həyatı» povestlərini oxudum. Sizin yadınıza gəlməz, 60-cı illərin əvvəllərində «stilyaqa»lar var idi, dar balaqlı, enli manjetli şalvarlar, kiçik düyünlü uzun qalstuklar, çiyinləri çox enli bukle pencəklər, altı qalın kauçukdan «tanketka» ayaqqabılar, qara şalvar və qara ayaqqabılarla ağappaq neylon corablar geyirdilər, «kok» saç saxlayırdılar, bir sözlə, xarici görkəm etibarilə vətənpərvər sovet gənclərindən, komsomolçulardan çox fərqlənirdilər və bir-birlərinə də «çuvak» deyə müraciət edirdilər. Bütün bu detallar ona görə mənim yaxşı yadımdadır ki, özüm də ilk gənclik çağlarında bu mərhələni keçmişəm. Mənim üçün Pelevin müasir rus ədəbiyyatında, bax, həmin «çuvak»dır. Biz ilk gənclik

çağlarında həyatda «stilyaqa»lıq edirdik, Pelevin isə bu gün ədəbyyatda «stilyaqa»lıq edir. Güman edirəm ki, sənətdə belə bir «stilyaqa»lığın axırı yoxdur. Bəlkə, mən yaşlaşdıqca konservator olmağa başlayıram, ona görə belə düşünürəm? Gələcək göstərər...

SUAL. Maraqlıdır, bu gün rus ədəbiyyatında Siz kimlərin adını çəkərdiz?

ELÇİN. Yəqin siz yeni imzaları nəzərdə tutursuz? Çünki bu gün də Rasputin, Bitov, Belov, Fazil İsgəndər, Aksyonov, bu yaxınlarda vəfat etmiş Astafyev iyirmi-otuz il bundan əvvəlki kimi rus ədəbiyyatının simasını, rus bədii sözünün mündəricəsini müəyyən edirlər.

SUAL. Yox, mən yeni imzaları nəzərdə tuturam.

ELÇİN (gülür). Qəribədir, ağlıma ilk gələn yazıçıların ikisi də qadındır: Tatyana Tolstaya və Lyudmila Petruşevskaya. Onların nəsri, xüsusən, Tolstayanın «Kıs» romanı, Petruşevskayanın hekayələri, eləcə də dramaturgiyası, elə bilirəm ki, müasir rus ədəbiyyatında, həqiqətən, hadisədir. Mən belə düşünürəm ki, Tolstaya rus bədii sözündəki Lev Tolstoy – Şoloxov xəttinin davamıdır, Petruşevskaya isə Çexov – Bulqakov xəttinin. Petruşevskayanın dramaturgiyası Vampilovdan sonra ilk dəfə olaraq rus dramaturgiyasında tamam yeni bir sözdür. Bunlar, əlbəttə, mənim sırf subyektiv mülahizələrimdir və olsun ki, polemikdir. Amma, mən belə görürəm və belə düşünürəm. «Azərbaycan» jurnalının 1-ci nömrəsində Rafiq Tağının tərcüməsində T.Tolstayanın hekayəsi çap olunub, onu oxuyun. Yaxşı hekayədir, yaxşı da tərcümədir. Yeri düşmüşkən, deyim ki, «Azərbaycan»ın elə həmin nömrəsində Əsəd Cahangirin tərcüməsində Leonid Andreyevin «Bədii sintez və postmodernizm» adlı məqaləsi dərc edilib. Doğrusu, Leonid Andreyev ədəbi mövqeyinə, estetik baxışlarına görə mənim o qədər də qəbul etdiyim rus tənqidçi-ədəbiyyatşünaslarından deyil, bu məqalədə də mənim qəbul etmədiyim bir sıra müddəalar var, xüsusən, İtalo Kalvino və Umberto Eko ilə bağlı fikirlər mənim üçün mübahisəli və ayrı-ayrı məqamlarda səhv görünür, amma ümumilikdə, maraqlı və faydalı məqalədir. Əsədin əvvəllər də bu tipli bir neçə tərcüməsini oxumuşam və onun bu işi nə qədər ağır zəhmət tələb edirsə, bir o qədər də vacib və əhəmiyyətlidir. Bu ağır və layiqincə qiymətləndirilməyən zəhmətin

əzab-əziyyətini Əsəd və Əsəd kimi başqa əsl ədəbiyyat adamları çəkməsə, heç kim çəkməyəcək.

SUAL. Elçin müəllim, bizim söhbətimiz bəzən ortada kəsilir, yeni mövzuya keçirik, ancaq düşünürəm ki, onları ümumi ədəbiyyat mövzusu birləşdirir. Siz Bakıya qayıtdıqdan sonra oxuduqlarınızdan danışırdız.

ELÇİN. Hə... Mətbuatda oxuduğum daha iki yazı üzərində də dayana bilərəm. Əkrəm Əylislinin «Əlvida, Moskva»sını oxudum. Oradakı hisslər aləmi mənim üçün də doğmadır, bəlkə, elə buna görə də bu yazı mənim xoşuma gəldi. İnişil mənim özümün də Moskvanın küçələri ilə elə bir tənha gəzintim olmuşdu... Əkrəm həmin hissləri söz ilə ifadə etməyi bacarıb. Təəssüf etdim ki, ayrı-ayrı hissələrdəki mühakimələrində Əkrəm bir az məhəlli səviyyəyə enib. Mən Azərbaycan ədəbiyyatını və ümumiyyətlə, ədəbiyyatı sevən bir adam kimi, cani-dildən arzu edirəm ki, Əkrəm yaşına və adına yaraşmayan müsahibələr verib eyni sözləri təkrar etmək əvəzinə, oturub yaxşı yazılar yazsın. Bu gün ədəbiyyat məmulatı aləmi başına götürdüyü bir vaxtda, o yaxşı yazını, o gözəl yazını Əkrəm də yazmayandan sonra, kim yazacaq? Yoxsa ki, eyni məzmunlu uzun-uzun mətləbsiz müsahibələr, Anarla bağlı daha hamını zinhara gətirmiş eyni iddialar, hərdənbir də mənim ünvanıma atmacalar...

Cəfər Cəfərova belə deyib, o da Əkrəmə belə deyib... Əkrəmin bu tipli müsahibələri beləcə davam etsə, sabah da yazacaq ki, Brejnevə belə dedim, Brejnev də mənə belə dedi və s. İndi get, isbat elə ki, belə deyil... Kimi buraxacaqlar haqq dünyasına ki, o kişilərdən soruşsun, görsün, Əkrəm dostumuzla Nuh əyyamında belə söhbətləri olub, ya olmayıb. Bir də ki, axı, bu kimə maraqlıdır? Kim işini-gücünü atıb Əkrəmə görə haqq dünyasında «razborka»ya gedəcək? Xüsusən də ki, oradan geriyə yol yoxdur. Nə isə... İkinci yazı Ramiz Rövşənin Bəsti Əlibəyli ilə müsahibəsidir. Bəsti xanım əsl ədəbiyyat adamıdır, ədəbiyyatı hiss etmək bacarığı və ədəbiyyatı müdafiə etmək istəyi onda güclüdür. Yəqin elə buna görə də Ramizlə söhbət alınıb, bu mənada ki, Bəsti xanım Ramizi danışdıra bilib. Anarın bu müsahibə ilə bağlı Ramizə yazdığı məktubu da oxudum və onun fikirləri ilə şərikəm. Ramizin mühakimələri ona görə mənim xoşuma gəldi ki, ədəbiyyat söhbətidir, həm də səviyyəli söhbətdir, vicdanlı söhbətdir, abırlı söhbətdir. Ramiz o müsahibədə danışanda, nədən danışmağından asılı

olmayaraq, ədəbiyyat təəssübü çəkir, ədəbiyyat mücadiləsi aparır, bu, genlərə işləmiş, genlərə hopmuş bir ədəbiyyat təəssübüdür, belə bir təəssübü süni şəkildə çəkmək mümkün deyil.

SUAL. Elçin müəllim, «60-cılar»dan – sizdən, Əkrəm Əylislidən, Anardan sonra...

ELÇİN (sözümü kəsir). Eləcə də İsi Məlikzadədən, Sabir Süleymanovdan, Yusif Səmədoğludan, Fərman Kərimzadədən, Maqsud və Rüstəm İbrahimbəyovlardan, Vaqif Nəsibdən, Seyran Səxavətdən, Mövlud Süleymanlıdan, Sabir Azəridən, Çingiz Ələkbərzadədən, Arif Abdullazadədən, Şahmardan... Bu yazıçıların hərəsinin «60-cılar» kontekstində öz yeri var...

Hətta rəhmətlik Vidadi Məmmədov yadıma düşür, cəmi iki-üç hekayəsi çap olunmuşdu, amma 60-70-ci illərin ədəbi ab-havasında Vidadinin də heç kimə bənzəməyən bir yeri var idi. Mən, xüsusən, son vaxtlar, istəyirəm ki, onlar da həmişə yada düşsün. Kimsə bunu sentimentallıqla yoza bilər, adam yaşdaşdıqca, deyəsən sentimentallıq da artır, bilmirəm...

SUAL. Yaxşı, bütün sizlərdən sonra 70-ci illərin əvvəllərində, 80-ci illərdə Azərbaycan nəsrinə bir sıra istedadlı yazıçılar gəldi. Ancaq bu gün onlar görünmür.

ELÇİN. Qəribədir, mən də tez-tez bu barədə fikirləşirəm... Misal üçün, Baba Vəziroğlu mənim fikrimcə çox perspektivli bir nasir idi. Onun müşahidələri, psixoloji qatları açmaq bacarığı güclü idi, təhkiyəsi koloritli və təmiz idi. Babanın ilk kitabı mənim ön sözümlə çıxmışdı. Amma təəssüf ki, bu gün Baba Vəziroğlu bir nasir kimi Azərbaycan nəşrinin ön cərgəsində görünmür. Yaxud Saday Budaqlı. İstedadlı yazıçıdır, amma hayıf ki, həmin istedadı tam şəkildə ifadə etmir, ya ifadə edə bilmir, ya da ifadə etmək istəmir, bu mənada ki, son neçə illərdir ki, mən onun heç bir yazısına təsadüf etməmişəm. Çox hayıf! Sadayın da Moskvada nəşr olunan ilk kitabının ön sözünü mən yazmışdım. Çox istəyirəm ki, Saday da, Baba da öz yazıçı sözlərini desinlər və ümid edirəm ki, deyəcəklər. Yaxşı ki, bu gün Afaq Məsudun istedadı onun hekayələrində, romanlarda öz ifadəsini tapır. Mən Afaqın son əsərlərini bir çox parametrlərdən ədəbiyyatımızda hadisə hesab edirəm. Afaq, əgər belə demək mümkünsə, sərt nasirdir, amma, mənə görə, bu sərtlik Afaqın içindəki lirikanın, incəliyin, sevdanın üst qatında dayanıb və hər vəchlə çalışır ki, həmin lirikanı da, incəliyi də, həmin sevdanı da ört-basdır etsin. Nə üçün? Olsun ki, bu sua-

lın cavabını heç Afaq özü də bilmir və əsl sənətin də gözəlliyi, görünür, ondadır ki, bu tipli suallara naməlum cavablardan ibarətdir. Aqil Abbasın da əsərlərini izləyirəm, oxuyuram və oxuduqca da 80-ci illərin əvvəllərində Aqilin, həmişə bir uşaq səmimiyyəti ilə gülümsəyən mehriban sifəti gözlərimin qabağına gəlir. Aqil «525»ə verdiyi müsahibəsində deyir ki, «60-cılar»ı Yevlaxdan o yana tanıyan yoxdur». Mən sidq-ürəkdən arzu edirəm ki, Aqil də, onun başqa istedadlı həmkarları da elə yazsınlar, elə yaratsınlar ki, Yevlaxdan çox-çox uzaqlarda da onları tanısınlar və biz də bunu qətiyyən danmayaq, əksinə, bunu təbliğ və bununla fəxr edək. Rafiq Tağı da bu gün aktiv müəlliflərdən biridir. Rafiq istedadlıdır, savadlıdır, geniş dünyagörüşü var, müşahidələri orijinaldır və bütün bunları mən hələ iyirmi il bundan əvvəl – Rafiq təzə-təzə çap olunanda yazmışdım və onun da ilk kitabı mənim ön sözümlə çıxıb. Mən təəssüf edirəm ki, Rafiq son illərdə istedadını ora-bura səpələyir. Rafiq bəzən hissə qapılsa da, mənim üçün onun məqalələri də, publisistikası da maraqlıdır, amma prozası qat-qat artıq dərəcədə maraqlıdır və mən istərdim ki, Rafiq Tağı öz istedadının həmləsini ən əsas nəsrə yönəltsin, hekayələr, povestlər, romanlar yazsın, çünki indi yazmasa, olsun ki, sonra gec olacaq.

SUAL. Son zamanlar bəzi, belə deyək, «inkarçı» yazılarda Sizin də adınızı çəkirlər. Siz, adətən, haqsız tənqidləri cavabsız qoymursuz. Bu barədə də fikrinizi bilmək istəyirəm.

ELÇİN. Hə... Misal üçün, bu yaxınlarda ingilis dilində bir hekayələr kitabı nəşr olunub və «Ədalət» qəzetinin ədəbiyyat əlavələrindən, dəqiq yadımda deyil, hansındasa yazıblar ki, o kitabda Elçinin, Əkrəm Əylislinin hekayələri tərcümə olunub, dünyada biabır olacağıq. Çox böyük həyəcan keçiriblər. (Gülür.) Bilirsiz, belə yazılara fikir vermək, belə müəllifləri ciddi qəbul edib onlara cavab yazmaq tamam mənasız bir işdir. Bunlar ədəbiyyat ətrafında ora-bura qaçışan adamcıqlardır. Tərəf-müqabil özü də gərək səviyyəli olsun. Bu, məlum məsələdir. Gərək ki, elə sizinlə, Sara, «525»də ötən müsahibəmizdə də bunu demişdim, mən Əkrəm Əylisliyə cavab verə bilərəm, çünki söhbət ədəbiyyatda sözünü demiş, ədəbiyyata xidmət göstərmiş bir şəxsdən gedir. Yaxud, götürək dostum Nizami Cəfərovu. Nizami nisbətən cavan olsa da, görkəmli dilşünas alim, tənqidçidir və ona, əlbəttə, cavab vermək, onunla mübahisə etmək olar və lazımdır, çünki, güman edərəm, ədəbi fikrimizin xeyrinədir. Misal üçün, Nizami bir mü-

sahibəsində deyir ki, Məmməd Cəfər Cəfərovun və Mehdi Hüseynin «tənqidçi obrazı» var idi və nədənsə, birdən-birə məni hədəfə alıb deyir ki, amma Elçinin «tənqidçi obrazı» yoxdur. Bilirsiz, bizim bir sıra istedadlı tənqidçilərimiz var, bəzən, fikri elə bir təhkiyə ilə söyləyirlər ki, oxuyursan və yaxşı başa düşə bilmirsən ki, nə deyirlər. Xoşbəxtlikdən, Nizami o tənqidçilərdən deyil və onun təhkiyəsi də, fikirləri də həmişə aydın olur, amma doğrusu, bu «tənqidçi obrazı» məsələsini mən başa düşə bilmədim. Məmməd Cəfər müəllimi həyata münasibətdə də, ədəbiyyata münasibətdə də mən öz müəllimlərimdən biri hesab edirəm, amma nə üçün Məmməd Cəfər müəllimin, yaxud unudulmaz Mehdi Hüseynin «tənqidçi obrazı» var, amma, misal üçün, Cəfər Cəfərovun, yaxud Yaşar Qarayevin «tənqidçi obrazı» yoxdur? Bu «tənqidçi obrazı»nı müəyyənləşdirən meyarlar hansılardır? Güman edirəm ki, Nizami bir az hissə qapılıb. Ədəbiyyatın təəssübünü çəkən, hər bir əsərə, ədəbi hadisəyə münasibət bildirərkən, əslində, ədəbi məmulata qarşı mücadilə aparan hər bir tənqidçinin, ədəbi simanın, o cümlədən Nizami Cəfərovun ədəbiyyatda öz yeri, öz «obrazı» var, sadəcə olaraq, bu «obraz» da bədii obraz kimi, müxtəlif səciyyəyə və müxtəlif səviyyəyə malikdir.

SUAL. Siz dörd ay bundan əvvəl «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri» silsilə məqalələrinizi sap etdirdiniz. «525-ci qəzet» tənqidçiləri bu mövzu ətrafında müzakirəyə çağırdı. Deməliyəm ki, Sizin silsilə məqalələrinizin rezonansı çox güclü oldu. Ədəbiyyatla maraqlananlar səbirsizliklə qəzetin növbəti nömrəsini gözləyirdi, bir-birindən soruşurdu: «Elçinin məqalələrini oxuyursan?» O məqalələr ədəbi tənqidimizdə hadisəyə çevrildi. Lakin «525-ci qəzet»in açdığı müzakirə yüksək səviyyədə alınmadı. Nə üçün?

ELÇİN. Düzdür, «525»də də, başqa qəzetlərdə də bir sıra məqalələr yazıldı, fikirlər söylənildi, amma prinsip etibarilə siz düz deyirsiz. Biz, bu söhbəti başlayanda, siz mənim o məqalələrimlə bağlı «həyəcan təbili» sözlərini işlətdiniz. Hətta bundan sonra da, yüksək elmi-nəzəri səviyyəli müzakirələrə nail ola bilmiriksə, deməli, həqiqətən, həyəcanlanmağa, təbil çalmağa ciddi əsas var. Mən, son iki ayın mətbuatını bir küll halında nəzərdən keçirərkən bir daha bunun şahidi oldum. Bilirsiz hansı personaj yadıma düşür? 35 – 36 il bundan əvvəl, 60-cı illərin ikinci yarısında mən De Sikanın, De Santisin, Viskontinin, Rossellininin, P.Cer-

minin, Komençininin sövqü ilə İtaliya neorealistlərinə və ümumiyyətlə, XX əsr İtaliya kino və teatr dramaturgiyasına, Verqanın, Annuntsionun, Marinettinin, De Flipponun səhnə əsərlərinə aludə olmuşdum, hətta Pirandellonın «Axmaq» pyesini Azərbaycan dilinə tərcümə də etmişdim. Onun başqa bir əsərində Hinkfus adlı bir surət var. Rejissordur və böyük bir şövqlə, bütün enerjisi ilə, necə deyərlər, əti ilə, qanı ilə rejissorluq sənəti uğrunda mübarizə aparır, hardasa formalistə çevrilir, hardasa eqoist olur, amma sənət uğrunda öz mücadiləsinə inanır və istədiyinə də nail olur. Bax, bizim ədəbi tənqidin, ədəbi prosesin, ədəbi mühitin belə Hinkfusları azdır, onlar çatışmır.

SUAL. Elçin müəllim, elə bil, bədbinliyə qapılmısınız...

ELÇİN. Bilmirəm, bədbinlikdir, yoxsa pərişanlıqdır, amma fikirləşdiyim budur. Bilirsiz, Sara, mən o silsilə məqalələrlə istəyirdim ki, ədəbi prosesdə sağlam bir canlanma əmələ gəlsin, Azərbaycan tənqidində və ədəbiyyatşünaslığında milli-mənəvi dəyərlər 70 illik sovet dövründə pərçim edildikləri ideoloji qəliblərdən çıxarılaraq dəqiqləşdirilməsi, ədəbi irsin yeni nəzərlərlə oxunması, tənqidin elmi-nəzəri ehtiva miqyasının genişləndirilməsi kimi problemlər diqqət mərkəzinə çevrilsin və bununla da müasir ədəbiyyatın estetik simasının formalaşması üçün münbit zəmin yaradılsın. Təəssüf ki, son ayların yazı-pozusunda da belə bir miqyaslı diqqət göstəricilərini görmədim. Sara, sizdən gizlətmirəm, hərdən özüm özümə deyirəm: «Daha bəsdir, əl çək bu ədəbi proses, ədəbi tənqid söhbətindən, ədəbiyyat mücadiləsi dediyin qayğılardan! Başqa qayğıların azdır? Bu uzun-uzadı illər boyu tənqid haqqında nə qədər yazmısan? Və ümumiyyətlə, ədəbiyyat problemləri ilə bağlı neçə yüz məqalə yazmısan? Bəsdir! Vaxtın bu qıt çağında o vaxtı ki, sərf elədin tənqid barədəki bu son dörd məqaləyə, onların əvəzinə dörd dənə hekayə yazaydın, sənin üçün yüz dəfə artıq olardı! Baş ağrısından başqa, obıvatel söz-söhbətindən başqa nə qazandın? Ən böyük ədəbiyyat mücadiləsi ortaya yaxşı bir əsər çıxarmaqdır! Otur, hekayə yaz, pyes yaz, roman yaz! Vaxt da azdır axı! Vallah, qalan da bunlar olacaq! Tənqid haqqında nəinki yazma, ümumiyyətlə, tənqidi heç oxuma da!» (Gülür.) Bax, belə! Vaxtilə Mustafa Quliyev deyirdi ki, «Daloy, tar!» İndi gərək mən də deyim ki, «Daloy tənqid!».

SUAL. Əlbəttə, Siz ilk növbədə yazıçısınız! Lakin mən heç

vaxt inana bilmərəm ki, Elçin ədəbi prosesə, ədəbi tənqidə biganə qalacaq və ancaq bədii yaradıcılıqla məşğul olacaq...

ELÇİN. Nə üçün inanmırsınız?

SUAL. Yox, inanmıram. Gəlin, söhbəti bir az yüngülləşdirək. Elçin müəllim, Sizdə güclü yumor hissi var. Bunu yalnız ona görə demirəm ki, komediyalarınızda yumor çox güclüdür, hətta ciddi əsərlərinizdə belə, gözlənilmədən, lakin yerinə düşən əsl yumorla rastlaşırıq. Sadəcə olaraq Sizinlə bir-neçə dəfə söhbət etmək kifayətdir ki, bunu aydın görəsən. Siz mətbuatda nəsə gülməli bir yazıya rast gəlmədiniz?

ELÇİN. Rast gəldim...

SUAL. Məsələn?

ELÇİN (gülür). Məsələn, bir qızın, adı daha yadımda qalmayıb, şerləri məhz qadın şairənin şerləri kimi mənim diqqətimi cəlb etdi və mən bu barədə fikrimi tənqid haqqında yazdığım son məqaləmdə bildirdim, amma sonra qəzetlərdə oxudum ki, sən demə, bu qız adı altında gizlənən, qız yox, oğlan imiş, Məşədi İbad demişkən, gəlin kişi çıxdı...

SUAL. Yeri düşmüşkən, bir məsələ barədə də Sizin fikrinizi bilmək istəyirəm. Bu gün mətbuatda çap olunan bir sıra əsərlərdə açıq-saçıqlığa bir meyl var. Müğənni qadınların açıq-saçıq geyimi isə artıq söz-söhbət mövzusuna çevrilib. Bu barədə nə deyə bilərsiniz?

ELÇİN. Bu yaxınlarda Natalya Medvedyeva vəfat etdi. Mən onun «Ana, mən dələduzu sevirəm» romanını təzədən vərəqlədim. Limonovun «Bu mənəm – Ediçka» romanının təsirilə yazılmış bir əsərdir. Şübhəsiz ki, Medvedyeva da, Eduard Limonov da istedadlı adamlardır və onların yazdıqları bulvar ədəbiyyatı deyil, amma mən istəməzdim ki, bu əsərlər, misal üçün, Azərbaycan dilinə tərcümə olunsun. Ona görə yox ki, açıq-saçıqlıq var, ona görə ki, bu açıq-saçıqlıq elə açıq-saçıqlıq naminə də qələmə alınmışdır, bədii hədəf elə bu açıq-saçıqlığın özüdür, bu isə, mənim fikrimcə, mənim dünyagörüşümə görə bədiiyyatın təbiətinə, estetik mündəricəsinə yaddır. Baxın, «Satirikon»dan, Apuleydən tutmuş Zolyayacan – açıq-saçıqlıq ədəbiyyata xidmət etmişdir, Limonovun, Medvedyevanın yazdıqları isə «skandal» ədəbiyyatıdır. Keçmiş dissident Limonov bu gün bolşevik ideyalarını təbliğ və bolşevik inqilabına təhrik etdiyi üçün Rusiya həbsxanasında yatır və elə bunun özü də «skandal» əxlaqı, «skandal» özünüifadəsidir.

O ki, qaldı, müğənni qadınların açıq-saçıq geyiminə, həmin müğənninin ilk növbədə səsi olmalıdır, istedadı olmalıdır, zövqü olmalıdır, ondan sonra müzakirə etmək lazımdır ki, o əyninə nə geyir. Nə geyir, geysin, bu onun işidir, amma sizin dediyiniz həmin «açıq-saçıqlığı» ilə qadirsizliyini ört-basdır etməsin. Vulqarlıq sənətə zidd bir şeydir, müğənnilik də sənətdir və geyim də ilk növbədə zövq tələb edir. Zövqlə geyinibsə, açıq-saçıqlıq görünməyəcək.

SUAL. Bu gün Azərbaycan ədəbiyyatında qəribə bir xüsusiyyət müşahidə olunur. Yazıçı, ya şair özü özünü təhlil edir, özü özünə qiymət verir, özü özünü modernist, postmodernist, sürrealist və s. adlandırır. Axı, bu onun özünün yox, onun əsərlərini təhlil edənin işidir. Elə bil, özləri özlərini belə adlandırmaqla, özlərini təsdiq etmək istəyirlər. Sizcə mən düz düşünürəm?

ELÇİN. Bilirsiz, nə var? Kim hansı üslubda, hansı «izm» kontekstində yazır, yazsın, kim özünü necə adlandırır, adlandırsın, bunun şəxsən mənim üçün heç bir əhəmiyyəti yoxdur, çünki hər şeyi özü-özlüyündə o üslüb, o «izm» yox, istedad müəyyən edir. Misal üçün, XX əsr ABŞ ədəbiyyatında nə qədər «izm»lər olub, nə qədər üslub müxtəlifliyi var, amma kim deyir ki, mən filan «izm»i sevirəm? Deyir ki, mən filankəsi sevirəm, bundan sonra həmin filankəsin «izm»indən, üslubundan, tənqidçilərin təbiri ilə desək, «bədii-estetik xüsusiyyətlərindən» danışır. Mən Folkneri çox bəyənirəm. Folknerin nəsri mənim üçün, deyək ki, musiqidə paralel axtarsam, Baxın simfoniyaları, yaxud Bəhram Mansurovun çaldığı «Çahargah» kimi bir şeydir. Amma mən Heminqueyi də bəyənirəm. Heminquey isə mənim üçün – lirik-kədərli, bəzən də, bu kədərdən qopmaq istəyən estrada musiqisinin, Edit Piaf, yaxud Şövkət Ələkbərova sənətinin ab-havasına məhrəm bir şeydir. Folknerin və Heminqueyin mənim içimdəki ovqatını yaratmaq üçün belə bir, bəlkə də, qəribə görünən assosiasiyadan istifadə edirəm. Folkner muğamdırsa, Heminquey rəngdir, təsnifdir... – Bəs, Meyler? Norman Meyler də mənim üçün XX əsr ABŞ ədəbiyyatının Folkner və Heminquey səviyyəsində böyük bir nümayəndəsidir. Amma ABŞ-da Folknerə də, Heminqueyə də yad demirəm, amma hər halda onlara doğma olmayan ilk ekzistensialist ədəbi qəhrəmanı – Ağ zəncini ədəbiyyata kim gətirdi? Norman. Bir-birindən tamam fərqli ədəbi cərəyanların və üslubların bu üç nümayəndəsini və mənim simamda bir oxucunun eyni dərəcədə

bəyəndiyi bu üç yazıçını ona görə misal gətirdim ki, bu nümunə «meyar – istedaddır» prinsipini, məncə, yaxşı təcəssüm edir.

SUAL. Elçin müəllim, ən son nə oxumusunuz?

ELÇİN. Bizim ədəbiyyatı nəzərdə tutursunuz?

SUAL. Bəli.

ELÇİN. Vaqif Bəhmənlinin «525»dəki yeni şerlərini oxudum və gözdən keçirdiyim «şer məmulatından» sonra Vaqifin bu şerləri küskünlüyündən-nikbinliyindən asılı olmayaraq mənim içimə bir hərarət gətirdi. O hərarəti ki, onu iqlim, havanın istiliyi-soyuqluğu heç vəchlə yarada bilməz, onu, ancaq əsl sənət, əsl poeziya yarada bilər. Bir neçə ay bundan əvvəl Vaqifin «Uzaqda bir işıq» kitabını oxumuşdum. O böyük kitaba toplanmış şerlərin bir çoxu mənə mətbuatdan tanış idi, amma, qəribədir, onların hamısını mən təzə şerlər kimi yenidən maraqla oxudum. Bu da o deyən sözdür ki, həqiqi sənət nümunəsi həmişə yenidir, təzədir. Və mənim üçün çox xoş oldu ki, nəhayət, Vaqifin həcmcə belə sanballı bir kitabı nəşr olundu. Vaqifin «525»dəki tərcümələrini də oxudum. Şerləri zövqlə seçib, gözəl də tərcümə edib və orası da mənim üçün xoş və əlamətdar bir cəhətdir ki, Vaqif Bəhmənli bu silsiləni Ramiz Rövşənə və Vaqif Bayatlıya ithaf edib. Mən buna hər üç işıqlı şairin amal dostluğu və ədəbi-mənəvi dəyərləri qiymətləndirmək müştərəkliyi kimi baxıram, eyni zamanda, düşünürəm ki, onları istedad birləşdirir. Adil Mirseyidin də «Yeni Azərbaycan»da, «Palitra»da yeni şerlərini oxudum və bu şerlər də, bir müddət bundan əvvəl onun haqqında yazdığım məqalədə söylədiyim fikirləri mənim üçün bir daha təsdiq etdi. Adil Mirseyid bizim ən istedadlı müasir şairlərimizdən biridir.

SUAL. Elçin müəllim, mətbuatı oxuyursan, birdən görürsən ki, məşhur bir nasir şer çap etdirir, şair birdən hekayə yazır, sərbəst yazan, qoşma yazır, qoşma yazan sərbəst şer yazır. Siz buna necə baxırsız?

ELÇİN. Sara, nə yazırlar, qoy yazsınlar, amma istedadla yazsınlar. Bir də, bilirsiz, mən həmişə deyirəm ki, yaradıcılıq sirri-xudadır. Kim deyərdi ki, misal üçün, Moris Dryuon «Dünyanın güclüləri» kimi avanqard bir romandan sonra ənənəvi tarixi romanlar yazmağa başlayacaq? Şəxsən mən heç vaxt buna inanmazdım. Yadıma gəlir, tələbə ikən «Dünyanın güclüləri»ni necə bir, belə demək mümkünsə, ədəbi həyəcanla oxuyurdum. Fransızlar o roman əsasında film də çəkmişdilər və orada, yadıma gəlir, Jan

Qaben dahiyanə bir sənətkarlıqla bankir Noel Şudlerin surətini yaratmışdı. Bu günlərdə Rəşad Məcidin «10 sentyabr» hekayəsini oxudum və bu hekayə də mənim üçün xoş bir gözlənilməzlik oldu. Rəşad istedadlı şairlərimizdən biridir və səhv etmirəmsə, bu hekayə onun ilk nəsr əsəridir. Mən bu hekayəni Rəşadı böyük nəsrə apara biləcək yolun uğurlu başlanğıcı hesab edirəm.

SUAL. Elçin müəllim, siz yazıçı bəxtinə inanırsınızmı? O mənada ki, hansısa yazıçının bəxti gətirmir, layiq olduğu qiyməti almır...

ELÇİN. Hərdən mən də bu barədə fikirləşirəm. Misal üçün, Çingiz Aytmatov «Cəmilə»ni yazanda və Lui Araqonun «Bu, mənim məhəbbət haqqında oxuduğum ən gözəl əsərdir» deməsindən sonra, bütün dünyada məşhur oldu. O zaman Azərbaycanda İsa Hüseynovun yazdığı povestlər – «Teleqram», «Kollu Koxa», «Saz» və s. – bir bədii əsər kimi mənim üçün «Cəmilə»dən güclü idi. Amma sizin dediyiniz o bəxt quşu Çingiz Aytmatovun başına qondu. O başqa məsələ ki, Çingiz sonrakı hər yazısında daha da irəli getdi, «Ağ gəmi»ni yazdı, romanlarını yazdı. Mən buna bəlkə də «yazıçı bəxti» yox, «ədəbi bəxt» deyərdim, çünki bədii qəhrəmanlarla bağlı da eyni hadisə baş verir. Misal üçün, mən həmişə təəccüb edirəm ki, nə üçün Jan Valjan bu dərəcədə populyar bir surətdir, amma Balzakın Minore-Levrosu populyarlıqda ona heç yaxın da dura bilməz. Halbuki, Fransua Minore-Levro da Jan Valjanla eyni tipli personaj, oxşar taleli qəhrəmanlar olmaqla bərabər, bir bədii surət kimi Jan Valjandan, mənim fikrimcə, daha ətli-qanlıdır, onun daxili aləmindəki dönüş bədii cəhətdən daha artıq əsaslandırılmışdır. Amma görürsünüz, Jan Valjanı şagird də tanıyır, Minore-Levronu isə, olsun ki, bəzən heç ədəbiyyat müəllimi də yadına sala bilmir. Var, ədəbi bəxt var.

SUAL. Elçin müəllim, sonuncu sualım: yeni nə yazırsınız?

ELÇİN (bir az düşünür). İlyas Əfəndiyevlə bir söhbətimizi mən əvvəllər də bir-neçə dəfə yazmışam, demişəm, yenə o söhbət fikrimə gəldi. Bir dəfə onun iş otağında söhbət edirdik, birdən əli ilə kitabxanasındakı kitabları göstərib soruşdu: » – Bunlardan sonra biz niyə yazırıq?» Bunlar – yəni Şekspir, Servantes, Molyer, Tolstoy, Balzak... O vaxt, düzdür, mən atama cavab verdim, dedim ki, hər bir yazıçını onun xalqının tarixi və taleyi kontekstində qiymətləndirmək lazımdır. Amma, axır vaxtlar tez-tez Kafkanın Prometeyi yadıma düşür. Onun Prometeyi, doğrudan da, dünya

ədəbiyyatında heç bir başqa Prometeyə bənzəmir. Yadınıza gəlir, Prometeyi hamı unudub, hətta o özü də özünü unudub. Deməli, bütün əzab-əziyyətləri lazımsız bir şey imiş, əbəs imiş... (Gülür.) Amma mən istəmirəm ki, bu müsahibəni belə bir bədbin notla sona çatdıraq. Ankara Dövlət Teatrının sifarişi ilə yazdığım yeni komediyanı onlara təhvil vermişəm, qəbul ediblər, tamaşaya hazırlayırlar.

SUAL. Artıq bu Sizin Türkiyədə tamaşaya qoyulan neçənci əsərinizdir?

ELÇİN. Türkiyə Dövlət teatrlarında dördüncü komediyadır. Bundan əvvəl Ankara Dövlət Teatrında «Mən sizin dayınızam», Konya Dövlət Teatrında «Dəlixanadan dəli qaçıb» və Ərzurum Dövlət Teatrında «Mənim sevimli dəlim» tamaşaya qoyulmuşdu. Yeni komediyanın ilk tamaşa hüququ Ankara Dövlət Teatrınındır. «Qatil» adlı təzə yazdığım faciəni isə bizim Akademik Milli Dram Teatrımız qəbul edib, may üçün tamaşaya qoyacaq. Bu yaxınlarda tamaşaçılar «Milli bomba» filminə baxa biləcəklər, o filmin ssenarisini «Mənim ərim dəlidir» komediyasının motivləri əsasında rejissor Vaqif Mustafayevlə birlikdə yazmışıq.

Uzun müddətdən bəri yazdığım «ailə romanı» sona çatıb. XX əsrin ilk günündən XXI əsrin ilk gününə qədər bir ailənin taleyidir. Yeni hekayələrim var. II Şah İsmayıl haqqında roman, demək olar ki, hazırdır. Sadəcə, vaxt tapıb üzünü köçürmək lazımdır. İlyas Əfəndiyev haqqındakı kitabı bitirmək istəyirəm. Vaxtilə, mən «Klassik aşıq poeziyasında «dünya» obrazı» adlı kiçik bir monoqrafiya yazmışdım. Onun davamı olaraq «Klassik aşıq poeziyasında «dağlar» obrazı»nı yazmaq istəyirəm. Yeni silsilə məqalələr üçün qeydlərim var. (Gülür.) Görürsünüz, Sara, yenə ortaya məqalə çıxdı?!

*2003.*

## E L Ç İ N: «YAZIÇILAR BİRLİYİNƏ HÖRMƏTLƏ YANAŞMAQ LAZIMDIR»

MÜXBİR. Elçin müəllim, ilk öncə sizi bir daha 60 illiyiniz, «İstiqlal» ordeni ilə təltif olunmağınız münasibətilə, yubileyinizlə bağlı digər xoş hadisələrə görə ürəkdən təbrik edirik.

ELÇİN. Çox sağ olun.

MÜXBİR. Axır vaxtlar çox şikayət edirdik ki, ədəbiyyata maraq azalıb, sənətkarlarımıza etinasız yanaşırlar. Lakin sizin 60 illiyiniz göstərdi ki, yox, belə deyil. Sizin yaradıcılığınız haqqında onlarla məqalələr yazıldı, bu məqalələrin müəllifləri arasında yaşlı nəslin də nümayəndələri var idi, lap gənc nəslin də. İqtidarda olanlar da vardı, müxalifətdə olanlar da. Deməli, belə bir nikbin fikir irəli sürmək olar ki, əsl sənət heç vaxt kölgədə qalmır, unudulmur. Əsl sənətə verilən qiymət yüksələn xətlə gedir, aşağı düşmür.

ELÇİN. Mən də fürsətdən istifadə edib tanıyıb və tanımadığım həmin müəlliflərin hamısına, məni təbrik edən yüzlərlə dost-tanışa, oxuculara dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

MÜXBİR. Elçin müəllim, istərdim ki, bu müsahibədə Yazıçılar Birliyi haqqında danışaq. Yazıçıların növbəti qurultayı gecikir. Bu da Yazıçılar Birliyi, onun rəhbərliyi ilə bağlı bir sıra tənqidi mülahizələrə, iradlara, narazılıqlara səbəb olur. Mətbuatı, ədəbi prosesi izləyən bir adam kimi, şübhəsiz ki, bunlardan xəbəriniz var. Lakin qəribədir ki, bizim məşhur yazıçılarımız susmağa üstünlük verirlər, Yazıçılar Birliyi ilə bağlı öz münasibətlərini bildirmirlər, neytral, ya da bir növ, gözləmə mövqeyi tuturlar. Mətbuatdakı bu söz-söhbətə görkəmli bir yazıçı, hamı tərəfindən qəbul edilmiş nüfuzlu bir ədəbiyyat xadimi kimi sizin münasibətinizi bilmək çox maraqlıdır.

ELÇİN. Mən haçan öz münasibətimi gizlətmişəm ki?

MÜXBİR. Düzdür, siz ayrı-ayrı müsahibələrinizdə, məqalələrinizdə bu barədə fikirlərinizi söyləmisiniz. Lakin indi istərdim ki, sizinlə müsahibəmiz xüsusi olaraq bu məsələyə həsr edilsin.

ELÇİN. Siz indicə yaxşı bir ifadə işlətdiniz: «söz-söhbət». Dediyiniz o iradların, tənqidlərin bir çoxu məhz «söz-söhbətdir» və elə bilirəm ki, ədəbiyyata dəxli yoxdur.

MÜXBİR. Nə üçün? Xahiş edirəm bir az izah edəsiniz.

ELÇİN. Siz mənə Yazıçılar İttifaqının rəhbərliyində elə bir adam göstərin ki, ədəbiyyat adamı olmasın, canı ilə, qanı ilə xalqına və o xalqın ədəbiyyatına, milli-mənəvi dəyərlərinə bağlı olmasın.

MÜXBİR. Çox maraqlı olardı ki, siz bu fikirlərinizi konkret əsaslandırasınız.

ELÇİN. Yaxşı, konkret danışaq. Anar bizim böyük ədiblərimizdən biridir və sözün əsl mənasında ədəbiyyat adamıdır. «Sözün əsl mənası» dedikdə mən nəyi nəzərdə tuturam? Ədəbiyyatı yaratmaqla bərabər, ədəbiyyatın və ümumiyyətlə, sənətin mahiyyətini dərk etməyi, missiyasını qiymətləndirməyi bacarmağı, böyük mütaliəni, dünyagörüşünün geniş miqyasını, yüksək tribunalarda milli ədəbiyyatı təqdim etmək bacarığını və bunlar da, şübhəsiz ki, Anarın malik olduğu cəhətlərdir. Fikrət Qoca XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biridir və onun qələmindən çıxan əsərlərin milli ədəbiyyatımızın inkişafında böyük yeri var. Arif Əmrahoğlu bizim ən istedadlı, analitik və qabaqcıl təfəkkürlü tənqidçilərimizdən, ədəbiyyatşünaslarımızdan biridir. Çingiz Abdullayev öz sahəsində bu gün Azərbaycan ədəbiyyatının, siyasiləşmiş cəmiyyətimizdə dəbdə olan sözlə desəm, reytinqini artırmaqla məşğuldur. Bu sözləri deməkdə mən nəsə səhv edirəm, düz demirəm? Rəhmətlik Cabir Novruz demişkən, insanlara sağlığında qiymət verməyi bacarmaq lazımdır.

MÜXBİR. Siz başqa müsahibələrinizdə də Yazıçılar Birliyinin rəhbərliyini müdafiə etmisiniz.

ELÇİN. Bilirsiniz nə var? Müdafiə müdafiə xətrinə olmamalıdır. Mən gözümü açandan Yazıçılar İttifaqını görmüşəm, 35 ildən artıqdır ki, oranın üzvüyəm, 12 il orada çalışmışam, ora bizim ədəbiyyatımızın evidir, mənzilidir və mən heç vəchlə Yazıçılar Birliyinin taleyinə biganə qala bilmərəm. Güman edirəm ki, oranı həm tənqid etməyə, həm də müdafiə etməyə mənim mənəvi haqqım var və mən tamam əminəm ki, bu gün Yazıçılar Birliyinin özünün indiki rəhbərliyinə, bu rəhbərliyin təcrübəsinə, nüfuzuna, əlaqələrinə ehtiyacı var. Bəli, bu gün Yazıçılar Birliyini tənqid edən yazıları, təbii ki, mən də oxuyuram və o tənqidlərin

bir çoxunun qeyri-obyektiv olduğunu görürəm. Həmin qeyri-obyektiv çoxluğun səbəbləri, təəssüf ki, ədəbiyyatla bağlı deyil, şəxsi narazılıqlarla bağlıdır. XIX Lyudovikin məşhur sözləri yadıma düşür. O deyirdi ki, mən hər dəfə kiməsə vəzifə verəndə, doxsan doqquz narazını və bir nəfər də nankoru dünyaya gətirirəm. İndi, Yazıçılar Birliyi də, misal üçün, beş nəfəri Prezident təqaüdünə təqdim edir, doxsan beş nəfər isə narazı qalır. Yaxud, Yazıçılar Birliyinin bu gün saysız-hesabsız üzvləri var və onların da böyük əksəriyyəti özünü heç bir xalq yazıçısından, xalq şairindən əskik hesab etmir, əksinə, yuxarı sayır və narazı qalır ki, Yazıçılar Birliyi onlara niyə bu adı verdirmir. Üzdə ordenə, medala biganə olanlar, «mənə xalqımın məhəbbəti kifayətdir» deyənlər (o məhəbbəti də xalq o yazıçıya nə vaxt izhar eləyib – məlum deyil!), əslində isə cani-dildən orden istəyənlər, medal istəyənlər, bu yolda əməlli-başlı mübarizə apara-apara narazı qalanlar və s. Bu cür misalları çox gətirmək olar. Dedi-qodunun da bir qismi elə buradan başlayır. Bizim bir qisim qəzetlər də ajiotaj yaradır, necə ki, indi yazıçıların qurultayı ilə bağlı xəstə bir ajiotaj təmayülü hiss olunur. Mən sizə bir söz deyim: jurnalist cəmiyyətdən irəlidə getməlidir. Bizim jurnalistlərin isə bir çoxu cəmiyyətin arxasınca sürünür. Bir qismi də, cəmiyyətin arxasından yapışıb hıqqana-hıqqana onu geri çəkir. Bunu yalnız Yazıçılar Birliyi ilə əlaqədar yox, ümumiyyətlə deyirəm.

MÜXBİR. Onda yenə qayıdaq Yazıçılar Birliyinin indiki vəziyyətinə.

ELÇİN. Bilirsiz, ən əsas məsələ odur ki, qalmaqallarla, streslərlə, hərc-mərcliklə dolu çox çətin, mürəkkəb, ziddiyyətli, gözlənilməz hadisələrlə zəngin illərdən sonra Yazıçılar Birliyi qorunub saxlandı və onun ədəbi orqanları da bu gün nəşr olunur. Deyirlər ki, Yazıçılar Birliyi sovet sisteminin bəhrəsidir. Bəli, belədir. Mən gərək ki, bir dəfə demişəm, amma yenə təkrar edirəm: ali və orta məktəblərin, elmi müəssisələrin, kitabxanaların, muzeylərin, teatrların tam əksəriyyəti kimi, Yazıçılar Birliyini də sovet sistemi yaradıb. İndi nə edək? Onların hamısından imtina edək və qayıdaq feodalizm dövrünə? Bəli, epoxalar dəyişdi, amma tarixin səhifəsinə çevrilmiş sovet epoxası başdan-başa qara bataqlıq içində deyildi. Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının inkişafında sovet epoxasının mühüm rolu olub – bu faktdır. Bəli, sovet dövründə Azərbaycan ədəbiyyatında böyük faciələr

baş verib, cavidlər, cavadlar, müşfiqlər, çəmənzəminlilər güllələnib, məhv edilib, yaxud «Dədə Qorqud» kimi bir xalq dastanı «sinfi düşmən» elan olunub, ayrı-ayrı dövrlərdə sovet sistemi, hakim ideologiya ədəbi danosları ədəbiyyatın əsas «janrlarından» birinə çevirib, bədii cəhətdən solğun əsərlər örnək göstərilib, mükafatlandırılıb, dərsliklərə salınıb, mövzu arxasında gizlənən istedadsız adamlar «görkəmli yazıçı», «görkəmli şair» vəzifəsinə təyin olunub, «rəhbər dekorasiya» rolunu oynayıb və s. Bəli, bütün bunlar olub, amma bütün bu dəhşətlərlə, bu fantasmoqorik, sürrealist hadisələrlə bərabər, nə qədər də pozitiv işlər görülüb: ədəbi dilimiz formalaşıb və inkişaf edib, bədii və elmi dilimiz təmizlənib, məxsusiləşib, zənginləşib, xalqımızın mənəviyyatının ədəbiyyatdakı bədii ifadəsinin miqyası müqayisəedilməz dərəcədə artıb, yeni ədəbi janrlar yaranıb və inkişaf edib, bədii-estetik keyfiyyətlərlə milli-mənəvi dəyərlər və istəklər özünün üzvi vəhdətinə nail olub, dünya ədəbiyyatı, o cümlədən, böyük rus ədəbiyyatı ana dilimizə tərcümə edilib, milyonlarla kitab nəşr olunub və kitabın yol tapmadığı ev qalmayıb və s. Eləcə də, Yazıçılar Birliyi. Bəli, orada çox intriqalar olub, oranın Natəvan klubu, sədr kabineti çox «ifşalar» görüb, faciələrin şahidi olub, orada sovet ideologiyasının doğurduğu antiədəbiyyat söhbətləri də az olmayıb, amma bütün bunlarla bərabər, Yazıçılar Birliyi ədəbiyyat təəssübkeşi olub, ana dilini, milli-mənəvi dəyərlərimizi sevib və qorumağı bacarıb, yazıçıların kitablarını nəşr etdirib, öz ədəbi orqanlarında yazıçıların əsərlərini yüksək tirajlarla (yadıma gəlir, «Azərbaycan» jurnalının tirajı 73 minə qalxmışdı) çap edib, yazıçılara yüksək qonorarlar verib, onları işlə, evlə, maşınla, sanatoriyalarla təmin edib, xarici ölkələrə ezam edib, sağlamlıqlarının keşiyində dayanıb, oxutdurub və s. Ona görə də Yazıçılar Birliyinin üzərindən xətt çəkmək olmaz, əksinə, Yazıçılar Birliyinə hörmətlə yanaşmaq, ona hər vasitə ilə kömək etmək bizim hamımızın mənəvi borcudur. Qəribə vəziyyətdir: Sovet İttifaqı dağılandan sonra Yazıçılar Birliyi ağır maddi vəziyyətə düşdü, jurnalların nəşri demək olar ki, dayandı, bir ildə «Azərbaycan» jurnalının bir nazik nömrəsi çıxırdı. Sonra Birliyin rəhbərliyi Heydər Əliyevə müraciət etdi və ölkənin o zaman, onsuz da imkansız olan büdcəsindən Heydər Əliyevin tapşırığı ilə Birliyə də, ədəbi orqanlara da vəsait ayrıldı. Bu gün bu ədəbi orqanlar həmin vəsaitin hesabına ardıcıl nəşrini bərpa edib, müəlliflər qonorar alır, həmin redaksiyala-

rın özündə nə qədər qələm yoldaşlarımız işləyir (yəni maaş alır, ailəsini dolandırır), amma buna da ağız büzənlər var ki, niyə bu ədəbi orqanlar büdcədən maliyyələşdirilir. Vallah, bu cür anekdotik iddialar, ancaq Azərbaycanda mümkündür. Yaxşı, Yazıçılar Birliyinin rəhbərliyi ölkənin rəhbərliyi qarşısında məsələ qaldırmadı, jurnallar da bağlandı, harada çap olunacaqdı bu qədər roman, povest, hekayə, şer, məqalə, tərcümə? Bulvar qəzetlərində? Sovet sistemi Yazıçılar Birliyinə də, onun ədəbi orqanlarına da külli miqdarda vəsait sərf edirdi və bunun da müqabilində ədəbiyyatdan tələb edirdi ki, partiyalı olsun, sinfi münasibətləri əsas götürsün, hakim ideologiyanın istəyini yerinə yetirsin. Bütün əsərlər də bədnam «Qlavlit»in senzurasından keçirdi. Bu gün bazar iqtisadiyyatıdır, senzura yoxdur, söz azadlığıdır, kimin ürəyi nə istəyirsə, onu da yazır və çap etdirir. Bu nə üçün süngü ilə qarşılanmalıdır və Anar buna görə niyə qınaq obyektinə çevrilməlidir? Əgər çap olunan o əsər zəifdirsə, sönükdürsə, süngünü həmin bədii zəifliyə, sönüklüyə qarşı çevirməliyik, Anara qarşı yox. Bir anlıq təsəvvür edirəm ki, misal üçün, uzağa getməyək, elə qardaş Türkiyə yazıçıları belə bir vəziyyətə, yəni üç böyük dərgilərinin («Azərbaycan», «Ulduz» və «Literaturnıy Azerbaydjan» kimi) və bir də qəzetlərinin dövlətin büdcəsi hesabına nəşr edilməsinə nail olublar. Onda nə olar? «Qrev yaparlar» ki, etiraz edirik? Müasir türk ədəbi prosesinə, ədəbi həyatına az-çox bələd olan bir adam kimi, sizi inandırıram ki, bu, onlar üçün möcüzəyə bərabər bir ərmağan olar ki, ədəbi nəsillər dəyişdikcə də sevinci keçib-getməz. Ona görə də, Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinin bu sahədəki fəaliyyətini və nailiyyətini mən çox yüksək qiymətləndirirəm.

MÜXBİR. Elçin müəllim, belə çıxır ki, siz Yazıçılar Birliyinin bugünkü fəaliyyətindən tam razısınız. Belədir?

ELÇİN. Xeyr, belə deyil. Kim deyir ki, Yazıçılar Birliyində hər şey idealdır? Mənim də, təbii ki, arzularım, istəklərim, iradlarım var. Başqa cür necə ola bilər? Hərgah biz istəyiriksə Yazıçılar Birliyi canlı bir orqanizmə çevrilsin, o zaman ideal bir şey ola bilməz və əslində, o durğun ideal heç lazım da deyil. Amma bir var bütün bu istəkləri, iradları inkar naminə bildirəsən, qarayaxma ilə məşğul olasan, hansısa şəxsi məqsədlərinə görə Anarı, ya Fikrəti «vurasan», bir də var ki, onlara Yazıçılar Birliyindəki fəa-

liyyətlərinə kömək etmək, dəstək vermək naminə tənqidi mülahizələrini bildirəsən.

MÜXBİR. Maraqlıdır, misal üçün, şəxsən sizin, Elçinin, Yazıçılar Birliyi ilə bağlı hansı istəyiniz, iradınız var?

ELÇİN. İlk növbədə mən istərdim ki, Yazıçılar Birliyi daha artıq bir həvəs, şövq, ehtirasla Azərbaycan ədəbi prosesinin mərkəzinə çevrilsin. Sağlam ədəbi mübahisələr, ədəbiyyat təəssübkeşliyi, qrafomanlığa qarşı mübarizə, ədəbi prosesə prinsipial müdaxilə üçün orada daha münbit zəmin yaransın. Prezentasiyalar, yubileylər, ədəbi görüşlər, xatirə gecələri, məhdud maddi imkanlar daxilində cürbəcür mükafatların təsis edilməsi – bunlar da, şübhəsiz, ədəbi həyatın göstəriciləridir və vacibdir, amma bunlar heç vəchlə müasir ədəbiyyatın yaradıcılıq problemlərini qaldıran sanballı məruzələri, dialoqları, debatları əvəz etməməlidir. Aləmi bürümüş qrafomanlıq nümunələrinin konkret adını çəkə-çəkə, konkret və əsaslandırılmış mülahizələr bildirə-bildirə ədəbiyyatın saflığı naminə daha artıq bir enerji ilə ədəbiyyat mücadiləsinə bu gün, olsun ki, əvvəlki dövrlərdən də artıq dərəcədə bir ehtiyac var. Yaxud, Birliyin üzvlərinin həddən artıq artması məsələsi. Belə getsə, bütün Azərbaycan Yazıçılar Birliyinin üzvü olacaq. Yazıçılar Birliyinin nizamnaməsi buna imkan verir. Növbəti qurultayda Birliyin nizamnaməsində mütləq dəyişiklik eləmək lazımdır ki, bu kütləvi axının qarşısını almaq mümkün olsun. Eyni zamanda, elə bilirəm ki, qurultayda xüsusi meyarlar müəyyənləşdirib Attestasiya Komissiyası yaratmaq lazımdır ki, qurultaydan sonra həmin Komissiya qəbul olunmuş meyarlara əsasən Birliyin bütün üzvlərini attestasiyadan keçirsin və ən azı, yarıdan çoxunu üzvlükdən azad edə bilsin. Mən istərdim ki, Yazıçılar Birliyində gənclər ilə daha isti, daha hərarətli bir münasibət yaransın, qarşılıqlı anlaşma daha artıq olsun. Görürsünüz, nə qədər arzu və istəyim var? Nəhəng sovet imperiyasının tar-mar olması nəticəsində yaranmış kataklizm mərhələsi Yazıçılar Birliyində artıq geridə qalıb. Birlik yenə ayaq üstə qalxıb və bu çox gözəldir. Bu «ayağadurma» prosesində Anarın da, Fikrətin də, digər qələm dostlarımızın da xidmətləri böyükdür və mən tamam əminəm ki, Anar başda olmaqla, Yazıçılar Birliyinin indiki rəhbərliyi dediyim o işlərin də öhdəsindən gələ bilər və biz qurultayda da, qurultaydan sonra da onlara bu istiqamətdə kömək etməliyik. Əslində, biz şəxsi olaraq onlara yox, özümüzə, ədəbiyyatımıza kömək etmiş olu-

ruq. Yazıçılar Birliyi, aydın məsələdir, yalnız oranın rəhbərliyinin yox, bizim hamımızın doğma bir yeri, doğma ocağıdır. Anarı da, Fikrəti də, o biri dostlarımızı da Birliyin rəhbərliyinə biz seçmişik və şəxsən mən növbəti qurultayda yenə də onlara səs verəcəyəm.

MÜXBİR. Elçin müəllim, siz Yazıçılar Birliyinin rəhbərlərinə konkret olaraq münasibət bildirdiniz. Bəs, ədəbi orqanlar?

ELÇİN. Yaxşı, gəlin, həmin redaksiyalara da nəzər salaq. İntiqam Qasımzadəni mən 45 ildir yaxından tanıyıram və bu müddət ərzində İntiqamın ədəbiyyatdan başqa bir marağını görməmişəm və həmişə də təəssüf etmişəm ki, o yaradıcı potensialından az istifadə edir. Ancaq nə olsun? Əgər sən ədəbiyyatı sevirsənsə, hiss edirsən, başa düşürsənsə, sənin yaxşı ədəbiyyat zövqün, redaktə bacarığın varsa, redaktor olmaqdan ötrü, gərək mütləq roman, ya poema yazmalısan? Çox roman və poema müəllifləri var ki, roman və poemaları kimi, özlərinin də ədəbiyyata heç bir dəxli yoxdur. Ələkbər Salahzadə elitar bir şairdir və hərgah «sənət sənət üçündür» prinsipinə kiflənmiş sovet təfəkkürü ilə yanaşmasaq, Ələkbərin bütün yaradıcılığı həmin sənət şüarının Azərbaycan poeziyasında əyani və layiqli nümunəsidir. Ayaz Vəfalı, ya Mansur Vəkilov necə, ədəbiyyat adamları, ədəbiyyat fədailəri deyil? Prinsipial əhəmiyyətli bir cəhəti xüsusi vurğulamaq istəyirəm: Anar da, Fikrət Qoca da, Çingiz Abdullayev, Arif Əmrahoğlu da, Ayaz Vəfalı, Ələkbər Salahzadə, İntiqam Qasımzadə, Mansur Vəkilov da hakim sovet ideologiyasının və ümumiyyətlə, SİSTEMİN sınağından üzüağ çıxmış adamlardır, bu isə, çox böyük bir üstünlükdür. Mən 40-45 il ərzində bu adamların elə bir hərəkətini görməmişəm, elə bir sözünü-söhbətini eşitməmişəm ki, buna görə onların hansısa bu gün ədəbiyyatın qarşısında, daha geniş götürsəm, xalqın qarşısında xəcalət çəksin, utansın. Bu, az şeydir? Çox böyük şeydir! Bu adamların həm yaradıcılıqlarına görə, həm də şəxsiyyətlərinə, fəaliyyətlərinə, xidmətlərinə görə mənəvi haqları var. O mənəvi haqq ki, onlara qarşı iddia irəli sürənlərin bir çoxunda yoxdur.

MÜXBİR. Siz redaktorların şəxsi keyfiyyətlərindən danışdınız. Bəs, bu ədəbi orqanların səviyyəsi?

ELÇİN. O səviyyə ilk növbədə bizim yazılarımızın – romanlarımızın, hekayələrimizin, şerlərimizin, məqalələrimizin səviyyəsindən asılıdır. Gərək biz yaxşı yazaq ki, onlar da yaxşı əsərlər çap eləsinlər. Siz mənə bir istedadlı əsər göstərin ki, Yazıçılar

Birliyinin ədəbi orqanları onların çapından imtina edib? Güman edirəm ki, belə bir əsər tapa bilməzsiniz.

MÜXBİR. Belə nəticə çıxarmaq olarmı ki, bu ədəbi orqanların səviyyəsi sizin kimi tələbkar bir sənətkarı qane edir?

ELÇİN. Əvvəla, həmin ədəbi orqanlara diferensial yanaşmaq lazımdır, hamısını eyni xətkeş boyu düzmək lazım deyil. Mən bayaq sağlam ədəbiyyat mücadiləsi barədə dedim və o dediklərim tam şəkildə, bəlkə də daha artıq dərəcədə ədəbi orqanlara aiddir. Baş ağrısından çəkinmək lazım deyil və cani-dildən o ədəbiyyat mücadiləsinə girişmək lazımdır. Baş ağrısından çəkinən redaktor, kənarlaşıb öz yerini başqasına – baş ağrısından çəkinməyənə təhvil verməlidir. Dediyim kontekstdə baş ağrısı ilə redaktorluq – sinonim məfhumlardır. Yazıçılar Birliyinin mətbuat orqanları həmişə olduğu kimi, bu gün də dedi-qodunun, obıvatel giley-güzarının fövqündə dayanmalıdır və dayanır da. «Ədəbiyyat qəzeti»nə də, «Azərbaycan», «Ulduz», «Literaturnıy Azerbaydjan» jurnallarına da cürbəcür yaradıcılıq iradları tutmaq olar, amma onların hamısı abırlı mətbuat orqanlarıdır və mən «abırlı» sözünü burada dedi-qodudan, obıvatel hissiyyatından, qarayaxmadan, böhtançılıqdan uzaqlıq mənasında işlədirəm. Yəqin siz də mənimlə razı olarsınız ki, bu cəhət müasir mətbuatımızın ümumi panoramında az əhəmiyyətli bir şey deyil. Amma, yeri düşmüşkən, keçən ayın bir istisnasını qeyd etməsəm, səmimi olmaram. Doğrusu, bu yaxınlarda, bizim istedadlı yazıçımız, dostum Məmməd Orucun «Ədəbiyyat qəzeti»ndə (20 iyun, 2003) Əsəd Cahangir haqqında yazdığı «Susmaq qızıl olsa da...» adlı (bilmirəm bu yazının janrını necə adlandırım? məqalə? məqalə deyil; esse? esse deyil; nəsə epistolyar bir şey? belə də deyil) yazı mənim üçün gözlənilməz və xoşagəlməz oldu. Məişət intriqaları, məişət söz-söhbəti, qeybət bədii əsərlərin mövzusu ola bilər və olur, amma belə bir söz-söhbət hansısa «tərbiyəvi nəsihət publisistikası»nın mövzusuna çevrilirsə – bu çox pisdir və həmin yazı onun üçün mənə gözlənilməz göründü ki, mən onu Məmməd Orucun qələminə – istedadlı qələmə! – yaraşdıra bilmədim (əslində, rəva bilmədim!). Əsəd müasir tənqidimizin istedadlı, zəhmətkeş, axtarışlarda olan, narahat, yazmaq, söz demək enerjisi ilə yaşayan nümayəndələrindən biridir və onunla polemika da tənqidimizin faktına çevrilə bilər və belə də olmalıdır, amma Məmmədin yazısının belə bir polemikaya dəxli yoxdur, bu – Makarenko pedaqogikası

ənənələrini xatırladır və mən istəməzdim ki, Məmməd Oruc kimi, mənim uzun illərdən bəri yaradıcılığını maraqla izlədiyim görkəmli yazıçımızın qələmi belə səviyyəli «mənəvi paklık təəssübkeşliyi» ilə məşğul olsun: Əsəd Cahangir mənə belə dedi, şahidlərim var, amma qabaqlar belə deyirdi və s. Əgər Əsəd sənin qəbul etmədiyin bir söz deyirsə, elə həmin şahidlərin yanındaca onun cavabını ver, ürəyini boşalt, qurtarsın-getsin, yoxsa ki, adamın yanında çox şey deyirlər, bunu götürüb yazarlar? Qəribə bir mənzərədir: bu yazı üç qələm əhli ilə bağlıdır – Məmməd Oruc, Əsəd Cahangir və kitabı haqqında, özü də yaxşı kitabı haqqında söhbət gedən Azər Turan – üçü də, şübhəsiz ki, istedadlı ədəbiyyat adamlarıdır, amma yazının təəssüratı beləcə xoşagəlməzdir... Güman edirəm ki, Məmməd hansısa məqamda hissə qapılıb, impulsiv olaraq qələmə əl atıb və bu yazı Məmmədə layiq olmadığı kimi, mənim fikrimcə, belə bir «ictimai müdafiəyə» Anarın da qəti surətdə ehtiyacı yoxdur, çünki bu, müdafiə deyil, dedi-qodu üçün münbit zəmin yarada biləcək bir impulsivlikdir. Ancaq xoşbəxtlikdən, bu yazı həm Məmmədin indiyə qədər yazdıqlarının, həm də «Ədəbiyyat qəzeti»ndə çap olunan materialların arasında yalnız istisnadır.

MÜXBİR. Elçin müəllim, yazıçıların qarşıdan gələn qurultayı barədə nə deyə bilərsiniz? Qurultaydan nə gözləyirsiniz?

ELÇİN. Əvvəla, bayaq dediyim kimi, qurultayla bağlı ajiotaj yaratmaq lazım deyil. Bu mövzunu gizli, ya açıq şəkildə Yazıçılar Birliyində sədr olmaq uğrunda mübarizə müstəvisinə gətirib mətbuat səhifələrinə çıxarmaq heç kimə hörmət gətirməz. Bilirsiniz yadıma nə düşdü? Məşhur teatr səhnəsindən sonra Hamlet artistlərdən birindən fleytanı alıb Gildensternə verir ki, al, çal. Gildenstern təəccüblə cavab verir ki, mən fleyta çala bilmirəm. Hamlet deyir: sən adicə çalğı alətini çala bilmirsən, bəs, niyə mənim qəlbimi öz havanla çalmaq istəyirsən? İndi bilirsiz, adicə fleytanı çala bilməyənlər Yazıçılar Birliyində orkestr idarə etmək istəyirlər. Yazıçılar Birliyinin sədri var və elə bilirəm ki, ondan yaxşı sədr də tapmayacağıq. Və mən istəyirəm ki, qurultay işgüzar keçsin, prinsipial keçsin, hamıya ürəyini boşaltmaq üçün söz verilsin və qeyri-obyektiv olanın, hədyan danışanın da birdəfəlik cavabını verək. Burada ehtiyat ediləcək bir şey yoxdur. Bir sözlə, məruzələrdən tutmuş çıxışlaracan yaxşı bir ədəbiyyat söhbəti aparaq və

beşillik ədəbi təsərrüfata prinsipial qiymət verək. Yazıçılar Birliyi də yaşasın və daha da effektli fəaliyyət göstərsin.

MÜXBİR. Onda söz verin ki, qurultaydan sonra, həmin qurultay haqqında müsahibə verəcəksiniz.

ELÇİN. Söz verirəm.

MÜXBİR. Elçin müəllim, müsahibə verdiyinizə görə təşəkkür edirəm.

ELÇİN. Siz də sağ olun.

*2003*

## «SARA XATUN» JURNALININ SORĞUSU

– Sevdiyiniz dünya yazarları?

– Bu suala mənim cavabımda hec bir originallıq yoxdur. Mənim üçün ilk üçlük: Servantes, Şekspir, Tolstoy.

– Azərbaycan ədəbiyyatının ən parlaq nümayəndələri?

– Yəqin yenə original deyiləm. Ancaq indi ilk üçlük yox, ilk dördlük: Füzuli, Mirzə Fətəli, Mirzə Cəlil və Sabir.

– İşıq üzü görmüş ilk əsəriniz?

– «O inanırdı» adlı hekayə. 5 iyul 1959-cu il, «Azərbaycan gəncləri» qəzeti. O yay günü həmişəlik hafizəmə hopub. Onda 9-cu sinfi bitirib 10-cu sinfə keçmişdim.

– Həyatınızda yadda qalan ən əlamətdar hadisə?

– Yəqin haçansa «Xatirələr» yazacağam. Maraqlanan oxucular, Allah qoysa, onda bu sualın cavabını oxuyarlar. Gəlin, indidən onların marağını azaltmayaq.

– Böyük sevgiyə inanırsızmı?

– Əgər sizin dediyiniz həmin böyük sevgi olmasaydı, həyat hardan peyda olacaqdı?

– Xoşladığınız mətbəx, sevdiyiniz yemək?

– Azərbaycan mətbəxi, balıq kababı, qızardılmış balıq.

– Dünyaya yenidən qayıtsaydız, indiki həyatınızdan fərqli bir ömür yaşayardınız, yoxsa...

– Hər halda, fərqli bir ömür yaşamaq da, indiki ömrüm kimi, mənim üçün çox maraqlı olardı...

– Elçin ilk növbədə kimdir: yazıcı, dövlət işçisi, gözəl ailə başçısı?

– Bu sualın cavabında mənim üçün mübahisəli bir şey yoxdur: 1-ci ailə, 2-ci yazıçı, 3-cü işçi.

– Yaradıcılıq planınızı yəqin ki, açıqlamayacaqsınız?

– Açıqlamalar verməkdənsə, əlbəttə, əsərin özünü ortaya qoymaq yaxşı olar.

– Xanımlarımıza sözünüz, arzunuz?

– Xoşbəxt, sağlam və əlbəttə, həmişə gözəl olsunlar!

*2003*

## E L Ç İ N: «YAZIÇILARIN QURULTAYI ƏDƏBİYYATIMIZA VƏ ƏDƏBİ PROSESƏ SAHİB ÇIXMALIDIR»

MÜXBİR. Elçin müəllim, Siz həmişə ədəbi prosesi diqqətlə izləmiş, bu prosesdə həm sənətkar, həm də bir tənqidçi kimi aktiv iştirak etmiş, cəsarətli söz deməkdən heç vaxt çəkinməmisiniz. Təsadüfi deyil ki, Sizin məqalələriniz, müsahibələriniz yüksək səviyyəsinə görə hər zaman böyük maraqla qarşılanmış, geniş ədəbi rezonans doğurmuşdur. Budur, 2003-cü il də artıq tarixə çevrildi. Ötən ilin ədəbi yekunları, ümumiyyətlə, ədəbi proseslə, tənqidimizin vəziyyəti, yazıçıların qarşıdan gələn XI qurultayı ilə bağlı Sizin mülahizələrinizi dinləmək, fikirlərinizi eşitmək çox maraqlı olardı. İlk olaraq soruşmaq istəyirəm: ötən ili Siz necə xatırlayacaqsınız?

ELÇİN. Əvvəla dediyiniz sözlərə görə təşəkkürümü bildirirəm. Ötən ilə gəldikdə isə, əsas xatirə, əlbəttə, kədərlidir. 2003-cü il Azərbaycan tarixində Heydər Əliyevin haqq dünyasına köçdüyü il kimi qalacaqdır. Heydər Əliyevin ədəbiyyata, mədəniyyətə münasibəti barədə, elə bilirəm ki, danışmağa ehtiyac yoxdur, çünki hər şey göz önündədir. Tək sənət adamları yox, ümumiyyətlə, xalqımız bu ölümlə bağlı hansı bir sarsıntı içində idi – bunu dekabrın 15-dəki dəfn mərasimi deyiləcək bütün sözlərdən artıq göstərdi. Milyonlarla insan Heydər Əliyevi son mənzilə yola saldı. Bu, insan hisslərinin təbii bir ifadəsi idi. İnsanlar hansı bir iztirabla tabutun ardınca gedirdi – bu, heç zaman mənim yadımdan çıxmayacaq. Sadə insanların daxilində böyük bir borc hissi var idi. Mən insanların arasından Fəxri Xiyabana keçə bilmədim. Nə qədər nazirlər, yüksək vəzifəli adamlar Fəxri Xiyabandan kənarda qaldı. Yəqin elə bu da simvolikdir ki, vəzifəli-vəzifəsiz, bütün xalq Heydər Əliyevi torpağa tapşırdı və bütün tərbiyəsiz yazılara, onun xəstəliyi ilə bağlı mətbuat səhifələrindəki əxlaqsız və səviyyəsiz siyasi alverə münasibətini bildirdi.

MÜXBİR. Elçin müəllim, Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, qoyulacaq heykəlin yeri ilə bağlı müxtəlif təkliflər səslənir. Bu barədə Sizin fikrinizi bilmək maraqlı olardı.

ELÇİN. Əlbəttə, Heydər Əliyevin heykəlləri də ucaldılacaq, onun adı müxtəlif müəssisələrə veriləcək və bütün bunlar onun şəxsiyyətinin miqyası müqabilində çox təbiidir. Bilirsiniz ki, Prezident İlham Əliyevin sərəncamı ilə xüsusi Komissiya yaradılıb və son sözü də o Komissiya deyəcək. Mən də bir vətəndaş kimi, bir yazıçı, son on iki ildə Heydər Əliyevi bilavasitə müşahidə edən, onunla bilavasitə təmasda olan bir adam kimi, bu barədə çox düşünürəm. Ümumiyyətlə, dekabrın 12-dən sonra elə bir gün olmayıb ki, mən Heydər Əliyevin şəxsiyyəti barədə düşünməyim, onunla bağlı hadisələri, epizodları, situasiyaları xatırlamayım və mən sizə demək istəyirəm: bizim Heydər Əliyevə ən böyük abidəmiz Qarabağı qaytarmağımız, Azərbaycanın ərazi bütövlüyünü təmin etməyimiz olacaq. O zaman Heydər Əliyevin ruhu heç zaman olmayacaq dərəcədə şad olacaq. Prezident İlham Əliyevin bəyanatları, nümayiş etdirdiyi mövqe şəxsən məndə inam yaradır ki, bütün böyük çətinliklərə baxmayaraq, o gün uzaqda deyil.

MÜXBİR. İnşallah!

ELÇİN. Mənim böyük istəklərimdən biri Azərbaycan müstəqilliyi uğrundakı mücadilədə, aparılan işdə xüsusən son on iki ildə gördüklərim, iştirakçısı olduqlarım haqqında əhatəli sənədli bir kitab yazmaqdır və Allah qismət eləsə mən o ktabı mütləq yazacağam. O kitabın əsas qəhrəmanı, əlbəttə, Heydər Əliyev olacaq və mən bu unikal şəxsiyyətin psixoloji portretini verməyə çalışacağam. Bu, mənim qələm qarşısında çox mühüm bir borcumdur. Sağlıq olsun... Qəribədir, 2002-ci ilin 12 dekabrı da mənim üçün ağrılı-acılı bir gün olmuşdu. Yadınıza gəlirsə, həmin gün əziz və unudulmaz Cabir Novruz vəfat etdi. Mən 1975-ci ildən ta 1987-ci ilə kimi Yazıçılar İttifaqında Cabirlə bir yerdə işləmişəm və bu 12 il ərzində onun simasında gözəl bir insanla gündəlik təmasda olmuşam. Onun ölümündən sonra oğlu Müşfiqin təqdimatı ilə keçən il çap olunmuş son şerlərini, «Xalça əfsanəsi» poemasını bütün içimə dolmuş bir kədər hissi ilə oxudum. Son şerindən birində tənhalıqdan yazır, «hər gün gəmirir varlığımı, çeynəyir hər gün»– deyir. Bu, əbədi sənətkar tənhalığıdı...

MÜXBİR. Bəs ötən il Sizin şəxsi həyatınızda hansı xoş hadisə baş verdi?

ELÇİN. Bilirsiniz, keçən ildə həm mənim şəxsi həyatımda, həm yaradıcılığımda, həm də, ümumiyyətlə, ictimai həyatımızda, əlbəttə, xoş hadisələr də oldu, amma bütün son on dörd-on beş il-

də olduğu kimi, bu xoş hadisələrin də fonunda bir Qarabağ kədəri, Qarabağ ağrısı-acısı var. Başqa cür mümkün deyil... Bu kədər hər bir azərbaycanlı kimi, mənim içimdə də genlərin kədəridir...

MÜXBİR. Bütün bunlarla bərabər, Elçin müəllim, keçən il həm də Sizin 60 illik yubiley ilinizdir. Düzdür, Siz yubiley gecəsi keçirmədiniz, lakin mətbuat müasir ədəbiyyatımız üçün önəmli olan bu hadisəni geniş işıqlandırdı. Siz ən yüksək mükafatla – İstiqlal ordeni ilə təltif edildiniz, Türkiyə universitetlərinin fəxri doktoru seçildiniz, müxtəlif dillərdə yeni kitablarınız nəşr edildi. Mətbuat bütün bunlar barədə məlumat verirdi.

ELÇİN. Elədir, amma çox səmimi şəkildə deyirəm ki, o 60 illik də mənim üçün bir az qüssəli-təsirli hadisə idi. Bilirsiniz, 60 rəqəminin içində nə təntənə olursa, olsun, bir qüssə də var. Amma sonra mətbuatda gənclik dostum və həmkarım Şamil Salmanovun gözlənilməz 70 illiyini görəndə, bir az özümə təskinlik verdim ki, hər halda 60, 70 deyil... Arzu edirəm ki, Şamil də 100 illiyini keçirəndə Mahmud Eyvazovu yadına salıb təskinlik tapsın. Orası da var ki, Şamil 70-də də eyni gənclik həvəsi ilə ədəbiyyata bağlı olan görkəmli bir qələm sahibimizdir və mənim üçün də həmişə Nizami İnstitutunda bir yerdə işlədiyimiz 30 yaşlı Şamildir.

MÜXBİR. Elçin müəllim, keçən ilin ədəbi hadisələri barədə nə deyə bilərsiz?

ELÇİN. Mənim üçün keçən ilin ən mühüm ədəbi hadisəsi Misirin Xədiviyyə kitabxanasında Nizami Gəncəvinin Azərbaycan-türk dilində «Divan»ının tapılması ehtimalıdır. Bu ehtimal özünü tam şəkildə doğrultsa, əlbəttə, dünya mədəniyyəti tarixində çox ciddi hadisəyə çevriləcək. Bu, elə milli-mənəvi, hətta mən deyərdim, milli-siyasi miqyaslı bir ehtimaldır ki, onu dərhal, qeydsiz-şərtsiz qəbul etmək olmaz, ədəbiyyatşünasların, dilçilərin, şərqşünasların, tarixçilərin, beynəlxalq səviyyəli ekspertlərin araşdırmaları, elmi texnalogiyanın müdaxiləsi vacibdir və mən inanıram ki, bundan sonra tutarlı elmi nəticələr əldə ediləcək. Bir misal çəkmək istəyirəm: bilirsiniz ki, «Sakit Don»un Mixail Şoloxova mənsub olub-olmaması uzun illərin şayiə, Sovet İttifaqı dağılandan sonra isə mübahisə mövzusu idi. Rus həmkarlarımız məhz müasir elmi ekspertiza nəticəsində bu məsələni birdəfəlik həll etdi – bəli, «Sakit Don» Şoloxov qələminə məxsusdur. Az qala min il bundan əvvəl Nizami Gəncəvinin Azərbaycan-türk dilin-

də şerlər yazması ehtimalı isə bəşəri miqyasına, tarixi-estetik əhəmiyyətinə görə, əlbəttə, daha böyük bir məsələdir və bu məsələ həll olunmalıdır. Düzdü, keçən il Nizami Xudiyevin, Azadə Rüstəmovanın dərc etdirdikləri məqalələr göstərir ki, bu istiqamətdə iş artıq başlayıb, amma bu mövzunun tələb etdiyi aktivliyi, şövqü, həvəsi hələ ki, mən bizim mətbuatda görmürəm. Məsələn, mənim üçün maraqlıdır, iki-üç il bundan əvvəl Nizami Gəncəvi haqqında səviyyəli, analitik təfəkkür məhsulu kimi bir monoqrafiya yazmış (yadıma gəlir, o monoqrafiya barədə Şamil Salmanov da yaxşı bir məqalə yazmışdı) Teymur Kərimli nə üçün bu barədə bir söz demir? Mətbuatda oxudum ki, Nizami adına Ədəbiyyat İnstitutunda bu ehtimalla bağlı xüsusi bir komissiya yaradılıb, çox gözəl, o komissiyanın nüfuzlu rəyini səbrsizliklə gözləyənlərdən biri də mənəm, amma bu, heç vəchlə o demək deyil ki, bizim Teymur kimi ixtisaslı nizamişünaslarımız mətbuatda sussunlar.

MÜXBİR. Keçən il həm Yazıçılar Birliyinin mətbu orqanlarında, həm digər qəzet-jurnallarda bir çox bədii əsərlər dərc edildi. Maraqlıdır, Elçin kimi tələbkar bir oxucu bu barədə nə deyə bilər?

ELÇİN. Bəli, çox çap olundu, amma təəssüf ki, sırf bədiilik baxımından uğurlarımızın da o çoxluğun müqabilində çox olduğunu deyə bilmərik... Uğurlar var, əlbəttə... Misal üçün, Ələkbər Salahzadənin «Azərbaycan» jurnalında çap olunmuş «Ötən əsrin son anları...» silsilə şerlərini mən keçən ilin uğurlu, yaddaqalan poetik hadisəsi hesab edirəm. Hətta onun bir misrası, özü də sadə bir misrası iki-üç aydı tez-tez yadıma düşür: «Ay aman, nə erkən axşamladı gün...» Ələkbərdə hisslərlə fikrin bəzən sadə, çox zaman isə mürəkkəb, amma həmişə də üzvi bir vəhdəti var. Ələkbər, bu sözün yaxşı mənasında, çətin şairdir. O, bizim müasir poeziyamızın bir qolunun – elitar poeziyamızın çox sanballı bir nümayəndəsidir. Bizim istedadlı və zəhmətkeş tənqidçimiz Əsəd Cahangirdə sənətkara dəqiq xarakteristika vermək qabliyyəti var və o keçən ilki məqalələrindən birində Vaqif Cəbrayılzadəni «divanə mütəfəkkir» adlandırır. Bu kontekstdə şairin «divanə mütəfəkkir» olması üçün yalnız istedad, lap güclü istedad belə, kifayət deyil. «Divanə mütəfəkkir» ucalığına qalxmaq üçün, dünyanın dərkolunmazlığını dərk etmək və yalnız bundan sonra yaradana (inkoqnito yaradana!) tapınmaq lazımdır. Hər halda, mən belə hiss edirəm və Vaqifin keçən il mətbuatda çap etdirdiyi şerlərini oxuyan-

da da mən həmin hissləri keçirdim. Bu mənada «divanə mütəfəkkirlik» yüksək sənətkarlıq mərtəbəsidir. Mən belə bir «divanə mütəfəkkirliyini» Rüstəm Behrudinin də keçən il dərc etdirdiyi şerlərində hiss etdim. Amma Rüstəmin «divanə mütəfəkkirliyi» Vaqif kimi, «tənha aşiq» divanəliyi deyil, daha artıq dərəcədə – və parodoks da bundadır! – «tənha vətəndaş» divanəliyidir. Vətəndaşlıq məfhumu ilə mənim dediyim o «dünya dərkolunmazlığının dərki» arasında bir uyuşmazlıq var və Rüstəm poeziyasının da cazibəsi elə uyuşmazlıqdadır. Bilirsiz, mənim üçün əsl ədəbiyyat – istəyir poeziya olsun, istəyir proza – deyilməyənin deyiləndən artıq olmasındadır. Əlbəttə, birbaşa, müstəqim deyilmiş söz də təsir edir. Misal üçün, Abdulla Faruqun keçən il «Azərbaycan» jurnalında dərc edilmiş «Gündəlik»ləri, deyə bilmərəm ki, bu janrın gözəl nümunəsidir, amma orada onun hər gün nahar pulu tapmaq qayğısı və bunu səliqə-səhmanla gündəliyində yazması mənə təsir etdi. Ancaq bu, sənədli ədəbiyyatdır. Bədii ədəbiyyatın isə missiyası başqadır. Bəzən əsəri oxuyursan, istedad, bədii söz demək cəhdini görürsən, amma səviyyə, dünyagörüşü, fikir yoxdur. Bəzən də əksinə, səviyyə var, dünyagörüşü də genişdir, fikir də var, amma bədiilik yoxdur.

MÜXBİR. Keçən il Sizin üçün sürprizlər oldumu?

ELÇİN. Sürprizlər? Oldu, əlbəttə, yaxşısı da oldu, pisi də... Yaxşı ilə pis də qoşa addımlayır axı... Bəzi qələm adamlarının namərdliyi oldu, amma bilmirəm, bunu sürpriz hesab etmək olar, ya yox?.. Mən belə şeyləri görə-görə gəlmişəm... Ədəbiyyatla bağlı yaxşı sürprizlərə isə bir nümunə fikrimə gəldi, deyim: Məhərrəm Qasımlını mən istedadlı bir ədəbiyyatşünas, folkloru müasir elmi-nəzəri səviyyədə araşdırmağı bacaran bir alim kimi tanıyırdım, xüsusən onun «Aşıq sənəti» monoqrafiyasını mən bizim folklorşünaslığımızda sanballı bir tədqiqat əsəri hesab edirəm və vaxtıyla bu barədə yazmışdım. Burası da tədqiqatçı-alim ciddiliyindən və məsuliyyətindən xəbər verir ki, Məhərrəm həmin monoqrafiya üzərindəki işini davam etdirərək «Ozan-aşıq sənəti» adlı elmi siqləti daha ağır çəkili olan monoqrafiya nəşr etdirdi. Onun «Şah İsmayıl Xətainin poeziyası» monoqrafiyasını da mən Xətai şerinin qaynaqlarını folklorda axtarıb üzə çıxarmaq baxımından əhəmiyyətli bir əsər hesab edirəm. Ötən il isə mətbuatda Məhərrəmin şerlərini oxudum və mənə məlum oldu ki, o, həm də istedadlı bir şairdir. Məhərrəm Qasımlı ənənəvi onbirliklə də yazır, destruktiv

formada da yazır, amma həmişə təbiidir və görünür, həmin təbiilik də folklordan gəlir. Yeri düşmüşkən deyim ki, mən yeni nəfəsi bizim ədəbiyyatşünaslıqda tənqidimizə nisbətən daha artıq hiss edirəm. Misal üçün, Rafiq Manafoğlunun «Hötenin «Qərb-Şərq Divanı»nda İslam mədəniyyəti tədqiqatında mən mövzuya münasibətdə steriotip ideoloji çərçivələrdən kənara çıxa bilmiş bir ədəbi-nəzəri azadlıq, sərbəstlik gördüm. Bu mənada Bəkir Nəbiyevin ədəbiyyatşünaslığımızın bugünkü və sabahkı yaradıcılıq mənzərəsini əks etdirən və «Ədəbiyyat qəzeti»nin iki nömrəsində çap olunmuş «Yeni vəzifələr qarşısında» adlı məqaləsi, doğrusunu deyim ki, məndə optimist bir ovqat yaratdı. Birinci, ona görə ki, elə bu məqalənin timsalında o «yeni nəfəs»i hiss etmək və qiymətləndirmək, istiqaməti ona tərəf tuşlamaq əzmi aydın görünür və nəzərə alsaq ki, Bəkir müəllim əsas ədəbi elmi tədqiqat mərkəzimizin – Nizami adına Ədəbiyyat İnstitutunun direktorudur, o zaman ciddi bir faktor kimi bu cəhətin əhəmiyyəti daha da artır. İkinci də ona görə ki, artıq yaradıcılıq prosesində olan mövzular həmin «yeni nəfəs» üçün münbit zəmin yaranacağından xəbər verir. Fikir verin: «Kitabi-Dədə Qorqud»da dünya modeli», «Mifoloji rəvayətlərin strukturu», «Füyuzat» ədəbi məktəbi», «Məhəmməd Hadinin poetikası», «Əli bəy Hüseynzadənin ədəbi-estetik görüşləri», «Bədii obrazın tipologiyası» və s. Bu mövzular həm 70 il ərzində vulqar sosiologizm mövqeyindən qeyri-obyektiv işıqlandırılmış və yaxud da ki, heç işıqlandırılmamış tədqiq obyektlərinə münasibətdə, həm də nəzəriyyədə yeni və yaxın keçmişin hələ də inersiya ilə davam edən ideoloji steriotiplərindən uzaq söz deməyə, məncə, yaxşı imkan verir. Əlbəttə, əsas məsələ necə yazmaqdadı, amma yaxşı mövzu özü də yaxşı yazmağa sövq edən bir stimuldur.

MÜXBİR. Elçin müəllim, Siz «yeni nəfəs» dedikdə nəyi nəzərdə tutursunuz?

ELÇİN. Dediyim kontekstdə, mənim üçün «yeni nəfəs» – sosrealizmin yalançı prinsiplərinə əsaslanan və 70 ildə beyinlərdə kirəcləşmiş ideoloji doqmaların çərçivələrindən çıxmaq bacarığındadır. «Yeni nəfəs» istedadla bağlı olan, daha doğrusu, istedad anlayışının daxili kütləsini təşkil edən cəhətlərdən biridir və bu gün bizim üçün, olsun ki, birincisidir. Bu yaxınlarda mən Nizaməddin Şəmsizadənin Əli Nazim haqqındakı monoqrafiyasını oxudum. Bu əsər 20-25 il bundan əvvəl – həmin sosrealizm doğ-

malarının sovet ədəbiyyatşünaslığında hökmranlıq etdiyi bir dövrdə yazılıb, amma bir sıra vulqar sosiologizm təsirlərinə, hətta bəzən Marksın və Engelsin estetik görüşlərinə istinadlara baxmayaraq, bu qədər illərdən sonra da o «yeni nəfəs»i Nizaməddinin bu monoqrafiyasında hiss etmək, güman edirəm ki, çətin məsələ deyil, çünki söhbət istedadlı qələmdən gedir. Elə bu monoqrafiyanın özünün təcrübəsi sübut edir ki, «yeni nəfəs» güclü buxar kimi bir şeydir, nə qədər kip bağlayırsan, bağla, tıxacı nə qədər pərçim edirsən, et, bir yol tapıb çıxacaq.

MÜXBİR. Elçin müəllim, Siz bu «yeni nəfəs»i ədəbi prosesdə, tənqidimizdə necə görürsünüz?

ELÇİN. Mən ötən il də son 35 ildə olduğu kimi, ədəbi proses barədə, bilavasitə tənqidimiz haqqında az yazmadım və bu mövzu mənim üçün, indi dəbdə olan terminlə desəm, prioritet mövzudur. Bilirsiz, ədəbiyyat ilə antiədəbiyyat həmişə qoşa addımlayıb və həmişə də həqiqi ədəbiyyat azlıqda qalıb. Görünür, bu da sənətin təbiətinə, xarakterinə uyğun bir xüsusiyyətdir. Ancaq bu ədəbiyyat və antiədəbiyyat qarşıdurmasında ədəbiyyatın tənqidin timsalında güclü bir müttəfiqə, obyektiv və cəsarətli, savadlı və yüksək dünyagörüşlü bir müttəfiqə ehtiyacı var. Ədəbi proses nədir? Ədəbi proses ictimai fikrin formalaşdığı, hərgah belə demək olarsa, bir məkandır və bu məkanda aparıcı qüvvə tənqiddir. Amma nəzəri-estetik mənada antitənqid tənqidi üstələyəndə – ədəbiyyat arxa plana keçir, antiədəbiyyat isə ayaq tutub gedir. Afaq Məsud Bəsti Əlibəyli ilə müsahibəsində özünə xas olan (və şəxsən mənim çox qiymətləndirdiyim!) bir maksimalizm ilə deyir: «İstedadlı şairimiz Vaqif Cəbrayılzadənin son bir neçə silsiləsi qəzet-jurnal səhifələrindən elə-belə, görünmədən, sezilmədən, səssiz söz qatarı kimi, ilğım kimi ötüb keçirsə, bu təkrarsız, ilahi sətirlər yenə o «boşluğu» doldura bilmirsə, onda, mən üzr istəyirəm, bu, ədəbi boşluq yox, son ucu görünməyən qorxunc, qara boşluqdur...» Elə bilirəm ki, Afaq vəziyyəti çox da dramatikləşdirmir. Qara bir təskinlik yalnız ondadır ki, Afaqı qorxudan o «qara boşluq» postsovet məkanındakı başqa ölkələrin ədəbi prosesində də özünü göstərir. Yəqin bunun mühüm bir səbəbi də Sovet İttifaqı dağılandan sonra yaranmış kataklizmdədir. Baxın, artıq neçə müddətdir ki, «Literaturnaya qazeta» tənqid haqqında müzakirə açıb və həmin müzakirənin predmeti belə bir sualla müəyyən olunub: «Tənqid. Janrın intiharı?» Məşhur rus tənqidçiləri

nə deyir? Nədən narahatdırlar? Pavel Basinski yazır: «Mən sadə oxucuların gözlərinin içinə baxmağa utanıram.» Nə üçün? Çünki onun fikrinə görə Rusiyada tənqid yoxdur. O yazır: «Rus tənqidini Çubays yedi.» Deməli, Basinskinin fikrincə günahkar cəmiyyət, ictimai quruluşdur. Nikolay Pereyaslov müasir rus tənqidini «boşboğazlıq» («boltovnya») adlandırır, çünki ünvansızdır, loru dillə desək, dişsizdir. Aleksey Şoroxov rus tənqidinin bərbad vəziyyətinin səbəbini rus ədəbiyyatında görür, çünki bu ədəbiyyatda «ümumrus həyatının miqyası» məhv olub. Mənim ən maraqlı rus tənqidçilərindən biri hesab etdiyim İnna Rostovtseva tənqid etmək haqqını – tənqidin «əsas instikti» hesab edir və bu instiktin məhvə doğru getdiyindən qorxur. Sergey Klado isə bu fikirdədir ki, tənqidi öldürək, yaxud onun intihar etməsi mümkün deyil, sadəcə olaraq «yaxşı tənqid yalnız savad və ağıl tələb etmir, eyni zamanda, düşünmək üçün vaxt tələb edir.» Sonra Sergey Klado tamam maddi bir müstəviyə enərək yazır: «Supermarket dünyasında düşünmək üçün vaxtı hardan tapaq? Bəs bu vaxtın müqabilindəki pulu hardan tapaq?» Aleksey Balakin ağır vəziyyətdən çıxış yolu kimi rus tənqidini qolunu çırmalayıb «qara iş» görməyə – oxumağa, düşünməyə və yazmağa, yazmağa, yazmağa» çağırır. Bizim köhnə dostumuz Pavel Ulyaşov isə güman edirəm ki, ən dəqiq diaqnozu qoyur. O yazır ki, müasir rus mədəni və ədəbi həyatını tənqid yox, kütlə mədəniyyətinin və yalançı (psevdo) ədəbiyyatın hökmranlıq etdiyi kütləvi informasiya vasitələri müəyyənləşdirir. Görürsünüz, rus tənqidi də yaxşı vəziyyətdə deyil, şaşırıb, amma bizdən fərqli olaraq burada bir cəhət var: Rus tənqidindən şikayət edən bu rus tənqidçilərinin özlərinin elə bu məqalələrinin timsalında – şikayətlərinin nəzəri səviyyəsinə, yaradıcı ehtirasına görə – məlum olur ki, bütün çətinliklərə, bütün Çubayslara və supermarketlərə baxmayaraq rus tənqidi var və öz sözünü deyə bilir. Hər halda bu müzakirə tənqidin vəziyyətini təhlil edir, düşündürür, vəziyyətdən çıxış yolları axtarır. Bəs bizdə necədir? 2002-ci ildə mənim «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri» adlı silsilə məqalələrimlə bizim tənqidimizin vəziyyəti ilə bağlı müzakirə açıldı. Nəticəsi nə oldu? İki-üç məqaləni çıxmaq şərtilə, biri İrandan dedi, o biri Turandan və həmin deyilənlərin də tənqidin problemlərinə heç bir dəxli yox idi. Bəzi mülahizələrin, iradların (əslində iddiaların) sə-



10-29

viyyəsi o qədər aşağı idi ki, onlara cavab verməyə belə özümü vadar eləyə bilmədim.

MÜXBİR. Bəs Sizcə bu vəziyyətin səbəbi nədir?

ELÇİN. Bizdə ədəbi proses daha artıq dərəcədə emosionaldır, nəinki funksional. Ona görə belədir ki, səriştəsiz, savadsız, məhdud dünyagörüşlü müəlliflərin yazısı bu gün Azərbaycan ədəbi prosesində həcm, miqdar baxımından əsas hissəni təşkil edir. Əlbəttə, emosionallıq o vaxt təsir edə bilər ki, analitikliyi üstələməsin, amma indiki halda belə bir emosionallıq bizim ədəbi prosesi özfəaliyyət dərnəyinə çevirir. Məhz funksionallığın çatışmadığına görə obıvatel əhval-ruhiyyəsi, dedi-qoduçuluq qəzet bolluğunun və səviyyəsizliyinin yaratdığı münbit zəmində bugünkü Azərbaycan ədəbi prosesinin aparıcı istiqamətinə çevrilib. Dərd bundadır!.. Bilirsiz, ədəbi proses də cəmiyyətin güzgülərindən biridir. Biz böyük sarsıntılardan keçib gəlmişik: qaçqınlar, müharibə, Yanvar şəhidləri, Qarabağ şəhidləri, hakimiyyət uğrunda mübarizə, dövlət çevrilişi cəhdləri, maddi və mənəvi sıxıntılar... Təsəvvür edin ki, son 16-17 ildə Azərbaycanda nevrotik pozuntular dörd dəfə artıb və bu, ədəbi prosesdəki həmin emosionallığa da az təsir etməyib. Bu gün Elçinin, yaxud Anarın vəzifədə olmaları bizim ədəbi prosesi daha artıq maraqlandırır (bəzilərini isə qıcıqlandırır!), nəinki antiədəbiyyatın ədəbiyyatı üstələməsi. Obıvatel xisləti, vəzifə umsuqluğu məhz Elçinə, Anara görə hətta İlyas Əfəndiyevə və Rəsul Rzaya da kin-küdurət bəsləyir. Aydın məsələdir, Rəsul Rzanın da, İlyas Əfəndiyevin də istedadları Azərbaycan poeziyasında, nəsrində və dramaturgiyasında bu şəxsiyyətlərə elə bir mövqe qazandırıb ki, obıvatelin də, hansısa vəzifə umsuğunun da dedi-qodusu onların həmin mövqeyinə təsir edə bilməz, amma ədəbi prosesi bulandıra bilər və bulandırır.

MÜXBİR. Latın qrafikasında nəşr olunması nəzərdə tutulan kitabların siyahısı dərc edildikdən sonra da bəzi dedi-qodular oldu...

ELÇİN. Yeni fəaliyyətə başlayan Prezidentin ilk sərəncamlarından biri kitabla, yəni xalqın mənəvi sərvəti ilə bağlıdır. Bundan fərəhli nə ola bilər? Bu onu göstərir ki, Prezident İlham Əliyev də Heydər Əliyevin ədəbiyyata, xalqın mənəvi sərvətinə ehtiramını və qayğısını eyni şövqlə davam etdirmək əzmindədir. Bu gün Azərbaycanın nə qədər problemi var və bu problemlər arasın-

da İlham Əliyevin latın qrafikasında kitab nəşrini strateji milli əhəmiyyətli bir məsələ hesab edərək sərəncam verməsi, əlbəttə, alqışlanmalı, xüsusən də qələm sahibləri tərəfindən alqışlanmalı bir hadisə, həm də parlaq bir hadisədir. Bu məsələnin əhəmiyyəti barədə danışmaq istəmirəm, çünki bu barədə artıq xeyli deyilib və mən də 1992-ci ildən bu tərəfə dəfələrlə bu məsələni qaldırmış, bu barədə yazmışam. O ki, qaldı, dediyiniz həmin dedi-qoduya, onları doğuran hisslərin ədəbi təəssübkeşliyə heç bir dəxli yoxdur. Hələ bir-neçə il bundan əvvəl Prezident Heydər Əliyevin sərəncamlarına uyğun olaraq Rəsul Rzanın, İlyas Əfəndiyevin, Sabit Rəhmanın, Məmməd Cəfər Cəfərovun və başqa böyük qələm sahiblərinin cildləri nəşr edildi, görkəmli alimlər, tənqidçilər bu nəşrlər haqqında yüksək fikirlər söylədilər, obıvatel isə girəvə tapdı: aha, məqamdır, o birilər heç, amma Elçinə, Anara görə İlyas Əfəndiyevin, Rəsul Rzanın nəşrləri ətrafında xəstə ajiotaj yaradaq... Anar da, Elçin də onu eləyiblər ki, vaxtlarının bu qıt çağında gecələrini gündüzə qatıb o rəhmətliklərin əsərlərini yığıb, redaktə edib, nəşrə hazırlayıblar. Yaxşı, İlyas Əfəndiyevin nəşrini Elçinlə bağlayırsan, onda bəs Məmməd Cəfər Cəfərovun keçən il latın qrafikası ilə nəfis şəkildə çap olunmuş üçcildliyini və onun haqqında «Səni kim unudar» adlı məqalələr kitabını niyə görmürsən? Axı bu üç cild həcmində monoqrafiya və məqalələrin də, «Səni kim unudar» kitabının da elmi redaktoru Elçindir və o zəhmətin müqabilində Elçin özü bir monoqrafiya, ya da filan qədər hekayə yaza bilərdi... Mənim obıvatel təqdirinə, ara adamlarına çevrilmişlərin primitiv alqışlarına zərrə qədər də ehtiyacım yoxdur, əksinə, onların bu dedi-qodusu məndə bir fəxarət hissi oyadır ki, İlyas Əfəndiyevin və ədəbiyyatımızın qarşısında borcumu yerinə yetirmişəm və bundan sonra da yerinə yetirəcəyəm. Unudulmaz Məmməd Cəfər müəllimin də ruhu qarşısında özümü eləcə hiss edirəm. Son illərdə yalnız vəzifə sahibi kimi yox, bir ədəbiyyat adamı kimi redaktəmlə, müqəddəmələrimlə əsərlərinin latın qrafikasında nəşrlərində bilavasitə iştirak etdiyim Aşıq Ələsgərin də, Şəhriyarın da, Rəşid Behbudovun da, Abbas Zamanovun da, başqalarının da ruhu qarşısında mən özümü o cür hiss edirəm. Hətta sizə bir az da artıq deyim: bu zəhmət mənim içimdə gözəl bir ab-hava, bir stimul yaradır, mənim özümü yazmağa, düşünməyə, işləməyə, bir sözlə, həvəslə yaşamağa sövq edir. Məni tanıyanlar bilir ki, mən kimə nə elədiyimi heç zaman danı-

şan, gözə soxan adam deyiləm və indicə bu dediklərim də ancaq ona görədir ki, təcrübəsiz oxucu bugünkü ədəbi prosesin bulanıq suyunda öz istiqamətini düzgün müəyyən edə bilsin. İndi prezident İlham Əliyevin təşəbbüsü ilə böyük bir xəzinənin siyahısı təsdiq edilib və bu mühüm iş illərlə davam edəcək, başqa yeni-yeni kitablar nəşr olunacaq, amma bu işi sidq-ürəkdən alqışlayan böyük əksəriyyətlə bərabər, bir-ikisi tapılır ki, yenə Anara və Elçinə görə İlyas Əfəndiyevi, Nigar Rəfibəylini, Rəsul Rzanı qaralamaq ehtirasından özünü saxlaya bilmir. Ümumiyyətlə, hərdən mətbuatda özümlə bağlı elə qəribə iddialarla rastlaşıram ki, yəqin bu ancaq bizim xəstəlik dərəcəsində siyasiləşmiş cəmiyyətimizdə mümkündür. Bəstəkar Cavanşir Quliyevin Mədəniyyət və İncəsənət Universiteti ilə hansısa problemləri yaranıb. O saat Elçin yada düşür. Bəstəkarımız «Yeni Müsavat» qəzetində yazır: «Mədəniyyət və İncəsənət Universitetinin rektoru Timuçin Əfəndiyevin qardaşı, Baş nazirin müavini, gözəl yazıçımız Elçinə bir pyes və ya roman süjeti təklif edirəm: «Vicdanlı sənətkarın sərgüzəştləri.» Əvvəla, Elçin heç vaxt və heç kimin, o cümlədən də gözəl bəstəkarımız Cavanşir Quliyevin təklifi ilə «pyes, ya roman» yazmayıb və yazmayacaq. İkincisi isə, kimin vicdanlı olub, olmadığını da mənim üçün mənim özümdən başqa heç kim müəyyən edə bilməz. O ki, qaldı, süjetə, vallah, mən adam axtarıram, ona süjet verim ki, vaxt çatışmazlığı ucbatından yazılmamış həmin süjetlər illər uzunu mənim beynimi yormasın...

MÜXBİR. Elçin müəllim, Siz Afaq Məsudun ədəbi proses haqqındakı fikrini misal çəkdiniz. Deməli, biz həmin ümidsizliyi qəbul etməliyik?

ELÇİN. Yox... Afaq maksimalistdir də, baltanı kökündən vurur... Elə buna görə də mənim ona hörmətim böyükdür. Maksimalizm ya səmimiyyətdən yaranır, ya da kin-küdurətdən. Afaqın maksimalizmini mən həmişə onun səmimiliyi, daxili aləminin ifadəsi kimi qəbul etmişəm... Yox, ümidsizliyə qapılmayaq, çünki ədəbi prosesi bulandıran dedi-qodunun, antitənqidin müqabilində, miqdarca az olsa da, ədəbi prosesdə səriştəli və səviyyəli Söz də iştirak edir. Bu mənada keçən ilin «ədəbi yükü»nü, məncə, ən çox orta və gənc tənqidçi ədəbi nəslindən Vaqif Yusifli, Tehran Əlişanoğlu və Əsəd Cahangir daşıdı. «Daşıdı» sözü, olsun ki, kobud səslənir, amma mənim təsəvvürümdə Əsədi də, Tehranı da, Vaqifi də bütün müxtəlifliklərinə baxmayaraq, sözün əsl mənasında

ədəbiyyat zəhmətkeşliyi (fəhlə zəhmətkeşliyi!) birləşdirir. Məryəm Əlizadə, Cavanşir Yusifli, Aydın Talıbzadə, Tofiq Abdin, Bəsti Əlibəyli, Nərgiz Cabbarova, Xanəmir, Sərvaz Hüseynoğlu, Vəfa Əliyev, Aydın Xan, Aydın Dadaşov, Kəbutər, Elnarə Akimova, Ceyla İbrahimova, Xanverdi Turaboğlu – keçən ilin ədəbi prosesində iştirak edən bu müəllifləri mən hər dəfə maraqla oxudum. Firuz Mustafanın müasir dünyadakı qloballaşma mövzusu ilə bağlı esselərini mən ötən ilin yaddaqalan dərclərindən hesab edirəm. Yaxud Allahverdi Eminov ədəbi tənqid və ədəbi proses haqqında bir sıra məqalələr çap etdirdi və bu müəllifin elmi hazırlığı, mülahizələrinin metodoloji dəqiqliyi keçən ilki «tənqid təsərrüfatı»nın yaxşı nümunələrini yaratdı. Mən yuxarıda emosionallıq barədə danışdım. Emosionallıq analitikliklə bir-birini tamamlayanda, nəticə də sanballı olur. Məryəm Əlizadə «Hamlet»in yeni quruluşu haqqında yazdığı məqaləni belə bir patetika ilə bitirir: «Var olsun Şekspir!» və bu patetika bizi qıcıqlandırmır, çünki məqalənin nəzəri səviyyəsi, müəllifin elmi səriştəsi, bədii duyum hissi oxucunu elə bir professional estetik təhlillə təmin edir ki, həmin patetika özünü doğruldur: həqiqətən var olsun Şekspir ki, özündən dörd əsr sonra onun əsəri həm bədii-estetik baxımdan, həm də mənəvi-ictimai baxımdan bu cür aktual səslənir və Məryəm Əlizadənin məqaləsinin timsalında Azərbaycan ədəbi prosesinə effektlə müdaxilə edir. Amma çox təəssüf ki, bizim Nizami Cəfərov və Kamal Abdulla, Arif Əmrahoğlu və Şirindil kimi tutarlı qələm sahiblərimiz keçən ilin ədəbi prosesində bir tənqidçi kimi aktiv iştirak etmədilər, halbuki bu gün buna ehtiyac, bəlkə də, heç zaman olmadığı dərəcədə artıqdır.

MÜXBİR. Elçin müəllim, keçən il mətbuatda bir sıra ədəbi cərəyanlar, xüsusən də postmodernizm haqqında az danışılmadı...

ELÇİN. Doğrusu, indi mənim postmodernizmin tarixi və mahiyyəti haqqında söhbət açmağa həvəsim yoxdur. Çox danışıb heç nə etməmək də Azərbaycan ədəbi mühitinin koloritli bir cəhətidir. Postmodernizm də bütün başqa «izmlər» kimi hansısa bir ədəbi nəslin monopoliyası deyil, o, istedadın monopoliyasındadır. Çox danışmaqdansa, ortaya bir əsər çıxarmaq lazımdır. Cavanlıq çağlarımda Kolduell çox xoşladığım yazıçılardan biri idi. İndi onun bir hekayəsi yadıma düşdü: Yarmarkada bir pəhləvan əzələlərini oynada-oynada o baş-bu baş gəzişir, onun meneceri də qışqıra-qışqıra boğazını yırtır ki, ay camaat, gəlin, baxın, bu elə bir

pəhləvandı ki, bir yumruğuyla bir öküzü öldürdü, paravozu çəkib saxladı və s. Amma heç kimi ayaq saxlayıb dayanmır. Axırda bir sərxoş kəndli menecerə deyir ki, a kişi, sən bu qədər qışqırıb özünü yoranacan, o pəhləvan əlini atıb bir yekə daş qaldırsın, camaat da bunu görüb onun tamaşasına yığışsın. Danışmaq yox, yazmaq lazımdır.

MÜXBİR. Elçin müəllim, qarşıdan yazıçıların növbəti qurultayı gəlir. Bununla bağlı müxtəlif fikirlər səslənir, xüsusən, Yazıçılar Birliyində indiki rəhbərliyin dəyişəcəyi, ya qalacağı barədə mülahizələr irəli sürülür. Bu barədə Sizin də fikrinizi bilmək çox maraqlıdır.

ELÇİN. Mən keçən il «525»dəki müsahibəmdə Yazıçılar Birliyi və XI qurultay barədə bütün suallara ətraflı cavab vermişəm. Mən dəqiqədə bir fikrini dəyişən adam deyiləm və o cavablar mənim bugünkü mövqeyimi də eyni dərəcədə ifadə edir. Ona görə də dediklərimi təkrar etmək istəmirəm. Ancaq iki məsələni qeyd etməklə kifayətlənirəm. Birinci, qurultayın ətrafında xəstə ajiotaj yaratmaq lazım deyil. İkincisi isə, Yazıçılar Birliyinin rəhbərliyi ilə bağlı mənim mövqeyim də həmişəki kimi birmənalıdır: əgər Anar öz namizədliyini yenidən verəcəksə, mən ona səs verəcəyəm. Eləcə də Fikrət Qoca, Çingiz Abdullayev və Arif Əmrahoğlu. Həm də arzu edirəm ki, onların yanında cavanların da nümayəndəsi olsun.

MÜXBİR. Son vaxtlar Yazıçılar Birliyi qurultayqabağı yaradıcılıq müşavirələri keçirir. Bu müşavirələr barədə nə deyə bilərsiz? Eyni zamanda, maraqlıdır, Siz qurultaydan nə gözləyirsiniz?

ELÇİN. O müşavirələrə çox gözəl baxıram və şəxsən mənim çoxdan arzuladığım hadisədir. Mən bunu sidq-ürəkdən alqışlayıram. Fikrət Qoca müsahibələrindən birində deyir ki, «Yazıçılar Birliyi yazıçılar ocağıdır» və düz də deyir. Yazıçılar ocağında isə daima ədəbiyyat mücadiləsi olmalıdır. Mən həmin müşavirələrin mətbuatdakı xülasələrini oxumuşam və bu fikirdəyəm ki, Yazıçılar Birliyi çox yaxşı və ədəbiyyatımız üçün xeyirli bir tendensiyanın yeni mərhələdəki başlanğıcını qoyur. Əvvəllər hər ilin bu cür ədəbi yekunları müzakirə olunardı və həmin ənənənin bərpası mənasında da bu müşavirələr effektli ola bilər. Belə yaradıcılıq müşavirələrinin auditoriyasını da genişləndirmək lazımdır. «Ədəbyyat qəzeti»ndəki şəkillərdən belə başa düşdüm ki, nəsr və

dramaturgiya, poeziya müşavirələri sədrin kabinetində keçirilib. Əlbəttə, mövzuların əhəmiyyəti və miqyası müqabilində, məncə, belə bir auditoriya məhdudluğu ilə kifayətlənmək olmaz və güman edirəm ki, bu müşavirələr mütəmadi – ən azı ildə bir dəfə – xarakter alarsa, maraq da artacaq və Natəvan klubu keçmiş ənənələrini bərpa edəcək. Orası da yaxşı cəhətdir ki, məruzələrə Elçin Hüseynbəyli, Əsəd Cahangir, Aydın Xan kimi yeni ədəbi nəslin istedadlı nümayəndələri cəlb olunur. Düzdür, mən, misal üçün, altı ilin nəsri ilə dramaturgiyasının bir məruzədə birləşdirilməsini düzgün hesab etmirəm. Amma, dediyim kimi, bu – başlanğıcdır, özü də yaxşı başlanğıcdır. Yeri düşmüşkən, mənim üçün prinsipial əhəmiyyətli bir məsələni qeyd etmək istəyirəm: bu müşavirələr heç vəchlə qurultaydakı əhatəli, prinsipial yaradıcılıq söhbətini əvəz etməməlidir. Bu müşavirələr, təkrar edirəm, yaxşı təşəbbüsdür, amma qurultayda da biz altı ilin ədəbiyyatına, tənqidinə və ədəbi prosesinə qurultay səviyyəsində qiymət verən məruzələrə qulaq asmalı və onları müzakirə etməliyik. Yazıçıların qurultayı ədəbiyyatımıza və ədəbi prosesə sahib çıxmalıdır. O mənada sahiblik yox ki, «rəhbər göstərişlər» verilməlidir. O mənada sahiblik ki, ədəbiyyatın və ədəbi prosesin təəssübü çəkilməlidir, marağı güdülməlidir. Şəxsən mən yazıçıların altı ildən sonrakı qurultayını başqa cürə təsəvvür etmirəm. Xüsusən də indiki vaxtda, bədii-estetik meyarların itməsindən şikayət etdiyimiz bir zamanda. Əgər ədəbiyyat ilə antiədəbiyyat qoşa addımlayırsa, əgər antitənqid tənqidi üstələyir və ədəbi prosesi bulandırırsa, həm ədəbiyyatın, həm də antiədəbiyyatın qiyməti verilməlidir, tənqid ilə antitənqidin fərqi göstərilməlidir və bu yerdə ali sözü qurultay deməyəcəksə, bəs o söz harada deyiləcək? Təkrar edirəm, Elçin Hüseynbəyli, yaxud Əsəd Cahangir, yaxud Aydın Xan məruzə edir – bu, çox yaxşıdır və dediyim kimi, bu təmayülü davam etdirmək lazımdır. Qoy, Yaşar da məruzə etsin – hekayələri də, müsahibələri də göstərir ki, istedadlı qələm sahibi, əsl ədəbiyyat adamı, maraqlı müsahibdir. Qoy Məryəm Əlizadə də, Bəsti Əlibəyli də məruzə etsin. Rafiq Tağı da, Adil Mirseyid də eləcə. Qoy, Əkrəm Əylisli, yaxud Anar, yaxud Ramiz Rövşən, elə Elçinin özü də, daha yaşlı nəslin nümayəndələri Bəxtiyar Vahabzadə də, Hüseyn Abbaszadə də, Qabil də ədəbiyyatla bağlı cəsarətli, prinsipial, ad çəkib, təhlil edib tənqidi və tərifi ilə bir yerdə Söz desinlər. Elə bir məqam çatıb ki, ədəbiyyatın taleyinə (keyfiyyət göstəricisi-

nə!) biganə olmayan və ədəbiyyat haqında söz demək iqtidarında olan qələm sahiblərinin hamısı əl-ələ verib ədəbiyyatın təəssübünü çəkməli, yəni ədəbiyyatı qeyri-ədəbiyyatdan, ədəbi makulaturadan müdafiə etməlidir. Və mən qarşıdan gələn qurultaydan da, bax, bunu gözləyirəm. Məsələn, mənim üçün çox xoş və maraqlı olardı ki, XI qurultayda Anar nəsr haqqında, Fikrət Qoca poeziya haqqında, Arif Əmrahoğlu tənqid, Çingiz Abdullayev macəra ədəbiyyatı haqqında məruzələr etsin. Təkcə ona görə yox ki, bu, onların elə bilavasitə vəzifə borclarıdır. Həm də ona görə ki, onlar nüfuzlu Söz deməyə qadirdirlər, onlara inanırlar, onların Sözü mötəbərdir və ədəbiyyatımızın da, ədəbi prosesin də, ədəbi ictimaiyyətimizin də Anarın və Fikrətin, Çingizin və Arifin həmin Sözünə, son altı ildə yaranmış ədəbiyyatı bədii-estetik süzgəcdən keçirmələrinə ehtiyacı var. Əslində, bu, artıq ehtiyac deyil, zamanın, yaranmış vəziyyətin sifarişidir.

MÜXBİR. Elçin müəllim, gəlin müsahibəmizi müsbət bir notla bitirək. Xahiş edirəm, müasir ədəbi həyatımızla bağlı hansısa bir müsbət cəhəti qeyd edəsiniz.

ELÇİN. Bir müsbət cəhəti? Olsun... Bilirsiniz ki, Azərbaycanda lap əvvəllərdən yerlibazlıq, regionçuluq xəstəliyi var, amma çox müsbət bir haldır ki, ədəbi mühitimizdə belə bir şey yoxdur. Misal üçün, Şəkidə anadan olmuş unudulmaz Yaşar Qarayev İlyas Əfəndiyev haqqında yazırdı: «Qarabağın tarixi barədə klassik sənədlər – yeddi «Qarabağnamə» var. Bütünlükdə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci «Qarabağnamə» hesab edirəm! Qarabağın taleyi və gələcəyi barədə düşüncə, nigarançılıq və həsrət bu «Qarabağnamə»dən həmişə eşidilib.» Bu, təkrar edirəm, Şəkidə böyüyüb boya-başa çatmış Yaşar Qarayevin sözləridir. Qarabağın gözəl bir guşəsi olan Cəbrayılda doğulmuş, böyüyüb boya-başa çatmış hörmətli Kamil Vəli Nərimanoğlu isə bu gün İlyas Əfəndiyevin əsərlərinin təkrarən nəşr olunacağına görə əməlli-başlı narahatlıq keçirir və bir professor kimi etirazını bildirir. Düzdür, İlyas Əfəndiyevin əvvəlcə nəşr olunmuş cildlərinin tirajı cəmi 1500 nüsxə idi (Azərbaycanda isə təhsil sahəsi də daxil olmaqla, yalnız kitabxanaların sayı 10 minə yaxındır), amma bunun mətləbə dəxli yoxdur və etiraz etmək professor Kamil müəllimin haqqıdır. Görürsünüzmü, bundan gözəl nə nümunə ola bilər? Yeri düşmüşkən, professor Kamil müəllim bundan da narazıdır ki, Teodor Drayzerin adı latın qrafikası ilə nəşr ediləcək kitab-

ların siyahısında yoxdur. Ürəyiyumşaq Anar isə «Ədəbiyyat qəzeti»ndəki müsahibəsində söz verir ki, «ABŞ-da artıq çoxdan unudulmuş Teodor Drayzeri də Kamil Vəlinin xətrinə yeni siyahıya daxil edəcəyik...» Mən fürsətdən istifadə edib Anardan xahiş edirəm ki, belə iş görməsin. Sovet İttifaqı dağılandan sonra, bizim oxucuların canı Drayzerin kərpic-kərpic romanlarından güclə qurtarıb, onları təzədən Drayzer bəlasına düçar etməsin...

*Müsahibəni Turqut Mustafayev apardı.*
*2004.*

## ELÇİN «XƏZƏR»in SUALLARINA CAVAB VERİR

– «Xəzər» jurnalının nəşri bərpa olunub, bu barədə fikriniz?

– Çətin bir vaxtda «Xəzərin nəşrinin bərpasını mən müasir ədəbi həyatımızdı çox əhəmiyyətli bir hadisə hesab edirəm və Afaq xanım başda olmaqla Tərcümə Mərkəzinin bütün yaradıcı kollektivini, jurnalın redaksiyasını həm təbrik edirəm, həm də bir oxucu kimi sizə təşəkkürümü bildirirəm. Mən o «çətin» sözünü yalnız maddi mənada işlətmədim, mənim üçün o söz, eyni zamanda, bədii-estetik meyarların aşağı düşdüyü, ədəbi maklaturanın hegemonluq etdiyi, antiədəbiyyatın ədəbiyyatı, pirmitiv (bəzən də qərəzli!) həvəskar mühakimələrinin tənqidi fikri üstələdyi bir dövrü (dövrümüzü!), gerçəkliyimizi səciyyələndirir və belə bir boğucu ədəbi mühitdə, xüsusən də əlaqədar təşkilatların ədəbi biganəliyi və gözəl bir mürgü içində olduğu bir zamanda «Xəzər»in nəşri – qaranlıq içində adda-budda görünən işıq parçası kimi bir şeydir.

– Jurnalın artıq iki nömrəsi işıq üzü görüb. Bu nömrələrlə tanış olmusunuzmu və bu barədə fikriniz?

– Əlbəttə, hər iki nömrə ilə tanışam, fikrimi isə, elə bilirəm ki, birinci sualınıza cavab verərkən, söylədim. «Xəzər»in ümumi səviyyəsi yüksək olmasaydı, aydın məsələdir ki, o işıq da, Allahın hər verən günü, müasir mətbuatımızda rastlaşdığımız bulanıq bir şey olacaqdı....

– Jurnalda gedən hansı tərcümələri, xüsusən, qeyd etmək istərdiniz?

– Mənim bəyəndiyim  əsas cəhət odur ki, «Xəzər»in ümumi mündərəcatı yaxşı zövqdən xəbər verir və orası da çox mühümdür ki, jurnalın həm coğrafi, həm də estetik əhatə dairəsi də genişdir. Konkret nümunələrə gəldikdə, mənim üçün – görünür, yaşdandır – esselər, məqalələr, məlumatlar daha maraqlıdır. Misal üçün, Sergey Dovlatovun Amerika etüdlərini mən oxumamışdım və Natiqin tərcüməsində o yazını həvəslə oxudum. Yeri gəlmiş-

kən, unudulmaz Natiq Səfərovun vəfatı məni sarsıtdı və çox kədərləndirdi. 20-25 il bundan qabaq Yazıçılar İttifaqında onunla bir yerdə işləyirdik (mən aparatda, o «Azərbaycan»da) və Natiq həmişə mənim xatirimdə çox orijinal və istedadlı bir insan kimi qalacaq. Allah rəhmət eləsin. Onun tərcümələri çox yaşayacaq və yaxışısı da budur ki, bu gün Natiqin layiqli davamçıları var, məsələn, «Xəzər»in müəlliflərindən biri olan Nəriman Əbdülrəhmanlının adını xüsusi çəkmək istəyirəm. Fürsətdən istifadə edib mən Cavanşir Yusiflinin və hələ ki, «Xəzər»də imzasını görmədiyim Əsəd Cahangirin ədəbi-tənqidi tərcümələrinin də əhəmiyyətini qeyd etmək istəyirəm. Bu , çox ağır və əsasən də həqiqi (layiq olduğu) qiymətini almayan bir zəhmətdir. Amma sizin sualınıza qayıdaq. Mən Cəmil Mericin, de Unamunonun esselərini, Heminqueyin və Tomas Vulfun məktublarını, Reyfilqin qeydlərini, Pamukun İstanbulla bağlı kitabından parçaları, «Prust anketi»ni, Darrel qardaşları ilə bağlı yazını da maraqla oxudum. Amma «Xəzər»dəki bədii yazıların çapı da çox vacib bir işdir. Cavanlıq çağlarımda mən Lev Tolstoyu və onunla bağlı nə vardısa tapıb oxuyurdum və «Yeddi məhbusun hekayəsi»ni də elə o vaxtlar indi əlçatmaz, üyetməz bir uzaqlıqda qalmış 60-cı illərdə oxumuşdum və «Xəzər»də onu Azərbaycan dilində görmək mənim üçün çox xoş oldu. Yaxud, «Şekspir yaddaşı»nı da mən çoxdan oxumuşdum, amma Afaqın gözəl tərcüməsində onu təzədən (özü də nostalgi bir ovqatla...) oxudum.

– Jurnal haqqında tənqidi qeydləriniz? Jurnalda hansı yazıçı və şairlərin imzalarını görmək istərdiniz?

– Dilin səlistliyi, bədiiliyi hər bir yazıçı üçün ilkin şərtdir və çox da zəhmət (və istedad!) tələb edən bir işdir. Xüsusən də tərcümənin dili, «Xəzər»də isə vəziyyət daha da mürəkkəbdir, çünki onun səhifələrində bədii təfəkkürlə bərabər, elmi təfəkkür də öz ifadəsini tapır. Ona görə də mən istərdim ki «Xəzər»dəki dostlarımız bu jurnalın dili (dil müxtəlifliyi!) üzərində daimi bir vasvasılıqla işləsinlər, ilk nömrələrdə ara-sıra təsadüf etdiyimiz kələ-kötür cümlələrə rast gəlməyək. O ki, qaldı, imzalara, bunu mən bir oxucu kimi sidq-ürəkdən «Xəzər»dəki dostlara etibar edib, onların öhdəsinə buraxıram.

– Sizin üçün tərcümə nədir?

– Mənim üçün tərcümə – kəşfdir. Yeni hisslərin, tanımadığım koloritin, estetik özünüifadələrin... kəşfi.

– Mərkəzin bu günəcən nəşr etdiyi hansı tərcümə əsərini, yaxud əsərlərini daha yüksək qiymətləndirirsiniz?

– Ən vacib cəhət odur ki, sizin nəşr etdiyiniz tərcümə kitabları arasında əhəmiyyətsizi yoxdur.

– Dünya ədəbiyyatından konkret olaraq hansı əsərlərin tərcümə olunmasına ehtiyac duyursuz?

– Bu sualla bağlı uzun bir siyahı tutmaq olar və o siyahıdakıların da hamısını, təbii ki, tərcümə və çap etmək mümkün deyil. Odur ki, mən, indicə dediyim kimi, sizin zövqünüzə etibar edirəm.

– Özünüz tərcümə ilə məşğul olmusunuzmu? Buna Sizi nə vadar edib və tərcümə prosesi Sizə nə verir?

– Keçən əsrin 60-70-ci illərində mən klassik Çin və yapon ədəbiyyatı ilə çox maraqlanırdım. Elə o zamanlar da xokku janrında orta əsr yapon poeziyası nümunələrini Azərbaycan dilinə tərcümə etdim və müqəddəmə, şərhlər və məlumatlarla birlikdə 1979-cu ildə onları «Nərgizin bircə ləçəyi» adlı kitabda nəşr etdirdim. Əgər səhv etmirəmsə, o kitab klassik yapon ədəbiyyatına aid Azərbaycan dilində ilk nəşr idi. Lap cavanlıq illərindən mən xoşuma gələn hekayələrin bəzisini tərcümə edirdim. 1982-ci ildə mənim  tərcüməmdə «Necə oldu ki, Pyer Duş məşhurlaşdı?» adlı kitab nəşr olundu. Mən o kitaba A.Moruanın, F.S. Fitsceraldın, H.Laksnesin,A. Truayyanın, R. Bredberinin, G. Apdaykın, M. Benedettin, A. Kristinin, Ayzek Azimovun və başqalarının hekaylərini, eləcə də L.Pirandelonunu, A. Maltsın, K. Xoinskinin pyeslərini daxil etmişdim. 90-cı illərin əvvəllərində isə Molyerin bir neçə komediyasını, o cümlədən, «Skapenin kələkləri»ni və «Jorj Danden, yaxud Aldanmış ər» əsərlərini tərcümə etdim və onlar kitab halında nəşr olundu. Başqa tərcümələrinm də var, amma təəssüf ki, mən bütün bu  tərcümələri orijinaldan yox, rus dilindən çevirmişəm. Sualınızın ikinci hissəsinə gəldikdə isə, yəqin ki, daxili  bir tələbat olub....

– Ümumiyyətlə, yazıçının, şairin tərcümə ilə məşğul olması vacibdirmi? Bu ona nədəsə kömək edir, yoxsa...

– Güman etmirəm ki, tərcümə bütün yazıçılar üçün vacib bir işdir. Tərcümə – ədəbiyyatın bir sahəsidir. Şair üçün vacib deyil

ki, roman yazsın. Eləcə də tərcümə. Mən istərdim ki, professional (və istedadlı!) yazıçılarımız, şairlərimiz, tənqidçilərimiz kimi, professional da tərcüməçilərimiz olsun və onlar çox olsun. Köməklik məsələsinə gəldikdə, bu asılıdır yaradıcılıq psixologiyasından. Dünyada nə qədər sənətkar varsa, bir o qədər də fərdi yaradıcılıq pisoxologiyası var. Ola bilər ki, tərcümə hansı bir yazıçıyasa nədəsə kömək etsin, ola bilər ki, heç bir köməkdən söhbət getməsin...

– Hansısa konkret əsəri tərcümə etməyi arzulayırsınızmı? Buna nə mane olur?

– Tərcümə ilə bağlı bütün ömrüm boyu mənim iki böyük arzum olub və təəssüf ki, onların heç biri həyata keçməyib və keçməyəcək. Mən istəmişəm (arzulamışam!) ki, Lev Tolstoyun tam küliyyatını birinci səhifəsindən tutmuş, sonuncu səhifəsinə kimi, Azərbaycan dilinə tərcümə edim. İkinci arzum da bu olub ki, «Don Kixot»u orijinaldan Azərbaycan dilinə çevirim... Amma arzu etməyə nə var ki...Bu da mənim həyatımın bir növ «ədəbi donkixotluq»u olub.

– Tərcümə Mərkəzinin maddi vəziyyəti yaxşılaşsaydı, işimizi yenidən, daha şaxəli və müasir qurmamız üçün nələri məsləhət görərdiniz?

– Sizin məsləhət almaq vaxtınız artıq geridə qalıb və bu çox gözəl cəhətdi...Təki maddi vəziyyətiniz yaxşılaşsın!

*21 oktyabr 2004.*

## E L Ç İ N: «TARİXƏ BÖHTAN ATMAQ VƏ XALQI TƏHQİR ETMƏK OLMAZ!»

– Elçin müəllim, noyabrın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Əli Nağıyevin Milli Məclisdəki çıxışı cəmiyyətdə etiraz doğurub, narahatlıq yaradıb. Bu barədə Sizin fikrinizi bilməyə bir ehtiyac hiss etdik.

– Təəssüf ki, Milli Məclisin həmin iclasında mən iştirak edə bilməmişəm. O çıxışı mətbuatda oxudum.Əlbəttə, «kül olub bu millətin başına» kimi bir leksikonla parlamentdə çıxış edən adama cavab verməк istəməzdim. Ancaq elə prinsipial məsələlər var ki, bu zaman susmaq mümkün deyil. Bu adam Azərbaycan xalqını, xüsusən də Qarabağ tarixini, Qarabağ camaatını təhqir edir, regionlararası nifaq üçün münbit zəmin yaradır. Neçə gündür ki, ziyalılar, xüsusən, əslən Qarabağdan olan ziyalılar, həmçinin sadə əmək adamları mənə telefon açaraq hiddət və nifrətlərini bildirirlər. Bu gün Qaarabağ mövzusu xalqımızın, müstəqil dövlətimizin müstəsna əhəmiyyətə malik bir problemidir. Belə bir vaxtda Əli Nağıyev tarixə böhtan ataraq Azərbaycan parlamentində heç bir erməninin cürət edib deyə bilməyəcəyi hədyanı car çəkir: «Kim idi İbrahim xan? O, Qarabağda fahişəxana yaratmışdı». Və bu çirkin iftirası ilə bağlı Qasım bəy Zakirin adını çəkir. Yəqin Zakirin M.F.Axundova yazdığı mənzum satirasından sui-istifadə etməyə çalışır və əlbəttə, misgin bir vəziyyət yaranır: Mirzə Fətəli 1812-ci ildə anadan olub, İbrahim xan isə körpə uşaqları ilə birlikdə rus ordusu tərəfindən 1806-cı ildə qətlə yetirilib. Nəticəni özünüz çıxarın. Heç kimi, heç bir regionu, eləcə də Qarabağ camaatını təhqir etmək olmaz! Əli Nağıyev Azərbaycan Respublikasının ali tribunasından dediyi hədyanın, regionlararası narazılıq toxumu səpmək cəhdinin məsuliyyətini daşımalıdır. Bu gün xalqımız erməni təcavüzünə qarşı bir yumruq kimi birləşməli olduğu halda, regionlar arasında ədavət üçün əlverişli şərait yaratmaq cəhdini mən Azərbaycan dövlətçiliyinə əsil təxribat hesab edirəm. Onun sözlərinə fikir verin: «Borçalını itirib nə olmuşuqsa, Dərbəndi itirib nə olmuşuqsa, Zəngəzuru itirib nə olmuşuqsa, Qarabağı da itirib

ondan olacağıq». Bu təslimçi haray-həşir nə deməkdir? Nəyə hazırlıqdır? Bütün Azərbaycan xalqı işğal olunmuş torpaqlarımızı qaytarmaq əzmində olduğu bir vaxtda bu nə əhval-ruhiyyədir? Sonrasına baxın: «Ancaq millət sürüləşməyə gedəndə, bu millətdən heç nə olmayacaq». Xalqı, milləti bu dərəcədə təhqir etmək olar? Mən təkrar edirəm, Əli Nağıyev bir Azərbaycan vətəndaşı kimi bu sözlərin çox ciddi məsuliyyətini daşımalıdır.

– Əli Nağıyev çıxışında deyib ki, «millət artıq uçurumun dibinə düşüb». Siz bu iddiaya necə şərh verərdiniz?

– Hər halda «uçurumun dibinə düşmək» şəxsən Əli Nağıyevə o qədər də təsir etməyib. Heydər Əliyev şəxsiyyətinin kölgəsində daldalanaraq qısa bir müddətdə elmlər doktoru, professor, kafedra müdiri, nazir olub. İndi isə ittiham edir. Elə bilirəm ki, bu yerdə heç bir şərhə ehtiyac yoxdur.

– Bu çıxışda teatrdan da bəhs olunub...

– Baxın, nə dərəcədə gülünc bir vəziyyət yaranır: Əli Nağıyev çıxışında: «Anar müəllim durub burdan kitab çapından danışır» - deyə tənə edir. Mən Anarın yerinə bu tənəyə cavab vermirəm, amma Əli Nağıyev məntiqinin əcaibliyinə baxın: deməli, əlli ilin yazıçısı parlamentdə kitabdan danışa bilməz, amma Əmək və Əhalinin Sosial Müdafiəsi naziri həmin parlamentdə «teatrşünaslıq dərsi» keçə bilər. Aydın məsələdir ki, Azərbaycan sənətşünaslığı belə bir «teatrşünaslıq»dan, yumşaq desəm, heç nə əxz etməyəcək. Bu gün Milli Dram Teatrının son illərdəki gözəl tamaşalarından biri – Hüseyn Cavidin «Afət»i gedir, yeni peyda olmuş «tetrşünas»isə haray çəkir ki, Cavidin «əsərləri qalıb bir kənarda». Eləcə də M.F.Axundov, Cəfər Cabbarlı, Səməd Vurğun kimi görkəmli sənətkarlarımız haqqında əsassız fikirlər... Əli Nağıyev «Hökmdar və qızı» əsəri ilə «Vaqif»i qarşı-qarşıya qoymaq istəyir və obıvatel də o saat bundan istifadə edib absurd və misgin dedi-qoduları mətbuat səhifəsinə çıxarır: Elçinin vəzifəsi var, «Vaqif»ə qarşıdır, «Hökmdar və qızı»nı tamaşaya qoydurur və s. Bunlar o qədər avam və naşı dedi-qodulardır ki, mən onlara cavab verməyi özümə sığışdırmıram. Ancaq bir halda ki, söhbət «Hökmdar və qızı»ndan düşdü, bir faktı xatırlamaq, elə bilirəm ki, Əli Nağıyevin çıxışı konteksində ibrətamiz olar. 1997- ci il sentyabrın 20-də Heydər Əliyev Milli Dram Teatrında həmin tamaşaya baxdı və parlaq, əhatəli bir nitq söyləyərək əsərə çox yüksək qiymət verdi, onun tarixi əhəmiyyətini, aktuallığını xüsu-

si qeyd etdi. Oxucular Heydər Əliyevin nitqi ilə 1997-ci il 23 oktyabr tarixli «Azərbaycan» qəzetində tanış ola bilərlər. Ancaq Əli Nağıyevin Qarabağla bağlı iftirası və zərərli mövqeyi müqabilində Heydər Əliyevin həmin nitqindən bir fikri yada salmağı mühüm hesab edirəm. Heydər Əliyev deyirdi: «1988-ci ildən xalqımızın başına gələnlər, ermənilərin Azərbaycana təcavüz etməsi, Dağlıq Qarabağ məsələsini qaldırması nəyin nəticəsində oldu? Azərbaycanın içində gedən çəkişmələrin nəticəsi oldu. Əgər o vaxt Azərbaycan xalqı birləşsəydi, hamı bir olsaydı, ermənilərin qarşısını almaq mümkün olmazdımı? Onda torpaqlarımız işğal oluna bilərdimi?» Daha sonra Heydər Əliyev «Hökmdar və qızı» əsərinin aktuallığının mahiyyətini açaraq deyirdi: «Bu əsər çox aktualdır. Hesab etmirəm ki, Azərbaycanda bu çəkişmələrə son qoyulub, insanlar daha bunları unudublar və yenidən belə şeylər cücərməyəcək. Yox, Azərbaycanda təhlükə həmişə var». Bu gün bu sözlərin özü çox aktual səslənir və Əli Nağıyevin Milli Məclisdəki çıxışında Qarabağla bağlı deyilənlər həmin təhlükəni əyani şəkildə bizə göstərir. Nəhayət, bir məsələyə də toxunmaq istəyirəm. Mətbuat, xüsusən, müxalifət mətbuatı Əli Nağıyevin çıxışı ilə bağlı öz siyasi mənafelərini əsas tutaraq ajiotaj yaratmasınlar. Vətən və o cümlədən Qarabağ, Azərbaycan xalqı və o cümlədən Qarabağ camaatı həm iqtidarın, həm də müxalifətindir. Bu yerdə şəxsi maraqlara yol vermək olmaz.

*24 noyabr 2004.*

## SÖHBƏT

Görkəmli nasir, Azərbaycanın xalq yazıçısı Elçindən bir neçə suala cavab almaq üçün gedəndə həmin müsahibənin ön sözü olaraq qələmə alınan fraqmental bir yazıda Elçin sözünün qüdrətini canlandırmaq çox çətindir, bəlkə mümkün də deyil. Çünki bu böyük şəxsiyyətin sənət dünyası hər hansı bir araşdırmaya sığmayacaq dərəcədə zəngindir. Ədəbiyyatda ilk və həm də təsirli addımlar atdığı 60-cı illərdən bu yana Elçinin əsərləri saysız- hesabsız rəylər, sadə oxucu və peşəkar tənqidçi münasibətlərilə, hətta iri həcmli tədqiqat əsərləri ilə müşayət olunub. 45 il civarlarında Elçin yaradıcılığına ədəbi-ictimai maraq bir an belə səngiməyib. Bu maraq Azərbaycanın mənəvi sərhədlərini aşaraq dünyanın söz sərraflarını danışdırıb və beləcə XX yüzilliyin ikinci yarısında nasir, dramaturq, ssenarist, tərcüməçi, tənqidçi, publisist Elçin sayca o qədər də çox olmayan bir neçə qələm sahibləri – sənətkarlarla bir sırada bütün yer kürəsində Azərbaycan ədəbiyyatını ləyaqətlə təmsil edən halal bir ustad ucalığına yüksəlib.

Elçin haqqında yazılanlar və əlbəttə ki, hər şeydən öncə onun meydana qoyduğu bir-birinə söykək duran əsərləri deyir ki, ilk növbədə o, kamil bir hekayəçidir.

Mən belə deyirəm və dərhal da yazıçının «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması», «Poçt şöbəsində xəyal» və xüsusilə «Dolça» povestlərini xatırlayır və əmin oluram ki, kimsə məni bu povestlərin müəllifini hekayəçi adlandırarkən insafsızlığa yol verdiyimə görə qınayacaq. Haqlı qınaqdır. Çünki adı çəkilən povestlər olmasa, Elçinin yaradıcılığı tamlıq qazanmaz.

Hələ mən onu demirəm ki, hər biri milli nəsrin inkişafında önəmli yer tutan, hətta mən deyərdim ki, irəliyə atılmış addım olan «Ağ dəvə», «Mahmud və Məryəm», «Ölüm hökmü» romanları hekayə və povest ustası Elçini romançı olaraq təqdim edir.

Məncə, indi deyəcəyim fikir nasir Elçinin sənətkar məziyyətini daha dəqiq ifadə edə bilər. Elçin hər şeydən öncə romançı-

dır. Ona görə yox ki, romanları sayca az olsa da həcmcə onun yaradıcılığında daha çox yer tutur. Ona görə ki, Elçinin ən yığcam hekayəsində, ən lirik povestində belə roman silqəti var.

Romançılıq yazıçının hər bir əsəri üçün seçdiyi hadisələrin mahiyyətindədir. Romançılıq seçilmiş həyat olaylarını təsvir edərkən onun baş vurduğu psixoloji, mənəvi, fəlsəfi, ruhi dərinlikdədir.

Ədəbiyyatşünas, publisist, ssenarist, tərcüməçi, dramaturq sözlərinin hamısı bir yerdə və hər biri ayrı-ayrılıqda Elçinin yaradıcı dünyasının təyinləridir.

Nəhayət, Elçin müəllim həm də hədsiz dərəcədə maraqlı müsahibdir. Elmi təfəkkürü, zəngin nitqi, hadisələrə çevik və cəsarətli münasibət bildirməsi ona jurnalistlərin marağını bir an belə azaltmır. Görünür elə buna görə də 2004-cü ilin son ayında biz böyük bir məhəbbət və maraqla onun qapısını döydük.

– Elçin müəllim, Sizə bir şer həsr etmişəm, adı «Adam». O şerin yuxarısında yazılıb ki, Azərbaycanın ən humanist yazıçısı Elçin müəllimə həsr olunur. Bu o demək deyil ki, Elçin müəllim ən kövrək, hamını bağrına basan, kim gəldi öz çevrəsinə yaxın buraxan insandır. Əksinə, mənim tanıdığım Elçin müəllimin az qala qapalı bir dünyası var. Həmin dünyada Elçin müəllim ürəyi istədiyi kimi azad, dinc, başqa həyatlara ifrat bir maraqla can atmadan, ağayana bir ömür sürür. Öz xasiyyətinə daim sadiq olan Elçin müəllimi görəndə yaxınları, doğmaları, dostlar, tanışlar, hətta üzdən tanıyanlar özünü yığışdırır. Bu bizim məhz belə tanıdığımız, məhz belə sevdiyimiz Elçindir. Mənim epiqqrafımdakı epitetin isə mənası tamamilə yazıçı Elçinin yaradıcılığı, yaza-yaza yüksəldiyi ustad mövqeyi ilə bağlıdır. Azərbaycanda insan duyğularını Elçin qədər incələməyə cəhd göstərən, bədii vasitələrin bütün arsenalını səfərbərliyə alıb, insan sinirlərinin milyardlarla son uclarına təsir və nüfuz etməyi ədəbi metod səviyyəsində anladan ikinci bir yazıçı tapmaq çətindir. Siz bu gün buna görə «Ümid yeri Humanitar qəzet»in qonağısınız. Uzun illərdir ki, Azərbaycan dövlətinin humanitar siyasətinin formalaşmasına, həyata keçirilməsinə məsul olan dövlət xadimlərindən birisiniz. Bilmirəm bu uzun girişlə sizdə bizimlə söhbət eləməyə həvəs oyada bildimmi?

– Vaqif, bu sözlərə görə sənə öz dərin təşəkkürümü bildirirəm. Bu sözləri çox yüksək qiymətləndirirəm və səni çoxdan tanıyıram. Bilirəm ki, boğazdan yuxarı söz danışan deyilsən. Buna görə bu sözlər mənim üçün çox qiymətlidir. İndi də suallarına imkan daxilində cavab verməyə hazıram.

– Hər bir cəmiyyət əsaslı dəyişiklikdən sonra uzun bir sabitləşmə dövrü yaşayır. Hər halda Azərbaycanda müstəqillik əldə ediləndən sonra 10 il boyu sürən, elə indi də davam edən stabilləşmə illərinin içindən addımlamaq lazım gəlmişdir. İqtisadi, siyasi sahədə sabitləşmə, eləcə də humanitar sahədə sabitləşmə....Bu baxımdan humanitar mühitin onillik tarixçəsində hansı dərin izləri önə çəkməyə dəyər?

– Bilirsən, bizdə bir yaxşı atalar sözü var. Deyirlər, həmişə on iki imama ağlayanda məcazi mənada, bir dəfə də yezidə ağlamaq lazımdır. Sovet İttifaqını biz çox söyürük, çox tənqid edirik və çox da haqlıyıq, amma bir həqiqət də var ki, Sovet İttifaqı zamanında, Azərbaycan Sovet İttifaqının tərkibində olanda, xüsusən, mədəniyyət sahəsində, təhsil sahəsində çox böyük uğurlar qazanıb. Bu sadə məsələ deyil. İndi Allaha şükür sərhədlər açılıb, bütün xarici görürük; yaxın xarici, uzaq xarici. Azərbaycanda bir kənd qalmayıb ki, orda məktəb tikilməsin. Bir savadsız adam qalmayıb, ellikcə bütün xalq hamısı yazmağı, oxumağı bacarır. Bu bəlkə də indi çox qəribə səslənir. İndi biz necə dana bilərik ki, o illərdə Azərbaycanın ədəbiyyatı, teatr sənəti, Azərbaycanın rəngkarlığı Avropa səviyyəsində öz xalqını ifadə edib, yəni bu sənətkarlar Avropa səviyyəsində öz milliliklərini ifadə ediblər. Azərbaycan mədəniyyəti ona nail olub ki, orda nə kosmopolitlik var, nə də milli məhdudluq var. Əksinə, milli dəyərlərin, bəşəri dəyərlərin sintezi var və bu böyük məsələdir. Bizim də bu 10-12 ildə ən böyük məqsədimiz ondan ibarət olub ki, bu çətin illərdə, mürəkkəb illərdə əldə olunmuş nailiyyətləri heç olmasa dağılmağa qoymayaq. Yəqin hər kəs xatırlayır ki, nə qədər çətin bir dövr idi. Sovet İttifaqı dağıldı, sovet imperiyası dağıldı və şübhəsiz ki, bunun müqabilində böyük siyasi-ictimai katalizm əmələ gəldi. Yəni dünyanın xəritəsi dəyişdi və bu böyük katalizm şübhəsiz ki, böyük də problemlər yaratdı. Bu problemlərin də ən böyük zərbəsi sənət adamlarına,

mədəniyyət adamlarına, təhsil adamlarına dəydi. Azərbaycanda o qədər proseslər getdi ki, xalqın vəziyyətini daha da ağırlaşdırdı. Məhz o zaman keçidində Azərbaycan müstəqillik uğrunda mübarizə aparmağa başladı. Müstəqillik elə bir şey deyil ki, küçədə tapıb qoyursan cibinə, deyirsən ki, bundan sonra mən müstəqiləm. Müstəqillik uğrunda mübarizə aparmaq lazımdır, xüsusən də Azərbaycanın geosiyasi vəziyyəti o biri regionlardan fərqli idi. Azərbaycanı istəməyən qüvvələr vardı. Azərbaycanın əleyhinə olan qüvvələr vardı. Belə bir dövrdə, belə bir vəziyyətdə Azərbaycan öz müstəqilliyi uğrunda mübarizə aparmağa başladı. Müstəqillik uğrunda mübarizə böyük problemlər yaratdı. Bu azmış kimi Azərbaycan, eyni zamanda, sistemi dəyişdi, yəni özünü doğrultmayan sosializm sistemi bazar iqtisadiyyatı ilə əvəz olundu. Və bu da öz-özlüyündə böyük problemlər yaratdı. Amma dediyim hər iki cəhət sovet məkanındakı bütün respublikalar üçün mövcuddur.

Bunlar azmış kimi Azərbaycan üçüncü böyük bir sarsıntı doğuran cəhətlə üzləşdi. Bu da erməni təcavüzü idi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın torpaqları getdi. Bu barədə ətraflı danışmaq istəmirəm, hadisənin masştabı hamıya bəllidir və bu barədə çox yazılıb, çox deyilib. Sadəcə xatırlatmaq istəyirəm ki, bütün bunların içində Azərbaycan öz mədəniyyətini qorumağa başladı. Öz mədəniyyətini dağılmağa qoymadı və mən bu gün fəxarət hissi ilə deyirəm ki, həqiqətən əldə olunmuş nailiyyətləri dağılmağa qoymadıq, halbuki bunun üçün münbit bir şərait də var idi ki, Azərbaycan ya getsin milli məhdudluğa qapansın, ya kosmopolit bir mədəniyyətə yiyələnsin, amma Azərbaycan öz mədəniyyətinin əldə etdiyi nailiyyətləri saxlayırdı. Mən elə bilirəm ki, 12 ildə ən böyük nailiyyətimizdən biri məhz budur. Bilirsən, amma bu o demək deyil ki, bu sahədə itkimiz yoxdur. İtkilərimiz də var, şübhəsiz və bu itkilərin bir çoxu maliyyə problemləri ilə bağlıdır. Amma bilirsən Vaqif, bu gün mədəniyyətinin taleyi, mədəniyyət məsələlərinin həlli fabrik direktorlarından, istehsalçılardan asılıdır. Nə üçün? Ona görə ki, mədəniyyətin inkişafı ilə əlaqədar hansı məsələni qaldırırıqsa, bu hökmən gəlir dirənir maliyyəyə, vəsaitə. İndiki vaxtda təsəvvür elə, bir milyon qaçqın var, bu qədər problemlər var və buna

görə də bir sıra məsələlərdə geri qalırıq. O cümlədən, məsəlçün abidələrin mühafizəsi, mən istərdim ki, daha yüksək səviyyədə olsun, yaradıcı gənclərə şərait daha artıq olsun və sair. Amma bax ki, biz Opera və Balet Teatrını qoruyub saxladıq, biz Milli Dram Teatrını qoruyub saxladıq, biz Sirkdən tutmuş Filarmoniyaya qədər hamısını qoruyub saxladıq. Sən bax ki, bizim qonşu ölkələrin hansında belə şey var, hansında bu cür simfonik orkestr var. Biz bu Dövlət Simfonik orkestrini qoruyub saxladıq və bütün bunlarda şübhəsiz ki, Heydər Əliyevin böyük rolu var. Heydər Əliyevin şəxsiyyətinin, onun mədəniyyətə münasibətinin, mədəniyyət problemlərini hiss etməyinin, dərindən dərk etməyinin burda çox ciddi rolu olub. Bir dənə şərq ölkəsində belə simfonik orkestr yoxdur. Biz bununla fəxr etməliyik. Simfonik orkestirin ifaçılarının maaşları, cürbəcür musiqi alətlərinin alınmasından tutmuş başqa problemlərinəcən həll edildi və nəticədə böyük bir orqnaizm olan simfonik orkestri saxladıq. İndi budur, Rastropoviç kimi dahi musiqiçi ondan razılıq edir və Kabalye gəlib onunla bir yerdə oxuyur. Bu cür misallar çoxdur.

– Ən yaxın keçmişdə humanitar həyatın bir çox sahələrində (mədəniyyət, təhsil, səhiyyə və s.) ideoloji mahiyyətli olsa da monumentallıq var idi, sanki məktəbdən danışmaq, təhsil sistemindən, şəfaxanadan danışmaq, səhiyyə sistemindən, teatrdan danışmaq mədəniyyət şəbəkəsindən danışmaq təsiri oyadırdı. Amma indi sanki gur çağlayan sellərin hirsi-hikkəsi soyuyub, sular axaraq öz yatağına qayıdıb. Bunu artıq hər kəsin başını aşağı salıb öz işi ilə məşğul olmağı kimi anlamaq mümkündürmü?

– Burda qeyri-təbii bir şey görmürəm. Çünki sənət fərdiyyətdi, sən özün də şairsən, bilirsən sənət fərdiyyətdir. Bir az o sosializm dövrünün təbliğatından qalma bir şey var idi ki, bir kolxozdan danışanda, bu, bütün kolxoz sisteminin tərənnümünə çevrilirdi və ya məsəlçün, məktəbdə hansısa bir uğurdan danışanda, bu, bütün sistemin uğuru kimi təqdim olunurdu. Mən elə bilirəm ki, məsələyə differensial yanaşmaq lazımdır. Məsəlçün, bir heykəltaraş oturub öz fərdi aləmini ifadə edirsə, bu, bütün Azərbaycan heykəltaraşlığına şamil edilməməlidir və yaxud, bir xəstəxanada gözəl bir xidmət varsa, gözəl həkimlər ora yığılıb-

sa və xəstələrə böyük bir qayğı varsa, bu o demək deyil ki, bütün xəstəxanalar belədir. Eləcə də əksinə.

– Siz Azərbaycanı dünyaya yaxınlaşdıran, SSRİ-nin aşılmaz, tikanlı məftillərlə dövrələnən sərhədlərini sındıraraq Azərbaycanın varlığını hər kəsə duyduran, zamanlarca öz vətəninə əli yetməyən qərib soydaşlarımızı doğma ocağa gətirən nadir şəxsiyyətlərdənsiniz. Azərbaycanın qapıları dünyanın üzünə taybatay açılıb. İndi yer üzünün ən ucqar nöqtələri ilə təmas mümkündür. Hələ heç özümüzə gəlməmiş, qaranlığın dərin yuxusu tam dağılmamış, sərhədlərin, pərdələrin, tamamilə götürülməsi, əcnəbi milliyyətlərin ölkə ərazisində azad bir yel kimi o yan bu yana sərbəst at səyirtməsi bizim milli humanist dəyərləri təcavüz qarşısında qoymur ki? Hətta milli-mənəvi dəyərlərin deqrodasiyaya uğraması barədə fikirlər də səslənməkdədir....

– Vaqif, mənim fikrimcə çox incə bir məsələyə toxunubsan. Dünya, istəsək də, istəməsək də qloballaşmaya doğru gedir. Sovet İttifaqındakı həyat bunu sübut elədi ki, qapalı sərhədlər, tikanlı məftillər arasında millət inkişaf edə bilməz. Nə qədər inkişaf etdirirsən etdir, əgər sərhədlər qapalıdırsa, bu dünya sivilizasiyasından təcrid olunmaqdır. İnteqrasiya çox vacib məsələdir. Eyni zamanda, bunun o biri tərəfi də var. Kənara getmirəm, elə Türkiyəni misal göstərmək istəyirəm. Çünki mənim Türkiyəyə olan məhəbbətim, sevgim, ehtiramım şübhə doğurmur. Hələ 79-cu ildə «Yaxın, Uzaq Türkiyə» kitabını yazmışam, aradan onilliklər keçib, o kitabı mən böyük məmnuniyyətlə bu günün oxucusuna da təqdim edirəm, yəni mənim Türkiyəyə məhəbbətim sual işarəsi altında deyil. Amma bax, Türkiyə ilə sərhədlər götürüldü. 79-cu ildə mən Türkiyədən ilk səfərimdən qayıdanda (Əziz Nesin dəvətçisi olaraq getmişdim ora), Əziz Nesin, Dəmirtac Ceyhun, Arif Kəsginər. Türkiyənin görkəmli sənət adamları məni yola salırdı. Hava limanında elə bir hiss keçirirdim ki, üstündən az qala, az qala yox, doğrudan da 25 il keçib, amma yenə də o hiss mənimlədi və o hiss yenə də məni riqqətə gətirir. Fikirləşdim ki, ilahi, bir də görəsən, mənə qismət olacaqmı ömrümün axırına qədər ikinci dəfə İstanbula gəlim. Yəni o dövrdən çıxdıq, biz, başa düşürsən sərhədlər açıldı. Amma nə baş verdi, xüsusilə, 90-cı illərin əvvəllərində. Təsadüfi adamlar

Azərbaycana gəldi, Azərbaycandan da təsadüfi adamlar Türkiyəyə getdi. Azərbaycanda özünüifadə eləyə bilməyən şairlər, nasirlər, dırnaqarası elm adamları, orda – Türkiyədə müvafiq adamlarla əlaqə yaradıb Azərbaycanı təmsil elədilər. Eyni şeylər Türkiyədə də oldu. Türkiyədə bir şair kimi tanınmayan, özünüifadə eləyə bilməyən, millətin tanımadığı cızma-qaraçı gəldi Azərbaycanda Türkiyənin adından danışdı. Və yaxud da ticarət sahəsində, məsəlçün, mən o qədər adamlar tanıyıram ki, İstanbulda özünə bir köşk aça bilmirdi, amma gəlib burda fabrik açmaq istəyirdi. Bilirsən, sərhədlərin açılmağından, insanların hələ dünyanı qavramamağından istifadə eliyirdilər, bunun da altını biz çəkirdik. Türkiyənin gözəl mədəniyyəti var, gözəl aşıqları var, ifaçıları var, amma bununla bərabər Türkiyənin çox səviyyəsiz musiqisi də var və bizim estrada musiqisinin gəlib bu səviyyəyə düşməsində bunun mənfi təsiri olmuşdur. Bu cür misalları çox çəkmək olar. Ona görə çox ehtiyatlı olmalıyıq, özümüzü qorumalıyıq, uymamalıyıq, həm də milli dəyərlərimizi, mənəvi dəyərlərimizi qorumağı bacarmalıyıq və mən elə bilirəm ki, bu istiqamətdə iş gedir.

– Kapitalist münasibətlərinin tam hökmran olacağına zərrə şübhə yeri qalmadığı, məhz vəsait hesabına nüfuzların yeniləşdiyi bir zamanda, «dünyanı mədəniyyət xilas edəcək» fikrinə necə baxırsınız?

– Əgər belə demək olarsa, bir canlı varlıq kimi götürsək yer kürəsinin alnında hifz olunmaq yazısı varsa Allahın əli ilə olacaq. Sən təsəvvür elə, mədəniyyət bütün ömrü, tarixi boyu ədəbiyyatda, o cümlədən, Xeyirlə Şərin mübarizəsində iştirak edib, həmişə də Xeyirin müttəfiqi olub. Dünyada Xeyirin sənətdən, ədəbiyyatdan böyük hamisi olmayıb və əgər dünyanı mədəniyyət xilas edəcəkdisə, onda gərək indiyə qədər Şər məğlub olaydı. Mənə elə gəlir ki, «dünyanı mədəniyyət xilas edəcək» kəlamında mədəniyyətə çox böyük ehtiram var, çox böyük məhəbbət var və insanların mədəniyyəti qiymətləndirmək cəhdi var. Amma bütün ümidləri ona dikmək cəhdi ki, «mədəniyyət dünyanı xilas edəcək», bu, bir az mənə elə gəlir ki, hissə qapılmaqdır.

– Mənəvi, mədəni həyatın humanitar mühitin diqtə etdiyi

ən önəmli məsələlər sırasında daha çox nələri qeyd edərdiniz, onların daha sürətlə reallaşması üçün düşündükləriniz varmı?

– Sən dediyin bu sualın həm gözəgörünən, həm də gözəgörünməyən tərəfi var. Amma bizim bütün sahələrdə olduğu kimi humanitar sahədə də, yəni ədəbiyyat, təhsil, səhiyyə sahəsində görünən və görünməyənlə bərabər böyük bir dərd var, qayğı var, o da Qarabağ məsələsidir. Bu da qaçqınlar məsələsidi, başa düşürsən? Bir milyon qaçqını olmaq nə deməkdir? 8 milyon əhalisi olan ölkənin bir milyon qaşqını varsa, bu o deməkdir ki, hər 7 nəfərdən, 8 nəfərdən biri qaçqındır. Bu dünyada analoqu olmayan bir şeydir və bu qaçqınların daxilində sənin verdiyin sualın cavabının keyfiyyətini dəyişir. Ona görə, əlbəttə, nə gözəl olardı ki, mən sənin sualının cavabında deyim ki, 5 dənə bütün dünya standartlarına cavab verən ali məktəb açaq, universitet açaq və sair və ilaxır. Mən onları deyə bilmirəm. Niyə deyə bilmirəm? Çünki sənin 1 milyon qaçqının var və bu 1 milyon qaçqının mədəniyyətdən uzaq düşməməyinin keşiyində dayanmaq, bu problemlərin və bu məsələlərin hamısıynan məşğul olmağa qoymur və ən əsas məsələ bu saat ondadır ki, bu bir milyon qaçqın Azərbaycanın əldə etdiyi nailiyyətlərdən, mədəni nailiyyətlərdən kənarda qalmasın....

– Problemə müəyyən qədər aydınlıq gətirdik. Sonda, fürsətdən istifadə edib yazıçı Elçinə də sual ünvanlamaq istərdim. Son illərdə yaratdığınız gözəl əsərlər (xüsusilə, pyeslər, tənqidi-nəzəri məqalələr və «Bayraqdar» povesti) göstərdi ki yazmaqdan yorulmamısınız. Bəs vəzifədən necə?

– Bilirsən, Vaqif, bu sualı mənə həmişə verirlər. Əlbəttə, yazıçının ən böyük vəzifəsi onun yazıçılığıdır. Rəhmətlik İlyas Əfəndiyevin ən sevimli iş kabineti ömrü boyu olub onun evdəki iş otağı. Bu əlbəttə yazıçı üçün ideal bir variantdır ki, yazıçı oturub yazıçılığı ilə məşğul olsun. Amma tale elə gətirib ki, mən lap cavan yaşlarımdan ictimai həyatın içində olmuşam və yazıçılıqla bərabər ictimai işlərdə də fəaliyyət göstərmişəm. Bu taledi. Amma mən hansı vəzifədə oluramsa - olum, ilk növbədə yazıçıyam.

– Elçin müəllim, sonda qəzetimizin təsisçisi olan «Ümid yeri» qeyri-hökumət təşkilatı barədə qısa bilgi vermək istərdim.

«Ümid yeri» mənəvi, psixoloji, maddi üzüntülərin acı təsiririndən əziyyət çəkən uşaqları müdafiə edir. Onları küçədən, həyatın dibindən, çirkabdan,əyri yollardan, sonu puç olan dəhşətli həyatın pəncəsindən qoparıb əyninə paltar, qarnına çörək verir, su verir, yataq verir.

– Mən sizin «Ümid yeri»nin gördüyü xeyirxah əməli çox yüksək qiymətləndirirəm, təşkilata və onun təsis etdiyi qəzetə uğurlar diləyirəm.

*Söhbəti Vaqif Bəhmənli yazdı,*
*8 dekabr 2004.*

## MÜNDƏRİCAT

Məsuliyyət hissi. Prinsipial və obyektiv ............................................ 5
Ədəbi tənqidin səviyyəsini qaldıraq.....................................................8
Azərbaycan yazıçısına mükafat .......................................................13
E l ç i n: «Bir parça gün işığı» ..........................................................16
«Yazmaq yazıçının özünüifadəsidir» .................................................20
Məsuliyyət ........................................................................................25
«Vətən»: qarşılıqlı anlaşma və etimad körpüləri ................................28
E l ç i n: «Vətən övladlarını unutmur».................................................31
«Əzizim, vətən yaxşı...» .....................................................................39
Bizə birlik gərəkdir.............................................................................45
Vətən haradan başlayır... ...................................................................52
Dünyanın min rəngi ...........................................................................57
Beyinə qida, gözə nur, dizə qüvvət ....................................................64
«Qarabağ» xalqın səsidir ...................................................................68
Əhəmiyyətli bir hadisə .......................................................................72
«Dünya - siyasət meydanıdır» ...........................................................74
«Azərbaycan» jurnalının sorğusu ......................................................80
Yeni il anketi.......................................................................................84
E l ç i n: «Ən böyük müttəfiqimiz həqiqətdir!» ..................................87
E l ç i n: «Bayrağımızı birgə qaldırmalıyıq» .......................................91
E l ç i n: «Şükürlər olsun ki, sərhədlər zəifləyib...» ............................95
E l ç i n: «Millətin qılıncı iş görən zaman, sazı, sözü də susmamalıdır» .........................................................................105
İstiqlalımız uğrunda .........................................................................109
Tarixin dərsləri və ya milli faciəmizlə üz-üzə.....................................115
«O külək bir də əsəcək»...................................................................128
«Ah, Paris, Paris!..» .........................................................................143
«Həqiqət sonra məlum olacaq...».....................................................151
Dünya tanısın Azərbaycanı...............................................................157
E l ç i n: «Qiyməti tarix verəcək...»....................................................166
Yeni təyinatlar:
«Dünya sivilizasiyasında Azərbaycanın yerini mədəniyyətimiz müəyyənləşdirəcək» ............................................172
Azərbaycan həqiqətini dünyaya çatdıra bilsək. ................................174
Elçin və İlyas Əfəndiyev ..................................................................179
E l ç i n: Komediya və dramların kəsişdiyi yerdə ..............................188

«Bu gün mədəniyyətimizin taleyi yalnız mədəniyyət xadimlərindən asılı deyil...» ....195
Sənətə qiyməti xalq verməlidir ....198
E l ç i n: «Bu gün vəzifədə olmaq – işləmək, işləmək və yenə də işləmək deməkdir» ....201
E l ç i n: «Mən o tərbiyənin, o əxlaqın yiyəsi deyiləm» ....207
Bakıda Şimal küləyi əsirdi... ....213
E l ç i n: Ədəbiyyat sərbəstliyin, qəlibsizliyin ifadəsidir ....217
İslam sivilizasiyası bəşər mədəniyyətinin tərkib hissəsidir ....222
E l ç i n: «Bu gün də «altmışıncılar»ı birləşdirən cəhətlər, onları ayıran cəhətlərdən çoxdu!» ....226
E l ç i n: «Əhli-qələm gərək böhtana yol verməsin, çirkabdan faydalanmasın!» ....233
Elçinlə Elçin və ədəbiyyat barədə söhbət ....239
Elçinin absurdu və gerçəkliyi ....253
«Mən vəzifədən yapışan adam deyiləm» ....256
Vəzifə müvəqqəti bir şeydir... ....266
E l ç i n: «Mən həmişə sözü üzə demişəm» ....271
«Ədəbiyyat üçün qadağan olunmuş mövzu yoxdur» ....277
«Mən ikili həyat yaşayırdım» ....283
Professional tənqidə necə gəldim ....289
XXI əsrdə görüşərik... ....294
«Vilayət Quliyev qeyrətli vətəndaşdır» ....303
Rəsmi ideologiyanın buxovlarını qırdıq ....307
Tariximizin, ədəbiyyatımızın ilk nişanəsi ....322
Dövlət dili ....327
«Son beş ildə XX əsr Azərbaycan ədəbiyyatında hadisə hesab etdiyim bir əsər oxumamışam» ....330
«Vəzifədə olanda iqtidarı tərifləyib, çıxandan sonra söyən adamlardan deyiləm» ....335
O yeri biz tapa bilmərik. ....341
İşgüzar səfər ....348
Mən insanın içərisindəki azadlığın tərəfdarıyam ....350
Yazmaq üçün xüsusi bir şəraitə ehtiyac duymuram ....360
«Birtərəfli kompromis yoxdur, əgər varsa, bu, məğlubiyyətdir» ....364
Nazim Hikmət haqqında ....375

E l ç i n: «Sən demə, təyyarənin səsi dünyanın ən gözəl səsi ola bilərmiş...» ....................................................................378
İlk növbədə doğma dilin təəssübü çəkilməlidir..................................380
E l ç i n: «Yuxu sonsuz ola bilməz...» .................................................388
E l ç i n: «Mən ilk növbədə yazıçıyam...» ........................................396
E l ç i n: «Mənim əsərlərim mənim daxili aləmimin ifadəsidir...»......406
E l ç i n: «Bizim ədəbi prosesdə lümpençilik yaranıb... Dəhşət budur!» ......................................................................411
E l ç i n: «Yazıçılar Birliyinə hörmətlə yanaşmaq lazımdır» .............430
«Sara xatun» jurnalının sorğusu .......................................................440
E l ç i n: «Yazıçıların qurultayı ədəbiyyatımıza və ədəbi prosesə sahib çıxmalıdır».........................................................................441
Elçin «Xəzər»in suallarına cavab verir ...............................................457
E l ç i n: «Tarixə böhtan atmaq və xalqı təhqir etmək olmaz!» ..........461
Söhbət ...................................................................................................464

ELÇİN İLYAS oğlu ƏFƏNDİYEV

**«SEÇİLMİŞ ƏSƏRLƏRİ»**
*(10 cilddə)*
10-cu cild

NƏŞRİYYAT REDAKTORU
*Akif Dənzizadə,*
RƏSSAMI
*İlqar Tofiqoğlu*
BƏDİİ REDAKTORU
*İlham Niftəliyev,*
KORREKTORLARI
*Fəridə Ələsgərli,*
*Gülarə Qədirli,*
OPERATORU
*Ramilə Əliyeva,*
ÇAPA MƏSUL
*Sərraf Mürsəlov,*
*Anar Abdullayev,*
*Azər Yunusov.*

*Çapa imzalanmış 03.08.2005,*
*formatı 60x90 1/16,*
*29,5 çap vərəqi*
*ofset kağızı №1, tayms qarnituru,*
*sifariş 01/10,*
*sayı 1000.*

*Kitab*
✉ ***«ÇİNAR-ÇAP»***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
☎ *Tel.: 4989555, 4937255, 4902757*